
Buxari və Müslimin səhihlərinə bir baxış



Ayətullah Məhəmməd Sadiq Nəcmi
Mütərcim: Rəşad Vahid oğlu Əkbərov

بسم الله الرحمن الرحيم

BUXARİ VƏ MÜSLİMİN SƏHİHLƏRİNƏ BİR BAXIŞ

:Müəllif

Ayətullah Məhəməd Sadiq Nəcmi

:Çap nəşriyyat

əl–Mustafa (s) Beynəlxalq Tərcümə və Nəşr mərkəzi

:Digital nəşriyyat

İsfəhan Qaimiyyə adına komputer araşdırmalar mərkəzi

Mündəricat

BUXARİ VƏ MÜSLİMİN SƏHİHLƏRİNƏ BİR BAXIŞ

KİTAB HAQQINDA

Kitabın adı: Buxari və Müslümün səhihlərinə bir baxış

Müəllif: Ayətullah Məhəməd Sadiq Nəcmi

Mütərcim: Rəşad Vahid oğlu Əkbərov

KORREKTOR: Subhan Pərhrizkar

NAşIR: Beynəlxalq əl-Müstəfa (s) Nəşr və tərcümə Mərkəzi

Çap növbəsi: Birinci

ISBN: ۹۷۸-۹۶۴-۱۹۵-۳۲۱-۰

Çap tarixi: ۲۰۱۱

Tiraj: ۱۰۰۰

:İNVAN

İran, Qum, Şühəda meydanı, Höccətiyyə prospekti, Höccətiyyə mədrəsəsinin qarşısı, .Beynəlxalq əl-Mustəfa (s) Universitetinin nəşriyyatı

Tel/faks: +۹۸ ۲۵۱ ۷۷۳۰۵۱۷

İran, Qum, Mühəmməd Əmin prospekti, Elmlər Universitetinin nəzdi, Beynəlxalq əl-Mustəfa (s) Universitetinin nəşriyyatı. Tel/Faks: +۹۸۲۵۱ ۲۱۳۳۱۰۶ / +۹۸۲۵۱ ۲۱۳۳۱۴۶

www.miup.ir, www.eshop.miup.ir

E-mail: admin@miup.ir, root@miup.ir

بسم الله الرحمن الرحيم

BİSMİLLAHİR-RƏHMANİR-RƏHİM

Tədqiqat Şöbəsi

səh:۲

Buxari və Müslimin səhihlərinə bir baxış

Ayətullah Məhəmməd Sadiq Nəcmi

:Mütərcim

Rəşad Vahid oğlu Əkbərov

səh:۳

NAŞİRDƏN

Hər bir tədqiqatın əvvəli və sonu tədqiqatçı insan zehnində yaranmış suala cavab_ tapmaq yolunda inkişafın bir mərhələsi sayılır, həmçinin, bu gedişat elm və bilik olan _.tədqiqat nəticəsinin əldə edilməsi ilə sona çatır

Əlbəttə, bu sonluq yeni bir başlanğıc üçün müjdə verir. Çünki hər bir tədqiqat yeni iş,_ _.inkişaf təravət və bərəkət, həmçinin, yeni sualların meydana çıxması ilə nəticələnir

Tədqiqat əsnasında qarşıya çıxan suallar zaman ehtiyaclarının tənasübü və_ _.tədqiqatçıların bacarığı ilə inkişaf edir və bəşər mədəniyyətini hərəkətə vadar edir

Elm və texnikanın inkişafı nəticəsində sualların tez bir zamanda dünyanın müxtəlif_ yerlərinə çatması və sürətlərin azalması prosesi yeni bir mədəniyyəti ərməğan gətirir. Buna görə də, şübhəsiz bu proses barədə mükəmməl agahlıq və düzgün müdiriyyət _.bu yolda inkaredilməz təsirə malikdir

Beynəlxalq əl-Mustafa (s) Universiteti elmi hövzələrdə malik olduğu xüsusi vəzifəsi,_ habelə insanların müxtəlifliyinə əsasən, tədqiqat sahəsində münasib şəraiti yaratmağı _.özünə vəzifə bilir

Bu sahədə münbit şərait yaratmaq, imkanlardan münasib tərzdə istifadə etmək,_ həmçinin, din sahəsində tədqiqatçı alimlərdən himayə etmək Beynəlxalq əl-Mustafa _(s) Universitetinin Tədqiqat

.müavinliyinin əsas və önəmli vəzifələrindən sayılır

Bu qəbil elmi hərəkətlər və mövcud vəziyyətin möhkəmləndirilməsi ilə dünyanın hər_ _.bir yerində dini mədəniyyətin inkişafı və yayılması ilə nəticələnməsinə ümid edirik

BEYNəLXALQ əL-MUSTAFA (S) NəşR Və TəRCüMə MəRKəZI

MÜNDƏRİCAT

[Tövhid barədə şiə hədislərindən bir neçə nümunə. ۲۴۲ [۴۵

səh:۱۰

Ayətullah Məhəmməd Sadiq Nəcminin həyati

İşarə

Ayətullah Məhəmməd Sadiq Nəcmi ۱۳۱۵-ci şəmsi ilində Horis kəndində dünyaya göz açmışdır. Atası Hacı Mirzə Əhməd ağa Horisi və onun babaları camaat arasında sayılan ruhani alimlərdən olmuşlar. Anası, "Kuh kəmər" vilayətinin seyyidlərindən olan Həzrət .Ayətullah Əl-uzma Höccətin əmisi Hacı Miri Ağanın qızıdır

Ayətullah Məhəmməd Sadiq Nəcmi ibtidai-orta dini təhsili atasından öyrəndikdən sonra on beş yaşında, Təbriz şəhərinin "Talibiyyə" mədrəsəsinə daxil olmuşdur. Bir ildən sonra ۱۳۳۲-ci şəmsi ilinin yay fəslinin axırlarında təhsilini davam etdirmək üçün "Qum" şəhərinin "Feyziyyə" mədrəsəsinə qəbul olmuş və bundan sonra bu şəhərdə yaşamağa başlamışdır. O, Qum şəhərində ۳۰ illik yaşadığı dövrdə Ayətullah Meşkini, Ayətullah Sultani Təbatəbai, Ayətullah Əllamə Təbatəbai, Ayətullah Gülpayqani, Ayətullah Həsənzadə Amoli, Ayətullah imam Xomeyni (rəhmətullahi ələyh) və s. kimi .böyük və tanınmış şəxsiyyətlərdən dərs almışdır

Ayətullah Məhəmməd Sadiq Nəcmi ildə bir neçə ay Məşhəd şəhərinə səfər etmiş və oranın alimlərindən bəhrələnmişdir. Bu şəhərdə ikən Ayətullah Milani onun üçün elm və əxlaq baxımından nümunə sayılmışdır. Uzun müddət apardığı

mütaliərindən sonra “Səhiheynə bir baxış” adlı kitabının müqəddiməsini səkkizinci .imam Həzrət Əli ibn Musa Ər-Rzanın (ə) qəbrinin kənarında yazmağa başlamışdır

Ayətullah Məhəmməd Sadiq Nəcminin əhli-sünnə mənbələrində apardığı araşdırmalar onun “Səhihi-Buxari” və “Səhihi-Müslim” kitablarından götürdüyü bir çox qeydlərin toplanılmasına səbəb oldu. Onun doğma kəndində Ayətullah Əmini ilə görüşü bir çox suallara cavab tapmaq üçün münasib fürsət idi. Ayətullah Əllamə Əmini Məhəmməd Sadiq Nəcminin pərakəndə şəkildə topladığı qeydləri görəndən sonra onu həmin mövzuda kitab yazmağa həvəsləndirdi. Əllamə Əmininin göstərişləri “Səhiheynə bir baxış” adlı kitabın yazılmasına səbəb oldu. Bu kitab yazılandan sonra ۱۳۵۳-cü şəmsi ilində bir çox böyük alimlər Ayətullah Məhəmməd Sadiq Nəcminin bu işini yüksək qiymətləndirib ona təşəkkür etmişlər. Belə alimlərdən biri də Ayətullah Əllamə .Əsgəridir

Qeyd etmək lazımdır ki, Ayətullah Məhəmməd Sadiq Nəcmi Əllamə Əsgərinin “Əbdullah ibn Səba”, “Aişə Əlinin (ə) dövründə” adlı kitablarını ərəb dilindən fars dilinə .tərcümə etmişdir

İran İslam inqilabından sonra ۱۳۵۷-ci şəmsi ilində Ayətullah Nəcmi İmam Xomeyni (rəhmətullahi ələyh) tərəfindən “Xoy” vilayətinin imam-cüməsi təyin edildi. Bu müddət ərzində imam-cümə vəzifəsində çalışmasına baxmayaraq Ayətullah Nəcmi Xoy vilayətində Azad İslam Universitetini təsis etdi. Hal-hazırda da bu universitet İran İslam Respublikasının seçilmiş elm ocaqlarından biri sayılır. Bütün bunlara baxmayaraq, Ayətullah Məhəmməd Sadiq Nəcmi öz elmi araşdırmalarını dayandırmamışdır. O, bu müddət ərzində “İmam Hüseynin (ə) Mədinədən Kərbəlaya kimi söhbətləri”, “Bir elmi mübahisə”, “İmamların Bəqidə olan qəbirlərinin

.tarixi" adlı kitablarını yazmışdır

Ayətullah Məhəmməd Sadiq Nəcminin qələmə aldığı və tərcümə etdiyi kitablar :aşağıdakılardan ibarətdir

;Həcc və ziyarətə aid məsələlər .١

;Vəhhabiliklə tanışlıq .٢

;Quran tarixi .٣

;Hədis tarixi .۴

;Quranla tanışlıq .۵

;Aişə Həzrət Əlinin (ə) dövründə .۶

;(Abdullah ibn Səba kitabının tərcüməsi (٢-٣-cü cildlər .٧

;(Quranın ümumi məsələlərdə və müxtəlif elmlərdə bəyanları (١-٢-ci cild .٨

səh:١٩

Ön Söz

Həmd və səna olsun uca Allaha ki bəndələrinə sonsuz nemətlər bəxş etmişdir. Allahın salavat və salamı olsun Peyğəmbərimiz Həzrət Məhəmmədə (s) , onun Əhli-beytinə və .onlara iman gətirib, kömək edən səhabələrə

!Hörmətli oxucular

Qarşınızda olan "Buxari və Müslimün səhihlərinə bir baxış" adlı bu kitab ۳۰ ildən çoxdur ki, yazılmışdır. Bu kitabın ikinci cildi İran İslam inqilabı ilə bir vaxta təsadüf edir. Təzə qurulmuş bu hökumətdə, İslam inqilabının çiçəklənməsi əhəmiyyət kəsb etdiyi üçün, üzərimizə qoyulmuş iyirmi illik imam-cüməlik vəzifəsi, bu kitabın üçüncü cildinin yazılmasını müvəqqəti olaraq təxirə saldı. Lakin, bu illər ərzində bu kitab üç dəfə .müxtəlif dillərə tərcümə olunmuşdur

Birinci tərcümə ۱۹۸۷-ci ildə "Təəmmulatun fis-səhiheyn" adı ilə Beyrut şəhərində ərəb dilinə, ikinci tərcümə ۱۹۹۸-ci ildə "Əzvaun ələs-səhiheyn" adı ilə İranda ərəb dilinə, üçüncü tərcümə son illərdə (۲۰۰۵-ci ildə) Ordu dilinə "Səhiheyn kaik mütaliə" İranda çap .olunmuşdur

Qarşınızda olan bu kitabın ۱-ci cildi Allahın lütfü ilə İmam Xomeyni mədrəsəsinin azəri tələbələrindən biri olan

Rəşad Vahid oğlu Əkbərov tərəfindən Azərbaycan dilinə tərcümə olunmuşdur. Allah-təaladan arzu edirik ki, onun elm aləminə etdiyi xidməti qəbul olunsun, Rəbbimiz bu kitabın ikinci cildinin də tərcümə olmasında ona yardım etsin. Ona elm və təhsildə .müvəffəqiyyətlər və apardığı təhqiqat işlərində uğurlar arzulayırıq

”Qum Elmiyyə Hövzəsi“

Ayətullah Məhəmməd Sadiq Nəcmi

.ci şəmsi ilinin dey ayı – ۲۰۰۷-cı miladi ilinin yanvar ayı-۱۳۸۵

{وَمَا مُحَمَّدٌ إِلاَّ رَسُولٌ قَدْ خَلَتْ مِن قَبْلِهِ الرُّسُلُ أَفَإِن مَّاتَ أَوْ قُتِلَ انقَلَبْتُمْ عَلَى أَعْقَابِكُمْ وَمَن يَنقَلِبْ عَلَى عَقِبَيْهِ فَلَن يَضُرَّ اللّهَ شَيْئًا وَسَيَجْزِي اللّهُ الشَّاكِرِينَ}

Məhəmməd ancaq bir peyğəmbərdir. Ondan əvvəl də peyğəmbərlər gəlib-“_ getmişlər. Əgər o ölsə və ya öldürülsə, siz gerimi dönəcəksiniz? (Dininizdən dönəcək və ya döyüşdən qaçacaqsınız?) Halbuki geri dönən şəxs Allaha heç bir Zər`ər ”.yetirməz. Lakin Allah şükür edənlərə mükafat verər

(١)_

{وَمَا آتَاكُمُ الرَّسُولُ فَخُذُوهُ وَمَا نَهَاكُمْ عَنْهُ فَانتَهُوا}

_ ”.Peyğəmbər sizə nə verirsə, onu götürün; nəyi qadağan edirsə, ondan əl çəkin“_

(٢)

{وَمَا يَنطِقُ عَنِ الْهَوَى إِنْ هُوَ إِلَّا وَحْيٌ يُوحَى}

O, kefi istəyəni (havadan) danışmır. Bu, ancaq (Allah dərgahından) nazil olan bir_ (vəhydir. _(٣

İslam Peyğəmbəri Həzrət Məhəmməd (s) vəfat etdiyi zaman öz ümmətinin arasında iki böyük və çiyin sındıran, ağır yük, əmanət qoymuşdur. Onlardan birincisi – Quran (Allahın

---

.Ali İmran surəsi ١۴۴-cü ayə . [١] -١

.Həşr surəsi ayə-٧ . [٢] -٢

.Nəcm surəsi ayə-٣ və ۴ . [٣] -٣

müqəddəs kitabı) və ikincisi isə - Əhli-beyt (əleyhumus-səlam) (Peyğəmbərimizin (s) övladlarıdır.) Öz ümmətinə əmr etmişdir ki, onlara itaət etsinlər və heç vaxt onlardan (ayrılmasınlar.(۱)

İslam Peyğəmbəri (s) öz həyatı zamanı Qurani-Kərimin həqiqətini, onun düyünlü və ağır olan mətləblərini ümmətinə çatdırmaq vəzifəsini öz öhdəsinə götürmüşdür. Buna görə də Qurani-Kərimin ağır və düyünlü mətləbləri hədis şəklində açıqlanmışdır. Bütün İslam elmlərini - əqidələr, maarif və əhkam – öz ümmətinə və ardıcıllarına müxtəlif yollarla başa salmışdır. Həzrət Məhəmməd (s) hədis söyləmək barədə belə buyurur: “Allah mənim sözlərimi eşidən, başa düşən və başqalarına çatdıran bəndəni sevindirsin. Nə çoxdur o kəslər ki elmi özlərindən savadlılara və başa düşənlərə nəql (edirlər”.(۲)

İndi isə İslam ümmətinin Peyğəmbərin (s) vəfatından sonra Quran və Əhli-beytlə (əleyhumus-səlam) necə rəftar etdiklərinə, o Həzrətin buyurduğu hədislər qarşısında .törətdikləri cinayətlərə diqqət yetirək

Onlar Peyğəmbər ailəsini (səlamullahi əleyhim əcməin) cəmiyyət arasından uzaqlaşdıraraq ev dustağı etmişlər. Onlarla etdikləri bu rəftarı açıqlamağa insan dili (acizdir.(۳)

Müraciət edin: Musnədi Əhməd ibn Hənbəl ۳-cü cild; s - ۹,۱۴,۱۶,۱۷,۲۶ və ۵-ci cild; . [۱] -۱ .səh. ۱۸۲. Səhihi Məhəmməd ibn Termizi “Fəzilətlər” mövzusu

Həmin mənbə ۱-ci cild,/səh. ۱۴ və ۱۲۵ “Elmin fəzilətləri” mövzusu,. [۲] -۲ “Peyğəmbərdən hədislərin çatdırılması + Əllamə Məhəmməd Baqir Məclisi- “Biharul .Ənvar” ۱-ci cild,/səh. ۱۰۹-۱۱۲

Daha yaxşı olar ki, o dövrün ağır vəziyyətini iki böyük və şəxsiyyətli . [۳] -۳ səhabələrdən sayılan Salman Farsi və Əbuzər Qəffarinin dilindən eşidək. Salman Farsi deyir:-“Ləyaqətsiz əməlinizin nəticəsində (xilafəti qəsb etmək) heyrətə düşdünüz və hidayət mənbəyindən uzaqlaşdınız.” – İbn Əbil Hədid- “Nəhcül-bəlağənin şərhi”, Qahirə çapı, Məhəmməd Əbul Fəzl İbrahimin yazısı ۲-ci cild;/səh. ۴۶ və ۶-cı cild,/ səh. ۱۷

Yenə də belə buyurmuşdur:- “Xilafəti qəsb etməklə pis iş gördünüz. Əgər bunlar Əlilə (ə) beyət etsəydilər, yerin və göyün nemətləri içində həmişə qərq olardılar. Əbuzər deyir:-“Əgər Allah üstün tutduğu şəxsi üstün tutub, kənara qoyduğu şəxsi kənara qoysaydınız və Peyğəmbərin (s) ailəsinin vilayətə daha layiqli olmasını etiraf etsəydiniz, həmişə Allahın nemətləri içində qərq olardınız. Lakin indi ..... Belə etdiniz, öz əməllərinizin nəticəsini dadın. وسيعلم الذين ظلموا اى منقلب ينقلبون

İslamın həqiqi və düzgün qoruyucularını müxtəlif hiylələrlə cəmiyyətdən uzaqlaşdırmaqla xilafəti ələ keçirdilər, Quranla onun mənalarını açıqlayan hədislər arasında ayrılıq salmaq və Allahın kitabını öz istəkləri üzərində təfsir etməklə .mənalarını dəyişmək imkanını əldə etdilər

Peyğəmbər (s) sünnəsi" adlanan İslam rəhbərinin buyurduğu bu hədislər, xəlifələrin" irəli sürdükləri siyasətlərin yolu üzərində olan birinci maneə idi. Daha doğrusu "sünnə", müxalif qüvvələrin apardığı siyasi müharibənin qalibi sayılırdı. Buna görə də hakimiyyəti ələ keçirənlər birinci çıxış yolunu bu ağır siyasi müharibədə güclü olan .müxaliflərini tərki-silah etməkdə gördülər

Əvvəlcə Əbu Bəkr bu silahı özününkiləşdirdi. Bu yolla Peyğəmbərdən (s) buyurulan ۵۰۰ hədisi yığıb topladı. Lakin, bir müddətdən sonra bu hədislərdən faydalanmayacağını başa düşdü. Çünki, bu hədisləri özününkiləşdirməsi mümkün deyildir. Nəticədə bütün (toplanılmış hədisləri oda ataraq yandırdı.(۱

Şübhəsiz ki, o vaxt heç bir kəsi hədis yazmaqdan və söyləməkdən çəkindirmək mümkün deyildi. O cümlədən, ancaq Əbu Bəkrin yığdığı hədislərdən istifadə etməyi də heç kəsə məcbur etmək mümkün deyildi. Buna görə də çarənin Peyğəmbərin (s) hədislərinin nəql olunması və yazılmasının mütləq şəkildə qadağan edilməsində gördü (ki, camaatın əli bu güclü silaha çatmasın. Buna görə də xəlifə, Peyğəmbərin (s

---

.Şəmsəddin Zəhəbi -"Təzkirətul-hifaz" kitabı ۱-ci cild,/səh. ۵ . [۱]-۱

hədislərini nəql etməyi müsəlmanlara qadağan etdi və əmr etdi: “Peyğəmbərdən hədis nəql etməyin və Qurana məşğul olun.”(١)

Bəli, təkcə Qurana! Çünki, Qurani-Kərimi Peyğəmbərin (s) hədisləri olmadan istənilən şəkildə məna etmək olar.

Əbu Bəkr vəfat edərək öz vəsiyyətnaməsində xilafəti Ömərə verdi.(٢) Təbiidir ki, bir çox müsəlmanlar xəlifənin əmrindən çıxmadılar. Onlar Peyğəmbərin (s) hədislərini daha yazmadılar.

Ömər də, öz hökuməti dövründə Əbu Bəkrin bu siyasətini daha da şiddətlə davam etdirdi. Bir dəfə öz xilafəti dövründə Peyğəmbərin (s) hədislərinin yazılıb nəql olunması məsələsinin azad şəkildə davam etdirilməsi barədə camaatla məsləhətləşdi. Bu işin müsəlmanlar üçün gərəkli olduğunu elan etdi. Bir ay fikirləşdikdən sonra xüsusi zirəkliyi ilə bu əməlin çıxış yolunu tapdı və camaat arasında elan etdi: “Mən Peyğəmbərin (s) sünnələrini yazmaq istəyirdim. Lakin, keçmiş ümmətləri yada saldım. Onlar bəzi kitabları yazmaqla İlahi kitablardan uzaqlaşdılar. Buna görə də mən heç vaxt Allahın kitabını (Quranı) başqa bir şeylə bir yerdə qarışdırmaram.”(٣)

Ömər, Peyğəmbərin (s) səhabələrini tapşırıq dalınca göndərən zaman onlara hədis söyləməməyə və camaatı Qurandan uzaqlaşdırmamağa əmr edərdi. Onun əmrinə tabe olmayan hər kəsdən xəbər tutardısa, dərhal onu Mədinəyə qaytarıb öz nəzəri altında saxlayardı.(۴) Həmçinin, camaat içində topladığı hədisləri də yandırdı.

Ömərin xilafəti dövrü də belə keçdi. Osman əvvəlcədən

١- [١]. həmin mənbə ١-ci cild, səh. ٧, ٨, ١٣.

٢- [٢]. “Şiqşiqiyyə xütbəsi” “Nəhcül-bəlağə” - Əli ibn Əbu Talib (ə)” مضى الاول لسبيله فادلى بهاالى فلان بعده حتى

٣- [٣]. İbn Katibul Vaqidi-Məhəmməd ibn Səd “Ət-təbəqatul-Kubra” ٣-cü cild, səh. ٢٠۶; İbn Abdul Birr “Cameu bəyanil elmi və fəzlih” ١-ci cild, səh. ۶۴-۶۵.

۴- [۴]. Bu məsələni “Hədisin tarixi” kitabında geniş gətirmişik.

planlaşdırılmış şəkildə xilafətə sahib çıxdı.(١) Osmanın zamanında, xilafət və hökumət hədis nəqlinin əleyhinə daha da amansız oldu. Ömər öz zamanında Peyğəmbərin (s) səhabələrinə əziyyət edib onları Mədinəyə gətirməklə öz nəzarəti altında saxlayırdısa və onların yazdıqları hədisləri yandırırdısa, Osman bu əməlin qarşısını almaq üçün Peyğəmbərin (s) tanınmış səhabələrinə işgəncə verərək, onları sürgün edərdi. Belə ki, Əbuzəri Mədinədən Şam şəhərinə, oradan isə Mədinəyə və Mədinədən isə Rəbəzəyə qızmar və kimsəsiz səhraya sürgün etdi. Bununla da Peyğəmbərin (s) əziz köməkçisi isti səhrada, qürbət yerdə öz canını tapşırdı. Həmçinin Peyğəmbərin (s) başqa səhabəsi sayılan Əmmar Yasiri elə döydürmüşdü ki, vurulan zərbələrin ağrısından (bihuş olaraq yerə yıxılmışdı.(٢

İyirmi beş il üç xəlifənin hökuməti zamanı Peyğəmbərin (s) səhabələri, tabeinlər və başqaları bu acınacaqlı və çətin həyatı yaşadılar. Axırda çarəsiz qalmış bu ümmət qiyam edərək Osmanın xilafətini devirdi və onu öldürdülər. Sonra Əliyə (ə) tərəf üz çevirdilər. Onu çox təkidlə xilafətə gətirdilər.(٣) Əli (ə) hakimiyyətə elə bir zamanda yetişmişdi ki, artıq ٣٠ ildən çox idi ki, müsəlmanlar get-gedə keçmiş xəlifələrin zamanında olan siyasi gedişə adət etmişdilər. Əli (ə) öz zamanının vəziyyətini belə :(açıqlayır(٤

Məndən öncə olan xəlifələr yetərincə Peyğəmbər (s) ilə“ -

səh:٢٧

١- [١] . ”Nəhcül-bəlağə “Şiqşiqiyyə xütbəsi - فسيرهافی حوزه خشناء “Abdullah ibn Səba” kitabında bu hadisəni geniş şəkildə gətirmişik. ١-ci cild, səh. ١۴٢-١۵١, ikinci çapa .müraciət edin

٢- [٢] . Əhməd ibn Yəhya Bilazəri-“İnsabul-əşraf”۵-ci cild; səh. ۴٩.

٣- [٣] . Seyyid Murtəza Əsgəri-“Ummul-möminin Aişənin hədisləri” səh ١١۵.

۴- [۴] . Burada Əlinin (ə) acı və ağır ürək ağrılarını bəyan etdiyi cümlələri sizə yenə söyləyirik. Əlbəttə hərfi tərcümə ilə yox, o Həzrətin buyurduqlarını nəql edərək məna etmişik. Geniş şəkildə *Məhəmməd ibn Yəqub Kuleyni-”Rovzətul Kafi” ٨-ci cild, səh. ۶١-۶٣.

müxalif olan əməlləri yerinə yetirdilər. O Həzrətin əmrini pozaraq sünnəsini dəyişdilər. İndi isə mən camaatı bu işlərdən çəkindirməklə Peyğəmbərin (s) zamanında olduğu kimi yerinə yetirməyə çağırsam, qoşunlarım mənim ətrafımdan dağılacaq, məni tənha və kimsəsiz qoyacaqlar. Ən azı və çoxu öz tərəfdarlarımla, Peyğəmbər sünnəsi və İlahi ".kitab yolu ilə mənim vilayətimi qəbul edənlərlə birgə qalacam

;Nə fikirləşirsiniz? Əgər əmr etsəm ki"

;İbrahimin (ə) məqamını Peyğəmbərin (s) buyurduğu yerə qaytarın

;Fədək bağlarını Fatiməin (s) övladlarına tapşırıram

;Peyğəmbərin (s) bağlanmış əhdi-peyman necə idisə, eləcə yerinə yetirsəm

Peyğəmbər (s) tərəfindən məsləhət üzündən səlahiyyəti olan şəxslərə verilmiş ;torpaqları özlərinə qaytarsam

;Xəlifələrin zülmkarcasına çıxardıqları hökmlərə ədalətlə yenidən baxsam

;Zəkatı onun əsil yerlərindən düzgün ölçüdə alsam

;Dəstəmazı, quslu və namazı əvvəlinci şəkildə yerinə yetirilməsinə əmr etsəm

Öz ərlərindən boşandırılaraq ədalətsizcəsinə başqalarına verilən qadınları öz ərlərinə ;qaytarsam

Təbəqə söhbəti ilə bölünən beytul-malı Peyğəmbərin (s) zamanında olduğu kimi (bərabər bölsəm və təkcə varlılara qismət olmasına icazə verməsəm;(١

Ömər, İslam cəmiyyəti arasında beytul-malı bölüşdürməklə təbəqə söhbəti . [١] -١ yaratmışdır. Buna görə də müsəlmanlar adlarını siyahıya yazdırmışlar. Hər il bir qrup şəxslərə ٥٠٠٠ dirhəm, bir qrupuna ٤٠٠٠ dirhəm, başqa bir qrupa ٣٠٠٠ dirhəm və başqa bir qrupa ٢٠٠٠ dirhəm, o cümlədən təbəqə söhbəti ilə ١٠٠٠-٥٠٠-dən ٢٠٠ dirhəmə kimi maaş verirdi. Bu səbəbdən İslamda bir tərəfdən şərafətli və qüdrətli təbəqələr, başqa

.tərəfdən isə kasıb və fəqir təbəqələr meydana gəlmişdi

(Torpaq maliyyəsini ləğv etsəm;[1]

(Müsəlmanları evlənməkdə bərabər etsəm;[2]

(Xumsu Allah buyurduğu kimi alsam;[3]

Peyğəmbər məscidini əvvəlki vəziyyətinə qaytarsam: O qapılar ki, Peyğəmbərdən (s) sonra məscidə açılmışdı bağlatsam və o qapılar ki Peyğəmbərdən (s) sonra ;bağlatdırılmışdı açdırsam

(Dəridən tikilmiş ayaqqabı, ya çarıqların üzərinə məsh çəkməyi qadağan etsəm;[4]

;Şərab içənə layiq olduğu cəzanı versəm

(Qadınların və Həcc mutəsini Peyğəmbərin (s) zamanında olduğu kimi caiz saysam;[5]

(Meyyit namazının təkbirini beş dəfə etsəm;[6]

(Camaatdan “Bismillah”-ı namazda uca səslə oxumalarını istəsəm;[7]

səh:۲۹

Ömər ibn Xəttab İraqda torpaq maliyyəsini Sasani İran maliyyəsinin qanunları . [۱] -۱ .kimi, Misirdə isə Rum imperiyasının maliyyə qanunlarının əsası kimi düzəltmişdir

.Ömər, əcəmilərlə ərəb qızlarının evlənməsini qadağan etmişdir . [۲] -۲

Xəlifələr Peyğəmbərdən (s) sonara “Zəvil-qurba”- nın haqqını xumsdan ləğv . [۳] -۳ .etdilər

Xəff” heyvan dərisindən hazırlanmış ayaqqabı ya çarığa deyilir. Əhli-sünnə öz“ . [۴] -۴ əsillərindən itaət edərək dəstəmazda ayağı yumağı vacib, lakin dəri çarıqda olarsa .ona məsh etməyi caiz bilirlər

Xəlifə Ömər, iki mutəni haram etdi. Həcc mutəsi - Hacılar ümrə həccini yerinə . [۵] -۵ yetirdikdən sonra ehram halından çıxıb sonar ikinci dəfə həcc üçün ehram bağlayırlar. Bu İslamın əmri idi. Lakin Ömər əmr etdi ki, həcc əməllərinin axırına kimi ümrə ehramında qalsınlar. Qadınların mutəsi - Həmin müvəqqəti nigahdır ki, Quranın .ayələrinə və əhli-sünnənin rəvayətlərinə əsasən İslam qanunlarından biri sayılır

Əbu Hüreyrənin rəvayətinə əsasən əhli-sünnə məzhəbi meyyit namazının . [۶] -۶ təkbirini dörd dəfə deyirlər. Müraciət edin:- İbn Ruşd Əndəlusi-“Bidayətul muctəhid” ۱-.ci cild, səh-۲۴۰

Əhli-sünnə məzhəbinin bir qrupu namaz vaxtı Həmd və Surədə “Bismillah”-ı . [۷] -۷ oxumurlar. Zahirən bu məsələdə onlar Müaviyədən itaət edirlər. Müraciət edin:- “Əl-.Kəşşaf “ təfsir kitabı, həmd və surənin təfsirində ۱-ci cild, səh – ۲۴ - ۲۵

(Təlağı Peyğəmbərin (s) buyurduğu və göstərdiyi kimi yerinə yetirsəm;(١) .١٩

Başqa ümmətlərin müharibə əsirləri ilə Allah və Peyğəmbər (s) buyurduğu kimi .٢٠ (rəftar etsəm;(٢)

Xülasə, əgər camaatı İlahi əmrlərə və Qurani-Kərimin göstərişlərinə rəayət etməyə ".çağırsam, belə halda onlar mənim ətrafımdan dağılacaqlar

And olsun Allaha ! Elə ki, müsəlmanlara Ramazan ayında əmr etdim ki, vacibi" namazlardan savayı başqa namazları camaatla birgə qılmasınlar və dedim ki;- Müstəhəb namazları camaatla qılmaq bidətdir(٣), _qoşunumun_ bir qismi səs-küy salaraq dedilər: واسُنَّة عُمَرَاه !!

Ey müsəlmanlar, Əli istəyir Ömərin sünnəsini dəyişsin. Bizi Ramazan ayında" ".müstəhəb namazlar qılmaqdan saxlasın. İş o yerə çatdı ki, qorxdum qiyam etsinlər

Aman bu ümmətin əlindən, mənimlə müxalifət etmələrindən, yolunu azmış" başçılardan itaət etməklərindən, onları uçuruma aparan başçılardan itaət ".etməklərindən, acılar çəkdim

(İmam (ə) öz işini elə tənzimləmişdi ki, Peyğəmbərin (s

səh:٣٠

Əhli-sünnə qadının üç təlağını bir məclisdə caiz sayırlar. Adil şahid olmadan bu işi . [١] -١ .görmürlər. Müraciət edin:-"Bidayətul - muctəhid" ١-ci cild,səh-٨٠-٨۴

İkinci xəlifə əmr etdi:- Ərəb əsirlərini azad etsinlər. Lakin fars əsirlərini hətta . [٢] -٢ İslam mərkəzi olan Mədinəyə buraxmırdı. Həmçinin onun Peyğəmbər (s) sünnəsi ilə etdiyi müxalifətlərdən biri də bu idi ki, ərəb olmayan qadınların körpələri əgər ərəb torpaqlarından başqa yerlərdə dünyaya gəlsəydilər, onların övladlarına irs vermirdi. .Müraciət edin: -" Əlmuvəttə " kitabı Ənəs ibn Malikin təlifi ١-ci cild, səh -٨٠

.Bidət: İslamda olmayan, sonradan dinə daxil olunmuş yanlış şeylərə deyilir . [٣] -٣

getdiyi yolu davam etdirərək xəlifələrin əksinə davranmışdı. Xüsusən hədis məsələlərində xəlifələrin buraxdığı böyük səhvləri və qoyduqları mənfi təsirləri məhv etmək üçün davamlı mübarizəyə başlamışdır.(١)

Qureyş tayfası öz şəxsi ambisiyalarının ziddinə olan Əlinin (ə) bu işlərini görüb onunla müxalifət etməyə başladılar. Buna görə də "Cəməl" və "Suffeyn" döyüşlərində çoxlu qanlar axıdıldı. Şəxsi mənafelərinin təhlükədə olduğunu gördükdə Əli (ə) ilə öz düşmənliklərini göstərdilər. Bu düşmənlik o qədər uzun sürdü ki, dörd il yarımdan sonra Həzrət Əlini (ə) mehrabda ibadət edərkən şəhid etdilər.

Çox keçmədi ki, Allahın və Peyğəmbərin (s) düşməni olan Müaviyə hiyləgərliklə xilafəti ələ keçirdi. O, Muğeyrə ibn Şöbə ilə söhbətində öz mənfur siyasətini ona belə açıqladı. Muğeyrə demişdi: "Ey Əmirəl-möminin! Indi ki öz arzu və istəklərinə çatdın, bu yaşının çoxluğunda ədalət və mürüvvətə riayət etməkdə sənə mane olan nədir? Ləyaqətli işlər görməklə özündən sonra ad-san qoya bilmərsənmi? And olsun Allaha! Bu gün daha Bəni-Haşimdə sənin qorxundan başqa heç nə qalmayıb. Buna görə də yaxşı olardı onlarla mehriban davranaraq öz qohumluq əlaqəni daha da gücləndirəsən." Müaviyə belə cavab verdi: "Heyhat, heyhat- uzaqdır uzaq!

Əbu Bəkr hakimiyyətə gəldi, ədalətlə iş gördü. Bütün çətinlikləri öhdəsinə götürdü. Lakin, vəfatından neçə gün keçmədi ki, bəzi vaxtlar adı çəkilirdi və ondan heç bir şey qalmadı. Bu vaxt Ömər hakimiyyətə gəldi. Çoxlu zəhmətlər çəkərək on il xilafəti dövründə əziyyətlər gördü. And olsun

---

١- [١] . Peyğəmbərin rəvayətlərini cümə günlərində İslam məscidlərində yenidən söylənilməsinin maneəsiz olduğunu bildirdi. İmkan daxilində xəlifələrin gətirdiyi yanlış və öldürücü bidətləri məhv etdi. Müraciət edin:-"Min tarixul hədis" kitabı.

Allaha ölən kimi adı da öldü. Sonra, hamımızdan üstün olan qardaşımız Osman xilafətə gəldi. Bir çox işlər gördü. Onunla başqalarının etdiyi əməllər də ötüb keçdi. And olsun Allaha ölümündən sonra adı da öldü. Onun yaxşı əməlləri, rəftarı da unuduldu. Lakin, Haşimi olan o kişinin adını(١) hər gün beş dəfə azan vaxtı dünyanın ucqar yerlərində uca səslə səsləndirirlər.(٢) "Şəhadət verirəm ki, həqiqətən Məhəmməd Allahın ".elçisidir

Nə qədər ki bu ad yaşayır, kimin adı yaşayar ey anası ölmüş! Yox and olsun Allaha ! Nə (qədər ki bu adı yer üzündən silməmişəm dincəlməyəcəyəm!(٣

Bu səbəbdən bütün gücünü Peyğəmbərin (s) adının və ailəsinin məhv olması üçün sərf edirdi. Öz hədəfinə çatmaq üçün cürbə-cür hədis uyduran dəsgahları işə saldı. İş o yerə gəlib çıxdı ki, Əbu Hüreyrə ۵۳۰۰-dən çox hədis, Abdullah ibn Ömər ۲۰۰۰-dən çox və Ummul-möminin Aişə, Ənəs ibn Malik hər biri ۲۳۰۰-dən çox yalan və qondarma (hədislər Peyğəmbərə (s) nisbət verdilər.(۴

Adı çəkilən şəxslər və onların başqa həmkarları, hakim təbəqənin razılığını əldə etmək üçün səhabələrin adından uydurulmuş və qondarma hədisləri nəql etməkdə bir–birləri arasında rəqabət aparırdılar. Heç kəs Allahdan başqa bu dövrlərdə Peyğəmbərə (s) nisbət verilən hədislərin aqibətindən xəbərdar deyildir. Bu işin təsiri nəticəsində bütün şeylər İslam qanunlarını qarışdırdı. Nəticədə həqiqi və düzgün İslamı dəyişib, .hakimiyyətdə olanların cinayətlərinə haqq qazandıran İslama çevirdilər

---

..Müaviyə düşmənlikdənPeyğəmbərin (s) adını dilinə gətiməmişdir . [١] -١

.Azanda deyilən "Əşhədu ənnə Məhəmmədən rəsuləllah" kəlməsinə işarə edir . [٢] -٢

Məsudi- "Murucuz-zəhəb" kitabı ٣-cü cild, səh-۴۵۴. Darul Əndəlusi çapı, ٢١٢-ci . [٣] -٣ .hicri ilinin hadisələri. Tərcümədə muxtəsər qeyd olunmuşdur

Əllamə Seyyid Murtəza Əsgəri " Ummul-möminin Aişənin hədisləri" kitabı səh.. [۴] -۴ .٢٨٩-dan sonra. Tehran çapı ١٣٨٠-cı şəmsi ili

Hakimiyyətdə olanlar da ancaq belə bir İslamı rəsmi tanıyırdılar. Birinci iki xəlifənin beyninin məhsulu olan və onlara sərf edən İslam ki, Müaviyənin dövründə daha çox dəyişdirildi, bu günümüzə kimi bir sıra ölkələrdə həqiqi və rəsmi İslam adı ilə qalmaqdadır. İş o yerə çatıb ki, Peyğəmbərin (s) gətirdiyi həqiqi və əsil İslamı, o yanlış İslama öyrəşmiş insanlara təqdim eməkdə çoxlu çətinliklər törədir və onlar üçün .inanılmaz görünür

Müaviyənin zamanında yayılmış və Peyğəmbərin (s) adına yalandan qondarılmış hədislər ilə İslama üz tutub onunla tanış olanlar, məhz bu İslamı həqiqi İslam kimi tanıyırlar. Misal üçün, onlar İslamda olan tövhidə Əbu Hüreyrənin saxtalaşdırdığı .qondarma hədislər gözü ilə baxırlar

Bir qrup şəxs Peyğəmbərə (s) dedi: Ey Allahın rəsulu! Biz Qiyamət günündə öz“ Allahımızı görəcəyikmi? Buyurdu: On dörd gecəlik ayı görməyinizə narahatsınızmı? Dedilər: Xeyr, ey Allahın rəsulu! Buyurdu: Bulud olmayan havada günəşi müşahidə etdikdə əziyyət çəkirsinizmi? Dedilər: Xeyr, ey Allahın rəsulu! Buyurdu: Siz Allahınızı belə şəkildə görəcəksiniz! Qiyamət günündə Allah camaatı bir yerə toplayacaq. Sonra .onları çağırıb belə buyuracaq: Hər kəs pərəstiş etdiyinə tərəf getsin

Günəşə pərəstiş edənlər günəşə tərəf, aya pərəstiş edənlər isə aya tərəf gedərlər. Axırda zülmə pərəstiş edənlər öz məbudlarına tərəf gedərlər. Təkcə arasında münafiq olan bu ümmət qalar. Bu vaxt Allah təala keçmişdə onu tanıdıqları sifətdə onlara yaxınlaşar və deyər: – Mən, sizin Pərvərdigarınızam! Deyərlər: Biz səndən öz Allahımıza pənah aparırıq. Biz Allahımız gəlincəyə qədər burada qalacağıq. O gələndə biz onu .tanıyacağıq

Sonra, Allah onu tanıdıqları surətdə onlara tərəf yaxınlaşar

və deyər: Mən sizin Pərvərdigarınızam! Deyərlər: Bəli, sən bizim Pərvərdigarımızsan. (Sonra onun arxasınca yola düşərlər…”(١

Gördüyünüz kimi bu hədis Allahı tanımağın və İslamda məad bəhsinin əsasını dəyişmişdir. Həmçinin başqa hədislərdə də İslam Peyğəmbərinin asimani simasını başqa cür tanıtdırmışlar. O cümlədən, rəvayət etmişlər ki, Allahın rəsulu öz Allahından belə bir şey istəyibmiş: İlahi, qəzəb üzündən möminlərə etdiyim nifrini dəyişib onların (paklığına və onlar üçün bərəkətə çevir.”(٢

Həmçinin nəql edirlər ki, Peyğəmbər (s) camaata buyurdu: “Xurmanın tozlanmağa ehtiyacı yoxdur” və yaxud “Xurmanı tozlandırmayın, yaxşı olacaq. Camaat da Peyğəmbərin (s) əmrinə itaət edirdilər. Xurmanı tozlandırmadılar. Nəticədə həmin il ağaclar bar vermədi. Peyğəmbər (s) elə ki, öz sözlərini yadına saldı, “Mən belə düşünürdüm, məni qınamayın!” və ya “Siz öz dünyəvi işlərinizdə məndən daha çox (təcrübəlisiniz.” buyururdu!(٣

Məhəmməd ibn İsmail Buxari-“Səhih” kitabında ١-ci cild, “Fəzlus-sucud”. [١] -١ Müslim ibn Həccac السراط جسرجهنم ,mövzusu; ٩-cu cild, Kitabut-tövhid kitabı ٨-ci cild ”Nişapuri “Səhih” kitabında ١-ci cild, “Mərifətu təriqətur-rovyə

Müslim ibn Həccac Nişapuri “səhih” kitabında ۴-cü cild, “Peyğəmbərin lənətlədiyi . [٢] -٢ və qarğış etdiyi şəxslər” mövzusu. Bu mövzuda Aişədən və Əbu Hüreyrədən və başqa səhabələrdən bir neçə hədis yazılmışdır. Müslimün səhihinin axırında Peyğəmbərin (s) Müaviyə barədə - “Allah Müaviyənin qarnını doydurmasın” buyurduğunu söyləmişdir. Buna görə də əhli-sünnənin nəzərincə Əməvilərin hamısına və başqalarına Peyğəmbərin (s) lənət və qarğışı, onların paklanmasına və bərəkətlərinin çoxalmasına ”.səbəb olacaqdır

Həmin mənbə. Vucubu imtisali ma qaləhu şərən dunə ma zəkərəhu (s) min . [٣] -٣ məayişin-nasi əla səbilir-rəyi” Başqa bir kitablarda həmin hədisi Aişədən, Ənəs ibn Malikdən və başqa səhabələrdən nəql etmişlər. Əhli-sünnə bu kimi hədislərdən belə nəticəyə gəlmişdir ki, dünya işlərində Peyğəmbərin (s) əmrləri ilə müxalifət etmək olar. Əlbəttə işin nəticəsi onun hansı bir əmrə və ya dünya işinə aid olmasına bağlılığı var.

.Gərək onu əvvəlcə tanıyaq. Məsələn– Xilafət məsələsi kimi

O cümlədən, rəvayət edirlər ki, “Bir gün Peyğəmbər (s) Məkkə şəhərində “Nəcm” surəsini oxudu. Elə ki,

{وَمَنَاةَ الثَّالِثَةَ الْأُخْرَى أَفَرَأَيْتُمُ اللَّاتَ وَالْعُزَّى}

BIR DEYIN GöRəK (SIZIN IBADəT ETDIYINIZ) LAT Və UZZA, DIGəR üçüNCü (BüT) _OLAN MəNAT DA ALLAHıN QıZLARıDıRLAR ?! _(١)

ayəsini oxuyarkən Şeytan Peyğəmbərin (s) mübarək dilinə bu cümləni gətirdi:

تلك الغرانيق العلى منها الشفاعه ترتجى

“Ağ quşlara bənzəyən bütlərdən şəfaət almaq ümidi gözlənilir”

Elə ki, bu cümlə Peyğəmbərin (s) dilindən çıxdı, müşriklər sevindilər. Onlar deyirdilər ki, Peyğəmbər (s) də bizim bütləri təriflədi. Bu vaxt hamı bir yerdə - müsəlmanlar və müşriklər – səcdə etdilər! Cəbrail (ə) nazil oldu və Peyğəmbəri (s) bu böyük səhvindən agah etdi. Peyğəmbərə (s) belə buyurdu: “Bu cümlələri Şeytan sənin dilinə gətirdi”.

Bəzi rəvayətlərin bir hissəsində belə qeyd olunmuşdur ki, Cəbrail (ə) Peyğəmbərə (s) dedi: -Ayələri təkrar edin. Peyğəmbər (s) ayələri bir-birinin ardınca oxudu. O cümlədən, تلك الغرانيق العلى منهاالفاعه ترتجى cümləsini də qiraət etdi. Cəbrail (ə) dedi: -Xeyr, bu cümləni mən gətirməmişəm. Onu Şeytan sənin dilinə gətirmişdir.(٢)

١- [١] . ١٩-٢٠- Nəcm surəsi ayə.

٢- [٢] . Həcc surəsinin ٥٢-ci ayəsinin təfsirində { وَمَا أَرْسَلْنَا مِن قَبْلِكَ مِن رَّسُولٍ وَلَا نَبِيٍّ إِلَّا إِذَا تَمَنَّى أَلْقَى الشَّيْطَانُ فِى أُمْنِيَّتِهِ فَيَنسَخُ اللَّهُ مَا يُلْقِى الشَّيْطَانُ} “(Ya Rəsulum!) Biz səndən əvvəl də (şəriət sahibi olan) elə bir rəsul, (şəriət sahibi olmayıb onun ardınca gedən) elə bir nəbi (peyğəmbər) göndərmədik ki, o, (hər hansı bir şeyi) arzu etdikdə Şeytan onun arzusuna (diləyinə vəsvəsə yolu ilə) bir xələl qatmasın! (Yaxud o, ayələrimizi oxumaq istədiyi zaman Şeytan onu çaşdırıb oxuduğu ayə barəsində pis bir fikir təlqin etməsin!) Lakin Allah Şeytanın vəsvəsini batil (yox) edər.”; “Əd-durrul-Mənsur” kitabı Süyuti-٤-cü cild, səh-٣٦٦-٣٦٨. Bu məzmunda səhabələrdən on dörd rəvayət nəql olunmuşdur.

Bu rəvayətlər əhli-sünnə məzhəbinin mötəbər və məşhur olan “Təbəri, İbn Kəsir, Süyuti və Seyyid Qutbud-din” kimi alimlərin təfsir kitablarında yazılmışdır. Onlar Peyğəmbərin dilindən o qədər yalan hədislər demişlər ki, Peyğəmbərin (s) o ilahi və gözəl xüsusiyyətləri pərdə arxasında qalmışdır.(۱)

Bütün bunlara baxmayaraq, Qureyş tayfasının böyüklərinə və onların ətrafındakılara yalan fəzilətlər uydurmuşlar. Onlara müxalif və zidd olanları isə töhmət və iftira yağışına tutmuşlar. Bu iş o yerə çatdı ki, Əbuzər Qəffari, Malik Əştər, Əmmar Yasir və s. kimi səhabələri dindən xəbərsiz və aldanılmış kimi qələmə verirdilər.(۲)

Bununla da kifayətlənməyib, Allahın sifətləri, məhşər və Qiyamətin necəliyi, behişt və cəhənnəmin savabı və cəzası, əvvəlki peyğəmbərlərin macərası, İslam əqidələrinin, əhkamının və yaranışın başlanması” barədə bir çox rəvayətlər nəql etmişlər ki, əhli-kitabın xurafi fikirlərindən və özlərinin uydurduqları böhtan, yalan və cahillikdən başqa bir şey deyildir.

Bu kimi hədislərin sayı çoxaldıqca onun nəqli və yayılması da genişlənirdi. Bununla da bütün həqiqətləri dəyişdirib biabırçı vəziyyətə saldı. Onun da nəticəsi bu oldu ki, hakim təbəqənin icad etdiyi yanlış İslam, Əməvi və Əbbasi xəlifələrindən Osmanlı imperatorluğunun zamanına kimi davam etdi.

۱- [۱] . İslam cəmiyyətində bu kimi rəvayətlərin yaranması bir cəmiyyəti məhvə və süquta çəkməkdən ötrü bəs edir. Daha Əməvi və Əbbasi xəlifələrinin cinayətlərini və dinə zidd olan hərəkətlərini xatırlatmağa yer qalmır. Onlar İslam Peyğəmbərini bu rəvayətlərdə olduğu kimi tanıtdırırlar. Peyğəmbər, onların hədislərində gələn nöqsanlı sifətlərdən pak və üstündür.

۲- [۲] .,۷-۹ Seyyid Murtəza Əsgəri- “Əbdullah ibn Səba” ۱-ci bölümdə; “Mənşəul-qissə” çap-۲, Misr.

Bütün dövrlərdə olduğu kimi İslam tarixində də hədis uyduran və yalan hədis düzəldən muzdurların qarşısında bir qrup şəxsiyyətli, pak insanlar olmuşlar. Onlar öz canları bahasına Peyğəmbərin (s) həqiqi sünnəsini, yəni o Həzrətin bəyanlarını müsəlmanlar arasında yayaraq həqiqəti çatdırırdılar. Peyğəmbərin səhabələrindən biri olan Əbuzər bu gözəl və haqsevər insanların öncülü olmuşdur. Bir gün "Mina" dağında "Cəmərеye vusta"-ya yaxın oturmuşdu. Camaat onu dövrəyə alıb din barədə ondan suallar soruşurdular. Birdən Əməvi hökumətinin muzdurlarından biri camaatın çoxluğunu görüb yaxınlaşdı. Əbuzərin başının ütsündə durdu və ona dedi: Məgər sənə camaatın suallarına cavab verməyi qadağan etməyiblərmi? Əbuzər dedi: Sənə əmr ediblər ki, mənə nəzarət edəsən? Sonra boynunun arxasına işarə edərək dedi: Əgər qılıncı bura qoysan, mənim başımı kəsincə güman etsəm ki, Peyğəmbərdən (s) eşitdiyim bir məsələni deyə bilərəm, canım çıxıncaya qədər şübhəsiz onu söyləyərəm.(۱)

Rəşid Hicri də belə şəxslərdən biri idi. İbn Ziyad Kufənin hakimi olan zaman onun əl-ayağını kəsdirib evinə göndərdi. Camaat da onun görüşünə gələrək ağlayırdılar. O isə ağlayanlara belə deyirdi: -Ağlamağı yığışdırın. Yazmaq üçün bir şey gətirin. Mövlam Əlidən (ə) eşitdiklərimdən sizlərə söyləyim. Camaat da qəbul etdilər. Elə ki, bu xəbər İbn Ziyada çatdı, əmr etdi onun dilini də kəssinlər.(۲)

Meysəm Təmmar da bu yolun yolçusu idi. İbn Ziyad onun əl-ayağını kəsdirib dar ağacından asdırdığı zaman, mənbər

---

۱- [۱] .Bax:- *Darəmi-"Sunən" kitabında ۱-ci cild,səh-۱۳۲.**Məhəmməd ibn Səd- "Təbəqatul Kubra" ۲-ci cild; səh-۳۵۴; Bu hədis o hədislərdəndir ki, cinayətkarların əli ilə bəzi hədis kitablarında hissə-hissə gətirmişlər.

۲- [۲] . Məhəmməd ibnil Həsən Tusi - "İxtiyaru mərifətir-rical", Ricali Kəşşi adı ilə mərufdur. Əllamə Məclisi "Biharul ənvar" ۹-cu cild, səh-۶۳۲.

üstünə çıxmış kimi uca səslə fəryad edərək deyirdi: Eşidin ey camaat! Hər kəs Əlidən .(ə) nəql olunan hədisləri eşitmək istəyirsə yaxın gəlsin

Camaat onun başına toplaşdılar. Meysəm söhbətə başladı. Bu xəbər İbn Ziyada çatan kimi onun dilinin kəsilməsini əmr etdi. Meysəm dili kəsiləndən sonra bir saatdan artıq (tab gətirə bilmədi. Dar ağacında qanına qəltan canını tapşırdı.(١

Əsrlər boyu xilafət məqamının nüfuzu çoxalırdı. Allah və Peyğəmbərin (s) qoyduğu halal və haram haqqında olan qanunları dəyişdirib, özləri qanun təyin edirdilər ki, nə olar və nə olmaz. Onların çıxardıqları yanlış və zalımanə qanunlar Allahın adalətli qanunlarının yerinə qoyuldu. Əlbəttə bu vəziyyət Osmanın xilafətinin axırlarına qədər davam etdi. Camaatın narazı qalması və inqilabı az-çox olsa bu işin üzərindən xətt çəkdi. Bir müddət keçdikdən sonra növbə Müaviyəyə çatdı. O, öz təbliğatçı heyətinin (köməyi ilə - qondarma hədis düzəldənlərlə - keçmiş işləri davam etdirdi.(٢

Lakin, İmam Hüseynin (ə) şəhadəti ilə bu plan həmişəlik olaraq pozuldu. Daha xilafət əvvəlki vəziyyətində qala bilmədi. Buna görə də yeniliklər və rəsmi İslamı həqiqi İslamdan ayırmış olan bidətlər bundan sonra daha çoxalmadı. Xəlifələr daha təzə (bidətləri din adı ilə cəmiyyətə məcburən qəbul etdirə bilmədilər.(٣

Tusi-"həmin kitab" səh-٧۶-٨٧ . [١] -١

Aişə, Əbu Hüreyrə, Ənəs ibn Malik və Əbdullah ibn Ömər, Abdullah ibn Əmr As, . [٢] -٢ Muğeyrət ibn Şöbə, Əmr As, Sumərət ibn Condəb kimi şəxslər. Məlumat üçün müraciət edin: Seyyid Murtəza Əsgəri –"Ummul-mömінin Aişənin hədisləri" və "Min tarixul hədis" kitabları Seyyid Əbdul Huseyn Şərafuddin-"Əbu Hüreyrə" Şeyx Məhmud "Əburiyə - "Əzvaun ələs-sunnətil Məhəmmədiyyə" və "Əbu Hüreyrə şeyxul muzirə

O cümlədən Əbdul Məlik ibn Mərvan əmr etdi ki, Kəbə və Həccin yerinə, camaat . [٣] -٣ beytul-müqəddəsə getsinlər. Tikilmiş evin ətrafında təvaf etsinlər. Lakin, bu bidət icra .olunmadı. Müraciət edin:"Yəqubinin tarixi" ٣-cü cild,səh-٧-٨, çap-Nəcəf

İmam Hüseynin (ə) şəhadətinin başqa bir faydası da bu idi ki, İslamın həqiqətini tanıyanların və Peyğəmbərin (s) hədislərini söyləyənlərin həbs edilməsi, əziyyət və işgəncə olunmasının, qətlə yetirilməsinin azalmasıdır. Çünki, sonrakı hökumət başçıları onları keçmişdəkilərə nisbətən işgəncə verib öldürə bilmədilər. Axırda onlar çox çalışaraq bir-birinin ardınca minlərcə xilafət muzdurları tərəfindən uydurulmuş .hədislərin içindən düzgün və səhih hədisləri seçərək müsəlmanlara çatdırırdılar

Ömər ibn Əbdul-Əzizin hakimiyyətə gəlməsi, hədis nəqlinə qoyulmuş ١٠٠ illik qadağanı aradan apardı. Bu zamandan başlayaraq (٢-ci əsrin əvvəlləri) rəsmi İslam itaətçilərinə hökumət tərəfindən Peyğəmbərin (s) hədislərini yazmaq tapşırıldı. Nəticədə, Peyğəmbər və səhabələrin həyatı, eləcə də hədislər barədə onlarla kitablar toplanıb yazıldı. Bu kitablar içində olan minlərlə hədis təkcə İslam məktəbinin həqiqi şagirdləri tərəfindən Peyğəmbərdən (s) nəql olunmuşdur. Lakin, həmin hədislər özü də bir neçə nəfər satılmış üzdəniraq alimləri narahat edirdi. Həqiqi hədislərlə mübarizə aparmaq :üçün onlar iki yolu seçdilər

Hədis və Rical elmində belə bir qanun çıxardılar ki, hər hədisin ravisi şiə və Həzrət (Əlinin (ə) tərəfdarlarından olsa, o hədis etibarsız və zəif sayılar.(١)

Hədislərdən elə bir məcmuə tərtib etdilər ki, imkan daxilində doğru hədislər və .xəlifələrin mənafeyinə toxunan hədislər orada olmasın

Bu yolla yazılmış hədis kitabları “Səhih” adlandırıldı. Bu

.Əhli-sünnənin bütün rical kitablarına müraciət olunsun . [١] -١

kitabların sayı altıya çatdı. Onların arasında “Səhihi-Buxari” başqalarına nisbətən çox etibarlı sayılırdı. Çünki, Buxari yuxarıdakı iki qaydaya hamıdan çox diqqət edirdi. Hətta, xəvaricdən – İmran ibn Həttan kimi – hədis nəql etmişdi. Lakin, İmam Sadiqdən (ə) bir dənə də olsun hədis rəvayət etməmişdir. O, xəlifələrin pis əməllərini bəyan edən hədisləri yarımçıq və parça-parça nəql etmiş, bu səbəbə görə də rəsmiyyətdə tanınmış olan İslam yolunu gedənlər onun kitabını Qurandan sonra ən düzgün kitab .kimi saymışlar

Bu əsasla, tarix kitabları arasında Təbərinin tarixi bütün tarixi kitablardan ən mötəbər sayılır. Baxmayaraq ki, o da Buxarinin getdiyi yolla getmişdir. O cümlədən, rəsmi İslamın hökumət başçılarına və səhabələrə olan hər növ hörmətsizliyi açıqlayan hədisləri nəql etməmişdir. Həmçinin, bu kimi hədislər qarşısında olan zalım hökumət başçılarının mənafeyinə olan, onların əməllərini başqa cür yozan və məna edən uydurma və qondarma hədisləri öz kitabında qeyd etmişdir. Buna görə də Təbəri dinsiz və İslam düşmənlərinin uydurduqları yüzlərlə qondarma hədisləri qeyd etmişdir. Nəticədə Peyğəmbər (s) əsrinin və ilk xəlifələrin tarixi hadisələri təhrif olunaraq yazılmışdır.(١) Xəlifələrin və səhabələrin mənafelərini müdafiə etdiyi üçün elə bir şöhrətə və məqama yetişmişdir ki, onu “İmamul-muvərrixin”, “Tarix yazanların başçısı” adı ilə çağırırdılar. Təbəridən sonra İbn Əsir, İbn Kəsir və İbn Xəldun kimi (tarixçilər ancaq səhabələrin həyatını onun tarix kitabından sitat gətirmişlər.(٢

Rəsmi İslamın davamçıları dördüncü əsrdən sonra dövlətə bağlı olan alimlərin ardınca .yuxarıdakı altı kitabı nəşr etmişlər

---

Seyyid Murtəza Əsgəri “Əbdullah ibn Səba” ١-ci cild,-٢ . [١]-١

` həmin mənbə . [٢]-٢

Tarix yazanlar arasında da ancaq Təbəri və ardıcılları mötəbər sayılmışlar. Alimlərin topladığı yüzlərlə hədis, təfsir və tarix kitabı kənara qoyuldu. Bu minvalla Peyğəmbərin (s) gətirdiyi həqiqi İslam haqqında olunan bəhs və təhqiqat qapılarını öz üzlərinə .bağladılar

Neçə nəsil sonra, yəni dördüncü əsrdən bu günə qədər onlardan sonra gələnlər də onların yolunu davam etdirmişlər. Bu günlərdə Əhli-beyt məktəbinin davamçılarıından başqa, qalan bütün məzhəblərin nümayəndələri İslamı elə xəlifələrin muzdurlarının tanıtdırdığı, dövlətə sərfəli olan İslam kimi qəbul edirlər. Buna görə də müasir dövrdə həqiqi İslamı tanımağa aparan yolda saxta hədislər ən böyük maneədir. Bu saxta hədislər maarif, əhkam və hətta Peyğəmbərin (s) həyatı və tarixinə də sirayət etmişdir. Buna görə də İslam alimləri bu haqda təhqiqat və axtarış aparmalı, həqiqi İslamı saxta İslamdan ayırmalıdır. Bu böyük işə hər yerdə, o cümlədən, İraqda, .Misirdə, Suriyada, Livanda və həmçinin İranda böyük ehtiyac vardır

Mən bu məsələni yuxarıda adı çəkilən ölkələrin alimləri ilə müzakirə etmişəm. Arzu edirəm ki, Peyğəmbərin (s) həqiqi dininin qoruyucuları olan bizim elmiyyə hövzələrimiz bu məsələyə daha çox diqqət etsinlər. Bu barədə Qum elmiyyə hövzəsindən birinci əlimə çatan iş Ayətullah Məhəmməd Sadiq Nəcminin əsəri olan “Buxari və Müslimün səhihlərinə bir baxış” kitabıdır. Bu kitab neçə səbəbə görə məni sevindirdi. Onun :müəllifinə təşəkkür edirəm. Çünki

Kitabın möhtərəm müəllifi hədis kitabları haqqında lazımı qədər araşdırmalar . ١ .aparmışdır

Hədis kitablarının arasından əhli-sünnə arasında səhih sayılan Buxarinin və . ٢ .Müslimün səhihlərini mübahisə mövzusuna çevirmişdir

۳. Kitabı diqqətlə oxuduqdan sonra gördüm ki, müəllif kitabın bəhsləri haqqında olan ədəb-ərkana tamamilə rəayət etmişdir.

۴. Kitabda olan bütün mətləbləri bu mövzu ilə maraqlanan fars dilli xalqların başa düşdüyü səviyyədə, sadə və aydın dillə yazmışdır.

۵. Müəllifin Qum elmiyyə hövzəsinin alimlərindən olmasına və sünni məzhəb qardaşlardan uzaq yaşamasına baxmayaraq, bu məsələyə doğru və düzgün diqqət yetirmişdir.

Alimlər bu kitabın qədrini bilsələr və onu diqqətlə oxusalar, bəzi məsələlər onlar üçün aydınlaşar, inşallah.

Mütəal Allahın dərgahından istəyirəm ki, Qum elmiyyə hövzəsini İmam Zamanın zühuruna kimi qoruyub saxlasın. Üzümüzə gələn hər əsrdə İslam dünyasına yetərli və təhqiqatçı alimlər bəxş eləsin. Amin!

Ayətullah Seyyid Murtəza Əsgəri

۱۱/۰۲/۹۲-ci hicri ili.

səh:۴۲

Hədislər barədə

?Hədis nədir

Hədis, lüğətdə “yeni bir şey, tam bir kəlam və danışıq” deməkdir.(۱) Hədis alimləri arasında isə, hədis, yəni – məsumun sözləri, əməlləri və təqriri(۲) mənasınadır. Başqa məzhəblərin nəzərində hədis yalnız və yalnız Peyqəmbərin (s) sözləri, əməlləri və təqriri mənasınadır. Şiə məzhəbində isə bu tərif Peyğəmbər (s) və onun pak Əhli-beytinə də şamil olunur.

Sünni alimlərindən olan İbn Həcər deyir: “İslam dininin ilk illərində Qurani-Kərimə “qədim” söylənildiyinə görə, Peyqəmbərlə (s) bağlı olan kəlamlara “hədis” deyilirdi. Bu xüsusi məna bu günə qədər müsəlmanlar arasında işlənməkdədir.”(۳)

Hədisin mətni məsumun(۴) sözlərindən, əməllərindən və onun təqririndən ibarətdir.

Peyğəmbər (s) zamanından başlayaraq hədis yazanların

səh:۴۳

۱- [۱] . لولاقومک حدیثوا عهد بالاسلام (حدیث نبوی). " ان لم یؤمنوا بهذاالحدیث اسفاء" “Kəhf” surəsi, ۶-cı ayə;

۲- [۲] . Təqrir-bir əməl qarşısında razılıq əlaməti olaraq susmaq deməkdir.

۳- [۳] . Fəthul-barinin müqəddiməsi ۱-ci cild.,

۴- [۴] . Peyğəmbər (s) və onun itrətinin.

Peyğəmbərdən (s) eşitdikləri və gördükləri hədisləri sinədən-sinəyə, nəsildən-nəsilə zəncirvari surətdə bir-birinə ötürərək bizim əsrimizə kimi gətirib çıxarmaları hədisin (sənədi adlanır.(١)

?Sünnə nədir

Sünnə, lüğətdə camaatın itaət etdikləri yola və təriqətə, istilahda isə Peyğəmbərin (s) hökmləri və buyurduqları kəlamlara deyilir. Müsəlmanlar arasında ibadət və başqa məsələlərdə Peyğəmbərin (s) gətirdiyi qanun kimi qəbul edilmişdir.(٢) Hədislə sünnə .arasında olan oxşarlığa əsasən, hədisə də sünnə deyilmişdir

Quran baxımından hədisin əhəmiyyəti

İslam qanunlarının və hökmlərinin əsasını Quran və sünnə təşkil edir.(٣) Hədis və Quran arasında müsəlmanların hədisə olan ehtiyacı daha çoxdur. Qurani-Kərimdə əhkam və qanunlara dəlalət edən beş yüzə yaxın ayə var. Hədis və sünnənin köməyi :olmadan bu ayələrin tam və dərin mənasını başa düşmək qeyri-mümkündür. Çünki

a) İslam dininin əhkam və qanunları çoxdur. Bu ayələr öz-özlüyündə hökmləri tam və ;dolğun şəkildə bizə çatdırmır

.b) Bu ayələrin izahı hədis və sünnə vasitəsi ilə mümkündür

Buna görə də şiə və sünniliyindən asılı olmayaraq, bütün İslam alimləri bu məsələdə həmfikirdirlər ki, sənədi səhih və məsumdan nəql olunan hədis bütün müsəlmanlara höccətdir.(۴) Məsələn, müsəlmanların Qurani-Kərimin ayələrinə əməl etməsinin vacib .olması kimi

---

.Hədis elmində bu zəncirvari ardıcıllığa “Rical” deyilir . [١] -١

İbn Əsirin nəhayəsi . [٢] -٢

İmamiyyə məzhəbində Əhli-beytin hədisi, icma, ağıl və s. hökmün sənədi . [٣] -٣

.Höccət – tam, dolğun, düzgün və aydın şəkildə gətirilmiş dəlil . [۴] -۴

Qurani-Kərim özü də ayələrinin əsnasında müsəlmanlara Peyğəmbərin (s) buyurduğu .hədislərə ciddi yanaşmağı tövsiyə etmişdir

:Quranda bu barədə belə buyurulur

{وَمَا آتَاكُمُ الرَّسُولُ فَخُذُوهُ وَمَا نَهَاكُمْ عَنْهُ فَانتَهُوا}

Peyğəmbərin (s) gətirdiyi və buyurduğuna əməl edin və çəkindirdiyi şeylərdən isə_ (çəkinin. _(١)

Quran müsəlmanlara Peyğəmbərə (s) itaət etməyi Allaha itaət etməklə bir sırada :qərar vermiş və onun vacib olduğunu bildirmişdir

{وَأَطِيعُواْ اللّهَ وَأَطِيعُواْ الرَّسُولَ وَاحْذَرُواْ فَإِن تَوَلَّيْتُمْ فَاعْلَمُواْ أَنَّمَا عَلَى رَسُولِنَا الْبَلاَغُ الْمُبِينُ}

Allaha və Peyğəmbərə itaət edin. Əgər (itaətdən) boyun qaçırsanız, bilin ki,_ Peyğəmbərimizin vəzifəsi yalnız açıq bir təbliğdir (Quranı açıq-aydın təbliğ etməkdir) _ ._(_(٢)

:Həmçinin Peyğəmbərə (s) olunan itaəti elə Allaha olunan itaət sayır

{مَّنْ يُطِعِ الرَّسُولَ فَقَدْ أَطَاعَ اللّهَ}

(PEYğəMBəRə ITAəT EDəN KIMSə, şüBHəSIZ KI, ALLAHA ITAəT ETMIş OLUR. _(٣ _

O cümlədən, Peyğəmbərin (s) əmrləri və verdiyi hökmlərin qarşısında müsəlmanların :özbaşına qərar çıxarıb hökm vermək hüququnu onlardan alır

{فَلاَ وَرَبِّكَ لاَ يُؤْمِنُونَ حَتَّى يُحَكِّمُوكَ فِيمَا شَجَرَ بَيْنَهُمْ ثُمَّ لاَ يَجِدُواْفِي أَنفُسِهِمْ حَرَجًا مِّمَّا قَضَيْتَ وَيُسَلِّمُواْ تَسْلِيمًا}

YA RəSULUM!) RəBBINə AND OLSUN KI, ONLAR öZ ARALARıNDA BAş VERəN) _ _IXTILAFLARDA SəNI HAKIM (MüNSIF) TəYIN ETMəYINCə Və

;Həşr” surəsi, ٧-ci ayə“ . [١] -١

;Maidə” surəsi, ٩٢-ci ayə“ . [٢] -٢

;Nisa” surəsi, ٨٠-cı ayə“ . [٣] -٣

VERDIYIN HöKMLəRə GöRə öZLəRINDə BIR SıXıNTı DUYMADAN SəNə TAM BIR_ (ITAəTLə BOYUN əYMəYINCə, (HəQIQI SURəTDə) IMAN GəTIRMIş OLMAZLAR. _(١)

və onun əmrlərinə tabe və təslim olmağı imanın nişanələrindən biri saymış, müxalifət :və üsyan etməyi isə zəlalət və bədbəxtlik olduğunu bildirmişdir

{وَمَا كَانَ لِمُؤْمِنٍ وَلَا مُؤْمِنَةٍ إِذَا قَضَى اللَّهُ وَرَسُولُه أَمْرًا أَن يَكُونَ لَهُمُ الْخِيَرَةُ مِنْ أَمْرِهِمْ وَمَن يَعْصِ اللَّهَ وَرَسُولَهُ فَقَدْ ضَلَّ ضَلَالًا مُّبِينًا}

ALLAH Və ONUN PEYğəMBəRI BIR IşI HöKM ETDIYI ZAMAN HEç BIR MöMIN KIşIYə _ Və QADıNA öZ IşLəRINDə BAşQA YOL SEçMəK (öZ IXTIYARLARı ILə AYRı CüR HəRəKəT ETMəK) YARAşMAZ. ALLAHA Və ONUN PEYğəMBəRINə ASI OLAN KəS, _ _(şüBHəSIZ KI, (HAQQ YOLDAN) AçıQ-AYDıN AZMışDıR! _(٢)

Qeyd olunan ayələr Peyğəmbərə (s) itaətin müsəlmanlara vacibliyini bildirən ayələrdir. Quran müxtəlif ifadələrlə bu məsələyə təkid edərək Peyğəmbərə (s) itaətin tam şəkildə olmasını çatdırır. Çünki, Peyğəmbərin (s) sözlərinə və onun göstərişlərinə əməl .etmək , onun sünnəsinə rəayət etmək deməkdir

Sünnənin əhəmiyyəti barədə Peyğəmbərin (s) nəzəri

Hədis və rəvayətlərin əhəmiyyəti barədə Peyğəmbərdən (s) və Əhli-beytdən (ə) çoxlu hədislər qeyd olunmuşdur. Bu rəvayətlər müxtəlif cəhətlərə əsasən sünnənin əhəmiyyətli olmasını, onu əzbərləməyə, yazmağa və başqalarına çatdırmağa çox (təkid etmişdir.(٣)

Həzrət Peyğəmbər (s) “Vida“ həccinin xütbəsində belə

;Nisa” surəsi, ۶۵-ci ayə“ .[١]-١

;Əhzab” surəsi, ٣۶-cı ayə“ .[٢]-٢

Bu barədə aşağıdakı kitablara müraciət edə bilərsiniz: Üsule Kafi ١-ci cild,; . [٣] -٣ Rəvayətul kutub vəl-hədis və fəzlul kitabə; Vəsailuş-Şiə ١-ci cild,٨; Sunən ibn Macə ١-ci .cild, bab Şərafu əshabul hədis; Cameu bəyanul elm və fəzlih

buyurdu: “Camaat! Mən səadət və xoşbəxtliyinizi təmin edən bütün halal işləri sizə aydınlaşdırdım və bədbəxtliyinizə səbəb olan haram şeylərdən çəkindirdim və bu (hökmlərdə dəyişikliklər olmayacaqdır:(١)

Rəsuli-Əkrəm (s) müxtəlif yerlərdə bir qrup şəxsə hədis əzbərləməyi tövsiyə etmiş və :dua edərək onları bu işə həvəsləndirmişdir

{نَصَرَالله عَبداً سَمِعَ مَقَالَتِی فَوَعَاهَا}

ALLAH BIZIM SöYLəDIYIMIZI EşIDəRəK ONU HIFZ EDəN BəNDəNI öZ LüTFü Və _ (RəHMəTINDə SAXLASıN. _(٢)

:Bəzən həmin kəlmələrlə hədis söyləyənlər üçün dua etmişdir

{نَصَرَالله عَبداً سَمِعَ مَقَالَتِی فَبَلَغَهَا}

ALLAH BIZIM HəDISLəRIMIZI, EşIDəRəK ONU BAşQALARı üçüN SöYLəYəN _ (BəNDəNI öZ LüTFü Və RəHMəTINDə SAXLASıN. _(٣)

Hazırda yanımda olub eşidənlər, burada olmayanlara çatdırsınlar.” “ – ” فَلیبَلِّغُ الشَّاهِد-الغَائب “ Bu cümlə Peyğəmbərin (s) sözlərində çox işlənmişdir. O cümlədən, Həzrət (s) axırıncı .xütbələrində və söhbətlərində bu cümləni buyurmuşdur

Bu ifadələr, hədisin və sünnənin nə qədər əhəmiyyətli və mühüm olmasını aydınlaşdırır. Peyğəmbərin (s) halal və haramın, dini əhkamların ümmətinə çatdırmaqla başqa müsəlmanlara da çatdırılmasının hər kəsin vəzifəsi olduğunu bildirmişdir. Hədisləri eşidərək başqalarına söyləyənləri “özünün ardıcılları”(٤) kimi .tanıtdırmışdır

---

١- [١] . مَعَاشِــرالناس وَكُـلّ حَلال دَلَلتكـم عَلَيـه أوْ حَرَام نَهَيْتُكُـمْ عَنْه فَـإنّى لـمْ أرْجِعْ عَـنْ ذَلـك وَلَمْ أبْـدِلٍ. “Ehticace Təbərsi”, ١-ci cild, səh, ٨١;

٢- [٢] . “Kitabul-mənasike sunəni“ Sunən ibn Macə”nin müqəddiməsi və ٢-ci cildi; “Kitabul-elm ;Termizi”

Sunəni ibn Macə"nin müqəddiməsi və ٢-ci cildi; "Kitabul-mənasike sunəni" . [٣] -٣
;"Termizi", "Kitabul-elm

Mən la yəhzuruhul-fəqih" kitabı, "Ən-nəvadir" bölümü; "Səhihi-Buxari" ١-ci cild," . [۴] -۴
;"Liyəbluğəl elmul-şəhid" bölümü

Quran və sünnənin fərqi

Quran və sünnə hər ikisi vəhy və ilham mənbəyi, bir nurun şüası olduqları üçün onlar arasında fərq və üstünlük yoxdur. Lakin, Quranın sünnə ilə fərqini belə xülasə etmək :olar

Quran təhəddi(۱) və möcüzə məqamında nazil olmuşdur. Lakin sünnənin belə bir .xüsusiyyəti yoxdur

Quranın müqəddəs kəlmələri həm məna və məfhum baxımından, həm də kəlmə və sözlər baxımından birbaşa Allaha məxsusdur. Lakin, sünnədə olan hədislərin məna və .məfhumu Allahın, kəlam və sözləri isə Peyğəmbərindir

Quranın hər bir ayəsinin Allah tərəfindən nazil olmasına heç bir şübhə yoxdur. Ancaq, .Peyğəmbərdən (s) söylənilən bəzi hədislər isə qəti deyil, bəlkə şübhəlidir

Quran, əhkam və qanunları tam şəkildə bəyan etmişdir. Amma sünnədə isə hökmlərin xırdalıqları da açıqlanmışdır. Başqa sözlə söyləsək, Quran özü qanunları bütövlükdə .qeyd etmiş, amma onların izahını isə Peyğəmbərə (s) həvalə etmişdir

:Quran yuxarıdakı məsələni belə açıqlamışdır

{وَأَنزَلْنَا إِلَيْكَ الذِّكْرَ لِتُبَيِّنَ لِلنَّاسِ مَا نُزِّلَ إِلَيْهِمْ وَلَعَلَّهُمْ يَتَفَكَّرُونَ}

SəNə Də QURANı NAZIL ETDIK KI, INSANLARA ONLARA GöNDəRILəNI (HöKMLəRI, _ (HALAL-HARAMı) IZAH EDəSəN Və BəLKə, ONLAR DA DüşüNüB DəRK EDəLəR! _(۲

Başqa tərəfdən müsəlmanlara buyurmuşdur ki, Quran

Təhəddi”:- Öz düşmənlərini mübarizəyə çağırmaq. Nümunə üçün Quran“ . [۱] -۱ kafirlərə Bəqərə surəsinin ۲۳-cü ayəsində belə buyurur: “Əgər bəndəmizə (Məhəmmədə) nazil etdiyimizə (Qurana) şəkkiniz varsa, siz də (fəsahətdə və bəlağətdə) ona bənzər bir surə gətirin və əgər ("bu, bəşər kəlamıdır" sözünü) doğru deyirsinizsə, onda Allahdan savayı (bütün) şahidlərinizi (bütlərinizi, şair və alimlərinizi

"!bu işdə köməyə) çağırın

;Nəhl" surəsi, ۴۴-cü ayə" . [۲] -۲

ayələri ilə Peyğəmbərin (s) kəlamları arasında heç bir fərq qoymasınlar. Bu məsələnin :də vacib olduğunu qeyd edir

{وَمَا آتَاكُمُ الرَّسُولُ فَخُذُوهُ وَمَا نَهَاكُمْ عَنْهُ فَانتَهُوا}

PEYğəMBəR SIZə Nə VERIRSə, ONU QəBUL EDIN; NəYI QADAğAN EDIRSə, ONDAN _ _ _(əL çəKIN. _(١)

Çünki, Peyğəmbər (s) özündən heç bir söz demir və buyurduğu hər bir şey Allahın əmri :ilədir

{وَمَا يَنطِقُ عَنِ الْهَوَى إِنْ هُوَ إِلَّا وَحْيٌ يُوحَى}

O, KEYFI ISTəYəNI (BOş YERə) DANışMıR. SöYLəDIKLəRI, ANCAQ (ALLAH _ _ _(DəRGAHıNDAN) NAZIL OLAN BIR VəHYDIR. _(٢)

Sünnədə, Qurani-Kərimin ayələri açıqlanır və izah olunur. Mütləq ayələri qeydlərlə, ümumi ayələr isə hədislər vasitəsi ilə izah olunur. Hədislərin və sünnənin xülasəsi Quranın açıq şəkildə buyurduqlarını müəyyənləşdirir. Məsələn: Quranda namazın vacib olma hökmü nazil olmuşdur. Lakin, onun əhkamları, rəkətlərinin sayı açıqlanmayıbdır. Peyğəmbər (s) namaz qılmağı ilə bunların hamısını camaata öyrətmişdir.(٣) Başqa bir misal; Həccin hökmü, Qurani-Kərimdə ümumi surətdə gəlmişdir. Lakin, bu ayələrin bir neçəsindən başqa qalan ayələrdə incəliklər qeyd olunmamışdır. Peyğəmbər (s) aşağıdakı kəlamı ilə mühüm əməlləri camaata öyrətmiş :və belə buyurmuşdur

خُذُواعَنِّی مَناسِكَكُم

(HəCCIN əMəLLəRINI MəNDəN öYRəNIN _(٤) _

Həmçinin irsin hökmlərinin bir hissəsi yəni, onun başlıca qanunları Quranda gəlmişdir. Lakin, təfərrüatı isə, məsələn

;Həşr” surəsi, ٧-ci ayə“ .[١]-١

۲- [۲] . “Nəcm” surəsi, ۳-cü və ۴-cü ayələr;

۳- [۳] . “Səhihi-Buxari”, ۱-ci cild, “Kitabus-salat”, “əl-Əzanu lilmusafiri iza kanu cəmaətən…” bölümü; "Səllu kəma rəəytumini usəlli” bölümü;

۴- [۴] . ”Xuzu ənni mənasikəkum”, “Səhihi-Müslim”, “Kitabul-həcc“;

.qatilin irsdən məhrum olması"(1) sünnədə bəyan olunmuşdur"

Beləliklə zəkat, cihad və yüzlərlə başqa hökmlərin hamısı sünnənin vasitəsi ilə bizlərə .çatmışdır

Şiə və Sünnü məzhəblərində hədis yazılışının qısa tarixi

Şiə məzhəbində hədisin yazılması

Doğru mənbələrə və əhli-sünnə məzhəbinin etimad etdikləri kitablarda olan hədislərin məzmununa əsasən qeyd olunmuşdur ki, Peyğəmbərin (s) zamanında müsəlmanlar arasında nəinki hədis yazmaq adi bir hal və azad bir iş idi, hətta müsəlmanlar arasında bu işə (hədisləri yazmaq) çox ehtiyac duyulurdu. Peyğəmbərin (s) özü bu işə xüsusi diqqət yetirmiş və müxtəlif yollarla müsəlmanları hədis yazmağa həvəsləndirmiş və ruhlandırmışdır. Səhabələrin hər biri bacardıqca o Həzrətdən (s) eşitdikləri və öyrəndikləri hədisləri yazmışlar. O cümlədən, belə səhabələrdən olan Əbu Bəkri(2) və Əbdullah ibn Ömər ibn Ası nümunə göstərmək olar. Əbdullah ibn Ömər ibn As belə deyir: - "Mən, Peyğəmbərin (s) dilindən bütün eşitdiklərimi yazmaqda səhlənkarlıq etmədən çalışırdım. Lakin, Qureyş qəbiləsindən bir qrup mənim bu işimlə müxalifətçilik etdilər. Məni hədis yazmaqda şəkkə saldılar. Bu mövzunu Peyğəmbərin (s) hüzürunda dedim və onun bu barədə nəzərini soruşdum. Həzrət (s) mənim sualımın cavabında :əlini mübarək ağzına işarə edərək belə buyurdu

أُكْتُبْ فَوَالَّذِى نَفْسِى بِيَدِهِ مَايَخْرُجُ مِنْهُ اِلاّ حَقّ

YAZ! AND OLSUN ALLAHA KI, BU AĞıZDAN HAQQ KəLAMDAN BAŞQA BIR şEY çıXMıR. _ (3)_ _ _

;"Sunəni Termizi", "Kitabul-fəraizdə", "La yərisul-qatil" . [1] -1

;Təzkiatul-hifaz", 5-ci cild, səh. 1" . [2] -2

Sunəni Davud", 2-ci cild, "Kitabul-elm"; 3-cü bölüm, "Mustədrəkus-səhihəyn", 1-" . [3] -3
;ci cild, səh. 104 və 106; * "Fəthul-bari" 1-ci cild, "Kitabətul-elm" bölümü

Lakin, İslam peyğəmbəri Həzrət Məhəmmədin (s) vəfatından sonra səhabələr arasında ixtilaflar meydana gəldi. Bir qrup bu əməlin (hədis yazmağın) qarşısını alaraq onu qeyri-şəri və düzgün olmayan bir əməl kimi tanıtdırdılar. Bu işlərindən əl çəkməyərək öz səhv əqidələrində də möhkəm qaldılar. Onlardan – Əbu Bəkri, Ömər ibn Xəttabı, İbn Məsudu, Əbu Səid Xidrini və s. kimilərin adını çəkmək olar. Lakin onların qarşısında başqa bir qrup isə hədisin yazılmasına və yayılmasına həvəsləndirmiş və Peyğəmbər (s) zamanında da özləri arasında bu əməlin doğru və düzgün olmasını bildirirdilər. Bu doğru əqidədə olanlardan – Əbuzər Qəffari, Səlmani Farsi, ibn Əbbas, Əmmar Yasir, Əmirəl-möminin Əli (ə) və onun başqa tərəfdarları, xüsusilə böyük övladı İmam Həsən Müctəba (ə) və Peyğəmbərin (s) ürəyinin parçası və gözünün nuru adlandırdığı xanım Fatimeyi Zəhra (s) və başqa yüksək məqamlı .insanların adlarını qeyd etmək istəyirik

Bu kimi ixtilaflar müsəlmanlar arasında hədisin yazılıb yazılmaması mövzusunda iki dəstəyə bölünməsinə səbəb oldu. Bir qrup, hədisin yazılmasının tərəfdarı (Əli (ə) və onun tərəfdarları), ikinci bir qrup isə hədisin yazılmasının əleyhinə (Əbu Bəkr və (davamçıları

idilər

İmam Əlinin (ə) vaxtinda hədisin yazilmasi

Buxari öz səhih kitabında Əmirəl-möminin Əlidən (ə) nəql edir ki, o, belə buyurdu: Bizim yanımızda səhifədən başqa oxunulası bir kitab yoxdur. Sonra bir səhifəni çıxartdı. Onun içində "diyə hökmləri, dəvələrin zəkatda şərt olan yaşları və Mədinədən ".başqa Sura qədər olan yerlərin hərəm hökmündə olması yazılmışdı

Həmçinin, Buxari nəql edir ki: Əli (ə) mənbər üstündə bir səhifəni şəmşirin qınından .çıxartdı və açdı. Sonra hökmü o səhifə üzündən oxudu

Həzrət Əlinin (ə) səhifəsinin barəsində Buxari və Müslim öz səhih kitablarında başqa sənədlər əsasında çox geniş hədislər nəql etmiş, o cümlədən, Həzrət Əlinin (ə) (səhifələrindən müxtəlif hökmlərin istifadə olunmasına işarə etmişlər. (١

Bu səhifələrdən Buxari və Müslimün səhih kitablarında olan nəqlə əsasən belə nəzərə gəlir ki, çox olmasına baxmayaraq (٢) hədislərin mətnlərinə diqqət yetirdikdə diqqətimizi iki əsas və mühüm nöqtəyə sövq edir. Onlardan biri bu səhifələrin çoxluğunu, digəri isə onun yığcam və bütöv olmasını çatdırır. Bu səhifələrdə əhkam məsələlərinin bütün incəlikləri və xırdalıqları (məs: diyə, qisas və dəvələrin yaşlarının müəyyən olması və s. kimi hökmlər) vardır. Bu səhifələrdə Mədinə və onun ətrafında olan dağların sayı, məsafəsi də qeyd olunmuşdur. Bu da səhifələrin yığcam olmasına :dəlalət edir. Lakin, İbn Həcər deyir

Bu hədisləri axtararkən bu nəticəyə gəlmək olar ki, səhifələr bir kitab olubdur. Bütün" hökmlər bu səhifədədir lakin, nəql edənlər bacardıqları miqdarda əzbərləmiş və nəql (etmişlər." (٣

Səhihi-Buxari", ۱-ci cild, "Kitabul-elm" bölümü; və ۳-cü cild, "Kitabul-həcc"," . [۱] -۱ "Hərəmul-Mədinə" bölümü; ۴-cü cild, "Zimmətul-muslimin" bölümü və "İsmu mən ahədə summə qadər" bölümü; "Fukkakul-əsir" bölümü; ۸-ci cild, "Kitabul-fəraiz", "Ma yəkrahu minəttəəmmuqi vət tənaziyi fil-elm" bölümü; ۹-cu cild, "La yəqtulul muslimu bil kafir" bölümü; "Səhihi-Müslim", ۴-cü cild, "Kitabul-itəq", "Təhrim" bölümü; ۶-cı cild, ;"Təhrim əz-zibhu liğeyrillah", bölümü; "Sunəni-Nəsai", ۸-ci cild, səh. ۱۹-۲۳

. Yazıçının istifadə etdiyi hədislərin sayı təkrar olmamaq şərti ilə ۱۳ hökmdür . [۲] -۲

;Fəthul-bari", ۱-ci cild, səh. ۲۱۵" . [۳] -۳

İmam Əli (ə) və onun yazdıqları

Nəccaşi Məhəmməd ibn Əzafir Seyrəfidən nəql edir ki: Mən, Həkəm ibn Üyeynə(۱) ilə Əbu Cəfər imam Baqirin (ə) yanında idik. Həkəm İmam Baqirdən (ə) sual soruşdu . İmam (ə) ona xüsusi ehtiram edirdi(۲). Nəhayət, məsələdə ixtilaf etdilər. İmam Baqir (ə) övladına buyurdu: Qalx, cəddim Əmirəl-möminin Əlinin (ə) kitabını gətir. İbn Əzafir deyir: İmam Baqirin (ə) övladı kitabı gətirdi, çox böyük və bir-birinə bükülmüş idi. Bu vaxt İmam Baqir (ə) buyurdu: Bu kitab Həzrət Əlinin (ə) öz xətti və Peyğəmbərin (s) imlası ilə yazılmışdır. Sonra Həkəmə təref üz tutub buyurdu: Əba Məhəmməd! Sən və Sələmə və Əbul Miqdam hara istəyirsinizsə gedə bilərsiniz. Lakin, and olsun Allaha (elmi Cəbrailin (ə) nazil etdiyi kəslərdən başqa heç yerdə tapa bilməzsiniz. (۳)

Hədis yazanların sayı və rütbələri

Nəccaşi (۴) öz qiymətli kitabında imamların(۵) səhabələrindən və şiə məzhəbinin rical(۶) şəxslərindən ۱۲۰۰ nəfərin adını çəkmiş və onların tərcümeyi-halını gətirmişdir. Həmçinin, öz kitabının müqəddiməsində bu nöqtəni qeyd edərək bildirir ki: - Mən, bu kitabda şiə ravilərini və imamların səhabələrindən təkcə kitab yazanların tərcümeyi-halını yazmağa başlayıram; yalnız müəlliflərin həyat tərzini qeyd edirəm.(۷) İmam Sadiqin (ə) dövrünə qədər rical elminin alimlərini, müəllif adı ilə şöhrət

---

۱- [۱] . Həkəm, sünni məzhəbinin böyük alimlərindən biridir.

۲- [۲] . Bəzi ərəb ibarətlərində bu ibarət “mukrimən və ya mukrihən” yazılmışdır.

۳- [۳] . Ricale Nəccaşi- Əhməd ibn Əzafirin tərcüməsi

۴- [۴] . Hicrətin ۴۵۰-ci ilində vəfat etmişdir.

۵- [۵] . Peyğəmbərin (s) pak Əhli-beyti.

۶- [۶] Rical elmi- Hədisçilərin və ravilərin doğrusunu yalandan, etibarlısını - etibarsızdan ayıran elmə deyilir. (Mütərcim)

۷- [۷] . Nəccaşinin ricalında müqəddiməyə bax.

tapmış şiələrin məşhur müəlliflərini və hədis yazanlarla birgə üç qismə bölmüşəm.(١) Lakin, bununla belə imamların səhabələrindən kitab və hədis yazıçılarının dəqiq sayı əlimizdə deyildir. Çünki, imamların səhabələri arasında onlarla söhbət olub, şagirdlik .iftixarına nail olan şəxslər, həmçinin kitab və əsərləri yadigar qalmayanlar çox azdır

İmam Sadiqin (ə) zamanında hədislərin yazılışı

İmam Sadiqin (ə) dövründə (hicri-qəməri tarixi ilə ٨٣-١٤٨-ci illər) ona verilən və ələ düşən fürsətdən istifadə edərək hədis söyləmək və yazmaq çox inkişaf etdi. O Həzrətin (ə) müxtəlif sahələrdə ٤٠٠٠ – dən çox tələbəsi olmuşdur.(٢) O elmlərdən fiqh, kəlam, təbiət, fizika, kimya və bialogiya kimi elmləri göstərmək olar. Təkcə Həsən ibn Əli Vəşai bir zaman Kufə məscidində ٩٠٠ nəfər alimin olduğunu görmüşdür ki, onların :hamısı demişlər

(Cəfər ibn Məhəmməd (ə) mənə belə söylədi".(٣" - حَدَّثَنِي جَعْفَر بن مُحَمَّدْ

Bəli, İmam Sadiqin (ə) dövründə, o Həzrətin öz təkidi ilə hədis nəql etmək və yazmaq barədə olan buyurduqları sözlərə və

Bu hissədə Nəccaşinin ricalına və Şeyx Tusinin mündəricatına , həmçinin . [١] -١ .“Əyanuş-Şiə vəz-zəriə” -yə müraciət etmək olar

Şeyx Mufidin “İrşad” kitabı, Təbriz çapı, səh-٢٨٩ . [٢] -٢

Həsən ibn Əli ibn Ziyad Vəşai Kufə əhlindən və imam Rzanın (ə) etimad etdiyi . [٣] -٣ səhabələrdən biri idi. Şiə məzhəbi içində elm və təqvada məşhur bir şəxs kimi tanınmışdır. Əhməd ibn Məhəmməd ibn İsa deyir ki: Hədis öyrənmək üçün Kufəyə gəldim ki, Həsən ibn Vəşa Əla ibn Rəzinin və Aban ibn Osmanın kitabını mənə versin. İbn Vəşa o kitabı mənə verdi, mən dedim: - Hadisələrdən qorxuram. Dedi:- Əgər mən bilsəydim ki hədis, olduğu miqdarından da çox bu qədər qiymətli olacaq onu toplamaqda daha çox çalışardım. Çünki mən, həmin Kufə məscidində şiə alimlərindən ٩٠٠ nəfərinin “İmam Cəfər (ə) buyurur” – “mənə belə buyurdu” – söylədiyini gördüm. .“Ricali Nəccaşi”, Həsən ibn Vəşa – tərcümə

kəlamlara(۱) çoxlu kitablar yazılmışdır. O zamanda yazılmış kitabların və müəlliflərin sayının çoxluğuna görə onların dəqiq sayını söyləmək mümkün deyildir. Lakin, bu kitablardan əhkam və başqa məsələlərə aid olan hökmlər barədə yazılmış yazıların sayı ۴۰۰ cild kitab olmuşdur. Bu da İmamın (ə) ۴۰۰ nəfər tələbələri tərəfindən yazılmışdır. Bu kitaba "Üsule ərbəə" deyirdilər. Kitabda olan hədislər qarışıq və pərakəndə şəkildə olduğuna görə bəzi hədislərin bir qismi bu hədis kitabında yazılmış, bəzisi isə yazılmamışdır. İmam Əli ibn Musa Ər-Rzanın (ə) zamanında (hicri-qəməri tarixi ilə ۱۴۸-۲۰۳-cü il) onun səhabələrindən bir qrupu, hər biri də öz üslubu və xüsusi tərtibi ilə "Üsul" kitabını toplamışlar(۲). Onlardan hər biri Üsule ərbəə kitabını toplamaqla böyük bir kitab düzəldərək adını "Came" qoydular. Əlbəttə bu came, imamların səhabələrinin qeyb dövrünə kimi, müxtəlif mövzularda və xüsusi mövzular .əsasında yazdıqları kitablardan başqa qeyd olunan yazılar idi

Kutube ərbəə – ۴ kitab

Bu Came kitabı şiə məzhəbinin müraciət yeri, Həzrət imam Rzanın (ə) dövründən dini və şəri məsələlərdən ibarət olan hökmlər idi. Mərhum Kuleyni (vəfatı -۳۲۹-cu il) sonralar "Kafi" kitabını təlif etdi. Yeni və xüsusi bir üslubda xəbərləri came kitabında topladı. Onun ardınca mərhum ibn Babaveyh

---

Ricali Nəccaşi səh. ۱, Şafi səh. ۱ və ۳۰; Kafi ۱-ci cild,səh. ۵۱; Vəsiluş-Şiə ۱-ci cild,۸; . [۱] -۱
(v .القلب يتكـل على الكتـابه (b .أَعْرِفُوامَنَـازِلَ النَّاسِ عَلَى قَـدرِروَايَتِهِم عَنَّا (Kitabuş-Şəhadat bölümü; - ۸ a
أَكْتُبُوافَأَنَّكُمْ لاَتَحْفَظُونَ حَتَّى تَكْتُبُوا. q) اِحْفَظُوابِكُتُبِكُمْ فَأَنَّكُمْ سَوْفَتَحْتَاجُونَ اِلَيْهَا.
Əhməd ibn Məhəmməd ibn Əbi Nəsr; Cəfər ibn Bəşir ; Həsən ibn Əli ibn Fuzal və . [۲] -۲
...s

vəfatı - hicri-qəməri tarixi ilə ۳۸۱-ci il) “Mən la yəhzuruhul fəqih” və sonralar isə) mərhum Şeyx Tusi (vəfatı- hicri-qəməri tarixi ilə ۴۶۰-cı il) öz tanınmış kitabında “Təhzib və İstibsar”-əsərini yazaraq müxtəlif hədisləri Üsule ərbəə miə (۴۰۰ usuldan) və Came kitabından, həmçinin imamların başqa səhabələrinin kitablarından toplayıb bir yerə yığdı.(۱) Bu dörd kitab “Ərbəə” adı ilə, yəni “mötəbər dördlük” kitab adı ilə tanındı. Əlbəttə şiə məzhəbinin böyük alimləri bu dörd kitabdan əlavə, mühüm və müxtəlif mövzularda – tarix, təfsir, hədis və s. kitablar yazıb toplamışlar. Həmin kitablar hal-hazırda bizim zamana qədər gəlib çıxmış, İslam kitabxanalarının çoxunda qorunub .istifadə olunur

Lakin, bu dörd kitab, şiə məzhəbinin alimlərinin və müctəhidlərin şəri hökmlərinin isbat olunmasında (dəlillə ələ gətirilməsində) əsas böyük rol oynadığı üçün, alimlər tərəfindən xüsusi diqqətlə nəzarət altında saxlanılır. O cümlədən, bu kitabların qorunması və ona müraciət olunması başqa kitablara nisbət daha çox əhəmiyyət tapmışdır. Kitablarla tanışlıqdan sonra böyük elm sahibləri, hədis elmi ustaları düyünlü və mənası başa düşülməyən hədisləri bu kitablar vasitəsi ilə açıqlayır və dörd kitabdan .başqa mötəbər üsullarla qanunlar düzəltməklə böyük kitablar yazmışlar

Bu, şiə məzhəbində ilk gündən bu günə kimi olan hədis yazılışının çox kiçik tarixçəsi idi. .İndi isə sünni məzhəbində olan hədislərin yazılış tarixinə nəzər salaq

Sünnü məzhəbində hədislərin yazılması

Qeyd etdiyimiz kimi, Həzrət Məhəmmədin (s) vəfatından sonra onun səhabələrindən bir qrupu, o cümlədən Əbu Bəkr, Ömər

---

Bu hissədə “Came-i əhadisuş-şiə” kitabının müqəddiməsinə müraciət edə . [۱] -۱ .bilərsiniz

ibn Xəttab hədis yazmaqla müxalifətçilik etmişdir. Nəinki yazılmasında, hətta onun şifahi surətdə nəql olunmasının da qarşısını almışlar. Hədis nəql edənlər Peyğəmbər (s) zamanında o Həzrətin mübarək dilindən eşitdiklərini nəinki nəql edə bilir, hətta o .Həzrətin zamanında yazdıqları hədisləri su ilə yumuş və ya oda ataraq yandırmışlar

Əlbəttə sonralar bu düzgün olmayan əməlin üstünü ört-basdır etmək üçün Həzrət Peyğəmbərin (s) özünə nisbət verilən uydurma və elmin ziddinə olan hədislər nəql :etmişlər. Məsələn

لا تَكْتُبُواعَنِّى وَمَنْ كَتَبَ عَنِّى غَيْرالقُرْانَ فَلْيَمْحُه

MəNDəN BIR şEY YAZMAYıN. HəR KəS QURANDAN BAşQA BIR şEY MəNDəN _ (YAZARSA ONU ARADAN APARSıN. _(١

Əbu Bəkrin xilafəti dövründə hədis yazılışının qadağan edilməsi

:Əbu Bəkr Rəsuli-Əkrəmin (s) vəfatından sonra camaatı bir yerə yığdı və dedi

Siz, Peyğəmbərdən (s) hədislər nəql edirsiniz. Bəzən aranızda ixtilaflar baş verir. Əgər“ iş belə getsə, gələcəkdə müsəlmanlar çox möhkəm və şiddətli ixtilaflara düçar olacaqlar. Bu səbəbdən, bu gündən etibarən Peyğəmbərdən (s) heç bir hədis

---

Ət-təsbitu fil-hədis” Bu hədisin uydurma və qondarma olmasına açıq dəlil budur“ . [١] -١ ki, birinci xəlifə (Əbu Bəkr) və ikinci xəlifə (Ömər) bu hədisə əməl etməmişlər. Çünki, sonrakı səhifələrdə gələn mətləbə diqqət etsəniz görərsiniz ki, bu iki xəlifə hədislərin yazılma və yayılmasının qarşısını almaq üçün boş və mənasız dəlillər gətirmişlər. Əgər həqiqətən hədisin yazılmasında Peyğəmbər (s) tərəfindən belə qadağa var idisə, onlar öz hədəflərinin və planlarının irəli getməsində o hədisdən yaxşı istifadə edərək bəhrələnə bilərdilər. Bundan əlavə, Peyğəmbər (s) belə əmri, hədis yazmamaq barədə vermiş olsa böyük alimlər məs: Malik “Məvəttə`” adlı hədis kitabının sahibi və Əhməd ibn Hənbəl “Musnəd” kitabının sahibi və “Sihah, Sunən və Məsanid” kimi kitabların sahibləri o Həzrətin (s) əmrinin qarşısında müxalifətçilik etmiş olurlar. Bu da başqa bir dəlildir ki, əhli-sünnə məzhəbinin alimləri də bu hədisi ya kökündən qəbul etmirlər və

.ya xüsusi bir yerə aid olduğunu bildirirlər

nəql etməyin. Əgər sizlərdən bir kəs sual soruşarsa deyin ki, bizimlə sizin aranızda .(həmin Quran kifayət edər və bəsdir. Onun halalını halal və haramını isə haram bilin(١

Aişə deyir: Atam (Əbu Bəkr), Peyğəmbərdən (s) ٥٠٠ hədis yazaraq toplamışdır. Bir gecə gördüm ki, yatağında çox narahatdır. Onun narahatlığı məni də narahat etdi. Səhər .açılanda narahatlığının səbəbini soruşdum

Dedi: Qızım! Sənin yanında olan hədisləri mənə gətir. Sonra əmr etdi bir od qaladılar. Hədislərin hamısını yandırdı. Bu əməli özü belə izah etdi: "Qorxuram öləm və bu hədislər sənin yanında qalsın. Bəlkə onların içində elə hədislər vardır ki, onları etimadlı şəxslərdən nəql etmişəm. Lakin, mümkündür ki, onlar saleh insanlar olmasın və (onların səhvlərinin məsuliyyəti mənim üzərimə düşsün."(٢

Həqiqət burasındadır ki, xəlifənin bu əməli bir tərəfdən öz sözü ilə hədis nəql etməyi qadağan olunmasını elan etmiş və başqa cəhətdən isə əməli surətdə ٥٠٠ hədis yazdıqdan sonra onları oda ataraq yandırmışdır. Görəsən bu əməl müsəlmanlarda, hədis əzbərləyənlərdə və söyləyənlərdə hansı əks təsirləri qoydu və ya arzuolunmaz nəticələr verdi? Nəticə belə oldu ki, təqribən üç il müddətində Əbu Bəkrin xilafəti dövründə hədis yazmaq və nəql etmək qadağan olundu. Müsəlmanlar təkcə Qurana, onun təfsiri və izahı olmadan diqqət etdilər. Xəlifənin bu əmri verməkdə məqsədi guya .müsəlmanların bütün bəhslərini Qurana yönəltmək idi

Ömərin xilafəti zamanı hədis nəqlinin qadağan olunması

Ömər ibn Xəttabın on illik xilafəti dövründə(٣) yürütdüyü qəzəbli siyasət nəticəsində .hədis yazmaq və söyləmək qadağan edildi

---

;Təzkirətul-hifaz", ١-ci cild, səh. ٣" . [١] -١

;Təzkirətul-hifaz", ١-ci cild, səh. ٥". [٢] -٢

.Ömərin xilafəti on il altı ay və dörd gün olmuşdur . [٣] -٣

İkinci xəlifə nəinki hədis yazmağa və söyləməyə qadağa qoydu, hətta bu işin icra olunmasında zor tətbiq etməkdən çəkinmədi. Tanınmış səhabə Qerzət ibni Kəb (١) belə deyir: “Ömər bizi İraqa tərəf yola salmaq istədiyi zaman, özü bizi “Sərar”(٢)-a kimi :ötürdü. Yol arasında bizdən soruşdu

Bilirsiniz sizi nəyə görə yola salıram? Dedik: Bizə hörmət etdiyin üçün! Dedi: Bəli, - amma burada başqa bir mətləb də var. O da budur ki, siz elə bir yerə gedirsiniz ki o şəhərin əhli Quran oxumaqla məscidləri və oranın mühitini zinətləndirmişlər. Hədis söyləyib onları Quran tilavətindən saxlamayın. Quranı gücləndirin və onunla birgə heç bir kəlməni və ya hədisi dilinizə gətirməyin. Peyğəmbərdən (s) olan rəvayətləri az danışın. Mən də sizin bu işinizdə sizə şərik, sizinlə həmkar və bu əməldə sizi müdafiə .edərəm

Elə ki, Qerzət ibn Kəb Kufəyə daxil oldu. Ondan Peyğəmbərin (s) hədislərindən və kəlamlarından söyləməsini istədilər. Qerzə onların cavabında belə dedi: - Ömər bizə .(hədis söyləməyi qadağan edib (٣

Zəhəbi “Təzkiratul hifaz”- kitabında nəql edir ki: - Əbu Sələmə Əbu Hüreyrəyə dedi: Ömərin xilafəti dövründə də indiki kimi hədis söyləməkdə azad idin? (yəni hədis (?söyləyə bilirdin

Əbu Hüreyrə onun cavabında belə dedi: Əgər Ömərin

١- [١] . Qerzə (قرظه) səhabələr içində ən tanınmış və ləyaqətli şəxslərdəndir. Uhud və başqa döyüşlərdə Peyğəmbərin (s) kənarında igidlik göstərmişdir. İsabənin nəqlinə əsasən Kufədə Peyğəmbərə (s) növhəsəralıq edən birinci şəxs həmin Qerzət ibn Kəb .olmuşdur

٢- [٢] . Məkan adı

٣- [٣] . “Mustədrəkul-Hakim”, ١-ci cild, səh. ١٠٢; “Sunən ibn Macə”, ١-ci cild, ٣-cü bölüm; “Təbəqat”, ۶-cı cild, səh. ٢; “Cameul-bəyanil-elmi” ٢-ci cild; səh. ١۴٨; “Sunəni Darəmi”, ١-ci cild, səh. ٨٥; “Təzkirətul-hifaz”, ١-ci cild, səh. ٣;

.(zamanında hədis söyləsəydim cavabımı taziyanə ilə verirdilər (١

Ömər, Peyğəmbərin (s) səhabələri ilə hədislərin söylənilməsində onları çox çətin və ağır vəziyyətdə qoyaraq yersiz bəhanələr gətirirdi. Əbu Musa Əşəri "istezan" (ev sahibinə əziyyət vermək) barədə bir hədis nəql edən zaman Ömər dedi: "Əgər bu hədisinə şahid gətirməsən səni pis cəzalandıracam." Bəzən bu hədə- qorxular camaatın etirazina səbəb olurdu. Belə ki, Əbu Munzir həmin əhvalatda Ömərə belə :dedi

فَلاتَكُنْ يَبْنَ الْخَطَّابْ عَذَاباًعَلَى أَصْحَابِ رَسُول الله |

EY XəTTABıN OğLU! PEYğəMBəRIN _(S)_ SəHABəLəRINə NARAHATLıQ Və əZIYYəT _ (VERMə._(٢

Ömər tanınmış hədisçilərdən üç nəfəri: İbn Məsud, Əbu Dərda və Əbu Məsud Ənsarini hədis nəql etdiklərinə görə Mədinədə nəzarət altında saxlamış və ölənə kimi bu üç (nəfər ev dustağı kimi yaşamışlar.(٣

Hakim öz "Mustədrək" adlı kitabında Ömərin əmri il üç nəfəri - İbn Məsud, Əbu Dərda və Əbuzər(٤)- hədis söylədiklərinin qarşısını almaq üçün nəzarətdə saxlanılaraq .sonradan həbs olunduqlarını yazır

Bu hədə-qorxuların və hədis söyləməyin qadağan olunmasının nəticəsini Peyğəmbərin (s) səhabələrindən olan Saib ibn Yezid (vəfatı-hicri-qəməri tarixi ilə ٨٠-ci il.) nəql edərək belə açıqlayır: "Mən Səid ibn Maliklə(٥) Mədinədən Məkkəyə

Təzkirətul-hifaz ١-ci cild, səh. ٤ . [١] -١
Səhihi-Buxari ٦-cı cild, Babul-istezan – bu əhvalatın təfsilatı kitabın ikinci cildinin . [٢] -٢ .xilafət bəhsində (Xəlifələrin hökmlərə cahilliyi bəhsində) gətirəcəyik
.Təzkirətul-hifaz ١-ci cild, səh. ٧ və Məcməul-zəvaid ١-ci cild, səh. ١٤٩ . [٣] -٣
Mustədrək ١-ci cild,səh. ١١٠ . [٤] -٤
İstiabın nəqlinə əsasən ٢-ci cild;səh. ٦٠٢; - O, ənsar alimlərindən idi və . [٥] -٥

(.Peyğəmbərdən (s) çoxlu hədislər hifz etmişdir

kimi bir yerdə yol yoldaşı oldum. Səd bu uzun səfərdə yol boyu hətta bir dənə də olsun (Peyğəmbərdən (s) hədis söyləmədi”. (١

Şə`bi deyir: “Bir il Əbdullah ibn Ömərlə bir məclisdə oldum. İl boyunca Peyğəmbərdən ((s) bir dənə də olsa hədis söyləmədi.”(٢

Ömərin vaxtında hədis yazmaq və toplamağın qadağan olunması

:İbn Səd öz “Təbaqat” adlı kitabında deyir

Ömər ibn Xəttab bir gün sunən və hədislərin yazılması barədə qəti qərara gəldi. Bu barədə Peyğəmbərin (s) səhabələri ilə məşvərət etdi. Səhabələr hamısı müsbət cavabla razı olduqlarını bildirdilər və bu işin çox lazım olduğunu vurğuladılar. Ömər bir :ay şübhə ilə səbr etdi. Bir aydan sonra dedi

Mən özüm hədislərin yazılmasında qabaqcıl şəxslərdənəm. Bu mövzunu da özüm“- açdım. Lakin, sonra bu məsələyə diqqət etdim ki, sizdən öncə kitab əhlindən olan bir qrup Allahın kitabı olan yerdə başqa kitabların yazılmasına üstünlük verirdilər və ona çox rəğbət bəsləyirdilər. Nəticədə, Allahın kitabını tərk etdilər. Bu səbəbdən mən də ”.Allahın kitabına bir şey artırılmasına yol verə bilmərəm

Bununla da Ömər öz fikrindən döndü və hədisin yazılmasını və toplanmasını tərk (etdi.(٣

Hədis Osmanin dövründə

Osmanın on iki illik xilafət dövrü İslam tarixinin ən acınacaqlı tarixi hadisələrindən biri sayılır. Çünki, bu müddət ərzində dünyapərəstlik, haqsızlıq və zülm yüksək dərəcəyə .çatmışdı

Sunən ibn Macə ١-ci cild,səh. ١٢ . [١] -١

Təbəqat ibn Səd ٤-cü cild,səh. ١٠٦; Sunən ibn Macə ١-ci cild, bab-٣; Səhihi-Buxari . [٢] -٢ .٩-cu cild, bab- Xəbərul-mərətul-vahidə

Təbəqat ibn Səd”, ٣-cü cild, səh. ٢٠۶; “Əbu Talib muminul-Qurəyş”, ٢-ci və ٣-cü “ . [٣] -٣
;cild

Müsəlmanların beytul-malı, zəiflərin və fəqirlərin hüququ o şəxslərin əlində idi ki, onların Osmanla qohumluq əlaqəsi var idi. Osmanın sarayında qarnını doldurmaqla məşğul olanlar və təmtəraqlı saray sahibləri keyf və işrət içində olduqları bir halda, başqa müsəlmanlar bu sarayların qapısı ağzında gecələri səhərə kimi aclıqdan yata .bilmirdilər

Peyğəmbər (s) səhabələrindən ən ləyaqətli şəxsləri hökumət başına və məsuliyyətli vəzifələrə təyin etməkdənsə, onların əvəzinə Vəlid, Mərvan, Müaviyə və s. kimi .cinayətkar şəxsləri iş başına və məsuliyyətli vəzifələrə təyin etmişdi

Allah Peyğəmbərinin (s) səhabələri xilafətlə həmkarlıq etmədikləri, Quran oxuduqları və Peyğəmbərin (s) hədislərini söylədikləri üçün həmişə xəlifə Osman tərəfindən əzab-əziyyətə məruz qalırdılar. Osmanın bu hərəkətləri, səhabələrin və o cümlədən, .haqq tərəfdarı olan müsəlamanların üsyanına səbəb oldu

Osmanın xilafəti dövründə nəinki hədisə, hətta Quran ayələrinə belə diqqət olunmurdu. Quran oxuyanları və hədis söyləyənləri cəmiyyətdən uzaq səhralara sürgün etməklə, bəzilərini zindanlara salmaqla, bəzilərini isə şallaq və taziyanələrlə .hədis söyləmələrinin qarşısını alırdılar

Böyük və zahid səhabələrdən olan Əbuzər Qəffarinin sürgün olunması, Əbdullah ibn Məsud kimi böyük səhabənin məscid yanında döyülərək dişlərinin və qabırğalarının sındırılması, Əmmar Yasir kimi səhabənin döyülməsi, bu əzabın təsirindən bihuş .olması və s. tarixi faktları buna misal gətirmək olar

Xülasə, İslamın qabaqcıl və ön cərgəsində duran, Peyğəmbərin (s) səhabələrindən sayı ona çatan bir çoxunun belə əziyyət çəkməsi (döyülmək, söyülmək, sürgün və (həbs olmaları) Osmanın xilafəti dövründə gözə dəyir.(١)

.Bu hadisələrin geniş məzmunu Əl-ğədir kitabında verilmişdir ٨-ci və ٩-cu cildlər . [١] -١

Osman mənbər üstə özü eşitdiyi hədislərdən başqa hədislərin söylənilməsinə yersiz :qadağa qoyaraq belə fərman vermişdir ki

لايَحِلُّ لَاَحدٍأَنْ يَرْوى حَديثاًعَنْ رَسُولُ الله | لَمْ اسْمَعْ بِهِ فِى عَهْدِ أبِى بَكْرٍوَلاعَهْدِعُمَرِ

ƏBU BəKR Və ÖMəRIN XILAFəTI ZAMANıNDA ONLARDAN EşITDIYIM __ _ HəDISLəRDəN BAşQA HEç KəSIN HAQQı YOXDUR KI, PEYğəMBəRDəN _(S)_ HəDIS _ ._(SöYLəSIN_(١)

Beləliklə, hədis söyləməyin qarşısını aldı və bu işi ilə hədis yazmağı qəti surətdə .qadağan etdi

Hədis Müaviyənin zamanında

Müaviyənin təqribən ۴۰ ilə yaxın sürən xilafəti və hökuməti dövründə, xüsusilə xilafətinin axırırncı ۲۵ ilində(۲), uydurma və qondarma hədislər, əvvəlki xəlifələrin .dövründən daha çox inkişaf etməyə başladı

Əmirəl-möminin Əlinin (ə) məqam və vəziyyətini nəzərə almaqla, o Həzrətdən nəql olunan səhih və düzgün hədislərin təsəvvürolunmaz dərəcədə çoxluğu, Müaviyənin o zamankı siyasi vəziyyətinin təamamilə Zər`ərinə idi. Belə düzgün hədislərin qarşısında uydurulmuş hədisləri müxtəlif yollarla camaatın nəzərinə çatdırmaq lazım gəlirdi. Beləliklə, yalan və uydurma hədislərin müxtəlif yollarla yayılması Müaviyənin və onun .siyasətinin xeyrinə qurtardı

Müaviyənin nəzərdə tutduğu məxsus hiylələr hər iki tərəfdən təmin edilərək, həyata keçirildi. Çünki, bir tərəfdən mənbərlərdə Əbu Bəkr və Ömərin xilafətindən başqa

---

Qəbulul-əxbar fi tərki qəbule ma yuxaliful-kitabə vəs-sünnətə vəl -əqlə ma“ . [۱] -۱ ənin–nəbiyyi və ənis-sələf”, səh. ۲۹, “Musnədi İmam Əhməd”, ۱-ci cild, səh. ۳۶۳; “Sünnə, yazılışdan öncə” səh. ۹۷ kitabından nəql etmişdir; “Təbəqat ibn Səd”, ۲-ci cild; ;۲-ci qism, səh. ۱۰۰

.Osmanın ölümündən öz ölümünə kimi hic.-۳۵-ci ilindən ۶۰-cı ilinə kimi . [۲] -۲

dövrlərdən nəql olunan hədislərə qadağan qoyulur(۱), başqa tərəfdən isə camaata Osman və səhabə barəsində hədislər nəql olunurdu. Belə hədislərə diqqət edən, əzbərləyən şəxslərə hədiyyələr və böyük ənamlar verilirdi. Bu yolla bir çox şəxsləri .yalan və uydurma hədislərin yazılmasına və çoxalmasına rəğbətləndirirdi

Biz Müaviyənin əmri ilə uydurma hədislərin yazılmasına, səhih hədislərin isə nəql olunmasına qoyulan qadağanı, Əbul Həsən Mədainin(۲) sözlərindən bir qismini tərcümə etməklə bəzi tarixi sübut və dəlilləri müxtəsər şəkildə təəccüblü nöqtələri ilə .birgə əziz oxucuların ixtiyarına qoyuruq

:Mədaini öz qiymətli "Əl-Əhdas" adlı kitabında belə deyir

Müaviyə bütün əlaltıları və təyin etdiyi əyalət hakimlərinə fərman yazdı. Məktubda belə deyilir: - "Mən, Əbu Turab (Əli (ə)) və onun övladlarının fəziləti barədə hədis nəql .edənlərdən öz himayəmi götürdüm və onların qanını halal etdim

Bu fərmanın nəticəsində xütbə oxuyanlar və xəbər deyənlər geniş İslam məmləkətlərinin bütün nöqtələrində, mənbərlərdə belə İmam Əliyə (ə) lənət oxumağa başlayaraq ondan uzaqlaşmağı təbliğ etdilər. İmam Əli (ə) və onun övladlarına nisbət bir çox böhtanlar yayıldı və onun ünvanına yersiz sözlər deyilirdi. Kufə əhli başqa şəhərlərdən fərqli olaraq biçarəlik, bədbəxtlik və müsibət girdabında batıb qalmışdı. ,Çünki

---

Səhihi-Müslim", ۳-cü cild, "Kitabuz-zəkat", "Ən-nəhyu ənil-məsələ" bölümü;" . [۱] -۱ hədis: ۱۷۵۱; və ۵-ci cild; "Kitabul-musaqat" ۱۵-ci bölüm, "Əs-sərfu və beyuz-zəhəb" ;bölümü; hədis: ۱۵۷۸

Əbul Həsən Mədaini tarix üzrə böyük alimdir. Müxtəlif kitablar yazmışdır. Məs: . [۲] -۲ "Xətəbun-Nəbiy və əhdas"; "Xutəbu Əmirəl-möminin"; "Mən qətələ minət-talibin"; "Fatimiyyat" və s... İbn Əbil Hədid Mötəzili Nəhcül-bəlağənin şərhində ondan bir çox mətləblər nəql etmişdir. Mədaini ۹۰ yaşında ۲۲۵-ci hq-i tarixində Bağdadda vəfat .etmişdir

Kufədə Əlinin (ə) şiələri başqa yerlərə nisbətən çox idi. Şübhəsiz ki, Əbu Süfyan oğlu Müaviyənin bu şəhərə zülmü başqa şəhərlərdən daha çox idi. Buna görə də Kufənin hökumət və idarə sistemini Ziyad ibn Suməyyəyə təhvil verdi və Bəsrəni də ona artırdı. Ziyad ibn Suməyyə Müaviyənin bu məhəbbəti, lütfü qarşısında, "duz-çörəyi" itirmədi və Əbu Süfyan oğlu Müaviyənin "haqqını" taptalamadı. Əli (ə) şiələrini daşın və torpağın altından, harada gizlin və aşkar yaşayırdılarsa taparaq öldürürdü. Onların ürəklərində qorxu və vəhşət yaradır, əl-ayaqlarını kəsir, gözlərini çıxardaraq kor edirdi. Bu cinayətlərin nəticəsində Əli (ə) şiələri İraqdan qaçaraq, ucqar yerlərə pənah aparır və öz əqidələrini hamıdan məxfi saxlayırdılar. Xülasə, Kufədə tanınmış və iş ".bilən bir şiə qalmadı

Mədaini sonra əlavə edərək deyir: "Əbu Süfyan oğlu Müaviyə öz sərkərdələrinə əmr etdi ki, Əli (ə) övladlarının və onun şiələrinin məhkəmədə verdikləri şahidliyi qəbul etməsinlər. Həmçinin əmr etdi ki, öz yerlərində Osmanın və onun ailəsinin tərəfdarları və Osmanın fəzilətləri barədə uydurma hədis söyləyən şəxslər barədə çox diqqətli olsunlar. Onlara məclislərdə hörmət etmək və əzizləməkdə səhlənkarlıq etməsinlər. O cümlədən, Osmanın barəsində hədis söyləyən hər bir kəsin şəxsiyyətini və tərcümeyi-.halını kamil surətdə yazaraq Müaviyənin sarayına, Şam şəhərinə göndərsinlər

Sərkərdələr bu əmrə əsasən, Osmanın fəziləti barədə bir cümlə belə söyləyən hər bir kəsə xüsusi sənəd verərək ona maaş və ənamlar müəyyən edirdilər. Bu da, Osmanın fəzilətləri barədə çoxlu mətləblərin nəql olunmasına səbəb oldu. Çünki, belə hədisləri ."nəql edənlər Müaviyənin məxsus hədiyyə və mükafatlarına layiq görülürdülər

Mədaini deyir: "Müaviyənin belə bəxşişləri, hakimlərin uydurma hədis yazmağa həvəsləndirmələri nəticəsində bütün

İslam şəhərlərində saxta hədis yazmaq adi bir hala çevrildi. Müaviyənin şəhərlərə qoyduğu hakimlərin yanında hər kəs istər yaxşı və ya pis Osmanın barəsində bir fəzilət və ya hədis nəql edərdisə hədis sual cavabsız qəbul olunur, hədis söyləyənin adı isə hədiyyələr dəftərində qeyd olunurdu. O cümlədən, Müaviyə yanında hörmətə minir, .”belə şəxsin istəyi və sözü heç vaxt rədd olunmurdu

İkinci fərman

:Görkəmli və tanınmış alim Mədaini öz sözlərini belə davam edir

Əbu Süfyan oğlu Müaviyə Osman barədə söylənilən rəvayətlərin düzəlməsindən bir“ :müddət sonra vilayət başçılarına belə yazdı

Osman barədə hədislər kifayət edər. Həddindən artıq çoxalaraq İslam“ məmləkətlərinin bütün nöqtələrinə kifayət qədər çatmışdır. Bu fərman əlinizə çatan kimi camaatı səhabələrin və iki xəlifənin (Əbu Bəkr və Ömər) fəzilətləri barəsində hədis uydurmalarına rəğbətləndirin. Əbu Turabın (Əlinin (ə)) barəsində nəql olunan hər bir hədisə oxşar bir hədisi səhabələr barədə də qoşsunlar. Bu əməl mənim gözlərimin işıqlanmasına, bununla da Əbu Turab şiələrinin və övladlarının məhv olmasına səbəb .olacaqdır

Bu fərman camaata oxundu və onun məzmunu xalq arasında yayıldı. Dərhal səhabənin fəziləti barədə uydurma və həqiqətdən uzaq olan çoxlu xəbər və hədislər söylənilməyə başlandı. Camaat belə hədislərin düzəlməsində və yayılmasında çox çalışırdılar. İş o yerə çatdı ki, uydurma fəzilətləri mənbərlərdə, namaz arası xütbələrdə camaat üçün oxunur və müsəlmanlara əmr olunurdu ki, bu hədisləri öz uşaqlarına da öyrətsinlər. Quran ayələri kimi onları əzbərləməkdə çalışırdılar. Hətta qadınlara, qızlara və

xidmətçilərə də bu uydurma fəzilətləri öyrədirdilər. Bu minvalla bir müddət belə ".davam etdi

Üçüncü və dördüncü fərman

:Mədaini yenə də deyir

Bir müddət də keçdi. Əbu Süfyan oğlu Müaviyənin xidmətində olanların və ona itaət"- edənlərin səhabələr və iki xəlifə barədə uydurduqları saxta hədislərini yazdıqdan :sonra Müaviyə bu məzmunda üçüncü və dördüncü fərmanı çıxartdı

Diqqətli olun ki, hər bir kəs Əlinin (ə) və onun övladlarının dostu adı ilə ittiham olunsa" - və bu ittihama kiçik bir sübut tapılsa, onun adını hədiyyə dəftərindən silin və payını "! beytul -maldan kəsin

:Bu fərmanin ardınca bu məzmunda yeni bir fərmanı göndərdi

Hər bir kəs Əli (ə) övladlarının dostu adı ilə ittiham olunsa ona təzyiq göstərin və evini " ".alt-üst edin ki, başqaları üçün ibrət dərsi olsun

:Mədaini deyir

İraq əhli, məxsusən kufəlilər bu hadisədən və müsibətdən böyük bir müsibət"- görmədilər. Çünki, Əli (ə) şiələri bu fərmanın təsiri və hakimlərin əziyyəti nəticəsində çox dəhşətli qorxu şəraitində yaşayırdılar. Belə ki, bəzən Əlinin (ə) şiələrindən iki nəfər dost bir-birlərinin evlərinə gedərdilər. Ev sahibi qulamının və xidmətçisinin qorxusundan onlara and verib əhd-peyman bağlamazdan əvvəl qonağına bir söz .açıqlaya bilmirdi. O da başqalarına deməmək şərti ilə olurdu

Beləliklə, Əli (ə) və onun övladları barədə uydurma hədislər tapıldı. Hədis söyləyənlər, qazilər və hakimlər həmin uydurma hədislərə qeyd-şərtsiz itaət edirdilər. Riyakar, camaatın ən pisi, əqidəsi zəif olan, zahirdə imanlı və ibadət əhli olan, hakimliyə

yaxınlaşmaq, dünya malına və sərvətinə nail olmaq istəyənlər uydurma hədislər düzəldirdilər. Zaman keçdikcə bu yalan və böhtanlarla dolu olan uydurma xəbərlər dindar və təqvalı şəxslərin əlinə keçdi. Lakin, bir qrup insanlar əqidələrinin yaxşı olması və sadəlikdən həmin uydurmaları qəbul etmiş və başqalarına da söyləmişlər . Əgər o hədislərin batil və uydurma olduğuna diqqət etsəydilər onu söyləməkdən (çəkinərdilər”.(١

Əməvi xəlifələri zamanında hədisin vəziyyəti

Mədaini Müaviyənin dövründə hədislərin vəziyyətini nəql etdikdən sonra, iyirmi bir il Əbdul Məlik ibn Mərvanın səltənəti və xilafəti dövründə hədislərin aqibətini, şiələrin əzab-əziyyət çəkmələrini Müaviyənin zamanından heç də az olmadığını geniş şəkildə bəyan etmişdir. O cümlədən, Mərvan və onun qaniçən və şiələrə zülm edən, vilayət başçısı təyin etdiyi Həccac ibn Yusifin etdikləri günahların və cinayətlərin bir qismini :qeyd edərək belə deyir

:Həccacın məclisinə bir kişi daxil oldu və dedi“

Əmir! Atam və anam mənə haqsızlıq ediblər. Çünki, mənim adımı “Əli” qoyublar. Mən . də fəqirəm və əmirin hədiyyəsinə möhtacam

:Həccac onunla xoş davrandı və dedi

Bu gözəl sözlərinə görə filan şəhərə başçılıq etməyi sənə həvalə edərək o şəhəri sənə (bağışladım.“(٢

Hədis yazmaqda ilk addım

Peyğəmbərdən (s) sonra hədisin necə yazılması barədə bəhs edildi. Əyyaşlıq və xoşgüzaranlıqla məşğul olan Əməvi xəlifələri dövründə hədisin mövzusu, başqa sözlə mənəviyyat tədricən yaddaşlardan silinirdi. “Din”-dən yalnız onun quru

---

;Nəhcül-bəlağənin şərhi”, İbn Əbil-Hədid, ١-ci cild, səh. ٤٤-٤٦“ . [١] -١

۲- [۲]. “Nəhcül-bəlağənin şərhi”, İbn Əbil Hədid, ۱-ci cild, səh. ۴۴-۴۶;

adı və rəsmi olaraq Qurandan başqa bir şey qalmamışdı. Alimlər və hədisçilər də ictimai mühitin təsiri altına düşərək Raşidin xəlifələrin(١) əməllərini özlərinə hədəf və meyar bilirdilər. Bir başa hədis yazmağı zehnlərdən çıxarmış və onu batil bir iş bilirdilər. O cümlədən, Ömər ibn Əbdul-Əzizin xilafətinə qədər (hicri-qəməri tarixi ilə ٩٩-١٠١-ci .illər) hədis yazmağın önünə qırmızı bir xətt çəkmişlər

Ömər ibn Əbdul-Əziz öz qısa xilafəti zamanı müsbət və faydalı addımlar atmağa başladı. Bu addımlardan biri də özündən əvvəlki xəlifələrin hədis yazılışını qadağan .etmək siyasətini ləğv etməsi və hədis yazılışının başlanmasına bir təkan idi

Buxari nəql edir ki, Ömər ibn Əbdul-Əziz, onun tərəfindən Mədinədə qaziliyə və hakimliyə təyin olunmuş Əbu Bəkr ibn Həzmə rəsmi şəkildə hədis yazılmasını əmr etdi. Bununla da həmin məktubda, köhnəlmiş və aradan getmiş hədislər üçün öz (nigaranlığını bildirdi. (٢

Ömər ibn Əbdul–Əzizin xilafəti dövründə hədisin əməli sürətdə yazılması

Əhli-sünnə alimlərinin bir çoxu Ömər ibn Əbdul-Əzizin məktubunu nəql etmiş və onu hədisin yazılma tarixi kimi tanıtdırmışlar. Hicrətin birinci yüz illiyinin axır illərində və yaxud hicrətin ikinci yüz illiyinin əvvəllərini hədis yazılışının çiçəklənən illəri kimi (adlandırmışlar.(٣

Mərhum Əllamə Seyyid Həsən Sədr (vəfatı-١٣٥۴-cü hicri-qəməri tarixi) bu nəzəri tarixi :dəlillərlə rədd edərək belə deyir

---

. (Əbu Bəkr, Ömər ibn Xəttab, Osman ibn Əffan və Əli ibn Əbu Talib (ə . [١] -١

;Səhihi-Buxari", ١-ci cild, "Kəyfə yəqbizul elm" bölümü" . [٢] -٢

İbn Həcər "Fəthul-bari" ١-ci cild, səh. ٢٠۴; "İrşadus-sari" Əsqəlani ١-ci cild, səh. ٧; . [٣] -٣
;Cəlaluddin Süyuti "Tədribul ravi", səh. ۴٠

Hədis yazmağa başlayan ilk şəxs Malik olmuşdur. O,“Muvəttə” kitabını Mənsur“ Dəvaniqinin (hicri-qəməri tarixi ilə ۱۳۶-۱۵۸-ci illər) əmri ilə, onun xilafəti zamanı .”yazmağa başlamışdi

:Mərhum Əllamə Sədr öz nəzəriyyəsini isbat edərək belə deyir

;Ömər ibn Əbdul-Əzizin xilafəti iki il beş ay çəkdi .۱

Bu əmrin onun xilafətinin əvvəllərində və ya axırlarında icra olunması barədə olan .۲ ;tarix məlum deyildir

Heç bir tarixdə Əbu Bəkr ibn Həzm kimi xəlifənin əmrlərinə etiraz edən bir şəxs .۳ görünməyib. O cümlədən, İbn Həzmin adına olan bir kitab və ya əsər hələ tapılmayıb. İbn Həzmə hədisin yazılmasını istinad edənlər və bu nəzəriyyənin tərəfdarları ehtimal ;və şübhələrə çox əsaslanmışlar

Əgər bu əmr İbn Həzmin zamanında yerinə yetirilsəydi və hədisin o zamanda yazılışı .۴ isbat olunsaydı, nəyə görə onda bəzi tanınmış tarixçilər tərəfindən hədisin yazılışı hicrətin ikinci yüz illiyinin axırlarına təsadüf etdiyini nəql edirlər?O cümlədən, Hafiz Zəhəbi ki, onun işində ustalığı və doğruçuluğu hamıya çox məlumdur, açıq-aşkar belə deyir: “Sunən” və bu kimi kitablar, ilk dəfə Əməvilərin xilafətindən və Əbbasilərin .hakimiyyətə gəlişindən sonra yazılmağa başladı

(Heç bir tarixçi Süyutinin və İbn Həcərin nəzərini qəbul etmirlər”.(۱)

Biz də mərhum Sədrin nəzəriyyəsinin təsdiqində deyirik ki: İbn Həcərin özü birinci müəllif barədə müxtəlif nəzəriyyələr vermişdir. Bir yerdə belə deyir: “Hədis yazmağa başlayan ilk şəxs Rəbi ibn Səbih idi.(۲) Başqa bir yerdə isə deyir: Əvvəlinci

---

;Təsisuş-şiə”, səh. ۲۷۸-۲۷۹“ .[۱]-۱

Hədyus-sari”, ۱-ci cild, səh. ۴ (İbn Həcər Əskəlaninin “Fəthul-bari” kitabına olan“ .[۲]-۲ (müqəddiməsi

müəllif Şəhab Zohəridir ki, birinci əsrin sonunda Ömər ibn Əbdul-Əzizin əmri ilə bu işi (gördü”.(۱

:Başqa bir yerdə isə belə deyir

(Birinci müəllif və hədis yazan İbn Həzmdir”.(۲“

Fərid Vəcdi də hədisin birinci müəllifinin Maliki olduğunu bildirmişdir: “Hədis barədə əvvəlinci müəllif Malikdir. O, ”Muvəttə`” kitabını təlif etdi və bəziləri dedilər ki, İbn (Cəriğ (vəfatı-۱۵۰-ci hicri-qəməri tarixi) ilk hədis müəllifidir”.(۳

Katib Çələbi deyir: - “İslamda ilk təlif olan kitab ibn Cəriğin kitabıdır”. Sonra deyir: “Malikin “Muvəttə`” kitabının birinci yazıldığı söylənilmişdir. O cümlədən, deyilmişdir ki, (hədis kitabı yazmağa başlayan ilk şəxs, Rəbi` ibn Səbih idi”.(۴

Hafiz Zəhəbi hicri-qəməri tarixi ilə ۱۴۳-cü ilin hadisələrindən belə nəql edir: “Bu ildə (alimlər Məkkə və Mədinə şəhərlərində hədis yazmağa başladılar”.(۵

Doktor Əhməd Əmin, Ömər ibn Əbdul-Əzizin əmri barəsində olan bəhslərdən sonra belə deyir: “Bizə məlum olan budur ki, Əbu Bəkr ibn Həzmin adına olan əsər və birinci əsər adlı bir şey bizim əlimizə çatmayıb. O cümlədən, keçmişdəki hədisçilərdən heç biri bu kitab barədə heç bir söz deməmişlər. Əgər belə bir kitab olsaydı, hədis yazanlar üçün ən mühüm sənədlərdən biri kimi sayılardı. Belə olduğu halda da hökmən onlar öz .”yazılarında belə bir kitaba istinad edər , ondan dəlil kimi istifadə edərdilər

İş burasındadır ki, bəzi qərb alimləri(۶) belə xəbərin olmasına

---

Fəthul-bari”, ۱-ci cild, səh. ۲۱۸“ . [۱] -۱

;Fəthul-bari”, ۱-ci cild, səh. ۲۰۴“ . [۲] -۲

;”Dayiratul-maarif“ . [۳] -۳

;Kəşfuz-zunun”, ۱-ci cild, “Elmul-hədis” bölümü“ . [۴] -۴

.Derasətun fil Kafi vəl Buxari” dən nəql olunub səh. ۲۱“ . [۵] -۵

Şərq ölkələrində, xüsusən müsəlmanlar yaşayan məmləkətlərdə və ya . [۶] -۶

.ölkələrdə siyasi, ictimai, iqtisadi, mədəni və s... kimi axtarışla məşğul olanlar

şəkk etmişlər. Lakin Əbdul-Əzizin əmri və əsl xəbər barədə şəkk-şübhə yoxdur. Ancaq bu əmrin yerinə yetirilməsi məsələsi şübhəli bir məsələdir. Bəlkə də bu əmrdən sonra dərhal Ömər ibn Əbdul-Əzizin(١) vəfatı səbəb oldu ki, Əbu Bəkr ibn Həzm bu əmri yerinə yetirə bilməsin.(٢)

Əziz oxucu! Gördüyünüz kimi alimlər hədisin yazılması barədə və sünnilər arasında birinci müəllifin kimliyi barədə nəzər ayrılığına malikdirlər. Hədisin Ömər ibn Əbdul-Əzizin xilafəti dövründə yazılması barədə heç bir dəlil-sübut olunmamışdır. Bu haqda yazılan mövzu budur ki, Buxarinin nəql etdiyinə əsasən bildiririk ki, Ömər ibn Əbdul-Əziz hədis yazılması barədə əmr etmişdir. Lakin bu əmrin tarixi nöqteyi-nəzərdən yerinə yetirilməsi isbat olunmamışdır. Bəlkə tarixdə gələn hadisələr və bu hadisələrin adi axarına nəzər salarkən bu məsələnin əksi sübut edilir.

Uzun bir müddət, yəni yüz əlli illik qadağadan sonra hədis yazılışı və deyilişi azadlığa çıxdı və çiçəklənməyə başladı. Dərs hövzələrində hədis yazmaq yavaş-yavaş adi hala çevrildi. Bu iş sonralar xəlifələrin təzyiqi və əmrləri ilə genişləndi. Çünki, müsəlmanlar bir əsr haram bildikləri işin ardınca getmək istəmirdilər. Buna görə də Muəmmər, o da Zohəridən nəql edir ki:

“Biz hədis yazmağı günah və səhv bir iş bilirdik. Xəlifələr və hakimlər bizi hədis yazmağa məcbur etdilər”.(٣)

Alti səhih kitabın meydana gəlmə tarixi

Hicri-qəməri tarixi ilə ikinci əsrin ikinci yarısında hədisçilər

---

١- [١] . Hakimiyyət tərəfindən zəhərlənib öldürülməsi.

٢- [٢] . “Zuhal-İslam”, ٢-ci cild; səh. ١٠٦-١٠٧;

٣- [٣] . “Cameu bəyanil-elm”, ١-ci cild; səh. ٩٢; “Təbəqat”, ٢-ci cild; səh. ١٣٥;

keçmiş səhvlərini başa düşərək hədis yazmağa başladılar. Bununla hədis elmi birdən birə inkişaf etməyə başladı. Hədis elminin inkişafdan qalma səbəbi isə guya ictimai vəziyyətin qorxulu olması idi. Qısa bir müddət ərzində təqribən bir əsr hicri-qəməri tarixi ilə ١٥٠ –ci ildən ٢٥٠-ci ilə kimi "sihah", "məsanid" və "mustəxrəc" və s. kimi kitablar (meydana gəldi.(١)

Bu zamanda müəlliflərin hədəfi və səyi hədis toplamaq idi. Hələ hədis səhihə, həsənə, zəifə və məmula ayrılmamışdı.(٢) Kitabların məzmunu və onun sənədləri müxtəlif hədislərlərdən ibarət olan səhihdən və qeyri- səhihdən təşkil olunurdu. Hicrətin ٢٥۶-cı ilində Buxariyə və başqa sihah sahiblərinə bu hədislərin məzmunu və sənədləri gəlib .çatdı

İbn Həcər deyir: "Buxari elə ki, bu kitabları və məsanid kitabını gördü, bir müddət onları araşdırdıqdan sonra bu nəticəyə gəldi ki, doğru və yanlış hədislər qarışmışlar və bir-birlərinin kənarında yerləşmişlər. Onların doğrusunu yanlışından seçmək hər kəsə müyəssər olmadığı üçün, doğru hədisləri minlərlə qarışıq hədislərin arasından (çıxararaq bir kitabda cəm etdi ki, heç kimə şəkk –şübhə yeri qalmasın".(٣

Buxaridən sonra onun şagirdi Müslim ibn Həccac Quşeyri Nişapuri (hicri-qəməri tarixi ilə ٢۶١-ci il) öz "Səhih" adlı kitabını "Əl-Cameus-Səhih" adı ilə topladı. Onun ardınca Müslim Məhəmməd ibn Yəzid ibn Macə Qəzvini (hicri-qəməri tarixi ilə ٢٧٣-cü il) öz ."Sunən" adlı kitabını yazaraq tamamladı

Əbu Davud Səcistani Süleyman ibn Davud (hicri-qəməri tarixi ilə ٢٧۵-ci il) və onun ardınca Termizi Məhəmməd ibn İsa

---

Kəşəfuz-zunun"un sahibi təkcə məsanid barədə ۴٠-dan çox musnədin adlarını" . [١] -١ qeyd etmişdir. Onlar arasında musnəde Əhməd ibn Həmbəl ٣٠٠٠٠ hədisə malik olmaqla .birinci yerdə dururdu

.Hədis elminin istilahlarındandır . [٢] -٢

;Hədyus-sari", ١-ci cild, səh. ۴" . [٣] -٣

ibn Surə (hicri-qəməri tarixi ilə ٢٧٩-cu il) öz “Came” adlı kitabını “Camei-Termizi” adı ilə təqdim etdi. Termizidən sonra Əhməd ibn Şueyb Nəsai (hicri-qəməri tarixi ilə ٣٠٣-cü il) .öz məruf “Sunəni-Nəsai” adlı kitabını(١) yazdı

Bu altı kitab sünni məzhəbinin birinci “Came” kitablarını təşkil edir. Bu kitablar onların etiqadlar, füruiddin, təfsir və İslam tarixi kimi mövzularda etimad etdikləri kitablar sayılır. Bu altı kitab “Sihahi-sittə” yəni altı səhih kitab adı ilə tanınmış və bəzən Səhihi-Buxari və Səhihi-Müslimdən “Səhiheyn” yəni iki səhih kitab, başqa dörd kitablar isə (“Sunən” adı ilə tanındı.(٢

Bu kitablardan sonra yüzlərlə müsnəd, mustədrək, mustəxrəc və s. adlı kitablar yazıldı. .Lakin bunların heç biri sihah kitablarının səviyyəsinə çatmamışdır

Sihah və Məsanid kıtabları arasında olan fərqlər

Hədis istilahı dilində, “səhih” o hədisə deyilir ki, onun sənədi adil və təqvalı şəxslər (vasitəsilə Peyğəmbərə (s) ya da məsum imamlardan birinə çatsın.(٣

Bu altı kitab öz məzmunu və bütün hədisləri, sənəd və ravi, həmçinin mətn cəhətindən səhih sayıldığına görə onu “sihah”, yəni “səhihlər” adlandırmışlar. Mümkündür ki, bir hədis səhih sahiblərinin birinin nəzərində düzgün, lakin başqalarının nəzərində isə düzgün sayılmasın. Amma sihah müəlliflərinin nəzərində bu kitablarda yazılanlar və nəql olunanlar hamısı düzgün və mötəbər şəxslər tərəfindən nəql olunmuşdur. Lakin məsanid və başqa kitabların məzmunlari belə deyildir. Onların müəllifləri bu hədislərin hamısının səhih və düzgün olmasına

---

١- [١] . Bəzən bu kitab, “Muctəba” da adlandırılmışdır.

٢- [٢] . Bəzən “Muvəttəi-Malik” kitabını “Sünən” və “Sihah”ın sıralarında sayırlar.

٣- [٣] . Bu tərif barədə hər iki məzhəbin (şiə və sünni) kitablarında dərc edilmişdir.

inanmırlar. Bu hədisləri yazanların əsas və ümdə hədəfləri doğru və yanlışlığına baxmayaraq onları toplamaq olmuşdur. Hətta Əhməd ibn Həmbəl öz müsnəd adlı .kitabında ۴۰۰۰-ə yaxın hədis qeyd etmişdir ki, onların hamısını doğru və düzgün sayır

Bu kitabı yazmaqda məqsədimiz

Biz hədisin meydana gəlməsi və onun xüsusiyyətlərini xülasə şəkildə açıqladıq. Peyğəmbərin (s) vəfatından sonra hədislərin Ömər ibn Əbdul-Əzizin xilafətinə kimi necə nəql olunub yazılması barədə möhkəm dəlillərə əsaslanaraq, əziz oxucunun nəzərinə qısa şəkildə çatdırdıq. Bəhs olunan mövzularda iki əsas və mühüm nöqtə :diqqəti cəlb edir

Allah peyğəmbərinin (s) vəfatından bir əsr keçdikdən sonra sünni məzhəbində hədis .۱ .yazılışının başlanması

Hədis qadağası dövründən yüz illik bir müddət keçdiyinə görə, əllərdə heç bir yazılı əsər və ya sənəd qalmamışdı. Ona görə də bu dövrdə hədis yazmaq istəyənlər, müəlliflər və yazıçılar hədis əzbərləyənlərin yaddaşına və sinədən–sinəyə gəlib o .zamana kimi çatmış hədislərə əsaslanmışlar

Hədis söyləməyin qadağan olunması və Ömər ibn Əbdul-Əzizin xilafəti dövrünə .۲ qədər uzun müddətin davam etməsi, saxta və uydurma hədis söyləyənlərin çoxalmasına səbəb oldu. Peyğəmbərdən (s) nəql olunmuş hədislər arasında çoxlu .uydurma hədislər vardı

Bu iki nöqtəni nəzərə alaraq sünni məzhəbi sihahi-sittəyə, xüsusən "səhiheyn"-ə (Səhihi-Buxari və Səhihi-Müslimə) çox əhəmiyyət verir və bu kitabları Qurani-Kərimdən sonra yer üzündə ən düzgün və səhih kitab hesab edirlər. Bəlkə də bu hədisləri Qurani-Kərimin ayələri kimi müqəddəs sayırlar və bəzən də bir hədisə görə Quranın ayəsinin zahiri mənasını dəyişərək onu hədisə

(uyğunlaşdırmağa çalışırlar.(1)

Bu iki kitab əhli-sünnə məzhəbinin əqidələrini və əsaslarını təşkil edir. Bu iki kitabın hədislərinə diqqət edib belə qərara gəldik ki, onun içindəki həqiqətləri hamıya bildirək .və görəcəyimiz bu işlə hədislərin həqiqi mahiyyəti aşkar olunsun

Bəlkə bu yolla əsrlərdən bəri təəssübkeşlik və kor-koranə təqlidlərin ucbatından .qaranlıq və zülmətdə qalmış həqiqətlərin çoxu zahir və aşkar olsun

{وَمَا أُرِيدُ أَنْ أُخَالِفَكُمْ إِلَى مَا أَنْهَاكُمْ عَنْهُ إِنْ أُرِيدُ إِلاَّ الإِصْلاَحَ مَا اسْتَطَعْتُ وَمَا تَوْفِيقِى إِلاَّ بِاللّهِ عَلَيْهِ تَوَكَّلْتُ وَإِلَيْهِ أُنِيبُ}

MəN SIZə QADAğAN ETDIYIM şEYIN əKSINə GEDəRəK ONA öZüM əMəL ETMəK _ ISTəMIRəM. MəN YALNıZ BACARDığıM QəDəR SIZə ISLAH ETMəK ISTəYIRəM. MəNIM (BU IşDə) MüVəFFəQIYYəTIM YALNıZ ALLAHıN KöMəYILəDIR. MəN YALNıZ (ONA TəVəKKüL ETDIM Və MəHZ ONUN HüZURUNA DöNəCəYəM! _(2)

:Bizim bu kitablarda apardığımız təhqiqat neçə mövzudan ibarətdir

;Buxari və Müslimün tərcümeyi-halı

;Səhihi-Buxari və Səhihi-Müslim sünni məzhəbinin nəzərində

;Elm və təhqiq baxımından Səhihi-Buxari və Səhihi-Müslim kitablarına bir baxış

;Səhiheyn (Səhihi-Buxari və Səhihi-Müslimün) kitablarının sənədləri

;Tövhid, səhiheyn kitabları baxımından -

səh:76

Bu kitabların əhəmiyyəti barədə bir az sonra oxuyacaqsınız. Quran ayəsi . [1] -1 qarşısında Allahın məkanı barədə Əhməd ibn Hənbəl tərəfindən bir sıra şəxsi nəzər və .hədislər yazılmışdır. Bu barədə bir az sonra

;Hud” surəsi, 88-ci ayə“ . [2] -2

– Nubuvvət, səhiheyn kitabları baxımından;

– Xilafət, səhiheyn kitabları baxımında;

– Səhiheyn, kitablarında müxtəlif bəhslər və hədislər;

Bunlar nəzərdə tutulmuş mövzulardır ki, Allahın köməyi ilə tədricən əziz oxucularımıza təqdim olunacaq.(۱)

۱- [۱] . Qeyd etmək istəyirik ki, kitabın birinci cildində ancaq beş mövzu barədə söhbət olunacaq. Qalan mövzular isə Allahın köməyi ilə kitabımızın ikinci cildində xidmətinizə təqdim olunacaq.

Birinci hissə

İşarə

Məhəmməd İbn İsmail Buxari və Müslim İbn Həccac Nişapurinin tərcümeyi-halları

səh:۷۹

Buxarinin tərcümeyi–halı və onun yaşayış tarixi .۱

Adı Məhəmməd, atasının adı İsmail, babasının adı isə İbrahimdir. Ulu babsının adı Muğeyrə və üçüncü babasının adı isə Cofidir. Künyəsi(۱) Əbu Əbdullah, Buxari adı ilə .ləqəbləndirilmiş və tanınmışdır

:Doğulduğu və vəfat etdiyi tarix

Məşhur və mötəbər qaynaqlara əsasən Buxari ۱۹۴-cü ilin şəvval ayında Buxara şəhərində dünyaya gəlmişdir. İbn Xəlləkan və Xətib Bağdadinin söylədiyinə əsasən Buxarinin üçüncü babası, yəni Cofi zərdüşt dininin nümayəndəsi olmuş və bu dində də dünyadan getmişdir.(۲) Buxari hicri-qəməri tarixi ilə ۲۵۶-cı ildə ۶۲ yaşında Səmərqəndin .Xərtəng kəndində vəfat etmiş və elə oradaca torpağa tapşırılmışdır

:Buxarinin təhsilləri

Buxari uşaq ikən atasını itirmiş, anasının himayəsində boya-başa çatmışdır. On yaşından təhsil və elm öyrənməklə məşğul

---

.Bir növ ləqəbdir . [۱] -۱

;Vəfəyatul-əyan”, ۳-cü cild, səh. ۳۳۰; “Tarixul-Bağdad”, ۲-ci cild; səh. ۶“ . [۲] -۲

olmuş və iyirmi yaşında öz təhsilini davam etdirmək üçün vətənindən mühacirət .etmişdir

:Onun elmi səfərləri

Buxari hədis və elm aşiqi idi. Buna görə də səy edərək bütün hədisləri toplamaqla məşğul olmuşdur. Elm öyrənmək üçün öz ana vətəni Buxaradan mühacirət edərək müxtəlif şəhərlərə gedir və o şəhərlərin hər birində bir müddət qalaraq elm öyrənir, .hədis yazır, elmi fəaliyyətə məşğul olurdu

Fərid Vəcdi deyir: “Buxari səhih hədis toplamaqda çox istedadlı, özünəməxsus zövqə malik idi. Bu zövq və istək onu müxtəlif şəhərlərə səfərlər etməyə ruhlandırıb sövq etmişdir. Buxari elm öyrənmək və hədis toplamaq üçün o vaxtkı İranın Xorasan vilayətinə, İraqın müxtəlif şəhərlərinə, hazırki Ərəbistanın Hicaz şəhərinə və Suriyanın Şam şəhərinə bir sıra səfərlər etmişdir. Bu şəhərlərin hər birində hədis əzbərləyənlərlə görüşür və hədisçilərin məclislərində iştirak edirdi. Onların ehtiyatlarından (bəhrələnirdi”. (١

İbn Həcər, Buxarinin özündən nəql edir ki, o belə deyirdi: “Mən, hədis toplamaq və öyrənmək üçün iki dəfə Şama, Misirə və Əlcəzirəyə, dörd dəfə Bəsrəyə səfər etmişəm. Altı il isə Hicazda yaşamışam. Kufəyə və Bağdada çoxlu səfərlər etmişəm. Belə ki, (səfərlərimin sayı yadımda deyildir”.(٢

:Buxarinin əsərləri

Yazıçılar Buxarinin bir çox əsərlərinin olduğunu bildirirlər. Bizə məlum olan mötəbər mənbələrə əsasən Buxaridən bir çox mövzularda, o cümlədən hədis, rical, tarix və s. elmlərdə on yeddi cild kitab qalmışdır. Sünni məzhəbinin alimləri arasında

---

;Dairatul-maarif”, ٢-ci cild; səh. ٥۶“ .[١]-١

;Hədyus-sari”, ٢-ci cild“ .[٢]-٢

Buxarinin əsərləri özünəməxsus əhəmiyyətə malikdir və nəzər diqqəti cəlb edir. Onların nəzərində onun ən mühüm əsəri “Səhih”, ya “Əlcameus-səhih”- adlı əsəridir. Sünni məzhəbi arasında “Səhihi-Buxari” əsəri kimi əhəmiyyətli sayılan başqa bir əsər (çox az tapılar.(١)

:Buxarinin təəccüb doğuran fətvaları

Buxaridən çoxlu təəccüb doğuran fətvalar nəql olunmuşdur. Onlardan bir neçəsini :burada qeyd edirik

١. O, gəlin və qadınların yad kişilər olan məclisdə xidmət etmələrini doğru və icazəli .bilir

٢. Qadınların öz kişi nökərlərindən və başqalarının nökərlərindən bədənlərini örtməsini .lazım bilmir

٣. Penisi(٢) yumaqla necə pak olursa spermanın özünün təmizlənməsini də pak sayır.

٤. Cinsi yaxınlıq zamanı nə qədərki sperma bayıra çıxmayıb, qusl etməyi vacib bilmir, .(bəlkə müstəhəb sayır(٣

٥. . Zəruri hallarda məsələn: Müharibə zamanı namazın tərk edilməsini doğru bilir. .Sonradan onun qəzasını qılmağı kifayət sayır

٦. Ölmüş heyvanın yağı ilə bədəni yağlamağı doğru bilir.

٧. Ölmüş heyvanın sümüklərindən daraq və s. kimi istifadə etməyi icazəli bilir.

٨. Məscidlərə müharibə silahları ilə (məs:qılınc, nizə) daxil olmağın və şer söyləməyin (heç bir eybi olmadığını bildirir.(٤

٩. Buxarinin ən təəccüblü fətvalarından biri də süd verməyin

١-[١] . “Səhiheyn” kitabının əhəmiyyəti bəhsində bu barədə söhbət olunacaq.

٢-[٢] . “Penis”, tibbi istilahda kişinin cinsiyyət orqanına deyilir.

;Səhihi-Buxari”, ١-ci cild, “Ğuslu ma yusibu min ....” bölümü“ . [٣] -٣

Əbu Kəmal Əbdulğəni Əbdul Xaliqin qələmi ilə Səhihi-Buxarinin . [۴] -۴
;müqəddiməsində; Məkkə çapı-١٣٧۶

:hökmləri barədədir. İnsan övladının heyvanlardan süd əmməsi barədə belə yazır

Əgər iki uşaq bir qoyunun, ya inəyin südündən bir müddət əmərlərsə, onlar arasında “ bacı-qardaşlıq münasibəti yarana bilər və bir-birlərinə məhrəmdirlər. (Yəni onlar bir-(.biri ilə evlənə bilməzlər

Mərhum Şeyx İsfəhani, Buxarinin bu fətvasını Hənəfi məzhəbinin fiqh elmində olan :“Kifayətu fi şərhil hidayə” kitabından nəql edir. Sonra deyir

Bu fətva, Buxarinin anlamadığına və dərk etmədiyinə dəlalət edir. Çünki, məhrəmliyin“ meydana gəlməyindən ötrü ata və ana faktoru çox mühümdür. Heyvanın insan övladı (üçün ata və ana olması hətta təsəvvürlərdən də uzaqdır”.(١)

Əlqovlus-sərah xətti nusxə .[١]-١

Müslimin tərcümeyi–halı və onun yaşayış tarixi .۲

İşarə

Adı Müslim, atasının adı Həccac, künyəsi Əbul Hüseyn, Quşeyri adı ilə tanınmış və .Nişapurludur

:Doğulduğu və vəfat etdiyi tarix

Tərcümeyi-hal yazanlar, Buxarinin əksinə olaraq, onun həyatı barədə çox da araşdırmalar aparmamış, hətta onun doğum və vəfatını, ömrünün miqdarını belə .dəqiq şəkildə yazmamışlar

İbn Xəlləkan deyir: "Müslimün vəfatı bazar günü günortaya yaxın, hicri-qəməri tarixi ilə ۲۶۱-ci ilin Rəcəb ayının ۲۶-da Nişapurda olmuşdur. Həmin günlərdə o, ۵۵ yaşında olardı". Sonra əlavə edərək deyir: - "Mən bu mətləbi bəzi kitablardan bəhrələnərək əldə etmişəm. Lakin tanınmış yazıçılardan onun doğum və vəfat tarixi, ömür və yaşayışı barədə yazan bir kəs görməmişəm". Sonra belə deyir: "Nişapurinin Ələmaul-Ənsar kitabından oxudum ki, Müslimün doğum tarixi hicri-qəməri tarixi ilə ۲۰۶-cı il, (vəfatı isə hicri-qəməri tarixi ilə ۲۶۲-ci il ۵۶ yaşında olmuşdur".(۱

;Vəfəyatul-əyan", ۴-cü cild" . [۱] -۱

(Təqribən həmin məsələni Fərid Vəcdi ünvan göstərmədən qeyd etmişdir.(۱)

Hafize Zəhəbi deyir: “Nəql olunmuşdur ki, Müslimin doğum tarixi ۲۰۴-cü hicridə .”olmuşdur

:Müslimin elmi səfərləri

Müslim hədis toplamaq üçün Hicaza, İraqa, Şama, Misirə və dəfələrlə Bağdada səfər etmiş və Bağdada olan axırıncı səfəri hicrətin ۲۵۷-ci ilində olmuşdur. O, bu səfərlərində müxtəlif müəllimlərdən, o cümlədən Əhməd ibn Hənbəl və İshaq ibn Rahuveyh(۲) kimi şəxslərdən də hədis öyrənmişdir. Lakin, Buxaridən öyrəndiyi və mənimsədiyi elm .başqa müəllimlərindən daha çox olmuşdur

Müslim hədis və elm öyrənməyi çox sevirdi. Buxari Nişapurdan sürgün olunduqdan sonra ətrafında olan bütün tələbələr onu tərk etdilər. Müslimün ona olan böyük hörməti səbəb oldu ki, öz müəllimi Buxarini nəinki tərk etməsin, hətta səfərlərində də .onu müşayiət etsin

:Müslimin əsərləri

Hafizi Zəhəbi, Hakimdən Müslimün ۲۰ cildlik müxtəlif elmlərdə yazdığı kitablar haqda nəql etmiş və bir-bir onların adlarını qeyd etmişdir.(۳) Müslimün bu kitabları arasında “Səhihi-Müslim, ya Əlcameus-Səhih” adlı kitabı çox əhəmiyyət kəsb edir. Əhli-sünnə məzhəbinin nümayəndələri arasında bu günə kimi bu kitab özünəməxsus bir yer .tutmuşdur

---

;Dairatul-maarif”, ۵-ci cild“ . [۱] -۱

.İshaq ibn Rahuveyh Buxarinin ustadı idi . [۲] -۲

;Təzkiratul-hafiz”, ۲-ci cild; səh. ۵۸۸“ . [۳] -۳

:Müslimin vəfatının səbəbi

Nişapur şəhərində keçirilən elmi məclisdə bir hədis müzakirə olunmağa başlandı. Müslim o hədis barədə məlumatı olmaya-olmaya öz şəxsi nəzərini dedi. O, mənzilinə getdikdən sonra həmin hədisin barəsində araşdırma apardı. Dostlarından biri onun üçün böyük bir qabda xurma göndərmişdi. Müslim o hədisi tapmaq üçün gecəni səhərə qədər yatmadı. Öz yuxusunu dağıtmaq üçün bəzən xurmalardan yeyirdi. Bir də ayılanda gördü ki, səhər açılıb. Hədisi tapanda artıq xurmalar da qurtarmışdı. Xurmaların təsiri nəticəsində xəstələnib ۵۵ yaşında dünyadan getdi. Onu Nişapur şəhərinin yaxınlığında torpağa tapşırdılar.(۱)

.Bu əhvalat onun elmə olan böyük marağına və hədisə olan məhəbbətinə dəlalət edir

---

;Dairatul-maarif", ۵-ci cild; və "Meşkatu nurud-dini huravi" .[۱]-۱

İkinci hissə

İşarə

Səhihi–Buxari və Səhihi–Müslim sünni məzhəbinin nəzərində

səh:۸۹

(Sihahi–Sittə (Alti Səhih Kitab .١

Sünni məzhəbinin alimləri bütün hədis və məsanid kitablarından altı kitab seçərək, bu kitabları düzgün və səhih saydıqları üçün birinci dərəcəli kitablar bilirlər. Belə ki, bu kitabları “sihah” yəni həqiqətlə uyğun olan hədislər adlandırırlar. Bu kitablar bu məzhəbin əhkam, əqaid, təfsir və İslamın ilk illərinin tarixi barədə olan məsələlərin .əsasını və bünövrəsini təşkil edir

Bundan öncə işarə olunduğu kimi, bu altı kitabların “səhih” adlandırılması və onların başqa hədis və məsanid kitabları ilə fərqi bundadır ki, bu kitablarda olan hədislər və bütövlükdə bu kitabların məzmunu onların müəllifləri tərəfindən və başqa əhli-sünnə .alimləri tərəfindən doğru və həqiqətə uyğun sayılır

Onların nəzərincə bu altı kitabların hər birində Peyğəmbərimiz (s) haqda yazılan hər hansı bir hədis həqiqətən onun mübarək dodaqlarından qeyd olunmuş və ya əməli surətdə onu təsdiqləmiş və bəyənmişdir. Lakin, başqa hədis kitablarında belə xüsusiyyətlər yoxdur. Onların hədislərində olan mətləblərin və məsələlərin Peyğəmbərə (s) səhvən və ya yalan olaraq nisbət verilməsi də mümkündür. Hansı ki, o .Həzrət (s) tərəfindən bu hədislər buyurulmamışdır

səh:٩١

Məsələ burasındadır ki, Fəzl ibn Ruzbəhan deyir: “Əgər bir kəs and içə ki, altı kitabda olan hədislərin hamısı səhih və Peyğəmbərin (s) sözləridir, andı düzgündür və ona ”(kəffarə düşmür.(١

Başqa yerdə isə belə buyurur: “Bizim məzhəbimizin bütün rəhbərlərinin hamısının nəzəri budur ki, altı kitabda olan bütün hədislərin hamısı düzgün və həqiqətə (uyğundur.”(٢

:Başqa bir cəhətdən, “sihah” kitablarının bəziləri (sunəni-Termizi) barədə deyilmişdir ki

مَنْ كَانَ فِى بَيْتِهِ هَذالْكِتَاب كَانَ فِى بَيْتِهِ نَبِى يَتَكَلَّم

BU KITAB HANSı EVDə OLSA, SANKI ONUN EVINDə PEYğəMBəR _(S)_ SöZ _ _ .DEMIşDIR

:Sunəni Əbi Davud barədə bəzi mənbələr belə buyurur

كِتَابُ الله اَصْلُ الاِيمَان وَسُنَنِ اَبِى دَاوُدعهدالاِسْلام

_ .QURANI-KəRIM IMANıN KöKü, SUNəNI ƏBU DAVUD ISə İSLAMıN PROQRAMıDıR _

Lakin bu altı kitab arasında Səhihi-Buxarı və Səhihi-Müslim sihahdan və dörd başqa kitablardan daha çox əhəmiyyət kəsb etmişdir. Bu iki kitab əhəmiyyət və dərəcə cəhətindən birinci sayılmış və başqa dörd sihahlar isə əhəmiyyət cəhətindən ikinci .dərəcədə yer tutmuşdur

Səhihi–Buxari və Səhihi–Müslim kitablarinin xüsusiyyətləri

Hədis mövzularının sayı

Səhihi-Buxari adlanan kitab doqquz cilddən ibarətdir və yüz kitabdan çoxdur. Onun mövzuları ٣۴۵٠-ə qədərdir. Hədislərinin sayı təkrarla birlikdə ٧٢٧۵ və təkrar olmuş (hədisləri nəzərə almasaq ۴٠٠٠-ə qədər hesablanmışdır.(٣

;Ehqaqul-həqqi əla sahibil həvzi vəl - ləva” hədisinin zilində“ . [١] -١

;Həmin mənbə, ۲-ci cild; səh. ۲۳۵ . [۲] -۲

;"Ət-təqribun-nəvəvi" . [۳] -۳

Şərhləri

Əlimizə çatan say bunu bildirir ki, indiyə qədər ۵۹-a kimi (tamamlanmış və natamam) Səhihi-Buxari kitabına şərhlər yazılmışdır. Onlardan ۱۱ şərhi çap olunmuş, bu günə qədər ۲۸ nəfər ona ünvan* yazmışlar. ۱۵ nəfər isə öz zövqlərinə uyğun onu .xülasələşdirmiş, ۱۶ nəfər isə ona müqəddimə yazmışdır

Səhihi-Müslim isə, səkkiz cilddə ۱۵ kitaba şamil olub ۱۲۰۵ mövzudan ibarətdir. (Hədislərinin sayı təkrarla birlikdə ۷۲۷۵ və təkrarsız ۴۰۰۰-ə qədər hesablanmışdır.(۱)

Səhiheyn kitabları barədə yazıçılıq məharəti

Sünnilər "Səhiheyn" və bu iki kitabların bütün hədislərinin doğruluğu və həmçinin onların müəllifləri (Buxari və Müslim) barədə çoxlu təriflər söyləmiş və yazmaqda məharət göstərmişlər. Bəzən bu yolda ifrata varmışlar. Əlbəttə, bu baxımdan Buxari .Müslimə nisbətən çox tərif olunmuşdur

Əhli-sünnə alimləri bəzən Peyğəmbərin (s) salamını Buxariyə çatdırmış, bəzən onun kitabı barədə yuxular görmüş və bəzən də bu iki kitaba və onların müəllifləri haqqında kəramətlər söyləmişlər. Belə ki, bu iki kitabı tərifləməkdə o yerə gəlib çıxmışlar ki, guya bu iki kitab doğru və Peyğəmbər (s) tərəfindən imza olunmuşdur. Lakin, belə kəramətlər və təriflər nəinki bu iki kitabın mətni ilə hətta, öz müəlliflərinin nöqteyi-.nəzərindən düzgün deyildir. Bu mövzu barədə geniş şəkildə bəhs edəcəyik

Hər şeydən öncə əziz oxucunun belə təriflərdən bir neçəsinə diqqət yetirməsini istəyir, .sonra isə bu iki kitab barədə təhqiqə başlayacağıq

Katibe Çələbi deyir: -" Hədis elmi barədə saysız-hesabsız

Nəvəvi "Ət-Təqrib"kitabında fəqət hədislərin sayını təkrar olmamaqla ad . [۱] -۱ .aparmışdır

kitablar yazılmışdır. Lakin, bizim alimlərimizin Qurani-Kərimdən sonra ən səhih kitabın " ("Səhihi-Buxari" və "Səhihi-Müslim" kitablarının olması barədə nəzərləri uzlaşır. (١)

Məhəmməd ibn Yusif Şafei deyir: "Birinci hədis kitabı "Səhihi-Buxari" və ondan sonra isə "Səhihi-Müslim" kitabıdır. Bu iki kitab Qurani-Kərimdən sonra ən səhih sayılan (kitablardır". (٢)

Zəhəbi deyir: - "Səhihi-Buxari" kitabı İslam aləmində ən böyük, bəlkə Qurandan sonra (ən yaxşı kitabdır. (٣)

Çələbi "Səhihi-Müslim" kitabı barədə deyir: "Səhihi-Müslim doğru və düzgünlüyünə görə kitablar arasında ikinci kitabdır. Qurandan sonra ən səhih sayılan iki kitabdan (biridir. Qurandan sonra bu iki kitabdan başqa səhih kitab yoxdur". (۴)

Əbu Əli Nişapuri deyir: - "Mavi səma altında "Səhihi- Müsllüm" kitabından başqa bir (səhih kitab yoxdur". (۵)

Fazil Nəvəvi "Ət-təqrib"(۶) kitabında deyir: "Səhihi-Buxari və Səhihi-Müslim kitabları Qurani-Kərimdən sonra ən səhih kitablardır. Baxmayaraq ki, bəziləri Səhihi-Müslimü birinci sayırlar lakin, Səhihi-Buxari kitabı Səhihi-Müslim kitabına nisbətən ən səhih və ."çox faydalıdır

Yenə də Nəvəvi "Səhihi-Müslim" kitabına şərhində belə deyir: "Qurani-Kərimdən sonra ən səhih kitab "səhiheyn" (Səhihi-Buxari və Səhihi-Müslim) kitablarıdır. İslam ümməti də bu iki kitabı qəbul etməklə onun düzgün və səhihliyini

---

;Kəşfuz-zunun", "Elmul-hədis" bölümü" . [١] -١

;Hədyus-sari", ٢-ci cild" . [٢] -٢

;İrşadus-sari"; ١-ci cild, səh. ٢٨" . [٣] -٣

;Kəşfuz–zunun", "Elmul-hədis" bölümü" . [۴] -۴

;Vəfəyatul-əyan", ۴-cü cild, səh. ٢٠٨ və "Təzkirətul-hifaz", ٢-ci cild; səh. ۵٨٩" . [۵] -۵

Əttəqrib" qədim kitablardan biridir ki, usul elmində hədis yazılmışdır. Süyuti ona" . [۶] -۶

.şərh yazmış və adını Tədribur-ravi qoymuşdur. Bu elmdə seçillmiş kitablardan sayılır

(təsdiq etmişlər. Bu məsələ barədə bütün alimlərin nəzərləri və fikirləri eynidir”.(١

Qəstəlani deyir: “Bütün İslam ümmətinin bu iki kitabın səhihliyi barədə nəzərləri eynidir və hər ikisinin səhih olduğunu qəbul etmişlər. Lakin, onlardan hansı biri digərindən üstündür? Bu barədə müxtəlif nəzərlər var. Bəziləri “Səhihi-Buxari”-yə və (bəziləri isə “Səhihi-Müslim” kitabına üstünlük verirlər”. (٢

İbn Həcər Məkki deyir: “Səhihi-Buxari və Səhihi-Müslim kitabları din alimlərinin (nəzərində Qurandan sonra ən səhih kitabdır”.(٣

İmamul-Hərəmeyn demişdir: “Əgər bir şəxs and içsə ki, səhiheynin hədislərinin hamısı həqiqətlə uyğun və Peyğəmbərin (s) söylədikləridir, onun andı düzdür və kəffarəsi də yoxdur. Çünki, İslam ümmətinin hamısının nəzəri bu iki kitabın səhih olması barədə (eynidir”.(٤

Hələ bu azmış kimi

Əhli-sünnə alimlərinin bəziləri bu iki kitabın bütün hədislərinin səhihliyi və onun haqqında və tariflər söyləməkdə bura qədər qeyd olunanlara kifayətlənməmiş və bu mövzuda həddi aşmışlar. Bununla da bu iki kitabın tərifində ifrata varmış və onun içindəki hədislərin hamısının səhih olmasına və Peyğəmbər (s) tərəfindən imzalanmasını söyləmişlər. Bəzən də “Səhihi-Buxari” kitabı üçün yuxu görmüş və onu .Peyğəmbərin (s) öz kitabı kimi tanıtdırmışlar

---

;Səhihi-Müslimün” şərhi, ١-ci cild, səh. ١٥“ . [١]-١

;İrşadus-sari”, ١-ci cild, səh. ١٩“ . [٢]-٢

Səvaiqu nuhərrəqə”, səh. ۵; “Təthirul-cinan” – Səvaiqin haşiyəsində çap“ . [٣] -٣ ;olunmuşdur səh. ١۴

;Şərhi Nəvəvinin müqəddiməsi səh. ١٩ . [۴]-۴

Müxtəsəri Xəlil” kitabını şərh edən Şeyx Məhəmməd ibn Əbdur-Rəhmandan nəql“ olunmuşdur ki, deyir: “Mən ustadım Şeyx Əbdur Muta Tunesi ilə birlikdə Həzrət Peyğəmbərin (s) (s) mübarək hərəminin ziyarətinə getdik. Həmişəki adətinin əksinə olaraq bu dəfə ustadım, hərəmin içində bir neçə addım yeridikdən sonra bir an dayandı. Bu minvalla mübarək qəbirə yaxınlaşdı. Qəbirlə üz-üzə durub bir neçə cümlə söylədi. Mən onun məzmununu başa düşmədim. Mübarək qəbri ziyarət etdikdən sonra bu məsələni (dayanmaq və söhbət etmək) ondan soruşdum. Cavabımda belə dedi: Mən mübarək hərəmə daxil olub Həzrət Peyğəmbəri (s) ziyarət etmək istəyərkən, o Həzrətin (s) özündən icazə istədim. Həzrət (s) icazə verdi və mən də daxil oldum. Həzrətə (s) yaxınlaşdım və ərz etdim: Ya Rəsuləllah! Buxarinin sizdən nəql etdiyi bütün hədislər səhihdirmi? Buyurdu: Bəli səhihdir! Ərz etdim: - Onun hədislərinin ”!!hamısını sizdən nəql edimmi? Buyurdu: Bəli, mənim dilimdən nəql et

Bəzi kitablarda bu əhvalatı belə nəql edirlər ki: “Şeyx, Peyğəmbəri (s) ziyarət etdikdən sonra sual etdi: “Səhihi-Buxari” və “Səhihi-Müslim” kitablarının hər ikisi doğru və düzgündürmü? Onların hər ikisindən hədis nəql etsinmi? Peyğəmbər (s) da onun cavabında hər ikisinin səhih olduğunu bildirmiş və onlardan hədis nəql etməyi icazə (vermişdir”.(١

Əbu Zeyd Mərvəzidən nəql olunmuşdur ki: “Mən məqam və rükn(٢) arasında yatmışdım. Peyğəmbəri (s) yuxuda gördüm. Mənə belə buyurdu: Ey Əba Zeyd! Nə vaxta kimi Şafeinin kitabını oxuyacaqsan? Amma mənim kitabımı heç oxumursan. Ərz :etdim: Ya Rəsuləllah (s)! Sizin kitabınız hansıdır? Buyurdu

---

Hənəfiyyə məzhəbinin muftisi Şeyx Əhməd Nəxəlinin risaləsi, "Əlqovlus-sərah" . [١] -١ .və İsteqsaul əfhamda nəqlə əsasən

.Hər ikisi peyğəmbər məscidində yer adıdır . [٢] -٢

.(Məhəmməd ibn İsmailin camesi"(١) (yəni Səhihi-Buxari

Fərid Vəcdi deyir: "Bəziləri "Səhihi-Buxari" kitabı barədə çox ifrata varmışlar. Hətta bəzi şəxslərə pulla muzd verirlər ki, (Quran kimi) bu kitabın hədislərini asimani xeyr və (bərəkətin cəlb olunması üçün oxusunlar".(٢

Qasimi "Qəvaidut-təhdis" kitabında deyir: "Səhihi-Buxari kitabı Quranla bərabərdir. Əgər bu kitab taun xəstəliyi zamanında hər hansı bir evdə oxunarsa, o evin əhli bu xəstəlikdən amanda qalacaqlar. Hər kəs bu kitabı hansı bir niyyətlə axıracan oxuyub qurtararsa, öz arzu və istəyinə çatar. Bir hadisə və baş verəcək bir iş qarşıya çıxarsa, belə hadisədən o nicat tapar. Əgər gəmi sərnişinləri ilə birlikdə dənizdə səfər edərsə, o (gəmini qərq olmaq təhlükəsi gözləmir".(٣

Yuxular görürlər və kəramətlər söyləyirlər

Deyirlər ki: - "Buxari uşaq ikən gözləri kor olmuş və anası Həzrət İbrahimi (ə) yuxuda görmüşdü. İbrahim peyğəmbər övladının sağalmasını anasına müjdə verərək belə demişdir: "Sənin duanın təsirindən Allah oğlunun gözlərinə şəfa verdi." Həmin gecə (Buxarinin gözləri yenidən görməyə başladı".(٤

Fərbəri və Peyğəmbər (s) – Fərbəridən nəql olunur ki, belə deyir: "Bir gecə Peyğəmbəri (s) yuxuda gördüm. Peyğəmbər (s) sual etdi: Hara gedirsən? Dedim: Məhəmməd ibn (İsmail Buxarinin yanına! Buyurdu: Mənim salamımı ona çatdır".(٥

Buxaridən nəql olunur ki: "Mən hər hansı bir hədisi kitaba yazmaq istəyərkən, əvvəl qüsl edib, iki rəkət namaz qılır, sonra

---

.Hədyus-sari ٢-ci cild; İrşadus-sari-nın muqəddiməsində səh. ٤٨ . [١] -١

Dairatul maarif ٣-cü cild, səh. ٤٨٢ . [٢] -٢

.Qəvaidut-təhdis səh. ٢٥٠ . [٣] -٣

.Hədyus-sari ٢-ci cild;; İrşadus-sari səh. ٤٨. müqəddimədə . [٤] -٤

.Təhzibul-əsma vəl luğati Zəhəbi ١-ci cild, səh. ۶٨; və Tarixi Bağdad c - ٢, səh. ١٠ . [٥] -٥

(hədisi kitabda qeyd edirdim”.(١

Fərbəri Buxaridən nəql edir ki, deyirdi: “Mən hər hansı bir hədisi kitabda yazmaq istəyərkən əvvəlcə istixarə edərdim və bu hədisin düzgünlüyü mənə isbat olurdu. (Sonra tez onu yazmağa başlayardım”.(٢

Buxaridən nəql olunur ki, o belə demişdir: “ Mən öz səhih hədislərimi ١٦٠٠ hədis içindən (seçərək onları Allahla öz aramda höccət sayırdım”.(٣

Fazil Nəvəvi Müslimdən nəql edir ki: – “Mən, öz səhihimi (müsnədimi) ٣٠٠.٠٠٠ hədis içindən toplayıb seçmişəm. Əgər hədis əhli ٢٠٠– il də hədis yazsalar, yenə də mənim .”hədis kitablarıma müraciət edəcəklər

Şerlər və Qəsidələr

Səhihi-Buxari” kitabı barədə çoxlu qəsidələr deyilmiş və şerlər söylənilmişdir ki,“ onlardan biri də İbn Amir Corcaninin “Səhihi-Buxari” kitabı barədə vəsf etdiyi :qəsidəsidir. O, qəsidəsində belə deyir

صحيح البخارى لوانصفوه؟

لماخط الابماء الذهب

هوالفرق بين الهدى والعمى

هوالسددون العناوالعطب

اسانيد مثل نجوم السماء

امام متون كمثل الشهب

به قام ميزان دين النبى ا

ودان له العرب بعد العجم

Əgər insafa qalsa gərək “Səhihi-Buxari” kitabı qızıl suyu ilə yazılsın. Çünki, bu kitab“ azğınlıqla hidayət arasında fərqi açıqlayan bir kitabdır. Ağır sellərin və mənəvi

uçurumun qarşısında möhkəm sədd və qala kimidir. Bu kitabın

.Fəthul-bari və irşadus-sari . müqəddimə . [۱] -۱

.Həmin sənəd . [۲] -۲

;Kəşfuz-zunun" -müqəddimsi; Fəthul-bari və irşadus-sari" . [۳] -۳

sənədləri parlayan ulduzlar kimidir ki, mətnlərin hər birində, göydə süzən parlaq ulduzlar kimi düzülmüşlər. Bu kitabla Allah elçisinin dininin tərəzisi qurulmuş və möhkəmlənmişdir. Ərəb və əcəm qarşısında baş əydiyi və təzim etdiyi kitab, bu (kitabdır."(١)

:İmam Əbul Fətuh İcli də "Səhihi-Müslim" kitabı barədə yazdığı şerində belə söyləyir

صحيح القشيرى ذارتبه

تفوق الثر يا اذاما اعتلت

فالفاظه مثل نور الرياض سقيها

السوارى اذا ماسرت

و اماالمعانى فكالشمس تحت

السحاب الخريفى عنهانجلت

فلله دوله هذا الامام

والله همته ان علت

عليه من الله رضوانه

فقدتم مسعاته وانتهت

Səhihi-Müslim elə bir dərəcəyə və məqama malikdir ki, "sürəyya"(٢) ulduzlarından" üstündür. Bu kitabın sözləri ağacların çiçəklərinə bənzəyir. Hərəkət edən buludlar və rəhmət yağışları onu sulayıblar. Amma mənalarına gəldikdə isə, payız günəşi kimi buludlar altından görünərək işıq saçırlar. Bu İmamın (Müslimün) dövlətini daimi etmək Allahın əlindədir. Onun uca himmətini daha da ucaltmaq Allahın öhdəsinədir. Onun yeri cənnəti-Rizvan və Allahın behişti olsun. Çünki o, çalışaraq axırıncı məqama və kəmala (yetişmişdir."(٣

İfrat dərəcəsinə çatmış müdafiə

Sünni təriqəti bu iki səhihin (Buxari və Müslim) tərifi barədə ifrat həddinə çatmışlar. Bu iki kitabın məqam və rütbəsini

---

۱- [۱] . "Kəşfuz-zunun ba-Elmul-hədis", "Fəthul-bari"nin və "İrşadus-sari"nın müqəddiməsi.

۲- [۲] . Çılçıraq kimi parlayan bir neçə ulduzun adı.

۳- [۳] . Bu şer "Səhihi-Müslim"in axırında gəlmişdir.

qorumaqla ifrata varmış və heç bir təhqiqatçının, alimin belə bu kitabların barəsində mübahisə etməsinə və təhqiqat aparmasına icazə verilməmişdir. Bu iki kitabı Qurani-Kərim kimi vəhyə bənzədilərək eyibsiz və səhvsiz olduğunu bildirirlər. Bu kitabların hədisləri barədə hər hansı bir təhqiqatın aparılması Qurani-Kərimə hörmətsizlik və .bağışlanmaz səhv kimi qələmə vermişlər

Hicri-şəmsi tarixi ilə ١٣٨٦-cı ilin rəbius-sani ayında Küveytin İctimai İslahedici Cəmiyyəti tərəfindən Səhihi-Buxarini müdafiə etmək məqsədi ilə müxaliflərə cavab olaraq bir kitabça nəşr olundu. Onun cildinin arxasında belə bir cümlə nəzər diqqətini :özünə cəlb edirdi

كُلُّ مَافِى الْبُخَارِى صَحِيحٌ

_ .SəHIHI-BUXARININ BüTüN HəDISLəRI SəHIH Və DüZGüNDüR _

:Bu kitabçanın nəşr olunması Əbdul Varis Kəbir adlı yazıçının

Səhihi-Buxaridə olan hədislər düzgün deyildir " ünvanı" – (لَيْسَ كُلُّ مَافِى صَحِيحِ البُخَارِى صَحِيحاً) altında yazdığı məqalə Əlvə-yul-İslami qəzetində (Küveyt çapı) dərc olunduğu üçün .ona rədd cavabı idi

Biz, bu məqalənin mətnini görməmişik. Buna görə də onun haqqında fikir yürüdə bilmərik. Lakin, bu kitabçaya etiraz əlaməti olaraq cavab yazılmış kitabça bizim .əlimizdədir

Bu kitabçanın əvvəlində Suriyanın elmi mərkəzlərindən və institutlarından olan ٣٢ nəfər müəllim Küveyt əmirinə etiraz olaraq, dərc olunmuş bu məqaləni yazanın qələminin sındırılmasını, həmçinin Küveyt əmiri tərəfindən bu nəşriyyatın qarşısının .təkidlə alınmasını xahiş etmişlər

Sonra səkkiz nəfər alim və başqa müəllimlər Səhihi-Buxarini və Səhihi-Müslimü müdafiə edən ərəbin böyükləri məqalə

yazaraq onu nəşr etdirmişlər. Bu nəşrdə alimlərdən adı çəkilmiş və cavab olaraq .Buxarinin bu kitabını müdafiə etməklə öz etirazlarını yazıb bildirmişlər

Əziz oxucu! Bəlkə də bu haqda daha çox danışmaq olardı. Lakin burada onların bir neçəsinə toxunmaq istəyirik. Bunların bir miqdarını nəql etməklə sizə, əhli-sünnə arasında bu kitabların necə əhəmiyyət kəsb etdiyini və keçmişdə olduğu kimi indi də öz .əhəmiyyətini qoruyub saxlamasını bildirmək istəyirik

Belə ki, əgər bir nəfər elmi bir mövzu yazmaq və həqiqəti aşkar etmək istəsə, bu iki kitabın bütün hədislərinə nəzər edərək araşdırma aparsa görəcəkdir ki, bu kitablarda olan hədislərə "səhih" adı vermək düzgün deyildir. Belə həqiqətlərdən biri kiminsə .zehninə yol taparsa, mövzunun nə qədər də aşkar və aydın olduğunu dərk edər

Üçüncü hissə

İşarə

Səhihi-Buxari və Səhihi-Müslim, elm və təhqiq baxımından

səh:۱۰۳

Səhihi–Buxari və Səhihi–Müslim, elm və təhqiq baxımından .١

Hər kəs əhli-sünnə alimləri tərəfindən təriflənmiş bu iki kitabı yaxşı mütaliə etsə, yazılmış kəramətləri və yuxuları oxusa, bir çox yazıçılar tərəfindən Buxari və Müslimə olan xüsusi diqqətin və marağın şahidi olacaqdır. Şübhəsiz ki, onlar məsumlardan sayılmasalar da ədalət, təqva, zöhd cəhətindən onlara şəkk-şübhə etməyəcəkdir. Onların kitabları da onun nəzərində elə cilvələnəcəkdir ki, bəzilərinin söylədiyinə əsasən: "Yer üzündə və səma altında bu iki kitabdan başqa səhih bir kitab yoxdur" və gördükləri yuxuya görə "Peyğəmbər (s) "Səhihi-Buxari" kitabını öz kitabı kimi təqdim .etmişdir", əqidəsini inkarolunmaz bir həqiqət kimi qəbul edəcəkdir

Lakin, bu kitablara səthi bir nəzər salmaqla insan üçün hər şey aydınlaşır və həqiqət gec-tez öz yerini tapır. Qısa bir təhqiq həqiqətləri yuxu və xəyal pərdəsi arxasından çıxarır; Əhli-sünnə alimlərinin bir çoxu tərəfindən bu kitabları bir-birinin kənarında qoyaraq ağıl və ədalət tərəzisində çəkib müqayisə etdikdən sonra "səhiheyn" kitablarında olan bir çox hədisləri sənəd və mətn cəhətindən yanlış və səhv saymışlar. O cümlədən, o kitablarda olan bir çox hədislərin elm və dinlə müxalif olduğunu .bildirmişlər

Bir qrup şəxslər də təəssübkeşliyi kənara ataraq, həqiqət nöqteyi-nəzərindən Buxari .və Müslimün şəxsiyyəti barədə təhqiqat aparmışlar

Beləliklə, bu kitabın səhifələrində bu həqiqət açıqlanacaq, bu iki kitabın mahiyyəti və .onların müəlliflərinin şəxsiyyəti həqiqət axtaranlara aydın olacaqdır

Öncə, etimadlı əhli-sünnə alimlərindən bir neçə nəfərin bu iki kitab barədə apardıqları araşdırmalardan sonra söylədikləri nəzərləri nəzərinizə çatdıracağıq. Çünki, bəziləri bizim bir şiə yazarı olaraq bu kitabların tənqid etdiyimizi düşünə bilərlər. Məlum olduğu kimi, sünni məzhəbinin alimləri bu yolda bizdən öncə təhqiqatlar aparmiş, açıq-aydın bu kitabların bir çox hədislərinin düzgün olmamasında bizdən qabağa düşmüşlər. Belə şəxslərin arasında hədis alimləri və “səhiheyn” kitablarını şərh edən hörmətli və böyük .alimlər də müşahidə olunur

Onların böyük elmi məqamları və apardıqları təhqiqatlar nəticəsində bu iki kitab barədə olan nəzərlər həqiqəti daha da işıqlandırmışdır. Belə şəxslərdən Məhəmməd ibn Yəhyanı(۱), rical və hədis elmində ustad olan Əbu Zər`əni, “Səhihi-Buxari” və “Səhihi-Müslim” kitablarına şərh yazmış Fazil Nəvəvini, İbn Həcəri, Qazi Əbu Bəkr Baqilanini, İmam Qəzalini, İbn Həmmamı, Şeyx Məhəmməd Əbduh və onun ustadı Seyyid Məhəmməd Rəşid Rza Misrini, professor Əhməd Əmini, Müsliməni və s.. bunun .kimi başqa əhli -sünnə alimlərinin adlarını çəkmək olar

Beləliklə, hədis və rical elmlərində mahir olan ustad və alimlərin bir neçəsinin “Səhihi-Buxari” və “Səhihi-Müslim” kitabları barədə olan nəzərlərini əziz oxucularımıza təqdim .edirik

---

.Məhəmməd ibn Yəhya Zohəli adı ilə məşhurdur - [۱]-۱

Səhiheyn Məhəmməd ibn Yəhya Zohəlinin nəzərində

İbn Xəlləkan deyir: – “Zohəli ləqəbi ilə tanınmış Məhəmməd ibn Yəhya böyük və şəxsiyyətli alimlərdən biri, hədis əhlinin tanınmış əzbərçilərindən, Buxari və Müslimün, (Əbu Davudun, Termizinin, Nəsai və İbn Macənin ustadı olmuşdur”.(١)

Zohəli bir şəxsdir ki, Əhməd ibn Hənbəl öz övladlarına və şagirdlərinə əmr etmişdir ki, (ondan hədis və elm öyrənsinlər.(٢)

Xətib Bağdadi deyir: “Zohəli və kəlam alimlərinin bir çoxu Qurani-Kərimin kəlmələrinin qədim(٣) olmasına etiqadlı olmuşlar. Öz müxaliflərini isə bu kəlami bəhsdə kafir və mürtəd sayırdılar. Onlar deyirdilər ki: belə bir əqidəyə malik olan şəxsin həyat yoldaşı ondan ayrılmalı, özü isə tövbə etməlidir. Əgər tövbə etməsə, gərək boynu vurulsun və mal-dövləti müsəlmanlar arasında bölünsün. Həmçinin, cənazəsi müsəlman qəbristanlığında dəfn olunmamalıdır. Hər kəs bu məsələdə sakit dayansa və Qurani-Kərimin mübarək kəlmələrinin iki yoldan (qədim və ya məxluq olmasında) birinə .inanmasa o da, kafir və mürtəd sayılır

Əgər bir kəs Quranın kəlmələrinin məxluq olmasını düşünsə, onun da əqidəsi xarabdır. .Belə bir şəxslə bir məclisdə oturmaq olmaz

---

١- [١] . “Vəfəyatul-əyan”, ۴-cü cild, səh. ٢٨٢; Qeyd etmək lazımdır ki, Buxari öz səhihinin oruc bölümü;nda və s. otuza yaxın yerlərdə Zohəlidən (Məhəmməd ibn Yəhya Zohəlidən) hədis nəql etmişdir. Lakin, heç vaxt onun məşhur “Zohəli” ləqəbini qeyd etməmişdir. Bəzən Məhəmməd və bəzən isə Məhəmməd ibn Əbdullah ibarətləri ilə yazmışdır. Bu ədavətin səbəbi Zohəlinin Buxari barəsində olan ”küfr dastanı”-dır ki, Buxari Nişapurdan sürgün olundu. Lakin hədisləri bu hadisədən öncə öyrəndiyinə görə .onları kitabında qeyd etmiş ancaq, Zohəlinin adını yazmaqda isə səhlənkarlıq etmişdir

٢- [٢] . “Tarixi Bağdad”, ۴-cü cild, səh. ۴١۶;

٣- [٣] . (Mütərcim . Qədim və məxluq o zamanın mübahisəli əqaid bəhslərindən biridir.)

Təsadüfən Buxari, o günün kəlam alimlərinin əksinə olaraq, Qurani-Kərimin mübarək kəlmələrinin məxluq olmasına inanırdı. Buna görə də Nişapura daxil olduqdan sonra orada dini rəhbərlik məqamına malik olan Zohəli əmr etdi ki: “Buxari olan məclisdə heç kəsin haqqı yoxdur iştirak etsin. Əgər bir kəs Buxarinin məclisinə gələrsə, onu ittiham edin. Çünki onunla, onun əqidəsində olanlardan başqa heç kəs yoldaşlıq etmir.”

Buxari o günlərdə öz ustadı Zohəlinin və Nişapur alimlərinin çoxunun nəzərində şübhəli, yolunu azmış, xarab əqidəli şəxs kimi tanınmışdır. Özünə qarşı Nişapur əhalisinin bədbinliyini elə bir həddə qazanmışdı ki, hətta orada yaşaya bilmədi və digər bir şəhərə köçmək məcburiyyətində qaldı. Bəziləri deyirlər ki: Onu Nişapurdan sürgün etdilər, Müslim və Əhməd ibn Müslimədən başqa bütün şagirdləri onun ətrafından dağıldılar. Çünki onlar, öz şəxsiyyətlərinin, Buxarinin mənfur əqidəsi ilə ləkələnməsindən, başqalarının bədbinlik və nifrətindən amanda qalmağını istəyirdilər.

Bu tarixi hadisədən belə nəticə əldə etmək olar ki, həmin vaxtlar Buxarinin və onun yeganə şagirdi olan Müslim ibn Həccac Nişapurinin yazıları Zohəli kimi alimlər tərəfindən qınanmışdır. Bu iki kitab bu günlərdə "Səhiheyn" adı ilə əhli-sünnə məzhəbinin ən mühüm sənədləri kimi təqdim edilir. O zaman bu iki kitabın müəlliflərinin kafir adlandırılması ilə yanaşı nə dərəcədə müsəlmanların bədbinliyini özlərinə cəlb etmişlər.

Xətib Bağdadi yazır: “Məhəmməd ibn Yəhya dedi: “Bağdaddan bizim üçün yazdılar ki, Buxari Quranın kəlmələrinin məxluq olması barədə şəkk edir. Biz onu batil əqidəsindən çəkindirdik. Lakin, təsiri olmadı. Bundan sonra

əgər bir kəs onun məclisində iştirak etsə, bizim məclislərdə iştirak etməyə haqqı (yoxdur."(١)

Müslim də şübhəlidir

Zohəli nəinki Buxarinin əqidəsini doğru saymır, özünə də hörmət qoymurdu. Bəlkə, onun şagirdi Müslim ibn Həccacı da onun kimi əqidəsi xarab sayırdı. Buna görə də onu (öz məclisindən qovdu və onunla oturub durmağı heç kəsə icazə vermirdi.(٢)

İbn Xəlləkan deyir: "Müslim bu əqidəsinə görə Hicazın və İraqın da nifrətini qazandı və (bu şəhərlərdən də qovuldu."(٣)

Bu hadisələrdən məlum olur ki, Buxari və Müslim nəinki Nişapur əhalisi tərəfindən, hətta özlərinin xas əqidələrinə görə Bağdad alimləri tərəfindən tənqid olunmuş və .qınanmışdır. Bununla da Nişapur şəhərindən qovulmuşlar

Səhiheyn Əbu Zərənin nəzərində

Əbu Zər`ə hədis, rical və başqa elmlərdə böyük mütəxəssis bir alimdir. Fazil Nəvəvi :onu belə təqdim edir

إِنْتَهَى الْحَفْظِ اِلَى ارْبَعَبِهِ مِنْ اَهلِ خُرَاسَان اَبُوذَرْعَه

HəDIS əZBəRLəMəK Və BU FəNDə MəHARəT QAZANMAQ DöRD NəFəRə _ (MəXSUSDUR. ONLARDAN BIRI Də ƏBU ZəR`əDIR. _(٤)

Əbu Zər`ə belə elmi məqamı ilə Müslimü və onun timsalında olanları tənqid etmiş, onları zahiri mənaları tutan bir adam kimi təqdim etmiş və "Səhihi-Müslim"kitabının bir çox

səh:١٠٩

Bu əhvalat barədə "Tarixi-Bağdadi"-də geniş söhbət olunmuşdur. ٢-ci cild; səh. . [١] -١ ٣١-٣٢; və ٣-cü cild, səh. ٤١٥ və "İrşadus-sari", ١-ci cild, səh. ٣٨ və "Fəthul-bari"nin .müqəddiməsi, ١-ci cild, səh. ٩٧٨-i mütaliə edin

Dairatul-maarif" müəllifi Fərid Vəcdi, ٥-ci cild; səh. ٢٩٢ və ;Təzkirətul-hifaz;, ٢-ci" . [٢] -٢

;cild; səh. ۵۸۹

;Vafiyətul-Əyan", ۲-ci cild;. səh. ۲۸۱" . [۳] -۳

;Təhzibul-əsma vəl-luğat", ۱-ci cild, səh. ۶۸" . [۴] -۴

.hədislərinin yanlış olduğunu bildirmişdir

Xətib Bağdadi Səid ibn Ömər Bərzəidən nəql edir ki, dedi: “Mən Əbu Zər`ə ilə bir yerdə idim. Söhbət “Səhihi-Müslim” və ona oxşar kitablardan düşdü. Əbu Zər`ə dedi: Bunlar o şəxslərdir ki, vaxtından qabaq istəyirdilər məqam və şöhrətə çatsınlar. Özlərindən (bir şey düzəldib kitab yazdılar. Öz kitablarını cilvələndirərək məqama yetişdilər.”(١

Xətib Bağdadi yenə Səiddən nəql edərək belə deyir: “Əbu Zər`ənin yanında idim. “Səhihi-Müslim” kitabını onun yanına gətirdilər. Əbu Zər`ə baxdı. Növbə Müslimün Əsbat ibn Nəsrdən nəql etdiyi hədisə çatdı, belə dedi: - Bu hədis nə qədər də səhv və !yanlışdır

:Sonra “Qutn” adına çatdıqda dedi

(Bu əvvəlkindən də lap pisdir”.(٢“-

yəştifunə bih) “özlərini) يَشْـتِفُونَ بِـه Əbu Zər`ənin söhbətini Zəhəbi də nəql etmiş və yəstifunə bih) gətirmişdir. Yəni elə bir iş) يَسْـتِفُونَ بِه nümayiş etdilər” kəlməsinin əvəzinə (gördülər ki, onun vasitəsilə özlərini məşhurlaşdırdılar.(٣

Səhiheyn kitabları Nəvəvinin nəzərində

Fazil Nəvəvi Buxari və Müslimün səhihlərinə özü şərh yazmışdır. Onun rical elmində mütəxəssis olmasına və bu elm barədə saysız kitablar yazmasına baxmayaraq, bu iki kitabın hədislərinin bir miqdarının düzgün və səhihliyində şübhə etmiş, bəzən açıq .şəkildə onun batil olduğunu bildirmişdir

Səhihi-Müslimə yazdığı öz şərhinin müqəddiməsində belə deyir: “Müslim belə iddia edirdi ki: ”Mən bu kitabda təkcə öz

---

;Tarixi-Bağdadi”, ٤-cü cild; səh. ٢٧٣-٢٧٤“ . [١] -١

. Həmin mənbə . [٢] -٢

;Mizanul-etidal”, ١-ci cild, səh. ١٢٦“ . [٣] -٣

nəzərimdə səhih olan hədisləri toplamışam. Bəlkə də topladığım hədislərin səhihliyində ".fikir birliyi vardır

Nəvəvi bu cümlələrin nəqlindən sonra belə deyir: "Bu iddianı sübut etmək çətindir. Çünki, elə bir şəxslər tərəfindən nəql olunmuşdur ki, onların düz danışmağı və (hədislərinin səhihliyi mübahisəlidir. Biz onların bəzilərinin adlarını qeyd etmişik."(١

Nəvəvi "Səhihi-Müslim" kitabının şərhində yazılmış hədis barədə belə deyir: "Əba Sələmə "Bədul vəhy mövzusunda" belə nəql edir ki, Peyğəmbərə (s) nazil olan ilk surə " Muddəssir " surəsidir. Lakin, "Bu hədis zəif, bəlkə də batildir. Çünki, Peyğəmbərə (s) (nazil olan ilk surə "Ələq" surəsi olmuşdur."(٢

Səhiheyn kitabları İbn Həcərin nəzərinrə

İbn Həcər deyir: "Huffaz" (yəni hədis əzbərləyənlər) Səhihi-Buxarinin ١١٠ hədisində və bu hədislərdən Müslimün ٣٢-dənə nəql etdiyi hədislərə irad etmişlər. Həmçinin, onların (düzgün və səhihliyini qəbul etməmişlər."(٣

Yenə də İbn Həcər "Fəthul-bari" kitabının müqəddiməsində Buxarinin ricalından ٣٠٠ nəfərin adlarını çəkmişdir. Belə ki, keçmiş rical elminin alimləri və hədis yazarları onları (zəif və etimadsız saymışlar. (٤

Səhiheyn kitabları Qazi Əbu Bəkr Baqilaninin və başqalarının nəzərində

Qazi Əbu Bəkr Baqilani "səhiheyn" kitabında nəql olunmuş Peyğəmbərin (s) Əbdullah ibn Ubəyyə namaz qılması və Ömərin

---

;Səhihi-Müslim"ün şərhinin müqəddiməsi, səh. ١۶" . [١] -١

;Həmin mənbə, ٢-ci cild; səh. ٢٠٧ . [٢] -٢

;Fəthul-bari"nin müqəddiməsi, ٢-ci cild; səh. ١٨" . [٣] -٣

;Həmin mənbə, ٢-ci cild; səh. ١١١-١٨٣ . [۴] -۴

etirazını inkar etmişdir. İmamul Hərəmeyn demişdir: “Hədis elminin alimləri bu hədisi ".yanlış saymış və rədd etmişlər

".İmam Qəzali “Mustəfa” kitabında demişdir: “Zahirən bu hədis səhih deyildir

(Davudi demişdir: “Bu hədis düzgün hədis deyildir.”(١

Səhiheyn kitabı İbn Həmmamın nəzərində

İbn Həmmam, “Hidayə” kitabının şərhində demişdir: “Ən səhih hədislərin “səhiheyn”-də olduğunu söyləyən hər kəsin sözü düz deyildir. Bu səhv və qəbulolunmaz bir (məsələdir.”(٢

Bu ümumi surətdə söylənilənlər keçmiş alimlərin və “səhiheyn” kitablarını şərh edənlərin, bu iki kitab və onların müəllifləri barədə olan nəzərləri idi. Əgər bu iki kitabdan meydana gələn bütün şübhəli, doğru və düzgün olmayan məsələləri xırdalığına kimi toplayası olsaq, özü ayrıca böyük bir kitab olar. İndi isə əziz oxucuları əsrimizin böyük əhli-sünnə alimlərinin bu iki kitab barədə olan nəzərlərini diqqətinizə .çatdırırıq

Səhiheyn kitabları Şeyx Məhəmməd Əbduhun nəzərində

Seyyid Məhəmməd Rəşid Rza Misir alimi və Şeyx Məhəmməd Əbduhun seçilmiş şagirdlərindən biridir. O, öz ustadının nəzərlərini “Əl-mənar” adlı təfsir kitabında toplamışdır. Əvvəlcə İbn Həcərin sözlərini nəql etmişdir ki o, belə deyir: “Hafizlər səhiheynin ١١٠ hədisinə irad tutmuşdur ki, Müslim bu hədislərin ٣٢-ni öz kitabında nəql ,etmişdir. Başqa ٧٨ hədisi Buxari özü xüsusi surətdə nəql etmişdir. Bundan əlavə

.Həmin mənbə, ٩-cu cild, “Bəraət” surəsinin təfsiri . [١] -١

Əzvaun əla sunnətil Məhəmmədiyyə (s) ", səh. ٣١٢; Qeyd etmək lazımdır ki hafiz“ . [٢] -٢ o kəsə deyilir ki ١٠٠٠-dən çox hədisi sənəd və mənbə cəhətindən düzgün əzbər və hifz .etmiş olsun

hafizlər Buxarinin kitabında gəlmiş hədisçilərdən ٨٠ nəfərdən çoxunu və Müslimün kitabında olan hədisçilərdən ١۶٠ nəfəri zəif və qeyri-mötəbər saymışlar.” İbn Həcər yenə əlavə edərək bildirir ki: “Səhiheyn kitablarında, hədislər içində mənim səhv tutduğum və qeyri-mötəbər saydığım hədislərin sayı ٢١٠ -dur. Bu sayın ٧٠-dən çoxunu Buxari, yerdə qalanını isə Müslim nəql etmişdir “.(١)

Seyyid Məhəmməd Rəşid Rza sonra əlavə edir ki: “Əgər İbn Həcərin söylədiklərini oxusanız və onun hədislər barədə tutduğu iradlara nəzər etsəniz görəcəksiniz ki, o hədis elmini güclü bildiyi üçün belə iradlar etmişdir. Amma, onun Fəthul-Bari adlı şərhini oxusanız görərsiniz ki: O, çox hədislərə irad tutmuşdur. Onun iradları əvvəlcə nəql olunmuş bəzi hədislərə aid olmamışdır. Kitabında olan iradlar bəzən məna cəhətindən, bəzən hədislərin bir-biri ilə ziddiyyətli olmasından və bəzən də başqa cəhətlərdən qeyd olunmuşdur. İbn Həcərin adını çəkdiyi irad tutulmuş hədislərin xülasəsi həddindən artıq çoxdur. Hədislərdə olan iradlra baxmayaraq, onlara bəraət qazandırmaq və ya başqa yerə yozmaq üçün çox çalışmışdır. Onları doğru hədislər kimi qələmə verərək səy göstərmişdir ki, bəlkə bu yozumların bir qismi qaneedici olsun. Lakin, o hədislərdə elə hissələr var ki, heç vaxt oxucunu qane etmir.” (٢)

Şeyx Məhəmməd Əbduh, Peyğəmbərin (s) “Əbdullah ibn Ubəyyə namaz qılması əhvalatı”-nda bu hədisin rədd olunması barədə bir neçə alimin sözlərini nəql etdikdən Sonra belə deyir: “Həqiqətən bu hədis əvvəl söylənilən rəvayətlə ziddiyyət təşkil edir. O kəslər ki, məzhəbin üsulu və qəti dəlillərinə (Qurani-

---

١- [١] . Bu hissəni İbn Həcər “Hədyus-sari”-da ٢-ci cild; səh. ٨١-də qeyd etmişdir.

٢- [٢] . Əzvaun ələs-sunnəti Məhəmmədiyyə səh. ٢٧۴.

Kərim) şübhəli hədislərdən daha çox diqqət edirlər, bu hədisin cavabında heç bir (cavabları yoxdur. Yeganə cavabları bu ola bilər ki, desinlər: "Bu hədis doğru deyildir."(١)

Səhiheyn kitabları Əhməd Əminin nəzərində

Misirin tanınmış alimi professor Əhməd Əmin səhiheyn kitabları barədə deyir: "Hafizlər Buxarinin təqribən ٨٠ nəfər hədisçilərinin zəif olduğunu bildirmişlər. Bu, böyük bir çətinliyin meydana gəlməsinə səbəb olmuşdur. Çünki, zəif sayılmış bu şəxslərin bir çoxu etibarı olmayan və yalançı şəxslərdir. Belə olduqda isə məsələ aydındır. Lakin, onlardan bəzilərinin tərcümeyi-halı qeyri-müəyyən və şəxsiyyətlərinin isə məlum olmadığı bildirilir. Belə olmağı işi çətinləşdirir. Səhihi-Buxarinin sənədlərdə istinad etdiyi, tərcümeyi-halı məlum olmayan belə şəxslərdən biri Əkrəmə Mövla ibn Əbbasdır. Bu şəxs öz hədisləri ilə aləmi doldurmuşdur. Lakin, rical alimlərindən bəziləri onun yalançı, xəvaricin yolunu gedən, əmirlərdən hədiyyə alan və çoxlu yalanlar nəql ".edən bir şəxs olduğunu bildirirlər

Professor Əhməd Əmin onun yalançılığını isbat etmək üçün bir neçə tarixi şahidləri qeyd etdikdən Sonra belə əlavə edir: "Buxarinin nəzərində Əkrəmə Mövla ibn Əbbas doğru şəxs kimi tanınmış və öz səhihində ondan çoxlu hədislər nəql etmişdir. Lakin, Müslimün nəzərində isə o doğru adam deyil və onun hədislərinə etimad etmək olmaz. Müslim ondan "həcc" mövzusunda başqa bir hədisi təsdiq etmək üçün yalnız bir hədis (nəql etmişdir."(٢

;Əl-mənar", ١-ci cild, səh. ۶٧١" . [١] -١

Zuhəl İslam", ٢-ci cild; səh. ١١٧-١١٨; Buxarinin ustadı" . [٢] -٢

Müslimənin yazdığına görə, "Buxari" öz "səhih"- kitabını qələmə alarkən onu başqasından oğurlayaraq səhv iş görmüşdür. Gördüyü bu qəbahət iş onsuz da onun zəif olan elmi şəxsiyyətinə, əxlaqına və yazdığı kitabın etibardan düşməsinə səbəb olmuşdur. Belə ki: -" Əli ibn Mədini* "İləl" adlı bir kitab yazmışdır. O, bu kitabın qorunmasına çox əhəmiyyət verirdi ki heç kəsin əlinə düşməsin. Təsadüfən günlərin birində neçə günlük şəhər kənarında olan bağlarına getdi. Buxari bu fürsətdən sui-istifadə edib onun uşaqlarından birinin yanına getdi və pul verib onu aldadaraq "İləl" kitabını bir günlük oxumaq üçün ondan aldı. Kitab Buxarinin əlinə çatan kimi tez-tələsik onu neçə nəfər kitab nüsxəsi çıxaranların əlinə verdi ki, onu üzündən köçürsünlər. Sonra kitabın əslini Mədininin övladına qaytardı. Mədini qayıdandan sonra dərs zamanı gördü ki, Buxari onun dediyi hər mövzu haqqında Mədininin öz şəxsi nəzərləri və sözləri ilə cavab verir. Bir neçə dəfə təkrar olduqdan sonra Mədini başa düşdü ki,onun əsəri artıq köçürülüb. Bu hadisə onun narahatlığına və kədərlənməsinə səbəb oldu. Bu narahatlıq və qəm-qüssə Mədininin xəstələnib yorğan-döşəkə düşməsinə, sonra da vəfatına səbəb oldu. Buxari "İləl"-kitabından əldə etdiyi nüsxə vasitəsi ilə öz hədislərinin raviləri barədə hər hansı axtarış aparmağa lüzum qalmadığını görüb Xorasana qayıtdı. Orada "Səhih" kitabını yazdı. Əli ibn Mədininin böyük rolu və zəhməti olmuş bu "Səhih" adlanan kitab Buxarinin məşhurlaşmasına səbəb oldu."(١)

səh:١١۵

١- [١] . "Təhzibut-təhzib", ٩-cu cild, səh. ۵۴;

Bura qədər əhli-sünnə alimlərindən bir çoxunun səhiheyn kitabları barədə olan nəzərlərini, onların bəzilərinin sənədinin, bəzilərinin hədislərinin mətinlərinin zəifliyi, bəzilərinin isə hər iki cəhətdən zəif olması barədə və bu iki kitaba olan iradlarını xülasə .şəkildə əziz oxuculara təqdim etdik

Lakin, məzmun baxımından bu iki kitab və bizim ona olan nəzərimiz bir çox əhli-sünnə .alimləri ilə eynidir. Biz bu məsələdə də onlarla bir əqidədə və bir fikirdəyik

Bizim əqidəmizə görə bu iki kitabın məzmunları arasında müxtəlif başlıqlarda nəql olunmuş səhih hədislər vardır. Təəssüflər olsun ki, bu kitablarda səhih və düzgün olmayan hədislər daha çox gözə dəyir. Belə hədislərin sayı bizim nəzərimizdə İbn Həcərin hafizlərdən nəql etdiyindən daha çoxdur. Hədis hafizləri belə nəql edirlər ki: ".“Yalnız ۱۱۰ hədisi səhv bilmiş və onların mətnlərinə irad tutmuşlar

Bizim əqidəmizə görə, bu iki kitabın hədisçiləri arasında ۳۰۰-dən artıq zəif və etibarsız şəxs vardır. İbn Həcərin dediyinə əsasən, əhli-sünnə alimləri və hədisçilər haqqında .araşdırma aparan şəxslər onları zəif saymışlar

Aşağıdakı dəlillər bu iki kitabın mətn və sənəd baxımından onun hədislərinin zəifliyi :barədə bizim əqidə və nəzərimizi sübut edir

Səhiheyn kitablarının sənədləri və hədisçilərindən bir çoxu nəinki mötəbər deyil, .۱ .hətta onlar rical elmi nöqteyi- nəzərindən də rədd olunmuşlar

.Bu iki kitabın müəllifləri öz əqidə və əməllərində şəxsi qərəzə çox yer vermişlər .۲

Hədislərin nəql olunması və yazılması arasında (uydurma hədislərə diqqət etməklə) .۳ .çox məsafə vardır

.Buxari öz səliqə və nəzərinə əsasən hədislərin yarısını ixtisar etmişdir .۴

.Səhihi-Buxaridə hədisin mənası nəql olunmuşdur .۵

.Səhihi-Buxari başqalarının vasitəsilə tamamlanmışdır .۶

Səhiheyn kitablarında əqli və dini dəlillərə əsasən bir-biri ilə təzad təşkil edən . ۷
.hədislər çox gözə dəyir

Bunlar səhiheyn kitablarında gözə dəyən məsələlərdir. Bu da onların zəifliyini bildirir. Tədqiqat aparan bir şəxs bu kimi məsələlərə göz yummamalı və onların yanından etinasız ötüb keçməməlidir. Allahın köməyi ilə bu barədə gələcək səhifələrimizdə geniş .surətdə söhbət edəcəyik

Dördüncü hissə

İşarə

Səhiheynin Raviləri və Sənədləri

Səhiheyn kitablarının sənədlərinin zəifliyi .۱

Səhiheynin hədislərinin zəifliyinə birinci dəlilimiz, bu iki kitabın etibarsızlığının səbəbi .bəzi hədislərin sənəd və ravilərinin zəif olmasıdır

Hədislərin sənədi kitabın mövzusu ilə kamil şəkildə əlaqəli olduğu üçün, hədis və rical elminin mühüm bəhslərindən sayılır. Bu da kitabın doğru və yanlış olmasını .müəyyənləşdirmək üçün əsas meyar və ölçüdür

Bunu da qeyd etmək lazımdır ki, bu mövzu geniş şəkildə araşdırılmalıdır. Lakin, mətləblərin həcmini nəzərə almaqla, bu kitabın bir neçə səhifəsini xülasə şəkildə bu mövzu üçün ayırırıq. Bir neçə mövzunu araşdırdıqdan sonra bu nəticəyə gəlmişik ki, bu .kitabların sənədlərinin zəifliyini göstərən ikinci dəlili oxuculara təqdim edək

Rical elmi və Dirayətul–hədis

(RICAL ELMI (۱) Və DIRAYəTUL-HəDIS(۲

Hər bir rəvayətin səhih və etibarlı olmasını bilməkdən ötrü o hədisin ravisinin dini, imanı və əqidəsi araşdırılmalıdır. Çünki

---

RICAL ELMI – HəDISçILəRIN Və RAVILəRIN DOğRUSUNU YALANDAN, . [۱] –۱ .ETIBARLıSıNı ETIBARSıZDAN AYıRAN ELMə DEYILIR

DIRAYə – HəDISLəR HAQQıNDA TəHQIQAT APARıB DOğRU HəDISLəRI SəHV . [۲] –۲ .(HəDISLəRDəN AYıRAN ELMə DEYILIR. (MüTəRCIM

ravinin nəql etdiyi rəvayətlər hər cür yalan və təhriflərdən uzaq olmalıdır. Bu, elə bir mühüm məsələdir ki, bütün dövrlərdə bəşəriyyətin nəzər-diqqətini özünə cəlb etmişdir. Dünyanın heç bir nöqtəsində bir şəxsin doğruluğu sübuta çatmayınca onun sözlərini və ya yazılarını qəbul etmirlər. Xüsusilə də o zamanın mürəkkəb siyasi vəziyyətində vilayətin hakimiyyti ilə mübarizə apardıqda və bu kimi hallarda adətən .həqiqətin təhrif olunma ehtimalı daha çox gözə dəyir

Əgər bir şəxs bu barədə sadəlövhcəsinə davranaraq hər hədisi və ravini dəlilsiz və sənədsiz qəbul edərsə, faydasız fikirlərə və quru kəlmələrə etimad göstərərək səhvə .düçar olmuşdur

Quraini-Kərim müsəlmanlara imanı olmayan hər hansı bir ravinin sözlərinə inanmağı qadağan etmiş və bu mövzuda sadəlövhlüyün pis və Zər`ərli aqibətindən çəkindirmişdir. Bu kimi nəql olunmuş məsələlərin araşdırılmasını və onların üzərində)tədqiqat aparılmasını lazım bilmişdir.(١)

Fitri anlayış və İslami olan bu əmr hədis elminin yaranmasi ilə iki başqa elmin (rical və dirayətul-hədis) də vücuda gəlməsinə səbəb oldu. Onlardan birincisi (rical elmi) ravilərin həyatını, ikincisi (dirayətul-hədis) isə ravilərin və hədislərin mətnlərində olan .vəziyyəti araşdırmağı öz öhdəsinə götürmüşdür

Bu iki elm sahəsində şiə və sünni məzhəblərindən böyük və şəxsiyyətli alimlər .meydana çıxdı; rical və dirayətul-hədis üzrə qiymətli kitablar yazıldı

١- [١] . {يَا أَيُّهَا الَّذِينَ آمَنُوا إِن جَاءَكُمْ فَاسِقٌ بِنَبَإٍ فَتَبَيَّنُوا أَن تُصِيبُوا قَوْمًا بِجَهَالَةٍ فَتُصْبِحُوا عَلَى مَا فَعَلْتُمْ نَادِمِينَ}. -"Ey iman gətirənlər! Əgər bir fasiq sizə (pis) bir xəbər gətirsə, dərhal (onun doğruluğunu) yoxlayın. Yoxsa bilmədən bir qövmə pislik edər, sonra da etdiyinizə peşman olarsınız!" ;"Hucurat" surəsi, ayə-۶

Dirayətul-hədis alimlərinin ravilər barədə bir sıra ciddi şərtləri vardır. Bu da onu göstərir ki, ravinin imanlı və etibarlı olması nə qədər də mühümdür. Buna görə də ravi .ədalətli, imanlı, doğruluğundan əlavə həm də güclü yaddaşa malik olmalıdır

İman, hədisin qəbul olunmasının əsas şərtidir

Bu məsələyə işarə olundu, hər hansı bir hədisi və xəbəri qəbul etməyin bir neçə mühüm şərti vardır. O şərtlərin birincisi bu hədis və xəbəri söyləyən adamın, yəni ravinin imanlı olmasıdır. Dinləyici, ya oxucu ravinin doğruçu, düz danışan və imanlı .olmasını yəqin etməlidir

Mötəbər sənədlərə əsasən, “səhiheyn” kitablarında olan hədislərin ravilərinin bir qismi sabit fikrə və imana malik olmamışlar. Tarixi dəlillərə müraciət edərkən onların doğru .yoldan sapmaları və etibarsız olmaları üzə çıxır və inkaredilməzdir

Səhiheyn” ravilərinin böyük bir qismi o adamlardır ki, qondarma hədis yazma, hədis“ .saxtalaşdırma, Həzrət Əli (ə) ilə düşmənçilikdən başqa yalançı da olmuşlar

Bu xüsusiyyətlər imanla düz gəlmir

Əgər yuxarıda sayılmış sifətlərdən biri hər hansı bir kəsdə olsa, onun hədisi etibardan düşəcək və sözlərinin heç bir qiyməti olmayacaqdır. Belə sifətlər isə imanlı və mömin şəxslərdə cəm ola bilməz. Bizim nəzərimizcə, imanla yalan hədis düzəltmək heç vaxt bir yerdə ola bilməz. Yəni, imanlı şəxs heç vaxt yalan hədis düzəltməz, rəvayət uydurmaz və yalan danışmaz. Belə sifətlərə malik olan şəxslərin etimadsızlığı gün kimi aydın olan bir məsələdir. Buna görə də o kəslərin etimadsızlığını sübut etməkdən ötrü dəlil gətirməkdən vaz keçirik. Amma, onların Həzrət Əli (ə) ilə düşmənçiliyini imanla düz gəlməməsinə aid

bir neçə hədisi gətirmək istəyirik. Sonra "səhiheyn" kitablarının raviləri haqqında .araşdırma aparacağıq

:İndi isə belə hədislərdən bir neçə nümunə

Peyğəmbər (s) buyurdu: "Ənsarla dostluq iman əlaməti, onlara kin bəsləyib düşmən .(١ (olmaq isə nifaq əlamətidir."(١

Yenə buyurur ki: "Bir müsəlmana söyüş söyüb ona lənət oxumaq fasiqlik əlaməti və .(٢ (günah, bir müsəlmanla müharibə etmək isə küfr və dinsizlik əlamətidir."(٢

Əli (ə) buyurur: "And olsun o Allaha ki, toxum dənəsini parçalayıb bəşər övladlarını .(٣ yaratdı. Bu, Allah Peyğəmbərinin (s) mənimlə bağladığı əhd-peymandır ki, "məni mömindən başqa bir kəs sevməz və münafiqdən başqa bir kəs mənimlə düşmənçilik (etməz."(٣

...Səhiheyn kitablarının ravilərindən bir dəstəsinin

SəHIHEYN KITABLARıNıN RAVILəRINDəN BIR DəSTəSININ IMANıNıN MIQDARı Və BU IMANıN TəNQIDI

Səhiheyn kitablarından nəql olunan hədislərin məzmununa, iman və əqidə barədə söylənilən mətləblərə diqqət etməklə, qeyd olunan hədislərin ravilərinin doğru danışan .və düzgünlüyünün çox əhəmiyyətli olması məlum oldu

Əziz oxucu, siz səhiheyn kitablarının ricallarından bir qrupunun və bu iki kitabın hədis ravilərinin barəsində araşdırma apararaq hökm verə bilərsiniz. O cümlədən, onların hədislərinin bir qisminin səhih, ya yanlışlığına da diqqət edə bilərsiniz. Çünki, mülahizə (olunduğu kimi, Peyğəmbərin (s

---

١- [١] . حُبُّ الَانْصارِعَلامَهُالايمان وَبُغْضُ الاَنْصَارِعَلامَهُاالنِّفَاقِ .

٢- [٢] . قَالَ | : سبابُ الْمُسْلِمَ فُسُوقٌ وَقِتَالُهُ كُفْرٌ.

٣- [٣] . قَالَ عَلِى ×: والـذى خلق الحبهوبرءَالنسمهانه لعهدالنّبى الامّى | اِلَىَّ ان لايحبُّنِى الاالمُؤمِنِ وَلاَيُبْغِضُنِى الاَمُنَافِق.

Səhihi-Buxari”, ١-ci cild, “Kitabul-iman”; “Səhihi-Muslum”, ١-ci cild, “Səbabu muslimi“ fsuqun və qitaluhu kufr” bölümü; “Sunəni-Nəsai”, ٧-ci cild, səh. ١١١-١١٢; bu barədə ١٢ .hədis nəql olunmuşdur

ənsara və Əliyə (ə) məhəbbət göstərmək, onları sevmək iman və onlarla ədavət və düşmənçiliyin nifaq əlaməti olduğunu bildirmişdir. Bu hədislər hər bir müsəlmanla .müharibə etməyi küfr və imandan xaric olmaq kimi qiymətləndirir

Tədqiqatçıların və rical alimlərinin nəzərinə əsasən, bu iki kitabın hədis ravilərinin bir çoxu möhkəm imana və əqidəyə malik olmamışlar. Tarixçilərin nəzərinə əsasən, bu ravilər arasında bir qrup yalan danışan və etimad olunmayan ravilər çox olmuşlar. O .cümlədən, onlar arasında Əli (ə) ilə ədavət və düşmənçilik edənlər də az deyildir

Necə ki, İbn Həcər Səhihi-Buxari kitabının hədislərinin mətnlərində və sənədlərində olan düyünləri açmaqla və bəzən də təəssübkeşliyi kənara qoymaqla bəzi həqiqətləri işıqlandırmışdır. O ravilərin adlarını qeyd etməklə bildirmişdir ki, keçmiş alimlər bu raviləri etimad olunmaz və zəif saymışlar. İbn Həcər neçə nəfərin adını sayaraq belə (deyir: "Bunlar nasibi(۱) və Əlinin (ə) qatı düşmənləridirlər."(۲

Şeyx Mötəzilə Əbu Cəfər İskafi bu barədə deyir: " Müaviyə səhabə və tabeindən bir qrup şəxsi ona (Əliyə) tənə vurmağa və onun haqqında uydurma hədis nəql etməyə vadar etdi. Bu iş üçün çoxlu pul xərclədi. Belə ki, hər bir süst və imanı zəif olan şəxsi asanlıqla bu işə cəlb edirdi." Sonra belə deyir: " belə şəxslərdən Əbu Hüreyrə, Əmr ibn As, Muğeyrət ibni Şöbə və Zubeyrin oğlu Urvə idi. Onlar Əli (ə) barədə çoxlu yalanlar qoşmuşlar. Bu yolla Müaviyənin rəğbətini özlərinə cəlb edərək onu öz istədiyi ilə təmin (edirdilər."(۳

Nasibi – Əli (ə) və onun övladları ilə döşmənlik edən, onlara söyüş və lənət . [۱] -۱ .(göndərən şəxslərdir.(Mütərcim

;Hədyus-sari", ۲-ci cild" . [۲] -۲

.İbn Əbil Hədid "Nəhcül-bəlağənin şərhi" ۴-cü cild, səh. ۴۳ . [۳] -۳

Hörmətli oxucu! İskafinin saydığı Müaviyənin hədis uyduran şəxslərdən tanıtdırdığı bu bir neçə nəfər o şəxslərdirlər ki, səhiheyn kitablarında onların vasitəsilə çoxlu hədislər .nəql olunmuşdur

Ötən bəhslərdə alimlərdən bir neçə nəfərin bu iki kitabın raviləri barədə olan iradlarını nəql etmişdik. İbn Həcərin, Əbu Zər`ənin, Nəvəvinin və Əhməd Əmininin sözlərini əziz (oxucuların xidmətinə çatdırmışdıq. (١

Əbu Hüreyrə .١

Burada nümunə və şahid olaraq səhiheynin ricalından bir neçə nəfərin başqa alimlər tərəfindən də zəifliyini və onlar barədə olan sözlərini, ravilərin tərcümeyi-halını, yaşayış tarixini, məzhəbini və s. açıqlayırıq. Həmin tərcümeyi-hal bu ravilərin bir .çoxunu tanımaqda gözəl meyar və ülgü ola bilər

Səhiheyn kitablarında Əbu Hüreyrənin vasitəsilə bir çox hədislər nəql olunmuşdur. Bu hədislərin sayı ۵۳۷۴ ədəddir. Buxari, öz səhih kitabında Əbu Hüreyrədən ۴۴۶ hədis nəql (etmişdir.(٢

O, elə şəxslərdəndir ki, çox hədis nəql etməkdə tanınmış, bəlkə birinci yerdədir. Onun hədislərinin çoxluğunu belə müqayisə ilə bilmək olar ki, əhli-sünnənin "Məsanid" və başqa kitablarında dörd xəlifədən nəql olunmuş bütün hədislərin hamısının sayı ۱۴۱۱- .dir ki, Əbu Hüreyrədən nəql olunmuş hədislərə nisbətən ۲۷٪ azdır

O, Yəmən əhlindəndir. Xeybər qalasının fəthindən sonra (hicrətin ۷-ci ilində) Mədinəyə ,hicrət etmiş və İslam dinini qəbul etmişdir. Peyğəmbrlə (s) onun arasında münasibət

---

.Səhihi-Buxari" və "Səhihi-Müslim" elm və təhqiq baxımından." müraciət edin" . [١] -١

.;Hədyus-sari", ٢-ci cild" . [٢] -٢

(özünün dediyinə görə üç ildən artıq olmamışdır.(١

Əbu Hüreyrə Müaviyənin əmrlərinə çox əməl edən, hədis uyduran qrupun üzvlərindən biri idi. O cümlədən, Əli (ə) və onun sülaləsinə nisbət çoxlu nalayiq sözlər demiş, (Müaviyə və başqa üç xəlifələrin barəsində isə olmayan fəzilətləri uydurmuşdur.(٢

Əbu Hüreyrə o kəsdir ki, öz zamanında da çoxlu yalan hədislər deməkdə, yalançı (olması ilə günahlandırılmış və bu ittihamlar qarşısında özünə bəraət qazandırmışdır.(٣

Əbu Hüreyrənin kisəsi

Elə ki Əbu Hüreyrə yalançılığının aşkar olmasını görürdü, öz yalanına etiraf etməklə, .qarşı tərəfi çıxılmaz vəziyyətdə qoyur, özünü xilas edirdi

Buxari öz "səhih" kitabında Əbu Hüreyrədən bir hədis nəql edir ki, onun axırı çox :təəccüblü bir cümlə ilə diqqəti özünə cəlb edir

فَقَالُوا....يَاأَبَاهُرِيره سَمِعْتَ هَذَامِنْ رَسُولِ الله | ؟ قَال:لا,هَذَامِنْ كِيس أَبِى هُرَيْره .

Hədisin məzmunu belədir: Əbu Hüreyrə Peyğəmbərdən (s) bir hədis nəql etmişdir. Elə ki, onun axırı dinləyicilər üçün çox təəccüb edici və qəbul olunmaz oldu, cürət və cəsarət taparaq sual soruşdular: Əbu Hüreyrə! Bu cümləni də Peyğəmbərdən (s) ?eşitmisən

Əbu Hüreyrə burada məcbur qalıb həqiqəti belə izah edib deyir: Xeyr, bu Əbu (Hüreyrənin kisəsindəndir.(٤

Əbu Hüreyrənin tərcümeyi-halında onun dini, fərdi və ictimai şəxsiyyəti, eləcə də Müaviyənin təşkil etdiyi hədis

səh:١٢٧

Səhihi-Buxari", ٢-ci cild; "Əlamətun-nubuvvəti fil İslam" bölümü; Əbu" . [١] -١ ;Hüreyrənin tərcüməsi "Təbəqat vəl-isabə"-də

;Nəhcül-bəlağənin şərhi"; "İbn Əbil Hədid", ۴-cü cild, səh. ۴٣" . [٢] -٢

Səhihi-Buxari"; "Kitabul-uyun və kitabul muzariə"; "Musnədi-Əhməd ibn" . [٣] -٣

;"Hənbəl"; "Məsanidi-Əbu Hüreyrə

;Səhihi-Buxari", ٧-ci cild; "Kitabun-nəfəqat", ١-ci bölüm" . [۴] -۴

(uyduran heyətin üzvü olması barədə çoxlu qiymətli kitablar yazılmışdır.(۱)

Əbu Musa Əşəri .۲

Səhiheyn kitablarının ravilərindən biri də Əbu Musa Əşəridir. Adətən əhli-sünnə məzhəbinin rical və tərcümə olunmuş kitablarında Əbu Musa barədə fəzilətlər nəql olunmuşdur.(۲) Buxari də öz səhihində ondan ۵۷ hədis nəql etmişdir.(۳) Lakin o, Həzrət Əlinin (ə) qatı düşmənlərindən və İslam aləmində çox acınacaqlı hadisələr törədənlərdən biri olmuşdur. Belə ki, Əli (ə) namazında onu gördüyü işlərinə görə nifrin (etmişdir.(۴

Əli (ə) Kufənin yaxınlığına çatan zaman Əmmar Yasiri və Məhəmməd ibn Əbu Bəkri Kufə əhlinin yanına göndərdi. Əbu

---

Mərhum Seyyid Şərafuddin yazdığı -"Əbu Hüreyrə" kitabı, Mərhum Əbu Rəyyə . [۱] -۱ Misrinin yazdığı "Şeyxul muzirə" və s.. kimi kitablar. Mütərcim: Əbu Hüreyrədən nəql olan hədislər başqa səhabələrdən o cümlədən İbn Abbas, Əli (ə) , Əbu Zər, Miqdad, Səlman Farsi, hətta Əbu Bəkr, Ömər, Səd ibn Vəqqas və Aişənin nəql etdiyi hədislərdən çox gözə dəyir. Hansı ki, onun söylədiyi hədislərin əksəriyyətini heç kəs eşitməmiş və nəql etməmişlər. Səhihi-Buxari kitabında nəql olunan hədislərin çoxu isə Əbu Hüreyrədən nəql olunmuş rəvayətlərdir. Ummul-möminin Aişə onu bu işlərinə görə ittiham edərək "yalançı" olmasını bildirmişdir. İkinci xəlifə Ömər özü, Əbu Hüreyrəni bu işlərinə görə cəzalandırmışdır. "Təvilul muxtəlifil hədis" – ibn Quteybə فإنَّ أَبا هريره صحب رسول الله| نحواً مِنْ ثلاث سنين، وأكثر الروايه ;Deynəvəri səh. ۳۸-۳۹, təzə çap səh. ۴۱ عنه و عمّر بعده نحوا مِنْ خَمْسينَ سنه، و كانت وَفاتُهُ، سنه تسع وخمسين، و فيها توفيت امًّ سلم، زوج النّبىّ|، و توفيت عائشه رضى الله عنها، قبلها بسنه. فلمّا أتى من الرّوايه عنه، مالمْ يأتِ بِمثله من صحبه منجله أصحابه والسابقين الاوّلين اليه، أتّهموه وانكروا عليه، وقالوا كيْفَ سمِعْتَ هذَا وحْدك؟ و من سمعه معك؟ و كان عائشه رضى الله عنها، أشَدّهمْ إِنكاراً علَيْه، لتطاول الايام بهاوبه. و كان عمرُ أيضاً، شديداعلى من أكثر الروايه، أوأتى بخبر فى الحكم، لاشاهد له عليه... .

Təzkiratul-hufaz", ۱-ci cild, səh. ۲۱-۲۲; və "Səhihi-Müslim", ۷-ci cild; "Səhabənin". [۲] -۲ .fəzilətləri" bölümü

;Hədyus-sari", ۲-ci cild" . [۳] -۳

;İbn Əbil Hədid “Nəhcül-bəlağənin şərhi”, ۴-cü cild, səh. ۷۹ . [۴] -۴

Musa o günlərdə Kufənin valisi idi. O hələ Osmanın zamanından bu vəzifəni qoruyub .saxlamışdı

Əli (ə) göndərdiyi iki səfirin vasitəsi ilə Kufə əhlindən kömək istədi. Kufənin başçılarından bir qrupu Əbu Musanın yanına tələsdilər və onun Əliyə (ə) kömək üçün Kufədən xaric olmaları barədə Əbu Musanın nəzərini öyrənmək istədilər. Əbu Musa onların cavabında dedi: Əgər axirət yolunu istəyirsinizsə budur ki, siz öz işinizlə məşğul olun və Kufədən kənara çıxmayın. Əgər Kufədən çıxmaqla atəşli və əzablı yolu istəsəniz, bu işin məsuliyyəti sizi özünə tərəf dəvət edən o kəsin (Əlinin (ə)) .boynunadır

Əbu Musanın söylədiyi həmin bir cümlə Kufədə olan o günki məqam və vəzifəli, nüfuzlu şəxslərin bir çoxunun və Kufə qəbilələrinin şeyxlərinin Həzrət Əliyə (ə) kömək .göstərməmələrinə səbəb oldu

Bu hissəni İbn Quteybə nəql edir. Sonra Əbu Musanın Əmmara və Məhəmməd ibn Əbu Bəkrə söylədiklərini və mənbər başında Kufə camaatına olan söhbətlərini nəql etmişdir. Bu da onun sözlərində və xütbələrində iki üzlülüyünü, etiqadsızlığını və onun azğınlığını, Əliyə (ə) qarşı düşmənçiliyini çox gözəl şəkildə açıqlayır: - Əbu Musa Əşəri :haqla batilin arasında fərqi ayıra bilmirdi. O, həmin kəslərdən idi ki

واستيقنتها أنفسهم ظلماً جَحَدُوا بِهَا

BILə-BILə (ƏLININ _(ə)_ VILAYəTINI Və üSTüNLüYüNü) INKAR EDəRəK öZLəRINə _ _ .ZüLM EDIRDILəR

Onun Həzrət Əliyə (ə) kömək göstərməməsi barədə Kufə məscidində etdiyi xütbəsi nifaq toxumlarının bir çox Kufə qəbilələrinin tanınmış başçıları arasında səpilməsinə səbəb oldu və onun acı bəhrələri “Siffeyn” və başqa müharibələrdə öz nəticəsini .göstərdi

Əbu Musa o kəsdir ki, “həkəmeyn” hadisəsində hökm oxunan

zaman Əbdullah ibn Öməri xilafət üçün Əlidən (ə) ləyaqətli və üstün bilirdi. Hökm (oxuyaraq Əlini (ə) xilafətdən azad etdi.(١

Əmr İbn Ass .٣

Səhiheyn kitablarının ravilərindən və bu iki kitabın hədisçilərindən biri də Əmr ibn As ibn Vaildir. Onun Əli (ə) ilə müxalifətçilik etməyi və düşmənçiliyi, tarixdən azacıq belə .olsun anlayışı olanlar üçün gizli və qaranlıq deyildir

Əmr As yaşayışının tarixi səhifələri, Müaviyənin qondarma hədis düzəldən heyətləri arasında olması, Siffeyn döyüşündə Müaviyənin qoşunu sırasında iştirak etməsi, bu ədavətə möhkəm dəlildir. Əmr As Siffeyn döyüşünün sıravi iştirakçısı olmamış, bu qanlı döyüşlər onun hiylə və məkrli planları ilə hazırlanmışdı. Hakəmiyyət məsələsi onun xaincəsinə hazırladığı planların nəticəsi idi. Həmçinin, Quran vərəqələrinin nizələr üzərinə vurulması ilə bu məsələni əməli surətdə İslam aləmində, müsəlmanlar arasında hələ də düzəlməyən ayrı seçkiliyə, təriqətlərin yaranmasına və ən nəhayət .Həzrət Əlinin (ə) şəhadəti ilə nəticələndi

O cümlədən, zahirdə onun atası adlandırılmış As ibn Vail Peyğəmbərin (s) qatı və açıq düşmənlərindən biri idi. “Kovsər” surəsi As ibn Vailin Peyğəmbərə (s) söylədiyi tikanlı və təhqiramiz məsxərələrin nəticəsində nazil olmuşdur. Allah onun özünü “əbtər”, yəni “sonsuz” adlandırmışdır. Əmrin özü Əli (ə) ilə ədavət və düşmənçiliyindən əl çəkməmiş, imkan daxilində fürsət əldə etməklə səpdiyi nifaq və düşmənçilik toxumlarından .faydalanmışdı

Biz burada İmam Əlinin (ə) onun barəsində buyurduqları kəlamlardan bir neçə cümlə də qeyd edirik. O cümlədən, Əmr

---

,Əlimaməti vəs-siyasəh” ١-ci cild“ .[١]-١

Asın yalançılığı, onun Əlinin (ə) mübarək şəxsiyyəti barədə iftira və böhtanlarını da qeyd edirik. Bu cümlələr imanda məqam və rütbəsi olan bir şəxsin, Əlinin (ə) Asın oğlu Əmr barədə buyurduqlarıdır. Bu kəlamları əziz oxucuların qarşısında xatırladır və .səhiheyn kitablarında Əmr Asın səhih adlanan hədislərinin sayını açıqlayırıq

:Əli (ə) buyurur

عَجباً لِإبْنِ النَّابِغه؟ يَزعَمُ لأَهْلِ الشَّامِ أَنَّ فِيَّ دِعَابَهٌ، وَ إِنِّى امرؤ تِلْعَابَهً، أُعَافِسُ وَ أُمَارِسُ. لَقَدْ قَالَ بَاطِلًا، وَ نطق آثماً: أَمَّا وَ شَرُّ الْقَوْلِ الْكِذْبُ إِنَّهُ لَيَقُولُ فَيَكْذِبُ. وَ يَعِدُ فَيُخْلِفُ، وَيَسْأَلُ فَيَلْحَفُ، وَ يَسْأَلُ فَيَبْخَلُ، وَ يَخونُ الْعَهْدَ، وَ يَقْطَعُ الإِلَّ، فَإذَا كَانَ عِنْدَ الْحَرْبِ فَأَىّ زَاجِرٍ وَ آمِرٍ هُوَ؟ مَا لَمْ تَأْخُذُ السُّيُوفُ مَأْخذَهَا فَإِذَا كَانَ ذَلِكَ أَكْبَرُ مكيدته أَنْ يَمْنَحَ الْقَوْمُ سبّته، أَمَا وَاللهِ إِنِّى لَيَمْنَعُنِى مِنَ اللَّعبِ ذكرُ الْمَوْتِ وَ إِنَّهُ لَيمْنُعهُ مِنْ قَوْلِ الْحَقِّ نِسْيَانُ الْأَخره، وَ إِنَّهُ لَمْ يبايع مُعَاوِيَه حَتَّى شَرَطَ لَهُ أَنْ يُؤْتِيهِ أَيَه وَ يَرضخُ لَهُ عَلى تَرْكِ الدِّينِ رَضِيخهً.

Zinakar qadının oğluna təəccüb edirəm ki, yalan yolla Şam əhlinə deyir: Mən (Əli) çox zarafat edən və qulaq oynadan bir kişiyəm. Bu iş də mənim ən çox sevdiyim bir işdir. O, yalan və düzgün olmayan söz demişdir. Bu sözü ilə günaha mürtəkib olmuşdur. Agah olun! Günahların ən pisi yalandır və Əmrin ağzına aldığı hər bir söz yalanla birdir. O, bir kəsə vədə verərsə ona xilaf edər, sual və soruşmaqda çox sözü olan, cavab verməkdə isə çox paxıl və bağladığı əhd-peymanında xəyanət edəndir. Qohumlarından uzaq gəzəndir. Elə ki, döyüş meydanında hazır olur, qılınclar nə qədər ki, işə düşməyib fəsad qaynatmaq, alov yandırmaq üçün çoxlu qanun və qaydaları dilində oynadır. Elə ki, qılınclar qınından çıxdı və döyüş başladı ən böyük hiyləsi budur ki, övrətini camaata göstərir. Bilin! And olsun Allaha ölümü yad etmək məni zarafat etməkdən və oyun ,oynamaqdan saxlayır. Axirəti unutmaq

(Əmr Ası haqq sözü deməkdən saxlayır.(۱

O Müaviyədən hədiyyə almaq və Müaviyənin ona dinindən əl çəksin deyə böyük məbləğdə rüşvət (Misir hökumətinin) verməsi şərti ilə beyət(۲) etmişdir.

Bu, Əlinin (ə) Əmr Asın əxlaqı və əqidəsi barədə olan buyurduqları idi. Əmr As, həmin şəxslərdən idi ki, Əli (ə) sübh və məğrib namazlarında ona nifrin edib lənət (oxuyurdu.(۳

۴. Əbdullah ibn Zubeyr

Əhli-sünnə məzhəbi arasında hədis ravisi kimi tanınmış və səhiheyn kitablarının hədisçilərindən biri də Zubeyr oğlu Əbdullahdır. Buxari öz səhih kitabında ondan on hədis nəql etmişdir. Əbdullah ibn Zubeyr Əlinin (ə) qatı düşmənlərindən, xəvaric, nasibi və müxalifətçilərindən biri idi. Cəməl döyüşündə atası Zubeyrin və Təlhənin olmasıyla (qoşunun pişnamazı və imamətliyi ona həvalə olunmuşdu.(۴

Bəzi ravilərin yazdıqlarının məzmununa əsasən o, atası Zubeyri Əli (ə) ilə düşmən olmasına məcbur etmişdi. Çünki, Əli (ə) buyurmuşdur ki: “Zubeyr, oğlu böyüyənə kimi biz Əhli-beytlə idi.”(۵) Yenə də nəql olunmuşdur ki, Əli (ə) Cəməl döyüşündə elə ki, Zubeyrlə üzləşdi, buyurdu: “Sənin ləyaqətsiz oğlun böyüyüb bizim aramızda təfriqə (salana qədər, biz səni Əbdul Muttəlibin övladlarından və yaxşı kəslərdən sayırdıq.”(۶

۱- [۱] . “Nəhcül-bəlağə”, ۸۳-cü xütbə; və “Şeyx Tusinin “Əmali” adlı kitabı, səh. ۸۲;

۲- [۲] . Mütərcim: Hakimiyyəti tanımaq (bir növ səs verməkdir).

۳- [۳] . İbn Əbil Hədid ۵-ci cild; səh. ۷۹; Əbdullah ibn zubeyrin tərcümeye halı- “İstiab”- Əbil Əvəri Sələminin tərcümeye halı- Təbəri ۶-cı cild, səh. ۴۰, “İstiab”

۴- [۴] . İbn Əbil Hədid “Nəhcül-bəlağənin şərhi” ۲-ci cild; səh. ۱۶۸;

۵- [۵] . “İstiab”, ۳-cü cild; səh. ۹۰۶; İbn Əbil Hədid, ۲-ci cild; səh. ۱۶۷;

۶- [۶] . “Tarixi Təbəri”, ۳-cü cild, səh. ۴۸۸; “Vəl imamətu vəs-siyasət”, ۱-ci cild, səh. ۵۵-۵۶; İbn Əbil Hədid, ۴-cü cild, səh. ۶۱-۶۲; “İstiab”, Əbdullah ibn Zubeyrin şərhi halı.

Cəməl döyüşündə elə ki, Aişənin qoşunu “Bemaul-həvəb” adlı bir məkana yetişdi, o yerin itləri hürməklə səs-küy salmağa başladılar. Aişə Məhəmməd ibn Təlhədən sual edərək bu məkanın adını soruşdu. Təlhə dedi: “Maul-həvəb”. Aişə dedi: Mən belə məsləhət görürəm ki, buradan qayıdam. Məhəmməd dedi: Niyə? Aişə cavab verdi: Çünki, Allahın rəsulundan (s) eşitdim ki, öz arvadlarına nəhy edərkən belə buyurdu: Guya görürəm ki, sizlərdən birinə “həvəb” itləri hürəcək. Sonra buyurdu: “Ya Humeyra! Özünü gözlə ki o sən olmayasan”.

Məhəmməd ibn Təlhə dedi: Allah sənə rəhm etsin bu sözləri boşla və üstündən keç. Cəmiyyət və qoşun arasında təfriqəyə bais olma. Sonra Əbdullah ibn Zubeyr yaxınlaşdı və and içdi ki, tanıtdıranlar düzgün tanıtdırmayıblar və səhv deyiblər. Sonra Aişənin inamını artırmaq üçün ۵۰ nəfəri yalandan şəhadət verərək sözünü təsdiq etməklərinə vadar etdi.(۱)

Vaqidinin, İbnul Kəlbinin və başqa tarixçilərin nəqlinə əsasən, İbn Zubeyrin Əli (ə) ilə düşmənçiliyi və ədavəti o yerə qədər idi ki, o qarşıya çıxan hər bir fürsətdə Həzrətə hörmətsizlik edirdi. Bir müddət də xilafət iddiası etdi. ۴۰ cümə namaz xütbəsindən Peyğəmbərin (s) adını sildi. Onun bu əməli camaata ağır gəldi və axırda etiraza səbəb oldu.

İbn Zubeyr öz əməlini belə açıqlayır: Mənim Peyğəmbərin (s) adını qeyd olunmamasında məqsədim budur ki, Peyğəmbərin (s) ləyaqətsiz və geridə qalmış qohumları vardır. Peyğəmbərin (s) adını qeyd etsəm onlar sevinəcəklər. Mən isə Allah elçisinin adını dilimə gətirməməkdə və onları əzməkdə məcburam.(۲)

۱- [۱] . “Tarixi Təbəri”, ۳-cü cild, səh. ۴۵۸; “Vəl imamət vəs-siyasət”, ۱-ci cild, səh. ۵۵-۵۶; İbn Əbil Hədid ۴-cü cild, səh. ۶۱-۶۲;

۲- [۲] . Həmin mənbədə.

İmran İbn Həttan .۵

İmran ibn Həttan xəvaricin rəislərindən, fəqihlərindən və onların xətiblərindəndir. Əhli-sünnənin hədis ravilərindən və ricalından biri kimi tanınmışdır. Buxari öz səhih .kitabında ondan hədislər nəql etmişdir

İmranın Həzrət Əli (ə) ilə düşmənçiliyi o qədər həddini aşmışdır ki, öz məşhur şerlərində İbn Mülcəmi tərifləmiş və Həzrət Əlini (ə) öldürdüyü üçün behiştə daxil olacağını bildirmişdir. Onun nəzərincə, İbn Mülcəmin bu böyük cinayəti Allah qarşısında bütün dünya əhlinin əməllərindən fəzilətli olmasına və çəkisinin bütün :camaatın əməllərindən ağır gəlməsinə səbəb olmuşdur. O, öz şerində deyir

يَا ضَرْبَةً من تُقَى! مَا أَرَادَ بِهَا

إلاَّ لِيَبْلُغُ من ذِى الْعَرْشِ رِضْوَانًا

إنِّى لَأَذْكُرُهُ حِينًا فَأَحْسِبُهُ

أَوْ فِى الْبَرِيَّهِ عِنْدَ الرَّحْمَانِ مِيزَانًا(۱)

!Əziz oxucu

Bu, səhiheyn ravilərinin bir çoxunun həqiqi çöhrəsi idi. Belə şəxslər tərəfindən bu iki kitabda müxtəlif hədislər nəql olunmuşdur. Əziz oxuculardan xahişimiz budur ki, bir dəfə də yenidən Səhiheyn(۲) kitablarının ravilərinə, onların tərcümeyi-halına diqqət .etməklə, özünüz bu iki kitabın bütün hədislərinin səhihliyi barədə hökm verəsiniz

Əvvəlki səhifələri oxumaqla həqiqətlərin üzərindən təəssübkeşlik pərdəsini götürün və Əbul Həsən Muqəddisi kimi sünni alimlərinin bəzilərinin yazılarını tapın. O yerdəki :deyir

Səhiheyn kitablarının hədislərini nəql edənlərin cərgəsində

Təqvalı şəxs tərəfindən vurulan bu zərbə nə gözəl zərbədir. Çünki onu Allaha . [۱] -۱

.yaxınlaşmaq üçün vurmuşdur

Tərcümeye halları qeyd olunan şəxslər İmran ibn Həttan istisna olmaqla hamısı . [٢] -٢ Buxari və Müslimin ricalından sayılırlar. Lakin, İmran təkcə Buxarinin ricalındandır. Yeddinci babda Kitabul libas bab – Nəqzus-suvər və bab:-Lobsul-hərir və s.. yerlərdə .ondan hədislər nəql olunmuşdur

duran hər bir kəs hər növ eyib, naqislik və hər cürə irad və şübhələrdən münəzzəhdir...هذااجازالقنطره [(١)]

Gördüyünüz kimi bu iqtibas nə qədər də yanlış və qərəzli deyilmişdir.

٧–۶. Buxari və Müslim (Buxari və Müslimin təəssübkeşliyi)

Bu iki kitabın zəifliyinin ikinci dəlili Səhihi-Buxari və Səhihi-Müslim kitablarının hədislərinin bir qisminin səhih olmamasının və zəifliyinin səbəblərindən biri olan, onların fövqəladə təəssübkeşliyidir. Bu iki kitabın müəlliflərinin təəssübkeşliyinin həddindən artıq çox olması yazdıqları hədislərdə belə öz əksini tapmışdır. Belə ki, təəssübkeşlik Buxaridə Müslimə nisbətən daha çox gözə dəyir.

Necə ki, "hubb" – sevgi və "boğz"- kin-küdurət həddindən artıq və ifrat dərəcəsinə çatdıqda insanı həqiqətləri dərk etməkdən saxlayır və həqiqəti görməkdə onun gözlərini kor və eşitməkdə isə qulaqlarını kar edir. Təəssübkeşlik də insanı həqiqəti dərk etməkdən saxlayır və haqqın aşkar olmasına mane olur; insanı həqiqəti ört-basdır etməyə vadar edir. Həqiqətən təəssüb özü də "sevgi və nifrət"-in vücuda gəlməsində olan amillərdən biridir. Təəssüflər olsun ki, Buxari və Müslim fövqəladə şəkildə təəssübkeşliyə mübtəla olmuş və bu hal onlara qalib gəlmişdir.

İndi isə onların təəssübkeşliyindən bir neçə nümunəyə işarə edirik:

Səhiheyn kitabları və Əlinin (ə) fəzilətləri

Buxari və Müslimün təəssübkeşliyinin dəlillərindən biri də budur ki, onlar Əlinin (ə) mühüm və məşhur fəzilətlərini onun xilafət məqamına ləyaqətli olmasını və hər bir cəhətdən ön

---

١-[١]. "İrşadus-sari", ١-ci cild, səh. ٢١;

.cərgədə olmasını bilərəkdən nəql etməmişlər

Bu fəzilətlər və tarixi faktlar əhli-sünnə məzhəbləri arasında qəbul olunmuş .məsələlərdən biridir

Qədiri-Xum hədisi", "Təthir ayəsi", "Tayir Məşəvinin hədisi", "Qapıların bağlanması" və " "Ənə mədinətul elm və Əliyyun babuha" və s...(۱) kimi hədislər bu iki kitabda .gətirilməmişdir

Bu fəzilətləri on nəfərdən çox səhabə nəql etmişlər ki, əhli-sünnənin mötəbər (kitablarında qeyd olunmuşdur.(۲

Buxari bu fəzilətləri nəql etmək istəməmiş, lakin Müaviyə üçün məxsus bir mövzu açaraq onun barəsində hədislər nəql etmişdir. Müaviyənin fəziləti barədə Peyğəmbərdən (s) heç bir hədis nəql olunduğunu tapmadığına görə, yalnız Abbasdan iki hədis nəql etmişdir. Onların biri, onun Peyğəmbərlə (s) söhbətini, digəri isə onu fəqih (adlandırdığını qeyd etmişdir.(۳

Bəli, hədis toplayan, təfsir və tarix kitabı yazmağı özünə vəzifə bilən bir şəxs səhabələrdən birinin başqası (Müaviyə) barədə olan sözünü və tərifini nəql edə bilirsə, bəs necə ola bilər ki, tarixi əzəməti və əhəmiyyəti ilə tanınan "Qədiri-Xum" barəsində .olan hədisi(۴) və ya "Mən elm şəhəriyəm Əli isə onun qapısıdır" hədisini unudur

Bu dırnaqarası etinasızlıq və unutqanlıq, Əmirəl-möminin Əlinin (ə) fəzilətlərini .gizlətməkdən başqa bir şey deyildir

Bəli, "səhiheyn" kitablarının müəllifləri öz istəklərinə uyğun

---

Təthir" ayəsi və "Qədiri-Xum" hədisini Müslim nəql etmişdir. Lakin "Qədiri-Xum"" . [۱] -۱ hadisəsi barədə bir hədis gətirmiş və onu da təhrif olunmuş növün nəql edib. Yüzlərlə "Qədiri-Xum" barədə olan səhih hədislərdən məhz onun bu hədisi seçməsi özü təhrifin .bir növüdür

.Qayətul-məram və əbəqatu vəl qədirə" müraciət olunsun" . [۲] -۲

;Səhihi-Buxari", ۵-ci cild; "Kitabul-fəzail", "Zikru Müaviyə" bölümü" . [۳] -۳

Mən kuntu mövlahu haza Əliyyun mövlahu"- Mən hər kimin aqasıyamsa Əli (ə)" . [۴] -۴
.də onun ağasıdır

olaraq bəzi həyati əhəmiyyətli məsələləri gizli saxlamaqla səy göstərmişlər ki, gələcəkdə də bu məsələlərdən heç kəsin xəbəri olmasın. Daha heç kəs xilafət məqamına kimin ləyaqətli olması barədə düşünməsin. Görəsən bu barədə-.Peyğəmbərdən (s) hədis nəql olunmuşdurmu? - sualı heç kəsi düşündürməsin

Bu məsələdə onlar müəyyən miqdarda öz məqsədlərinə nail olmuşlar. Buna görə də :İbn Teymiyyə “Qədiri-Xum” hədisini rədd edərək belə deyir

sihahda nəql olunmamışdır. Onu tarixçilər nəql etmişlər مَن كُنتُ مَولَاهُ فَعَلِيٌ (ع) مَولَاهُ Bu hədis (və düzgünlüyündə də ixtilaf vardır.”(١

Müslimin şiələrə qarşı gülməli iftirası

Təəssüb və şəxsi qərəzin acı nəticələrindən biri də Müslimün öz səhih kitabının müqəddiməsində şiələrə qarşı yazdığı iftiradır. Elə ki, qondarma və yanlış hədislər :barədə bəhs edir, izahlı surətdə belə deyir

Qondarma hədislərdən biri də şiələrin Əli (ə) barədə nəql etdikləri hədislərdir. Belə ki,“-.bu hədisdə deyilir ki, Əli (ə) buludların arasındadır

إِنَّ الرَّافِضَة تَقُولُ إِنَّ عَلِيّاً فِی السَّحاب

Müəllif: Şiə hədisləri Rəsuli-Əkrəmin (s) zamanından yazılmış və şiələrin kəlam kitablarında geniş şəkildə qeyd olunmuşdur. O cümlədən, kitabxanalar şiə kitabları ilə doludur. Bu hədis kitablarının hər hansı birində belə bir hədis tapmaq olar?! Görəsən bütün şiə mühəddislərinin və tarixçilərinin əqidəsi bu deyil ki, Əli (ə) (ə) Kufədə, məscid və mehrab arasında İbn Mülcəm Muradinin əli ilə şəhadətə nail olmuş və indiki Nəcəfi-!?Əşrəfdə dəfn olunmuşdur

Səhihi-Buxarinin və Səhihi-Müslimün hədisləri içində qeyd

;Minhacus-sünnə”, ۴-cü cild, səh. ١٢“ .[١]-١

olunan bu hədis kimi əsası olmayan bir çox hədislər vardır. Onlara səhih donu geyindirərək müsəlmanlar arasında yaymışlar. Bu günlərdə də sünnilər həmin mətləbləri oxuyaraq onların səhih olmasını güman edir və onlara etimad bəsləyərək .öz hücumlarında bu hədislərdən dəlil kimi istifadə edirlər

!?Bu məsələnin kökü haradadır

Tarixi məlumata əsasən, Peyğəmbər (s) Qədiri-Xum günü öz mübarək əmmaməsini (Səhab)-ı iftixar tacı kimi Həzrət Əlinin (ə) başına qoydu. Bəzi vaxtlar Əli (ə) o əmmamə :ilə Peyğəmbərin (s) yanına gedərkən, o Həzrət fərəhlənərək buyururdu

أقبل علی فی السحاب

Şiələr və Həzrət Əlinin (ə) tərəfdarları da Peyğəmbərin (s) sözünü böyük iftixarla :təkrarlayır və onun başqa səhabələrdən üstünlüyünə görə bu cümləni söyləyirdilər

جَاءَ عَلِیٌّ فِی السَّحَابِ (۱)

Lakin Müslim hədisin əslini yazmamış, uydurma və qondarma bir hədisi onun yerinə .qoyaraq şiələrə aid etmişdir

(Buxari və İmam Sadiq (ə

Səhiheyn kitablarının ravilər bəhsində bu məsələ aydın olmuşdur ki, bu kitablarda xəvaricdən(۲),nasibilərdən, Peyğəmbər (s) ailəsi ilə düşmənçilik edən şəxslərdən çoxlu hədislər nəql olunmuşdur. Xüsusilə, Buxari xəvaricin başçısı və onların fəqihlərindən olan İmran ibn Həttandan hədis nəql etmişdir. Buna baxmayaraq, Buxarinin iman və təqvası İmam Sadiqdən (ə) hətta bircə dənə belə olsun hədis nəql etməyə icazə .verməmişdir

---

۱- [۱] . کان له عمامه تسمی السحاب فوهبها علی بن ابی طالب کرم الله وجهه فکان ربماطلع علیه علی کرم الله وجهه فیقول:- أتاکم علی فی السحاب یعنی عمامته التی و هبها له . "Sireye Hələbi", ۳-cü cild, səh. ۳۶۹ və "Əl-ğədir", ۱-ci" .cilddə bu dastanı geniş şəkildə mütaliə edə bilərsiniz

.Əli (ə) ilə düşmənlik edən qruplaşmalardan biri . [۲] -۲

Bu məsələ o vaxt aydın olacaq ki, Buxarinin gözlərindən təəssübkeşlik pərdəsi götürülsün; zaman və məkan baxımından İmam Sadiqin (ə) şəxsiyyətinə və Buxariyə .bir nəzər salaq

Buxari zaman cəhətindən İmam Sadiqə (ə) çox yaxın olmuşdur. Təqribən ١٠٠ il o .١ (Həzrətdən (ə) sonra dünyasını dəyişmişdir.(١

Buxari altı il Hicazda İmam Sadiqin (ə) elm ocağının mərkəzində olmuşdur. Hədis .٢ öyrənmək üçün şiə məzhəbinin mərkəzi olan Bağdad və Kufə şəhərlərində yaşamışdır. Bağdad və Kufəyə çox gedib-gəlmişdir. Belə ki, səfərlərinin sayını özü də yaddan (çıxarmışdır.(٢

O gün İmam Sadiqin (ə) Hicaz və İraqdakı tələbələrinin sayı həddindən artıq çox idi. Fəzlin vəsiyyəti: O Həzrətin elmi o qədər idi ki, bütün əhli-sünnə camaatının qulaqlarına çatmışdı. Hətta İslam ölkələrinin ən ucqar nöqtələrinə belə gedib çıxmışdı. Onun elmindən xəbəri olan hər bir şəxs o Həzrətin (ə) qarşısında fiqh və hədis elmlərini .bildiklərini iddia edə bilmirdi

Buxari İmam Sadiqdən (ə) çoxlu hədis nəql edənlərin bir çoxundan hədislər nəql .٣ etmiş, lakin onların İmam Sadiqdən (ə) nəql etdikləri hədisləri isə tərk etmişdir. Bu şəxslər – Əbdul Vəhab Səqəfi, Xatəm ibn İsmail, Malik ibn Ənəs və Vəhəb ibn Xalid və (s..- Buxarinin hədis nəql etdiyi adamlardan sayılırlar. (٣

İbn Teymiyyənin üzürlü səbəbi

Buxari İmam Sadiqdən (ə) hədis nəql etmədiyinə görə İbn Teymiyyə onun tərəfindən üzür istəyərək deyir: Buxari Yəhya ibn Səiddən Cəfər ibn Məhəmməd barəsində bir (söz eşitmişdi. Buna görə də ondan hədis nəql etməmişdir.(٤

.İmam Sadiqin (ə) vəfati ١۴٨ –ci il, Buxari isə ٢۵۶-cı ildə baş vermişdir . [١]-١

.Əvvəlki səhifələrə “Buxarinin şərhi halı” bəhsinə müraciət et . [٢]-٢

.Bihil cəmi beyni ricalus-səhiheynə müraciət olunsun . [٣]-٣

.Minhacus-sunnə”, ۴-cü cild, səh. ١٣٣“ . [۴]-۴

İbn Teymiyyə bu məsələni üstü örtülü bəyan etmiş və Yəhya ibn Səidin sözlərinə işarə .etməklə kifayətlənmişdir

Biz isə deyirik: Əgər İmam Sadiq (ə) fəzilət, təqva, elm və bilik baxımından məchul olsaydı, yaxud Buxari raviləri tanımaqda məlumatsız bir şəxs idisə, İbn Teymiyyənin üzrünü qəbul edərdik və Buxarini bu işinə görə üzürlü sayardıq. Həmçinin onun təəssübkeş bir şəxs olduğunu güman etməzdik. Lakin, həqiqət və gerçəklik bu .ehtimalların hamısını təkzib edir və onun təəssübkeşliyini sübuta yetirir

Bundan qabaq işarə etdiyimiz kimi, İmam Sadiqin (ə) şəxsiyyəti və elmi elə bir mərhələdə deyildir ki, bir nəfərin sözünü əldə əsas tutub o Həzrətin mənəvi və elmi .şəxsiyyətinə şübhə ilə yanaşsınlar

Başqa cəhətdən, Buxari rical və şəxsiyyətləri tanımaqda ixtisas sahibi idi. O, öz “Ət-tarix” kitabını ricalın seçilməsi və tanınması üçün yazmışdır. Hətta ondan nəql :olunmuşdur ki, belə deyir

Mənim yanımda əhvalatı və mətləbi olmayan hədis nəql edənlər azdır. Lakin, “Ət-“ tarix” adlı rical kitabımın bundan artıq geniş olmaması üçün çox açıqlama verməkdən (çəkinmişəm.(١

Belə şəraitin olması ilə onun İmam Sadiqdən (ə) hədis nəql etməməsini inad və düşmənçilikdən başqa bir şey hesab etmək olarmı?! Onun Peyğəmbər (s) ailəsindən üz !?çevirməsini bu ailə ilə düşmən olmasından başqa bir yerə yozmaq olarmı

Buxari və Müslimin Peyğəmbər ailəsi ilə aşkar düşmənçiliyi

Əziz oxucu, yazımızın bu hissəsində başqa bir nöqtəni də bu bəhsə əlavə etməyi lazım bildik. Bu vasitə ilə istəyirik ki, Buxari

---

.Tarixi Bağdadi”, ٢-ci cild; səh. ٧; “Zuhal İslam”, ٢-ci cild; səh. ١١٢“ . [١]-١

və Müslimün Peyğəmbər ailəsinə olan, ədavət və düşmənliyi, həmçinin İbn :Teymiyyənin yersiz üzrü aydın olsun

Bu kitablara müraciət edib diqqət yetirməklə bunu başa düşürük ki, bu iki kitabın müəllifləri (Buxari və Müslim) ۲۴۰۰ nəfərdən artıq ravidən hədis nəql etmişlər(۱). Nəql etdikləri hədislərin ravilərinin çoxu ya nasibi, Peyğəmbər ailəsinin düşməni və yaxud da keçmişi məchul şəxslərdir. Bu iki müəllif ya Peyğəmbər övladlarından hədis nəql etmək istəməmiş və yaxud da əgər hədis nəql etmişlərsə də özlərinin Əhli-beytin (ə) əleyhinə olan iftira, yalan və uydurmalarını nəql etmişlər. Bu səbəbdən, bu kimi iftira və uydurma hədislərin oxucuda dərin təsir buraxması və özlərinin haqlı olmalarını sübuta yetirməkdən ötrü bu hədislərin Peyğəmbər (s) ailəsindən nəql olunduğunu söyləmişlər. Buna görə də Buxari və Müslimün bu kitablarına baxarkən görürük ki, onlar Peyğəmbərin (s) əzizi olan Həsən Müctəbadan (ə) başqa, Həsən adı ilə başlayan iyirmi altı nəfər ravidən, Peyğəmbərimizin zahid övladı olan Musa ibn Cəfərdən (ə) başqa, Musa adı ilə başlayan iyirmi üç ravidən və həmçinin elmi və fəziləti dostuna və düşməninə məlum olan Peyğəmbər övladı Əli ibn Musa Ər-Rzadan (ə) başqa, Əli adı ilə başlayan otuz doqquz ravidən hədis nəql etmişlər.(۲) Bəli, Buxari və Müslim nə İmam Həsən Müctəbadan (ə), nə Həzrət Musa ibn Cəfərdən (ə), nə Həzrət Rza (ə), İmam Cavad (ə), İmam Hadidən (ə), nə də Buxari ilə həm əsr olan İmam Həsən Əsgəri (ə) və ,İmam Zamandan (ə) (۳) bir dənə də olsun hədis nəql etməmiş

.Buxari" və "Müslim" bu ravilərin çoxunda müştərək bəzilərində isə ayrıdırlar" . [۱] -۱

Axır vaxtlarda İmam Rza (ə) tərəfindən buyurulmuş hədislər nazik iki cildli olan . [۲] -۲ .kitabda Cənab Ətaredi tərəfindən toplanılmış və çap olunmuşdur

.İmam Həsən Əsgəri (ə) Buxaridən dörd il sonra vəfat etmişdir . [۳] -۳

həmçinin imamların şəhid, Zeyd ibn Əli ibnil Hüseyn və Həsən ibn Həsəni Musənna və onlarca imamların övladları kimi hədis raviləri və kitab sahibləri olan(۱) şəxsiyyətli insanlardan hətta nümunə üçün də olsa hədis nəql etməmişlər. Buxari və Müslimün zəhmət çəkib imamlardan nəql etdikləri və gördükləri ən böyük iş ancaq bu olmuşdur ki, İmam Seyyidus-Sacidin və Zeynul Abidinə (ə) yalan və uydurma hədisləri nisbət vermişlər. Onun mübarək dilindən nəql etmişlər ki, Əmirəl-möminin (ə) və Fatimeyi-Zəhra (səlamullahi əleyha) namaza durmurdular. Rəsuli-Əkrəm (s) onları oyadardı. Əli (ə) Rəsuli-Əkrəmə (s) bir cümlə demişdi. O Həzrət də Əliyə (ə) irad edərək bu ayəni :oxumuşdur

{وَكَانَ الْإِنسَانُ أَكْثَرَ شَيْءٍ جَدَلًا}(۲)

Həmçinin başqa bir hədisdə İmam Səccadın (ə) dilindən Həzrət Həmzənin şərab içib məst olmasını nəql etmişlər.(۳) Elə bil Buxari və Müslimün əqidəsinə görə Əhli-beyt və Peyğəmbər ailəsinin bu iki hədisdən başqa səhih hədisləri nəql olunmayıbmış! Peyğəmbər itrətindən bu iki məsələdən savayı heç bir hökm və məsələ qalmayıbmış!! Allah elçisinin qardaşı Əli (ə) və onun cigər parəsi olan xanım Fatimə (s) yuxuya qalıb namaza oyanmaya bilərmi?! Bu ümmətin Harunu, Şubeyr və Şubbərin atası, Peyğəmbərin (s) elm şəhərinin qapısı olan Əli (ə) barədə -“İnsan isə (bütün məxluqat içərisində) ən çox mübahisə edəndir. (Haqqa boyun qoymaz, öyüd-nəsihət qəbul etməyib

---

۱- [۱] . Şəhid Zeydin buyurduğu rəvayətlər dəfələrlə çap olunmuşdur.Hal hazırda da .əlimizdə vardır

۲- [۲] .“Kəhf” surəsi, ۵۴-cü ayə;

۳- [۳] . Biz Allahın köməyi ilə bu iki hədisi və o cümlədən ismət xanedanının barəsində uydurulmuş başqa hədisləri bu kitabın üçüncü cildində qeyd edərək onun barəsində .bəhs edəcəyik

batilə uyar)” ayəsi(١) doğru ola bilərmi? və ya Seyyiduş-Şuhəda, Əsədullah və Əsədur-Rəsul (Allahın və Peyğəmbərin şiri) adı ilə məşhur olan, cənazəsinə yetmiş təkbirlə Peyğəmbər (s) namaz qılan bir şəxs murdar əti şərabla mahnı oxuyan qadının əli ilə içərək məst ola bilərmi?!

Məlumdur ki, yuxarıda adı çəkilmiş pak və müqəddəs insanlar haqqında deyilmiş iftiralar şəxsi qərəz və düşmənçilik xarakteri daşıyır.

١- [١] . Həmin ayə.

Beşinci hissə

İşarə

Səhiheynin hədislərinin mətn cəhətindən zəifliyi

səh:۱۴۵

Hədisin deyilişi ilə yazılışı arasında olan fasilə .١

Səhiheyn hədislərinin zəifliyi barədə olan bizim birinci və ikinci dəlilimiz, bu iki kitabın müəlliflərinin təəssübkeşliyi və sənədlərinin zəif olmasıdır. Bu barədə kifayət qədər .söhbət olundu. İndi isə əziz oxucularımızın diqqətini üçüncü dəlilə cəlb etmək istəyirik

Kitabın ilk səhifələrində hədis barədə müxtəsər söhbət olundu. Hədis söyləməyin və yazılışının qadağan olunması və həmçinin Peyğəmbərin (s) vəfat tarixindən Ömər ibn Əbdul-Əzizin xilafət dövrünə kimi saxta və qondarma hədislər barədə araşdırma aparıldı. İndi isə Səhiheyn və bu iki kitabın bütün hədislərini səhih bilən bir çox şəxslər :bu sualla üz-üzə dururlar

Hədis yazılışının bir əsr boyu qadağan olunması və uzun müddət şifahi olaraq hədis söyləməyin qarşısı alinmışdı. Başqa tərəfdən isə bu dövrlərdə yalan hədis söyləyənlər çox olmuşdur. Əllərində olan bütün imkanlardan istifadə etmələrinə baxmayaraq, qondarma hədislərin tərəfdarları bu yolda kifayət qədər bəhrə əldə edə bilməmişlər. .Bəli, bu uzun əsrlər boyu hədis elmi ciddi mənfi təsirlərə məruz qalmışdır

Hədislərin mətnlərində hansı dəyişikliklər əmələ gəlmişdir?! İslam qanununda ən mühüm sənəd olan Peyğəmbər (s) sünnəsinin hansı həqiqətləri aradan getmiş və onun yerinə

!?hansı səhv məsələlər qoyulmuşdur

Uzun müddət öz ata-babalarından hədis ünvanında məsələ nəql edənlər, hədislərin İslam hökmlərinin budaqları və kökü olduğuna etiqad bəsləyərək nəql edirdilər. Lakin .o hədislərin əsas kökündən, düzgün olub-olmamasından heç bir xəbərləri yox idi

Səhiheyn və bu iki kitabın bütün hədislərini səhih sayanlar öz qarşılarına çıxan bu suala .tutarlı və qaneedici bir cavab verə bilməmişlər

Əhli-sünnə yazıçılarının bəziləri öz yaddaşlarını kitabların və yazıların yerinə istifadə etmişlər.(۱) Lakin, qeyd etmək lazımdır ki, yaddaşlar nə qədər güclü olsa belə, yazıların .və sənədin yerini tuta bilməz

Başqa bir tərəfdən, əgər hədislər az vasitə ilə kitablarda yazılmış olsaydı, qeyd olunan məsələdən qaçmaq üçün yaddaşa etimad etmək olardı. Lakin, səhiheyn kitablarını araşdırdıqda aydın olur ki, bəzən hədislər neçə vasitə ilə Peyğəmbərə (s) çatır. Bu da hədisin deyilişi ilə yazılışı arasında olan böyük məsafənin olması deməkdir. Bu özü də təbii bir məsələdir. Hər bir hədisin mənasını söyləyərkən istər–istəməz o hədisin sözlərində azaltma və artırma ehtimal olunur. Əgər bu məfhumi nəql bir neçə nəfərin vasitəsi ilə nəql olunarsa onda bu nəqlin vəziyyəti aydın olur. Bu da bizim səhiheynin !hədislərinin zəifliyinə üçüncü dəlilimiz idi. İndi isə diqqətinizi dördüncü dəlilə cəlb edirik

---

Əbu Kəmal Əbdul Ğəni Əbdul Xaliq “Səhihi-Buxari”nin muqəddiməsi, Məkkə . [۱] -۱ .çapı-۱۳۷۶

(Yarımçıq yazılmış hədislər (Senzura olunmuş hədislər .۲

Səhihi-Buxarinin hədislərinin zəif olmasına və etibarsızlığına olan dördüncü dəlilimiz .onun hədislərinin bir qisminin Buxari tərəfindən senzura(۱) olunmasıdır

Bu qəbahətli iş Buxaridə mənəvi hökmranlıq edən həmin təəssübkeşliyin təsiridir. Buna görə də şerlərdə məzmunu Əlinin (ə) fəzilətinə işarə olan hədislər və ya xəlifələrdən birinin cahilliyinə və səhvlərinə dəlil olan hədisləri kəsib atdığının şahidi oluruq. Bu əməllə hədisin əvvəlinin, ya onun axırının və bəzən də ortasından bir cümlənin ixtisar olması o fəzilətlərin və nöqsanların üzərinə pərdə asmışdır. Hədis elmi nəzərində hədislərdə dəyişiklik etmək və ya onların həqiqətini gizlətmək əmanətin .qorunmasında xəyanətə mürtəkib olmaq deməkdir

Bu əməl buna dəlildir ki, Buxari öz camesinin (səhihinin) yazılmasında bir mühəddis, təfsirçi və tarixçi kimi həqiqəti təmiz çatdırmaqla öz vəzifəsinə layiqincə əməl etməmişdir. Halbuki, öz vəzifəsinə əməl etməməklə yanaşı həm də öz səliqəsi və .zövqünə uyğun gəlməyən hədisləri ixtisar etmişdir

Belə həqiqətləri gizlətmək və ya onları ört-basdır etmək bir

.Bütöv bir hədisin bir hissəsini yazıb qalan hissəsini isə kəsib atılmasına deyilir . [۱]-۱

mühəddis üçün ən böyük xəyanətə mürtəkib olmaq deməkdir. Çünki, həqiqəti .gizlətmək və onu dəyişmək özü ilə bir çox fikirləri azdıracaqdır

Bundan əlavə, Buxarinin öz zövqi ilə hədislərin başına açdığı oyunlar bizə bunu çatdırır ki, həqiqi səhih hədislərin ən mühüm hissələri o günlərdə Buxarinin əlində olmuşdur. Lakin, onun üslubu və zövqi ilə uyğun olmadığına görə onları öz kitabında yazmamışdır. Bununla da hədislərin mühüm hissələri tədricən aradan getmişdir. Öz kitabında hansısa bir hədisi yazmaq istəyən bir şəxs hədis yazmaqda belə "üslub"u .seçərsə, onun zövqi ilə uyğun olmayan hədislərlə rəftarının necə olacağı məlumdur

:İndi isə sizə belə hədislərdən bir neçəsini nümunə olaraq gətiririk

Cənabət hökmü .١

Bir nəfər Ömər ibn Xəttabdan sual etdi: Əgər cənabətli olsam, su tapa bilməsəm namaz qılmaqdan ötrü nə etməliyəm? Ömər cavabında dedi: Namaz qılma! Əmmar da həmin məclisdə idi. Peyğəmbərin təyəmmüm etmək əmrini hər ikisi eşitmişdilər. O, .Öməri danlayaraq onun verdiyi hökmə etiraz etdi

Şübhə yoxdur ki, belə hökm və cənabətli olan şəxsə namazı tərk etmək əmri Quranın və Peyğəmbərin (s) göstərişlərinin əksinədir. Həmçinin xəlifənin təyəmmüm hökmündən xəbərdar olmaması və ya onun İslam qanunlarından xəbərsiz olmasını (belə ki, bu məsələ ümumi bir məsələdir) çatdırır. Buxari xəlifənin abrını qorumaqdan cavabını yəni "namaz qılma" cümləsini لَاتَصَل ötrü bu hədisdə dəyişiklik etmiş və Ömərin .hədisdən silmişdir

İndi də əziz oxucumuzdan istəyirik ki, Buxarinin hədisinin mətni ilə Müslimün, Nəsainin və İbn Macənin nəql etdikləri

.hədisin mətnlərini yanaşı qoysunlar, həqiqət onlar üçün aydın olsun

... عَنْ شُعْبه قَالَ حَدَّثَنِی الحکمُ عَنْ ذَرٍّ، عَنْ سَعِیدِ بْنِ عَبْدِ الرّحْمَانَ بْنِ أَبزی عَنْ أَبِیهِ أَنَّ رَجُلاً أَتَی عُمَرَ، فَقَالَ إِنِّی أَجنبْتُ فَلَمْ أَجِدْ مَاءاً فَقَالَ: لَا تُصَل! فقَالَ عَمّار: أَما تَذکُرُ یَا أَمِیرَالْمُؤْمِنِینَ؟! إِذ أَنَا وَ أَنْتَ فِی سرِیَّةٍ فَأَجنَبْنَا فَلَمْ نَجِدْ مَاءاً فَأَمَّا أَنْتَ فَلَمْ تُصَلِّ، وَ أَمَّا أَنَا فتمعّکتُ فِی التُّرَابِ وَ صَلَّیتُ، فَقَالَ النَّبِیُّ|: "إِنَّمَا یَکْفِیکَ أَنْ تَضْرِبَ بِیَدَیْکَ الأَرْضَ، ثُمَّ تَنْفخ، ثُمَّ تَمْسَحَ بِهِمَا وَجْهَکَ وَ کَفَّیْکَ"، فَقَالَ عُمَرُ: إِتَّقِ اللهَ یَا عَمّار قَالَ: إِنْ شِئْتَ لَمْ أُحَدِّثْ بِهِ .(١)

حَدَّثَنَا آدَمُ قَالَ: حَدَّثَنَا شُعْبُهُ، حَدَّثَنَا الْحَکَمُ عَنْ ذَرّ، عَنْ سَعِیدِ بْنِ عَبْدُ الرَّحمَانِ بْنِ أَبْزی عَنْ أَبِیهِ، قَالَ: جَاءَ رَجُلُ إِلَی عُمَرِ بْنِ الْخَطَّابِ فَقَالَ: إِنِّی أَجْنَبْتُ فَلَمْ أُصِبِ الْمَاءَ..؟ فَقَالَ عَمَّارُ بْنُ یَاسِرٍ لِعُمَرِ بْنِ الْخَطَّاب: أَمَا تَذْکُرُ إِنَّا کُنَّا فِی سَفَرٍ أَنَا وَ أَنْتَ فَأَمَّا أَنْتَ فَلَمْ تُصَلِّ، وَ أَمَّا أَنَا فَتَمَعّکْتُ فَصَلَّیْتُ، فَذَکَرْتُ لِلنَّبِیِّ| ، فَقَالَ النَّبِیُّ| "إِنَّمَا یَکْفِیکَ هَکَذَا فَضَرَبَ النَّبِیُّ| بِکَفَّیْهِ الأَرْضَ، وَ نَفَخَ فِیهِمَا، ثُمَّ مَسَحَ بِهِمَا وَجْهَهُ وَ کَفَیْهُ".(٢)

Əziz oxucu, gördüyünüz kimi bu iki hədis sənəd və mətn baxımından eynidir. Onlar arasında Səhihi-Müslimdə gözə dəyən "لَا تَصَل" namaz qılma" cümləsindən başqa heç bir fərq yoxdur. Lakin, Səhihi-Buxaridən bu cümlə silinmişdir.

٢. Dəli qadının daşqalaq olunması

Mötəbər kitablarda və Səhihi-Buxarinin şərhlərində, müxtəlif mətnlərdə bir hədis nəql olunmuşdur. Onun məzmunu belədir:

Zinaya mürtəkib olmuş dəli bir qadını Ömərin yanına gətirdilər. Xəlifə, o qadının daşqalaq olunmasını əmr etdi. Əmirəl-möminin Əli (ə) bu məsələdən xəbər tutdu və bu

---

١- [١] . "Səhihi-Müslim", ١-ci cild, "Kitabut-təharət", "Təyəmmüm bölümü"; "Sunəni-Nəsai", ١-ci cild, "Təyəmmüm bölümü"; "Sunəni İbn Macə", ١-ci cild, ٩١-ci bölüm;

٢- [٢] . "Səhihi-Buxari", ١-ci cild, "Kitabut-təyəmmüm". "əl-Mutəyəmmumu həl yənfəxu fihima", hədis: ٣٣١;

hökmün icra olmasına mane oldu. Ömər hökmün icra olunmamasının səbəbini soruşduqda Həzrət (ə) cavabında buyurdu: Məgər neçə nəfərdən hökmün götürülməsini bilmirsənmi? Dəlidən onun dəliliyi aradan gedincə, uşaqdan yetkinliyə çatınca və həmçinin yuxuda olan şəxsdən oyanınca.(۱)

Məsələnin daha aydın olması üçün Sunəni-Davuddan hədisin mətninə diqqət edin. Hədisi belə nəql edir:

...عَنْ ابْنِ عَبَّاس قَالَ: أُتِی عُمَرَ بِمَجْنُونَهٍ قَدْ زنتَ فاسْتَشَارَ فِیهاَ أَناساً فأَمَرَ بِهاَ أَنْ تُرْجَمَ، فمرّبهَا عَلِیُّ ابْنِ أَبِی طَالِب (ع) فَقَالَ: "مَا شَأْنُ هَذِهِ؟" قَالُوا: مَجْنُونَهٌ فلَانه زَنَت، فَأَمَرَ بِهَا عُمَرُ أَنْ تُرْجَم قَالَ: فَقَالَ: "اِرْجِعُوا بِهَا" ثُمَّ أَتَاهُ فَقَالَ: "يَا أَمِيرَالْمُؤْمِنِينَ! أما عَلِمْتَ أَنَّ الْقَلَمَ قَدْ رُفِعَ عَنْ ثَلاثِهٍ، عَنِ الْمَجْنُونِ حَتَّى يُبْرَأ، وَ عَنِ النَّائِمِ حَتَّى يَسْتَيْقَظَ، عَنِ الصَّبِیِّ حَتَّى يَعْقَلَ؟!" قَالَ: بَلَى. قَالَ: "فَمَا بَالَ هَذِهِ تُرْجَمَ" قَالَ: فَأَرْسِلْهَا قَالَ: فَأَرْسِلْهَا، قَالَ: فَجَعَلَ يُكَبِّر.

Bu hədis az bir fərqlə Əhməd ibn Hənbəlin müsnədində, birinci cild səhifə yüz əlli dörddə qeyd olunmuşdur. İbn Əbdul Birr də “İstiab” kitabında bu hədisi gətirmiş və onun aşağısında bu cümləni də nəql edir:

فكان عمر يقول لولا على لهلك عمر

“Əgər Əli olmasaydı, Ömər həlak olardı.”(۲)

Lakin təəssüf ki, Buxari bu hədisi öz kitabında iki yerdə nəql etmiş, hər iki yerdə nəql edərkən Ömərin qəflətinə və ya cəhalətinə pərdə çəkmək üçün və yaxud Əlinin (ə) Ömərin və başqa səhabələrin əleyhinə qəzavət etməsi kimi həqiqəti tapdalamaq üçün o hədisin əvvəlini sənədi ilə bir yerdə kəsib atmışdır. Çünki, Əlinin (ə) qəzavətləri Peyğəmbərin (s) əmri və göstərişləri əsasında idi. Buxari isə həmin hədisi qısa şəkildə çıxardaraq belə nəql etmişdir:

۱- [۱] . “İrşadus-sari”, ۱۰-ci cild, səh. ۹, “Sunən İbn Davud”, ۲-ci cild; səh. ۴۰۲, “Sunəni İbn Macə”, ۲-ci cild; səh. ۲۲۷;

۲- [۲] . “İstiab”, ۳-cü cild, səh. ۳۹ vərəqin aşağı hissəsində çap olunmuşdur.

... قَالَ عَلِيّ لِعُمَر: "أَما عَلِمْتَ أَنَّ الْقَلَمَ رُفِعَ عَنِ الْمَجْنُونِ حَتَّى يَفيقَ، وَعَنِ الصَّبِيِّ حَتَّى يُدْرِكَ، وَ عَنِ النّائِمِ حَتَّى يَسْتَيقِظَ؟"(۱)

Şərabxorun cəzası .۳

Səhihi-Müslimdə və başqa sihahlarda qeyd olunmuş hədislərin məzmununa əsasən Peyğəmbərin (s) zamanında şərab içməyin cəzası şallaq vurmaq və ədəbləndirmək idi. (O Həzrət (s) qırx şallaq vururdu. (۲

Əbu Bəkr də öz xilafəti dövründə Peyğəmbərin (s) həmin yolu ilə getmiş və qırx şəllaq .vurdurmuşdur

Lakin, Əbu Bəkrin xilafətindən sonra Ömər bu hökmdə başqalarının sözünə baxdı və .Əbdur-Rəhman ibn Ovfun məsləhəti ilə şərab içənə ۴۰ şallaq əvəzinə ۸۰ şallaq vurdu

Bu məsəlinin izahına ehtiyac yoxdur. Xilafət məqamında olan və Peyğəmbərin (s) məqamını qəsb etmiş bir kəsin uzun müddət icra olunmuş bir hökmün icrasında başqaları ilə məsləhətləşməsini, Peyğəmbər (s) və əvvəlki xəlifənin əməlini tərk etməsini dərk etmək çox da çətin deyildir. Özünü müsəlmanların xəlifəsi sayan, lakin əmələ gələndə səhabələrdən birinin hökmünə və əmrinə ehtiyac duyan bir şəxs üçün belə bir sual qarşıya çıxacaq: Görəsən bu hökmü bilmirdimi? Tacirliyimi onu bu hökmü ? öyrənməkdən saxlamışdır? Yaxud Peyğəmbərinmi (s) əleyhinə əməl etmək istəyirdi

Necə olursa-olsun bu iş Buxarinin zövqünün əleyhinə olan bir işdir. Xilafət məqamını qorumaq üçün hədisin əvvəl

---

Səhihi-Buxari”, ۸-ci cild, “Kitabu əl-Muharibin”, “La yərcimul məcnunu vəl“ . [۱] -۱ məcnunə” bölümü, “Səhihi-Buxari”, ۷-ci cild,, “Kitabu ət-Təlaq”, “ət-Təlaqu fil əğlaqi ...” ;bölümü

Bu məsələ barədə əhli-sünnə kitablarında bəs qədər bəhs olunub. [۲] -۲ araşdırılmışdır. Burada məqsədimiz, Şiə məzhəbinin bu məsələdə olan nəzərini .gətirmək deyildir

hissəsini, yəni Peyğəmbərin (s) şallaq vurmasını və Əbu Bəkrin o Həzrətdən (s) itaət etməsini nəql etmiş, lakin hədisin axır hissəsini, yəni Ömərin səhabələrlə .məsləhətləşməsini isə hədisdən ixtisar etmişdir

:İndi də mətn və hədisin müqayisəsini əziz oxuculara təqdim edirik

...عَنْ أَنَسِ بْنِ مَالِكٍ: إِنَّ النَّبِيَّ | أُتِى بِرَجُلٍ قَدْ شَرِبَ الْخَمْرَ، فَجَلْدَهُ بِجريدَتَيْنِ نَحوَ أَرْبَعِينَ، قَالَ: وَ فَعَلَهُ أَبُوبَكْرٍ، فَلَمَّا كَانَ عُمَرُ، اسْتَشَارَ النَّاسَ، فَقَالَ عَبْدُالرَّحْمَانِ ابْنِ عَوْف: اَخْفِ الْحُدُودَ ثَمَانِينَ فَأَمَرَ بِهِ عُمَرُ.(١)

... عَنْ أَنَسِ ابْنِ مَالِك أَنَّ النَّبِيَّ | ضَرَبَ فِى الْخَمْرِ بِالْجريدِ وَالنعالِ، وَ جَلَد أَبُوبَكْرٍ أَرْبَعِينَ(٢)

...عَنْ أَنَسٍ قَالَ: جَلَدَ النَّبِيّ | فِى الْخَمْرِ بِالْجَرِيدِ وَالنعالِ، وَجَلَد أَبُوبَكْرٍ أَرْبَعِينَ.(٣)

Sudan soruşmaq əhvalatı .۴

:Buxari “Etisam” kitabında bir hədis nəql etmişdir ki, hədisin mətni belədir

...عن ثابت، عن انس، قال: كنّا عند عمر، فَقَالَ: نَهَيْنَا عَنِ التّكلّفِ (۴)

Sabit, Ənəs ibn Malikdən nəql etmişdir: “Biz Ömərin yanında idik. O, dedi: Bizi əziyyətə ”.düşməkdən çəkindirmişlər

Bu hədisin Buxari tərəfindən bu cür nəql olunması onun kəsilərək bir miqdarının atılmasını bildirir. Çünki, hər bir kəs onun mətninə azacıq diqqət yetirsə, bu cümlələrin düz olmamasını anlayacaqdır. Bir sözlə, atılmış cümlələrin hədisin

---

Səhihi-Müslim”, ۵-ci cild, “Kitabul-hudud”,”Həddul-Xəmr”, ۸-ci bölümü, hədis:“ . [۱] -۱ ;۱۷۰۷

Səhihi-Buxari”, ۸-ci cild, “Kitabul-hudud”, ۲-ci bölüm, “Ma caə fi zərbin Şaribəl“ . [۲] -۲ ;xəmr”, hədis: ۶۳۹۱

;”Səhihi-Buxari”, ۸-ci cild, “Kitabul-hudud”, “əz-Zərbu bil-cəridi vən-nəal“ . [۳] -۳

Səhihi-Buxari”, ۹-cu cild, “Kitabul etisam”, “Ma yəkrihu min kəsrətis-sual və ...”“ . [۴] -۴ ;bölümü

mətnində olmaması əsassız deyildir. Bu da onu bildirir ki, hədis üzərində dəyişiklik etməklə düzəlişlər aparılmışdır!!

Şükürlər olsun ki, başqa mühəddis və alimlər bu hədisi bütöv nəql etmişlər. Bununla da Buxarinin hədislərə nisbət xəyanətinin üzərindən pərdəni götürmüşlər.

İbn Həcər Səhihi-Buxarinin şərhində hədisin mətnini belə nəql edir:

...إِنَّ رَجُلاً سَأَلَ عُمَر بْن خَطَّابِ عَنْ قَوْلِهِ: {وَ فَاكِهَةً وَ أَبّاً} مَاالْأَبّ؟! فَقَالَ عُمَر: نَهَيْنَا عَنِ التَّعَمّق وَالتكلّف.

Bir kişi Ömər ibn Xəttabdan {وَفَـــاكِهَةً وَأَبًّا} (1)“(Növbənöv) meyvələr və ot (ələf) yetişdirdik” ayəsində olan “Əbb” kəlməsinin mənasını soruşdu ki, "Əbb" nədir? Ömər onun cavabında dedi: Bizi belə məsələləri fikirləşərək əziyyətə düşməkdən çəkindirmişlər.

Həmin gecə yenə də ona şərab içirtdilər və kiçik qız da atası ilə cinsi əlaqəyə girdi. Lutun (ə) bu işdən yenə də xəbəri olmadı. Beləliklə, qızların ikisi də öz atalarından .hamilə qaldı

Böyük qız bir oğlan uşağı dünyaya gətirdi. Onun adını “Muab” qoydular. O, Muabilərin atası sayılırdı. Kiçik qız da bir oğlan uşağı dünyaya gətirdi. Onun adını “İbn İma” (qoydular. O, isə “Bəni Əmun”-luların atası sayılırdı”.(۱

:Yenə də həmin Tövratda belə oxuyuruq .۲

Həzrət Davud (ə) imanlı döyüşçü “Üryanın” arvadı ilə zina“

.Tövrat, sefri Təkvini İshah ۱۹, ۳۰-۳۸-ci bəndlər . [۱] -۱

etdi. Üryanın arvadı bu zinadan uşağa qaldı. Davud (ə) biabır olmamaq üçün Üryanı döyüş meydanından çağırdı və ona öz evinə getməyi əmr etdi. "Ürya" imtina etdi və :dedi

Mənim sərkərdəm "Yuab" öz əsgərləri ilə döyüşdə ikən mən öz evimdə yeyib-içib,-arvadımla yata bilmərəm. Sənin canına and olsun ki, belə işi heç vaxt görmərəm. Davud (ə), onu evə göndərməkdən məyus oldu və Üryanı bir gün öz yanında saxladı. Onunla yemək yeyib şərab içdi. Üryaya şərab içirdib onu məst etdi. Ertəsi gün "Yuaba" məktub yazıb " Ürya ilə göndərdi ki, "Yuab" Üryanı müharibənin ən şiddətli yerinə, ön cərgəyə göndərsin və onun arxasını boş qoyun ki, nizələr və oxlar onu məhv etsin. Yuab, Davudun fərmanına uyğun olaraq hərəkət etdi. Beləliklə, Ürya öldürüldü. Üryanın ölüm xəbəri elə ki, onun arvadına çatdı, Ürya üçün matəm saxladı. Matəm günləri qurtardıqdan sonra Davud onu öz evinə apardı və rəsmən özünə arvad etdi. O (zinadan bir oğlan uşağı dünyaya gəldi. Davudun bu işi Allahın xoşuna gəlmədi.(١

İncildə gəlmişdir ki, Davudun başqa oğlu Suleyman peyğəmbər də bu qadından (dünyaya gəlmişdir.(٢

:Yuhənnanın İncilində belə oxuyuruq .٣

Həzrət İsa Məsih (ə) bir gün toy məclisində idi. Onların şərabı qurtardı. İsa (ə) möcüzə" "(göstərərək onlar üçün altı çəllək şərab hazırladı.(٣

;Həmçinin Luqanın İncilində belə oxuyuruq ki

Həzrət İsa Məsih (ə) nəinki şərab içərdi hətta sərxoşluğa qurşanmış insanlardan biri" (idi."(٤

Bunlar Tövrat və İncildə peyğəmbərlər haqqında yazılmış

.Tövrat, ikinci Samuel ishah – ١١-١٢ . [١] -١

.İncil Mətta, ishah hədis:-١ . [٢] -٢

.Yuhənna ٢-ci bölüm . [٣] -٣

۴- [۴]. Mətta ١١-ci bölüm, Luqa ٧-ci bölüm.

iftiralardan bir neçə nümunə idi ki, bir peyğəmbəri məst edir və qızları ilə zina etdirirlər, onlardan oğlan uşağı dünyaya gətirirlər, gah da Davud kimi bir peyğəmbərin öz əsgərlərindən birinin arvadı ilə zina etdirirlər və o qadın uşağa qaldıqdan sonra rüsvayçılığın qarşısını almaq üçün Davud çıxış yolunu o zabiti öldürtdürməkdə görür. Nəhayət, o əsgər Davudun əmri ilə öldürülür. Öldürüldükdən sonra isə Davud onun .arvadını ələ keçirir və Suleyman (ə) kimi peyğəmbər belə bir qadından dünyaya gəlir

Başqa bir yerdə şərab düzəltməyi bir peyğəmbərin ən böyük möcüzəsi kimi qələmə .verir və bu peyğəmbəri şərab içən və içkiyə qurşanan bir şəxs kimi təqdim edirlər

Nübuvvət, Səhiheyn kitablarında

Təəssüflər olsun ki, "Səhihi Buxari və Səhihi Müslim" kitablarında da (əsl hədəfimiz bu iki kitabı araşdırmaqdır) həqiqətlər Tövrat və İncildəki kimi təhrif olunmuşdur. Bu iki kitabda da peyğəmbərlərin həqiqi çöhrəsi eybəcərləşdirilmiş və keçmiş peyğəmbərlərdən söz getdikdə, yəhudi və qeyri-yəhudi dastan yazarları və hekayə yazarları tərəfindan uydurulmuş, əfsanələr bu iki kitaba daxil edilmiş və müsəlmanlara .səhih hədis adı ilə təqdim olunmuşdur

Ən mühüm olanı budur ki, ancaq adı "Səhih" olan bu iki kitabda nəinki keçmiş peyğəmbərlərin həqiqi şəxsiyyəti dəyişdirilmiş, gülünc və təhqiramiz formaya salınmış hətta əziz İslam peyğəmbəri Həzrət Məhəmmədin (s) də həqiqi, mübarək, gözəl .siması dəyişdirilmiş, Quran ayələri ilə və həqiqətlə uyuşma vəziyyətə salınmışdır

Yalan uydurmağın tarixi

İslam peyğəmbəri Həzrət Məhəmmədin (s) həyatı barədə "Səhiheyn"-də gəlmiş hədisləri araşdırarkən bu həqiqət

.bizim üçün aydın olur ki, həqiqət təhrif edilib və dəyişdirilmişdir

İslam peyğəmbəri haqqında yalan uydurmaq və şaiyə yaratmaq elə peyğəmbərimizin öz dövründən başlanmışdır. Peyğəmbər (s) hələ həyatda ikən bir çox insanlar o Həzrəti (s) çox sevdikləri üçün və bir çoxları da ona nifrət etdikləri üçün və bir qisim də başqa səbəblərdən peyğəbərimiz Həzrət Məhəmməd (s) haqqında yalanlar uydurmuş və həqiqətə uyğun olmayan şaiyələr yaymışlar. İş o yerə çatmışdır ki, peyğəmbərimiz Həzrət Məhəmməd (s) mənbər üstə ümumi surətdə camaatı belə yalan uyduran şəxslərin varlığından agah etmiş və yalan uyduranları qorxudaraq bu nalayiq və :təhlükəli işin nəticəsində çəkindirərək belə buyurmuşdur

لا تَكْذِبُواعَلَيَّ مَنْ كَذَّبَ عَلَيَّ فلْيَلِجُ النَّارِ

EY CAMAAT! MəNIM üNVANıMA Və MəNIM ADıMDAN YALAN UYDURMAYıN. HəR _ (KəS MəNIM DILIMDəN YALAN UYDURSA ONUN YERI CəHəNNəMDIR. _(١)

Bir gün Səlim ibn Qeys Əmirəl möminin Əlidən (ə) camaat arasında peyğəmbər haqqında gözəl hədislərin doğruluğu və səhvliyi barədə soruşdu. O Həzrət (ə) bu sualın cavabında maraqlı bir xütbə söylədi.(٢) Və bu gözəl xütbəsində hədisləri və onları nəql :edənləri neçə dəstəyə ayıraraq buyurdu və o xütbənin əvvəl cümlələri belədir

إِنَّ فِی أَیْدِی النَّاسِ حَقّاً وَ بَاطِلًا وَ صِدْقاً وَكِذْباً وَ نَاسِخاً وَ مَنْسُوخاً وَ مُحْكَماً وَ مُتَشَابِهاً وَ حفْظاً وَ وَهْماً وَ لَقَدْ كَذَبَ عَلَى رَسُولِ اللهِ | عَلَى عَهْدِهِ... .

Səhihi-Buxari” ١-ci cild; “İsmun mən kəzzəbə ələn-Nəbiyy” (s) bölümü; hədis:“ . [١] -١ ١١٠-١٠۶, və ۵-ci cild, ١٠٩-cu bölüm, “Mən sumiyə biəsmail-ənbiya”, hədis: ۵٨۴۴; və ;“Tuhəful-uqul”, səh. ۴۵

;Çıxış etdi . [٢] -٢

Camaatın əlində olan hədislərin arasında haqla batil, doğru ilə yalan, nəsxlə“ mənsux(١), möhkəm və mütəşabih(٢), həqiqətlərlə

səh:٢٨٢

---

[١] -١ Mütərcim: Nəsx, ərəb sözü olub, lüğətdə “bir şeyi yoxa çıxarmaq”, aradan . aparmaq”, “dəyişdirmək” və “məhv etmək” mənalarına malikdir. Əllamə Təbətbai bu barədə yazmışdır ki; “Quranın (şəriət) hökmlərinə aid olan ayələr arasında sonradan nazil olub əvvəllər nazil və əməl olunmuş hökmün yerini tutan və əvvəlki hökmü qüvvədən salan müəyyən ayələr mövcuddur. (Belə olan halda) əvəlki ayələrə “Mənsux” (qüvvədən düşmüş), sonradan gələn ayələrə isə “Nasix” (qüvvəyə minmiş yeni hökm və ayə) deyilir... . Qurani-Kərimdə “nəsx”, “mənsux” hökmün etibar müddətinin sona çatdığını bildirir. Belə ki, birinci hökmün verilməsi məhdud və müvəqqəti bir məsləhət olduğu üçün onun hökm təsiri (qüvvədə olması) da məhdud və müvəqqəti olacaq. İkinci hökmün qüvvəyə minməsi ilə (öz yerini ona verəcəkdir). Qurani-Kərimin iyirmi üç il ərzində tədricən nazil olmasını ağılabatan saymaq olar. (“Quran dər İslam” Əllamə Təbatəbai, səh. ٤٨-٤٩. Əllamə Mərifət isə bu barədə belə yazır: “Nəsx” zahiri baxımdan davam etməsi lazım olan keçmiş bir hökmün aradan qaldırılmasına deyilir. Belə ki, onların bir yerdə cəm olması (uyğunlaşması) mümkün .olmasın...(“Ət-Tibyan fi ulumil-Quran”) ٢/٢٧٧

[٢] -٢ Mütərcim: “Möhkəm və mütəşabih” - Ərəb dilinin lüğət alimləri “möhkəm” . sözünün aydın, əsaslı, dayaqlı, başqasının dayaq nöqtəsi, əyrilik və azğınlıqdan saxlayan kimi mənalara malik olduğunu bildirmişlər. (Lisanul ərəb, İbn Mənzur, ٣٢٧٢, “Əqrəbul-məvarid”, Seruni , ١/۶٩٧-۶٩٨, “Müfrədatu əlfazil-Quran”, Rağib İsfəhani, səh:٢۴٨-٢٥١, “Ət-Tərifat”, Corcani, səh:٨٩, “Qamusul-Quran”, Qurəşi, ٢/١۶٥,۴/٢-٣; Rağib İsfəhani bu barədə belə yazmışdır: “Həkəmə (حَكَمَ) sözünün əsli islah üçün (müəyyən şeylərin)qarşısını almaq mənasındadır... Möhkəm isə istər ləfz, istərsə də mənasında heç bir şübhə olmayan sözə deyilir.”(“Müfrədatu əlfazil-Quran”, Rağib İsfəhani, səh:٢۴٨-٢٥١;) “Mütəşabih” sözü isə oxşar, misli, məna və ya ləfz baxımından digər bir şeyə bənzər və qeyri-aydın mənalarına malikdir. “Şəbəh (الشبه) sözünün əsli keyfiyyət baxımından oxşarlıq mənasına malikdir. Mütəşabih isə istər ləfz, istərsə də məna baxımından bir-birinə bənzəyən və buna görə də izah və təfsiri çətin olan sözlərə

deyilir.” (“Müfrədatu əlfazil-Quran”, Rağib İsfəhani, səh:۴۴۳;) Hər dörd mənanı (Nasix, mənsuz , möhkəm və mütəşabih) Qurani-Kərim “Ali İmran”surəsinin ۷-ci ayəsində {هُوَ الَّذِی أَنزَلَ عَلَیْکَ الْکِتَابَ مِنْهُ آیَاتٌمُّحْکَمَاتٌ هُنَّ أُمُّ الْکِتَابِوَأُخَرُ مُتَشَابِهَاتٌ فَأَمَّا الَّذِینَ .gözəl şəkildə açıqlamışdır فِی قُلُوبِهِمْ زَیْغٌ فَیَتَّبِعُونَ مَا تَشَابَهَ مِنْهُ ابْتِغَاءَ الْفِتْنَهِ وَابْتِغَاءَ تَأْوِیلِهِ وَمَا یَعْلَمُ تَأْوِیلَهُ إِلاَّ اللّهُ وَالرَّاسِخُونَ فِی الْعِلْمِ یَقُولُونَ آمَنَّا بِهِ کُلٌّ مِّنْ عِنـدِ رَبِّنَا وَمَا یَذَّکَّرُ إِلاَّ أُولُوا الأَلْبَابِ} “(Ya Rəsulum!) Sənə Kitabı (Qur’anı) nazil edən Odur. Onun (Kitabın) bir hissəsi (Qur’anın əslini, əsasını təşkil edən) möhkəm (mə’nası aydın, hökmü bəlli olan), digər qismi isə mütəşabih (çətin anlaşılan, dəqiq mə’nası bilinməyən, məğzi bəlli olmayan) ayələrdir. Ürəklərində əyrilik (şəkk-şübhə) olanlar fitnə-fəsad salmaq və istədikləri kimi mə’na vermək məqsədilə mütəşabih ayələrə uyarlar (tabe olarlar). Halbuki onların yozumunu (həqiqi mə’nasını) Allahdan (yaxud Allahdan və elmdə qüvvətli olanlardan) başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə: " Biz onlara iman gətirdik, onların hamısı Rəbbimizin dərgahındandır", - deyərlər. Bunları ancaq ağıllı adamlar dərk edərlər.” Mütərcim: Bu mənalar hədislərdə də öz əksini .tapmaqdadır

qaranlıqlar bir-birinə qarışmışdır. Hətta, Allahın Rəsulunun (s) yaşadığı dövrdə onun adına yalan uydururdular."(١)

O Həzrətin vəfatından sonra bu səbəblər get-gedə artmağa başladı və yavaş-yavaş camaatla peyğəmbər dövründə olan əsassız yalanların və şaiyələrin əsl səbəbləri arasında zaman məsafəsi yarandı. Bu zaman fasiləsi getdikcə çoxalır, camaat peyğəmbər dövrünün həqiqətlərindən uzaq düşməyə başladı. Peyğəmbərin (s) nübuvvətdən əvvəlki həyatı, vəhyin necə başlanmağı, peyğəmbərin daxili və ailə həyatı, müsəlmanlarla davranış və rəftarı, xülasə desək o Həzrətin (s) bütün həyat tərzi camaatın hədəf və istəklərinə uyğun olaraq rənglənib dəyişdirildi. Hər kəs öz xüsusi hədəf və məqsədlərini təmin etməkdən ötrü o Həzrətin dilindən yalan hədis uydururdu. Bu əqidə, hədəf və məqsədlərini sübut etməkdən ötrü Həzrət peyğəmbərin (s) həyatını nümunə gətirərək o həzrətdən hədis nəql edirdilər. Müaviyyənin vaxtına kimi ümumi vəziyyət belə davam edirdi. Müaviyyənin xilafəti dövründə hədis uydurma işi əsaslı və təhlükəli xarakter almağa başladı.

Onun əmri ilə hədis düzəltmə fabrikləri işə düşdü. Müaviyyə bu saxta hədisləri özünün cürbə-cür və gizli hədəfləri üçün istifadə edirdi. O cümlədən özünün qeyri

---

١- [١] . İbn Əbil Hədid Mötəzilinin Nəhcul-bəlağəyə yazdığı şərhində; ١-ci cild١,səh. ٣٨; Xütbə-٢٠٣; Səlim ibn Qeysin kitabı səh. ١٠۴;

İslami hərəkətlərinə bəraət qazandırmaq üçün və oğlunun gələcəkdə müsəlmanların rəisliyinə çatması üçün ötrü heç bir fəaliyyətdən çəkinmirdi. Bu hədəf və qərəzinə çatmaqdan ötrü o, hədis düzəltmə fabriklərindən bacardıqca çox istifadə edirdi. Saxta hədislərdlə peyğəmbərin (s) böyük şəxsiyyətini kiçiltmək istəyirdi. Çalışırdı ki, peyğəmbərin (s) ulu şəxsiyyətini özü və oğlu Yezidin səviyyəsinə endirsin. Peyğəmbərin (s) şəxsiyyətini o qədər kiçiltsin ki, ta camaat gələcəkdə onun oğlu Yezidin cinayətkar şəxsiyyətini xəlifəliyə qəbul etməyə hazır olsunlar və Yezidin xilafətə gedən yolu hamarlansın. O, öz müxaliflərini müxtəlif böhtanlarla günahlandırır və məhv edirdi. Başqa bir tərəfdən istəyirdi güc vasitəsilə özünün və ailəsinin təhqir olunmuş və kiçik şəxsiyyətini ucaltsın və xilafəti dövründə etdiyi cinayətlərinə bəraət (qazandırsın.(۱)

Müaviyyədən sonrakı dövrdə də dövlət başına gələnlər hazırkı vəziyyəti öz xeyrləri üçün belə saxta hədislərin öz hakimiyyətlərinin və xilafətlərinin möhkəmlənməsində böyük təsirinin olduğunu görüb bu hədislərin qorunub saxlanması üçün əllərindən .gələni əsirgəmədilər və belə hədislərin çoxalması üçün şərait yaratdılar

Bu hədislər əldən-ələ və sinədən-sinəyə keçərək kitablara düşdü. Hamısından tez Səhihi Buxari və Səhihi Müslimdə özünə yer tutdu. Bu iki kitabdan da, hədis, tarix, təfsir hətta şiə kitablarına belə yol tapdı. Şiə müəlliflərindən bəziləri də, bu hədislərin bir qismini diqqət edib araşdırmadan hədis nəqli, tarix, ayələrin təfsiri adı ilə öz .kitablarında gətirmişlər

İndi isə dediklərimizə şahid olaraq Səhiheyn kitablarında keçmiş peyğəmbərlər barədə yalandan uydurulmuş hədislərdən

---

.Hədis, Müaviyyənin dövründə" kitabının ۱-ci cildinə müraciət edin" . [۱] -۱

beşini nümunə olaraq gətiririk. Sonra Allahın izni ilə bu iki kitabda İslam peyğəmbəri .Həzrət Məhəmməd (s) haqqında gələn hədisləri tənqid etmək və araşdırmaq istəyirik

...İbrahim Peyğəmbərin yalan danışması və .۱

İBRAHIM PEYğəMBəRIN YALAN DANışMASı Və şəFAəT MəQAMıNDAN MəHRUM .۱ OLUNMASı

.۱

".....عَنْ أَبِی هُرَیْرَه: إِنَّ النَّبِیَّ | قَالَ: "لَمْ یَکْذِبْ إِبْرَاهِیمُ النَّبِیّ× قطَّ إِلَّا ثَلَاثَ کَذباتِ: ثِنْتِینِ فِی ذَاتِ اللهِ قولِهِ:-" اِنِّی سَقِیمٌ" وَ قَوْلُهُ: "بَلْ فَعَلهُ کَبِیرُهُم هـذا"، وَ وَاحـده فِی شَأْنِ ساره فَإِنَّهُ قَدِمَ أَرْض جَبَّار، وَمَعَهُ سَارَهُ، وَکَانَتْ أَحْسَنَ النَّاس، فَقَالَ لَهَا: إِنَّ هَذَا الْجبَّارُ إِنْ یَعْلَم إِنَّکِ إِمْرَأَتِی یَغْلِبُنِی عَلَیْکَ، فَإِنْ سَئَلْکِ فَأَخْبِرِیهِ إِنَّکِ أُخْتِی، فِی الْإِسْلَام، فَإِنِّی لاَ أَعْلَمُ فِی الأَرْضِ مسلماً غَیْرَکِ وَغَیْرِی، فَلَمَّا دَخَلَ أَرْضَهُ رَأَهَا بَعْض أَهْلِ الْجَبَّارِ، فَأَتَاهُ، فَقَالَ: لَقَدْ قَدِمَ أَرْضَکَ اِمْرَأَهٌ لاَ یَنْبَغِی لَهَا أَنْ تَکُونَ إِلَّا لَک، فَأَرْسَلَ إِلَیْهَا، فَأُتِیَ بِهَا، فَقَامَ إِبْرَاهِیمُ إِلَی الصَّلوهِ، فَلَمَّا دَخَلَتْ عَلَیْهِ لَمْ یَتَمَالَکْ أَنْ بَسَطَ یَدَهُ إِلَیْهَا، فَقَبَضَتْ قَبضَهً شَدِیدهً، فَقَالَ لَهَا: ادْعِی اللهُ أَنْ یُطْلِقَ یَدِی وَلاَ أَضُرُّکِ... ."

Əbu Hüreyrə Peyğəmbərdən (s) belə nəql edir ki, "İbrahim (ə) üç yerdə yalan danışmışdır. Onların ikisini Allaha ,(اِنِّی سَقِیمٌ) [(۱)] –"Mən xəstəyəm!", {بَلْ فَعَلَهُ کَبِیرُهُمْ} Bəlkə, onların bu böyüyü bunu etmişdir!", üçüncüsü isə zəmanəsində qadınlardan"–[(۲)] gözəl olan həyat yoldaşı "Sara" barəsində söyləmişdi. Eləki zalim bir padşahın ölkəsinə :daxil oldular İbrahim (ə) orada Saraya dedi

Əgər bu zalım padşah bilsə ki, sən mənim həyat yoldaşımsan, səni zorla və əziyyətlə- mənim əlimdən alacaq. Əgər sənin mənimlə olan əlaqəmi soruşsa deki, "Mən onun bacisiyam". Çünki İslam baxımından və İslam əqidəsinə görə

.Saffat" surəsi, ayə-۸۹" . [۱]-۱

.Ənbiya" surəsi, ayə-۶۳" . [۲]-۲

sən mənim bacımsan. Mən yer üzündə səndən və özümdən başqa müsəlman bir kəs tanımıram. Təsadüfən şahın məmurları Saranı gördülər və padşaha xəbər verdilər ki, .sənin şəhərinə bir gözəl qadın gəlmişdir. Gərək o, səndən başqasına qismət olmasın

O, əmr etdi ki, Saranı onun hüzuruna gətirsinlər. Şahın məmurları onu gətirmək istəyərkən Həzrət İbrahim (ə) dua və namazla məşğul idi. Şah Saranın gözəlliyini gördükdə özünü saxlaya bilmədi və əlini Saraya tərəf uzatdı. Elə o anda şahın əli :qurudu. Şah Saraya dedi

(Allahdan istə ki, mənim əlim əvvəlki vəziyyətə qayıtsın.(١)-

İbrahim Peyğəmbərin şəfaət məqamından məhrum olunması .٢

Yenə də Səhiheyndə Həzrət İbrahimin şəfaət etməsi barədə Əbu Hüreyrə müxtəlif məzmunlarda peyğəmbərdən belə nəql edir: Məşhər əhli öz günahlarının bağışlanmağı və kömək üçün peyğəmbərlərin yanına gedərlər. O peyğəmbərlərin hər biri öz günahlarından və səhvlərindən birini yada salarlar və onlara şəfaət etməkdən çəkinib camaatı başqa bir peyğəmbərin yanına göndərərlər. Belə-belə camaat axırıncı .peyğəmbərin yanına gələrlər. O həzrət də camaatın istəklərinə müsbət cavab verər

;Bu hədisdə belə gəlmişdir ki

فَيَقُولُونَ: أَنْتَ نَبِيُّ الله وَ خَلِيله مِنْ أَهْلِ الأَرْضِ، إِشْفَعْ لَنَا إِلَى رَبِّكَ الاتَرى إِلىَ مَا نَحْنُ فِيهِ، فَيَقُولُ لَهُمْ: إِنَّ رَبِّى قَدْ غَضِبَ الْيَوْمَ غَضَباً لَمْ يَغْضِبْ قَبْلَهُ مِثْلَهُ، وَلَنْ يَغْضبَ بَعْدَهُ مِثْلَهُ، وَ إِنِّى قَدْ كُنْتُ كَذَبْتُ ثَلاَثَ كَذْبَاتٍ، نَفْسِى نَفْسِى نَفْسِى.

Məhşər əhli, İbrahimin (ə) yanına gələrək ondan şəfaət istəyərlər. İbrahim (ə) onların“ cavabında belə deyər: - Mənim

---

Səhihi-Buxari”, ۴-cü cild; “Qovlullah vət-təxəzəl-lahu İbrahimə Xalilə” bölümü;“ . [١] -١
;“Səhihi-Müslim”, ٧-ci cild; “Kitabul-fəzail”; “Min fəzaili İbrahimul-Xəlil” bölümü

(şəfaət məqamım yoxdur. Çünki üç dəfə yalan danışmışam.”(۱)

Bu İbrahim peyğəmbərin yalan danışması və yalan danışmağına görə şəfaətdən məhrum olunması barədə Səhiheyndə nəql olunmuş iki hədis idi ki, diqqətinizə çatdırdıq. Amma təhqiqat göstərir ki, bu iki hədis Qurani-Məcidlə və Əhli-beytin (ə) hədisləri ilə uyğun gəlmir. Eləcə də bu mətləb, yəhudilərin tövratından götürülərək .Quran ayələrilə qarışdırılmış və müsəlmanlara təqdim olunmuşdur

Mən xəstəyəm!”, və “ – (۲)” إِنِّى سَقِيمٌ“ (Çünki İbrahimin (ə

Bəlkə, onların böyüyü bunu etmişdir!” söyləməsi, mübahisə və cidal“–(۳)” بَلْ فِعْلُهُ كَبِيرُهُمْ“ və bütpərəstləri qınamaqdan ötrü xüsusi bir üsuldur ki, onların əqidələrinin batilliyini və tutduqları yolun səhvliyini etiraf etmələri üçün deyilmişdir. Həzrət İbrahimin (ə) başqa bir yerdə günəşin, ayın, ulduzların çıxdığı zaman dediyi “Bu mənim Allahımdır”(۴) və onların

---

Səhihi-Buxari” cild-۶; “Bəni İsrail” surəsinin təfsiri. ۲۰۳-cü bölüm; “Zabitu mən“ . [۱] -۱ ,həməlna məə Nuh” hədis ۴۴۳۵; “Səhihi-Buxari” ۳-cü cild; “Kitabul-ənbiya”, ۱۲-ci bölüm ci cild, “Kitabur-riqaq”, “Sifətul cinnəti vən-nar” bölümü, hədis: ۶۱۹۷; ۶-cı-۵ .۳۱۸۲ ” يزفّون“ cild, “Kitabut-tövhid”, ۱۹-cu və ۲۴-cü bölümlər, hədis: ۶۹۷۵-۷۰۰۲; “Səhihi-Müslim”, ۱-ci cild, “Kitabul-iman”; ۸۴-cü bölüm; “Ədna əhlul cənnəti mənzilətu fiha”, hədis: ۱۹۴. (yeni ;(nüsxələrdə

.Saffat” surəsi, ayə-۸۹“ . [۲] -۲

.Ənbiya” surəsi, ayə-۶۳“ . [۳] -۳

.Ənam” surəsi, ayə-۷۶-۷۸“ . [۴] -۴ { فَلَمَّا جَنَّ عَلَيْهِ اللَّيْلُ رَأَى كَوْكَبًا قَالَ هَـٰذَا رَبِّى فَلَمَّا أَفَلَ قَالَ لاَ أُحِبُّ الآفِلِينَ فَلَمَّا رَأَى الْقَمَرَ بَازِغًا قَالَ هَـٰذَا رَبِّى فَلَمَّا أَفَلَ قَالَ لَئِن لَّمْ يَهْدِنِى رَبِّى لأَكُونَنَّ مِنَ الْقَوْمِ الضَّالِّينَ فَلَمَّا رَأَى الشَّمْسَ بَازِغَةً قَالَ هَـٰذَا رَبِّى هَـٰذَآ أَكْبَرُ فَلَمَّا أَفَلَتْ قَالَ يَاقَوْمِ إِنِّى بَرِىءٌ مِّمَّا تُشْرِكُونَ} “Gecə qaranlığı (onu) bürüdükdə o, bir ulduz görüb: "Bu mənim Rəbbimdir!" dedi. (Ulduz) batdıqda isə: "Mən batanları sevmirəm", söylədi. (Sonra) doğan ayı görüb: "Bu mənim Rəbbimdir!" - dedi. (Ay) batdıqda isə: "Doğrudan da, əgər Rəbbim məni doğru yola yönəltməsəydi, mən zəlalətə düşənlərdən olardım", - söylədi. (Daha sonra) doğan günəşi görüb: "Bu mənim

Rəbbimdir, bu, daha böyükdür!" – dedi. (Günəş) batdıqda isə dedi: "Ey camaatım, mən, həqiqətən, sizin Allaha şərik qoşduqlarınızdan (bütlərdən, səma cismlərindən) uzağam!”.

batdığı zaman "Bu sabit olmayan və batan mövcudları sevmirəm. Çünki bunlar ibadətə layiq deyillər" dediyi kimi. Bu elə bir həqiqətdir ki, Quran ayələrini oxuyarkən onu başa .düşürük. Çünki Qurani-Məcidin ayələri onu aydınlaşdırır

Bundan əlavə, ikinci hədisdə Həzrət İbrahim (ə) bu üç mövzunu (iki dəfə Allaha və bir dəfə Saraya yalan deməsi) özü üçün günah və şəfaətdən uzaq saymış və bu üç yalana görə şəfaət məqamından məhrum olmuşdur. Bu səbəbdən doğru nəzərə gəlmir. Fərz etsək ki, Həzrət İbrahim (ə) bu üç cümləni zəruri halda demiş olsa da yenə onun şəfaət məqamı ilə heç bir ziddiyyəti yoxdur. Çünki o zaman onun vəzifəsi bu olub. Bəlkə bu üç vəziyyət Həzrət İbrahimin (ə) imtahanlarından sayılır ki, din yolunda Pərvərdigarının əmrini icra etməkdən ötrü belə yalanlar danışmışdır. Belə müsibət və narahatlıqlar .şəfaətə mane olmur, əksinə, peyğəmbərlərin şəfaət məqamını daha da ucaldır

"بَلْ فِعْلُهُ" ,"!Mən xəstəyəm"–(١)"اِنِّی سَقِیمٌ" Burada bu nöqtəni də qeyd etmək lazımfır ki, əgər Bəlkə, onların bu böyüyü bunu etmişdir!" cümləsi yalan sayılsa onda gərək"–(٢) "کَبِیرُهُمْ İbrahimin (ə) yalanlarının sayı üç yox altıya çatsın. Çünki Qurai – Məcid ayələrinə görə ."!Bu mənim Rəbbimdir" (٣) "هذاربِّی" :O,ulduz, ay və günəşin hər birini gördükdə deyirdi

Bu iki hədisin Tövratla əlaqəsi

Bu iki hədisin Tövratla əlaqəsi çox aydındır. Çünki Həzrət İbrahim (ə) haqqında olan rəvayət Tövratda geniş surətdə

١- [١] . "Saffat" surəsi, ayə-٨٩.

٢- [٢] . "Ənbiya" surəsi, ayə-٦٣.

٣- [٣] . "Ənam" surəsi, ayə-٧٦-٧٨.

gəlmişdir. Elə ki, Sara ilə o zalım padşahın qəziyyəsinə çatdıqda İslamın səhih rəvayətlərinin ziddinə olaraq bu qəziyyəni Əbu Hüreyrənin hədisində yazıldığı kimi :gətirmişdir. Orada belə deyilir

və gəlib Misirə yaxınlaşdılar. Misirə girməzdən əvvəl Həzrət İbrahim (ə) öz həyat…“ :yoldaşı Saraya dedi

Sən çox gözəlsən. Əgər Misir camaatı səni görsələr deyərlər ki, “Onun arvadıdır”.- Sənə görə məni öldürərlər. Əgər səndən soruşsalar de ki, mənim bacımsan. Onda .sənə görə mənə yaxşılıq edərlər və canım da salamat qalar

Onlar Misrə girən kimi Misr camaatı onları gördü . Camaat və Fironun məmurları (Saranın çox gözəl olduğunu görüb onu Fironun yanında tərifləyib saraya apardılar…(١

Hədisin zəifliyi bəhsimizin mövzusudur

Əziz oxucu! Deyilmiş hədisin zəif olması daha çox nəzərə çarpır. Bu nöqtəyə də diqqət etməliyik ki, yuxarıdakı hədisin məzmununa görə Həzrət İbrahim (ə) həyat yoldaşı Saraya əmr edir, özünü onun bacısı kimi təqdim etsin ki, o zalım padşah Sara ilə evlənə bilsin. Bu yolla Həzrət İbrahim (ə) sağ qalsın və zalım padşahın əzab- əziyyətindən amanda qalsın. Həzrət İbrahim (ə) padşaha yaxınlaşaraq, onun yanında hörmət, məqam və sərvətə nail olsun. Belə çıxır ki, Həzrət İbrahim (ə) bu yalan sözü ilə öz xeyrinə çatmaqdan ötrü başqalarının onun qadınına sahiblənməsi üçün şərait yaratmışdır. (Peyğəmbərlərin müqəddəs sayılan nübuvvət məqamı bu kimi sifətlərdən uzaqdır. Həzrət İbrahim (ə) və başqa peyğəmbərlərin ünvanına deyilmiş belə (!!!böhtanlardan Allaha pənah aparırıq

səh:٢٨٩

.Tövrat, sefre təkvini, İshah:-١٢; ١١-dən ١۶-ya kimi . [١] -١

Əbu Hüreyrənin hədisində bu məsələ Tövratda olduğu kimi ifrata varılmasa da ondan çox da fərqlənmir. Bilirik ki, əvvəla həyat yoldaşını bacı kimi təqdim etməyin yuxarıda qeyd etdiyimiz məqsəddən başqa (hörmət, məqam və sərvətə çatmaq) məqsədi ola .bilməz

İkincisi, Əbu Hüreyrənin hədisinin məzmunu Tövratda gələn rəvayətin məzmunu ilə .eynidir. İntəhası biraz yığcam və xülasə şəkildədir

Əbu Hüreyrənin hədisi ilə Tövratdakı rəvayətin müqayisəsini və hakimliyini agah və təhqiqatçı oxucunun öhdəsinə buraxırıq. Bu bəhsi, Fəxri Razinin bu barədə olan incə .bir nöqtəsi ilə başa çatdırırıq

:O, öz təfsirində(١) deyir

Həşviyyə"(٢) məzhəbindən olan bəziləri nəql edirlər ki,Həzrət İbrahim (ə) üç dəfə" yalan danışmışdır. Mən, bu cür hədislərin davamçılarına dedim:- Daha yaxşı olar ki, bu hədisləri qəbul etməyək. Onlar inkar edib mənə dedilər:-"Əgər bu hədisləri qəbul etməsək əslində onları nəql edənlərini və ravilərini qəbul etməmiş oluruq." Onların cavabında belə dedim:-"Ey biçarələr! Əgər belə xəbər və hədisləri qəbul edib Həzrət İbrahim (ə) kimi peyğəmbəri yalançı kimi təqdim etməkdirsə, bu hədisləri rədd edib, təkzib etmək, onların ravilərini təkzib və rədd etməkdirsə, onda peyğəmlərin nübuvvət məqamını qoruyub- saxlamaq yaxşıdır? Yoxsa bir dəstə cahil, nadan və yalançının ?mövqeyini qoruyub saxlamaq daha yaxşıdır

Həzrət Süleymanın (ə) doxsan doqquz arvadı ilə yatması

...عَنْ عَبْدِالرَّحْمَانِ بْنِ هرْمز قَالَ: سَمِعْتُ أَبَاهُرَيْرَه، عَنْ رَسُول اللهِ | قَالَ: قَالَ سُلَيْمَانُ بْنُ دَاوُدَ: لأُ طَوَّفَنَّ اللَّيْلَه عَلَى مِائَهِ امْرَأَهٍ أَوْ تَسْعَ وَ تِسْعِينَ،كُلَّهُنَّ يَأْتِينَ بِفَارسٍ يُجَاهِدُ فِى سَبِيلِ

səh:٢٩٠

١- [١] . "Yusif" surəsinin ٢۴-cü ayəsinin aşağısında.

٢- [٢] . "Həşviyyə" - Əhli-sünnə məzhəblərindən biridir.

الله، فَقَالَ لَهُ الْمُلْكَ (صَاحِبه) قُلْ: إنْ شَاءَ الله، فَلَمْ يَقُلْ: إنْ شَاءَالله، فَلَمْ تحْمِلْ مِنْهُنَّ إلاّ إمْرَأه وَاحِدَه جَائَتْ بِشِقِّ رجل، وَالَّذِى نَفْس مُحَمَّدٍ بِيَدِهِ لَوْ قَالَ إنْ شَاءَالله، لَجَاهِدُوا فِى سَبِيلِ اللهِ فرساناً أَجْمَعُونَ.

Əbu Hüreyrə peyğəmbərimiz Həzrət Məhəmməddən (s) nəql edir ki; "Suleyman peyğəmbər bir gün dedi:

Allaha and olsun ki, bu gecə arvadlarımın döxsan doqquzu ya da yüzü ilə cinsi-əlaqədə olacam ki, onların hər birindən cəngavər övlad dünyaya gəlsin və bu övladların hamısı Allah yolunda cihad etsinlər. Süleymanın yanında olan mələk ona dedi ki, inşəllah de!

Həzrət Süleyman bu sözü deməkdən çəkindi. Nəticədə o arvadlardan yalnız biri uşağa qaldı. O da hələ insan olmamış ət parçası dünyaya gətirdi.

Allahın peyğəmbəri bu dastanı söylədikdən sonra belə buyurdu: Məhəmmədin Allahına and olsun! Əgər Süleyman "inşəllah" desəydi mütləq öz məqsədinə nail olardı və onun üçün mücahid və cəngavər övladlar dünyaya gələrdi".(١)

Səhiheyndə səhih adı ilə təqdim olunmuş bu dastanda neçə dənə eyb nəzərə çarpır:

١. Hədisin mətnində olan ziddiyyət:

Bu hədislərin bəzilərində Həzrət Süleyman peyğəmbərin (ə) bir gecədə cinsi əlaqədə olduğu arvadlarının sayı altmış, bəzisində yetmiş, doxsan, doxsan doqquz və bəzən də yüz

---

١- [١]. Səhihi-Buxari", ٤-cü cild; "Kitabul-cihad, bölüm-٢٣; "Mən tələbul vələdi lilcihad"". hədis: ٢٦٦٤. ٧-ci cild; "Kitabun-nikah", ١١٨-ci bölüm, "Qəvlur-rəculi qəuvvitənnəl-ləylə" bölümü, hədis: ٤٩٤٤; ٨-ci cild, "Kitabul-i`mani vən-nuzur", ٣-cü bölüm, "Kəyfə kanət yəminuln-nəbiy" hədis:-٦٢٦٣. "Kitabu kəffarətul i`man", ٩-cu bölüm, hədis:-٣٤١, ٩-cu cild, "Kitabut-tövhid", ٣١-ci bölüm, hədis:-٧٠٣١. "Səhihi-Buxari", ٤-cü cild; Kitabul ənbiya, bölüm-٤١, hədis: ٣٢٤٤; "Səhihi-Müslim" ٥-ci cild, "Kitabul-iman", ٥-ci bölüm; "Əlistisna" hədis: ١٦٥٤.

olduğu qeyd olunmuşdur. Bu hədislərin hamısı Səhihi Müslim və Səhihi Buxaridə gəlmişdir. Hədislərdə olan ixtilaf bu hədislərin saxta və uydurma olduğuna ən böyük dəlildir. Bu ziddiyyət onu göstərir ki, dastanların ravisi Həzrət Süleymanın arvadlarının sayını öz nəzər və istəklərinə uyğun yazmışdır. Səhiheyn kitablarının şərhçilərinin bəziləri də bu ziddiyyətləri başa düşmüşlər.(١)

٢. İnsan fiziki cəhətdən nə qədər güclü olsa da belə bir işi bacarmaz. Əgər belə bir iş baş verərsə bu işi möcüzə və xariquladə bir iş saymaq lazımdır. Möcüzə və xariquladə işlərin bəhsindən burada vaz keçirik!

٣. Zaman baxımından, bir gecə yüz qadınla yatmaq üçün kifayət etməz.

٤. Həzrət Süleyman (ə) peyğəmbər Allahın seçilmiş bəndələrindən idi və nübuvvət məqamının sahibi idi heç cür ağıla sığmır "inşəllah" deməyi bilərəkdən tərk etsin. Fərz etsək ki, unudub və ya yaddan çıxarıb necə ola bilər ki, mələikə onun yadına salandan sonra da Həzrət Süleyman (ə) kimi bir peyğəmbər ki, xalqın hidayətçisidir, bilərəkdən "inşəllah" deməsin?!

Bu hərəkət o kəslərin hərəkətinə oxşayır ki, özlərini Allahdan müstəqil bilirlər və bütün işlərin öz əllərində olduğunu zənn edirlər və qadir Allahdan qəflətdədirlər.

١-[١]. Nəvəvi "Səhihi-Müslimün" şərhində ١١-ci bölüm, səh. ١٢٠.

Cinayətkar Peyğəmbər və Əzrailin kor olması .۳

...عَنْ أَبِي هُرَيْرَةِ قال: أَرْسَلَ ملكُ الْمَوْتِ إِلَى مُوسَى، فَلَمَّا جَاءَهُ صكّه، فَرَجَعَ إِلَى ربّه، فَقَالَ: أَرسَلْتَنِي إِلىَ عَبْدٍ لاَ يُرِيدُ الْمَوْتَ، فَردّاللهُ عينه، وَ قَالَ: إِرْجع، فَقُلْ لَهُ: يَضَع يَدَهُ عَلَى مَتنِ ثُورِ، فَلَهُ بِكُلِّ مَا غَطَّت يَدهُ بِكُلِّ شعره سَنَةً، قَالَ: أَيّ رَبّ ثُمَّ مَاذَا؟ قَالَ: ثُمَّ الْمَوْت. قَالَ: فَالآن، فَسَأَلَ اللهُ أَنْ يُدْنِيهِ مِنَ الْاَرْضِ الْمُقَدَّسهِ رميةً بِحجر، قَالَ: قَالَ رَسُولُ اللهِ |: "فَلَوْكُنْتُ ثُمَّ لأَ رَيْتُكُمْ قَبْرَهُ إِلَى جَانِبِ الطَّرِيقِ عِنْدَ الْكثيبِ الأَحْمَرِ."

:Əbu Hüreyrə deyir: “Allahın peyğəmbəri (s) buyurdu

Əzrail Musanın canını almaq üçün onun yanına gəldi. Musa (ə) özünü müdafiə etməyə başladı. Əzrailin üzünə möhkəm bir şillə vurdu. Bu şillənin təsirindən Əzrail kor oldu. :Allaha tərəf qayıdaraq ərz etdi

İlahi! Məni elə bəndənin yanına göndərmisən ki, ölmək istəmir. Allah onun gözünü-sağaldıb Musanın yanına qayıtmağı əmr etdi. Get ona de! Əlini inəyin belinə qoysun. .Əlinin altındakı tüklərin sayı qədər ona ömür verirəm

:Əzrail Musanın (ə) yanına qayıtdı. Hadisəni ona danışdı. Musa (ə) belə dedi

?İlahi! Bu qədər ömrün axırı nədir-

:Buyurdu:- axırı ölümdür!. Musa ərz(۱) etdi

səh:۲۹۳

.Kiçiyin böyüyə müraciətinə deyilir . [۱] -۱

İlahi! Axırı ölüm olduğuna görə elə indi ölmək üçün hazıram. Allahdan istədi ki, onu - Beytul-müqəddəs torpağına yaxınlaşdırıb orada onun canını alsın. Bu vaxt Məhəmməd :peyğmbər (s) belə buyurdu

Əgər Beytul-müqəddəsdə olsaydım Musanın qəbrini sizə göstərərdim. Qırmızı - (qumları olan təpənin kənarında küçə tərəfdə yerləşir.(١)

Bu hədis də Səhihi Buxari və Səhihi Müslimdə vardır. Bu fərqlə ki, Səhihi Müslimdə belə ;gəlmişdir - فَلَمَّاجَاءَهُ صَكَّهُ فَفَقَأَعَيْنَهُ (٢)

ünvanı altında bu dastanı "لَطْمَهُ مُوسَـِی" Səaləbi özünün "Əlmuzaf vəl mənsub" kitabında :nəql edib sonra deyir

Bu hədis qədim əfsanələrdən və yalanlardandır ki, avam camaatın arasında məşhurlaşmışdır. Bu üzdən də avam camaat arasında deyirlər ki, "Əzrail kordur". Bu :haqda hətta şer də deyilmişdir. O şerin məzmunu belədir

ياملك الموت لقيت مكرهاً

لطمه موسی ترکتک اعورا

,EY ƏZRAIL! PIS HADISə ILə QARşıLAşDıN SəN

_ __MUSANıN şILLəSI KOR ETDI SəNI__ ___!_

Səaləbi öz sözünü bu cümlə ilə qurtarır; "Mən bu dastanın doğru və yalan olma (məsuliyyətini öz üzərimə götürmürəm."(٣)

Müəllif: Səaləbi bu hədisi avamların əfsanəsi və dastanı kimi təqdim etmişdir. Biz də, aşağıdakı dəlillərə əsasən, sonradan hörmətli oxucuların nəzərinə çatdırılacaq, o .hədisləri qoca nənələrin nəvələrinə danışdığı əfsanələrdən başqa bir şey saymırıq

---

Səhihi-Buxari", ٢-ci cild;, "Kitabul-cənaiz", ۶٧-ci bölüm, "Mən əhəbbud-dəfnə fil" [١] -١ arzil-muqəddəsə", hədis:-١٢٧۴; ۴-cü cild; "Kitabu bədul-xəlq", ٣٢-ci bölüm; "Vəfatu

Musa” hədis: ٣٢٢۶; “Səhihi-Müslim”, ٧-ci cild; “Kitabul-fəzail”, “Fəzailu Musa” bölümü, ;hədis: ٢٣٧٢

٢- [٢] . Şillə ilə vurdu, gözü içəri girdi.

٣- [٣] . Mərhum Əllamə Seyyid Şərafuddinin “Əbu Hüreyrə” adlı kitabında.

Bu hədisi bisavad dastan yazarlar avam camaatın öhdəsinə buraxmışlar. Ona görə də bu hədisdə elə məsələlər var ki, uluhiyyət məqamı ilə uzlaşmır və nə də mələklərin və ;peyğəmbərlərin yüksək məqamı ilə uyğun gəlmir, ona görə ki

Necə ola bilər ki, Allah, təkəbbürlü və heç bir səbəb olmadan vurub bir nəfərin .١ gözünü çıxartmış bir şəxsi peyğəmbərlik məqamına seçsin və onu “Kəlimullah”(١) dərəcəsinə ucaltsın. Belə bir adam Allahın məmuru kimi Allahın əmrini ona çatdırıb, :desin

“أَجِبْ رَبُّكَ” (əcib rəbbukə).

İmranın oğlu Musa (ə) belə bir cinayəti törətdi cəzalanmaq əvəzinə Allah tərəfindən .٢ daha çox mükafata layiq görüldü və minlərlə il, ömür ona verildi. Bu qədər zülmün !? qarşısında bu qədər mükafat

Allahın peyğəmbərlik məqamına seçdiyi, vəhyin əmini qərar verdiyi, münacat üçün .٣ seçdiyi, onu Ulul-əzm peyğəmbərlərdən biri qərar verdiyi Musa kimi bir peyğəmbərə :belə bir şeyi necə nisbət vermək olar. Allah onu tərifləyərkən belə buyurmuşdur

{ وَإِذْ أَخَذْنَا مِنَ النَّبِيِّينَ مِيثَاقَهُمْ وَمِنكَ وَمِن نُّوحٍ وَإِبْرَاهِيمَ وَمُوسَى وَعِيسَى ابْنِ مَرْيَمَ وَأَخَذْنَا مِنْهُم مِّيثَاقًا غَلِيظًا }

YA RəSULUM!) XATıRLA KI, BIZ BIR ZAMAN PEYğəMBəRLəRDəN əHD ALMıŞDıQ:) _ SəNDəN Də, NUHDAN DA, İBRAHIMDəN Də, MUSADAN DA, MəRYəM OğLU İSADAN (DA! BIZ ONLARDAN MöHKəM BIR əHD ALMıŞDıQ. _(٢)

{ وَاذْكُرْفِي الْكِتَابِ مُوسَى إِنَّهُ كَانَ مُخْلَصًاوَكَانَ رَسُولًانَّبِيًّا وَنَادَيْنَاهُ مِن جَانِبِ الطُّورِالْأَيْمَنِ وَقَرَّبْنَاهُ نَجِيًّا }

səh:٢٩٥

.Musa peyğəmbərin ləqəblərindən biri, mənasi Allahın kəlamı deməkdir . [١]-١
.Əhzab” surəsi, ayə-٧“ . [٢]-٢

YA RəSULUM!) KITABDA (QUR ANDA) MUSANı DA YAD ET! HəQIQəTəN, O, (öZ) _ IBADəTINDə) çOX SəMIMI IDI. O (BIZIM TəRəFIMIZDəN İSRAIL OğULLARıNA GöNDəRILMIş) BIR ELçI, BIR PEYğəMBəR IDI. BIZ (MUSANı) TUR DAğıNıN SAğ TəRəFINDəN çAğıRDıQ Və (ALLAHLA DANışMAQ üçüN YALVARıB) GIZLI DUA _ _(EDəRKəN öZüMüZə YAXıNLAşDıRDıQ. _(١)

{ يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تَكُونُوا كَالَّذِينَ آذَوْا مُوسَى فَبَرَّأَهُ اللَّهُ مِمَّا قَالُوا وَكَانَ عِندَ اللَّهِ وَجِيهًا }

EY IMAN GəTIRəNLəR! MUSAYA əZIYYəT VERəN KəSLəR KIMI OLMAYıN. ALLAH _ (MUSANı) ONLARıN DEDIKLəRINDəN (BöHTANLARıNDAN) TəMIZə çıXARTDı. O, (ALLAH YANıNDA çOX HöRMəTLI (QəDIR-QIYMəTLI) IDI. _(٢)

Ənbiya və Ulul-əzm peyğəmbərlərin Allahın əmrlərini təbliğ etməkdə olan mələkləri -۴ təhqir etməsi məsələsini qəbul etmək olarmı ?! Biz, “Firon”, “Nəmrud”, “Əbu Cəhl” kimi kafir, müşrik, mütəkəbbir şəxsləri belə mənfi cəhətlərinə görə qınayır və onları Allahın düşməni sayırıq. Onlar Allah və əmrləri qarşısında və Allah peyəmbərlərinin qarşısında inadkar və dikbaşlıq etdilər. Peyğəmbərləri rədd edib, onları təhqir etdilər. Əgər bu hədisi olduğu kimi qəbul etsək, o zaman “Musa (ə)” ilə “Firon” arasında heç bir fərq olmaz. Firon Allahın peyğəmbəri ilə necə davranmışdısa Musa da Allahın göndərdiyi .mələklə elə davranaraq Allahın göndərdiyi mələyə təhqirlə rədd cavabı verdi

Bunların hamısını bir kənara qoysaq, görəsən mələklərin həqiqəti nədir? və əslində -۵ mələklər necədirlər?! Görəsən mələklərin də cismi varmı? Onların da insanlar kimi !? gözü varmı ki, bir şillə ilə kor olsun

Əlbəttə,, bu qondarma hədisləri nəql edənlərə bu iradlara

.Məryəm” surəs,i ayə-۵۱-۵۲“ . [۱] -۱
.Əhzab” surəsi, ayə-۶۹“ . [۲] -۲

cavab vermək üçün qondarma rəvayət və hədis uydurmaq çox da çətin bir şey deyil. Hər yerdə çətinliyə rast gəlsələr istədikləri vaxt öz kisələrindən hədis çıxarıb öz .canlarını irad və tənqidlərdən qurtarırlar

Baxanda görürük ki, bu dastanın müəllifi Əbu Hüreyrə axırıncı eybi gördükdə ona :cavab vermək üçün belə demişdir

إِنَّ مَلَكَ الْمَوْتِ كَانَ يَأْتِي النَّاسَ عَيَاناً حَتَّى أَتَى مُوسَى فَلَطَمَهُ فَفقأَ عَينَهُ....إِنَّ مَلكَ الْمَوْتِ إِنَّمَا جَاءَ إِلَى النَّاسِ خَفِياً بَعْدَ مَوْتِ مُوسَى

Musanın dövrünə qədər Əzrail insanların canını almaq üçün gələndə aşkar, insan“ surətində gələrdi. Musanın şilləsini görəndən sonra yəni, Musa öləndən sonra can (almaq üçün gələrkən gizlin və gözlərdən uzaq gəlir.”(١)

Bu hədisdə olan bu qədər iradlarla bərabər hər halda maraqlı burasıdır ki, Müslim, öz “Səhih” adlı kitabında bu hədisi “Musanın fəzilətləri babında” gətirmişdir. Burada bir şeyi başa düşmək olmur ki, bir peyğəmbər üçün bu nə fəzilətdir ki, vurub bir mələyin !!? gözünü kor etsin

Musanın daşla yarışa çıxması

....عن ابى هريره،قال:قال رسول الله|: إِنَّ موسى كان رجلاً حيّياً، ستيراً لاَ يُرى من جلدِه شئٌ استحياءً منه، فآذاه من آذاه من بنى اسرائيل، فقالوا: ما يستتر هذا التستُّرَ إِلا من عيب بجلده؛ إمَّا برص، و إِمَّا أُدره و إمَّا آفه، وان الله اراد أن يبرئَه مما قالوا لموسى، فخلا يوماً وحده، فوضع ثيابه على الحجر، ثمّ إغتسل فلمّا فرغ أقبل إلى ثيابه ليأخذها، وانّ الحجر عدا بثوبه، فأخذ موسى عصاه، وطلب الحجر، فجعل يقول: ثوبى حجر! ثوبى حجر! حتى انتهى الى ملاءٍ من بنى إسرائيل، فرأوه عرياناً أحسن ممّا خلق الله، و ابرَأه ممّا يقولون،

Musnədi Əhməd ibn Hənbəl”, ٢-ci cild; “Musnədi Əbi Hüreyrə” səh. ٥٣٣,“ . [١] -١ “Mustədrəki Səhiheyn” ٢-ci cild;, “Kitabu təvarixul mutəqəddiminə minəl ənbiya vəl mursəlin...” (Bəyanu kanə məlikul mövti yətin-nas...) səh. ٥٧٨, “Tarixi Təbəri” ١-ci cild, .“Musanın tarixi”, səh. ٣٠٥

وقام الحجرُ وفاخـذ بثوبه، فلبسه، وطفق بالحجر ضـرباً بعصاه، فوالله أن بالحجر لندباً من اثر ضـربه ثلاثاً او أربعاً او خمساً، فذالك قوله تعالى:

{يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تَكُونُوا كَالَّذِينَ آذَوْا مُوسَى فَبَرَّأَهُ اللَّهُ مِمَّا قَالُوا وَكَانَ عِندَ اللَّهِ وَجِيهًا}

Əbu Hüreyrə peyğəmbərimiz Həzrət Məhəmməddən (s) nəql edir ki; “Həzrət Musa (ə) çox həyalı adam idi. Çox həyalı olduğu üçün, elə geyinirdi ki, bədəninin heç yeri görünməsin. Hələ heç kəs onun bədənini görə bilməmişdi. Bəni İsraildən bir qrup şəxslər bu məsələni görüb Musa (ə) barədə şəkkə düşdülər. Bu üzdən Musaya əziyyət :edib, deyirdilər

Çox güman ki, onun bədənində bir eybi və ya bərəs(١) və fətəq(٢) kimi xəstəliyi var ki,“ ”.öz bədənini belə gizlədir

Allah təala onu bu böhtanlardan təmizləmək istədi. Bu səbəbdən də, bir gün Həzrət Musa (ə) qusl etmək üçün xəlvət bir yerdə öz paltarlarını soyunaraq daşın üzərinə qoydu. Elə ki, qusl edib qurtardı, istədi ki, paltarını geyinsin. O daş onun paltarını :götürüb qaçdı. Həzrət Musa (ə) öz əsasını götütrüb daşın arxasıyca qaçaraq, qışqırırdı

”.Ey daş! Mənim paltarımı qaytar. Ey daş! Mənim paltarımı qaytar“-

Çılpaq vəziyyətdə gəlib Bəni İsrail camaatının arasına çıxdı. Onu çılpaq vəziyyətdə müşahidə edib, gördülər ki, Həzrət Musanın (ə) nəinki eyib və nöqsanı yoxdur, bəlkə çox gözəl və kamil xilqətə malikdir. Beləcə Allah təala Musanı onların böhtanlarından qorudu. Bu yarışdan sonra daş yerində durdu. Musa (ə) öz paltarını götürərək əyninə geyindi. Daşa qəzəblənərək öz əsasını ona möhkəm vurdu. And olsun Allaha

---

١- [١] . Bərəs – qotur və səpkilərə aid xəstəlik növü;

٢- [٢] . Fətəq- cinsiyyət orqanının şişməsilə yaranan xəstəlik (qrija);

ki, daşın üzərində zərbənin izi grünürdü. Camaatın Musaya (ə) əziyyəti barədə olan :ayənin mənası belədir ki, buyurulur

{يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تَكُونُوا كَالَّذِينَ آذَوْا مُوسَى فَبَرَّأَهُ اللَّهُ مِمَّا قَالُوا وَكَانَ عِنْدَ اللَّهِ وَجِيهًا}

EY IMAN GəTIRəNLəR! MUSAYA əZIYYəT VERəN KəSLəR KIMI OLMAYıN. ALLAH _ (MUSANı) ONLARıN DEDIKLəRINDəN__ (BöHTANLARıNDAN) TəMIZə çıXARTDı. O, (ALLAH YANıNDA çOX HöRMəTLI (QəDIR-QIYMəTLI) IDI. _(١)_-_(٢)

Hədisi araşdırmazdan əvvəl hörmətli oxucuların diqqətini "Səhiheyni" şərh edən iki .nəfərin bu hədis barədə olan nəzərinə cəlb etmək istəyirik

:Bədruddin Eyni "Səhihi-Buxari"nin şərhində belə deyir

;Bu hədisdən belə düşünürük ki"

.Lazım gəldikdə soyunub çılpaq olmaq və cinsi orqanlara baxmağın eybi yoxdur .١

Bu hədis, Həzərət Musanın (ə) böyük möcüzə göstərməyini sübut edir. Xüsusən daş .٢ üzərində onun əsasının izinin qalması ən böyük möcüzədir. Baxmayaraq ki, Həzrət Musa (ə) daşın, onun paltarlarını öz iradəsilə aparmadığını, bəlkə Allahın əmri ilə (olduğunu bilirdi.(٣

.Əhzab" surəsi ayə-۶٩" . [١] -١

Səhihi-Buxari" ١-ci cild, "Kitabul-qüsl"; bölüm-٢٠, "Mən iğtəsələ uryanən vəhdəi" . [٢] -٢ fil xəlvəti" hədis: ٢٧۴, ٣-cü cild; Kitabul ənbiya, ٢٩-cu bölüm; "Hədisul xəzəri mə-ə Musa" hədis:-٢٣٣٢. "Səhihi-Buxari", ۴-cü cild; "Kitabut-təfsir", ٢٨٣-cü bölüm, "Və qovluhu təala Kəlləzinə azu Musa"...hədis:-۴۵٢١.; "Səhihi-Müslim", ١-ci cild, "Kitabul-heyz", ٨-ci bölüm, "Cəvazul iğtisali uryanən fil xəlvəti", hədis: ٣٣٩; ٧-ci cild; "Kitabul fəzail", ۴٢-ci bölüm; ;""Fəzailu Musa

Umdətul-Qari", ١۵-ci cild; səh. ٣٠٢; "Kitabul-ğusl", ٢٠-ci bölüm; "Mən iğtəsələ" . [٣] -٣ uryanən vəhdəh fil xəlvəti", hədis: ٢٧۴; ٣-cü cild; "Kitabul-ənbiya", ٢٩-cu bölüm; "Hədisul-Xəzəri mə`ə Musa" hədis: ٢٣٣٢; "Səhihi-Buxari" ۴-cü cild; "Kitabut-təfsir", ٢٨٣-

.;cü bölüm; “Və qovluhu təala Kəlləzinə azu Musa”...hədis: ۴۵۲۱; ۳۰۲-ci cild

:Nəvəvi də Səhihi Müslimin şərhində belə deyir

:Bu hədisdən Həzrət Musanın (ə) iki böyük möcüzə göstərməsi başa düşülür

;Daşın hərəkət etməsi və Musanın (ə) paltarlarını aparması .١

(Daşın üzərində əsanın izinin qalması;(١) .٢

:Müəllif: Səhih adı ilə təqdim olunmuş bu hədis barədə aşağıdakı suallar meydana çıxır

Görəsən "Kəlimullah"-ı soyundurmaq və onun bütün bədən üzvlərini hətta cinsiyyət .١ orqanlarını camaata göstərmək onun mövqeyini sarsıdıb peyğəmbərlik məqamını və ?şəxsiyyətini sual altına almırmı

Xüsusən gülməli şəkildə, dərk edib, eşıtməyən cansız bir daşın arxasınca qaçaraq ;qışqırıb desin ki

(".Ey daş! Mənim paltarımı qaytar. Ey daş! Mənim paltarımı qaytar") ثوبی حجر! ثوبی حجر!

Əgər bu hədisin doğru olduğunu fərz etsək, görəsən daşın hərəkət etməsi Allahın .٢ əmri ilə deyildimi? O zaman Həzrət Musanın (ə) daşa qəzəblənməsini necə başa !? düşmək olar ? Eləcə də daşı cəzalandırmağın nə faydası var

Görəsən daşın Musanın (ə) paltarını qaçırması, ona öz ayıb yerlərini göstərib günah .٣ etməyə icazə verirmi ?! Yoxsa ağıl və şəriətin hökmünə əsasən lazım gəlir ki, Musa (ə) !? xəlvət bir yerdə gizlənərək özünü örtsün

Eyninin və Nəvəvinin bu mövzunu Musanın möcüzəsi kimi qələmə vermələri əgər doğrudursa, bu işi möcüzə və xariqulадə bir iş saymaq olar. Lakin diqqət etmək lazımdır ki, möcüzə Allah yoluna dəvət və ətrafdakıları aciz etməkdən ötrü

Nəvəvinin şərhi ١٥-ci cild;Kitabul heyz; bölüm-٨, "Cəvazul iğtisali uryanən fil . [١] -١ xəlvəti" hədis: ٣٣٩; ٧-ci cild; Kitabul fəzail, ۴٢-ci bölüm; "Fəzailu Musa".səh. ١٢٧. .(((Nəvəvinin şərhi ١-ci cild٥;səh. ١٢٧; (Köhnə çap

peyğəmbərlər tərəfindən göstərilir. Hansı ki, burada göstərdiyi möcüzə heç də dəvət .və təbliğ üçün deyildi

Musanın (ə) bu xəstəlik böhtanından qurtarması onun hörmətsizliyinə icazə vermir, ayənin və möcüzənin nazil olmasına səbəb ola bilməz. Bir peyğəmbərin hər hansı bir xəstəliyə tutulmasının nə eybi vardır?. Məgər Şueyb peyğəmbər kor deyildirmi ?! Əyyub peyğəmbər xəsləliyə tutulmamışdırmı?! Məgər başqa peyəmbərlərdən heç biri xəstələnib, o xəstəlik üzündən dünyadan köçməmişdilərmi ?! Bunu nəzərə alaq ki, bu xəstəlik daxili səbəblər üzündən yaranmış və gizlində qalmışdır. Camaatın çoxunun da .ondan xəbəri olmamışdır

Amma həzrət Musaya (ə) olunan əziyyət mövzusuna gəldikdə, Əbu Hüreyrə Quran ayəsini öz nəzərinə uyğun olaraq, özünün uydurduğu hədisə uyğun təfsir etmişdir. Bədruddin Eyninin(١) işarə etdiyi kimi, Əmirəl möminin Əli (ə) və İbn Abbasdan da nəql olunan hədisə görə bu töhmətli əziyyətdən məqsəd “Harunun qətli” barədədir. Təfsirçilərdən bəziləri “Qarun və əxlaqsız qadın” bəziləri isə bunu “sehr və dəlilik”olduğunu bildirmişlər.(٢) Bu dastanda gələn Quran ayəsi barədə olan bu təfsir, .yalnız Əbu Hüreyrənin kisəsindən çıxmışdır və ona məxsusdur

Musanın qarışqaların yuvasına od vurması

....قرصت نمله نبياً من الانبياء فامر بقريه النمل، فاحرقت، فاوحى الله اليه: ان قرصتک نمله احرقتَ امه من الامم تسبح الله

səh:٣٠١

Umdətul-Qari” ١٥-ci cild; səh. ٣٠٢; “Kitabul-ğusl”, ٢٠-ci bölüm; “Mən iğtəsələ“ . [١] -١ uryanən vəhdəh fil xəlvəti” hədis:-٢٧۴. ٣-cü cild; “Kitabul-ənbiya”, ٢٩-cu bölüm; “Hədisul-Xəzəri mə`ə Musa” hədis: ٢٣٣٢. “Səhihi-Buxari”, ۴-cü cild; “Kitabut-təfsir”, ٢٨-ci bölüm; “Və qovluhu təala: “Kəlləzinə azu Musa”... hədis: ٢١۴۵; “Səhihi-Müslim”, ١-ci cild, “Kitabul-heyz”, “Cəvazul-iğtisali uryanən fil-xəlvəti” bölümü, hədis: ٣٣٩; “Fəzailu ;Musa” bölümü

.Təfsir kitablarına müraciət edin . [٢] -٢

Əbu Hüreyrə nəql edir ki; “Bir gün qarışqalardan biri peyğəmbərlərdən birinin ayağını dişlədi. O peyğəmbər acıqlanaraq əmr etdi ki, qarışqaların yuvasına od vursunlar. Bu :anda Allah tərəfindən belə bir fərman gəldi

Ey mənim peyğəmbərim! Bir qarışqanın dişləməsindən ötrü mənə təsbih deyən bir - ”!?ümmətə odmu vurursan

(Buxari və Müslim bu hədisi də öz səhihində nəql etmişlər. (١

Səhihi-Termizidə gələn başqa bir hədisin məzmununa görə Qəstəlani və İbn Həcər də onu təsdiq etmişlər, bir dişləməyə görə minlərlə canlı qarışqaya od vuran o daş ürəkli (peyğəmbər, Allahın peyğəmbəri Musa (ə) imiş.(٢

Bu qəribə hədis, məlum deyil Əbu Hüreyrə onu hansı dastan və əfsanədən götürmüşdür, belə başa düşülür ki İmran oğlu Həzrət Musa (ə) bir qarışqanın günahı ücbatından minlərlə günahsız qarışqadan intiqam aldı. Halbuki, Əmirəl möminin Əli (ə) :buyurur

والله لَوْ أعطيت الاَقـاليِمَ السَّبْعَة بِمَـاتَحْتَ أفلاكِهـا على أنْ أعصِـىَ الله فى نمْلَهٍ أسـلَبها جلب شَـعِيرَهٍ مَـا فَعَلتهُ (وإنّ دنيَـاكم عنْـدِى لَاهْوَنُ منْ وَرَقَهٍ فِى فَمِ جَرَادَهٍ تَقضَمُها)

And olsun Allaha ki, yeddi iqlimi mənim ixtiyarıma versələr ki, qarışqanın ağzında“ apardığı ruzisini almaqla günaha batım heç vaxt belə bir iş görmərəm. Əli ibn Əbi (Talibin əlindən kiçicik qarışqaya belə zülm olunmaz.”(٣

Yuxarıda sözü gedən məsələ Allahın böyük peyğəmbərlərindən birinə nisbət verilmişdir və bu məsələ Allahın qadağan etdiyi və qəzəbləndiyi işlərdən biridir. O hədisin özünə görə də, bu məsələ Allah tərəfdən şiddətlə

Səhihi-Buxari ۴-cü cild; “Kitabul cihadi vəs-seyr”, ۵٠-ci bölüm, hədis:-٢٨۵۶; və ۴- . [١] -١ cü cild, “Kitabu bədul-xəlq”, ١۶-cı bölüm, hədis: ٣١۴; “Səhihi-Müslim”, ٧-ci cild; “Kitabu ;qətlul-həyat”, hədis: ٢٢۴١; bölüm-٣٩

;İrşadus-sari cild-۶, səh. ١١۴; “Fəthul-bari”, ٧-ci cild; səh. ١۶٨ . [٢] -٢

;Nəhcul Bəlağə”, İbn Əbil Hədidin şərhi, səh. ١٣٨, ٢٢٤-cü xütbə“ . [٣] -٣

qınanmışdır. Bu iş heç cür peyğəmbərlərin bəşərə olan məhəbbəti, şəfqəti, dostluğu xüsusilə də incə ruhiyyələri ilə uzlaşmır. Bu əfsanəyə oxşar dastanda Əbu Hüreyrə Musa peyğəmbəri elə daş ürəkli və qəlbi paslanmış insan kimi tanıtdırmışdır ki, bu böyük peyğəmbəri fars dilli bir şair Firdovsinin səviyyəsindən də endirərək onun .şəxsiyyətini kiçiltmişdir. Necə ki Firdovsinin şerində belə deyilir

میازار موری که دانه کش است

که جان دارد وجان شیرین وخوش است

,MəYAZAR MURI KE DANE KEş AST

KE CAN DARəD Və CAN şIRIN Və XOş əST

İNCITMə O QARışQANı KI, RUZI DALıNCADıR, O DA CANLıDıR HAMıNıN CANı öZüNə _ _ .şIRINDIR

Diqqəti cəlb edən bir məqam

Bu beş dastan barədə diqqət olunmalı nöqtə budur ki, Əbu Hüreyrədən başqa onların heç birinin ravisi yoxdur. Peyğəmbərlərin məqamına vurulan bütün bu nisbətlər və iftiralar Şeyxul-muzirənin (Əbu Hüreyrənin) öz kisəsindən və onun hədis bazarından çıxmışdır. Bu yerdə təhqiqatçı alim Fəqid Misri "Əbu Riyə"nin sözü yadımıza düşür. O belə deyir: Əbu Hüreyrə Bəhreynə başçılığından çıxarıldıqdan və Mədinəyə qayıtdıqdan sonra Yəhudilərin böyük alimi "Kəəbul-əhbar" onu öz qanadları altına alaraq İsrailiyyatı(۱) ona təlqin edirdi. Öz xurafalarını ona öyrədir və bəzən isə müsəlmanlar bilmədikləri şeylərdə "Kəəbul-əhbara" müraciət edirdilər. Xüsusilə də elə ki, "Qeys ibn Xurşə"nin söylədiyi "Yer kürəsində Musanın Tövratında hətta bir qarış qədəri belə yer yoxdur ki, onda baş verəcəklərdən danışılmasın və xəbər verilməsin" bu yalandan sonra müsəlmanların Kəəbul-əhbara olan diqqəti daha da çoxaldı. Əbu Hüreyrə də ondan bir şey

---

۱- [۱] . Yəhudilərin vasitəsi ilə uydurumuş və yalan hədislər.

öyrənmək və onun fəxr olunacaq bir tələbəsi olması üçün onun yanına tələsirdi. Beləliklə,, Kəəb və Əbu Hüreyrədən hədislər və rəvayətlərin axını müsəlmanlara üz tutdu. Xüsusilə də Ömərin vəfatından və taziyanəsinin itməsi ilə onlara hazır bir mühüt düzəldi. Bu hədislərin axını Kəəb və Əbu Hüreyrə sağ olunca müsəlmanlar arasında .çox tez yayılmağa başladı

Əburyə" əlavə edir ki; Təhqiqatçı və alimlərdən biri deyir: Əbu Hüreyrə və Kəəbul-" əhbar əl-ələ verib xurafaların və uydurma hədislərin vasitəsi ilə İslamı alt-üst edərək .onun həqiqi simasını dəyişdilər

Sonra belə deyir: Təəccüblüsü budur ki, Əbu Hüreyrə və Kəəb barədə edilən iradlara və onların yalançı olmaları barədə əsasların isbata keçməsinə baxmayaraq yenə də müsəlmanların əksəriyyətini təşkil edən "əhli-sünnə" məzhəbi bu iki nəfərə etimad göstərir və onlara inanırlar. Onların hədislərini qəbul edirlər. Hansı ki, bu kimi rəvayətlərin arasında ağılla və doğru rəvayətlərlə uyğun gəlməyən bir çox məsələlərə inanırlar və onları təsdiq edirlər. Bu vaxt Kəəbi, səhabəyə tabe olanların ən yaxşısı düzəldir və Əbu Hüreyrəni Raviyətu İslam (çox rəvayət nəql edən kəs) kimi (tanıtdırırlar.(١)

;Şeyxul-muzirə" səh. ٩٠" .[١]-١

Peyğəmbərin (s) atasının və anasının imanı .۴

Əvvəlki fəsillərdə, “Səhiheyn” kitabları baxımından keçmiş Peyğəmbərlərin simaları ilə tanış olduq. Bu fəsldə isə bu iki kitabların hədislərindən İslam Peyğəmbərinin (s) siması ilə tanış olacağıq. Belə ki, məqsədimiz Peyğəmbərin yaşayış dövrünu iki hissəyə: .“Besətdən öncə” və “besətdən sonra”-kı dövrlərə bölməkdir

Besətdən əvvəlki dövr

Bu dövrdə Rəsuli-Əkrəmə (s) “Səhiheyn” kitablarının vurduğu rəva olmayan .nisbətlərin hər biri üçün ayrıca bəhsə və izaha ehtiyac vardır

Bu mövzumuzda “Müslimün” öz səhih adlı kitabında Peyğəmbərin anasının və atasının :müşrik kimi tanıtdırılması barədə söhbət açacağıq. O öz kitabında belə nəql edir

.۱

عَنْ أَنَس: إِنَّ رَجُلاً قَالَ: يَا رَسُول اللهِ أَيْنَ أَبِی؟ قَالَ: "فِی النَّار"، فَلَمَّا قفی دَعَاهُ، فَقَالَ: "إِنَّ أَبِی وَ أَبَاکَ فِی النَّار".

Ənəs deyir: “Bir kişi Peyğəmbərin (s) yanına gəlib soruşdu: Ya Rəsulullah! Mənim atam haradadır? Peyğəmbər (s) buyurdu: Sənin atan (cəhənnəm) odun içindədir. Elə ki, o

kişi getdi, Peyğəmbər onu çağırdı və buyurdu: Mənim və sənin atan hər ikisi cəhənnəm (odundadır."(١)

.٢

عَنْ أَبِی هُرَيْره، قَالَ: زَارَ النَّبِیُّ | قبر أمّه فبكى من حَوْلَهُ. فَقَالَ: "اِستَأذَنْتُ رَبِّی فِی أَنْ أَسْتَغْفِرَ لَهَا، فَلَمْ يُؤْذِنْ لِی واستَأْذِنْتُهُ فِی أنْ أزورَ قَبْرَهَا فَأَذِنَ لِی، فزوروا القبور فَإِنَّهَا تُذَكِّرُ الْمَوتَ."

Əbu Hüreyrə deyir: "Peyğəmbər (s) anasının qəbrini ziyarət etdi və ağladı. O həzrətin yanında kim vardısa hamısını ağlatdı. Bu vaxt Allahın Rəsulu (s) buyurdu: Mən Allahımdan anamın bağışlanmasını istəməyim üçün icazə istəmişdim. Ancaq mənə belə bir icazə verilmədi. Allahdan onun qəbrini ziyarət etməyimə icazə istədim. Bu istəyimi qəbul etdi. Sizlər də qəbrləri ziyarət edin ki, qəbrləri ziyarət etmək ölümü yada (salmaq deməkdir."(٢)

Bu iki hədisi uyduranlar Peyğəmbərin (s) öz dili ilə atasının və anasının cəhənnəm əhlindən və müşriklərdən olduğunu sübut etmək istəmişlər. Peyğəmbərin (s) və möminlərin müşriklərə dua edib onların bağışlanmasını istəməyə haqları olmadığı .üçün, o Həzrətin (s) anasına da dua edib, bağışlanmaq tələbinə icazə yoxdur

Bu iki hədisin yalan və qondarma olması açıq aydındır. Çünki əvvəldə işarə etdiyimiz dəlillərdən başqa səhih hədislərin məzmununa və tarixi sənədlərə əsasən cahiliyyət dövründə başda Əbdul-Müttəlibin, Əbi Talibin və Peyğəmbərin

---

sahibi olduğunu söyləmişdir. Bu üzdən nəql olunan hədislərin məzmunu Qur`an ayələri ilə uyğun deyildir.(١) Həmçinin Buxari və Müslimin özü və başqa “Sihah” sahiblərinin də nəql etdikləri bir çox hədislərlə də ziddiyyətlidir.

İndi isə onların nəql etdikləri başqa üç hədisi şahid və nümunə üçün oxucularımızın nəzərinə çatdırırıq.

١. Buxari öz səhih adlı kitabının səkkizinci cildində “Kitabul ədəb” “Ləm yəkunin-nəbiyyu fahişən və la mutəfəhhişən” – yə`i “Peyğəmbər (s) söyməz, pis söz danışmaz” adlı məxsus bir bölüm açmış və Peyğəmbərin gözəl əxlaqı barədə olan bütün hədisləri bu bölümdə toplamışdır. Onlardan birinin məzmunu belədir:

İbn Əbi Məlikə deyir: Bir dəstə yəhudi Peyğəmbərin hüzuruna gəldilər və dedilər: “Əs-sam ələykum” dedilər. (Bə`zən yəhudilər müsəlmanlara “Əssəlamu ələykum” yəni sizə salam olsun əvəzinə “Əs-samu ələykum” yə`ni “sizə ölüm olsun” deyirdilər.) Aişə onların cavabında dedi: “Ələykum” yə`ni ölüm sizin özünüzə olsun. Bu cümlənin üzərinə, Allahın lə`nəti və qəzəbi də sizə gəlsin cümləsini də artırdı.

Peyğəmbər (s) Aişəyə buyurdu: Aişə sakit ol. Mülayim olmağı unutma! Pis söz söyləməkdən də çəkin.

Aişə dedi: Məgər onların salam əvəzinə söylədiklərini eşitmədin? Görmədin səni necə lə`nətlədilər?

Peyğəmbər (s) buyurdu: Aişə! Sənə dediyimi eşitmədinmi? Əgər mən onlara nifrin etsəm, mənim bu nifrinim qə`bul olar. Ancaq, onların sözləri kiçik də belə olsa mənə tə`sir etmir.(٢)

٢. Müslim öz Səhihində bir çox hədislərdə nəql edir ki: “Peyğəmbər (s) camaatı lə`nətləməkdən və heyvanlara,

---

١- [١] . “Qur`an baxımından peyğəmbərlər” (ələyhumus-səlam) kitabın əvvəlinə müraciət et.

Səhihi-Buxari”, ۸ –ci cild, “Kitabul ədəb”, “Ləm yəkunin-nəbiyyu (s) fahişən və la“ . [۲] -۲
.mutəfəhhişən” bölümü, hədis: ۵۶۸۲. ۵۶۸۳

(səvarilərə pis söz deməkdən çəkindirmişdir”.(۱)

۳. Yenə də Müslim nəql edir ki: “Peyğəmbərə (s) dedilər: Ya rəsuləllah! Kafirləri və müşrikləri lə`nətlə!

Peyğəmbər (s) buyurdu:

إِنِّی لَمْ أَبْعَثُ لَعناً و إِنَّمَا بُعِثْتُ رَحْمَةً

“Mən nifrin etmək və lə`nətləmək üçün deyil, rəhmət üçün göndərilmişəm.”(۲)

Bəli, həzrət Peyğəmbər (s) xırda bir bəhanəyə görə qəzəblənən və möminlərə söyüş söyərək lə`nət oxuyan bəşərdən biri deyildir. Görəsən başqalarına zülm edib, onlara əziyyət verən, şallaq ilə haqsızcasına vuran bir şəxsin bəşəriyyəti düzgünlüyə, saflığa, doğruluğa və ədalətə çağırması və onlara rəhbərlik etməsi necə mümkündür?!

Yəhudilər, islam dininin qatı düşmənləri və bu pak dinin inkişafına əngəl törədənlərdir. Aişə onlara cavab qaytararkən Peyğəmbərin (s) bu işdən onu çəkindirməsi, o həzrətin gözəl əxlaq sahibi olmasına aşkar bir nümunədir. Elə ki, Peyğəmbərə və onun ardıcıllarına “Əs-sam” yə`ni ölüm deyilir, Aişə eyni sözlə onları cavablandırır. Lakin həzrət Peyğəmbər (s) Aişəni bu əməldən çəkindirir və onu belə düşmənçiliyin və ədavətin qarşısında səbrə, dostluğa və şəfqətə də`vət edərək belə buyurur: “Mən nifrin və lə`nətləmək üçün deyil, rəhmət üçün göndərilmişəm.”

Həzrət Peyğəmbər (s) elə bir şəxs idi ki, camaatı heyvanlara pis söz deməkdən də çəkindirirdi. Buna görə də Peyğəmbərin mö`minlərə əziyyət verməsi və onları lə`nətləməsi, söyməsi qə`bul olunacaq deyildir.

۱- [۱] . Səhihi-Müslim”, ۸-ci cild, “Kitabul-birri vəs-silə”, “Ən-nəhyu ən lə`nid-dəvab-bi“ və ğəyriha” bölümü; hədis: ۲۵۹۵ – ۲۵۹۶.

۲- [۲] . Həmin ünvan.

?Bu hədislərin düzəlməsində məqsəd nədir

Peyğəmbərimiz həzrət Məhəmmədin (s) yaşayış tərzi barədə tarixin bizə verdiyi faktlara əsasən mə`lum olmuşdur ki, o həzrət (s) xüsusi yerlərdə müəyyən şəxsləri Allahın izni və əmri ilə lə`nətləmişdir. Bə`zən də bə`zi şəxsləri ucqar və əl çatmaz .yerlərə sürgün etdirmişdi

Belə şəxslər, İslam dininin inkişafına, Peyğəmbərə (s) və müsəlmanlara qarşı ədavət və düşmənçilikdə yəhudilərdən və müşriklərdən daha çox təhlükəli idilər. Peyğəmbərin onlara olan nifrin və lə`nəti, onların cəmiyyət arasında olan vəzifələri və şəxsiyyətləri üçün ən böyük ləkə idi. Buna görə də, bu ləkələri təmizləmək üçün Əbu Hüreyrə kimi şəxslərin vasitəsi ilə yalan hədislər düzəltməyə başlamışlar. Sonralar bu şəxslərin tərəfdarları yalan hədisləri qoruyub saxlamış və onları öz əqidələrinin və ağalarının .xeyrinə istifadə edib, bəhrələnmişlər

Burada onların bəhrələnib sui-istifadə etdikləri hədislərdən bir neçəsini nümunə :olaraq gətiririk

Müslim öz Səhih adlı kitabında sayı ona çatan hədislərin nəqlindən sonra başqa bir .١ :mövzu və ünvan açmadan bu hədisi İbn Abbasdan nəql edir ki, o belə deyir

Mən kiçik idim. Uşaqlarla bir yerdə oynayırdım. Həzrət Peyğəmbər (s) bizim" yanımızdan keçirdi. Mən utandığımdan divarın arxasında gizləndim. Peyğəmbər (s) mənim yanıma gəldi və məhəbbətlə əlini mənim başıma qoydu və buyurdu: Abdullah! Get Müaviyyəyə de ki, mənim yanıma gəlsin. Mən Müaviyənin yanına getdim. Qayıdıb ərz etdim ki, o yemək yeyir. Həzrət (s) ikinci dəfə buyurdu: Ona deki, mənim yanıma gəlsin. Mən yenə Müaviyyənin yanına getdim. Qayıdıb ərz etdim: O, yeməklə məşğuldur. Peyğəmbər (s) buyurdu: لا أشبَعَ اللهُ بَطْنَه _ ALLAH ONUN_

(QARNıNı DOYUZDURMASıN ._(١)_

Əziz oxucu ! Şübhəsiz ki, Nişapurlu Müslimin nəql etdiyi, sayı ondan artıq olan hədislər, Qur`an ayələri və başqa doğru hədislərlə uyğun gəlmir. Məqsəd budur ki, müsəlmanlar arasında mə`ruf olan və Müaviyyə üçün ləkə sayılan bu hədisin mə`nası, öz həqiqi mə`nasından yayınsın və Müaviyyə üçün nifrinin əvəzinə, Allaha yaxınlaşmaq üçün vasitə, günahlarının kəffarəsi və onun cinayətləri üçün isə mükafat .hazırlasın

İbn Həcər Məkki "Təthirul-cinan" adlı öz kitabını Müaviyyənin fəzilətləri barədə . ٢ yə`ni "Allah onun qarnını doyuzdurmasın" hədisinin " لا أشبع الله بطنه " .yazmışdır :yozumunda bir çox cavablar qeyd edərək, belə deyir

Bu lə`nəti həzrət Peyğəmbərimiz (s) bilmədən söyləmişdir. Bundan əlavə, Müslim də" bu mə`naya işarə etmişdir ki; əslində Müaviyyə bu lə`nətə heç də layiq deyildi. Çünki o öz səhihində bu hədisi "Lə`nət və söyüşə layiq olmayan şəxsi Peyğəmbərin söyməsi ."və lə`nətləməsi"(٢) adlı bir bölümdə gətirmişdir

Şəmsud-din Zəhəbi "təzkiratul hifaz" adlı öz kitabında "Səhih" sahibi olan Nəsainin .٣ tərcümeyi halında nəql edir ki, ona dedilər: "Müaviyyənin fəzilətlərini niyə nəql Allah" لا أشبع الله بطنه etmirsən?" O cavabında dedi: "Müaviyyənin hansı fəziləini söyləyim "?sənin qarnını doyuzdurmasın" hədisinimi

Zəhəbi sonra belə deyir: "Nəsainin Müaviyyəni pisləyərək söylədiyi bu hədis, mənim əqidəmə görə nəinki Müaviyyəni ləkələyir əksinə onun fəzilətlərindən biri kimi sayılır. !Çünki həzrət Peyğəmbər (s) özü belə buyurmuşdur ki; "Ey mənim Allahım

---

Səhihi-Müslim", ٨-ci cild; "Kitabul-birri vəs-silə", "Mən lə`ənəhun-nəbiyyu və" . [١] -١ ;ləysə huvə əhlən lizalik" bölümü; hədis: ٢٥٩٩

Təthirul-cinan", "Səvaiqul muhriqə"-nin haşiyəsində, ٥٩-cu səhfəsində çap" . [٢] -٢ .olmuşdur

Mənim hər kimə olan lə`nət və qarğışımı onlar üçün günahlarının kəffarəsi, paklanması və rəhmət vasitəsi qərar ver”.(۱)

۴. İbn Həcər Məkki əhli-sünnənin mö`təbər kitablarından müxtəlif sənədlərlə bir çox rəvayət nəql etmişdir. Həzrət Peyğəmbərin (s) “Həkəmə və onun oğlu Mərvana” olan lə`nət və qarğışlarını da bu kitabda söyləyərək, belə deyir: “Bu iki nəfərə qarşı olan Peyğəmbərin (səllallahu əleyhi və alihi vəs əlləm) lə`nət və qarğışı, onlara heç bir zərər yetirmir. Çünki Peyğəmbərimiz (s) lə`nət və qarğışını başqa bir sözləri ilə əvəz edərək düzəltmiş və belə buyurmuşdur:“Məhəmməd başqaları kimi bir bəşərdir. Hər kəsi lə`nətləsə və qarğış etsə ona rəhmət, paklıq və günahlarının kəffarəsinə vasitə olacaqdır!”(۲)

Müəllif: İbn Həcərin bu sözləri nübuvvət məqamını kiçiltmiş və risalət sahibini adi bir şəxs kimi qələmə verir. İbn Həcər öz təəssüb doğuran əməlləri və iki nəfər Əməvinin himayət etməsilə günaha mürtəkib olmuşdur. Hansı ki, bu məsələ Qur`an ayəsi ilə uzlaşmır.

{وَمَا يَنطِقُ عَنِ الْهَوَى * إِنْ هُوَ إِلَّا وَحْيٌ يُوحَى}

_ O, KEFI ISTəYəNI (HAVADAN) DANIşMIR. BU, ANCAQ (ALLAH DəRGAHıNDAN) NAZIL OLAN BIR VəHYDIR. _(۳)

Bəli, Peyğəmbər (s) də bir bəşərdir. Lakin elə bir bəşərdir ki, ona vəhy nazil olur.

{قُلْ إِنَّمَا أَنَا بَشَرٌ مِّثْلُكُمْ يُوحَى إِلَيَّ}

_ (YA RəSULUM!) DE: "MəN Də ANCAQ SIZIN KIMI BIR INSANAM. MəNə VəHY OLUNUR"._(۴)

Bəs belə olduqda, yə`ni vəhy məzmununda ona kimisə lə`nətləmək əmri verilərsə, Belə İlahi əmr əsasında lə`nətləyəcəkdir.

۱- [۱]. “Təzkiratul-hifaz”, ۲-ci cild; səh: ۶۹۹, “Ət-təbəqətul-a`şir” (Hindistan çapı).

۲- [۲]. “Əs-səvaiqul muhriqə”, səh. ۱۰۸.

۳- [۳]. “Nəcm” surəsi, ۳-cü və ۴-cü ayələr;

۴- [۴]. “Fussilət” surəsi ayə: ۶.

halda, əgər hər kəs Peyğəmbərin (s) lə`nətinə və qarğışına tutulsa heç bir müdafiəçi bu kimi şəxslərin halına fayda verə bilməz!

Həzərt Peyğəmbərin (s) ağacları bir–biri ilə tozlandırılmasından çəkindirməsi

Dastanın əsli:

Səhihi-Müslimdə və Sunəni-İbn Macədə belə bir məzmunda üç hədis nəql olunmuşdur:

عَـنْ عـايشه، و عن ثـابت بنِ أَنَس أَنَّ النَّبِیّ | مَرَّ بقـوم يَلقَحـون، فَقَـالَ: لَـوْ لَمْ تَفْعَلُـوا لصُّلْـحَ، قَـالَ: فَخَرَجَ شـيصاً فَمَرَّ بِهِمْ، فَقَـالَ: مَالِنَخلِكُم، قَالُوا: قُلْت: كَذا و كذَا، قَال: أَنْتُمْ أَعْلَمُ بِأُمُورِ دُنيَاكُمْ.

Həzrət Peyğəmbər (s) bir dəstənin xurma ağaclarını tozlandırdığını gördü. Peyğəmbər (s) bu işin səbəbini soruşdu. Onlar cavab verdilər: "Bu xurma ağaclarının üzərində apardığımız tozlanma işidir. Həzrət Peyğəmbər (s) buyurdu: Bu işi tərk etsəniz yaxşıdır. Onlar da Peyğəmbərin (s) əmri ilə bu işdən əl çəkdilər.

Nəticədə, həmin il xurma ağacları məhsul vermədi. Məsələni Peyğəmbərə (s) çatdırdılar. Həzrət (s) buyurdu: Sizə xurma ağaclarını tozlandırarkən söylədiyim söz öz şəxsi fikrim idi. Belə işlərdə məni cəzalandırmayın. Ancaq əgər Allah tərəfindən bir əmr gətirsəm onu yerinə yetirin. Çünki mən Allahıma heç vaxt yalan bağlamıram.(١)

İkinci hədisdə belə gəlmişdir: Həzrət Peyğəmbər(s) buyurdu: Mən bəşərdən artıq bir şey deyiləm. Əgər sizə din barədə əmr versəm, ona əməl edin. Laki, öz nəzərimi söyləsəm mən də sizin

---

١- [١] . "Səhihi-Müslim" ٧-ci cild; "Kitabul-fəzail", "Vucudu imtisali ma qaləhu şər`ən dunə ma zəkərəhu min mə`ayişin-nası əla səbilir-rə`y" bölümü, hədis: ٢٣٦١-٢٣٦٣; "Sünəni-İbn Macə", ٢-ci cild, "Təlqihun-nəxl" bölümü.

.(kimi bir bəşərəm (buna əməl etməkdə məcbur deyilsiniz

Üçüncü hədisdə isə belə gəlmişdir: Həzrət Peyğəmbər (s) buyurdu: Siz dünya işlərini və .yaşayış tərzinizi məndən daha yaxşı bilirsiniz

Dastanın uydurulma əlamətləri

Bu dastanın uydurma və qondarma olması o qədər aydındır ki, onun əhatəsində hər növ araşdırma və mübahisə aparmağa ehtiyac duyulmur. Çünki bu hədislərdən birinin mətnində belə qeyd olunmuşdur ki, bu hadisə Mədinədə baş vermişdir. Ömrünün əlli ilindən artıq Ərəbistan mühitində və hər il xurma ağaclarını tozlandırılmasında əməyi olan camaatla işi-gücü olan bir Peyğəmbərin Mədinəyə girərkən bu məsələdən heç xəbərdar olmaması və yaxud unutması necə mümkündür? Tozlanmanın xurma ağaclarına nə qədər əhəmiyyətli və tə`sirli olmasını bilməməsi necə mümkündür ki, bu işi görməkdən çəkindirsin? İş əksinə olduqda və nəticə vermədikdə isə, peşman olduğunu bildirmiş, camaatı dünya və mə`işət işlərində özündən daha çox agah !?olduqlarını söyləmiş olsun

Hər halda hədisin uydurulmasından məqsəd budur ki, əgər bir gün qüdrət sahibləri həzrət Peyğəmbərin (s) əmrinin xilafına hökm vermək istəsələr və o həzrətin əmrlərinə asi çıxsalar özlərinə bəra`ət qazandırsınlar. Bu üzdən dəlil və sübut üçün belə desinlər ki; Peyğəmbər (s) xurmaların tozlandırılması dastanında səhv etdiyinə ."e`tiraf etmiş və buyurmuşdur ki: "Siz mə`işət işlərinizi məndən daha yaxşı bilirsiniz

Əlbəttə, diqqət olunmalıdır ki, sonralar bu məsələnin elmi izahı üçün ona "ictihad" adı verərək belə dedilər: "Əgər həzrət Peyğəmbərin (s) bir yerdə hökm verdiyini görsək və bu hökm Qur`anda olmasa mə`lum olacaq ki, onun vəhylə heç bir əlaqəsi yoxdur. ."Deməli,, Peyğəmbərin (s) öz ictihadı və nəzəridir

səh:۳۴۰

Açıq aydındır ki, elmi bir məsələlərdə bir müctəhidin başqa bir müctəhidlə olan fikir .ayrılığının heç bir eybi yoxdur

.İndi isə əhli-sünnə alimlərinin bu mövzuda olan nəzərlərinə işarə edirik

!? Görəsən həzrət Peyğəmbər (s) ictihad edirdimi

Amədi deyir: “Bu bəhs alimlər arasında ixtilaflı bir bəhsdir. Yə`ni, görəsən Qur`anın bir başa açıq hökmü olmasaydı Peyğəmbər (s) öz rə`yi və ictihadı üzündən itaət ”?edərdimi

O, öz sualının cavabında belə deyir: “Əhməd-İbn Hənbəl, Qazi Əbu Yusif, İmam Şafei və bir çox başqa şafei məzhəbinin alimləri, o cümlədən Qazi Əbdul-Cəbbar, Əbu Hüseyn Bəsri bu əqidədədirlər ki, Həzrət Peyğəmbər (s) ayə olmayan yerdə öz ictihadı ”.üzündən itaət edirdi

Sonra belə deyir: “Bizim əqidəmiz də elə budur.Çünki bu mövzu həm ağıl baxımından (mümkündür, həm də o həzrətin barəsində belə ictihadın olduğu nəql olunmuşdur.”(١

Neçə səhfə sonra isə belə deyir: “Həzrət Peyğəmbərin (s) ictihad etməsinə əqidəsi olanların nəzəri müxtəlifdir. Bu mə`nada ki, görəsən onun ictihadı səhv və xətalı ?olmuşdur, yoxsa yox

Bir çoxları Peyğəmbərin (s) ictihadında səhvin olmadığını söyləyirlər. Lakin bizim səhabələrimizin əksəriyyəti o cümlədən Hənbəlilər, Əxbarilər(٢) və hədisə tabe olanlar, Cubbayi və Mö`təzilələrin bir çoxunun əqidəsi budur ki, həzrət Peyğəmbərin ((s) ictihadında səhv və xəta olmuşdur”.(٣

Doktor Musa Təvana “Əl-ictihadu və məda hacətuna iləyhi

səh:٣۴١

Əl-əhkamu fi usulil-əhkam”, ۴-cü cild, səh. ١٣۴, “Əlməs`ələtul-ula: Həl kanən-“ . [١] -١ ”...Nəbiyyu (s) mutə`əb-bidən bil-ictihadi fima la nəssu fih

(Əxbarilər: Yalnız hədisi höccət bilib ona əməl edənlər.(Mütərcim . [٢] -٢

.Həmin mənbə, səh. ۲۹۰ . [۳] -۳

fi hazəl-əsr"(۱) adlı öz kitabında yazır: "İslamda ictihad məsələsi həzrət Peyğəmbərimizin (s) özündən başladı. O həzrət (s) risalətə aid olmayan məsələlərdə ictihad edib öz nəzər və rə`yini bildirərdi". Bu vaxt mövzunu sübut etmək üçün "xurma ağaclarının tozlanması" dastanını zikr etmişdir.

Şeyx Əbduh deyir: "Bizim Peyğəmbərimiz (s) və başqa Peyğəmbərlər vəhy almadıqda özləri ictihad edib, fətva vermişlər. Bu ictihad da xəta və səhvdən amanda qalmamışlar. Müsəlmanlar arasında Peyğəmbərlər barədə hamının qə`bul etdiyi nəzər budur ki, Peyğəmbərlərə aid olan işlər vəhyin təbliğ olunması və ona əməl edilməsidir. Bu nəzəriyyəni, "Xurma ağaclarının tozlanması" haqqında olan Təlhənin nəql etdiyi hədis təsdiq edir".(۲)

Kəlam elmləri üzrə təhqiqatçı və alim "Quşçi" Ömərin mut`ədən çəkindirməsi və həzrət Peyğəmbərlə (s) müxalifətçiliyini belə açıqlayır:

"Bu mövzuya belə də cavab verilib ki, Ömərin müxalifətçiliyinə heç cür irad tutub və onu tənqid etmək olmaz. Çünki bir müctəhidə ictihadi məsələlərdə müxalif olması yeni bir şey deyildir".(۳)

Nəhayət "Qazil-qozat" da "Muğni" kitabında belə deyir: "Həzrət Peyğəmbər (s) dünya işlərində özü ictihad edərək əmr verirdi. Peyğəmbərlərin əmrlərinin hamısını vəhyə əsasən söyəndiyini demək olmaz. Belə ki, şəri`ət və əhkam məsələlərində bizim əqidəmiz də belədir". Sonra əlavə edir ki;

۱- [۱] . Yə`ni "Əsrimizdə ictihada nə qədər ehtiyac duyulur". Doktor Musa Təvana Əfqanistan ustadlarından və əhli-sünnə alimlərindən biridir. Bu kitabı ictihadın əhəmiyyəti barəsində yazmışdır. Doktorluq ünvanında yazılan bu kitab, Camei-Əzhər Universitetində yazılmış və bu Universitet tərəfindən yüksək dəyərlə qə`bul olunmuş, altı yüz iyirmi altı səhfədə çap edilmişdir.

۲- [۲] . "Bəra`ət surəsinin təfsiri) ; "Əl-mənar", ۱۰ – cu cild, səh. ۴۶۵-۴۶۶).

۳- [۳] . Quşçinin "Şərhi-təcrid" kitabının İmamət fəsli.

Peyğəmbər (s) vəfat etdikdən sonra başqa şəxslər onun nəzəriyyələri ilə müxalif ola“ bilərlər. Hərçənd o həzrətin (s) həyatı dövründə olan ictihadı və şəxsi nəzərləri .”başqalarının nəzərlərindən daha fərqli və üstündür

Sonra belə söyləyir: “Ömərin Üsamənin qoşunundan kənara çəkilməsi də belə ictihadın nəticəsi idi. Çünki o, belə müəyyən etmişdir ki, o şəraitdə məzhəbi baxımdan (orduya qatılmaması, orduya qatılmasından daha əhəmiyyətli və üstündür”.(١)

Müəllif: Biz kitabımızın əvvəlki səhifələrində “Görəsən Peyğəmbər (s) ictihad edirdimi” adlı bir fəsldə bu mövzunu açıqlamışdıq. O cümlədən Qur`ani-Kərimin bir çox ayələri ilə Peyğəmbərin ictihad etmədiyini sübut etmişdik. Həmçinin bu mövzuda bizimlə həmfikir olan əhli-sünnə təfsirçilərindən və hədisçilərindən bə`zilərinin nəzərlərini də qeyd etmişdik. Qur`ana söykənərək vəhyin başqa növünün yə`ni, Qur`an olmayan vəhyin olduğunu da sübut etmişdik. Buna görə də, əgər həzrət Peyğəmbər (s) Qur`anda ayə şəklində mövcud olmayan hər hansı bir əmri verirdisə, bunun vəhy olmadığına dəlil deyildir. Bəlkə, belə yerdə Qur`andan sayılmayan vəhyin olması da .mümkündür

Buna görə də, “Xurma ağaclarının tozlaması” dastanı kökündən düzgün və doğru olmadığı kimi əhli-sünnə alimlərinin bir çoxunun fikri də yə`ni həzrət Peyğəmbərin (s) müqəddəs məqamına ictihad nisbətinin verilməsi, hətta bu ictihadda səhvin və xətanın .olması və s.. əsassız və batildir

Bu əqidədən bəhrələnərək, “Xurma ağaclarının tozlandırılması” və bu kimi başqa dastanlardan istifadə edib dəlil gətirməyin heç bir elmi dəyəri yoxdur. Qur`ani-Kərimdə bir hökmün olmaması, o hökmün barəsində İlahi bir əmrin və ya vəhyin .olmadığına dəlalət etmir

---

.Nəhcül-bəlağənin şərhi”, İbn Əbil-Hədid; ١٨-ci cild, səh. ١٧۶“ .[١]-١

Amma o ki, qaldı Fazil “Quşçi”-nin ictihad məsələsini ikinci xəlifəyə üzürlü saymasına və onun barəsində söylədiklərinə, təhqiqatçı və dindarlıq baxımından qə`bul olunmazdır. Çünki bir halda ki, həzrət Peyğəmbərin (s) buyurduqları eynilə lövhi-məhfuzda yazılanlardır, {إِنْ هُـوَ إِلَّا وَحْيٌ يُـوحَى* عَلَّمَـهُ شَدِيـدُ الْقُـوَى} – BU, ANCAQ (ALLAH DəRGAHıNDAN) NAZIL OLAN BIR VəHYDIR. ONU (MəHəMMəD əLEYHISSəLAMA) çOX QüVVəTLI OLAN (CəBRAIL) öYRəTDI. –(١)- ümmətindən bir nəfərlə o həzrəti (s) bərabər və müqayisə edən kimdir? Ayədə buyurulan məqam və rütbə hara, ictihad məsələsi hara?!

Amma o ki, qaldı ictihad məsələsində ixtilafın düzgün olduğunu söyləyənlərə, bu o vaxt ola bilər ki, müctəhid başqa bir müctəhidin və ictihad da başqa bir ictihadın qarşısında olsun. Daha Peyğəmbərin (s) aşkar və müqəddəs kəlamının və ya İlahi vəhyin və qanunun qarşısında kimsə ictihad edərək, öz şəxsi nəzərini bildirməsin.

Həzrət Peyğəmbər (s) və müsəlmanlara əziyyət vermək

Keçən bölümlərdə söylədiyimiz uydurma və yalan hədislər kimi bu hədis də, əhli-sünnə məzhəbinin “Səhiheyn” və başqa mö`təbər kitablarında mətni və müxtəlif sənədləri ilə zikr olunan hədislərdən biridir. Belə ki, hədisdə həzrət Peyğəmbərimizin (s) ömrünün axır vaxtlarında bir dəstənin günahsız yerə cəzalandırmışdır. Nə qədər də gülməli və ağılsız bir cazalandırmadır.

Sözün qısası, “Lədud” hədisi adı ilə tanınan bu dastan belədir:

“Həzrət Peyğəmbər (s) ömrünün axır günlərində və xəstəliyinin ən ağır və hüşsuzluq vaxtlarında həyat yoldaşları və ya səhabələrinin məsləhəti ilə sinəsi tutulan xəstələrə verilən

---

١-[١]. “Nəcm” surəsi ۴-cü və ۵-ci ayələr;

acı dərmanı ona içirtdilər. Elə ki, həzrət (s) özünə gəldi, ağzına dərman töküldüyünü hiss etdi. And içdi ki, Abbasdan başqa məclisdə olanların hamısının ağzına gərək bu acı dərmandan tökülsün. Peyğəmbərin (s) tə`kidi və andına əsasən Abbasdan başqa təkbətək məclisdə olanların hamısının ağzına dərman töküldü. Elə ki, növbə həzrətin (s) həyat yoldaşlarına yetişdi, olardan biri – Məymunə - israrla oruc tutduğunu bildirdi. Lakin onun sözlərini eşitmədilər. Çünki Peyğəmbər (s) bu əmrə tə`kid etmiş və and ".içmişdir

Lədud" hədisi "Səhihi-Buxari"-də və "Səhihi-Müslim"-də xülasə şəklində Aişədən belə" :nəql olunmuşdur

قَالَتْ عَايشه: لَدَدْنَاهُ فِى مَرضِه، فَجَعَلَ يُشِيرُ إِلَيْنَا أَنْ لاتلدُونِى، فَقُلْنَا: كرَاهِيَةَ المريض للدَواء، فَلَمَّا أَفَاقَ قَالَ: أَلَمْ أَنهَكُم أَنْ تِلْدُونِى ؟ قُلْنَا: كراهيةَ المَرِيضِ لِلدَوَاء، فَقَالَ: لا يَبْقَى أَحَدٌ فِى البَيتِ إلاّ لُدَّ و أَنَا أنظرُ إلاّالعبَّاسَ فَإِنَّهُ لَم يَشْهَدْكُم.

Həzrət Peyğəmbər (s) xəstə olan dövrdə onun ağzına "Lədud" dərmanı tökdük. O" həzrət (s) işarə ilə içirtməyin deyirdi. Biz dedik ki, o həzrət xəstədir və dərmanı içməkdən imtina edir. Lakin elə ki, özünə gəld,i belə buyurdu: Məgər mən sizi dərmanı içirtməkdən çəkindirmədimmi ? Biz dedik: Biz elə fikirləşdik ki, siz xəstəliyinizə görə dərmanı içmək istəmirsiniz. Bu vaxt o həzrət (s) belə buyurdu: Bu evdə Abbasdan (başqa gözlərimin önündə hər kəsin ağzına həmin dərmandan tökülsün."(١

Lədud" hədisinin araşdırılması"

Lədud" dastanına aid olan bütün hədisləri mətn və sənəd"

səh:٣۴۵

Səhihi-Buxari", ٧-ci cild, "Kitabut-tibb", "Əl-lədud" bölümü; və ٩-cu cild," . [١] -١ "Kitabud-diyat", "İza əsabə qovmu min rəculin həl yuaqibu minhum kulluhum" bölümü; ;və "Səhihi-Müslim" ٧-ci cild, "Kitabus-səlam", "Kərahiyyətut-tədavi bil-lədud" bölümü

baxımından hətta onun hər tərəfli təfsilatı ilə araşdırılması kitabımıza uyğun deyildir. Təkcə bu hədislərin mətnini və sənədlərini araşdıraraq, lazım olan nöqtələri qeyd .etməklə kifayət edirik

Birinci mərhələdə bu hədislərin mətnində hamını özünə cəlb edən və onun uydurma olmasını təsdiq edən onların bir-birinə ziddiyyətli olan mə`nalarıdır. Biz bu ziddiyyətli :olan yerlərdən üçünü sizə açıqlayırıq

:Həzrət Peyğəmbər (s) bu hadisəni nə vaxt bildi .١

Bir çox rəvayətlərdə aydın şəkildə Peyğəmbər (s) özünə gəldikdən sonra öz ağzında dərmanın acılığını, onun tə`sirini və ağzına tökülməsini hiss etdiyini və bildiyini :...açıqlayır

وَ أفَاق فَعَرَفَ أَنَّهُ قَدْ لَدَّ و وجد أثرَ اللدُود (١)

Lakin bu bəhsin əvvəlində “Səhiheyn”-dən zikr etdiyimiz həmin hədisin məzmununa əsasən Peyğəmbərimiz Rəsuli-Əkrəm (s) dərman ağzına töküldüyü zaman onu hiss ?...edib və işarə ilə hamını bu işdən çəkindirmişdir

فَجَعَلَ يُشِيرُ إِلَيْنَا أَنْ لاتلدُونِى... فَلَمَّا أَفَاقَ قَالَ: أَلَمْ أَنهَكُم أَنْ تِلْدُونِى ؟

:Abbasın bu hadisədə mövqeyi .٢

Termizinin və əhli-sünnə alimlərinin nəql etdikləri hədisin məzmununa görə həzrət :Peyğəmbərin (s) əmisi oğlu Abbas, Peyğəmbərin ağzına dərman tökənlərdən biri idi

لَدَّهُ العَبَّسُ و أَصْحَابُه(٢)

Lakin İbn Əbil Hədidin Aişədən nəql etdiyi hədisə görə “Abbasın məclisdə olmasına baxmayaraq o, Peyğəmbərə dərman

---

;”Musnədi-Əhməd”, ۶-cı cild, səh. ١١٨, “Aişənin hədisi“ . [١] -١

Sunəni-Termizi”, ٣-cü cild, “Əbvabut-tələb”, ١٢-ci bölüm, “Ma ca`ə fil-hicab”,“ . [٢] -٢

.۲۳۵-ci xütbə, səh. ۲۶۵, Faiq, Zəməxşəri, ۳-cü cild, səh. ۳۱۳

فَجَمَعُوا عَلَى أن يَلدوه فقَالَ العَبَّاس لآدُه... (١) :verməkdən çəkindirirdi

Hansı ki, "Səhiheyn"-də nəql olan hədisin məzmununa görə Abbas hadisənin özündə olmayıb əksinə iş-işdən keçəndən sonra məclisə daxil olduğu bildirilir: إلاّ العَبَّاسَ فَإِنَّهُ لَمْ يَشْهَدْكُمْ

٣. Kimlər cəzalanmağa məhkum olundu:

Əhməd İbn Hənbəlin nəqlinə görə, səhabələrin bir dəstəsi o məclisdə idilər. Növbə Peyğəmbərin (s) xanımlarına çatana qədər onların hər birinə dərman verildi.(٢)

Lakin yenə Əhməd İbn Hənbəlin nəql etdiyi başqa bir hədisinin məzmununa əsasən, həzrət Peyğəmbərin (s) həyat yoldaşlarından başqa orada heç kəsin iştirak etmədiyi və dərmanın da təkcə onlara verildiyi bildirilir:

عَن العَبَّاس أَنَّهُ دَخَلَ عَلَى رَسُولِ الله | و عِندَهُ أَزْوَاجُه فَاستَتَرْنَ مِنْهُ إلاَّ ميمونه فَقَالَ: لا يَبْقى فِى البَيْتِ أَحَدٌ شَهِدَ اللُدّ إلاّ لُدَّ. (٣)

Mətnində müşahidə etdiyiniz ziddiyyət təşkil edən bu üç hədisdən əlavə "Lədud" hədisi barədə bir sual açıqlanmışdır. O da budur ki, görəsən belə bir hökmün verilməsi və Peyğəmbərin (s) belə bir cəza əmrini verməsi o həzrətin nübuvvət məqamına və şəxsiyyətinə uyğundurmu?!

Çünki bu hədislərin hamısının zahiri məzmunu və onların bə`zisinin açıq mə`nası budur ki, məclis iştirakçılarının hamısının dərman içməsi barədə Peyğəmbərin (s) andı və ciddi əmri, onların əməllərinin qarşısında baş vermiş olan cəza metodudur:

لقسم رَسُولُ الله | عقُوبَه لَهُمْ بِمَا صَنَعُوا(٤)

Bir halda ki;

səh:٣٤٧

١- [١]. "İbn Əbil Hədid", "Nəhcul-bəlağənin şərhi", ١٣-cü cild, ٢٣٥-ci xütbə, səh. ٣١;
٢- [٢]. "Musnədi-Əhməd", ۶-cı cild, Aişənin hədisi, səh. ١١٨.
٣- [٣]. "Musnədi-Əhməd", ١-ci cild, "Abbas ibn Əbdul-Müttəlibin hədisi", səh. ٢٠٩.
٤- [٤]. İbn Əbil Hədid, "Nəhcul-bəlağənin şərhi", ١٣-cü cild, səh. ٣٢, ٢٣٥-ci xütbə.

Qeyd olunduğu kimi hədislərin mühüm hissələrinin məzmununa əsasən, Peyğəmbər .١ (s) özünə gəldikdən sonra dərmanın ağzına töküldüyünü bildi. Buna görə də əmrin yerinə yetirilməməsinə və günahkarların cəzalandırılmasına səbəb olan o həzrət (s) .tərəfindən heç bir nəhy olunmamışdı

Əgər biz qə`bul etsək ki, o həzrət (s) əvvəlcədən diqqətli olub və işarə ilə nəhy .٢ etmişsə və dərmanı içməkdən imtina etmişsə yenə də belə, müxalifətçiliyi günah və cəzalanma ilə məhkum etmək olmaz. Çünki bir xəstənin dərman içməkdən imtina .etməsi təbii bir haldır

Fərz edək ki, məclisdə iştirak edənlərin hamısı əsl mövzu ilə razı idilər. Ancaq onların .٣ hamısının bu əməlin həyata keçməsində birbaşa rolu olmadığı da bizə məlumdur. Buna görə nə üçün məclisdəkilərin hamısını cəzalandırılmalıdır? Nə üçün bir nəfər və yaxud iki nəfərin gördüyü işə görə onların hamısı cəzalandırılsın?! Hansı ki, Quran baxımından heç bir kəs başqasının günahı qarşısında məsuliyyət daşımır.(١) Bu hökm buna bənzəmirmi ki, qisas məqamında bir şəxsin qətlinə razı olduğuna görə bir qrupu eyni .qatil şəxs kimi qətlə məhkum etsinlər

Görəsən hansı aqil bir şəxs belə şəxsləri təşəkkür etmək əvəzinə cəzalandırar? Hansı ki, onlar bu əməli öz dini və insanlıq borcu bilib və ölümdən qurtarmaq məqsədi ilə yerinə yetirmişlər. Heç bir aqil şəxs bu işi görməz o ki, qaldı Peyğəmbərin özünə. İbn Həcərin nəlqinə görə Peyğəmbər (s) bütün ömrü boyu hətta öz şəxsi hüquqlarına qarşı heç kəsdən hətta düşmənlərindən belə intiqam almadı və onları cəzalandırmadı. (Əksinə onları bağışlayıb mehriban davranmışdır.(٢

Heç bir günahkar başqasının günahını daşımaz.” “ən-Nəhl”“ { وَلاَ تَزِرُ وَازِرَةٌ وِزْرَ أُخْرَى } . [١] -١ ;surəsi, ١٦٤-cü ayə

;(Fəthul-bari”, ٨-ci cild. Səh. ١١٢; (“Kitabul-məğazi”, “Mərəzun-Nəbiy” bölümü“ . [٢] -٢

Bu hədisin qondarılmasının səbəbləri

Keçən iki fəsildə müxtəlif yerlərdə Peyğəmbərin (s) lənətini qazanmış Usamənin ordusuna qoşulmayan şəxslər kimi(١) şəxslərə bəraət qazandırmaq üçün qondarılan hədisin şahidi olduq. Bu hədisin məzmununa əsasən Peyğəmbərin (s) bütün bu lənətlərini onlar üçün uca məqam və (duadan, mədhdən və sənadan daha artıq) iftixar .hesab etdilər

Xurma ağacının tozlanması barədə dastan düzəltdilər. Bu dastanda Peyğəmbər (s) bir hökm verib sonra öz hökmünün səhv olduğunu başa düşüb, verdiyi təklifdən peşman olduğunu bildirmişdir. Bu dastanın da qondarılmasının səbəbi Peyğəmbərin (s) də ictihad etməsini və ictihadında səhvə yol verməsini sübuta yetirmək olmuşdur. Nəhayətdə o həzrətdən (s) sonra onun sünnəsi və qoyduğu qanunları ilə olunan müxalifətçiliyə bəraət qazandırılıb deyilsin ki, bir müctəhidin başqa bir müctəhidlə olan !ixtilafının heç bir eybi yoxdur

O ki qaldı müqəddəs risalət məqamına yaraşmayan və İslam düşmənlərinin əlinə bəhanə verən "Lədud" hədisinə, aşağıda göstərilən iki səbəb bu hədisin qondarma :olmasına daha çox ehtimal verir

Abbasilər nəslinə fəzilət düzəltmək: Abbasilər nəsli hətta öz hakimiyyətləri . ١ dövründən də qabaq iqtidara gəlmək məqsədi ilə belə bir siyasət həyata keçirirdilər ki, Peyğəmbərin (s) məqamına yaraşmasa da belə öz nəsilləri (Abbasdan tutmuş nəslin digər üzvləri) barədə cürbə-cür fəzilətlər qoşsunlar. "Lədud" dastanında da bu məqsəd gözə çarpmaqdadır. Belə ki, bu hədisdə nəslin banisinə bir fəzilət və iftixar verilmişdir. Çünki bütün "Lədud" hədislərinin ziddiyyətli məzmunlarla nəql olunmasına baxmayaraq, bu nöqtə hamısında eynidir. Bu

---

١- [١] . "لَعَنَ اللهُ مَنْ تَخَلَّفَ مِنْ جَيْشِ أُسَامَه" .

hadisədə yalnız Abbasın cəzalandırılmaması məsələsinə çox təkid olunmuşdur. Yəni Peyğəmbərin (s) bütün səhabələri və köməkçiləri, həmçinin o həzrətin xanimları hətta həmin günü oruc tutan “Məymunə”, bəlkə də Peyğəmbərin övladları və Əhli-beyti də bu cəza ilə cəzalandırılmışlar. Çünki əgər bu dastan doğru olsaydı şübhəsiz ki, Əmirəl-möminin, Həzrət Zəhra və onların övladları da məclisdə iştirak edərdilər. Halbuki, onların barəsində bu hədislərdə heç bir söhbət açılmamışdır. Dastanın zahiri mənası bunu göstərir ki, onlar da məcbur şəkildə Peyğəmbərin (s) əmrilə acı dərmandan dadmışlar! Bəli, səhabələrin və Peyğəmbərin (s) nəslinin arasında təkcə İbn Abbas !cəzalandırılmadı

İkinci xəlifənin nəzəriyyəsinin təsdiqi: İkinci ehtimal budur ki, hədis uyduranlar bu .٢ əfsanəni uydurmaqla Peyğəmbərin (s) ömrünün axır anlarında ikinci xəlifənin ona cümləsini sübut etmək istəmələridir. Onlar demək [(١)]"إِنَّهُ لَيَهْجُرُ" "söylədiyi “O sayıqlayır istəyirlər ki, ömrünün axır günlərində Peyğəmbərin (s) davranışı xəlifənin bu nəzərini təsdiq edir. Çünki o həzrət həmin günlərdə elə əmrlər verirdi ki, onun düşüncə qüvvəsini əldən verməsinə dəlalət edirdi. Buna görə də bəzən “Məclisdəkilərin hamısının ağzına bu acı dərmandan tökün mən də tamaşa edim!” bəzən də “Kazğız və .qələm gətirin! Bir məsələni yazım ki, məndən sonra yolunuzu azmayasınız!” söyləyirdi

Nəqib Əbu Cəfər və “Lədud” hədisi

Əhli-sünnə alimlərindən və təhqiqatçılarından təkcə bir nəfər “Lədud” hədisinin qondarma və uydurma olduğunu bildirmişdir. O, İbn Əbil Hədidin ustadı Nəqib Əbu .Cəfərdir

---

Bu mövzunu kitabın ikinci hissəsində “Yazılmayan vəsiyyətnamə” mövzusunda . [١] -١ .mütaliə edə bilərsiniz

İbn Əbil Hədidin bu qondarma hədisi qəbul edib və ustadının nəzəriyyəsinə müxalif olmasına baxmayaraq, belə söyləyir: “Mən, ustadım Əbu Cəfər Nəqibin məclisində “Lədud” hədisini açıqladım və onun nəzərini bilmək istədim ki, görəsən həmin hadisədə Əli ibn Əbi Talibin (ə) də ağzına dərman tökdülərmi?! O cavabımda belə dedi: “Məazəllah! Əgər belə bir şey baş versəydi Aişə bunu söyləyərdi. Çünki o, həmişə Əlidə (ə) zəif bir nöqtəni tapıb onu ifşa etmək istəyirdi.” Əbu Cəfər sonra belə dedi: “Bəli, şübhəsiz ki o həssas anlarda və saatlarda nəinki Əli (ə) və Həzrət Zəhra (səlamullahi ələyha) hətta Həsən və Hüseyn (ələyhumas-səlam) da Peyğəmbərin (s) çarpayısının kənarında idilər. Görəsən ehtimal etmək olarmı ki, həmin acı dərmandan onların da ağzına tökülmüşdür ya yox? Allah and olsun ki, belə bir şey olmamışdır.” İbn Əbil Hədid deyir: “Əbu Cəfər sözlərini bu cümlələrlə tamamladı: “Lədud” dastanı kökündən batil, yalan və qondarmadır. Bu yalanı sırf yüksək vəzifə sahiblərinə yaxın olmaq üçün (qondarmışdır.”(١)

Şiə alimlərinin nəzərində bu hədisin yalan və qondarma olmasında heç bir şübhə yoxdur. Çünki bu hədis Peyğəmbərin məqamı ilə təzaddadır. Amma əhli-sünnə alimləri nəinki bu hədisi nəql etməyiblər hətta bu mövzuda olan şübhələri cavabsız qoyub və .bu məsələyə etinasız yanaşıblar

?Görəsən həzrət Peyğəmbər (s) Qur`an ayələrini unudurdumu

عَنْ هِشَام، عَنْ أَبِيهِ، عَن عَايشه قَالَ: سَمِعَ النَّبِيُّ | رَجُلًا يَقْرَأُ فِى المَسْجِدِ، فَقَالَ: رَحِمَهُ اللهِ أَذْكَرَنِى كَذَا وَ كَذَا آيَةً أَسْقَطْتهَا فِى سُورَهِ كَذَا وَ كَذَا.

Hişam atasından və o da Aişədən nəql edərək söyləyir ki, Rəsuli-Əkrəm (s) məsciddə Qur`an oxuyan bir kişinin səsini eşitdi

---

;Nəhcül-bəlağənin şərhi”, İbn Əbil Hədid, ١٣-cü cild, səh. ٣٢; ٢٣٥-ci xütbə“ . [١]-١

və belə buyurdu: “Allah ona rəhm etsin ki, filan və filan surədə unutduğum filan və filan ayələri mənim yadıma saldı.”

(Bu hədis “Səhihi-Buxari” və “Səhihi-Müslimdə” gəlmişdir.(١)

Səhiheyndə zikr olunan başqa bir hədisdə yenə də belə gəlmişdir: أَسْقَطْتُهَا ((əsqat-tuha) kəlməsi işlədilmişdir. Yə`ni, filan ayəni (أَنْسَـيْتُهَا ənsəytuha) kəlməsinin yerinə unutmuşdum, O mənim yadıma saldı.(٢)

Bu hədis də, açıq-aşkar yalandan ibarət olan başqa bir hədisdir ki, nə ağıl onu qə`bul edir, nə də Qur`an və sünnə onu təsdiqləyir. Çünki;

Nübuvvət məqamında olub ona nazil olan ayələri unudan, din və məzhəbinin əbədi mö`cüzəsini qoruya bilməyən bir kəsin risalətinin təbliğində e`timad olunmadığı və belə şəxsin risalət məqamına layiq olmayacağı aydın bir məsələdir. Bundan başa düşə bilərik ki, bəhs olunan hədisin məzmunu, nübuvvət məqamına ən böyük tə`nə və irad sayılır. Elə bu mövzu əhəmiyyətli olduğu üçün Qur`ani-Məciddə unutqanlığı Peyğəmbərdən (s) inkar edən bir çox ayələr buyurulmuşdur. O cümlədən:

{سَنُقْرِؤُكَ فَلَا تَنسَى}

_ (YA PEYĞəMBəR!) BIZ SəNə (QUR ANı) OXUDACAĞıQ Və SəN (ONU) UNUTMAYACAQSAN._(٣)

Bəli, bu ayə də bəhs olunan hədisi məhkum etmiş və Peyğəmbərin (s) Qur`ani-Kərimin ayələrini hifz etdiyinə zəmanət vermişdir.

١- [١] . “Səhihi-Buxari”, ٨-ci cild, “Kitabud-də`vat”, “Qovlullah (وصل عليهم) bölümü və həmin ünvan, ٣-cü cild, “Kitabuş-şəhadət”, “Şəhadətul-ə`ma və nikahuh” bölümü, ٥٩٧٦-cı hədis.

٢- [٢] . “Səhihi-Müslim”, ٢-ci cild, “Kitabu fəzailul-Qur`an”, “Əl-əmru bi-tə`əh-hudil Qur`ani və kərahətu qəvli nəsitu” bölümü, və “Səhihi-Buxari”, ٦-cı cild, “Kitabu fəzailul-Qur`an”, “Nisyanul-Qur`an” bölümü, ٧٨٨-ci və ٧٩٠-cı hədislər.

;Ə`la” surəsi, ۶–cı ayə“ . [۳] –۳

Bundan əlavə Müslimin özü həmin hədisi öz kitabının"Qur`anla əhd və ünsiyyət bağlamaq əmri və mən flan ayəni unutmuşam deməkdən çəkinmək" adlı bölümündə zikr etmişdir. Həmin bölümdə Peyğəmbərdən (s) bu məzmunda belə bir hədis nəql edir ki, o həzrət (s) buyurur: "Müsəlmanlardan birinin "Mən filan surəni və filan ayəni .״unutmuşam" söyləməsi nə qədər də pisdir

Görəsən Peyğəmbərin (s) özü bu sifətlə tanındığı halda başqalarını məzəmmət etməsi !? necə təsəvvür olunur

Bir şeyi xoşlamadığı və onu pis bilib ondan çəkindirdiyi bir halda özü mübtəla ola ?! Çox ! təəccüblü və gülməlidir

!?Görəsən Rəsuli–Əkrəm (s) ayaq üstə bövl edirdimi

:Rəva olmayan başqa bir böhtan

عَنْ أَبِی وَائِل عَنْ حذیقه قَالَ: أَتَی النَّبِیَّ | سباطه قوم خَلفَ حائطِ فَبَالَ قَائِماً.

Buxari" və "Müslim" Huzeyfədən nəql edirlər ki: "Həzrət Peyğəmbər (s) divarın" arxasında olan "zibilliyə" gəldi və ayaq üstə duraraq bövl etdi. Sonra isə su istədi və ".dəstəmaz aldı

...عَنْ أَبِی وَائِل قَال: كَانَ أَبُو مُوسی الأَشْعَرِی يُشَدِّد فِی الْبولِ وَ يَقُول: إنَّ بَنِی إسْرَائِيلِ كَانَ إذَا أَصَابَ ثَوبَ أَحَدِهُم قَرَّضَه، فَقَالَ حذيفه: لَوَدِدْتُ أَنَّ صَاحِبَكُمْ لاَ يُشَدِّدُ هَذَا الشديدَ، فَلَقَدْ رَأَيْتَنِی أَنَا وَ رَسُول الله نتماشا، فَأَتَی سباطهُ خَلَف حَائطِ، فَقَامَ كَمَا يَقُومُ أَحَدكُمْ، فَبَالَ فَانْتَبَذْتْ مِنْهُ، فَاشَارَ إِلَیَّ، فَجِئْتُ، فَقُمْتُ عَقَبَهُ حَتَّی فَرَغَ.

Yenə də Əbu Vaildən belə nəql edirlər ki; "Əbu Musa Əş`əri sidiyin nəcis olmasında çox israrlı idi və deyirdi: Bəni İsrail arasında təharət qanunu belədir ki, əgər paltarlarına sidik dəyərsə yumaq əvəzinə o yeri qayçı ilə kəsirdilər. Huzeyfə dedi: Ey kaş Əbu Musa bu israrından çəkinsəydi. Çünki mən Peyğəmbərlə birgə gəzirdim. Bu zaman o həzrət (s) divarın arxasında olan zibilliyə yaxınlaşdı və sizlərdən biri kimi dayanaraq, ayaq üstə bövl etdi. Özüm ondan aralı durdum. O həzrətin (s) işi bitdi. Onun

(yanına qayıtdım və işini qurtarınca arxasında dayandım."(١)

;Buxari və Müslimin nəql etdikləri bu iki hədisdən belə başa düşülür ki

Allahın elçisi həzrət Məhəmməd (s)- məqamından uzaq, cahiliyyət dövrünün mühitində tərbiyələnmiş və hələ İslam dininin gözəl tə`lim və qanunları ilə tanış olmayan, etimad olunmaz şəxslərdən biri idi. Bəli, həzrət Peyğəmbər (s) də belə şəxslər kimi zibilliyə və divarların arxasına ayaq üstə durub bövl (sidik) edirdi: قَامَ رَسُولُ الله كَمَـا يَقُومُ أَحَـدِكُمْ فَبَـال قَائِماً
!!Çox təəccüblüdür

Bu nisbətin qəbahətli olmasına e`tiraf

Biz, həzrət Peyğəmbərə (s) aid edilən bu nisbət barədə dəqiq elmi bir nəzər vermirik .və nəzafətin fitri bir məsələ olmasını da söyləmirik

Biz, bövldən təmiz olmağın o qədər aydın olduğunu və Əbu Musa Əş`ərinin bunu dərk .etdiyini və bu mövzuda çox diqqətli olduğunu da demirik

Həmçinin Əbu Musa Əş`ərinin nəqlinə əsasən bu məsələnin o qədər də mühüm olub ta Bəni İsrail arasında sidiyin bulaşdırdığı yeri qayçı ilə kəsib atdıqlarını da söyləmək .istəmirik

Əksinə, biz bütün bu kimi məsələləri bir tərəfə qoyuruq. Çünki bu məsələni "əhli-sünnə" alimləri və "səhiheyn" kitablarının şərhçiləri çox qəbahətli olduğunu e`tiraf etmişlər. Onlar bu nisbətin nübuvvət məqamına xəyanət olduğunu və bu məsələnin .pisliyini anlamışlar

---

Səhihi Buxari", ١-ci cild, "Kitabul-vuzui", "Əlbövlu ində sahibih" bölümü və" . [١] -١ "Əlbövlu qaimən və qaidən" bölümü, "Əlbövlu ində səbatəti qovmin" bölümü, hədis: ٢٢٢; "Səhihi-Buxari", ٣-cü cild, "Əlvuqufu vəl bövlu ində sibatəti qovmin" bölümü, ٢٢٣-cü .hədis və ١-ci cild, "Əlməshu ələl-xəffin" bölümü ٢٣٣٩-cu hədis

Buna baxmayaraq hədisi nübuvvət məqamına aid edilməsin deyə quru və nifrətamiz müxtəlif sözlərlə mə`nasını cürbəcür yerlərə yozmuş və günahdan daha pis olan .üzürlərini söyləmişlər

Günahdan daha pis üzrlər

Səhihi-Müslim" və "Səhihi-Buxari" kitablarının şərh yazarları zikr olunmuş bu iki hədis" :barədə belə söyləyirlər

Cahiliyyət dövründə ərəb yarımadasında yaşayan camaat ayaq üstə bövl etməyin .۱ bel ağrısına xeyirli və dərman olmasını bildirirdilər. Mümkündür ki, həzrət Peyğəmbər (s) də bel ağrısına mübtəla olmuşdur və cahil ərəb camaatı kimi şəfa tapması üçün !ayaq üstə bövl etmişdir

Bəlkə də Peyğəmbərin yanına (ayağının bud hissəsinə) hər hansı bir yara və yaxud .۲ !çiban var imiş. Bu da onun oturaraq bövl etməsinə mane olurmuş

Ayaq üstə bövl edən şəxs bağırsaq yolundan nəcisin xaric olmasından amandadır. .۳ Lakin oturaq vəziyyətində belə iş amanda olmur. Buna görə də "Ömər" də belə demişdir ki: Ayaq üstə bövl etmək ğaitin məxrəcini (bağırsaqdan nəcisin xaric olan yerini) qoruyur. Həzrət Peyğəmbər (s) də bu səbəbdən ayaq üstə bövl etməsi ehtimal .olunur

Bəlkə də Peyğəmbər (s) yumağa yer tapmamış və çarəsizlik üzündən ayaq üstə bövl .۴ .etmişdir

Həzrət Peyğəmbərimiz (s) ayaq üstə bövl etməyin icazəli olduğunu əməli surətdə .۵ .camaata göstərmişdir. Hərdən özü də ayaq üstə bövl edirdi

Söylədiklərimizi "Səhihi-Buxari"-nin şərh yazarlarından biri olan İbn Həcər, öz "Fəthul-bari"(۱) adlı kitabında və həmçinin

---

.Fəthul-bari", ۱-ci cild, səh. ۳۴۳" . [۱]-۱

Qəstəlani “İrşadus-sari”(١) adlı kitabında nəql etmişlər. O cümlədən, bu nəzərləri Nəvəvi “Səhihi-Müslim” kitabının şərhində Xitabi, Beyhəqi və əhli-sunnə məzhəbinin :alimlərindən nəql etmişdir

...إنَّمَا بَالَ قَائِماً لأَنَّهَا حَالَهٌ يُؤْمِنُ مَعَهَا خروجُ الرِّيحِ بِصُوتٍ وَفَعَلَ ذَلِكَ لِكُوْنِهِ قَرِيباً مِنَ الدِّيَارِ

:Başqa bir yerdə isə belə zikr olunmuşdur

أَنَّ العَرَبَ كَانَتْ تَسْتَشْفِى لِوَجعِ الصَلْبِ بِالبُوْلِ قَائِماً(٢)

Cəlaləddin Siyuti də həmin sözləri “Sünəni-Nəsai”-nin şərhində əlavələri ilə birgə zikr (etmişdir.(٣

?Bu yozumlar nəyə lazımdır

Söylənilən yozumlar gülməli və günahdanda pis sayılan üzürlərdir. Peyğəmbər (s) barədə söylənilən bu sözlərin özü o həzrətə nisbət verilən əməldən daha çirkin və .əxlaqsızlıqdır

Bizim nəzərimizcə bu kimi hədisi qə`bul edib, sonra onu belə quru və nifrətamiz :fikirlərlə yazmağın iki səbəbi vardır

;Nübuvvət məqamını tanımamaq və dərk etməmək .١

Buxari və Müslimün kitablarında zikr olunan hər hansı bir hədisin səhihliyinbə və .٢ ;doğruluğuna əqidənin olması

Hafiz “Cəlaləddin Siyuti”-nin nəqlinə görə, sünni məzhəbinin tərəfdarları bu iki hədisə əsaslanaraq ayaq üstə bövl etməyi İslam qanunlarının bir hissəsi kimi qə`bul etmişlər və bu gözəl sünnənin tərk olunmamasına və “Səhiheyn” kitablarına qarşı e`tiraz yaranmasın deyə ardıcıl olaraq bütün dövrlərdə azı ildə bir dəfə ayaq üstə bövl edirdilər!.. Nüasir alimlərdən biri də mənə İraq

---

.İrşadus-sari”, ١-ci cild, səh.٢٧٧; və ٤-cü cild, səh. ٢٦٥“ . [١] -١

.Nəvəvinin şərhi", ٣-cٚ cild, səh. ١۶۵" . [٢] -٢

.Sünəni-Nəsainin şərhi", ١-ci cild, səh. ٢٠" . [٣] -٣

dindarlarından sünnilərdən bə`zisinin qondarma olan belə hədislərə əqidə bəsləyib .ona əməl etməsini və bu günlərdə də ayaq üstə bövl etdiklərini söyləmişdir

!Belə hadisələr bizim üçün qə`bul olunmazdır

Əgər onlar nübuvvət məqamını tanısaydılar və bütün bu sadəlövhlüyü, təəssübü və "Səhiheyn" kitabları barədə yersiz olan xoş baxışlarını kənara qoyardılar. Azacıq bir diqqətlə bu mövzunun nəinki nübuvvət məqamına uyğun gəlmədiyini hətta bu məsələni İslam qanunları ilə tanış olan adi bir şəxsə və ya özünü şəxsiyyət sayan bir .kəsə nisbət vermək doğru və düzgün olmadığını dərk edərdilər

Biz, həzrət Peyğəmbər (s) barədə olan belə hədisləri qə`bul etmir, "Buxari" və "Müslimin" söylədiklərini doğru saymırıq. Əksinə, biz həzrət Peyğəmbər (s) barədə o :hədisi qə`bul edirik ki, deyir

"Elə ki, həzrət Peyğəmbər (s) bövl etmək istəyirdi, camaatdan aralanırdı"

كُنْتُ مَعَ النَّبِيِّ فِى سَفَرٍ فَاَتى النَّبِىّ حاجَته فَأَبْعَدَ فِى الْمَذْهَبِ(١)

:Biz o hədisləri qə`bul edirik ki, belə deyir

إِنَّهُ كانَ يَرْتَاد لِبَوْلِهِ مَكَاناً كَمَا يَرْتَادُ مَنزلاً

"Allahın elçisi, əgər səhrada bövl etməyə məcbur olurdusa kənara sıçramasın deyə, özünə münasib bir yer seçirdi."(٢)

Biz, Rəsuli-Əkrəmin (s) qanun və sünnəsində bu hədisi qə`bul edirik. Elə ki, o həzrət (s) :iki qəbrin kənarından keçirdi belə buyurdu

"Bu iki qəbrin sahibləri hər ikisi əzabdadırlar." Sonra belə əlavə etdi: "Hər ikisinin əzabı .nəzərinizdə tutduğunuz böyük günahın nəticəsi deyildir

---

١-[١]. "Sunəni-Nəsai", ١-ci cild, səh.٢١; və "Sunəni-Termizi", ١-ci cild, səh. ١٧;

٢-[٢]. "Sunəni-Termizi", ١-ci cild, səh. ١٧;

بَلَى أَمَّا أَحَدُ هُمَا فَكَانَ يَسْعَى بِالنَّمِيمَهِ أَحَدُ هُمَا فَكَانَ لاَ يَسْتَنْزِهُ مِنْ بَوْلِهِ

Onlardan biri bövl edərkən onun kənara sıçramasının qarşısını almaması və digərinin isə xəbərçi olduğu üçündür.”(١)

“Görəsən ayaq üstə bövl edən kəs onun sıçrayışından və ona bulaşmasından amanda qalarmı? Belə olduqda bu hədis ona aid deyilmi?”

Bu kimi hədislərin düzəlməsinin səbəbi nədir?

Biz belə düşünürük ki, həzrət Peyğəmbərimizin (s) səhabələrindən bəziləri İslamdan qabaqkı adətlərini yəni, ayaq üstə bövl etmələrini kamil şəkildə tərk edə bilməmişlər.

Onlara e`tiraz olunmamasına görə, bu işin pisliyini azaltmaq və belə şəxslərin hörməti qorunsun deyə, şəxsiyyətlərinin alçalmamasına xatir məcbur olmuşlar ki, bu kimi hədisləri Allahın elçisi barədə uydurmağa başlasınlar. Bununla da İslam Peyğəmbərini bu kimi şəxslərlə bərabər və şərik sayıb, onu bu əməllə müttəhim etsinlər.

Bu nəzəriyyəni əhli-sünnənin mənbələrində bu barədə zikr olunmuş müxtəlif məsələlərdə və rəvayətlərin mənalarından başa düşmək olar.

İbn Macə öz “Sunən” adlı kitabında nəql edir ki;

وَ كَانَ مِنْ شَأنِ الْعَرَبِ الْبَوْل قَائِماً

“Cahiliyyət dövründə ərəblərin adət və ənənəsi ayaq üstə bövl etmək idi”(٢)

Malik, “Əl-müvəttə`” adlı kitabında Abdullah ibn Dinardan belə nəql edir ki;

١- [١]. “Səhihi-Buxari”, ٢-ci cild, “Kitabul-cənayiz”, “Əzabul qəbri minəl-fitnəti vəl-bövl” bölümü; “Səhihi-Müslim”, ١-ci cild, “Əd-dəlilu əla nəcasətil-bəvli” bölümü, “Sünəni-Əbi Davud”, ١-ci cild, səh. ٥; və “Sunəni-Nəsai”, ١-ci cild, səh. ٢٨;

٢- [٢]. “Sunəni-İbn Macə”, ١-ci cild, səh. ١١٢;

رَأَيْتُ عَبْدُالله بْنِ عُمَرَ يَبُولُ قَائِماً

(Mən, Abdullah ibn Öməri (Ömərin oğlu Abdullahı) ayaq üstə bövl edərkən gördüm.”(١)“

;Yenə də Ömər barədə iki rəvayətin belə nəql olunduğunu görürük ki

.١

عَنْ ابْنِ عُمَر، عَنْ عُمَرٍ، قَالَ: رَآنِی النَّبِیّ | وَانَا أَبُولُ قَائِماً، فَقَالَ: یَا عُمَر لاَ تَبُلْ قَائِماً، فَمَا بُلْتُ قَائِماً بَعْد.

Ömərin oğlu Abdullah atasından nəql edir ki; “Mən ayaq üstə bövl edirdim. Allahın elçisi məni bu halda gördü və buyurdu: Ey Ömər! Ayaq üstə bövl etmə. Ondan sonra mən (ayaq üstə bövl etmədim.”(٢)

.٢

عَنْ أَبِی عُمَر، قَالَ عُمَرُ: مَا بُلْتُ قَائِماً مُذْ أَسْلَمْتُ

Abdullah ibn Ömər atasından nəql etmişdir ki, o belə deyir: Mən İslam dinini qə`bul“ (etdiyim gündən ayaq üstə bövl etməmişəm.”(٣)

Bir tərəfdənsə səhabələr arasında təkcə Ömərin ayaq üstə bövl etmək barədə əqli baxımdan icazəli olmasını, onun səbəbini və fəlsəfəsinin söylədiyini də görürük ki, belə :deyir

الْبَوْلُ قَائِماً أَحْفَظُ لِلدُّبُرِ

(Yəni, “Ayaq üstə bövl etmək, ğaitin məxrəcini çox yaxşı qoruyur.”(٤)

Hər halda Abdullah ibn Ömərin barəsində Abdullah ibn Dinarın bu sözləri və mövzunu Ömərə deyil, həzrət

---

;Muvəttə`i-Malik”, ١-ci cild, “Ma caə fil-bəvli qaimən” bölümü“ . [١] -١
;Sunəni-Termizi”, ١-ci cild, səh. ١٠; “Sunəni-İbn Macə”, ١-ci cild, səh. ١١٢“. [٢] -٢
;Sunəni-Termizi”, ١-ci cild, səh. ١٠“. [٣] -٣

Fəthul-bari", ١-ci cild, səh. ٣۴٣; "İrşadus-sari", ١-ci cild, səh. ١٧٧; və ۴-cü cild, səh.". [۴] -۴
.٢۶۵; "Nəvəvinin şərhi", səh. ١۶۵

Peyğəmbərə (s) isbatlanması, o cümlədən Ömərdən bu barədə əqli dəlilin söylənilməsi bizi bir daha bu nəticəyə gətirib çıxardır ki, söylənilən məsələlər arasında bağlılıqlar .vardır

Bunu da bildirməliyik ki, bu mövzu həzrət Peyğəmbərimizin (s) dövründən sonra, Aişənin yaşayışı zaman ortaya çıxmış, müsbət və mənfi dedi-qodular həmin dövrdə meydana gəlmişdir. Aişə də Peyğəmbərə (s) tərəf çıxmış, bu pis və şiddətli töhmət və :iftiralara qarşı çıxaraq belə söyləmişdir

مَنْ حَدَّثَكُمْ أَنَّ النَّبِيَّ | كَانَ يَبُولُ قَائِماً فَلاَ تُصَدِّقُوهُ مَا كَانَ يَبُولُ إِلاَّ قَاعِداً

Hər kəs söyləsə Peyğəmbər ayaq üstə bövl edib, onu təsdiq etməyin. Çünki" (Peyğəmbər həmişə oturaq vəziyyətdə bövl edərdi."(١

Termizi bu hədisin nəqlindən sonra deyir: "Bu hədis sənəd baxımından ən doğru və ən ".yaxşı hədisdir ki, bu bölümdə nəql olunmuşdur

(İbn Həcər də bu hədisin doğru və səhih olduğunu təsdiqləmişdir.(٢

Sehrun–nəbiy" dastanı"

Həqiqəti doğru olmayan məsələlərdən biri də "Səhiheyndə" həzrət Peyğəmbər (s) barədə təkcə Aişədən nəql olunan və bu günlərdə İslam düşmənlərinin əlində ən böyük zərbəsi sayılan tutarlı dəlillərindən biri "Sehrun-nəbiy" dastanıdır. Bu dastanın :xülasəsi belədir

Zərriq" sülaləsindən Lubeyd ibn Əsəm adlı yəhudi bir kişi həzrət Peyğəmbəri (s)" sehrləmişdir. O həzrət elə sehrlənmişdir ki, onun tə`siri nəticəsində həzrət Peyğəmbər (s) xəyal edirdi ki, bir iş görür. Hansı ki, o işi yerinə yetirmirdi. Bə`zən də xəyal

---

Sunəni-Termizi", ١-ci cild, səh. ١٠; "Sunəni-İbn Macə", ١-ci cild, səh. ١١٢; "Sünəni-". [١] -١ ;Nəsai", ١-ci cild, səh. ٢٦

;Fəthul-bari", ١-ci cild, səh.٣٤١". [٢] -٢

edirdi ki, öz həyat yoldaşlarının biri ilə yatmışdır. Bir halda ki, belə bir şey baş vermәmişdir.

İndi isə bu hədislərdən birinin mətnini və tərcüməsini nümunə üçün burada zikr edirik:

عَنْ عَايشه، قَالَتْ: سُحِرَ رَسُولُ الله | حَتّی أَنَّهُ يُخَيِّلُ إِلَيْهِ أَنَّهُ يَفْعَلُ الشَّیء وَ مَا فَعَلَهُ حَتَّی إِذَا كَانَ ذَات يَوْم وَهُوَ عِنْدِی دَعَا الله وَ دَعَاهُ، ثُمَّ قَالَ: أَشعرتَ يَا عَايشه إِنَّ الله قَدْ أَفتَانِی فِيمَا اسَتفتيتُهُ فِيهِ، قُلْتُ: وَ مَا ذَاكَ يَا رَسُولَ الله ؟ قَالَ: جَاءَنِی رَجُلانِ فَجَلَسَ أَحَدُ هُمَا عِنْدَ رَأْسِی وَالآخرُ عِنْدَ رجلِی، ثُمَّ قَالَ أَحَدُ هُمَا لِصَاحِبِهِ: مَا وَجَعَ الرجلِ، قَالَ: مَطْبُوبٌ، قَالَ: وَ منْ طِبُّه ؟ قَالَ لبيد بنِ الأعصمُ اليَهُودِیّ مِنْ بَنِی زريق، قَالَ فِيمَاذَا ؟ قَالَ: فِی مُشطِ وَ مَشَاطِهِ، وَ جفّ طلعه ذكر قَالَ: فَأَيْنَ هُوَ ؟ قَالَ: فِی بِئرٍ ذِی أَروَان، قَالَ: فَذَهَبَ النَّبی فِی أَنَاسِ مِنْ أَصحَابِهِ أَلِی الْبِئرِ، فَنَظَرَ أَلَيْهَا وَ عَلَيْهَا نَخْلٌ، ثُمَّ رَجَعَ أَلِی عَيشه، فَقَالَ: وَالله لَكَأَنَّ مَاءَهَا نقَاعَهُالْحَنَاء، وَلكَأَنَّ نَخْلَهَا رؤسُ الشَّيَاطِينِ، قُلْتُ: يَا رَسُولَ الله أَفَأَخْرَجْتَهُ ؟ قَالَ: لاَ أَمَّا أَنَا فَقَد عَافَنِی الله وَ شضفَانِی، وَ خَشِيتُ أَنْ أَثُورَ عَلَی النَّاسِ مِنْهُ شَرّاً وَأَمَرَ بِهَا فَدُفِنَتْ.

Aişə deyir: Həzrət Peyğəmbər (s) sehr olunmuş və bu sehr də ona öz tə`sirini qoymuşdur. Belə ki, o xəyalən bir işi görür, bir halda ki, o işi yerinə yetirmirdi. Bu o vaxta qədər baş verdi ki, günlərin birində mənim yanımda dua edirdi. O öz duasına davam etdi. Sonra dedi: Aişə! Allahın mənim istəklərimə müsbət cavab verdiyini başa düşdünmü? Dedim: Necə? Ya Rəsuləllah! Buyurdu:- İki kişi mənim yanıma gəldilər. Biri başımın yuxarı tərəfində, digəri isə aşağı tərəfimdə oturdu. Sonra biri o birisinə dedi: Bu kişinin nə xəstəliyi vardır? Cavab verdi: Sehrlənmişdir! Dedi: Onu kim sehirləmişdir? Cavab verdi: Zərriq sülaləsindən olan Lubeyd ibn Ə`səm adlı bir Yəhudi.

Soruşdu:-Nə ilə? Dedi: Daraq, baş tükü və təzə çiçək açmış cavan ağacın qabığı ilə. Dedi:-Haradadır? Cavab verdi:-Zi-Ərvan quyusunda.

Sonra həzrət Peyğəmbər (s) bir neçə səhabələri ilə birgə həmin quyuya tərəf getdilər. Quyuya baxdıqda orada bir xurma ağacının olduğunu gördü. Bu vaxt Aişənin yanına qayıtdı və dedi: And olsun Allaha ki, o quyunun suyunun rəngi (zəhərin tə`sirindən) dəyişmiş və xına rəngdə suya dönmüşdür. Oranın xurma ağacları şeytanların başları .kimidir

Aişə deyir ki; Mən soruşdum: Ya Rəsuləllah sehri çıxarda bildin? Buyurdu: "Yox! Çünki Allah mənə şəfa verdi. Qorxdum ki, onu çıxardığım zaman camaat arasında ixtilafa (səbəb olsun." O an əmr etdi ki, o quyunu doldursunlar.(١)

.Bu hədis "Səhihi-Buxari" və "Səhihi-Müslimin" kitablarında Aişədən nəql olunmuşdur

;Səhihi-Buxaridə" Aişədən yenə bu mövzuda başqa hədis nəql olunmuşdur ki"

Siyuti “Əd-durrul mənsur” adlı kitabında Sunəni-İbn Davuddan, Tirmizidən, Nəsaidən, Beyhəqidən nəql edir ki, Ümmi Sələmə belə deyir ki; “Mən və Məymunə Allah Rəsulunun (s) yanında idik. Bu vaxt Abdullah ibn Ummi Məktum daxil oldu. Həzrət Peyğəmbər (s) bizə belə buyurdu: “Özünüzü ondan örtün!” Ümmi Sələmə deyir: “Mən Peyğəmbərdən soruşdum: Ya Rəsuləllah (s) o ki kordur, bizi görmür. Həzrət Peyğəmbər (s) buyurdu: “Sizin də gözləriniz görmür? O sizi görmürsə siz də onu (görmürsünüzmü?!”(١

.٢

...إِيَّاكُمْ وَالدُّخُولِ عَلَى النِّسَاءِ فَقَالَ رَجُلٌ مِنَ الأَنْصَرِ: يَا رَسُول اللهِ أَرَأَيْت الحمو؟ فَقَالَ: «الحمو الموت».

Səhihi-Buxaridə və Səhihi-Müslimdə belə qeyd olunmuşdur: “Həzrət Peyğəmbər (s) buyurdu: Camaat! Naməhrəm qadınlar olan yerdən daxil olmayın. Ənsardan bir kişi soruşdu: Ey Peyğəmbər (s)! Əgər öz qardaşlarımızın xanımları olsa necə? Peyğəmbər (s) cavab verdi: Qardaşlarınızın xanımları həlak olmaq vasitələridirlər və onları (görməklə günaha düşməyiniz də mümkündür.”(٢

Əziz oxucumuz bu mövzunun əhəmiyyət kəsb etdiyinə və naməhrəmin üzünə baxmağın haram olmasını bildirən hədislərin söylədiyi - Peyğəmbər (s) qadın toy məclislərində iştirak edirdi, təzə gəlinlər toy məclisində ona xidmət edirdi və ya cavan xanımı rəqs edən naməhrəm kişilərə tamaşa etməyə vadar edirdi və s.. dəyər .qiymətinə diqqət edərək, düşünə bilər

Ümmü Sələmə, Məymənə kimi əldən düşmüş və qocalmış xanımlarına gözləri kor kişiyə baxmasın deyə kor kişinin

---

١- [١] . “Əd-durrul mənsur”, ٥-ci cild, səh. ٤٢ (“Şüəra” surəsinin təfsiri).

٢- [٢] . “Səhihi-Buxari”, ٧-ci cild, “kitabun-nikah” ١١١-ci bölüm, “La yədxulunə rəculu biimrəətin”, hədis ٥٢٣٢;

yanında özlərini örtməsinə əmr etdiyi halda necə ola bilər ki, cavan xanımına rəqs !?edən kişilərə baxmasına icazə versin

Müsəlmanların naməhrəm qadınların hətta qardaş arvadı olsa belə onların arasına girməyi qadağan və haram olduğunu buyuran bir Peyğəmbər (s) necə ola bilər ki, özü qadınların toy məclisində və naməhrəm qadınların arasında əyləşsin?! Və yaxud təzə !?gəlinlərin ona və səhabələrinə xidmət etməsinə necə icazə verə bilər

Aişənin Peyğəmbər (s) yanında gəlinciklə oynaması

Əhli-sünnənin mötəbər kitablarında cism və cansız cism düzəldilməsi barədə çoxlu hədislər yazılmışdır. Bu hədislərin məzmunu, Peyğəmbərin (s) evində və hüzurunda Aişənin gəlinciklə oynaması hədisini inkar edir. Nümunə olaraq bir neçə hədisi nəql :etməklə kifayətlənirik

.١

«عَنْ ابْنِ عَبَّاسٍ عَنْ ابِی طَلْحه: «لَا تَدْخُلُ الملائِکَهُ بَیْتًا فِیهِ کَلْبُ وَ تَصَاوِیرُ».

Səhihi-Buxaridə və Səhihi-Müslimdə qeyd olunmuşdur ki: “Rəhmət mələkləri .”mücəssəmə və it olan evə gəlməzlər

.٢

«...عَنْ أَعْمَش، عَنْ مُسْلِمٍ، کُنَّا مَعَ مَسْرُوقٍ فِی دَارِ یَسَارِ بْنِ نمیر فَرَأی فِی صفّته فَقَالَ: سَمِعْتُ النَّبِی | یَقُولُ: «إِنَّ أَشَدَّ النَّاسِ عَذَابًا یَوْمَ الْقِیَامَهِ الْمُصَوِّرُون».

Səhihi-Buxaridə qeyd olunmuşdur ki, Əməş Müslimdən nəql edir ki; “Mən Məsruqla Yəsar ibn Numəyrin evində idik. Məsruqun gözü otağın taxçalarında olan bir neçə mücəssəməyə sataşdı. O belə dedi: Abdullah Allahın Rəsulundan nəql edir ki, qiyamət (günündə mücəssəmə düzəldənlərin əzabı başqa günahlardan çox ağır olacaqdır.”(١

səh:٣٩٣

Səhihi-Buxari”, ٧-ci cild, “Kitabul-libas”, “Əzabul-musəvvirin yəvməl-qiyamə”“ . [١] -١ .bölümü

.۳

«عَنْ عَايِشَهِ أَنَّهَا اِشْتَرَتْ نمرقةً فِيهَا تَصَاوِيرُ فَقَامَ النَّبِيُّ | بِالْبَابِ فَلَمْ يَدْخُلْ، فَقُلْتُ: أَتوبُ مِمَّا أَذْنَبْتُ، قَالَ: مَا هَذِهِ النمرقهُ؟ قُلْتُ: لِتَجْلِسَ عَلَيْهَا وَ تُوَسِّدَهَا. قَالَ: إِنَّ أَصْحَابَ هَذِهِ الصُوَرِ يُعَذِّبُونَ يَومَ الْقِيَامَهِ، يُقَالُ لَهُمْ: أَحْيُوا مَا خَلَقْتُمْ وَ أَنَّ الْمَلائِكَهَ لاَ تَدْخُلُ بَيْتًا فِيهِ الصُّورَهُ».

Yenə də Səhihi-Buxaridə və Səhihi-Müsülmdə Aişədən nəql olunmuşdur ki, “Mən şəkli olan balış və döşəkcə almışdım. Peyğəmbər (s) onları görən kimi qapının ağzında durdu və evə girmədi. Dedim ki, əgər bir günah iş görmüşəmsə tövbə edirəm. Həzrət Peyğəmbər (s) buyurdu: Bu balışlar nədir belə? Ərz etdim: Bunları sizin istirahətiniz .üçün istifadə etməyə görə almışam

Həzrət Peyğəmbər (s) buyurdu: “Şəkilləri çəkənlər qiyamət günündə əzaba düçar olacaqlar. Onlara düzəltdiyiniz şeyləri dirildin deyiləcək.” Bu vaxt Həzrət Peyğəmbər (s) (əlavə edərək “rəhmət mələkləri şəkil olan evə gəlməzlər” deyə buyurdu.”(۱)

səh:۳۹۴

Səhihi-Buxari”, ۳-cü cild, “Kitabul-buyu` ” “Ət-ticarətu fima yəkrəhu lubsihi lir-“ . [۱] -۱ ricali vəz-zər”; bölümü, ۷-ci cild, “Kitabul-libas”, “Kərihəl-quudi əlas-surəti” bölümü; ۱-ci cild ۷-ci cild, “Kitabul-libas, “La tədxulul-məlaikətu bəytən fihi surətun” bölümü; “Səhihi-Müslim”, ۶-cı cild, “Kitabul-libasi vəz-zinəti”, “la tədxulul-məlaikətu bəytən fihi ;kəlbu vəs-surətu” bölümü

?Bu hədislərin uydurulmasından məqsəd nədir .۷

İşarə

Bura qədər əhli-sünnə kitablarında nəql olunmuş İslam Peyğəmbərinin müqəddəsliyinə yaraşmayan nisbətlər barədə və sözü gedən hədislərin qarşısında .duran Quran ayələrinin və hədislərin bir hissəsini qeyd etdik

İndi isə bu hədislərin uydurulmasından məqsədin və rəva olmayan bu iftiraların səbəblərini kitabın tutumu qədəri araşdırıb və burada bu hədisəri düzəltməyə məcbur :olanların məqsədlərinin və səbəblərindən üç amilini sizə qeyd edirik

Hakimiyyətdə olanların əxlaqi pozğunluğu .۱

İşarə

Tarixi araşdırmalar bunu göstərir ki, Osmanın xilafəti dövründən İslam hökməti və xilafəti güclü hərc-mərc və əxlaqi pozğunluğa düçar oldu. Osmanın vilayətlərə təyin etdiyi vilayət başçıları və qohumları, sarayda olan əlaltıları heç də əxlaqi və məzhəbi əməllərlə tanış deyildilər. Əyyaşlıq və şərabxorluq, gecə məclisləri, qina və xanəndəlik çox geniş şəkildə yayılmışdı. Musiqi və qina, İslam dininin mərkəzi olan iki mühüm şəhərlərində - Məkkə və Mədinə - başqa şəhərlərə nisbətən çox yayılmışdı. Bu iki şəhərdən başqa yerlərə də yayılmışdır. Lakin İslam hökməti və xilafəti adına camaata başçılıq edən hökumət adamları camaatın işlərini öz əllərinə

alıb, Peyğəmbər (s) canişini və xəlifəsinin nümayəndəsi adı ilə idarə edirdilər. Eyş-işrət, xoşgüzaranlıq məclislərində iştirak etdiklərinə görə camaatın məzhəbi problemlərini və məsələlərini də öz aralarında həll edirdilər. Şərab məclisləri qurmalarına baxmayaraq, Cümə namazının imamlığını və müsəlman camaatın imamlığını da işğal edirdilər. Bu üzdən rəva olmayan məsələləri, iftiraları və yalanları Peyğəmbərin (s) özünə nisbət verir və onun nübuvvət məqamını aşağı salırdılar. Bu yolla öz əməllərinə və cinayətlərinə çıxış bir yol düzəldib, müsəlmanların fikirlərində elə bir peyğəmbər canlandırırdılar ki, bu peyğəmbərlə tanış olanlar irad və şübhə etmədən belə .canişinləri qəbul etsinlər

Əgər bir peyğəmbər öz evində mahnı oxumağa həvəsləndirirsə onun canişinlərinin gecə məclislərində iştirak edərək xanəndə qadınların səslərinə qulaq asmalarının nə !?iradı var

Əgər bir peyğəmbər qadın toy məclislərində iştirak edib xanəndə qızları oxuyaraq rəqs etməyə, göbək atmağa həvəsləndirirsə və ya öz cavan arvadını rəqs edən naməhrəm kişilərə baxmasına dəvət edirsə, yaxud da öz səhabələri ilə toy məclisində iştirak edirsə və ona bu məclisdə qulluq etməyi təzə gəlin öhdəsinə alırsa, belə halda hər növ əyyaşlığın və əxlaqi pozğunluğun yolu, əyyaşlıq və müsalmanlara rəhbərlik etmək istəyən kəslərin üzünə açılacaqdır. Bununla da onlara kiçik bir irad tutmaq yersiz olacaqdır. Bəli, bu hədəf və məqsədlər Həzrət Peyğəmbərimizin (s) müqəddəsliyinə və nübuvvətinə vurulan iftira və yalanların nisbət verilməsinə səbəb .olmuşdur

Xilafət sarayında əxlaqi pozğunluğun nümunələri

.

Tarixçilər və hədisçilər bacardıqları qədər Peyğəmbər (s) səhabələrinin zəif nöqtələrini məxfiləşdirmiş, onların nöqsan və eyiblərini örtməyə çalışmışlar. Lakin buna baxmayaraq yenə də bu pozğunluqlardan aşkar və cəlb edici nümunələri əldə etmək

olar. Burada söylədiklərimizi təsdiq etmək üçün tarix və hədis kitablarında Osman və Muaviyyənin xilafəti dövründəki vəziyyətlərdən xəbər verən bu növ nümunələrdən bir :neçəsini burada nəql edirik

Osmanın və Muaviyyənin xilafəti dövrlərində sayı ondan yuxarı olan xanəndə və İbn .١ Sihan, Tuveys, İbn Aişə, Zil-Əsbə, Saini Xasər və s.. kimi tanınmış musiqi bəstəkarları meydana gəlmişdir. Onları gərək saray bəstəkarları adlandıraq. Çünki bu bəstəkarlar (bəzən saray məmurları üçün və bəzən də xəlifənin özü üçün xüsusi vaxt ayırırdılar.(١)

Əbul-Fərəc İsfəhani tanınmış xanəndə olan İbn Sihanın tərcümeyi-halında belə .٢ :deyir

O, daim şərab içən, içki alkaqolçularından, Bəni Üməyyə və Əbu Süfyan övladları ilə həmçinin Osmanın övladları ilə xüsusi əlaqəsi olan kəslərdən biridir. Lakin .başqalarından daha çox Vəlidlə (Osmanın oğlanlarından biri) ünsiyyətdə idi

.Çünki İbn Sihan və Vəlid həmişə şərab məclislərində birgə iştirak edən iki dost idilər

Əbul-Fərəc yazır: "Vəlid ibn Osman, Vəlid ibn Ötbə ibn Əbi Süfyan və İbn Sihanla birgə şərab içirdilər. Vəlid ibn Osman həddindən artıq sərxoş və halsız oldu. Belə ki, qadınlar onun öldüyünü zənn edib, ağlamağa başladılar. Bu vaxt İbn Sihan onun başının üstünə gəldi. Vəziyyəti görcək qadınları məclisdən çıxartdı və Vəlidin başı tərəfdə əyləşdi. Əssəbuh ya Əba Əbdullah indi sübh" «الصبوح يا ابا عبْدالله» :Onun qulağına bu cümləni söylədi şərabının vaxtıdır. Ayağa qalx!" Vəlid bu cümləni Əbdur-Rəhman ibn Sihanın dilindən eşidən kimi yavaş-yavaş təbii halına qayıtdı və durub oturdu. İbn Sihan, bu

---

Mütaliə üçün bu oxuyanların tərcümeyi halına müraciət edin. "Əl-əğani", "Əbul- . [١] -١ ."Fərəc İsfəhaninin yazısı

:hadisə üçün öz məşhur şerlərini oxumağa başladı

بِأَبِی الوَلِیدُ و أُمِّ نَفْسِی کُلَّمَا

بَدَتِ النُّجُومُ وَ ذَرَّ قَرْنُ الشَّارِقِ(۱)

Əbu Fərəc Müaviyənin öz oğlu Yəzidin məclisində iştirak etdiyini və bu məclisdə .۳ Mədinənin məşhur xanəndəsi olan “Saibi Xasərin” də olduğunu nəql edir. Bu hadisənin axırında belə əlavə edir: “Müaviyə, oğlu Yəzidə təkidlə sifariş etdi ki, həmin şərabxor Saibi Xasərini həmişə ziyarət etsin və çoxlu hədiyyə verməyi də heç unutmasın. (Onunla oturub durmağı özünə qənimət hesab etsin.”(۲

İbni Əlkəlbi Müaviyə barədə geniş bir hadisəni nəql edərək belə buyurur: “O, . ۴ (Müaviyə) Mədinə şəhərinə olan səfərlərinin birində Saibi Xasərin xanəndəlik məclisində iştirak etmişdi. Tanınmış xanəndənin ürək ovsunlayan səsindən (nəşələndi.”(۳

.۵

«عَبْدُاللهِ بْنِ بریده قَالَ: دَخَلْتُ أَنَا وَ أَبِی إِلَی مُعَاوِیَه فَأَجْلَسْنَا عَلَی الفَرْشِ ثُمَّ أتیْنَا بالْطَّعَامِ فَأَكَلْنَا بِالشَرَابِ فَشَرِبَ مُعَاوِیَهُ ثُمَّ نَاوَلَ أَبِی فَقَالَ: مَا شَرِبْتُهُ مُنْذُ حَرَّمَهُ رَسُلُ اللهِ»

Əhməd ibn Hənbəli öz “Müsnəd” adlı kitabında Abdullah ibn Bureyddən nəql edir ki; “Mən atamla Müaviyənin məclisinə gəldik. Yemək-içmək süfrəsi açıldı. Müaviyə ilə birgə yemək yedik. Bu vaxt məclisə içki gətirdilər. Müaviyə özü içməsinə baxmayaraq mənim atama da təklif etdi. Atam dedi: Peyğəmbər şərabı haram etdiyi gündən bu (günə qədər mən dilimi ona vurmamışam.”(۴

Məsudi “Murucuz-zəhəb” kitabında deyir: “Yəzid ibn Müaviyənin xilafəti dövründə .۶ İslamın mərkəzi sayılan iki şəhərdə - Məkkə və Mədinədə - musiqi, saz və avaz çoxalmağa

---

.əl-Əğani”, ۲-ci cild, səh. ۲۰ və ۲۱۱“ . [۱] -۱

۲- [۲]. “əl-Əğani”, ۸-ci cild, səh. ۳۲۶;

۳- [۳]. Həmin mənbə, ۷-ci cild, səh. ۳۸۷;

۴- [۴]. “Bureydə Əsləminin hədisi” (Çüsnədi Əhməd”, ۵-ci cild, səh. ۳۴۷;).

başladı. Bu iki şəhərin camaatı arasında musiqi alətlərinin istifadəsi yayıldı və (şərabxorluq adi hala çevrildi."(۱)

Vəlid ibn Öqbə Osmanın anadan bir atadan ayrı olan ögey qardaşı və Kufəyə onun .۷ tərəfindən göndərilmiş valisi idi. Zina və şərabxorluqda məşhur adam idi. Bir gün məst halda məscidə gəldi və sübh namazını dörd rikət qıldı. Sonra üzünü namaz qılanlara çevirərək, dedi: Əgər istəyirsinizsə bundan da artıq qılaq. O, namazda musiqi ləhni ilə :bu aşiqanə şeri oxudu

عَلَقَ الْقَلْبُ الرُّبَابَا   بَعْدَ مَا شَابَتْ وَ شَابَا

".Mən və Rubab cavanlığımızı əldən verdikdən sonra ona ürəkdən aşiq oldum"

.Bu vaxt mehrabda qusdu. Bu hadisə Mədinəyə çatdırıldı

Əmirəl möminin Əli (ə) ona şərab içməyin cəzasını verdi (Ona yetmiş şəllaq vurdu). Elə ki, Səd ibn As onun yerinə Kufənin icra başçısı oldu əmr etdi ki, minbəri yusunlar. Sonra dedi: Vəlid alçaq və nəcis bir kişi idi. Nə qədər ki, minbər yuyulmayıb mən onun :üzərində oturmayacam « فَلَمَّا قدمَ سَعِيدُ الكُوفَه غَسَلَ المِنْبَرِ...»(۲)

Bəli, əgər xəlifənin oğlu şənlik və içki məclisində iştirak etmək istəyirsə, yaxud xəlifənin qardaşı və Mədinənin icra hakimi məst halda Kufənin came məscidinin imamlığını öhdəsinə götürərsə, əgər xəlifə olan bir kəs İslamın paytaxtı və Quran nazil olan yerdə, Peyğəmbər (s) məscidinin kənarında gecələri xanəndəlik məclislərində iştirak edirsə və xanəndələrin ürək ovsunlayan səslərindən nəşələnirsə, yaxud süfrə başında içki içib, qonaqlarına da içki təklif edirsə bunlar, ümumi

---

.(Murucuz-zəhəb" ۳-cü cild, səh. ۷۷; (Zikru ləməi min əxbari Yəzid və sirətuh" . [۱]-۱

Musnədi Əhməd", ۱-ci cild, səh. ۱۴۴; (Musnədi Əli ibn Əbi Talib (ə)); "İnsanul-" . [۲] -۲ əşraf", Bilazəri, ۵-ci cild, səh. ۳۳; (Vəlid ibn Öqbənin əmri); "Murucuz-zəhəb", ۲-ci cild, səh. ۳۳۶-۳۴۴, "Əl-əğani" ۴-cü cild, səh. ۳۶۰, (Zikru ma fil-xəbəril Vəlid ibn Öqbətə və .(nəsəbihi

fikirlərdə bu kimi əməlləri yavaş-yavaş qəbul etməyə hazırlıqdan və bu məsələlərin camaat arasında çox sadə qəbul olunmasından başqa bir şey deyildir. Bu hədəfə çatmaqda ən yaxşı yol, məhz bu yoldur ki, bəzən Peyğəmbərin (s) özünün də bu kimi .məsələlərdə şərik və öz payı olduğu kimi tanıtdırılsın

Həzrət Peyğəmbərə (s) şərab hədiyyəsi

Vurulan bu töhmətlər, rəva olmayan bu nisbətlər və hökumətin əməlləri və rəftarı barədə mutaliə edən yazıçı belə bir fikrə düşdü ki, dövrün hakimiyyətdə olan hakim təbəqələrində şərabxorluq və şərab məclisləri geniş yayılmışdırsa gərək rəva olmayan başqa nisbətlər kimi şərabxorluq nisbəti də Həzrət Peyğəmbərimizə (s) verilmiş olsun. Bu üzdən yazıçı, zaman çərçivəsində bacardığı qədər hədis kitablarının bir hissəsini araşdırdı və Əhməd ibn Hənbəlin “Musnəd”-ində bu barədə nəql olunan bir rəvayəti axtarıb tapdı. Məlum oldu ki, əziz İslam Peyğəmbərimiz (s) şərabxorluq töhmətindən də amanda qalmamışdır. Ancaq, bu hədisi düzəldənlər Qurani-Kərimdə şərabın haram olmasının açıq və aydın məsələlərdən biri olduğunu bilirdilər. Buna görə də "ömrünün axırlarında Peyğəmbər (s) şərab içirdi" deyilməsi doğru və düzgün deyildir. Bu üzdən Peyğəmbərin (s) şərab içməsini, şərabın haram olmazdan öncəki dövrlərinə aid ;olduğunu bildirmişlər. Bununla da, Nafedən belə rəvayət nəql etmişlər ki

»عَنْ نَافِعِ بْنِ كِيْسَانِ أَنَّ أَبَاهُ أَخْبَرَهُ أَنَّهُ كَانَ يَتَّجِرَ فِى الْخَمْرِ فِى زَمَنِ النَّبِيِّ وَ أَنَّهُ أَقْبَلَ مِنَ الشَّامِ وَ مَعَهُ خَمْرٌ فِى زِقَاقٍ يُرِيدُ بِهَا التِّجَارَهَ، فَأَتَى رَسُولُ اللهِ | فَقَالَ: يَا رَسُولُ اللهِ جِئْتُكَ بِشَرَابٍ جَيِّدٍ، فَقَالَ رَسُولُ اللهِ: يَا كِسْيَان إِنَّهَا حُرِّمَتْ بَعْدَكَ«

Nafenin atası Kiysan Peyğəmbər zamanında şərab və içki ticarəti ilə məşğul olurdu.“ Səfərlərinin birində Şam şəhərindən Mədinəyə satmaq üçün bir neçə şərab məşki gətirmişdi. Həzrət Peyğəmbərin (s) xidmətinə yetişib, ərz etdi: “Ya Rəsulullah

sənin üçün gözəl və yaxşı şərab gətirmişəm.” Həzrət Peyğəmbər (s) buyurdu: “Ey (Kisyan! Sən səfərə çıxandan sonra şərab içmək haram və qadağan olundu...”(۱)

Aişənin sözünün keçərli olması üçün .۲

Həzrət Peyğəmbərin (s) məqamına rəva olmayan nisbətlərin verilməsinin və bəhs olunan hədislərin uydurulmasının ikinci amili Aişənin sözünün keçərli olmasıdır. Çünki Aişənin yaşadığı dövrdə bir çox hadisələr baş vermişdir. Bir xəlifə öz evinin içində qətlə yetirilmiş və digər xəlifənin əleyhinə isə böyük müharibə başlamışdır. Müsəlmanlar arasında o günə qədər hələ İslam tarixində misli yaşanmayan qırğınlar meydana gəlmişdir.(۲) Bu müharibənin qaynağı, müharibə və qırğınla nəticələnməsinin əsl .səbəbkarı Həzrət Peyğəmbərin (s) xanımı Aişə idi

Bu hadisələrə başçılıq, xəlifənin qətlinə fərman, camaatı özünə itaətçi etmək, zəmanənin rəhbərinə və imamına qarşı camaatı təhrik edən, Əli ibn Əbu Talib (ə) kimi şəxsin müqabilində yeni bir cəbhə açmaq və s... bunların hamısı bunu tələb edir ki, Aişənin şəxsiyyət və mövqeyi camaatın gözündə o qədər böyük görünsün ki, verdiyi əmrlər ürəklərdə öz dərin təsirini qoysun. Müsəlmanlar isə onu himayət etməyi özlərinə vacib və lazım əməl kimi, bəlkə bundan da daha artıq Allah yolunda cihad etmək kimi hesab etsinlər

Həmçinin onun şəxsiyyəti və mövqeyi elə cilvələnsin ki, onun

Musnədi Əhməd İbn Hənbəl”, ۴-cü cild, səh. ۳۳۵, (Hədisu Əd-deyləmi, Hədisu“ . [۱] -۱ .(Kiysan

Əl-əqdul fərid”-in sahibi Cəməl müharibəsində ölənlərin sayını ۲۰۵۰۰ nəfər və“ . [۲] -۲ tanınmış tarixçi Yəqubinin yazısına görə ۳۰۰۰۰-dən daha çox olduğunu bildirmişlər. Belə ki, bütün İslam müharibələrindən Cəməl müharibəsinə kimi ölənlərin hamısının sayı bu saya çatmamışdır. Cəməl müharibəsinin nəticəsindən xəbərdar olmaq üçün müəllifin .tərcümə etdiyi “Aişə, Əlinin (ə) dövründə” adlı kitabına müraciət edin

Quranın açıq ayəsi(۱) və Peyğəmbərin (s) əmri ilə(۲) müxalif olması kölgə altında qalsın. Beləcə də, hər növ irad və nöqsanlardan uzaq olsun. Bu hədəfin təmin olması üçün ən gözəl yol, bu idi ki, onun şəxsiyyət və məqamı beləcə göstərilsin və elə tanıtdırılsın ki, hətta Peyğəmbər (s) də onun mövqeyi qarşısında baş əyirdi və onun bütün istəklərini təmin etmək üçün öz əziz vücudunu zəhmətə salırdı ki, Aişə rəqs edənlərə tamaşa etməkdən çox ləzzət və zövq alsın. Aişənin başı Peyğəmbərimizin (s) sinəsində və o Həzrət ona görə dayanırdı və Aişə yorulub qayıtmayınca yorulduğunu da bildirmirdi.

Onlar demək istəyirlər ki, Allahın elçisi (s) Aişəni o qədər sevir və onun istəklərini yerinə yetirirdi ki, on səkkiz yaşında Peyğəmbərin evində gəlinciklərlə oynasa da belə Peyğəmbər (s) onun bu işlərinin müqabilində gözün üstə qaşın var demirdi. Beləcə də Aişənin qəlbini sındırmasın deyə qızları və onunla oynayanları Aişə ilə oynamağa dəvət edib həvəsləndirirdi.

Bu tanışlıqla daha hansı bir müsəlmanın Aişənin Osman barəsində verdiyi tarixi əmrinin(۳) qarşısında müxalifət etməyə və Osmanı öldürməkdə şəkkə və şübhəyə düşməyə haqqı qalar?!

Yenə də bir neçə aydan sonra səhnə əvəz oldu. Ummul-möminin Osmanın qanının tələbkarı kimi və Əlinin (ə) qoşunları ilə müharibəni, əvvəlki əmrin əksinə olaraq başqa bir tarixi

səh:۴۰۲

۱- [۱]. (وَقَرْنَ فِی بُیُوتِکُنَّ وَلَا تَبَرَّجْنَ تَبَرُّجَ الْجَاهِلِیَّهِ الْأُولَی) “Evlərinizdə qərar tutun. İlkin Cahiliyyət dövründəki kimi açıq-saçıq olmayın. (Bər-bəzəyinizi taxaraq evdən çıxıb özünüzü, gözəlliyinizi yad kişilərə göstərməyin!)” “əl-Əhzab” surəsi, ۳۳-cü ayə.

۲- [۲]. “Peyğəmbər (s) hədisi” تَنْبَحُهَا کَلابُ الْحَوئَبِ “Həvəb itləri ona hürərlər”

۳- [۳]. « أُقْتُلُوا نعثلاً فَقَدْ کَفَرَ » “Bu qoca yəhudini öldürün ki, dindən çıxmışdır”; “Təbərinin tarixi”, Qahirə çapı, ۱۳۵۷; ۴-cü cild, səh. ۴۷۷; “İbn Əsəmin tarixi”, səh. ۱۵۵; “İbn Əsirin tarixi”, ۳-cü cild, səh. ۸۷; “İbn Əbil Hədid”, ۲-ci cild, ۳۰-cu xütbə, və ۱۳-cü cild, səh. ۷۲; “Nəhayə”, “İbn Əsir”, ۴-cü cild, səh. ۱۵۶;

Agah olun!“ «أَلَا إِنَّ عُثْمَانَ قُتِلَ مَظْلُومًا فَاطْلِبُوا قَتَلَتَهُ فَإِذَا ظَفَرْتُمْ بِهِمْ فَأَقْتُلُوهُمْ» :əmri verərək belə dedi Həqiqətən, Osman məzlum öldürüldü. Onu öldürəni təqib etmək sizə vacibdir. Elə ki, (onları tapdınız hamısını öldürün”.(١)

Daha bir kəsin haqqı vardır ki, Əli (ə) ilə müharibə etməkdə geriyə addım atsın. Ummul-möminin Aişənin əmri qarşısında bir ləhzə dayansın, ona etiraz etsin və desin !?ki, dünənə kimi Osmanın qətlinə fərman verirdin bu gün nəyə görə belə

Aişənin sözünün keçərli olması adı ilə burada gətirdiyimiz bu fikir elə bir məsələdir ki, ötən hədislərə diqqət etdikdə bu məsələ aydın olur. Bundan əlavə bir çox belə hədislərdə bu nöqtə açıq şəkildə diqqət mərkəzində olunmuşdur. Nümunə üçün biri “Səhiheyndə” və digəri isə “Sunəni-Termizi”-də qeyd olunan iki hədisi burada qeyd .edirik

.١

«عَنْ عَايِشَه زَوْجُ النَّبِيِّ | أَنَّهَا قَالَتْ: كُنْتُ أَنَامُ بَيْنَ يَدَى رَسُولُ اللهِ | وَ رِجْلَاىَ فِى قِبلَتِهِ فَإِذَا سَجِدَ غَمَزنِى، فَقَبَضْتُ رِجلَيَّ فَإِذَا قَامَ بَسَطتُهُمَا».

Səhiheyn”-də Aişədən nəql olunmuşdur: “Elə ki, Peyğəmbər (s) namaza başlayırdı“ mən onun qarşısında yatırdım. Ayaqlarımı onun qibləsinə tərəf uzadırdım (onun səcdə etməsinə mane olurdum). Elə ki, Allahın Rəsulu (s) səcdə etmək istəyirdi mənim ayağımı sıxırdı (çimdikləyirdi). Mən də ayaqlarımı yığırdım. Elə ki, başını səcdədən (qaldırardı mən yenə də ayaqlarımı uzadardım.”(٢)

.Əl-imamətu vəs-siyasət”, ١-ci cild, səh. ٨; “İbn Əbil Hədid”, ٢-ci cild, səh. ۴۹۹; Yə“ . [١] -١

Səhihi-Buxari”, ١-ci cild, “Kitabus-səlat”, “Əssəlatu ələl-firaş” bölümü; həmin“ . [٢] -٢ mənbə, “Kitabus-səlat”, “ət-Tətəvui xəlfəl-mərəti”. “Kitabus-səlat”, “əl-Mərətu tətruhu ənil-musəlli şəyən”; həmin mənbə, ٢-ci cild, “Kitabus-səlat”, “Ma yəcuzu minəl-əməli fis-səlat”; “Səhihi-Müslim”, ٢-ci cild, “Kitabus-səlat”, “əl-Etirazu bəynə yədəyil-musəlli”; ;və “Sunəni-Nəsai”, ١-ci cild, səh. ١٠٢

İbn Səd “Təbəqat”-da Aişədən nəql edir ki; “Mənim Peyğəmbərin (s) evində on dənə üstünlüyüm vardır ki başqa həyat yoldaşlarında bu xüsusiyyətlər yox idi. Onlardan biri budur ki, Peyğəmbər (s) namaz qıldığı zaman onun qarşısında yatırdım. Ancaq Allahın . ...elçisi başqa xanımlarına belə bir icazəni vermirdi

«وَ أَنَا مُعْتَرِضَةٌ بَيْنَ يَدَيْهِ وَ لَمْ يَكُنْ يَفْعَلُ ذَالِكَ بِاحَدٍ مِنْ نِسَائِهِ غَيْرِى»(۱)

:Aişənin bu iki rəvayətindən belə istifadə olunur ki

a) Aişənin Peyğəmbərin (s) namaz qılarkən qarşısında yatması və o Həzrətin bu işə göz yumması, qeyri-adi və təsadüfi deyildir əksinə, ardıcıl olaraq həmişə baş vermişdir. Çünki təsadüfən baş vermiş bir məsələni üstünlük və gözəl bir xüsusiyyət kimi .tanıtdırmaq olmaz

b) Bu əməl, bir tərəfdən nübuvvət məqamına etinasızlıq və namaza, ibadətə olan hörmətsizlikdir. Başqa bir tərəfdən isə nübuvvət və risalət məqamını alçaltmaqdır. Çünki namaz möminin meracı və Allahla minacat etməyin ən gözəl məqamı sayılır. Söylənilən bu iftiralar hələ adi bir ruhani və mömin şəxsdən çox-çox uzaqdır ki, zarafata salaraq səcdəyə gedərkən öz arvadının ayağını çimdikləsin. O ki, qaldı bu işi İslam Peyğəmbərinin (s) özü görmüş olsun. Bəli, bununla belə o həzrətə atılmış bu iftiranı onun üçün bir üstünlük saymış, Peyğəmbərə (s) hörmətsizlik edərək onun bu .əməlini Aişəyə olan fövqəladə məhəbbəti və istəyinin olduğunu bildirmişlər

;Termizi sənəd vasitəsilə Urvədən və o da Aişədən nəql edir ki .۲

«عَنْ عُرْوَه، عَنْ عَايِشَه، قَالَتْ: كَانَ رَسُولُ اللهِ | جَالِسًا فَسَمِعْنَا لغطاً وَ صُوْتَ صِبْيَانِ فَقَامَ

;”Təbəqat”, ۸-ci cild, səh. ۴۳; və ۹-cu cild, “Aişənin şərhi halı“ . [۱] -۱

رَسُولُ اللهِ فَإِذَ حَبَشِيَّه تَزُفِنَ وَالصِّبْيَانَ حَوْلَهَا فَقَالَ: يَا عَايِشَه تعالى فَانْظُرِى، فَجِئْتُ فَوَضَعْتُ لَحْيِى عَلَى مِنكَبِ رَسُلُ اللهِ، فَجَعِلْتُ أَنْظِرُ إِلَيْهَا مَا بَيْنِ الْمِنْكَبِ إِلَى رَأْسِهِ فَقَالَ لِى أَمَا شَبِعْتِ أَمَاشَبِعْتِ قَالَتْ: فَجَعَلْتُ أَقُولُ: لَا. لأَنْظُرَ مَنْزِلَتِى عِنْدَهُ إِذْ طَلَعَ عمر قَالَتْ فَأَنْفَضَ النَّاسُ عَنْهَا قَالَتْ فَقَالَ رَسُولُ اللهِ | إِنِّى لَأَنْظُرُ إِلَى شَيَاطِينِ الْجِنِّ وَالْإِنْسِ قَدْ فَرُّوا مِنْ عمر قَلَتْ: فَرَجِعْتُ«.

Allahın elçisi (s) oturmuşdu. Uşaqların səs-küylərini eşitdik. Həzrət Peyğəmbər (s)“ ayağa qalxdı və gördü ki, Həbəşili olan bir qadın rəqs edir və uşaqlar da onun ətrafına .sarılıblar

Buyurdu: Aişə gəl tamaşa et! Mən də gəldim və çənəmi Həzrətin (s) sinəsinə qoydum və sinəsilə başının arasından rəqs edən qadına baxırdım. Peyğəmbər (s) mənə belə buyurdu: Doymadın? Doymadın? Aişə deyir: Mən də dedim ki; Xeyr! “İstəyirdim ki, Peyğəmbərin (s) yanında öz mövqeyimi imtahan eləyim. Bu vaxt Ömər gəldi. Camaat o qadının ətrafından dağıldılar. Allahın elçisi (s) buyurdu: Görürəm İns və cinnin Şeytanı (Ömərdən qaçırlar. Aişə deyir: Mən də qayıtdım.”(١

Qondarma olan bu rəvayətdə iki məsələyə toxunulub: Biri Aişənin Allah Rəsulunun (s) yanında olan mövqeyinin imtahanına. Çünki o Həzrət Aişəyə hər nə qəqdər buyurdusa ki, rəqqasələrə baxmaqdan doymamısan? O da cavab verdi ki; Xeyr! Bununla da istədi İkincisi isə .”لأَنْظُرَ مَنْزِلَتِى عِنْدَهُ“ .ki, öz mövqeyini Peyğəmbərin (s) yanında imtahan etsin ikinci xəlifə üçün fəzilət qurub-qoşmaqdır ki, onun gəlişi ilə camaat hamısı dağıldılar və Peyğəmbər (s) də hörmət əlaməti olaraq ona belə buyurdu: “Görürəm İns və cinnin ”.Şeytanı Ömərdən qaçırlar

.Bu məsələnin izahına üçüncü hissədə oxuyacaqsınız

səh:۴۰۵

Sünəni Termizi”, ۵-ci cild, “Əbvabul-mənaqib”, “Mənaqibu Ömər ibnil-Xəttab” “ . [۱] -۱ ;bölümü, hədis: ۳۷۷۵, səh. ۲۸۵

Xəlifələr üçün fəzilət düzəltmək .۳

Rəsuli Əkrəmin (s) müqəddəsliyinə vurulan bu töhmətlərin və qondarma hədislərin uydurulmasının üçüncü amili və səbəbi xəlifələrə fəzilətlər düzəltmək və onlarıın .üstünlüyünü göstərməkdir

Belə ki, Müaviyə (Allahın lənəti olsun ona və onun soyuna) öz xilafəti dövrü boyunca bir çox şəxslərə xəlifələrin xeyrinə hədis uydurmaq üçün əmr etmişdir. Həmçinin vilayət başçılarına, xütbə oxuyanlara və xəbər yayanlara da əmr etmişdir ki, camaat arasında çox ünsiyyətdə olub bu uydurma fəzilətləri yaysınlar. O cümlədən Cümə namazlarında .xütbələrdə də bütün müsəlmanlara çatdırsınlar

O bu yolda əlindən gələni əsirgəmədi və çətinlikləri aradan qaldırdı. Onun cəllad və qaniçən saray köməkçiləri də bu hədəfin təmin olunmasında öz köməklərini əsirgəmədilər və Peyğəmbrin (s) nübuvvət məqamına xəyanət olsa belə, onun müqəddəsliyini dost və düşmən qarşısında tənəzzülə uğratmalarına baxmayaraq .uydurma fəzilətləri bacardıqları qədər xəlifələrə nisbət verdilər

Bu işdən məqsəd bu idi ki, qondarma hədislər və xəlifələr barədə uydurulmuş fəzilətlərlə Rəsuli Əkrəmin (s) Əmirəl möminin Əlinin (ə) fəzilətləri barəsində buyurduğu hədislərlə yerlərini dəyişdirməsinlər. Bu proqram əsasında da birinci xəlifəni pak və müqəddəs şəxs kimi tanıtdırmaq üçün, onun mənəvi məqamını nə qədər artıq cilvələndirsinlər deyə pak olanlardan və yaxşı əməl görənlərdən biri kimi tanıtdırmaq üçün Peyğəmbərin (s) evində - qızların qina oxuduqları yerdə - hazır edib və onun qina və oxumaqla müxalif olduğunu elan etmişlər ki öz qızına əsəbi və :narahat halda demişdir

Peyğəmbərin evində də sazla avaz?" Peyğəmbərin (s) onun " «أَمزمارةُ الشِّيْطَانِ فِی بِیْتِ رَسُولُ اللهِ؟» cavabında söylədiyi "Onları öz

hallarına burax” cümləsinə baxmayaraq yenə də güclü məzhəbi təəssübünün əsəri nəticəsində qızların mahnı oxumasına ruhən narahat idi. Sonra Aişə münasib bir vaxt taparaq onları evdən çıxardı. Hansı ki, Peyğəmbər (s) bu proqrama rəğbət .göstərənlərdən idi

Yenə də həmin hədəfi təmin etmək üçün belə demişlər ki, ikinci xəlifə peyğəmbər məscidinin yanında rəqs edənləri gördü və sakit qala bilmədi. Bu üzdən rəqs edənlərlə öz etirazını bildirdi və məsciddə olan xırda daşları əlinə alıb onların üzlərinə atmağa ”!yəni: “Onlarla işin olmasın «دَعْهُمْ» :başladı. Ancaq Peyğəmbər (s) ona belə buyurdu

Görəsən yeri deyilmi ki, Peyğəmbəri Əkrəm (s) bu müqəddəs, pak, iman, əqidə, vüqar :və mətanət sahibi olan bu kəslərin barəsində belə buyursun

Ey camaat! Mənim sünnətimə və Xüləfai-Raşidinin“ «عَلَيْكُمْ بِسُنَّتِى وَ سُنَّهِ الْخُلَفاءِ الرَّاشِدِينَ» (sünnətinə itaət etmək sizlərə vacibdir!”(١)

Görəsən yeri deyilmi Peyğəmbər (s) ikinci xəlifəyə təşəkkür elətsin və onun mövqeyini, :mənəviyyat və şəxsiyytini nübuvvət məqamından üstün tanıtdırın və buyurun ki

«إِنَّ الشَّيْطَانَ لَيَخَافُ مِنْكَ يَا عُمَرُ!»

(Həqiqətən,, Şeytan səndən qorxur ey Ömər!”.(٢“

Bəli, ötən hədisləri mutaliə etməklə bu hədisləri qondarmaqla onların məqsədinin “xəlifələr üçün fəzilət

səh:۴۰۷

Sünəni-İbn Macə”, ۴۲-۴۳-cü hədislərin müqəddiməsində; “Sünəni-Əbi Davud”,“ . [۱] -۱ ۲-ci cild, “Kitabus-sünnə”, “Lüzumus-sünnə” bölümü; “Müstədrək” ۱-ci cild, “Kitabul-elm”, səh. ۹۶; “Sünəni-Darəmi”, müqəddimə, “İttibaus-sünnə”, bölümü, “Müsnədi-;Əhməd ibn Hənbəl”, ۴-cü hədis, səh.۱۲۶

Sünəni-Termizi”, ۵-ci cild, “Əbvabul-mənaqib”, “Mənaqibu Əbi Həfs Ömər” “ . [۲] -۲ ;bölümü

düzəltmək” olduğunu başa düşmək olar. Ancaq bu hədəf belə hədislərin bir hissəsində aşkarcasına nifrəti nümayiş etdirir və onu uyduranın çox təəssübkeş olduğunu aşkar edir ki, ötən səhifələrdə bunların bir neçə nümunəsini oxudunuz. Burada isə o .hədislərdən başqa birisini qeyd etməklə kifayətlənirik

Termizi öz “Sünən” adlı kitabında və Əhməd ibn Hənbəl də öz “müsnəd” adlı kitabında ;belə nəql edirlər ki

«...قالَ سَمِعْتُ بُرَيْدَه يَقُولُ: خَرَجَ رَسُولُ اللهِ | فِى بَعْضِ مَعَاذِيهِ فَلَمّا إِنْصَرِفَ جاءَتْ جارِيَهٌ سوداءَ فَقالَتْ: يَا رَسُولُ اللهِ إِنِّى كُنْتُ نَذرْتُ إِن رَدَّكِ اللهُ سَالماً أَنْ أَضْرِبَ بَيْنَ يَدَيْكَ بِالدَّفِّ وَ أَتغَنِّى فَقالَ لَهَا رَسُولُ اللهِ |: إِنْ كُنْتِ نَذَرْتِ فَاضْرِبِى وَ إِلاَّ فَلا. فَجَعلَتْ تَضْرِبُ فَدَخَلَ أَبُوبَكر وَ هِىَ تَضْرِبُ ثُمَّ دَخَلَ عَلِىٌّ وَهِىَ تَضْرِبُ ثُمَّ دَخَلَ عُثْمانُ وَهِىَ تَضْرِبُ ثُمَّ دَخَلَ عُمَر فَأَلْقَتْ الدَّفَّ تَحْتَ إِستِهَا ثُمَّ قَعَدَتْ عَلَيْهِ فَقالَ رَسُلُ اللهِ |: إِنَّ الشَّيْطَانَ لَيَخافُ مِنْكَ يا عُمَرُ إِنِّى كُنْتُ جالِساً وَهِىَ تَضْرِبُ فَدَخَلَ أَبُوبَكْرُ وَهِىَ تَضْرِبُ ثُمَّ دَخَلَ عَلِىٌّ وَهِىَ تَضْرِبُ ثُمَّ دَخَلَ عُثْمانُ وَهِىَ تَضْرِبُ فَلَمّا دَخَلْتَ أَنْتَ يا عُمَرُ أَلْقَتْ الدَّفَّ. »

Allahın Rəsulu (s) müharibələrin birində iştirak edirdi. Qara bir kəniz onun hüzuruna“ yetişdi və ərz etdi: Ya Rəsulullah! Mən nəzr etmişdim ki, əgər Allah səni sağ-salamat geri qaytarsa sənin hüzurunda qaval çalaraq oxuyacam. Həzrət Peyğəmbər səlləllahu ələyhi və alihi və səlləm) buyurdu: Əgər nəzr etmisənsə heç bir maneəsi yoxdur. O kəniz qaval vurub, oxumağa başladı. Əbu Bəkr daxil oldu və o çalıb oxumaqda idi. Sonra Əli daxil oldu. O yenə öz işində idi. Ösman da daxil oldu. O yenə də öz işində idi. Elə ki, Ömər daxil oldu, o kəniz qavalı öz altına qoydu və onun üstündə oturdu. Həzrət «إِنَّ الشَّيْطانَ لَيَخافُ مِنْكَ يا عُمَرُ!» :Peyğəmbər (s) belə buyurdu: “Ömər! Şeytan səndən qorxur Çünki mən əyləşmişdirm. Bu kəniz qaval çalırdı. Əbu Bəkr, Əli və Osman daxil oldular. .Ancaq oyenə də məşğul idi

(Lakin elə ki, sən daxil oldun qavalı atdı”.(۱)

Bu hədisləri düzəldənlər ikinci xəlifənin mənəvi məqamını Həzrət Peyğəmbərin (s) mənəvi məqamından ləyaqətli və üstün olduğunu bildirmək istəmişlr ki, Allahın elçisi (s) bəzən şeytani əməllərin icrasına icazə verirdi və şeytanlar onun huzurunda hazır olurdular. Lakin Ömər daxil olduğu zaman şeytan qaçmağa və geri çəkilməyə məcbur olurdu. Şeytani olan bu əməlin qarşısını alırdı.

۱- [۱] . “Sunəni_Termizi”, ۵-ci cild, “Əbvabul-mənaqib”, “Ömərin fəzilətləri” bölümü, hədis: ۳۷۷۳; “Müsnədi-Əhməd”, ۵-ci cild, “Bureydə Əsləminin hədisi”, səh. ۳۵۳.

Ömərin istəkləri .۸

İşarə

Dedik ki, Allahın elçisi Həzrət Peyğəmbərin (s) müqəddəsliyinə verilən nalayiq nisbətlərin səbəblərindən biri xəlifələrə fəzilət uydurmaq və onların ləyaqətsiz işlərini və əməllərini gizlətməkdir. Lakin burada söylənilməsi lazım olan bir nöqtə budur ki, indiyə kimi araşdırılaraq bəhs olunan nisbətlər avam, fasid və dəyərsiz şəxslərin fikir tərzi səthində və aludələnmiş mühitin təfəkkür tərzinin məhsuludur. Lakin indi hörmətli mühəqqiq və əziz oxucumuz yeni bir uydurulmuş fəzilətlə tanış olacaqdır. Elə bir uydurulmuş fəzilət ki, ən uca yerdə, "elmi səthdə" özünə yer tutmuş, hədis və tarix .kitablarında "Ömərin istəyi və razılığı" adı ilə tanınmışdır

Ömərin istəyi" dastanının xülasəsi budur ki, Ömər tərəfindən bir çox məsələlər və" fikirlər Allah və onun Peyğəmbəri Həzrət Məhəmmədin (s) hüzuruna bildirilirdi və bu fikir və məsləhətlər üzrə Allah tərəfindən vəhy mələyi Cəbrail (ə) ayə nazil edirdi və .onun məsləhətini Allah tərəfindən bəyənilərək imzalandığı bildirilirdi

Biz, bu uyduranların işlərinə "elmi bir fəzilətin uydurulması" adını qoymuşuq. Çünki onlar belə hədisləri uydurmaqla xəlifənin məqamını Peyğəmbərin (s) məqamına yaxınlaşdırmaq istəmiş və onun vəhydə payının olması kimi

qələmə vermişlər. Lakin Qurandan sayılan bu vəhyin xəlifəyə istinad olunacağı mümkün deyildi və vəhydə bu növ şərik olmaq qəbul olunacaq olmadığından məsələni ;bu yerə çəkib gətirdilər ki

Bəzən yeni bir şəriət hökmünün nazil olmasına ehtiyac duyulduqda, ilk növbədə bu hökm Ömərin zehninə gəlirdi və sonra isə Allah onunla razılaşırdı. Onun fikrində olanları təsdiq etməklə bir ayə nazil edirdi. Bəzi məsələlər barədə göndərilməsi lazım olan vəhylərdən o (Ömər) əvvəlcədən xəbərdar və ona hazır idi. Bəzən də vəhyin nazil .olacağı cümlələri o özü oxuyurdu

Buna görə də əgər xəlifəyə Quran ayələri nazil olmurdusa, ən azı heç olmasa Quran ayələrinin necə nazil olacağından məlumatı və anlayışı vardı.(١) İndi də belə :hədislərdən bir neçəsini nümunə olaraq burada gətiririk

Allahın Rəsulu (s) münafiq bir şəxsə meyit namazı qıldı. Xəlifə onu bu işdən .١ çəkindirdi. Ancaq Həzrət Peyğəmbər (s) onun sözlərini dinləmədi. Bu vaxt xəlifənin bu əməlinin təsdiq olunmasına və Peyğəmbərin (s) bu işdən çəkinməsi üçün ayə nazil :oldu

{وَلاَ تُصَلِّ عَلَى أَحَدٍ مِّنْهُم مَّاتَ أَبَدًا}

(Onlardan (münafiqlərdən) ölən heç bir kəsə heç vaxt namaz qılma"(٢"

Ramazan ayının gecələrində, gündüz vaxtlarında olduğu kimi, bir kəsin xanımı ilə bir .٢ yatağa girməsi haram idi. Ancaq xəlifə bir gecə öz xanımı ilə yatağa girdi bu vaxt, bu :ayə nazil oldu

---

Qurandan sayılan və sayılmayan vəhyin fərqi", Kitabın birinci fəslində zikr" . [١] -١ .olunmuşdur

.Tövbə" surəsi, ٨٤-cü ayə" . [٢] -٢

{أُحِلَّ لَكُمْ لَيْلَةَ الصِّيَامِ الرَّفَثُ إِلَى نِسَآئِكُمْ}

(Oruc gecəsi qadınlarınıza yaxınlaşmaq sizə halal edildi."(۱)"

Allah-Təala bu əmrlə, onun gördüyü işi təsdiq etdi və Ramazan ayının gecələrində xanımlarla əlaqədə olmasına icazə verdi.

۳. Ömərin qulamı onun evinə icazəsiz daxil oldu. Onun bu işdən xoşu gəlmədi və narahat oldu. Ərz etdi ki, "İlahi! Qulamların öz sahiblərinin evinə icazəsiz daxil olmasını qadağan və haram etginən." Buna görə də "istizan"(۲) ayəsi nazil oldu.

{يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لِيَسْتَأْذِنكُمُ الَّذِينَ مَلَكَتْ أَيْمَانُكُمْ وَالَّذِينَ لَمْ يَبْلُغُوا الْحُلُمَ مِنكُمْ ثَلَاثَ مَرَّاتٍ مِن قَبْلِ صَلَاةِ الْفَجْرِ وَحِينَ تَضَعُونَ ثِيَابَكُم مِّنَ الظَّهِيرَةِ وَمِن بَعْدِ صَلَاةِ الْعِشَاءِ ثَلَاثُ عَوْرَاتٍ لَّكُمْ لَيْسَ عَلَيْكُمْ وَلَا عَلَيْهِمْ جُنَاحٌ بَعْدَهُنَّ طَوَّافُونَ عَلَيْكُم بَعْضُكُمْ عَلَى بَعْضٍ كَذَلِكَ يُبَيِّنُ اللَّهُ لَكُمُ الْآيَاتِ وَاللَّهُ عَلِيمٌ حَكِيمٌ}

"Ey iman gətirənlər! Sahib olduqlarınız (kölə və kənizlər), həddi-büluğa çatmayanlar (yanınıza daxil olmaq istədikdə) bu üç vaxtda sizdən icazə alsınlar: sübh namazından əvvəl, günorta (yatıb dincəlmək, istirahət etmək üçün) paltarınızı çıxartdığınız zaman və gecə namazından sonra. (Bu vaxtlar insan paltarını çıxarda bilər, zövcəsi ilə bir yerdə uzanıb ixtilat edə bilər və i. a.) bu üç vaxt sizin üçün xəlvət vaxtdır (paltarsız ola bilərsiniz). Qalan vaxtlarda bir-birinizin yanına (icazəsiz) girib-çıxmaqda sizə də, onlara da heç bir günah yoxdur. Allah ayələri sizə belə izah edir. Allah (hər şeyi) biləndir, hikmət sahibidir!" (۳)

İslam Peyğəmbəri (s) bir çox münafiqlərdən ötrü çoxlu istiğfar edirdi. Ömər dedi:

۱- [۱]. "əl-Bəqərə" surəsi, ۱۸۷-ci ayə;

۲- [۲]. İzn almaq, icazə istəmək;

۳- [۳]. "Nur" surəsi, ۵۸-ci ayə.

Sən onların bağışlanmasını diləsən də, diləməsən də, fərqi (سَوَاءٌ عَلَيْهِمْ) !Ya Rəsulullah“ :yoxdur.” Bu vaxt ayə nazil oldu

{سَوَاءٌ عَلَيْهِمْ أَسْتَغْفَرْتَ لَهُمْ أَمْ لَمْ تَسْتَغْفِرْ لَهُمْ لَن يَغْفِرَ اللَّهُ لَهُمْ إِنَّ اللَّهَ لَا يَهْدِى الْقَوْمَ الْفَاسِقِينَ}

Sən onların bağışlanmasını diləsən də, diləməsən də, fərqi yoxdur. Onsuz da Allah“ (onları bağışlamayacaqdır. Şübhəsiz ki, Allah fasiq qövmü doğru yola yönəltməz!”(١

.Xəlifənin fikrini onun söylədiyi kəlmələrlə təsdiq etdi

Həmçinin, əhli-sünnənin hədislərinin məzmununa əsasən Allah, Ömərin istəyi ilə .əvvəlcə dilinə gətirib söylədiyi ləfz və cümlələrdə bir çox başqa ayələri də nazil edirdi

Bu razılıqlar və istəklər hədis, tarix və təfsir kitablarında müxtəlif şəkillərdə qeyd olunmuşdur.(٢) Belə hədislərin çoxluğu və bu fəsildə artıq yer tutduğuna görə biz .onlardan bir neçəsinin nümunəsini burada gətirdik

İbn Həcər Əsqəlani deyir: “Hökmlər barədə Ömərin istəyi və razılığı həddindən artıq çox olmuşdur. Lakin bizim əlimizə gəlib çatan o cümlədən müxtəlif mənbələrdə qeyd (olunanlar on dörd yerdədir.”(٣

(İbn Həcər Məkki də onların on yeddisini cəm etmişdir.(۴

(Siyuti deyir: “Alimlərdən bəziləri Ömərin istəklərinin iyirmiyə çatdığını bildirmişlər.”(۵

Əsqəlani yenə belə deyir: “Termizi səhih hədisdə Abdullah ibn Ömərdən belə nəql edir: Ömər, qarşıya çıxan hər bir yeni məsələlərdə camaatın ümumi fikri ilə müxalifət edirdi -və Allah

səh:۴۱۴

.əl-Münafiqun” surəsi, ۶-cı ayə“ .[١]-١

;Musnədi Hənbəl”, ١-ci cild, səh. ٢۴“ .[٢]-٢

;Fəthul-Bari”, ١-ci cild, səh. ۴٢٣“ .[٣]-٣

;əs-Səvaiqul-Muhriqə”, səh. ۵٧-۵٨“ .[۴]-۴

;Tarixul-xuləfa”, səh. ١١۴“ .[۵]-۵

".Təala da ayə nazil etməklə onun fikrini təsdiqləyirdi

Vafəqtu rəbbi"" «وَافَقْتُ رَبِّى» Həmçinin bu cümləni də əlavə edir: "Ömərdən nəql olunan cümləsinin mənası budur ki, Allah mənimlə razılaşdı və mənim nəzərim əsasında da Lakin ədəbə riayət etsin deyə razılığı Allaha deyil, özünə nisbət «وَافَقَنِى رَبِّى» ayə nazil etdi (vermişdir!" (١)

Hər halda "Ömərin istəkləri" adı ilə tanınan bu nisbətlərlə, İslam Peyğəmbərinin (s) məqamına xəyanət etmək və nübuvvətlə vəhyin mərhələlərinə sayğısızlıq göstərməklə əvvəldə söylədiyimiz rəva olmayan nisbətlər arasında heç bir fərq yoxdur. Həmçinin bu nisbətlərin heç biri Peyğəmbərin məqamı ilə uyğun gəlmir. Nə o Həzrətin (s) qadın toy məclislərində iştirak etməsi, nə Ömərin istəyi ilə hicab ayəsinin nazil olması, nə Peyğəmbərin (s) xanəndə qızları həvəsləndirməsi və Ömərin istəyi ilə "istizan" ayəsinin nazil olması, nə Peyğəmbərin (s) öz xanımına rəqs edən {وَاتَّخِذُواْ مِن naməhrəmlərə baxmasına icazə verməsi məsələsinin doğru olması, nə də Ey mö'minlər! Sizə də:) "İbrahimin durduğu yeri (özünüzə) namazgah)" مَّقَام إِبْرَاهِيمَ مُصَلًّى} ...edin!" - (dedik)."(٢) ayəsinin Ömərin istəyi ilə nazil olması

Çünki bunların hamısının araşdırılması, mövzumuzdan kənardır və ayrica bir kitaba ehtiyac vardır. Burada təkcə "Səhiheyndə" və iki hədis barəsində qeyd olunmuş ."Ömərin istəkləri" hədislərini gətiririk və qısa şəkildə də cavablandırırıq

:Üç ayə

«هَشِيم، عَنْ حَمِيد، عَنْ أَنَس قَالَ: قَالَ عُمَرُ، وَافَقْتُ رَبِّى فِى ثَلَاثٍ فَقُلْتُ: يَا رَسُولُ اللهِ لَوْ أَتَّخَذْنَا مِنْ مَقَام اِبْرَاهِيمَ مُصَلَّى فَنَزَلَتْ {وَاتَّخِذُواْ مِن مَّقَامِ إِبْرَاهِيمَ مُصَلًّى} وَ آيَهُ الْحِجَاب،

;Fəthul-bari", ١-ci cild, səh. ٤٢٣" . [١] -١

.Bəqərə" surəsi, ١٢٥-ci ayə" . [٢] -٢

قُلْتُ: يَا رَسُولَ اللهِ لَوْ أَمَرْتَ نِسَائَکَ أَنْ يَحْتَجِبْنَ فَإِنَّهُ يُکَلِّمُوهُنَّ البرُّ وَالْفَاجِرٌ فَنَزَلَتْ آيَهَ الْحِجَابِ، وَاجْتَمَعَ نِسَاءُالنَّبِىّ عَلَيْهِ فِی الْغيره عَلَيْهِ، فَقُلْتُ لَهُنَّ: {عَسَى رَبُّهُ إِن طَلَّقَكُنَّ أَن يُبْدِلَهُ أَزْوَاجًا خَيْرًا مِّنكُنَّ} فَنَزَلَتْ هَذِهِ الْآيَه«.

Həmid Ənəsdən nəql edir ki, Ömər deyirdi: “Mən Allahla üç mövzuda razılaşmışam: Allahın Peyğəmbərinə (s) ərz etdim ki, Ya Rəsulullah İbrahimin məqamını yaxşı olardı Ey mö’minlər! Sizə də:)“ {وَاتَّخِذُواْ مِن مَّقَامِ إِبْرَاهِيمَ مُصَلًّى} ki, namazgah qərar verərdik”. Bu vaxt) "İbrahimin durduğu yeri (özünüzə) namazgah edin!" - (dedik)”(١) ayəsi nazil oldu. Biri də hicab ayəsi idi. Ərz etdim: “Ya Rəsulullah! Yaxşı olar ki, xanımlarına əmr edəsən özlərini naməhrəmlərdən örtsünlər. Çünki yaxşı və pis adamlar onlarla söhbət edirlər”. .Bu vaxt “hicab ayəsi” nazil oldu

Peyğəmbərin (s) xanımlarının bir-biri ilə rəqabətinin nəticəsində Peyğəmbərə (s) Əgər o sizi boşasa,“ (عَسَى رَبُّهُ إِن طَلَّقَكُنَّ أَن يُبْدِلَهُ أَزْوَاجًا خَيْرًا مِّنكُنَّ) əziyyət edirdilər. Onlara dedim ola bilsin ki, Rəbbi sizin əvəzinizə ona sizdən daha yaxşı zövcələr versin!”.(٢) bu ayə ((həmin kəlmələrlə) nazil oldu.(٣

Bu hədisi Buxari öz səhih adlı kitabında “kitabus-səlat” bölümündə(۴) nəql etmişdir. O (həmin hədisi qısa bir fərqlə təfsir kitabında gətirmişdir.(۵

.Həmin hədis müxtəsər və azacıq fərqlə “Səhihi-Müslim”də də gəlmişdir

Bu hədisdə Qurani-Kərimdən nazil olan üç ayə Ömərin istəyi və xahişi ilə :sənədləşdirilmiş və yazılmışdır

;Hicab ayəsi .١

.Bəqərə” surəsi, ١٢۵-ci ayə“ .[١]-١

.ət-Təhrim” surəsi, ۵-ci ayə“ .[٢]-٢

;Buxari”, ١-ci cild, “Kitabus-səlat”, hədis: ٣٩٣-٣٩۴“ .[٣]-٣

.Kitabus-səlat”, ١-ci cild, “Ma caə fil-qiblə” bölümü“ .[۴]-۴

.Kitabus-səlat”, ۶-cı cild, “Bəqərə” surəsinin təfsiri“ .[۵]-۵

;İbrahimin (ə) məqamının namazgah edilməsi .٢

;Əsa Rəbbuhu in talləqəkunnə” ayəsi“ .٣

Biz bu hədis barədə təkcə “Hicab” ayəsinə aid olan hissəni araşdırmağa başlayacağıq. Hədisin başqa iki hissəsini və onun doğru və yalan olması barədə hökmü əziz və təhqiqatçı oxucunun öz öhdəsinə qoyacağıq. Çünki hədisin bir hissəsinin zəif olması və .büdrəməsi onun digər hissələrinin də dəyərsiz olduğunu bildirir

Hicab ayəsində Ömərin istəyinin araşdırılması

İşarə

Bu hədisdə Ömərin istəyi ilə hicab ayəsinin nazil olması bildirilməsə də, bu zəminədə ,və Ömərin fəzilətləri barədə başqa rəvayətlər nəql olunmuş və bu ayənin mətni yəni

Onlardan (Peyğəmbərin zövcələrindən) bir şey“ {وَإِذَا سَـأَلْتُمُوهُنَّ مَتَاعًا فَاسْـأَلُوهُنَّ مِـنْ وَرَاءِ حِجَـابٍ} soruşduqda, pərdə arxasından soruşun (evlərinə daxil olmayın)”(١) ayəsi (göstərilmişdir.(٢

Ancaq söyləyəcəyimiz dəlillərlə hicab ayəsinin ikinci xəlifənin istəyi və razılığı ilə heç bir əlaqəsi olmadığı aydın olacaq. Məlum olacaqdır ki, bu hədis, ikinci xəlifənin fəzilətləri .adı altında onun üçün uydurulmuş və düzəldilmiş saxta hədislərdir

Hədislərdə olan ziddiyyətlər .١

Hicab ayəsinin Ömərin istəyi ilə nazil olmasının əsassız və zəif olmasının birinci səbəbi, :hədislərin mətnində görülən ziddiyyətlərdir. Çünki

;Aişədən nəql olunan hədisdə belə gəlmişdir ki

.əl-Əhzab” surəsi, ٣٣-cü ayə“ . [١] -١

Musnədi-Əhməd”, ١-ci cild, səh. ٤٥٦; “Nəhcul-bəlağənin şərhi”, İbn Əbil Hədid,“ . [٢] -٢ ;١٢-ci cild, səh. ٥٧; və “ər-Riyazun-nəzrə; ١-ci cild, səh. ٢٦٣

«عَنْ عَایِشَه قَالَتْ: کُنْتُ آکِلُ مَعَ رَسُولِ اللهِ حِیسًا قَبْلَ أَنْ تُنْزِلَ آیَهُ الْحِجَابِ وَ مَرَّ عُمَرُ فَدَعَاهُ فَأَکَلَ فَأَصَابَتْ یَدَهُ أَصْبُعِی فَقَالَ: حَسِّ لَوْ أَطَاعُ فِیکُنَّ مَا رَأَتْکُنَّ عَیْنٌ فَنَزَلَتْ آیَهُ الْحِجَابِ».

Hicab ayəsi nazil olmazdan qabaq mən Allahın Rəsulu (s) ilə “hiss”(١) yeyirdik. Ömər“ keçirdi. Peyğəmbər (s) onu bizimlə yemək yeməyə dəvət etdi. Yemək yeyərkən :Ömərin əli mənim barmağıma dəydi. Dedi

Ax! Əgər mən siz qadınların itaəətkarı olsaydım və mənim“ «حَسِّ لَوْ أَطَاعُ فِیکُنَّ مَا رَأَتْکُنَّ عَیْنٌ» istəklərimə müsbət cavab verilsəydi naməhrəmin gözü sizləri görə bilməzdi” Aişə (deyir: “Bu vaxt hicab ayəsi nazil oldu.”(٢

Başqa bir hədisdə Urvət ibn Zubeyr hicab ayəsinin müqəddiməsini Aişədən belə nəql :edir

«...عَنْ عُرْوَهِ بنِ الزُّبیر أَنَّ عَایِشَهَ زَوْجُ النَّبِیِّ | قَالَتْ کَانَ عُمَرُ بنُ الْخَطَّاب یَقُولُ لِرَسُولِ اللهِ: اِحجِبْ نِسَائَکَ قَالَتْ: فَلَمْ یَفْعَلْ وَ کَانَ أَزْوَاجُ النَّبِیِّ یَخْرُجْنَ لَیْلاً إِلَى لَیْلٍ قَبْلَ الْمَنَاصِعِ خَرَجَتْ سُودَهُ بِنْتِ زمعه وَکَانَتْ اِمْرَأَهُ طَوِیلَهً فَرَآهَا عُمَرُ بنُ الْخَطَّاب وَ هُوَ فِی الْمَجْلِسِ فَقَالَ: عُرِفْتُکَ یَا سُودَه حِرْصاً عَلَى أَنْ یَنْزِلَ الْحِجَاب، قَالَتْ: فَأَنْزَلَ اللهُ آیَهَ الْحِجَاب».

:Ömər Allahın Rəsuluna (s) deyirdi“

ihcib nisaək” - “Qadınlarını naməhrəmlərdən gizlət.” Ancaq Həzrət“ «نِسَائَکَ اِحجِبْ» Peyğəmbər (s) onun sözlərinə qulaq asmırdı. Peyğəmbərin xanımları öz hacətlərini aradan qaldırmaq üçün hər gecə çölə çıxırdılar. Bir gecə Peyğəmbərin xanımı ucaboylu olan “Sudə” çölə çıxdı. Ömər ibn Xəttab bir neçə nəfərlə oturmuşdu. O Sudəni gördü və

.Məxsus bir yemək adıdır . [١] -١

Nəhcül-bəlağənin şərhi”, İbn Əbil Hədid, ١٢-ci cild, səh. ۵٨, və “Riyazun-nəzrə”,“ . [٢] -٢ ١-ci cild, səh. ٢۶٣; Muhibbud-din Təbəri bu hədisin nəqlindən sonra bel deyir: “Hiss” kəlməsi (kəsrəli və təşdidli sin hərfi) insana qəfil narahatçılıq üz verərkən deyilir. ”.Məsələn: Od insanın əlinə dəyəndə

dedi: “Sudə! Mən səni tanıdım”. Ömərin bu sözləri onun hicab hökmünün nazil olmasına olan çox istəyinin nəticəsi idi. Bu vaxt hicab ayəsi nazil oldu.”

(Bu hədis “Səhihi Buxari və Səhihi-Müslimdə” də gəlmişdir.(١)

Bu iki hədisdən məlum olur ki, Ömər hicab ayəsinin nazil olması barədə əvvəlcədən xəbərdar idi və ona hazırlığı vardı. Bu ayənin tez nazil olmasını Allahdan çox istəyirdi.

Burada belə bir sual qarşıya çıxır ki, görəsən Ömərin istəyi ilə hicab ayəsi harada nazil olmuşdur? Bəhs etdiyimiz hədisin məzmununa əsasən elə ki, Peyğəmbərə “sənin evinə müxtəlif adamlar gəlirlər. Yaxşı olar ki, xanımlarını örtdürəsən!” cümləsini deyərkən, yoxsa Peyğmbərin (s) yeməyə dəvəti zamanı əli Aişənin əlinənə dəyərkən o cümləni dedikdə? və yaxud bir gecə Sudəni öz hacətini aradan aparmaq üçün çölə çıxdığında Ömərin onu görməsilə və hicab hökmünün tez nazil olmasına olan şiddətli istəyilə Sudəyə “Mən səni tanıdım!” söylədikdə?!

“Ömərin istəyi ilə hicab ayəsinin nazil olması” dastanında müşahidə olunan bu ziddiyyətlər məruf bir məsəli bizim yadımıza salır. Yaxşı deyiblər “Yalançının hafizəsi olmaz”. Bu məsəlin nümunəsi elə sözü gedən bu hədislərdir.

٢. Başqa hədislər bu hədisi təkzib edir

Hicab ayəsinin nazil olması barədə əhli-sünnə məzhəbinin kitablarında və sənədlərində nəql olunmuşdur. Bu hədislər “Ömərin istəyi ilə hicab ayəsinin nazil olması” hədisini təkzib edir və onun saxta və uydurma olduğunu təsdiqləyir.

Biz, bu barədə təkcə “Səhihi-Buxari”də və “Səhihi-Müslim”də Ənəs ibn Malikdən nəql olunan bir hədisə kifayət edirik:

١- [١] . “Səhihi-Buxari”, ٨-ci cild, “Hicab ayəsi” bölümü, hədis: ١; həmin mənbə, ١-ci cild, “Xurucun-nisai iləl-bəraz”, hədis: ۵٨٨۶; və “Səhihi-Müslim”, ٧-ci cild, “İbahətul-xuruci lin-nisai liqaəzai hacətul-insan”, hədis: ٢١٧٠.

.١

»أَبُو مجلز عَنْ أَنَسٍ رضِىَ اللهُ عَنْهُ قَالَ: لَمَّا تَزَوَّجَ النَّبِيُّ | زَيْنَبَ دَخَلَ الْقَوْمُ فَطَعِمُوا ثُمَّ جَلَسُوا يَتَحَدَّثُونَ فَأَخَذَ كَأَنَّهُ يَتَهَيَّأُ لِلقِيَامِ، فَلَمْ يَقُمُوا فَلَمَّا رَأَى قَامَ من قَامَ مِنَ الْقَوْمِ وَقَعَدَ بَقِيَّةُ الْقَوْمِ وَ أَنَّ النَّبِيَّ جَاءَ لِيَدْخُلْ فَإِذاً القَوْمُ جُلُوسٌ ثُمَّ إِنَّهُمْ قَامُوا فَانْطَلَقُوا فَأَخبرتُ النَّبِيّ | فَجَاءَ حَتَّى دَخَلَ فَذَهَبْتُ أَدْخُلُ فَأَلْقَى الْحِجَابَ بَيْنِى وَ بَيْنَهُ وَ أَنْزَلَ اللهُ تَعَالَى: {يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تَدْخُلُوا بُيُوتَ النَّبِيِّ إِلَّا أَن يُؤْذَنَ لَكُمْ إِلَى طَعَامٍ غَيْرَ نَاظِرِينَ إِنَاهُ وَلَكِنْ إِذَا دُعِيتُمْ فَادْخُلُوا فَإِذَا طَعِمْتُمْ فَانتَشِرُوا وَلَا مُسْتَأْنِسِينَ لِحَدِيثٍ إِنَّ ذَلِكُمْ كَانَ يُؤْذِى النَّبِيَّ فَيَسْتَحْيِى مِنكُمْ وَاللَّهُ لَا يَسْتَحْيِى مِنَ الْحَقِّ وَإِذَا سَأَلْتُمُوهُنَّ مَتَاعًا فَاسْأَلُوهُنَّ مِن وَرَاءِ حِجَابٍ ذَلِكُمْ أَطْهَرُ لِقُلُوبِكُمْ وَقُلُوبِهِنَّ وَمَا كَانَ لَكُمْ أَن تُؤْذُوا رَسُولَ اللَّهِ وَلَا أَن تَنكِحُوا أَزْوَاجَهُ مِن بَعْدِهِ أَبَدًا إِنَّ ذَلِكُمْ كَانَ عِندَ اللَّهِ عَظِيمًا}«.

Əbu Məcliz(١) Ənəsdən nəql edir: “Elə ki, Peyğəmbər (s) Cəhəşin qızı Zeynəblə evləndi, camaat həmin münasibətlə Peyğəmbər (s) tərəfindən tərtib olunmuş qonaqlığa gedirdilər. Yemək yedikdən sonra isə oturub öz söhbətlərinə davam edirdilər. Allahın Rəsulu (s) məclisdən durmağa hazırlaşırdı ki, camaat da dağılsınlar. Ancaq onlar (bu məsələyə) diqqət etmirdilər. Yenə də öz oturmaqlarına davam edirdilər.

Nəhayət Allahın Rəsulu (s) məclisdən qalxdı. Camaatın bir hissəsi də ayağa durdular və dağıldılar. Ancaq bəziləri hələ də əyləşmişdilər. Peyğəmbər (s) öz mənzilinə qayıtdıqda bəzilərinin hələ də orada oturduqlarını gördü. Nəhayət bir neçə müddətdən sonra hamı çıxıb getdi. Mən də evin boşaldığını Peyğəmbrə (s) xəbər verdim.

Allahın Rəsulu (s) evə gəldi və daxil olmaq istədikdə mən də

١- [١] . “Səhihi-Buxari”, ۶-cı cild, “Əhzab” surəsinin təfsiri, hədis: ۴۱۵۶; həmin mənbə, ۸-ci cild, “Kitabul-istizan”, “Hicab ayəsi” bölümü, hədis: ۳۸۸۴ və “Səhihi-Müslim”, ۴-cü cild, “Kitabun-nikah”, “Zivacu Zeynəbi binti Cəhəş” bölümü, hədis: ۱۴۲۸;

istədim ki onunla birgə evə daxil olam. Bu vaxt mənim evə girməyimə mane oldu və həmin vaxt Allah-Təala bu ayəni nazil etdi: (Ey iman gətirənlər! Peyğəmbərin evlərinə sizə yeməyə icazə verilmədən (yeməyə də'vət olunmadan) girib onun bişməsini gözləməyin. Lakin də'vət olunduqda gedin və (yeməyinizi) yedikdən sonra (orada bir-birinizlə) söhbətə qapılmayıb dağılın. Bu (sizin çox oturmağınız), Peyğəmbərə əziyyət verir, amma o sizdən (bunu sizə deməkdən) utanırdı. Lakin Allah doğru sözdən çəkinməz. Onlardan (Peyğəmbərin zövcələrindən) bir şey soruşduqda, pərdə arxasından soruşun (evlərinə daxil olmayın). Bu həm sizin, həm də onların ürəklərinə daha çox təmizlik bəxş edər. Sizə Allahın Peyğəmbərini incitmək, özündən sonra onun zövcələri ilə evlənmək əsla yaraşmaz. Həqiqətən,, bu, Allah yanında böyük (günahdır!(١),(٢

Buxari yenə Ənəsdən başqa bir hədisdə belə nəql edir ki; "Həzrət Peyğəmbər (s) Mədinəyə daxil olanda mənim on yaşım var idi. On il də onun kənarında ona xidmət etmək fəxrinə yiyələnmişəm. Hicab ayəsinin nazil olması hadisəsini hamıdan daha artıq bilirəm. Hətta Ubəy ibn Kəəb də bu mövzunu məndən soruşdu. Onda hicab ayəsinin nazil olması hadisəsini (əvvəlki hədisdə söylənildiyi kimi) ona söylədim. Bu ayə (Peyğəmbərin zifaf gecəsində nazil olmuşdur."(٣

Ənəsin bu sözlərindən belə istifadə etmək olar ki, hicab ayəsinin nazil olmasının nisbəti xəlifənin istəyi ilə Ənəsin vaxtında(٤) baş vermişdir ki, o özü də bu nisbəti təkzib etmiş və

;əl-Əhzab" surəsi, ٥٣-cü ayə" . [١] -١

Bu hədisi Buxaridən başqa Siyuti "əd-Durrul-Mənsur"da, ٥-ci cid, səh. ٢١٣-də . [٢] -٢ Əhməd ibn Hənbəldən, Müslimdən, Nasaidən, İbn Cərirdən, İbn Munzirdən, İbn Əbi .Hatəmdən, Beyhəqidən nəql etmişdir

.Səhihi-Buxari", ٨-ci cild, "Hicab ayəsi" bölümü" . [٣] -٣

Təhzibut-təhzib" kitabında İbn Həcərin nəqlinə əsasən, Ənəs ibn Malik ٩٣-cü" . [٤] -٤ .hicri qəməri tarixində vəfat etmişdir

bunu belə söyləyənlərlə mübarizəyə qalxmışdır. Yoxsa, hədisi nəql etməsinə və hicab ayəsinin nazil olma səbəbinin açıqlanmasına bu qədər ciddi və kəskin cümlələrlə “Mən bu ayənin nazil olma səbəblərini başqalarından daha yaxşı bilirəm. Çünki on il Peyğəmbərin (s) yanında xidmət etmişəm. Hətta özünü Quran ayələrində mütəxəssis sayan Ubəy ibn Kəəb bu ayənin necə nazil olduğunu məndən soruşmuşdur!” deməsinə .ehtiyac olmazdı

Bu müqayisəmizin nəticəsi bundan ibarətdir: Ənəs ibn Malik deyir: “Hicab ayəsi xəlifənin Peyğəmbərə hicabı məsləhət verməsilə və ya yemək yeyərkən əli Aişənin barmağına dəydikdə, ya da gecə vaxtı Sudə xanımı gördükdə və hicab ayəsinin nazil olmasına olan çox istəyi nəticəsində “Sudə, mən səni tanıdım!” deməsi ilə deyil, əksinə ”.Peyğəmbərin (s) Zeynəblə evləndiyi gecəsi nazil olmuşdur

Ayənin siyağı

(Ayənin siyağı (١)

Hicab ayəsinin özündən əvvəl və sonra gələn ayələri də onun nazil olma səbəblərini Ənəs ibn Malikin söylədikləri kimi təsdiqləyir və bunu bildirir ki; bu ayənin hicaba aid olan axırıncı hissəsi ilə əvvəlinci hissəsi arasında bütöv bir bağlılıq vardır. Bu ayə Peyğəmbərin (s) zifaf gecəsində nazil olmuşdur. Həmin ayədə Peyğəmbərlə onun xanımlarına aid olan bir sıra məsələlər açıqlanmışdır. Möminlərə bir çox əmrlər verilmiş, onların Peyğəmbrlə (s) və onun xanımları ilə necə davranılmasını başa ;salmışdır. Buyurmuşdur ki

Ey iman gətirənlər! Peyğəmbərin evlərinə sizə yeməyə icazə verilmədən (yeməyə(_ _dəʼvət olunmadan) girib onun bişməsini

---

Siyaq”- bir ayənin özündən qabaq gələn ayələrə və özündən sonra gələn“. [۱] -۱ ayələrə diqqət yetirməklə ayənin mənasını düşünmək deməkdir

gözləməyin. Lakin də’vət olunduqda gedin və (yeməyinizi) yedikdən sonra (orada bir-_ birinizlə) söhbətə qapılmayıb dağılın. Bu (sizin çox oturmağınız), Peyğəmbərə əziyyət verir, amma o sizdən (bunu sizə deməkdən) utanırdı. Lakin Allah doğru sözdən çəkinməz. Onlardan (Peyğəmbərin zövcələrindən) bir şey soruşduqda, pərdə .(arxasından soruşun (evlərinə daxil olmayın

Bu həm sizin, həm də onların ürəklərinə daha çox təmizlik bəxş edər. Sizə Allahın Peyğəmbərini incitmək, özündən sonra onun zövcələri ilə evlənmək əsla yaraşmaz. Həqiqətən,, bu, Allah yanında böyük günahdır!_(١) Diqqət etdiyiniz kimi, ayənin hicab barədə olan axırıncı hissəsi özündən əvvəl gələn hissəsi ilə tam əlaqəlidir. Bu ayədə Peyğəmbərin (s) məclisində iştirak etmək barədə əxlaqi məsələlər və öyüdlər qeyd .olunmuş, hamısı da Ənəs ibn Malikin sözlərinin təsdiqləmişdir

Münafiqə namaz qılmağın haram olması haqda ayə

Ömərin istəkləri barədə qeyd olunan başqa bir hədis Münafiqə namaz qılınmasının nəhy olunmasıdır. Həzrət Peyğəmbər (s) Abdullahın övladının xahişi ilə onun atası Abdullah ibn Ubəyə - məşhur olan münafiqə - namaz qılmaq istəyirdi. Ömər ibn Xəttab, Peyğəmbəri (s) bu nazmazı qılmaqdan çəkindirdi. Ancaq Allahın elçisi (s) onun sözlərinə qulaq asmadı və bilafasilə Ömərin bu nəzərini təsdiq etmək üçün Allah-Təala :Peyğəmbəri münafiqə namaz qılmasından çəkindirdi və bu ayəni nazil etdi

{وَلاَ تُصَلِّ عَلَى أَحَدٍ مِّنْهُم مَّاتَ أَبَدًا وَلاَ تَقُمْ عَلَىَ قَبْرِهِ إِنَّهُمْ كَفَرُواْ بِاللّهِ وَرَسُولِهِ وَمَاتُواْ وَهُمْ فَاسِقُونَ}

;əl-Əhzab” surəsi, ٥٣-cü ayə“ .[١]-١

Onlardan (münafiqlərdən) ölən heç bir kəsə heç vaxt namaz qılma, qəbrinin başında_ (durma. Çünki onlar Allahı, Onun Peyğəmbərini dandılar və fasiq olaraq öldülər." _(١)

:Bu barədə nəql olunan hədis budur

«...عَنْ ابنِ عُمَر أَنَّ عَبْدَاللهِ بنِ أُبَىّ لَمَّا تُوُفّى جَاءَ ابْنُهُ إِلَى النَّبِىّ | فَقَالَ: يَا رَسُولَ اللهِ أَعْطِنِى قَمِيصَكَ أُكَفِّنَهُ فِيهِ، وَصَلِّ عَلَيْهِ، وَاسْتَغْفِرَ لَهُ، فَأَعْطَاهُ النَّبِىّ | قَمِيصَهُ، وَقَالَ: «إِذَا فَرَغْتَ فَآذِنَّا» فَلَمَّا فَرَغَ آذنّهُ فَجَاءَ لِيُصَلِّىَ عَلَيْهِ، فَجَذَبهِ عُمَر، فَقَالَ: أَلَيْسَ قَدْ نَهَاكَ اللهُ أَنْ تُصَلِّىَ عَلَى الْمُنَافِقِين، فَقَالَ: «أَنَا بين خَيرَتَيْنِ قَالَ {أَسْتَغْفِرُ لَهُمْ أَوْلاَ تَسْتَغْفِر لَهُمْ إِنْ تَسْتَغْفِرْ لَهُمْ سَبْعِينَ مَرَّه فَلَنْ يَغْفِرَ اللهُ لَهُمْ فَصلّى عَلَيْهِ، فَنَزَلَتْ وَ وَلاَ تُصَلِّ عَلَى أَحَدٍ مِّنْهُم مَّاتَ أَبَدًا وَلاَ تَقُمْ عَلَىَ قَبْرِهِ إِنَّهُمْ كَفَرُواْ بِاللّهِ وَرَسُولِهِ وَمَاتُواْ وَهُمْ فَاسِقُونَ}».

Abdullah ibn Ömər deyir: Elə ki, Abdullah ibn Ubəy dünyasını dəyişdi onun övladı" Peyğəmbərin (s) yanına gəldi və ərz etdi: "Ya Rəsuləllah köynəyinizi verin atamın cənazəsini onunla kəfən edim və onun namazını da siz qılın, onun bağışlanmasını istəyin." Allahın Rəsulu (s) köynəyini ona verdi və buyurdu: "Eləki qüsul verib kəfən etdiniz, mənə xəbər verin." Qüsl və kəfəndən sonra Həzrət Peyğəmbər (s) Abdullahın cənazəsinə namaz qılmağa gəldi. Ömər o Həzrəti (s) arxadan dartaraq çəkdi və dedi: "Allah səni münafiqə namaz qılmaqdan çəkindirməyibmi?!" Peyğəmbər (s) buyurdu: "Xeyr, əksinə mənə ixtiyar verib və buyurub ki: (Ya Peyğəmbərim!) Onlar (o münafiqlər) üçün istər bağışlanma dilə, istər diləmə; onlar üçün yetmiş dəfə bağışlanma diləsəndə, yenə Allah onları bağışlamayacaq. (٢)Eləki Peyğəmbər (s) Abdullaha namaz qıldı o an bu ayə nazil oldu: Onlardan (münafiqlərdən) ölən heç bir (kəsə heç vaxt namaz qılma, qəbrinin başında durma.(٣

.ət-Tövbə" surəsi, ٨۴-cü ayə" . [١]-١

.ət-Tövbə" surəsi ٨٠-cı ayə" . [٢]-٢

Səhihi-Buxari". ٢-ci cild, "Kitabul-cənayiz", "əl-Kəfənu fil-qəmisil-ləzi yəkiffu" . [٣] -٣ əvla yəkiffu" bölümü, hədis: ١٢١٠; həmin mənbə, ۶-cı cild, "ət-Tövbə" surəsinin təfsiri, hədis: ۴٣٩٣; həmin mənbə, ٧-ci cild, "Kitabul-libas", "lubsul-qəmis" bölümü, hədis: ۵۴۶٠; "Səhihi-Müslim", ٧-ci cild, "Fəzailu Ömər ibn Xəttab", bölümü, hədis: ٢۴٠٠; və "Səhihi- ;Müslim", ٨-ci cild, "Kitabu sifatil münafiqin və əhkamuhum", hədis: ٢٧٧۴

Bu hədis Ömərin özündən nəql olunmuşdur və əvvəlki hədislə fərqi çox azdır. Ömər :deyir

«عَنْ ابْنِ عَبَّاس، عَنْ عُمَرِ بْنِ الْخَطَّاب أَنَّهُ قَالَ: لَمَّا مَاتَ عَبدالله بْنِ أُبَيّ بْنِ سلول دعى لَهُ رَسُولُ اللهِ لِيُصلّى عَلَيْهِ، فَلَمَّا قَامَ رَسُولُ اللهِ وَ ثبتُ إِلَيْهِ فَقُلْتُ: يَا رَسُولُ اللهِ أتصلِّى عَلى ابْنِ أُبَىّ وَ قَدْ قَالَ يَوْم كَذَا وَ كَذَا وَ كَذَا أَعدّد عَلَيْهِ قوله...».

Peyğəmbər (s) Abdullah ibn Ubəyyin cənazəsinə namaz qılmaq istəyəndə mən“ Peyğəmbərin yanına getdim və dedim: “Filan və filan gün belə-belə sözləri söyləyən Ubəyyin oğlunamı namaz qılırsan? Onun münafiqcəsinə söylədiyi sözləri Peyğəmbər üçün saydım. Allahın Rəsulu (s) gülümsədi və dedi: “Ömər keç kənara.” Mən çox israr etdiyim üçün Peyğəmbər (s) buyurdu: “Mən bu barədə ixtiyar sahibiyəm və namaz qılmağı seçdim. Əgər yetmiş dəfə istiğfar etməklə onun günahlarının bağışlana biləcəyini bilsəm, ondan daha artıq da qeyd edərəm.” Ömər deyir: “Allahın Rəsulu Abdullah ibn Ubəyyə namaz qıldı və qayıtdı. Çox keçmədi ki, “Tövbə” surəsindən bu iki :ayə nazil oldu

{وَلاَ تُصَلِّ عَلَى أَحَدٍ مِّنْهُم مَّاتَ أَبَدًا}...{ وَهُمْ فَاسِقُونَ}

Ömər deyir: “_Sonralar Peyğəmbərə (s) etdiyim öz hərəkətlərimə təəccüb elədim. Bir (hal daki, Allah və onun Rəsulu hər şeyi hamıdan yaxşı biləndirlər.”_.”(١

:Bu iki hədisdən belə başa düşülür

Allahın Rəsulu (s) münafiq olan Abdullah ibn Ubəyyin .١

səh:۴۲۵

Səhihi-Buxari”, ٢-ci cild, “Kitabul-cənayiz”, ٨٣-cü bölüm, “Ma yəkrəhu minəs-“ . [١] -١ ;səlati ələl-münafiqin”, hədis: ١٣٠٠

cənazəsinə namaz qılmış və Ömər ibn Xəttab demişdir ki; “Sənə münafiqə namaz ”.qılmaq qadağandır

Həzrət Peyğəmbərin (s) Ömərə verdiyi cavab bu oldu ki; “Allah məni münafiqin .٢ günahlarını bağışlandırmaqda ixtiyar sahibi etdiyi üçün mən də onun müsbət tərəfini ”.seçdim

Lakin aşağıda gətirəcəyimiz dəlillər vasitəsi ilə bu hədisin yalan və qondarma olduğu .aydın və məlum olur

Ağıl bu hədisi rədd edir. Çünki bu hədisin məzmununu qəbul etməklə gərək adi bir .١ şəxsin İlahi hökm və qanunlarına Peyğəmbərdən (s) daha artıq şəkildə məlumata malik olmasına etiqad bağlasın. İlahi qanunların sirlərinə və dini göstərişlərin fəsada qarşı və məsləhətə uyğun olmalarının hikmətinə Peyğəmbərdən (s) daha artıq agah olsun. Necə ki, bu hədisin məzmunu əsasında bu şəxsin fikrinin Allah tərəfindən təsdiq olunduğunu görürük. Lakin Peyğəmbərin (s) əməli xəta sayılıb və o əməldən .çəkindirilmişdir

Belə halda görəsən məsləhət deyildirmi ki, vəhy Allahın Rəsuluna (s) deyil belə bir !?şəxsə nazil olsun

Bu ayələr Abdullah ibn Ubəyyin ölümündən qabaq nazil olmuşdur. Ayənin siyaqı və .٢ ayəsi hicrətin səkkizində və {وَلاَ تُصَلِّ عَلَى أَحَدٍ مِّنْهُم} ,nəqli dəlillər bunu göstərir ki Peyğəmbərin (s) Təbuk muharibəsinə səfəri zamanı nazil olmuşdur. Ancaq Abdullah {وَلاَ} ibn Ubəy hicrətin doqquzunda dünyadan getmişdir.(١) Buna görə də, bəhs olunan تُصَلِّ عَلَى أَحَدٍ مِّنْهُم .ayəsinin Abdullah ibn Ubəyyin ölümü ilə heç bir əlaqəsi yoxdur

:Hədisin mətni onun saxta və qondarma olduğuna başqa bir dəlildir .٣

!əl-Mizan” təfsiri, ٩-cu cild, səh. ٣٨٥; “”Loğman” surəsinin təfsiri); müraciət edin“ . [١]-١

Birinci: Bu hədisdə gəlmişdir ki, “Elə ki, Allahın Rəsulu (s) Abdullah ibn Ubəyyin cənazəsinə namaz qılmaq istədi Ömər dedi: “Ətusəl-li əleyh?” “Filan və filan sözləri söyləyən Ubəyyin oğluna sən namaz qılırsanmı? Görəsən Allah səni münafiqlərə ”?namaz qılmaqdan çəkindirməyibmi

Hədisin məzmununa görə münafiqə namaz qılınmasının qadağan edilməsi bu hadisədən sonra baş vermişdir və “la təsəl” ayəsi bu söhbətlərdən sonra nazil olmuşdur. Görəsən Ömər bu iddianı necə edə bilər və bu qadağanı haradan !?gətirmişdir

Əhli-sünnə alimləri bu şübhələrə müxtəlif cavablar vermişlər; o cümlədən Qurtubi (deyir: “Bəlkə də bu qadağa Ömərin qəlbinə qabaqcadan düşən ilhamlardan biridir.”(١

İkinci: Bu hədisdə Allahın Rəsulunun (s) Ömərə verdiyi cavabda buyurduğu “Allah :onlara istiğfar edib etməməkdə mənə ixtiyar vermişdir

{أَسْتَغْفِرُ لَهُمْ أَوْلاَ تَسْتَغْفِر لَهُمْ إِنْ تَسْتَغْفِرْ لَهُمْ...}(٢)

Hansı ki, çox açıq və aydındır ki, bu ayə istiğfarda ixtiyarın olub-olmaması mənasına deyil, əksinə münafiqlər üçün istiğfarın faydasız olduğu və Allahın da onları heç vaxt bağışlamayacağı mənasınadır. Bu ayə, münafiqlərə ümidsizliyi və məyusluğu çatdırır. .Çünki onların haqqında istiğfarın heç bir anlamı və təsiri yoxdur

Ayədə qeyd olunan yetmiş ədədi də ədədin təyin olması üçün deyidir, əksinə təkid və çoxluq anlamındadır. Yəni, münafiqələrə hər nə qədər dua edib, bağışlanmalarını tələb eləsən də bu əməl faydasız və təsirsizdir. Bu səbəbdən HPeyğəmbərimizin (s) bu

---

١- [١] . “Bəraət” surəsinin təfsiri“ (; ٢٥٢ .Fəthul-bari”, ٨-ci cild, səh„) (أَسْـتَغْفِرُ لَهُمْ أَوْلاَ تَسْتَغْفِر لَهُمْ ;ayəsi

٢- [٢] . “ət-Tövbə” surəsi, ٨٠-cı ayə“;

ayənin mənasını ixtiyar mənasına yozub “Allah mənə ixtiyar vermişdir” söyləməsi necə !?mümkündür

:Ayənin axırıncı cümlələri də mənanın ixtiyar mənasına olmadığını təkid və təsdiq edir

{أسْتَغْفِرْ لَهُمْ أَوْ لاَ تَسْتَغْفِرْ لَهُمْ إِن تَسْتَغْفِرْ لَهُمْ سَبْعِينَ مَرَّةً فَلَن يَغْفِرَ اللّهُ لَهُمْ ذَلِكَ بِأَنَّهُمْ كَفَرُواْ بِاللّهِ وَرَسُولِهِ وَاللّهُ لاَ يَهْدِي الْقَوْمَ الْفَاسِقِينَ}

Ya Peyğəmbərim!) Onlar (o münafiqlər) üçün istər bağışlanma dilə, istər diləmə;)“ _ onlar üçün yetmiş dəfə bağışlanma diləsən də, yenə Allah onları bağışlamayacaq. Bu onların Allahı və Onun Peyğəmbərini inkar etmələrinə görədir. Allah fasiq tayfanı (doğru yola yönəltməz!” _(١)

Deməli,, istiğfar və bağışlanmaq tələbi münafiqlər üçün faydasızdır. Bu dəlil də istiğfarın münafiqlər üçün Peyğəmbərin (s) ixtiyarında olduğunu deyil, əksinə onlar .üşün faydasız olduğunu bildirir

Bu hədis barədə əhli–sünnə alimlərinin nəzərləri

Səhiheyn” kitablarında bu hədisin qeyd olunmasına baxmayaraq əhli-sünnə“ .alimlərinin bir çoxu onu rədd olunmuş hədis kimi tanımışlar

Qazi Əbu Bəkr Baqilani deyir: “Bu hədis doğru deyildir. Onun mənasını qəbul etmək ayəsindən (٢){أسْتَغفِرْ لَهُمْ أوْلاَ تَسْتَغْفِر لَهُمْ إنْ تَسْتَغْفِرْ لَهُمْ...} (olmaz və Həzrət Peyğəmbərin (s (ixtiyar mənasını başa düşməsini də söyləmək yanlışdır.”(٣)

İmamul-Hərəmeyn deyir: “Alimlər və hədisçilər, bu hədisi

;ət-Tövbə” surəsi ٨٠-cı ayə“ .[١]-١

;ət-Tövbə” surəsi, ٨٠-cı ayə“ .[٢]-٢

(أسْتَغْفِرُ لَهُمْ أوْلاَ تَسْتَغْفِر لَهُمْ إنْ تَسْتَغْفِرْ لَهُمْ...) ,Fəthul-bari”, ٨-ci cild, səh. ٢٥٢; (“Bəraət” surəsinin təfsiri“ .[٣]-٣ ;(ayəsi

doğru saymırlar."(۱) İmam Qəzali və Davudi də bu hədisi rədd olunmuş hədislərdən saymışlar.(۲)

Bu əfsanələrin bəzi şiə kitablarında da nəql olunması

Təəssüflər olsun ki, bu yalançı əfsanələrdən bəzisi savadsız insanların zövqlərinə uyğun gəldiyinə görə və onlara şirin və maraqlı olduğu üçün "Peyğəmbərlər dastanı" şəklində nağıl və dastan qoşarların dillərində gəzir, hətta şiə məzhəbinin ön planda olmayan bəzi kitablarında da nəql olunmuşdur. Sözsüz ki, belə kitabların müəlliflərinin məqsədləri doğru və yalnış olmasına baxmayaraq, sadəcə nəql olunanları bir yerə toplamaq olmuşdur. Bəzən "Zül-yədəyn" və "Peyğəmbərin səhvi" kimi qondarma dastanlar, bəzi mənbələrdə yerləşdirilib, hətta bu dastanları sübut etmək üçün imamlara istinad verilmişdir. Belə dastanlara sənəd silsilələrinin düzəldiyinin də şahidi oluruq. Bu bəhs geniş olduğu üçün, bu haqda qarşıda gələn münasib yerlərdə söhbət açacağıq.

۱- [۱]. "La təsəl əla əhədin minhum matə" ("Fəthul-Bari", ۸-ci cild, səh. ۳۵۵;).

۲- [۲]. Həmin mənbə.

:Səkkizinci hissə

İşarə

Xilafət məsələsi Səhiheyn kitablarında

Xilafət .١

«عَنْ أَمِيرالْمُؤْمِنِين عَلِى×»

زَرَعُوا الفجورَ، وَ سَقُوهُ الغُرُورَ، وَ حَصَدُوا الثُّبورَ، لاَ يُقَاسُ بِآلِ مُحَمَّدٍ| مِنْ هَذِهِ الْأُمَّهِ أَحَدٌ، وَلاَ يُسَوّى بِهِمْ من جَرَتْ نِعْمَتُهُمْ عَلَيْهِ أَبَداً، هُمْ أَسَاسُ الدِّين، وَ عِمَادُ الْيَقِين، إِلَيْهِمْ يَفِىءُ الْغَالِىُ، وَ بِهِمْ يَلْحَقُ التَّالِى، وَلَهُمْ خَصَائِصُ حَقِّ الْوِلاَيَه، وَ فِيهِمْ الوَصِيَّهُ وَ الْوِرَاثَهُ، الآنَ إِذْ رَجَعَ الْحَقُّ إِلَى أَهْلِهِ، وَ نُقِلَ إِلَى مُنْتَقَلِهِ.

Xəvaric ya münafiqlər ya Müaviyənin tərəfdarları və ya başqaları ürəklərində)“ itaətsizlik (toxumu) əkərək, onu yalan və qəflətlə sulayıb, həlakət biçdilər.(١) (Deməli,) bu ümmətdən heç kim Məhəmməd (s) Əhli-beyti ilə müqayisə oluna bilməz və həmişə onların nemət və bəxşişindən (elm və maariflərindən) bəhrələnənlər, onlarla eyni deyildirlər (belə isə, necə özlərini onlardan üstün bilərək, xalqı öz tərəflərinə çağırırlar, hal bu ki,) Məhəmmədin (s) Əhli-beyti dinin əsası və təməli, iman və yəqinliyin dirəyidir. (Çünki onların hidayəti və yol göstərmələri sayəsində İslam dini mövcuddur ,və Məhəmmədin (s) Əhli-beyti onlardır ki,) Haqq yoldan uzaq düşənlər onlara üz tutar

---

١- [١] . Dünya və axirət səadətini əldən verdilər. Rəsulullahın (s) Əhli-beyti isə yolunu azmışları doğru yola yönəldir, həlak olmaqdan və bədbəxtlikdən xilas edirlər.

əlacsızlar onlara qoşularlar. İmamətin xüsusiyyətləri (haqq elmlər, ayələr və möcüzələr) onlarda cəm olmuşdur və onların haqqıdır. Onlar barəsində (Allah Rəsulunun) vəsiyyəti və (O hörmətli vücuddan) irs aparmaq sabit olmuşdur. (Onlar hər bir baxımdan o Həzrətə daha yaxın və layiqdirlər. Buna baxmayaraq, ümmətdən bəziləri o böyük şəxsiyyətin vəsiyyətinə əməl etməyərək, onun irsini tapdalamış, yer üzündə fəsad toxumu səpmişlər.) İndi (çünki bundan əvvəl əmirlik və xilafəti qəsb, bu mənsəbə layiqli olanı isə dustaq etmişdilər) haqq öz əhlinə tərəf qayıtmış, tərk etmiş (olduğu yerə dönmüşdür.(١)

١- [١] . "Nəhcül-Bəlağənin şərhi" kitabı, İbn Əbil Hədid, ١-ci cild, səh. ١٣٨ (٢-ci xütbə).

Bəhsin yolu və məqsədi .۲

İşarə

Bəhsin adından məlum olduğu kimi kitabımızın bu hissəsində qeyd edəcəyimiz məsələlər “Səhihi-Buxari” və “Səhihi-Müslim” kitablarının müxtəlif bölümlərindən əldə .olunmuş xilafət mövzusuna aid olan hədislərdir

Məqsədimiz xilafət məsələsini araşdırmaq deyil əksinə bu barədə nəql olunan hədisləri qeyd etməkdir. Başqa sözlə desək bu əsər etiqadi bir kitab deyildir. Biz də bu əsərimizdə xilafət məsələsini tədqiq və təhlil edərək bir qrupun əqidəsini dəlil üzündən sübut edib başqa bir qrupun isə əqidəsinə irad etmirik. Əksinə bizim istəyimiz xilafət məsələsi ilə bir başa əlaqəsi olan və Əhli-sünnənin ən mötəbər saydiqları “Səhiheyn” .kitablarında yazılmış olan o hədisləri qeyd etməkdir

Buna görə də bu hədislərə aid olan tarixi cərəyanları nəql etmək və ya bu mövzu ətrafında geniş və dərin araşdırma işi aparıb, bu bəhsin nöqsanlarını açıqlamaq istəmirik. Buna görə də bu yol bəhsimizdən və mövzumuzdan kənar olduğuna görə ayrıca bir kitaba ehtiyac vardır ki, bu barədə də bir çox kitablar yazılmışdır. Əgər bəzi yerlərdə məsələ qeyd etmiş olsaq bu, sadəcə olaraq hədislərin mənasının və .məzmununun izahı və aydın olması üçündür

səh:۴۳۵

Xilafət, müsəlmanlar arasında ən mühüm və əsas sayılan ixtilaflı bir məsələdir. Bu ixtilafın yaranma tarixi qısa bir zamana aid deyildir əksinə Həzrət Peyğəmbərimizin (s) vəfatından və nübuvvət günəşinin batmasından sonra müsəlmanlar arasında baş .vermişdir

:Şəhristanı “Miləl və Nihəl” adlı kitabında bu barədə belə deyir

وَ أَعْظَم خِلاَفُ بَيْنَ الأُمَّهِ خلافُ الإِمَامه إِذْ مَا سلّ سَيْف فِى الإِسْلاَم عَلَى قَاعِده دِينِيّه مِثْلُ مَا سلّ عَلَى الإِمَامَه فِى كُلِّ زَمَانٍ... .

İslam ümmətinin arasında ən böyük münaqişə və ixtilaf “İmamət” mövzusudur. Bu“ üzdən İslamın bütün dövrlərində bu münaqişədən başqa heç bir mövzu barədə bu (qədər çox qanlar axıdılmamışdır.”(١)

Bizim bu ixtilafın necə meydana gəlişinin tarixi ilə işimiz yoxdur. Lakin gələcək :hədislərə müqəddimə olsun deyə burada üç məsələni sual şəklində gətiririk

Allah Təaladan (cəllə-cəlaluh) Peyğəmbərimiz Rəsuli-Əkrəm (s) vasitəsi ilə İslam .١ ümmətinə əsas mövzulardan tutmuş kiçik mövzulara kimi dini hökmlərin - qisas, ehtiram, hüquq və əmvalın dəyəri, bir an da olsa naməhrəmə baxmağın hökmü, bir kəlmə belə olsa başqasının qiybətini etmək, və s...- hamısı çatdırılmışdır. Bunların sayı vacib, müstəhəb, məkruh və haram olan məsələlərdə daha çoxdur. Bəs necə ola bilər ki, Allah və onun Rəsulu mühüm olan imamət və xilafət məsələsi barədə heç bir söz ?deməyiblər

Əgər əhəmiyyətli və əzəmətli sayılan bu məsələni müsəlmanların öhdəsinə buraxmışlarsa, bəs nəyə görə sadə və xırda məsələlərdə etməmiş və hər xırda ?mövzuda belə özləri əmr buyurmuşlar

---

.(”Miləlu vən-Nihəl”, səh. ۱۴; (Dördüncü müqəddimə: “Beşinci fəsil“ . [۱] -۱

Əgər həcdə baş qırxmaq və dırnaq tutmaq, yaxud ayaqyoluna aid olan ədəblər və hökmlər, habelə cinsi yaxınlığa və qadınlara aid olan bəzi hökmlər kimi cüzi məsələlərdə Allah-təala və onun Peyğəmbəri bəşəriyyətə lütfkarlıq edib, bu cür hökmləri onlara söyləyirlərsə, xilafət kimi əhəmiyyət kəsb edən əzəmətli bir məsələni !?bəşəriyyətə söyləməməyi özlərinə necə icazə verə bilərlər

?Yox əgər deyiblərsə onda bu xəlifə kimdir və hansı sifətlərə malikdir

Tarixi əsaslar, Həzrət Peyğəmbərimizin (s) yaşayış tərzi, Qurani-Kərimin . ٢ ayələrindən və hədislərdən belə başa düşülür ki, camaat Peyğəmbərdən (s) öyrəndikləri əhkam məsələlərindən əlavə Qurani-Kərimin ayələrinin təfsiri və şərhi üçün o Həzrətə müraciət edirdilər. Həmçinin qarşıya gələn məsələlərdə və dünya işlərində də ona müraciət edib suallar soruşurdular. Hətta bəzi vaxtlar öz narahatçılıqlarından və xəstəliklərindən o Həzrətə şikayət edib müalicə üsullarını (ondan soruşurdular.(١

Burada belə bir sual qarşıya çıxır. O da budur ki, Peyğəmbərin (s) iyirmi üç illik nübuvvəti dövründə görəsən heç bir müsəlmanın zehnindən keçmədimi və ya onun yaxın sirdaşlarının və səhabələrinin heç biri bu məsələyə diqqət etmədimi ki Peyğəmbərdən (s) onun canişini və xəlifəsi barədə sual soruşsunlar? Hansı ki, Qurani-Kərimin verdiyi şəhadətə əsasən o da bir bəşər olub və başqa bir aləmə köçməlidir və :bu ayəni də eşidib oxuyurdular

---

Tibb" kitablnda "Sünəni-Termizi"dən və "Səhihi-Müslim"dən ٢٢١٧ nömrəli" . [١] -١ hədisdə belə zikr olunmuşdur ki; "Bir kişi Peyğəmbərə (s) ərz etdi: Qardaşım ishala mübtəla olub. Həzrət (s) əmr etdi ki, bal yesin. İkinci dəfə müraciət etdikdə ərz etdi ki, xəstəliyi sağalmayıb. O həzrət (s) bal yeməsini tövsiyə etdi. Üçüncü dəfə yenə o kişi müraciət etdikdə O həzrət (s) həmin nüsxəni əmr etdi və o müalicə olundu." Bu hədis qısa bir fərqlə "Səhihi-Buxari"nin ٧-ci cildində "Kitabut-tibb" bölümündə zikr .olunmuşdur

{إِنَّکَ مَيِّتٌ وَإِنَّهُم مَّيِّتُونَ} {أَفَإِن مَّاتَ أَوْ قُتِلَ انقَلَبْتُمْ عَلَى أَعْقَابِكُمْ}

Ya Peyğəmbər!) Şübhəsiz ki, sən də öləcəksən, onlar da öləcəklər! ١ Əgər o, ölsə və)“_ ya öldürülsə, siz gerimi dönəcəksiniz? (Dininizdən dönəcək və ya döyüşdən (qaçacaqsınız?)” _(١)

Başqa bir tərəfdən onlar bilirdilər ki, xilafət və canişinlik məsələsi onların bu dünyalarının gələcəklərinin və axirət dünyalarının aqibətilə əlaqəsi vardır və bu məsələ .nübuvvət məsələsi kimi onlara dərin və tam təsiri vardır

Bu məsələlərə diqqət yetirməklə görəsən bu iyirmi üç il sürən nübuvvət dövründə Rəsuli-Əkrəmdən (s) bir nəfər də olsun tapılmadı ki, canişinlik məsələsi barədə o ?həzrətdən sual soruşsun

:Allah-Təala öz peyğəmbərinə vəsiyyət etməsi barədə, belə əmr edir .٣

{كُتِبَ عَلَيْكُمْ إِذَا حَضَرَ أَحَدَكُمُ الْمَوْتُ إِن تَرَكَ خَيْرًا الْوَصِيَّةُ لِلْوَالِدَيْنِ وَالأقْرَبِينَ بِالْمَعْرُوفِ حَقًّا عَلَى الْمُتَّقِينَ}.

Sizin hər birinizi ölüm haqlayan zaman qoyub gedəcəyiniz maldan valideynlərinizə,“_ yaxın qohumlarınıza verilməsi üçün ədalət üzrə vəsiyyət etməyiniz zəruridir. :Müttəqilərə (bu) vacibdir.”٣_(٢) Həzrət Peyğəmbər (s) özü bu məsələni açıqlamışdır

مَا حَقّ إِمْرِئٍ مُسْلِمٍ لَهُ شَيْءٌ يُوصى فِيهِ يبيت ليلتين إلاَّ ووصيّته مَكْتُبه عِندَهُ

Müsəlman kişinin ən mühüm vəzifəsi budur ki, onun vəsiyyətnaməsi yanında olmamış“ (iki gecə ardıcıl çox yuxulamasın.”(٣

.Ali-İmran” surəsi, ١٤٤-cü ayə“ . [٢] -١

.əl-Bəqərə” surəsi, ١٨٠-cı ayə“ . [٣] -٢

Səhihi-Buxari”, ٤-cü cild, “Kitabul-vəsaya”, hədis: ٢٥٨٧; “Səhihi-Müslim”, ٥-ci cild,“ . [٤] -٣ “Kitabul-vəsiyyə”, “Sünəni Əbi Davud”, “Sünəni-Nəsai”, “Sünəni İbn Macə”, Darəmi”, və ;“Termizi”, “Kitabul vəsiyyə”də və “Müsnədi-Əhməd”, ٢-ci cild, səh. ٢, ٤, ٥٧, ٨٠

Abdullah ibn Ömər deyir: “Həzrət Peyğəmbərdən (s) vəsiyyət haqqında söylədiklərini eşitdikdən sonra hətta bir gecə də olsun vəsiyyətnaməsiz gecəni yatmırdıq”.(١)

Baxmayaraq ki, Quran bu məsələ barədə öz ciddi sözünü söyləmiş, Peyğəmbər (s) də bu qədər təkid və tövsiyələrini bildirmişdir, necə ola bilər ki bunların hamısının qarşısında hamıdan daha çox vəsiyyət etməsinə ehtiyacı olan Peyğəmbərin özünə növbə yetişdikdə o, bu məsələyə səhlənkar yanaşmış və əmrə tabe olmamışdır? Bunu ağıl necə qəbul edir? Buna görə də Peyğəmbərin (s) özündən sonra qoyduğu sərvətini idarə edə bilənə ehtiyacı olduğu halda, onun yetimlərinə sahib çıxa bilənə və sərpərəstə ehtiyac duyulduğu halda, ağıl və vicdan bunu necə qəbul edə bilər ki, onlar bu qədər sərvəti, özlərindən sonra qoyduqları qayda-qanunları, məzhəbi proqramları, bütün dünyadan ibarət olan öz yetimlərini öz başına buraxsınlar? Bu qədər çox əhəmiyyət kəsb edən bu məsələni uzaqgörən və dərin təfəkkürlü insanlardan gizlətsinlər?!

Vicdanı və ağlı kənara qoysaq, tarixi baxımdan sübut olunmuşdur ki, Həzrət Peyğəmbər (s) xırda və sadə məsələlərdə məsələn: qoşuna başçı təyin etməsi kimi, bir neçə nəfəri baş verəcək hadisələrdə biri digərindən sonra birbaşa həmin postu və məqamı öz öhdəsinə götürməsini əmr etmişdir.

Yenə də sağlam dəlillər əsasında sübut olunmuşdur ki, Həzrət Rəsul (s) özünün qüsl edilib dəfn olunmasını və borclarının qaytarılmasını Həzrət Əliyə (ə) vəsiyyət etmişdir və bu xırda məsələlər onun nəzərindən qaçmamışdır.

Bəs necə ola bilər ki, bu qədər əhəmiyyətli olan xilafət və canişinlik məsələsi o həzrətin yadından çıxsın?!

Bu sualların cavabı şiə məzhəbinin və onun rəhbərlərinin

۱- [۱]. “Səhihi-Müslim”, ۵-ci cild, “Kitabul-Vəsiyyə”.

baxımından o qədər açıq və aydındır ki, kiçik bir bəhsə və sübuta belə ehtiyac yoxdur. Çünki şiə məzhəbinin əqidəsi budur ki, Peyğəmbərin (s) dövründə mühüm olan bu məsələ barədə nə camaat susmuş, nə də Allah və onun Rəsulu (s) bu mövzunu açıqlamaqdan imtina etmişdir. Əksinə Həzrət Peyğəmbərimiz (s) peyğəmbərliyini elan etməsinə əmr olunduğu gündən xilafət və canişinlik məsələsini açıqlamasına və camaata çatdırmasına əmr olunmuşdur. O da bu mühüm məsələdə heç bir kəsə sual və şübhə yeri qoymamışdır. Hətta müxtəlif yerlərdə cürbəcür mövzularda xilafət və canişinlik məsələsini hamıya eşitdirmiş, özündən sonra bu məqama layiq olacaq :şəxsləri tanıtdırmışdır. Biz onların bir neçə nümunəsini burada qeyd edirik

ƏN YAXşıN QOHUMLARıNı QORXUT! _(١)_“ {وَأَنـذِرْ عَشِـيرَتَكَ الْأَقْرَبِينَ} Besətin əvvəllərində ayəsi nazil olarkən Həzrət Peyğəmbər (s) Qureyşin böyüklərini və öz əmilərini evinə dəvət etdi. Yemək yedikdən sonra söhbət edib vəhy və nübuvvət mövzusunu açıqlamaq istəyirdi. Ancaq Əbuləhəb o Həzrətin söhbətinə mane oldu. Lakin ikinci məclisdə Allahın Rəsulu (s) başqalarına möhlət vermədən özü söhbətə başladı. Söhbət əsnasında vəhy və İlahi tərəfdən peyğəmbərliyə seçildiyini, o cümlədən Əmirəl–möminin Əlinin (ə) də xəlifəsi və canişini olduğunu bildirdi. Bu söhbətdən açıqlanarkən məclisdə iştirak edənlər tərəfindən gülünc və məsxərə ilə qarşılandı. Məclisdə iştirak edənlər gülə-gülə “özünün nübuvvətini qəbul etmirik hələ canişinini də bizə tanıtdırır” (deyərək Peyğəmbəri (s) ələ salırdılar.(٢

Ya da axırıncı həcc səfərindən qayıtdıqda Cöhfənin isti və

əş-Şüəra” surəsi, ۲۱۴-cü ayə“ . [۱] -۱

Kamilu İbn Əsir”, ۲-ci cild, səh. ۴۲ (Zikru əmərəl-lahu təala nəbiyyəhu biizhari“ . [۲] -۲ .”dəvətih); “Tarixi-Təbəri”, “Hicrətin üçüncü ilinin hadisəsi

yandırıcı “Qədir Xum” adlı çöllüyündə bütün hacılara dayanmaq əmrini verdi. Öndə gedənlər o həzrətin yanına qayıtdılar. Geridə qalanlar da özlərini ona yetirdilər. Sonra o qədər cəmiyyətin içində Əlini (ə) tanıtdırdı və مَنْ كُنْتُ مَوْلاَهُ فَهَذَا عَلِيٌّ مَوْلاَهُ “Mən, hər kəsin ağasıyamsa, Əli də onun ağasıdır” deyə buyurdu.

Ya da ömrünün axır anlarını yaşayarkən, ölüm təri onun mübarək alnında muncuq kimi düzüldükdə yenə də Peyğəmbər (s) bu mühüm məsələni unutmamışdı. Gətirdiyi dinin və qayda qanunların gələcəyini fikrindən qaçırmamış və bu qədər əzab-əziyyətə dözdükdən sonra ümmətinin hidayəti üçün onların aqibətini öz gözləri önündə canlandırırdı. Buna görə də əmr etdi ki, “sizə mühüm bir məsələni yazmağım üçün qələm və kağız gətirin ki məndən sonra heç vaxt azmayasınız”

Bəzən minbərdə belə buyurardı:

إِنِّی مُخْلِفٌ فِیكُمْ الثَّقَلَیْنِ كِتَابَ اللهِ وَ عِتْرَتِی مَا إِنْ تَمَسَّكْتُمْ بِهِمَا لَنْ تَضِلُّوا أَبَدًا

“Həqiqətən, mən sizin aranızda iki ağır yük qoyuram. Onlardan biri Allahın kitabı (Quran), digəri isə mənim itrətim (Əhli-beytim)dir. Əgər onların hər ikisindən yapışsanız heç vaxt yolunuzdan azmazsınız.”

Hər vaxt, özündən sonra olan xəlifə və canişinlərinin adları ilə nişanələrini tanıtdırdıqda onların sayını da açıqlayırdı:

الْخُلَفَاء بَعْدِی إِثْنَا عَشَرَ “Məndən sonra on iki xəlifə olacaqdır”.

Bəzən də onun canişinləri barədə nazil olmuş ayələri camaata oxuyaraq belə buyurardı:

يَا عَلِی أَنْتَ مِنِّی بِمَنْزِلَهِ هَارُونَ مِنْ مُوسَى إِلاَّ أَنَّهُ لاَ نَبِيَّ بَعْدِی

“Ya Əli! Sən mənə nisbətdə Harunun Musaya olan nisbəti kimisən”.

Bəzən də özündən sonra İslamda baş verəcək dəyişiklərdən və təhriflərdən danışaraq öz dərin təəssüflərini bildirərdi. Əslində, bütün bu təhriflərin bünövrəsini və əsasını təşkil

.edən də məhz xilafət məsələsi idi

On dörd əsr boyu mümkün olan qədəri hökumətlər var gücləri ilə çalışmışlar ki, həqiqəti örtbasdır edib bu məsələyə başqa bir don geyindirsinlər. Lakin eyni halda şiənin əqidəsilə uyğun gələn, “Səhihi-Buxari” və “Səhihi-Müslim” kitablarında öz əksini .tapmış bu hədisləri və həqiqətləri ələ gətirmək olar

İndi isə kitabın bu hissəsində Həzrət Peyğəmbərimizin (s) “Səhiheyn” kitablarında nəql olunmuş pak və ismət sahibi olan Əhli-beytinin (səlamullahi ələyhim əcməin) barəsində buyurduğu hədisləri burada gətirərək, bu iki kitabda qeyd olunan hədislərin .məzmunu əsasında xəlifələrlə sizləri tanış edirik

Səhiheyndə Peyğəmbər ailəsinin fəzilətləri .٣

Təthir"ayəsi və Peyğəmbərin ailəsi" .١

...قَالَتْ عَايِشةُ: خَرَجَ النَّبِيّ | غَدَاةً وَ عَلَيْهِ مَرْطٌ مرحل من شعر أَسودَ، فَجَاءَ الْحَسَنُ بْنُ عَلِيٍّ فَأَدْخَلَهُ ثُمَّ جاءَ الْحُسَيْنُ فَدَخَلَ مَعَهُ ثُمَّ جاءَتْ فَاطِمَهُ فَأَدْخَلَهَا ثُمَّ جاءَ عَلِيٌّ فَأَدْخَلَهُ ثُمَّ قَالَ: {إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا}.

Aişə deyir: Allahın Rəsulu (s) sübh çağı evdən çıxdı. Qara sapdan naxışları olan əbası" çiynində idi. Bu vaxt Həsən ibn Əli (ə) onun yanına gəldi. Həzrəti Rəsul (s) Həsəni əbasının arasına saldı. Sonra Hüseyn (ə) gəlib əbanın arasına girdi. Ondan sonra Fatimə (səlamullahi ələyha) gəldi və o da əbanın arasına daxil oldu. Daha sonra isə Əli (ə) da gəldi Rəsuli-Əkrəm (s) onu da əbanın arasına daxil etdi. Bu vaxt bu ayə nazil oldu: (Ey Əhli-beyt! Allah sizdən bütün çirkinliyi (günahı) yox etmək və sizi tərtəmiz ((pak) etmək istər!(١) (٢

Bu hədisi "Səhihi-Müslim" kitabından nəql etməyimizə baxmayaraq, o cümlədən əhli-sünnənin başqa hədis və təfsir kitablarında da çoxlu qeyd olunmuşdur. Bu ayənin -Rəsuli

---

;əl-Əhzab" surəsi, ٣٣-cü ayə" . [١] -١

Səhihi-Müslim", ٧-ci cild, "Kitabu fəzailus-səhabə", "Fəzailu Əhli-beytin-Nəbiyy" . [٢] -٢ ;(s) ", hədis: ٢٤٢٤

Əkrəm (s) və onun Əhli-beyti (səlamullahi ələyhim əcməin) barədə nazil olmasına şübhə də yoxdur. Biz "İslam Peyğəmbəri ayələrdə və hədislərdə" adlı bəhsimizdə həmin ayənin zilində bəzi sənədlərə işarə etmişik. Qeyd etmişdik ki, bu mübarək ayə, Əhli-beytin (səlamullahi ələyhim əcməin) hər növ günahdan və bütün çirkinlikdən pak olmalarına zəmanət vermişdir. Onları hər növ kiçik və böyük günahlardan -hansı ki, Quranda onu "rics" adlandırılmışdır- təmiz və pakizə tanıtdırmışdır.

Həmçinin Əhli-beytin (səlamullahi ələyhim əcməin) səhv və xəta üzündən günah etmədiyinə dəlalət edən bu ayəni də qeyd etmişdik. Çünki səhv və xəta əzab və təklifin hökmünü ardan qaldırsa da zati çirkinliyin, ricsin, haramın qoyduğu əsəri və pisliyi aradan apara bilmir.(١)

٢. "Mübahilə" ayəsi və Peyğəmbərin ailəsi

...عَنْ عَامِرِ بْنِ سَعْدِ بْنِ أَبِى وَقَّاصٍ، عَنْ أَبِيهِ قَالَ: أَمَرَ مُعَاوِيهُ بْن أَبِى سُفْيَان سعدًا فَقَالَ: مَا مَنَعَکَ أَن تَسُبَّ أَبَا التَرَابٍ؟ فَقَالَ: أَمَّا ذَكَرْتُ ثَلاثاً قَالَهُنَّ لَهُ رَسُولُ اللهِ فَلَنْ أَسبَّهُ فِی بَعْضِ مغَازِيه، فَقَالَ عَلِیّ: يَا رَسُولُ اللهِ! خَلَّفَتْنِی مَعَ النِّسَاءِ وَالصِبْيان. فَقَالَ لَهُ رَسُولُ اللهِ: أَمَا تَرْضَی أَنّ تَكُونَ مِنِّی بِمَنْزِلَهِ هَارُونَ مِنْ مُوسَی إِلَّا أَنَّهُ لَا نُبُوَّه بَعْدِی. وَسَمِعْتُهُ يَقُولُ يَوْمَ خَيْبَرِ: لأعْطِيَنَّ الرايَه رَجُلًا يُحِبُّ اللهَ وَ رَسُولَهُ وَ يُحِبُّهُ اللهُ وَ رَسُولُه، قَالَ: فَتَطَاوَلْنَا لَهَا فَقَالَ: أُدْعُوا لِی عَلِيًّا فَأُتِی بِهِ أرمدُ، فبَصقَ فِی عَيْنِهِ وَ دَفَع الرَايَهَ أِلَيْهِ فَفَتَحَ اللهُ عَلَيْهِ، وَ لَمَّا نَزَلَتْ هَذِهِ الآيَه: {فَقُلْ تَعَالَوْاْ نَدْعُ أَبْنَاءَنَا وَأَبْنَاءَكُمْ وَنِسَاءَنَا وَنِسَاءَكُمْ} دَعَا رَسُولُ اللهِ عَلِيّاً وَ فَاطِمَهَ وَ حَسَناً وَ حُسَيْناً فَقَالَ: اللهُمَّ هَؤُلَاءِ أَهْلِی.

Müslim öz sənədi ilə Amir ibn Səd ibn Əbi Vəqqasdan, o da atası Səddən nəql edir ki, Müaviyə ibn Əbi Süfyan ona dedi: "Əbu Turabı söyməməyinə nə mane olur? Səd ibn Vəqqas

---

١- [١] . Müraciət et: həmin kitabın "İslam Peyğəmbəri Quranda və hədislərdə" adlı bölümündə.

Müaviyənin cavabında dedi: Rəsuli-Əkrəm (s) onun barəsində üç fəzilət açıqlamışdır. Hər dəfə bu fəzilətlər mənim yadıma düşdükdə onu söyə bilmirəm. Əgər bu fəzilətlərdən biri məndə olsaydı qırmızı tüklü dəvələrdən qat-qat üstün olardı. O üç :fəzilət bunlardır

Müharibələrin birində Allahın Rəsulu (s) Əlini öz canişini seçdi. Əli ərz etdi: Ya - Rəsulullah məni qadınların və uşaqların yanında qoyursan? Özüm eşitdim ki, Həzrət Peyğəmbər (s) belə buyurdu: Ya Əli! Mənə nisbət Harunun Musaya olan nisbəti kimi olmağa razı deyilsənmi? Hansı ki, sən peyğəmbər deyilsən. Çünki məndən sonra .nübuvvət və peyğəmbərlik yoxdur

Xeybər döyüşündə Rəsuli-Əkrəmdən (s) eşitdim ki belə buyurdu: "Sabah bayrağı elə - bir kəsin əlinə verəcəm ki, Allahı və onun Rəsulunu çox sevir və Allah və onun Rəsulu da onu çox sevirlər." Səd əlavə etdi: Müaviyə, bu vaxt belə dedi: Hamımız arzu edirdik ki Peyğəmbər (s) o bayrağı bizim əlimizə versin. Lakin Allahın Rəsulu buyurdu ki; "Əlini mənim yanıma çağırın." Əlini gözləri möhkəm ağrıdığı halda gətirdilər.Peyğəmbər (s) ağzının suyundan onun gözlərinin üstünə sürtdü və bayrağı onun əlinə verdi. Allah- ".Təala da onun əli ilə müsəlmanlara qələbə nəsib etdi

Peyğəmbərdən Əli barəsində eşitdiyim başqa fəzilət isə bu idi: (Ya Peyğəmbər! de: - Gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı; biz də qadınlarımızı, siz də qadınlarınızı; biz də özümüzü, siz də özünüzü (bura) çağıraq!) (١) ayəsi nazil olduqda Peyğəmbər (s) Əlini, Fatiməni, Həsəni və Hüseyni çağırdı və buyurdu: "İlahi! Bunlar mənim Əhli- (beytimdirlər."(٢

Ali-İmran" surəsi, ۶۱-ci ayə" . [۱] -۱

Səhihi-Müslim", ۷-ci cild, "Kitabu fəzailus-səhabə", "Fəzailu Əli ibn Əbi Talib" " . [۲] -۲ ;bölümü, hədis: ۲۴۰۴-۲۴۰۷

...يَزِيد بْنِحَيَّان قَالَ: انْطَلَقْتُ أَنَا وَ حصينُ بْن سبرة وَ عُمَرُ بْنِ مُسْلِمْ إِلَى زَيْدِ بْنِ أَرْقَم، فَلَمَّا جَلَسْنَا إِلَيْهِ قَالَ لَهُ حصين: يَا زَيْد لَقَدْ لَقَيْتَ خَيْراً كَثِيراً، رَأَيْتَ رَسُولَ اللهِ، وَ سَمِعْتَ حَدِيثَهُ، وَ غَزْوَتَ مَعَهُ، وَ صَلَّيْتِ خَلْفَهُ، لَقَدْ لَقَيْتَ يَا زَيْد خَيْراً كَثِيراً حَدِّثْنَا يَا زَيْد مَا سَمِعْتَ مِنْ رَسُولِ اللهِ|، قَالَ: يَا ابْنَ أَخِي وَاللهِ! لَقَدْ كَبُرَ سِنِّي وَ قَدِمُ عَهْدِي، وَ نَسِيتُ بَعْضَ الَّذِي أَعِي مِنْ رَسُولِ اللهِ|، فَمَا حَدَّثْتُكُمْ فَاقْبَلُوهُ وَ مَا لَا تُكَلِّفُونِيهِ.

ثُمَّ قَالَ: قَامَ رَسُولُ اللهِ يَوْماً فِينَا خَطِيباً بِمَاء يُدْعَى خَمّاً بَيْنَ مَكَّهَ وَ الْمَدِينَه، فَحمدِ الله وَ أَثني عَلَيهِ، وَ وَعَظ وَذَكَرَ، ثُمَّ قَالَ: أَمَّا بَعْد، أَلَا يَا أَيُّهَا النَّاس! فَإِنَّمَا أَنَابَشَر يُوشَكُ أَنْ يَأتِى رَسُولُ رَبِّى فَأَجِيبُ وَ أَنَا تَارِكُ فِيكُم ثَقَلَيْن: أَوَّلِهمَا كِتَابُ اللهِ فِيهِ الهدى وَالنُّور، فَخُذُوا بِكِتَابِ اللهِ، وَ السْتَمْسَكُوا بِهِ، فَحَثّ بِكِتَابِ اللهِ وَ رَغَّبَض فِيهِ، ثُمَّ قَالَ: وَ اهْلَ بَيْتِى أُذَكِّرُكُمُ اللهَ فِى أَهْلِ بَيْتِى، أُذَكِّرُكُمُ اللهَ فِى أَهْلِ بَيْتِى، أُذَكِّرُكُمُ اللهَ فِى أَهْلِ بَيْتِى ثَلَاثاً، فَقَالَ: لَهُ حصين: وَ مَنْ أَهْلُ بَيْتِهِ يَا زَيْد؟ أَلَيْسَ نِسَاؤُهُ مِنْ أَهْلِ بَيْتِهِ، قَالَ: نِسَاؤُهُ مِنْ أَهْلِ بَيْتِهِ وَ لَكِنَّ أَهْلَ بَيْتِهِ من حُرِّمَ الصَّدَقَهُ بَعْدَهُ، قَالَ: وَ مَنْ هُمْ؟ قَالَ: هُمْ آلُ عَلِىّ، وَ آلُ عَقِيلِ، وَ آلُ جَعْفَرِ، وَ آلُ عَبَّاسِ. قَالَ: كُلّ هَؤُلَاءِ حُرِّمُوا الصَّدَقَه، قَالَ: نَعَمْ.

Yəzid ibn Həyyan deyir: “Mən və Həsin ibn Sirə və Ömər ibn Müslim Zeyd ibn Ərqəmin yanına getdik. Onun məclisində əyləşdik. Həsin dedi: Ya Zeyd, sən bir çox xeyirli şeylərə nail olmusan. Çünki Həzrət Peyğəmbərin (s) xidmətində olub onu görmüsən və onun buyurduqlarını eşidib onunla birgə döyüşlərdə iştirak etmisən. O həzrətin (s) arxasında namaz da qılmılsan. Sən yaşadığın bu dövrdə bu qədər gözəl günlər görmüsən. Həzrət Peyğəmbərdən (s) eşitdiklərindən bizə də nəql et.” Zeyd ib Ərqəm dedi: “Qardaş oğlu! Mən qocalmışam və ömrümü başa vurmuşam. Peyğəmbərin buyurduqlarından bir hissəsini unutmuşam. Söylədiklərimi qəbul edin və sükut etdiyim yerdə məni sıxışdırmayın”. Sonra Zeyd ibn Ərqəm dedi: “Bir gün Allahın Rəsulu (s) ”Məkkə və Mədinə arasında “Xum

adlı çöllükdə ayağa qalxdı. Allah-Təalaya həmd və sənalar söylədikdən sonra camaata :moizə və nəsihət etməyə başladı

Camaat! Mən də sizin kimi bir bəşərəm. Ölüm mələyi mənim də sorağıma gələcək və“ mən də dünyamı dəyişəcəm. İndi sizin aranızda iki ağır əmanəti yadigar olaraq qoyuram: Biri insanları hidayət edən və bəşərin səadət yolunu göstərən Allahın kitabı Qurandır. Allahın kitabına əhəmiyyət verin və ondan bəhrələnin.... Digəri isə mənim Əhli-beytimdir. Mənim Əhli-beytimə (hörmətsizlik etsəniz) Allahdan qorxun.” Bu !cümləni üç dəfə təkrar etdi

Zeyd dedi: Bəli, Peyğəmbərin xanımları da onun Əhli-beytindən sayılır. Ancaq hədisdə tövsiyə və sifariş olunan Əhli-beyt deyillər, əksinə Peyğəmbərin (s) Əhli-beytdən məqsədi sədəqə onlara haram olan kəslərdir.” Həsin soruşdu: “Sədəqə onlara haram olan kəslər kimlərdir?” Zeyd cavab verdi: “Əlinin övladları, Əqilin övladları, Cəfərin övladları və Abbasın övladları.” Həsin soruşdu: Bunların hamısına sədəqə haramdırmı? (Zeyd cavab verdi: “Bəli”.(١

Bu hədisi Müslim öz “səhih”ində bir çox sənədlərlə nəql etmişdir. Ancaq təəssüflər olsun ki, “Qədir-Xum”a aid olan axır hissəsini nəql etməmişdir. “Qədir Xum” hədisinin yüzlərcə ravisi vardır. O cümlədən Zeyd ibn Ərqəm belə deyir: “Bu vaxt Allahın Rəsulu (s) buyurdu: Hər kimin mövlası və ağası mənəmsə, Əli də onun ağasıdır. İlahi! Onu (sevənləri sev, düşmənçilik edənlərlə düşmən ol.”(٢

Bununla belə, Zeyd ibn Ərqəm bu hədisin əsl mənasında

;Səhihi-Müslim”, ۷-ci cild, “Kitabu fəzailus-səhabə”, “Fəzailu-Əli” (ə) , hədis: ۲۴۰۸“ . [۱]-۱
Hakim “Müstədrək”in ۳-cü cildinin ۵۳۳-cü səhifəsində “Zikru-Zeyd ibn Ərqəm” və . [۲]-۲ Əhməd ibn Hənbəl “Müsnəd” adlı kitabının ۴-cü cildində, “Zeyd ibn Ərqəm”in hədisində .۳۷۲-ci səhifədə bu hədisi Zeyd ibn Ərqəmdən nəql etmişlər

dəyişiklik edərək öz şəxsi fikrini irəli sürmüş və Əqilin, Cəfərin və Abbasın övladlarını da Əhli-beytdən saymışdır. Halbuki "Təthir" və "Mübahilə" ayəsinin şərhində qeyd olunmuş keçmiş iki hədisin məzmununa əsasən Peyğəmbərin (əsəlləllahuləyhi və alihi və səlləm) özü Əhli-beytin kim olduğunu açıqlamış, Zeyd ibn Ərqəm kimilərinin fikir irəli sürmələrinə yer qoymamışdır.

Güclü təəssübkeşlik

"Qədir-Xum" və "Səqəleyn" hədisinin mövzusu mühüm bir hadisə olduğundan əhli-sünnə kitablarında və sənədlərində geniş şəkildə qeyd olunmuşdur.(١) Əhli-sünnə alimləri bu barədə yüzlərcə hədis, tarix və təfsir kitabları yazmış və sayı ondan yuxarı olan sənədlərdə qeyd etmişlər. Ancaq bu kitabın keçmiş səhifələrində dediyimiz kimi, təəssüflər olsun ki, "Səhiheyn" kitablarının müəllifləri təəssübləri üzündən Əmirəl möminin Əlinin (ə) mühüm və əsaslı olan fəzilətlərini, ocümlədən haqqında söhbət etdiyimiz hədisi qeyd etməmişlər. "Səhihi-Müslim" kitabında "Qədir Xum" kimi tarixi hadisədən təkcə bir hissəsi naqis və təhrif olunmuş surətdə qeyd olunmuşdur.

Yaxşı olar ki, bu hissədə Əbu Hamid Qəzalinin "Qədir-Xum" mövzusunda söylədiyi sözləri burada yada salaq:

Alimlərin əksəriyyəti Həzrət Peyğəmbərin (s) müsəlman cəmiyyətinin içində "Mən hər kəsin ağasıyamsa, Əli də onun ağasıdır"" «مَنْ كُنْتُ مَوْلاَهُ فَعَلِيٌّ مَوْلاَهُ» buyurduğu kəlamını nəql etmişlər. Həmçinin qeyd etmişlər ki, Ömər Peyğəmbərin (s) bu xütbəsindən sonra belə dedi:

«بَخٍّ بَخٍّ لَكَ يَا أَمِيرَالْمُؤْمِنِينَ: أَصْبَحْتَ مَوْلاَىَ وَ مَوْلاَءِ كُلِّ مُؤْمِنٍ وَ مُؤْمِنَهٍ»

١- [١] . Yazıçı, Qum şəhərində ərəb dilində çap olunmuş "Əlhadi" adlı jurnalın ikinci nömrəsində bu hədisi əhli-sünnənin iyirmi üç hədis və tarix kitablarından dəqiq ünvanları və müəlliflərinin adı ilə bir yerdə zikr etmişdir.

Mübarək olsun, mübarək olsun sənə ya Əmirəlmöminin! Sən mənim və bütün mömin“ ”.və möminələrin ağası oldun

Bu sözün mənası Əlinin (ə) hakimiyyətinə təslim və razı olmaq deməkdir. Ancaq sonralar hakimiyyətə olan meyllik, xilafətin bayrağını daşımağa olan istək onun nəfsinə qələbə çaldı. Qoşuna sərkərdəlik etmək və fəthlər, onları nəfslərinə tabr etdi. Bu yolla İslamdan əvvəlki dövrə qayıtdılar və bu əhdi-peymanları unudaraq ucuz (qiymətə satdılar.”(١)

Rəsuli-Əkrəm (s) Əhli-beyti öz yaxınları kimi tanıtdırıb .۴

Əhli-sünnə kitablarında nəql olunan çoxlu rəvayətlərin məzmununa əsasən Həzrət Peyğəmbər (s) müsəlmanlara əmr etmişdir ki, ona salam və salavat göndərdikdə övladlarına da onunla birgə salam söyləsinlər. Nübuvvət məqamına hörmət bəslədikdə Peyğəmbərin (s) övladlarına da hörmət bəsləsinlər. Onunla övladları arasında ayrılıq və fasilə salmasınlar. “Səhiheyn” kitablarından bir neçə hədisi burada :gətiririk

.١

...حَدَّثَنَا الحکمُ قَالَ: سَمِعْتُ عَبْدِالرَّحْمَانِ بْنِ أَبِی لیلی قَالَ: لَقِیَنِی کَعْبُ بْن عجرة فَقَالَ: أَلَا أُهْدِی لکَ هَدِیَّةً؟ إِنَّ النَّبِیّ | خَرَجَ عَلَیْنَا. فَقُلْنَا: یَا رَسُولُ اللهِ لَقَدْ عَلِمْنَا کَیْفَ نُسَلِّمُ عَلَیْکَ فَکَیْفَ نُصَلِّی عَلَیْکَ؟ فَقَالَ: قُولُوا: أَللهُمَّ صَلِّ عَلَی مُحَمَّدٍ وَ عَلَی آلِ مُحَمَّد، کَمَا صَلَّیْتَ عَلَی آلِ إِبْرَاهِیم، إِنَّکَ حَمِیدٌ مَجِید. أَللهُمَّ بَارِکْ عَلَی مُحَمَّدٍ وَ آلِ مُحَمَّد، کَمَا بَارَکْتَ عَلَی آلِ إِبْرَاهِیم إِنَّکَ حَمِیدٌ مَجِید.

Həkəm Əbdur-Rəhman ibn Əbi Leylidən nəql olur ki; “ Kəəb ibn Ucrə məni görüb dedi: İstəyirsən sənə bir töhfə və hədiyyə bağışlayım? O töhfə budur: Bir gün Allahın Rəsulu (s) bizim yanımıza gəldi. Mən soruşdum ki, “Ya Rəsulullah! Sizə necə salam verməyi bilirik, sizə necə salam və səlavat göndərəcəyimizi

---

Sirrul-aləmin”, (Nəcəf çapı), səh. ٢١, “Fi məqalətir-rabiə fi tərbiyətil-xilafə”“ . [١] -١ ;bölümü

:bizə söyləyin.” Həzrət Peyğəmbər (s) buyurdu

أَللهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ وَ عَلَى آلِ مُحَمَّد، كَمَا صَلَّيْتَ عَلَى آلِ إِبْرَاهِيم، إِنَّكَ حَمِيدٌ مَجِيد. أَللهُمَّ بَارِكْ عَلَى مُحَمَّدٍ وَ آلِ مُحَمَّد، كَمَا بَارَكْتَ عَلَى آلِ إِبْرَاهِيم إِنَّكَ حَمِيدٌ مَجِيد.

İlahi! İbrahimin övladlarına salam göndərdiyin kimi Məhəmmədə və onun övladlarına“ da salam göndər ki, həqiqətən sən həmd və sənaya layiqsən. İlahi! İbrahimin övladlarına bərəkət nazil etdiyin kimi Məhəmmədə və onun övladlarına da salam (göndər ki, həqiqətən sən həmd və sənaya layiqsən.”(١

(Buxari bu hədisin məzmununa oxşar başqa bir hədisi Əbi Səid Xidridən nəql edir.(٢ .٢

.٣

...عَنْ أَبِي مَسْعُودِ الأَنْصَارِي قَالَ: أَتَانَا رَسُولُ اللهِ | وَ نَحْنُ فِي مَجْلِسِ سَعْدِ بْنِ عِبَادَه، قَالَ لَهُ بِشْرِ بْنِ سَعْدٍ: أَمَرَنَااللهُ عَزَّ وَ جَلَّ أَنْ نُصَلِّيَ عَلَيْكَ يَا رَسُولُ اللهِ | قَالَ: فسَكت رَسُولُ اللهِ حَتَّى تَمَنَّيْنَا أَنَّهُ لَمْ يَسْأَلْهُ ثُمَّ قَالَ رَسُولُ اللهِ: قُولُوا: أَللهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ وَ عَلَى آلِ مُحَمَّد، كَمَا صَلَّيْتَ عَلَى آلِ إِبْرَاهِيم، وَ بَارِكْ عَلَى مُحَمَّدٍ وَ آلِ مُحَمَّد، كَمَا بَارَكْتَ عَلَى آلِ إِبْرَاهِيمَ فِي الْعَالَمِينَ إِنَّكَ حَمِيدٌ مَجِيد، وَالسَّلَامُ كَمَا عَلَّمْتُمْ.

Müslim də Əbu Məsuddan bu barədə belə nəql etmişdir ki; “Biz Səd ibn İbadənin məclisində idik. Allahın Rəsulu (s) da bu məclisə gəldi. Bişr ibn Səd ərz etdi: Ya Rəsulullah! Allah-Təala sənə salavat göndərməyi bizə əmr edib. Sənə necə salavat göndərək? Əbu Məsud deyir: Allahın Rəsulu (s) elə sükuta daldı ki biz bir an istədik ki, Bişr bu sualı bir də açıqlasın. Bu

---

Səhihi-Buxari”, ٨-ci cild, “Kitabud-dəəvat”, “Əs-sələvatu ələn-Nəbiy” bölümü,“ . [١] -١ hədis: ۵۹۹۶-۵۹۹۷; ۶-cı cild, “Kitabut-təfsir”, “Təfsiru surətil Əhzab”, ١٠-cu bölüm, hədis: ۵۴۱۹-۵۴۲۰; ۴-cü cild, “Kitabul-ənbiya” “Yəzifunən-nəslan” bölümü, hədis: ٣٠٩٠; “Səhihi-;Müslim”, ٢-ci cild, “Kitabus-səlat ələn-nəbiy”, hədis: ۴٠۵-۴٠٧

Səhihi-Buxari”, ۶-cı cild, “Kitabut-təfsir”, “Əhzab” surəsinin təfsiri, ١٠-cu bölüm,“ . [٢] -٢ ;hədis: ۵۴۱۹-۵۴۲۰

:vaxt Həzrət Peyğəmbər (s) buyurdu

أَللهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ وَ عَلَى آلِ مُحَمَّد، كَمَا صَلَّيْتَ عَلَى آلِ إِبْرَاهِيم، وَ بَارِكْ عَلَى مُحَمَّدٍ وَ آلِ مُحَمَّد، كَمَا بَارَكْتَ عَلَى آلِ إِبْرَاهِيمَ فِى الْعَالَمِينَ إِنَّکَ حَمِيدٌ مَجِيد

(.Sizin salam söyləməyiniz öyrəndiyiniz kimidir.”(۱) (Yəni yuxarıda söylənilən qaydada“

Əhli-sünnənin sihah, məsanid və təfsir kitablarında(۲) sayı ondan çox olan belə hədislər Peyğəmbərin əmri ilə onun adının kənarında Əhli-beytinə də salavatın necə söylənilməsi qeyd olunmuşdur. Bu kitabların ən kamili isə Cəlaləddin Siyutinin yazdığı (“əd-Dürrul-Mənsur” adlı təfsir kitabıdır.(۳

Peyğəmbərdən sonra bəziləri həmin illərin siyasətinə görə, O həzrətin ailəsinin (səlamullahi ələyhim əcməcin) fəzilətlərini gizlətməyə məcbur qaldılar. Bu üzdən salavatdan Peyğəmbər övladlarının adları tədricən silindi və təkcə Peyğəmbərin (s) adı ilə qısa – naqis – salavat göndərməklə kifayət etdilər. Baxmayaraq ki, əhli-sünnə alimlərinin gözü qarşısında həmin hədislər yenə də mövcuddur və öz kitablarında bu hədisləri qeyd edirlər ancaq təəssüflər olsun ki, onlara baxdıqda görürük ki, onlar öz ata-babalarının qoyduğu yolu gedirlər. Öz yazılarında və sözlərində salavat söyləməkdə Peyğəmbərin (s) əmrinə qarşı çıxaraq onunla müxalifət edirlər. Bu hədisin məzmununa itaət etmək əvəzinə, öz ata və babalarının irs qoyduğu bu yolldan itaət .edirlər

{وَإِذَا قِيلَ لَهُمُ اتَّبِعُوا مَا أَنزَلَ اللَّهُ قَالُوا بَلْ نَتَّبِعُ مَا وَجَدْنَا عَلَيْهِ آبَاءَنَا أَوَلَوْ كَانَ الشَّيْطَانُ يَدْعُوهُمْ إِلَى عَذَابِ السَّعِيرِ}

۱- [۱] . “Səhihi-Müslim”, ۱-ci cild, “Kitabus-səlat”, “Əs-sələvatu ələn-Nəbiyy (s) ” hədis: ۴۰۵-۴۰۷;

۲- [۲] . Mütərcim: Sihah və Məsanid əhli-sünnənin mötəbər kitablarına deyilir. Bu barədə kitabın əvvəl səhifələrində bəhs etmişik.

۳- [۳] . “Əhzab” surəsinin təfsiri.

Onlara: "Allahın nazil etdiyinə (Qur’ana) tabe olun!" deyildikdə, onlar: "Xeyr, biz_ atalarımızın getdiyi yolla (ibadət etdiyi dinə) tabe olacağıq!" - deyə cavab verərlər. Bəs Şeytan onları cəhənnəm odunun əzabına çağırırsa necə? (Yenədəmi həmin yolla (gedəcəklər?)” _(١)

On iki rəhbər .۵

Əhli-sünnənin kitablarında İslam Peyğəmbərindən (s) on iki xəlifə və Həzrət Mehdinin (əccələllahu fi fərəcih) sifətləri barədə çoxlu rəvayətlər nəql olunmuşdur. Həmin hədislərə görə əhli-sünnə alimlərinin bəzisi öz kitablarında Həzrət Mehdi (əccələllahu fi fərəcih) barədə xüsusi bir fəsl açmışlar. Bəziləri isə, bu zəmində ayrıca bir kitab .yazmışlar. Biz burada təkcə “Səhiheyn”də qeyd olunmuş hədisləri nəql edirik

.١

...عَنْ عَبْد الْمَلِك: سَـمِعْتُ جَابِرِ بْنَ سَـمُرَة قَالَ: سَـمِعْتُ النَّبِيّ | يَقُولُ: «يَكُونُ إِثْنَا عَشَرَ أَمِيراً، فَقَالَ كَلِمَة لَمْ أَسْمَعْهَا، فَقَالَ أَبِى إِنَّهُ قَالَ: كُلُّهُمْ مِنْ قُرَيْشٍ».

Əbdul Məlik Cabir ibn Səmurədən nəql edir ki; “Peyğəmbərdən (s) eşitdim ki, belə buyurdu: “On iki nəfər xəlifə və başçı olacaqlar.” Cabir deyir: “Peyğəmbər bir cümlə dedi, ancaq mən onu eşitmədim. Atam söylədi ki, sən eşitmədiyin cümlə budur ki, (Peyğəmbər buyurdu: “Onların on ikisi də Qureyş ailəsindəndir.”(٢

Bu hədis “Səhihi-Buxari”də qeyd olunmuşdur. Müslim də onu səkkiz müxtəlif sənədlərlə öz kitabında yazmışdır. Bu

---

.Loğman” surəsi, ٢١-ci ayə“ . [١] -١

...سَعْدِ بْنِ أَبِی وَقَّاص قَالَ: اِستَأذنَ عُمَرُ عَلَى رَسُولِ اللهِ وَ عِنْدَهُ نِسَاءٌ مِنْ قُرَيْش يُكَلِّمْنَهُ وَ يَسْتَكْثِرْنَهُ عَالِيهُ أَصْوَاتُهُنَّ، فَلَمَّا اِسْتَأْذَنَ عُمَرُ قُمنَ يَبْتَدرنَ الْحِجَابَ، فَأَذِنَ لَهُ رَسُولُ اللهِ يَضْحَكُ فَقَالَ عُمَرُ: أَضْحَكَ اللهُ سِنَّكَ يَا رَسُولُ اللهِ، قَالَ: عَجِبْتُ من هؤُلَاءِ اللاتی كُنَّ عِنْدِی فَلَمَّا سَمِعْنَ صَوْتَكَ اِبتَدرْنَ الحِجَابَ قَالَ عُمَرُ: فَأَنْتَ يَا رَسُولَ اللهِ كُنْتَ أَحَقُّ أَن يَهَبْنَ ثُمَّ قَالَ: أَی عدوّاتِ أنفسهنَّ أَتهبنَنِی وَ لَا تهبنَ رَسُولَ اللهِ؟ قلنَ أَنْتَ أَفَظُ وَ أَغْلَظُ مِن رَسُولِ اللهِ.

Səd ibn Əbi Vəqqas deyir: “Ömər Peyğəmbərin (s) yanına gəlmək üçün icazə istəyirdi. Bu zaman Qureyş tayfasından

---

;əl-Hücurat” surəsi, ayə ٢-٣“ . [١] -١

;Fəthul-bari”, ١٠-cu cild, səh. ٢١٢“ . [٢] -٢

;cü cild, səh. ٦٠-٤ . [٣] -٣

olan bir neçə qadın Peyğəmbərin (s) yanında ucadan söhbət edirdilər. Sorğu-sualı da çox verirdilər. Ömər daxil olmaq istədikdə Qüreyşin qadınları ayağa qalxıb özlərini bir .küncdə gizlətdilər

Allahın Rəsulu (s) bunu görüb gülməyə başladı və təbəssüm edərək Ömərə icazə verdi. Ömər içəri girdi və ərz etdi: Ya Rəsulullah (s), həmişə xoşhalsınız və üzünüz gülür. Bunun səbəbi nədir? Peyğəmbər buyurdu: "Məni təəccübə gətirən budur ki, sənin səsin bu qadınların qulağına çatan kimi hamısı dağıldılar və hərəsi də bir küncdə .gizləndilər

Ömər dedi: Ya Rəsulullah, gərək onlar məndən deyil sizdən qorxsunlar. Bu zaman qadınlara dedi: Ey özünə düşmən olanlar məndən qorxursunuz, amma Peyğəmbərdən (s) qorxmursunuz?! Qadınlar Ömərin cavabında dedilər: Bəli, səndən qorxuruq, ancaq Peyğəmbərdən (s) qorxmuruq. Çünki sən qəzəblisən və əxlaqın da pisdir."(١)

İkinci xəlifənin kobud əxlaqı barədə bir çox kitablar yazmışlar. O həddə qədər ki, bir yerdə belə yazılır: "Eləki xəlifə qəzəblənirdi əllərini dişlərilə yaralamayınca sakitləşə .bilmirdi

Zubeyr ibn Bekar bu məsələni söylədikdən sonra xəlifənin övladlarından birinin kənizinin şikayəti cəryanını qeyd edərək bildirir ki, bu hadisədə xəlifə əlini dişlərinin .arasında qoyaraq möhkəm sixdı

Sonra deyir: Xəlifənin kobud əxlaqına görə Abdullah ibn Abbas onun xilafəti dövründə "Əovl" ilə müxalif olmaq barədə öz əqidəsini aşkar etməkdən çəkindi və xəlifənin ölümündən sonra bu əqidəni zahir etdi. Ona söylədilər: Nəyə görə Ömərin

---

Səhihi-Buxari", ۴-cü cild, "Kitabu Bədul-xulq", "Sifətu İblisi və cunudih" bölümü," . [١] -١ hədis: ۳۱۲۰; həmin mənbə, ۵-ci cild, Kitabu "Fəzailu əshabin-əbiy", "Mənaqibu Ömər ibn Xəttab", hədis: ۳۴۳۸; ۸-ci cild, "Kitabul-ədəb", "ət-Təbəssumu vəz-zəhəkə" bölümü, ;hədis: ۵۷۳۵

dövründə bu əqidəni açıqlamırdın? Dedi: Ondan qorxurdum, çünki qorxu və vəhşətə (gətirən başçı idi.”(۱)

İmamət və şəriət hökmləri ilə tanışlıq

وَ لاَ الْجَاهِلُ فَيُضِلَّهُمْ بِجَهْلِهِ

.”İmam cahil olmamalıdır ki, öz cahilliyi ücbatından insanları azğınlığa salsın“

İmamətin şərtlərindən digəri onun İlahi hökmləri və İslam qanunlarını yaxşı bilməsidir. İslam qayda-qanunlarını hər tərəfli bilməyən, hadisələrdə və qarşıya çıxan məsələlərdə başqalarının ətəyindən yapışan, onun- bunun dilindən əhkam öyrənən kəsin İmamət və rəhbərliyə səlahiyyəti çatmır. Çünki belə şəxs bir-birinə ziddiyyətli və həqiqətin əksi olan hökmləri verməklə camaatı zəlalətə və azğınlığa, ya da heyrət və .şübhəyə salar

Ancaq tarixi və hədislər kitabını araşdırdıqda görürük ki, təssüflər olsun İslam xəlifələrinin İslami qayda-qanunlardan xəbəri belə yox imiş. Onlar bu qanunları hər tərəfli bilməmiş, qarşıya çıxan məsələlərdə və hökmlərdə başqa müsəlmanların və Peyğəmbər səhabələrinin ətəyindən yapışmışlar. Şübhəsiz ki, bir çox bir-birinə qərəzli və zidd olan hökmlər, həqiqətin tam əksinə olan qəribə və təəccüblü fətvalar vermişlər. O yerə çatmışdır ki, Əmirəl mömininin(səlamullahi əleyhi) fəryadı ucalmış və ;açıq söyləmişdir ki

تَرِدُ عَلَى أَحَدِهِمُ الْقَضِيَّهُ فِى حُكْم مِنَ الأَحْكَام فَيَحْكُمُ فِيهَا بِرَأْيِهِ، ثُمَّ تَرِدُ تِلْكَ الْقَضِيَّهُ بِعَيْنِهَا عَلَى غَيْرِهِ فَيَحْكُمُ فِيهَا بِخِلاَفِيهِ، ثُمَّ يَجْتَمِعُ الْقُضَاهُ بِذَلِكَ عِنْدَالإِمَامِ الَّذِى اسْتَقْضَاهُمْ فَيُصَوِّبُ آرَآءَهُمْ جَمِيعًا، وَ إِلَهُهُمْ وَاحِدٌ، وَ نَبِيُّهُمْ وَاحِدٌ، وَ كِتَابُهُمْ وَاحِدٌ، أَفَأَمَرَهُمُ اللهُ تَعَالَى بِالإِخْتِلاَفِ فَأَطَاعُوهُ؟ أَمْ نَهَاهُمْ عَنْهُ فَعَصَوْهُ؟ أَمْ أَنْزَلَ اللهُ سُبْحَانَهُ دِينًا نَّاقِصًا فَاسْتَعَانَ بِهِمْ عَلَى إِتْمَامِهِ؟ أَمْ

Nəhcül-Bəlağənin şərhi”, İbn Əbil Hədid, ۶-cı cild, ۸۳-cü xütbənin altında, səh.“ . [۱] -۱ ;۳۶۳

كَانُوا شُـرَكَآءَ لَهُ فَلَهُمْ أَنْ يَّقُولُوا وَ عَلَيْهِ أَنْ يَّرْضَـى؟ أَمْ أَنْزَلَ اللهُ سُـبْحَانَهُ دِينًا تَآمًّا فَقَصَّرَ الرَّسُولُ | عَنْ تَبْلِغِهِ وَ أَدَآئِهِ؟ وَ اللهُ سُـبْحَانَهُ يَقُولُ: {مَّا فَرَّطْنَا فِى الكِتَابِ مِن شَىْءٍ}، وَ قَالَ: فِيهِ {تِبْيَانُ كُلِّ شَىْءٍ...}

Alimlərin birindən dinin əhkamı barəsində bir məsələ soruşulduqda, o, öz rəyi“ əsasında fətva verir, həmin məsələ digər qazidən soruşulduqda, onun fətvası birinci qazinın fətvasının əksinə olur, bu zaman bir-birinə zidd hökmlərilə onları qazı təyin edən rəhbərin ətrafına toplanırlar (onun təsdiq etməyini istəyirlər). Qazılar qazısı onların, Allahı bir, Peyğəmbəri bir, Kitabı bir olduğu halda hamısının rəyinin düzgün olduğunu söyləyir.(۱) Allah-təala onlara (eyni bir məsələdə) ziddiyyətli fətva verməyə əmr edibmi ki, onlar da onun göstərişinə itaət ediblər? (Ziddiyyət, heyrət və sərgərdanlığın səbəbidir, belə bir işə isə əmr verməyin Allah-təalaın şəninə layiq olmadığı aydındır.) Ya onları ziddiyyətdən çəkindirib, onlar isə itaətsizlik və günah ediblər? (belə isə qazılar qazısının fikir ziddiyyətlərini düzgün hesab etməsi və onların hamısının doğruluğuna hökm verməsi yersizdir.) Yaxud da Allah-təala naqis bir din göndərib, onu tamamlamaq üçün onlardan kömək istəyib? (Bu da düzgün deyildir. Çünki Xaliqin məxluqdan kömək istəməsi ağla ziddir.) Və ya özlərini Allaha şərik bilib (öz rəylərinə əsasən istədikləri kimi) hökm verirlər və O da razıdır? (Bu da batildir. Çünki Allahın heç bir şəriki olmadığı aydındır.) Və ya Allah-təala tam bir din göndərmiş, (qazilərin ixtilafının səbəbi budur ki,) Allahın Rəsulu (səlləllahu ələyhi və alih) isə onun ,təbliğində və çatdırılmasında bir nöqsan etmişdir? Halbuki (belə deyildir

---

Mütərcim: Belə isə bir məsələnin hökmünü ziddiyyətlə bəyan etmək nə . [۱] -۱ üçündür? Qazılar qazısının bütün bu ziddiyyətlərin düzgünlüyünü təsdiq etməsi nəyə !?əsaslanır

çünki) Allah-təala (Qurani-Kərimdə Rəsulu vasitəsi ilə camaata Ənam surəsinin ۳۸-ci ayəsində) buyurub: “Biz Quranda heç bir şeyi əsirgəməmişik” (deməli olduğumuzu (demişik). Və “orda hər bir şeyin bəyan olunduğunu buyurub”.(۱)

Xəlifələrin bir-birinə zidd fətvalar və həqiqətin əksinə hökm verməlırinə görə Əmirəl möminin (səlamullahi ələyhi) açıq şəkildə onlardan şikayət edərək bu məsələni dəlil və sübutla məhkum edir. Bu məsələləri (xəlifələrin ziddiyyətli fətva verməsi və həqiqətin tam əksinə hökm verməsi) sübut etmək üçün müxtəlif mənbələrdə və sənədlərdə kifayət qədər təəccüblü nümunələr mövcuddur. Biz təkcə “Səhiheyn” kitablarında .qeyd olunan bu nümunələrin on birini gətirməklə kifayətlənirik

Təyəmmümün hökmü

Qurani-Kərimin aşkar ayələrinə və Həzrət Peyğəmbərin (səlləllahu ələyhi və alih) buyurduqlarına əsasən, əgər bir kəs cənabətli olarsa və su tapa bilməzsə və yaxud qüsl etməsinə bir maneə və zərəri olduğunu bilərsə üzrü aradan gedincə, su tapılına .qədər təyəmmüm etməli və öz ibadətini yerinə yetirməlidir

Ancaq ikinci xəlifənin yanında bu məsələ açıqlandıqda o Quranda və sünnədə təyəmmümün hökmünü olduğu kimi açıqlamaq əvəzinə ibadətin tərk olunmasına və ”لاَ تُصَل“ :namazın qılınmaması barədə hökm verərək belə deyir

Əmmar Yasir o məclisdə idi. Xəlifəyə etiraz edərək təyəmmümün yerinə yetirilməsini və namazın qılınmasını bildirdi. Ancaq rəvayətlərdən belə məlum olur ki, xəlifə ,Əmmarın sözlərinə qane olmadı və onu elə təhdid etdi ki

---

Mütərcim: Bu cümlə “Nəhl” surəsinin ۸۹-cu ayəsində Allah-təalanın . [۱] -۱ (وَنَزَّلْنَا عَلَيْكَ الْكِتَابَ تِبْيَانًا لِّكُلِّ شَيْءٍ) :buyurduğunun məzmunudur. Orada buyurur

axırda Əmmar belə dedi: Əgər xəlifə məsləhət bilmirsə mən öz sözümdən dönüm! Bu :barədə iki hədisin mətnini və tərcüməsini burada gətiririk

.١

...سَعِيد بْنِ عَبْدِ الرَّحْمَان عَنْ أَبِيهِ أضنَّ رَجُلاً أَتَى عُمَر فَقَالَ: إِنِّى أجنبتُ فَلَمْ أَجِدْ مَاءً فَقَالَ: لاَ تُصَلّ، فَقَالَ عَمَّار: أَمَا تَذكرُ يَا أَمِيرَالْمُؤْمِنِين إِذَا أَنَا وَ أَنْتَ فِى سريّهِ فَأَجنَبْنَا فَلَمْ نَجِدْ مَاء، فَأَمَّا أَنْتَ فَلَمْ تُصَلّ وَ أَمَّا أَنَا فتمعَكت فِى التراب وَ صَلَّيْتُ، فَقَالَ النَّبِىّ | إِنَّمَا يَكْفِيكَ أَنْ تَضْرِبَ بِيَدَيْكَ الأَرْضَ ثُمَّ تَمْسَحُ بِهِمَا وَجْهَكَ وَ كَفيكَ، فَقَالَ عُمَرُ: اِتّقِ الله يَا عَمَّار، فَقَالَ: إِنْ شِئْتَ لَمْ أُحدِّثْ بِهِ.

Səid ibn Əbdurrəhman atasından nəql edir: “Bir kişi Ömərin yanına gələrək ondan soruşdu: Mən cənabətli olmuşam və su tapa bilmirəm. Ömər onun cavabında belə söylədi: Namaz qılma. Əmmar da həmin məclisdə idi. O belə cavab verdi: Ya əmirəl-möminin yadınızdırmı ki, mən və sən döyüşçülərimizlə bir yerdə idik, hər ikimiz cənabətli olmuşduq və qüsl etməyə su tapa bilmədik? Sən namaz qılmadın. Ancaq mən özümü torpağa buladım. Sonra namaz qıldım. Peyğəmbər (s) bundan xəbər tutdu və buyurdu: “Əllərini torpaq üzərinə vurub, torpağın zərrələrini təmizləyib sonra isə üzünə və əllərinə məsh etmək kifayət edərdi.” Ömər dedi: Əmmar, Allahdan qorx! (Əmmar dedi: Əgər istəyirsənsə bu hadisəni bir daha danışmaram!!”(١

Bu hədisi Buxari və Müslim Səid ibn Əbdurrəhmandan nəql etmişlər. Ancaq Buxari öz .təssübü üzündən Ömərin “Namaz qılma” sözünü hədisdə yazmamışdır

.٢

...عَنْ شَقِيق بْنِ سلمه قَالَ: كُنْتُ عِنْدَ عَبْدِاللهِ بْنِ مَسْعُود وَ أَبِى مُوسَى الأَشْعَرِى فَقَالَ لَهُ أَبُو مُوسَى: يَا أَبَا عَبْدِ الرحْمَان إِذَا أَجْنَبَ الْمُكَلَّفُ فَلَمْ يَجِدْ مَاءَ كَيْفَ يَصْنَعُ؟ قَالَ عبْدُالله: لاَ

Səhihi-Buxari”, ۱-ci cild, “Kitabut-təyəmmüm”, “əl-Mutəyəmmumu həl yənfəxu“ . [۱] -۱ fihima”, hədis: ۳۳۱; “Səhihi-Müslim”, ۱-ci cild, (Kitabul-heyz) “ət-Təyəmmüm” bölümü, ;hədis: ۳۶۷

يُصَلّى حَتَّى يَجدَ الْمَاء، فَقَالَ أَبُو مُوسَى: فَكَيْف تَصْنَعُ بِقَولِ عَمَّار حِينَ قَالَ لَهُ النَّبِىّ|: "كَانَ يَكْفِيك أَنْ تَضْرِبَ بِيَدَيْك الأَرْضَ ثُمَّ تَمْسَحُ بِهِمَا وَجْهَك وَ كَفيك" قَالَ أَلَمْ تَرَ عُمَرَ لَمْ يَقنع بِذَلِك. فَقَالَ أَبُو مُوسَى: دَعْنَا من قول عَمَّار، فَمَا تَصْنَعُ بِهَذِهِ الآيه وَ تَلى عَلَيْه آيَة الْمَائِدَه، قَالَ: فَمَا درى عَبْدُ الله مَا يَقُول.

Şəqiq deyir: "Mən Abdullah ibn Məsudun və Əbu Musa Əşərinin yanında idim. Əbu Musa İbn Məsuddan soruşdu: Cənabətli olan kəs su tapmasa vəzifəsi nədir?

İbn Məsud cavab verdi: Su tapa bilməyincə namaz qılmasın. Əbu Musa etiraz etdi və dedi: Bəs Əmmarın Peyğəmbərdən (s) bu barədə təyəmmüm hökmünü buyurduğuna nə deyirsən?

İbn Məsud dedi: Ömər Əmmarın sözünü qəbul etmədi. Əbu Musa ona dedi: Əmmarın sözünü qoy kənara. Bəs açıq və aydın nazil olan "təyəmmüm" ayəsini neynəyəcəksən? Sonra "təyəmmüm" ayəsini oxudu. İbn Məsud Əbu Musanın cavabında sakit qaldı və bir söz deyə bilmədi."(١)

Bu hədis də "Səhihi-Buxari" və "Səhihi-Müslim" kitablarında gəlmişdir. Lakin əhli-sünnənin bəzi alimləri bu hadisəni xəlifənin elmindən qaynaqlandığını bildirib onu müdafiə etmək üçün "Ömərin bu sözü onun ictihadı və məxsus nəzəri" olduğunu söyləmişlər. Bəzən də "unudub" və "yaddan çıxardıb" kimi üzürlər gətirmişlər. Məsələn: İbn Həcər "Fəthul-bari" kitabında belə deyir:

"Su tapmadıqda namazı tərk etmək Ömərin şəxsi və özünə məxsus nəzəridir. Onun belə əqidədə olması da məşhurdur." Sonra deyir: "Bu hadisədən belə istifadə olunur ki, Peyğəmbərin (s) öz vaxtında onun səhabələri də ictihad edirdilər."(٢)

١- [١] . "Səhihi-Buxari", ١-ci cild, "kitabut-təyəmmüm", "İza xafəl cunubu əla nəfsih" bölümü, hədis: ٣٣٨-٣٣٩ və "ət-Təyəmmumu lilvəchi və likəf" bölümü, hədis: ٣٣٢-٣٦٠ bu məsələyə aiddir. "Səhihi-Müslim", ١-ci cild, "Kitabul-heyz", "ət-Təyəmmum" bölümü, hədis: ٣٦٨;

٢- [٢] . "Fəthul-bari", ١-ci cild, səh. ٤۶; (Kitabut-təyəmmüm "Həlit-təyəmmumu həl yənfəu fəbihima bölümü").

Əhli-sünnənin fəqih və filosofu İbn Ruşd da öz “Bidayətul-muctəhid” adlı dəlil və sübut kitabında unutqanlıq və yaddaşsızlığı xəlifə üçün üzür saymış və hadisəni belə :açıqlayır

Alimlərin hamısı bu əqidədədir ki, təyəmmüm və namazın cənabətli şəxsə vacib olması hökmü (ayədən əlavə) Buxaridə nəql olunan Əmmarın və İmran ibn Həsinin hədisləri ilə sübut olunur. Ömərin bu hökmü unutması və xatırlamaması Əmmarın söylədiyi (hədisin məzmununa heç bir mənfi təsiri yoxdur.(١

Şərabxora şallaq vurulmasının miqdarı

...قتاده يُحـِدِّثُ عَنْ أَنَسِ بْنِ مَالِك أَنَّ النَّبِيّ | أُتِی بِرَجُلٍ قَـدْ شَـرَبَ الْخَمْرَ فَجلدَهُ بِجَرِيدَتَيْنِ نَحْوُ أَرْبَعِينَ، قَالَ: فَفَعَلَهُ أَبُو بَكْر، فَلَمَّا كَانَ عُمَرُ استَشَار النَّاسَ فَقَالَ عَبْدُالرَّحْمَان: أَخَفُّ الحُدُودُ ثَمَانِنَ فَأَمَرَ بِهِ عُمَر.

Qətadə Ənəs ibn Malikdən nəql edir ki; “Şərab içmiş bir kişini Peyğəmbərin (s) yanına gətirdilər. Həzrət (s) xurma çubuğu ilə ona qırx zərbə vurulmasını əmr etdi. Əbu Bəkr :də şərab içənin həddini qırx taziyənə vururdu. Ənəs deyir

Ancaq Ömər xilafətə keçdikdən sonra, bu miqdar barədə camaatla danışdı. Əbdurrəhman ibn Ouf dedi: Səksən taziyanə vurulsun. Bu, Quranda qeyd olunan ən az (miqdardır. Ömər də onun nəzrini təsdiq və icra etdi.”(٢

Bu hədis, yazıldığı kimi “Səhihi-Müslim”də neçə cür nəql olunmuşdur. Buxari də onu iki yerdə nəql etmiş, aşağısında da “İkinci xəlifənin öz nəzəri və fikri” olduğunu (söyləmişdir.(٣

Bu kitabda olan səliqəmizə əsasən bu məsələni “Səhiheyn”dən

;Bidayətul-Muctəhid”, ١-ci cild, səh. ٦٥“ .[١] -١
;Səhihi-Müslim”, ٥-ci cild, “Kitabul hüdud”, “Həddul-xəmr” bölümü, hədis: ١٧٠٦“ .[٢] -٢
Səhihi-Buxari”, “Kitabul-hudud”, “Ma caə fi zərbi şaribil-xəmr” bölümü, hədis:“ .[٣] -٣ ٦٣٩١ və “Kitabul-hüdud”, “əz-Zərbu bilcəridi vən-nəal” bölümü, ٦٣٩٣; “Səhihi-Müslim”, ٥-

;ci cild, “Həddul-xəmr” bölümü, hədis: ۱۷۰۶

gətirmişik. Ancaq məsələnin həqiqəti budur ki, Peyğəmbərin (s) zamanında şərabxorun həddi qırx taziyanə deyil, əksinə elə səksən taziyanə idi. Ancaq İslamın əvvəllərində müsəlmanların İslam qanunlarına əməl etməsi, döyüş və fəthlərlə məşğul olması nəticəsində bu həddi istifadə etmək üçün belə hadisə çox nadir hallarda baş verirdi. Buna görə də ikinci xəlifə bu hökmü yaddan çıxarmışdır. Onun xilafəti dövründə müsəlmanlar mənəviyyatdan tədricən uzaqlaşır və ləhvu-ləəb, şərabxorluğa meyl edirdilər. Bu da yayılmaqda idi.

Xəlifəyə bu həddin səksən olmasında köməklik edən isə Əbdurrəjman ibn Ouf deyil, əksinə Əmirəl möminin Əli (səlamullahi ələyh) idi. Bu məsləni əsl mənbəsi olan kitablardan da dəqiq əldə etmək olar:

İbn Ruşd Əndulisi əhli-sünnə alimlərinin və fəqihlərinin şərabxorun həddi barədə olan ixtilaflarını nəql etdikdən sonra bütün fəqihlərin və əksəriyyətin bu barədə nəzərini – yəni səksən taziyanə olmasını – söyləyərək belə deyir:

Həddin səksən taziyanə olmasında əksəriyyətin sənədi və dəlili, Əmirəl möminin Əlinin (ə) nəzəridir. Eləki şərabxorluq çoxaldı Ömər və səhabələr onun miqdarını müəyyənləşdirməkdə iclas qurub məsləhətləşməyə başladılar. Əmirəl möminin (ə) şərabxorun həddinin söyüş söyənin həddi kimi səksən taziyanə olduğunu bilirdi.(۱)

Hər halda deyilənlərdən belə ələ gəlir ki, xəlifə bu hökmü məsləhət edərək, nəzər soruşmaqla, başqalarının vasitəsi ilə icra etmişdir. Ona bu işdə kömək edən də, ya Əmirəl möminin (ə) yaxud da Əbdurrəhman ibn Ouf olmuşdur.

۱- [۱] . "Bidayətul-muctəhid", ۲-ci cild, səh. ۴۴۴; (Kitabul-qəzf, "fi şurbul-xəmr" bölümündə);

Ana bətnində olan körpə uşağın diyəsi

عَنِ الْمسور بْنِ مخرمه قَالَ: استشارَ عُمَر بنُ الخطَّاب فِی إملاص المرأه فقَالَ المُغَیْرَهُ بْنُ شُعْبَهَ: شَهِدْتُ النَّبِیَّ | قضی فِیهِ بغرّهٍ عبدٍ أَوْ أمهٍ، قَالَ: فَقَالَ عُمَر: اِئتِنِی بِمَنْ یَشْهَدُ مَعَکَ، قَال: فَتَشْهَدُ مُحَمَّد بْن مسلمهَ.

Mussəvvir ibn Muxrimə deyir: "Ömər ana bətnindəki körpə uşağın diyəsi barədə camaatla məşvərət etdi və onların bu hökmdə nəzərlərini istədi. Muğeyrət ibni Şöbə dedi: Mən Peyğəmbərin (s) yanında idim. O həzrət (s) ana bətnindən düşürülmüş körpənin diyəsi barədə, bir qulam və ya bir kənizin qiymətinin verilməsinə əmr etdi. Ömər dedi: Sözünə gərək şahid gətirəsən. Məhəmməd ibn Sələmə Muğeyrənin söylədiklərini təsdiq etdi."(١)

Bu hökm əhli-sünnənin ən doğru kitabı sayılan "Səhiheyn" kitabında olan məzmuna əsasən ikinci xəlifə Ömərin başqalarının vasitəsi ilə öyrəndiyi digər hökmlərdən biridir. Camaatın nəzərini öyrənməklə, Muğeyrət ibni Şöbənin sözünə əsasən bu hökmü zinakar və cinayətkar bir kəsin şəhadəti ilə təsdiq etmiş və icrasına əmr vermişdir.

"İstizan" (icazə almaq) hökmü; Ən sadə hökmlər

...أَبَا سَعِید الخِدْرِی یَقُولُ: کُنْتُ جَالِساً بالْمَدِینهِ فِی مَجْلِسِ الأَنْصَار فَأَتَانَا أَبُو مُوسَی فَزَعاً أَوْ مذعُوراً قُلْنَا: مَا شَأْنُکَ؟ قَالَ: إنَّ عُمَرَ أَرْسَلَ إلَیّ أَنْ آتیه فأتیتُ بابهِ، فَسَلَّمْتُ ثلاثاً فَلَمْ یَرُدَّ عَلَیّ فَرَجَعْتُ فَقَالَ: مَا مَنَعَکَ أَنْ تَاتِینا؟ فَقُلْتُ: إنِّی أَتَیْتُکَ فَسَلَّمْتُ عَلَی بَابِک ثَلَاثاً فَلَمْ یردَّ عَلَیّ، فَرَجَعْتُ وَ قَدْ قَالَ رَسُولُ اللهِ |: "إِذَا اسْتَأْذَنَ أَحَدُکُمْ ثَلاثاً فَلَمْ یُؤْذَنْ لَهُ فَلْیَرْجِعْ"، فَقَالَ عُمَرُ: أَقِمْ عَلَیْهِ البَیِّنَه وَ إلاَّ أَوْجعتُک، فَقَالَ: أَبَیَّ بْنِ کَعْب: لَا یَقُومُ مَعَهُ إلاَّ أصغَرُ القوم، قَالَ ابُو سَعِید: قُلْتُ: أَنَا أصغرُ الْقوم، قَالَ: فَأَذْهَبَ بِهِ.

١- [١] . "Səhihi-Buxari", ٩-cu cild, "Kitabud-diyat", "Cəninul-mər`ə", hədis: ٦٥٠٩-٦٥١٠ və "Kitabul-etisam"; likitabu... "Ya yətəkəlləfu min..." hədis: ٦٨٨٧; "Səhihi-Müslim" ٥-ci cild, "Kitabud-diyat", "Diyətul-cənin" bölümü, hədis: ١٦٨٩;

Əbu Səid deyir: “Mədinədə ənsarın məclisində əyləşmişdik ki, birdən Əbu Musa çox narahat halda içəri daxil oldu. Narahatçılığının səbəbini soruşdum. O dedi: Ömər məni çağırdı və mən də onun qapısına getdim. Üç dəfə ardıcıl olaraq salam verdim və içəri girmək üçün icazə istdim. Ancaq cavab vermədiyi üçün mən də geri qayıtdım. Sonra Ömər məni gördü və dedi: Səni çağırtdırmışdım, niyə gəlmədin? Mən də onun qapısına getdiyimi və üç dəfə icazə istədiyimi izah etdim. Səsimə cavab verməyən gördükdə geri qayıtdığımı söylədim. Çünki Allahın Rəsulu (s) buyurmuşdur ki; “Əgər bir kəs bir ”.evə girmək üçün üç dəfə icazə istəsə və cavab eşitməsə geri qayıtsın

Ömər məndən bu hədisi eşitdikdə dedi: Allaha and olsun ki, söylədiyinə şahid .gətirməsən səni cəzalandıracam

Əbu Səid deyir: Ubəy ibn Kəəb dedi: Əbu Musanın sözünə bu cəmiyyətin ən kiçiyi belə şəhadət verər. Əbu Səid deyir ki, mən dedim: Mənim yaşım hamıdan kiçikdir. Ubəy ibn (Kəəb Əbu Musaya dedi: Onda onu özünlə şəhadət vermək üçün apar.”(١

Müslim, bu məsələni müxtəlif sənədləri ilə birlikdə doqquz hədisdə nəql etmişdir. Səhiheyndə gəlmiş bu hədislərin birində xəlifə məsələnin sübutundan sonra bu sadə :hökmlə tanış olmadığını bildirərək belə dəlil gətirir

...خَفی عَلَیَّ هَذَا من أمر رسُول الله | ألهَانی عَنهُ الصفق بالأسوَاق

Peyğəmbərin (s) bu əmrindən ona görə xəbərim olmayıb ki, bazarda alış-verişlə“ (başım qarışıq olub.”(٢

Başqa bir hədisdə də Ubəy ibn Kəəbin özü bu mövzuya

Səhihi-Buxari”, ٨-ci cild, “Kitabul-istizan”, “ət-Təslimu vəl-İstizanu səlasən”“ . [١] -١ ;bölümü, hədis: ۵٨٩١

Bu iki məsələ “Səhihi-Müslim”dən əlavə “Sünəni Əbi Davudda” ٢-cic ild,. [٢] -٢ “Əbvabun-nəvum”, ٣٨-ci bölüm, “Kəm mərrətən yəslimur-rəcul”, səh. ۶٣٧-də də .gəlmişdir

:şahidlik edir və xəlifənin əməlini pisləyərək ona belə deyir

فَلَا تَكُنْ يَابْنَ الْخَطَّاب عَذَاباً عَلَى أَصْحَابِ رَسُولِ اللهِ

(Peyğəmbərin (s) səhabələrini narahat edib onlara əziyyət vermə.”(۱“

Səhiheyn”in nəqlinə əsasən “istizan” yəni icazə almaq məsələsi ikinci xəlifə üçün“ problemli bir məsələyə çevrilmiş və işin sonu səhabələrə əziyyət verməsi və şahid tələb etməsi ilə nəticələnmişdir. Bu məsələ insanın əxlaqi məsələlərindəndir və belə .əxlaqa sahib olanlar bu hökmü öz vicdanları ilə dərk edərək yerinə yetirirlər

Bu hökm Peyğəmbər (s) tərfindən müsəlmanlara izah edilməsi ilə yanaşı Qurani-Kərim :də hidayət üçün buna işarə etmiş və açıqlamışdır

{فَإِن لَّمْ تَجِدُوا فِيهَا أَحَدًا فَلَا تَدْخُلُوهَا حَتَّى يُؤْذَنَ لَكُمْ وَإِن قِيلَ لَكُمُ ارْجِعُوا فَارْجِعُوا هُوَ أَزْكَى لَكُمْ وَاللَّهُ بِمَا تَعْمَلُونَ عَلِيمٌ}
{لَّيْسَ عَلَيْكُمْ جُنَاحٌ أَن تَدْخُلُوا بُيُوتًا غَيْرَ مَسْكُونَةٍ فِيهَا مَتَاعٌ لَّكُمْ وَاللَّهُ يَعْلَمُ مَا تُبْدُونَ وَمَا تَكْتُمُونَ}

Əgər orada heç kəsi tapmasanız, sizə icazə verilməyənədək içəri girməyin. Sizə "geri_ dönün!" - deyilsə, geri dönün. Bu, Allahın yanında sizin üçün daha təmiz bir davranışdır. Allah nə etdiklərinizi biləndir! İçərisində əşyanız olan (karvansara, mehmanxana, ümumi istifadə yerləri kimi) qeyri-məskun evlərə

icazəsiz) daxil olmaq sizin üçün günah deyildir. Allah sizin aşkar etdiklərinizi də, gizli) (saxladıqlarınızı da (aşkarda da, gizlində də nə etdiyinizi) bilir!” _(۲

Ubəy ibn Kəəbin həmin məclisdə söylədiyi söz (bu məsələyə hamıdan kiçik olan şəhadət versin) xəlifənin məqamına bir növ etiraz əlaməti idi. İstəyirdi bildirsin ki, yəni ey xəlifə bu sadə

Bu məsələ “Səhihi-Müslim”dən başqa “Sünəni Əbi Davudda” ۲- ci cild, səh. ۶۳۷-də . [۱] -۱ .zikr olunmuşdur

;Nur” surəsi ayə ۲۸-۲۹“ . [۲] -۲

məsələnin hökmünü İslamda hamı bilir və heç bir qoca ya da cavan olan müsəlmana gizli deyildir.

Ancaq xəlifə öz etirafına görə təəssüflər olsun ki, alış-veriş və bazarda müamilə etməklə gün kimi aydın olan bu sadə məsələdən qəflətdə qalmışdır. Buradan xəlifənin elmi və fiqhi məsələlərdə savadsız olduğu aydın olur.

“Kəlalə” məsələsinin çətinliyi

Kəlalə (۱)məsələsinin çətinliyi

...عَنْ سَالِمِ بْنِ أَبِی الجعـد، عَنْ مَعدَان بْنِ أَبِی طَلحه أَنَّ عُمَرَ بْنَ الْخَطَّاب خَطِبَ یَوْمَ الْجُمْعَهِ فَذَکَرَ نَبِیَّ اللهِ | وَذَکَرَ أَبَابَکْر ثُمَّ قَالَ: إِنِّی لَا أَدَع بَعْـدِی شَـیْئاً أَهَمَّ عِنْدَی مِنَ الْکَلاَلَهِ مَا رَاجعْتُ رَسُولَ اللهِ | فِی شَـیْءٍ مَا رَاجَعْتُهُ فِی الْکَلاَلَهِ وَ مَا أغلظُ لِی فِی شَـیْءٍ مَا أَعغلَـظَ فِیهِ حَتَّی طَعنَ بِأَصـبعَهُ فِی صَـدْرِی، وَ قَـالَ: یَـا عُمَر أَلاَـ تَکْفِیـکَ آیَهُ الصیـفِ الَّتِی فِی آخرِ سُورَهِ النِّسَاء، وَ إِنِّی إِن أَعِشْ أَقضِ فِیهَا بِقَضیهِ یَقْضی بِهَا من یَقْرَأُ الْقُرْآنَ وَ مَنْ لَا یَقْرَأُ الْقُرْآنَ.

Salim Mədan ibn Əbi Təlhədən nəql edir ki; “Ömər ibn Xəttab cümə namazının... əsnasında Rəsuli-Əkrəmi (s) və Əbu Bəkri xatırlatdı. Sonra dedi: Mən, fikrimcə özümdən sonra “kəlalə” məsələsindən çox mühüm və çətin olan bir məsələ qoymuram. Çünki mən “kəlalə” məsələsi kimi heç bir məsələdə Peyğəmbərə (s) müraciət etmirdim. O həzrət də (s) “kəlalə” məsələsindən başqa heç bir məsələdə mənimlə dartışmırdı. İş o yerə çatdı ki, o həzrət (s) barmağı ilə mənim sinəmə vurdu və buyurdu: “Ömər! “Səyf” ayəsi “Nisa” surəsinindədir. Sənə bu kifayət etmirmi?”

Ömər öz sözünü bu cümlə ilə tamamladı: Əgər mən sağ qalsam “kəlalə” barədə elə qəzavət edəcəm ki, Quran oxuyan və oxumayan da elə qəzavət edirlər.”(۲)

İzah: Bu hədisdə qeyd olunan “Səyf” ayəsi “Nisa” surəsinin axırıncı ayəsidir. Bu ayədə “kəlalə” irsindən belə söhbət açılır:

۱- [۱]. “Kəlalə”, hər hansı bir şəxsin özündən sonra qoyub getdiyi mirasa deyilir.

۲- [۲]. “Səhihi-Müslim”, ۵-ci cild, Kitabul-fəraiz, “Mirasul-Kəlalə”, hədis: ۱۶۱۷;

{يَسْتَفْتُونَكَ قُلِ اللّهُ يُفْتِيكُمْ فِي الْكَلاَلَةِ إِنِ امْرُؤٌ هَلَكَ لَيْسَ لَهُ وَلَدٌ وَلَهُ أُخْتٌ فَلَهَا نِصْفُ مَا تَرَكَ وَهُوَ يَرِثُهَآ إِن لَّمْ يَكُن لَّهَا وَلَدٌ فَإِن كَانَتَا اثْنَتَيْنِ فَلَهُمَا الثُّلُثَانِ مِمَّا تَرَكَ وَإِن كَانُواْ إِخْوَةً رِّجَالاً وَنِسَاء فَلِلذَّكَرِ مِثْلُ حَظِّ الأُنثَيَيْنِ يُبَيِّنُ اللّهُ لَكُمْ أَن تَضِلُّواْ وَاللّهُ بِكُلِّ شَيْءٍ عَلِيمٌ}

Ya Rəsulum!) Səndən fətva istəyirlər. De: "Atası və övladı olmayan şəxs (şəxsin)“_ mirası) haqqında Allah sizə belə fətva verir: Övladı (və atası) olmayan bir şəxs vəfat etdikdə onun (atabir-anabir və ya yalnız atabir) bir bacısı varsa, qoyub getdiyi malın yarısı bacıya çatır. Övladı (və atası) olmayan bir

qadın vəfat etdikdə qardaşı onun varisidir (malının hamısı onun payına düşür). Əgər vəfat edən şəxsin iki (və ya daha artıq) bacısı varsa, mirasın üçdə ikisi onlara çatır. Əgər varislər qardaş və bacılardan (bir qardaş, bir bacı və ya bir neçə bacı-qardaşdan) ibarət olarsa, kişiyə (qardaşa) qadına (bacıya) düşən payın iki misli verilir". Allah bunu sizə doğru yoldan

(çıxmamağınız üçün aydınlaşdırır. Allah hər şeyi biləndir!” _(١)

Bu ayə yay fəslində nazil olduğuna görə onu “Səyf ayəsi” yəni yay mövsümünün ayəsi .adlandırmışlar

Əllamə Əmini (Allah ondan razı olsun) bu hədis barəd belə deyir: İslamda şəriət qanunlarına asasən, sadə olmasına baxmayaraq “kəlalə” yəni “miras” məsələsi ikinci xəlifəyə o qədər qaranlıq qalmışdır ki, ona bu sözləri minbərdə söyləməsinə məcbur etmişdir: “Mənim əqidəmə görə özümdən sonra “kəlalə” məsələsi kimi çətin olan :başqa bir məsələ yadigar qoymuram.” Sonra belə deyir

Bu məsələ barədə çox sual edən xəlifəyə görəsən Rəsuli-Əkrəm (s) cavab verirdi ya yox? Əgər cavab verirdisə, bəs onda nəyə görə xəlifə öyrənə bilmirdi? Labüd öyrənə .bilmirdi və bu məsələni başa düşməkdə aciz idi

Əgər Peyğəmbər (s) ona cavab vermirdisə və məsələni həl

;Nisa” surəsi, ۱۷۶-cı ayə“ .[۱]-۱

olunmaz və bağlı qoymuşdursa, (əl-əuzu billah) bu, nübuvvət məqamından uzaqdır və şübhəsiz ki, belə də olmayımdır. Peyğəmbər (s) İlahi qanunların hamısını açıqlamış və .onları ümmətə öyrətmişdir

Qarşısında ona aid olan ayə ola-ola "Kəlalə" lüğətinin mənasının məchul qalması necə mümkündür? Hansıki ayənin axırında belə buyurulur: "Allah bunu sizə doğru yoldan ".çıxmamağınız üçün aydınlaşdırır

Bu məsələni Allah necə izah edib ki, ikinci xəlifəyə hələ də qaranlıq qalıb? Necə mümkündür ki, Allahın Rəsulu "Səyf" ayəsini "kəlalə"nin mənasını başa düşülməsində (kifayət etdiyini bildirir, ancaq "kəlalə" həl olunmaz bir çətin məsələ olaraq qalır?!(١)

Bütün bu msələlərdən sonra xəlifə deyir: "Əgər sağ qalaramsa "kəlalə"nin barəsində Quran oxuyan və oxumayanlar kimi qəzavət edəcəm". Onun bu qəzavətdən məqsədi nədir? Allahın aşkar ayəsi ola-ola Quranın bu hökmünün qarşısında yeni bir hökm !?çıxartmağa yer qalırmı

Dəlini daşqalaq etmək

İbn Abbas deyir: Zina eləyən dəli bir qadını Ömərin yanına gətirdilər. Ömər onun hökmü barəsində bir çoxları ilə məsləhət etdi. Sonra onun daşqalağ olunmasına əmr verdi. Qadını daşqalağ olan yerə apardıqda Əli ibn Əbi Talib (ə) onu gördü və hadisənin nədən ibarət olduğunu soruşdu. Dedilər ki; Bu filan qəbilədən olan dəli bir qadındır. .Zina etdiyinə görə Ömər onun daşqalağ olunmasına əmr etmişdir

İbn Abbas deyir: Əmirəl möminin (ə) buyurdu: Qaytarın onu! Sonra Ömərin yanına :?getdi və buyurdu: "Üç tayfadan təklifin götürüldüyünü bilmirsənmi

---

;(əl-Qədir~, ۶-cı cild, səh: ۱۳۰ (qısaldılmış şəkildə" . [۱] -۱

Dəlidən (ağlı başına gəlincə), yuxuda olan kəsdən oyanana qədər və uşaqdan (həddi-“
.”(buluğa çatana qədər

!Ömər dedi: Bilirəm

Əli (ə) buyurdu: Bəs onda bu dəli qadının daşqalağ olunmasına necə əmr vermisən? .Əmr et onu azad etsinlər

İbn Abbas deyir: Xəlifə dlində Allahu Əkbər kəlməsini deyə-deyə dəli qadının azad .olunmasını əmr etdi

Buxari bu hədisi öz “Səhih” adlı kitabında iki yerdə gətirmişdir. Ancaq xəlifənin elminin nə dərəcədə olmasını ört-basdır etmək üçün hədisin əvvəlini və ortasını yox etmişdir. :Təkcə o hədisin bu qismətini qeyd etmişdir

"قَالَ عَلِی لِعُمَر: أَمَا عَلِمْتَ أَنَّ الْقَلَمَ رُفِعَ عَنِ الْمَجْنُونِ حَتَّی يَفيقَ وَ عَنِ الصَّبِيِّ حَتَّی يُدْرِکَ وَ عَنِ النَّائِمِ حَتَّی يَسْتَيقَظَ."(١)

Bu hadisənin mətni kamil şəkildə müxtəlif hədis və tərcümeyi-hal kitablarında qeyd (olunmuşdur.(٢

İbn Əbdul Birr “İstiab” kitabında hadisənin əslinə işarə etdikdən sonra bu cümləni də :gətirmişdir ki; “Ömər bu vaxt belə söylədi

"لَوْ لاَ عَلِی لَهَلَکَ عُمَر"

”!Əgər Əli olmasaydı Ömər həlak olmuşdu“

!Bayram namazında hansı surəni oxuyurlar

...عَنْ عُبَيْدُ اللهِ بْنِ عَبْدُ اللهِ أَنَّ عُمَرَ بْنَ الْخَطَّاب سَأَلَ أَبَا واقد ليثى مَا كَانَ يَقْرَأُ بِهِ رَسُولُ اللهِ | فِى الأَضْحَى وَالفطرِ، فَقَالَ: كَانَ يَقْرَأُ فِيهِمَا بِق {وَالْقُرْآن الْمَجِيد}، وَ {إِقْتَرَبَهُ السَّاعَهُ} وَ {وَانْشَقَّ القَمَرُ}.

Səhihi-Buxari”, ۷-ci cild, “Kitabut-Təlaq”, “ət-Təlaqu filiğlaqi vəl-kərəh” bölümü,“ . [۱] -۱ və həmin mənbə, ۸-ci cild, “Kitabul-muharibin”, “La yurcəmul-məcnunu vəl-

;məcnunətu” bölümü

Sünəni Əbi Davud”, ٢-ci cild, səh. ۴٠٢; (Əbvabu kitabul-hudud, ١۶-cı bölüm, “fil-“ . [٢] -٢
cunun”, hədis: ۴٣٩٩), “Sünəni-İbn Macə”, ٢-ci cild, səh. ٢٢٧; (Kitabun-Nikah);”İstiab”, ٣-
;cü cild, səh. ٣٩, Əli ibn Əbi Talib bölümü

Übeydullah ibn Abdullah deyir: “Ömər ibn Xəttab Əbu Vaqid Leysidən soruşdu: Peyğəmbər (s) Qurban və Fitr bayramında hansı surələri oxuyurdu? Əbu Vaqid dedi: Həzrət Rəsul (s) bu namazların hər ikisində ”Qaf” surəsini {وَالْقُرْآنِ الْمَجِيدِ}, {إِقْتَرَبَتِ السَّاعَةُ} və {وَانْشَقَّ الْقَمَرُ} surələrini oxuyurdu.”(١)

Bu hədis “Səhihi-Müslim”də, Malikin “Muvəttə” adlı kitabında, “Sünəni-Tirmizidə” və “Sünəni-Əbu Davud”da qeyd olunmuşdur. Ancaq İbn Macə öz “Sünən”ində hədisi belə nəql etmişdir:

“Ömər bayram namazına gəldikdə bir nəfəri Əbu Vaqid Leysinin yanına göndərdi ki, ondan soruşsun: “Peyğəmbərin bayram namazlarında hansı surələri oxuyurdu?”(٢)

Əllamə Əmini (Allah ondan razı olsun) bu hədisin barəsində belə deyir: “Əziz oxucular! Gəlin xəlifədən soruşaq ki, hansı səbəbə görə Peyğəmbərin namazda oxuduğu surənin hansı surə olduğunu bilmir? “Siyuti”nin “Tənvirul-havalik” kitabında gətirdiyi üzrə görə görəsən yadından çıxıb? Yoxsa alış-veriş işi ilə məşğul olduğu üçün bilmirdi? Halbuki, işi çətinə düşəndə özü üzrü belə söyəyirdi? Lakin unutqanlıq mövzusu elə də nəzərə çarpan deyildir. Çünki ildə iki dəfə cəmiyyətin və böyük səhabələrin hüzurunda qılınan bu namaz unudulmamalıdır.”(٣)

Hər halda, hadisənin gedişatı onu göstərir ki, xəlifə çox gərgin vəziyyətə düşmüşdü. Həssas bir zamanda Əbu Vaqid Leysinin evinə adam göndərib bayram namazında hansı surələrin oxunduğunu öyrənməyə çalışdı.

١- [١]. “Səhihi-Müslim”, ٣-cü cild, “Kitabu səlatul-eydəyn”, “Ma yəqrəu bihi fi səlatil eydəyn” bölümü, hədis: ٨٩١;

٢- [٢]. “Sünəni-İbn Macə”, ١-ci cild, “ma caə fil-qiraəti fi səlatil-eydəyn” bölümü, hədis: ١٢٨٢;

٣- [٣]. “əl-Qədir”, ٦-cı cild, səh. ٣٢٠;

عَنْ أَبِی وَائِلٍ قَالَ: جَلَسْتُ إِلَی شیبهٍ فِی هَذَا المَسْجِدِ قَالَ: جَلَسَ إِلَی عُمَر فِی مَجْلِسِک هَذَا، فَقَالَ هَمَمتُ أَنْ لاَ أَدَعَ فِیهَا صفراءَ وَلاَ بَیْضَاءَ إِلاَّ قسمتُهَا بَیْنَ الْمُسْلِمِینَ. قُلْتُ: مَا أَنْتَ بِفَاعِلٍ، قَالَ: لَمْ قُلْتَ لَمْ یَفْعَلْهُ صَاحباک؟ قَالَ: هُمَا المرآن یَقْتَدِی بِهِمَا.

Əbu Vail deyir: “Mən Məscidul-həramda “Şöybə”nin yanında əyləşmişdim. O mənə dedi: Günlərin birində Ömər də həmin yerdə mənim yanımda əyləşmişdi. Söhbət əsnasında belə dedi: Mən istəyirəm ki, Kəbə evinin qapısının qızıl və gümüşünü .müsəlmanlar arasında bölüşdürəm

Şöybə dedi: Mən onun bu sözlərinin cavabında belə söylədim: Sən bu işi görə bilməzsən? Ömər soruşdu: Niyə? Dedim: Çünki Rəsuli-Əkrəm və Əbu Bəkr bu işi (görməmişdir. Ömər dedi: Bəli onlar kamil insanlar idi. Gərək onlara itaət edək.”(١)

Bu hadisə “Səhihi-Buxari” kitabında iki yerdə nəql olunmuşdur. Ancaq hədisin kəlmələrində biraz fərq vardır. Ancaq tarixi araşdırmalar və sənədlər onu göstərir ki, Ömər bu fikri bir dəfə deyil, əksinə xəlifəliyi dövründə dəfələrcə fikirləşmişdir. .Müsəlmanların etirazına səbəb olduğu üçün bu işi həyata keçirə bilməmişdir

Şöybə” onu bir dəfə öz fikrindən daşındırdı. İkinci dəfə bu mövzunu Əmirəl möminin“ Əliyə (ə) demişdi. Həzrət (ə) qane edici bir dəlillə onu yenə fikrindən döndərmişdi. :Əmirəl möminin Əlinin (ə) söylədikləri “Nəhcül-bəlağə” kitabında qeyd olunmuşdur

Ömər ibn Xəttabın dövründə Kəbənin qızıl və gümüşünün çoxluğunu ona xəbər etdilər. Məsləhət bildilər ki, əgər bu qızılı

səh:٥٠٠

Səhihi-Buxari”, ٩-cu cild, “Kitabul-etisami bil-kitabi vəs-sünnə”, “əl-İqtida“ . [١] -١ bisunəni Rəsulillah (səlləllahu ələyhi və alihi), hədis: ٦٨٤٨ və ٢-ci cild, “Kitabul-həcc”, ;“Kəsvətul-Kəbə” bölümü, hədis: ١٥١٧

və gümüşü alsa və müsəlmanların müharibə sursatları üçün sərf edərsə çox müsbət !?nəticələr əldə etmək olar. Qızıl və gümüş Kəbə evinin nəyinə lazımdır

Ömər bu fikri həyata keçirmək istədi. Ancaq məsələni Əmirəl möminin Əlidən (ə) :soruşdu. Həzrət (ə) onun cavabında belə dedi

Quran Peyğəmbərə (s) nazil olanda sərvətlər dörd hissəyə bölünmüşdü. Allahın“ Rəsulu (s) bu dörd qismin hamısının hökmünü izah etmişdir: Müsəlmanların sərvəti irs kimi qalır və vərəsələr arasında bölünməlidir. Müharibədən yığılan qənimətləri də onlara haqqı olanlar arasında bölüşdürülməsinə əmr vermişdir. Xüms, müəyyən adamlara verilməlidir. Dördüncüsü isə zəkatdır. Onun da istifadəsi üçün müəyyən .yerlər vardır

Əmirəl möminin (ə) sonra belə buyurdu: Kəbə evinin qızıl və gümüşü Quran nazıl olanda da var idi. Ancaq Allah onların barəsində bir göstəriş vermədi. Hökmün verilməməsi nə unutqanlıq üzündəndir nə də qorxudan. Sonra Ömərə xitab edərək buyurdu: Sən də Kəbənin qızıl və gümüşünü onlar necə qoymuşlarsa eləcə də saxla. Bu vaxt Ömər dedi: “Ya Əli! Əgər sən olmasaydın biz məhv olardıq.” Kəbə evinin qızıl və .gümüşünə əl dəymədi və onu olduğu kimi qoydu

İbn Əbil Hədid əsl hadisəni nəql etdikdən sonra belə deyir: Həzrət Əlinin (ə) dəlilləri :doğru və düzgün dəlillər idi. Bunu iki cür açıqlamaq olar

Əslində mallara və sərvətə əl qoymaq haram və qadağan edilmişdir. Şəriət . ١ qanunlarının çərçivəsindən xaric və icazəsiz ondan istifadə etmək olmaz. Kəbə evinin qızıl və gümüşü barədə belə bir icazə olmadığına görə onun istifadə edilməsi haramdır .və istifadəsinə icazə verilməmişdir

Tutaq ki, İmam Əlinin (ə) məqsədi budur ki, Kəbə evinin qızıl və gümüşü Kəbəyə vəqf .٢ edilmiş bir maldır. Həmçinin

Kəbənin qapısı və pərdəsi də buna aid edilir. Kəbə evinin qapısından və pərdələrindən Allahın icazəsi olmadan istifadə edilməsi necə mümkün deyilsə, onun qızıl və gümüşünə də əl qoymaq icazəsiz və haramdır. Xülasə, bunların arasında müştərək olan nəzər onun məxsus və vəqf olmasıdır. Qızıl və gümüş də Kəbənin özündəndir.(١)

Yuxarıda qeyd olunan hadisəni "Nəhcül-bəlağə"dən gətirmişdik. Zəməxşəri də bu hadisəni "Rəbiul-əbrar" kitabında yetmiş beşinci bölümündə qeyd etmişdir.(٢)

Quranın təfsiri

"إِنَّ رَجُلًا سَأَلَ عُمَرَ بْنَ الْخَطَّابِ عَنْ قَوْلِهِ {وَفَاكِهَةً وَأَبًّا} مَا لأَبُّ قَالَ: نُهِيناَ عَنِ التَّعمّقِ وَالتَّكَلُّفِ".

Bir kişi ikinci xəlifədən soruşdu: Qurani-Kərimdə qeyd olunan bu ayədə {وَأَبًّا وَفَاكِهَه}(٣) "Əbb" kəlməsindən məqsəd nədir? Xəlifə onun cavabında dedi:

"Bizə bu kimi məsələlərdə fikirləşərək çətinliyə düşməyi qadağan ediblər."

Bu məsələ "Səhihi-Buxari"də qeyd olunmuşdur.(٤) Ancaq bu kitabın əvvəllərində kəsilmiş hədislər barədə söhbətlərimizdə

səh:٥٠٢

١- [١] . "Nəhcül-bəlağənin şərhi", ١٩-cu cild, səh. ١٥٨-١٥٩, ٢٧۶-cı xütbə, və ٢٧٠-ci qısa kəlmələrdə.

٢- [٢] . "Rəbiul-əbrar" axır zamanlarda yazılmış kitablardan ən yaxşısıdır. Onun yazı nüsxələri də çox azdır. Onun ٧١٩ səfhədə gözəl xətlə yazılmış nüsxəsindən biri Qum şərhərində Həzrət Ayətullahil-Üzma Nəcəfi ağanın ümumi kitabxanasında vardır. ٢۶٣ nömrəsi ilə xətlə yazılmış kitabların sırasındadır. (Hal hazırda bu kitab beş cilddə çap edilmişdir və bəhsimiz həmin kitabın ۴-cü cildində, "əl-Libasu vəl-məla minəl-qəlaidi vəl... ünvanı adı altında yazılmış ٧۵-ci bölmədə zikr olunmuşdur.)

٣- [٣] . "(Növbənöv) meyvələr və ot (ələf) yetişdirdik."; "Əbəsə" surəsi, ٣١-ci ayə;

۴- [۴] . ٩-cu cild, "Kitabul-İtisam", "Ma yəkrəhu min kəsrətis-suali və təklifu la la yunih" bölümü, hədis: ۶٨۶٣;

qeyd etdiyimiz kimi Buxari onun əvvəlinci hissəsini kəsib ataraq onun axırıncı hissəsini kəlməsini yazmaqla kifayət etmişdir. Ancaq xoşbəxtlikdən hədis və təfsir "...نَهَيْنَا" yəni kitablarında, o cümlədən “Səhihi-Buxarini” şərhlərində burada gətirdiyimiz kimi kamil şəkildə nəql olunmuşdur. “Səhihi-Buxari”nin şərh yazarları da Buxarinin bu əməlini (təsdiq etmişlər.(۱

Osmanın cənabət məsələsində fətvası

Qurani-Kərimin açıq ayəsinə və “Altı sihah”(۲) kitablarında nəql olunan bir çox :hədislərə əsasən cənabət qüslu vacibir. Bu qüsl iki yolla baş verir

;Məninin (spermanın) xaric olması ilə .۱

Cinsi yaxınlq zamanı; Zinada və ya mehriyyəsi vacib olan kəbində məni gəlsə yaxud .۲ .gəlməsə

Amma Şafii bu barədə belə deyir: Allah-təala qüslu cənabətin səbəbinə vacib etmişdir və cənabət ərəb dilində məruf olan lüğətdir. Məni xaric olmasa da, onlar cənabətin cimadan (cinsi yaxınlıqdan) ibarət olduğunu bilirdilər. Kəbində “mehriyyə”yə, zinada isə “həd vurulması”na səbəb olan cimada məninin gəlməsi şərt deyildir. Əgər ərəb lüğəti ilə tanışlığı olan bir kəsə filan kişi filan qadından cənabtli olmuşdur desələr, məni xaric .olmasa belə məqsədin cinsi yaxınlıq olduğunu başa düşəcəkdir

Yenə belə deyir: Peyğəmərin (s) açıq və aydın sünnəsi cənabətin iki yoldan biri ilə baş verdiyinə dəlalət edir: Kişi qadınla cinsi yaxılıq elədikdə; Cimada məni xaric olmasa və (yaxud cimasız məni xaric olsa;(۳

səh:۵۰۳

Müraciət et: “Fəthul-bari”, ۱۳-cü cild, səh. ۲۲۹; “Umdətul-qari”, ۲۵-ci cild, səh. ۳۵; . [۱] -۱ “İrşadus-sari”, ۱۰-cu cild, səh. ۳۱۱; “Nəhayətu İbni Əsir” “Əbb” kəlməsinin lüğəti və “əd-Durrul-mənsur”, “İbn Kəsir”, “Kəşşaf”, “Xazin” və “Bəğəvi”nin təfsir kitabları, ;“Müstədrəki-Hakim” “əbəsə” surəsinin təfsirində

.Mütərcim: Bu barədə kitabın əvvəlində bəhs etmişdik . [۲] -۲

;əl-um”, ١-ci cild, “Kitabut-Təharət”, “La yucəbul-qüsli və la ducəbih”, səh. ٣١“ . [٣] -٣

Əhli-sünnənin kitablarında və sənədlərində o cümlədən “Səhihi-Buxari” və “Səhihi-Müslim”də bir çox hədislər məhz xütnə qədəri daxil olduğu halda qüsl vacib olur :demişlər.(١) Müslim öz “Səhih” kitabında bu adda xüsusi bir bölüm açmışdır "نسخ الماء من الماءِ و وجوب الغسل بالتقاء الختانين "(٢)

Ancaq elə ki, Osmandan əgər bir kişi öz xanımı ilə yaxınlıq edərsə və məni gəlməzsə vəzifəsi nədir ?- deyə soruşulduqda qüsl məsələsini kənara qoymuş və belə cavab vermişdir: “Təkcə dəstəmaz alsın və alətini su ilə yusun.” İndi isə bu hədisin mətnini və :tərcüməsini burada gətiririk

...أَبُو سَلَمه أَنَّ عَطَاء بْنِ يَسَار أَخْبَرَهُ أَنَّ زَيْدِ بْنِ خَالِدِ الْجهنِى أَخْبَرَهُ أَنَّهُ سَأَلَ عُثْمَان بْنِ عَفَّان فَقَالَ: أَرَأَيْتَ إِذَا جَامَعَ الرَّجُلُ امْرَأَتَهُ فَلَمْ يُمْنِ، يَتَوَضَّأْ كَمَا يَتَوَضَّأُ لِلصَّلَاهِ وَ يَغْسِلُ ذكرَهُ قَالَ عُثْمَان: سَمِعْتُهُ مِنْ رَسُولِ اللهِ فَسَأَلتُ عَنْ ذَلِكَ عَلِيِّ بْنِ أَبِى طَالِب وَ الزُّبَيْر بْنِ الْعَوَامّ وَ طلحه بنِ عُبَيْطُ اللهِ وَ أُبَيِّ بْنِ كَعْب فَأَمَرُوهُ بِذَلِكَ.

Əta ibn Yəsar Zeyd ibn Xalid Cohənidən nəql edir ki; “Mən Osman ibn Əffandan soruşdum: Əgər bir kişi öz xanımı ilə yaxınlıq etsə və məni xaric olmasa nə etməlidir? Osman dedi: Dəstəmaz alsın və öz alətini yusun.” Osman əlavə etdi: “Mən bu məsələni Peyğəmbərdən (s) eşitmişəm. Sonra Əli ibn Əbi Talibdən (ə), Zubeyrdən, Təlhədən və Ubəy ibn Kəəbdən də soruşdum. Hamısı belə hökm verdilər və Peyğəmbərdən (s) (eşitdiyimi təsdiq etdilər.”(٣

Onun bu hökmü Peyğəmbərdən (s) eşitməsi və Əmirəl möminin Əlidən (ə), Təlhədən, Zübeyrdən və Ubəy ibn

---

;Adı sayılan kitablarda “Təharət kitabına” müraciət edin . [١] -١

;Səhihi-Müslim”, “Kitabul-heyz”, hədis: ٣۴٨ və ٣۴٩“ . [٢] -٢

Səhihi-Buxari”, ١-ci cild, “Kitabul-qüsl”, “Qüsl, ma yəsibu min fərcil-mərəti”“ . [٣] -٣ bölümü, hədis: ٢٨٧ və ٢٨٩; Həmin mənbə, “Kitabul-vuzu”, “Mən ləm yərəl-vuzu illa minəl-məzicəyn”, hədis: ١٧٧ və “Səhihi-Müslim”, ١-ci cild, “Kitabul-heyz, “İnnəməl-mau ;minəl-ma” bölümü, hədis: ٣۴٧

Kəəbdən soruşması və onların da Peyğəmbərin (s) belə buyurduğunu təsdiq etmələrinə gəldikdə isə bunlar əsassız və uydurulmadır. Ya xəlifənin tutduğu mövqeyi qorumaq üçün onun verdiyi fətvasının axırına əlavə edilmiş bir cəfəngiyatdır ki, bu kimi hədislər saysız hesabsızdır. Ya da onun doğru olması İslamın əvvəl dövrünə qayıdır. :Çünki Peyğəmbərdən (s) nəql olunmuşdur ki, o dövrdə o həzrət (s) belə buyurmuşdur

Qüslun səbəbi məninin xaric olmasıdır” (١) Bundan əlavə İbn Abbas deyir“ "الماء من الماء" :ki

(məsələsi cinsi yaxınlığa deyil, əksinə möhtəlim olmağa aiddir.”(٢ "الماء من الماء"

Hər halda olursa-olsun bu məsələ səhabələr arasında bəhs olunmuşdur. Bu barədə bir (٣) "إِذَا جوزَ الْختان وَجَبَ الْغُسل" ,çox hədislər nəql etmişlər ki

Necə olur ki, bu məsələ Osman üçün gizli qalmışdır? Və xilafəti dövründə “Nə qədər ki, !?məni gəlməyib qüsl vacib deyildir” söyləyir

İşarə etdiyimiz kimi bəlkə də İslamın əvvəllərində bir məsələ qulağına çatmış və xilafətinin axır gününə qədər həmin məsələni hifz etmiş, o hökmün nəsx olduğunundan (aradan getdiyindən və dəyişdirildiyindən) xəbəri belə olmamışdır. !Zehnində olan köhnə hökm əsasında da fətva vermişdir

---

Mütərcim: Bunun mənası o deməkdir ki, Peyğəmbər buyurubdur ki, əgər məni . [١] -١ gələrsə qüsl vacib olar. Osman belə nəticə alıbdır ki, əgər məni gəlməyibsə deməli qüsl ;.vacib deyildir və qüsl əvəzinə dəstəmaz almalıdır

Fəthul-bari”, ١-ci cild, səh. ٣٣٩; (kitabul-qüsl, Qüslu ma dəsibu min rutubəti“ . [٢] -٢ ;(xurucil-mərəti bölümü

.Bu hədisi Ömər, Aişə və Abdullah ibn Ömər nəql etmişdir . [٣] -٣

!Məsahif (səhifələr) barədə bir hökm

Buxari öz sənədləri ilə Ənəs ibn Malikdən Osmanın dövründə Quranın cəm olunması barədə müfəssəl bir hadisəni nəql edir. Onun xülasəsi belədir:

Huzeyfə, müsəlman ordusunun başçısı Azərbaycan və Ermənistan müharibəsində Osmanın yanına qayıtdı. O, qoşunda yaranmış qiraət barədə olan ixtilafdan (şam və iraq əhli arasında) öz narazılığını bildirdi və Osmanı bu məsələni həll etməyə məcbur etdi.

Osman əmr etdi ki, əldə olan nə qədər Quran və səhifələr vardırsa yığılsın. Həmçinin bir neçə səhabələrə də əmr etdi ki, Allahın Rəsulunun (s) dövründə olan oxunuş əsasında bir neçə mushəf yazılsın. Əgər oxunuşlar arasında nəzər ayrılığı qarşıya çıxarsa Qureyşin oxunuşuna üstünlük verilsin. Çünki Qurai-Kərim onların ləhcələrində nazil olmuşdur.

"وَ أَرْسَلَ إِلَى كُلِّ أُفُقٍ بِمُصْحَفِ مِمَّا نَسَخُوا وَ أَمَرَ بِمَا سِوَاه مِنَ الْقُرْآنِ فِى كُلِّ صَحِيفَهٍ أَوْ مُصْحَفِ أَن يُحْرَقَ".

Bu əməl Osmanın əmrinə əsasən yerinə yeirildi. Həmin qiraət üzrə mushəflər yazıldı və İslami məntəqələrin hər birinə bir nüsxə göndərildi. Sonra xəlifə əmr etdi ki; "Yeni yazılmış mushəflərlə qiraəti uyğun gəlməyən mushəf və Quranlar yandırılsın." (١)

Əsrimizin iftixarlı alimlərindən biri bu barədə belə deyir: "Osmanın bütün müsəlmanları bir qiraətə cəm etməsi, (müsəlmanlar arasında çox tanınan, Peyğəmbərin özündən nəql olunan və yəqinlik gətirən həmin qiraətdən götürmüşlər) bu yolla əsası və kökü olmayan, müsəlmanlar arasında ixtilaf salan

---

١- [١] ,. Bu mətnin tam surəti "Səhihi-Buxari"nin ۶-cı cildində, "Kitabu fəzailul-Quran" "Cəmul-Quran" bölümü, hədis: ۴٧٠٢-i mütaliə edin.

digər qiraətlərə mane olması ləyaqətli bir iş idi. Buna görə də müsəlmanlardan heç biri bu işə narazılığını bildirmədi. Bu üzdən müəslmanların qiraətdə olan münaqişələrinin çoxalmasına, onların səflərinin qırılmasına, birliyinin və vəhdətinin aradan getməsinə səbəb olması ehtimalı mümkün idi. Hətta bu ixtilaf nəticəni o yerə gətirib çıxarda bilərdi ki, müsəlmanların bəzisi digərlərini kafir və fasiqlikdə ittiham da edə bilərdilər. Halbuki, Allahın Rəsulu (s) Quranda ixtilaf etməkdən ciddi şəkildə çəkindirmişdir. Buna görə də Osmanın bu işini inkar etmək olmaz və ona irad etmək də yersizdir. Ancaq bu mövzuda Osmana ediləcək irad onun vasitəsi ilə həyata keçirilən Quranların .yandırılması məsələsi və başqa şəhərlərə də əmr olunmasıdır

Bəli, müsəlmanlardan bir qrupu Osmana bu barədə etiraz etdilər. İş o yerə çatdı ki, onu "حَرَّاقُ المَصَاحِفِ" "(Səhifələri yandıran" adlandırdılar."(۱)

İslam baxımından Quran-Kərimə hörmət hər bir müsəlmana vacibdir. Onun əzəmət və hörmətinin qorunması barədə, xüsusilə bu mövzuda müvafiq hökmlər və qanunlar yazılmışdır. Dəstəmazsız onun ayələrinə toxunmağın haram və qadağan olunması, şiə məzhəbinin nəzərində cənabətli və heyzli şəxs üçün "Əzaim surələr"inin(۲) oxunması və əhli-sünnə məzhəbinin bir çoxunun nəzərində isə bütün surələrin oxunmasının qadağan edilməsi, o cümlədən də Quranı nəcis etməyin haram buyurulması və s... bu .hökmlərdən sayılır

Ümumiyyətlə hər hansı bir əməl camaatın nəzərində Qurana hörmətsizlik sayılarsa, İslam baxımından haram və

۱- [۱] . Ayətullah Xoi, "Quranın bütün məsələləri və elmləri barədə olan bəyanı", Ustad Hərisinin tərcüməsi, ۱-ci cild, səh. ۴۴۹;

۲- [۲] . Yəni: Quranın "Səcdə", "Fussilət", "ən-Nəcm" və "Ələq" surələri;

.qanunsuzdur. Bu barədə çoxlu hədislər nəql olunmuşdur

Cənabətli və heyzli“ ” لاَ يَقْرَأُ الْجُنُبُ وَ لاَ الْحَائِضُ“ (Tirmizi öz “Sünən”ində Peyğəmbərdən (s :şəxs Quran oxumamalıdır” hədisini nəql etdikdən sonra belə deyir

Səhabələrin, tabeinlərin əksəriyyəti o cümlədən sonrakı əsrlədə yaşayan alimlərin fətva və əqidələri də belə idi. Məsələn: Süfyan Suri, İbn Mübarək, Şafii, Əhməd ibn Hənbəl və İshaq və s... Buna görə də onloarın hamısı cənabətli və heyzli olan şəxslər Qurani-Kərimin bir kəlməsindən başqa digər ayələri və surələri oxumamaları barədə (fətva vermişlər. Ancaq təsbih söyləmələrinin icazəli olduğunu bildirmişlər.(١

Bəli, bütün bu qadağalar və ciddi təkidlər ayələrin hörmətinin qorunması və Qurani-Kərimin əzəmətinin və əhəmiyyətinin hifz olunması üçündür. Görəsən Mədinədə və bütün İslami məmləkətlərdə icra olunan xəlifə Osmanın verdiyi bu əmr hansı niyyətlə idi? Görəsən bu hökmə necə fətva vermişdir? Quranın əzəməti və onun ayələri barədə verilən hökmlərlə bu fətvanı necə uyğunlaşdırmaq olar? Bu elə bir məsələdir ki, onu .əziz oxucumuzun öz öhdəsinə və qəzavətinə buraxırıq

Əgər Osmanın məqsədi digər Quranları da aradan aparmaq, yox etmək və ehtimal olunan ixtilafın qarşısını almaq idisə onları dənizə də tökə bilərdi. Yaxud da Qurana hörmətsizlik olmasın deyə başqa yolla onu yox edə bilərdi. Məsələn: Torpağa ;basdırmaq kimi

İslam hökmləri və xəlifələr

وَ لاَ الْمُعَطِّلُ لِلسُّنَّهِ فَيُهْلِكَ الأُمَّهَ

,Əmirəl möminin Əli (səlamullahi əleyhi) buyurur: “İmam

;Sünəni-Tirmizi”, ١-ci cild, “Təharət” bölümündən ٩٨-ci bölüm, hədis: ١٣١“ . [١] -١

(İlahi hökmləri tətil etməklə ümməti həlakətə və bədbəxtliyə çəkməməlidir.(١)

قَدْ عَمِلَتِ الولاةُ قَبْلِى أَعْمَالاً خَلِفُوا فِيهَا رَسُولُ الله |

Və yenə buyurmuşdur ki; "Əvvəlki rəhbərlər Allahın Rəsulunun buyurduqlarına zidd olan əməlləri həyata keçirmişlər."

Şübhəsiz ki, imamətin ən mühüm şərti, bəlkə də xilafətin əsl fəlsəfəsi və mənası budur ki, imam və xəlifə dini hökmlərin qoruyucusu və Quran qanunlarının icraçısıdır.

Həzrət Əli (ə) bu məsələni imamətin şərti əsasında belə açıqlayır: "وَ لاـَ الْمُعَطِّلُ لِلسُّنَّهِ فَيُهْلِكَ الأُمَّةَ" "Müsəlmanların imamı və xəlifəsi İlahi hökmləri tətil etməklə ümməti həlakətə və bədbəxtliyə çəkməməlidir."

Ancaq, tarixin göstərdiyi faktlara və "Səhiheyn" kitablarında nəql olunan hədislərdən ələ gələn sübutlara əsasən xəlifələr öz xilafətləri dövründə bir çox hökmləri dəyişmiş və təhrif etmişlər. İslami qayda-qanunlar, dini etiqadi məsələlər şəxsi rəylər və məsləhətlər üzündən rəngarəng olmuşdur. Hər kəs istədiyi kimi İslam dini barədə nəzər vermişdir.

Əlbəttə, sonralar bu təhriflərə və dəyişiklərə elmi don geyindirmək və bu işi görənlərə haqq libası örtmək üçün adını "ictihad" qoydular. Sonra belə təhriflərə harada rast gəlinirdisə "ictihad" pərdəsi altında onu İslam cəmiyyətinə qəbul etdirirdilər. Halbuki, ictihad özü ayrılıqda bir bəhsdir və Qurani-Kərimin, hədisin açıq və aydın qanunları ilə müxalifət etmək isə ayrı bir bəhs.

Əmirəl möminin Əli (ə) bu barədə buyurmuşdur:

"قَدْ عَمِلَت الولاَةُ قبلى أَعْمَالاً خَالَفُوا فِهَا رَسُولَ اللهُ مُتَعمّدين بِخِلاَفِهِ نَاقضينَ لعَهْدِهِ مُغَيِّرين لِسُنَّتِهِ، وَلَوْ حَمَلْتُ النَّاس عَلَى تَرْكِهَا وَ حَوَّلْتُهَا إِلَى مَوَاضِعِهَا وَ إِلَى مَا كَانَتْ فِى عَهْدِ رَسُولِ اللهِ لَتَفَرَّقَ

səh:٥٠٩

١- [١] . "Nəhcül-bəlağənin şərhi", İbn əbil Hədid, ٨-ci cild, səh. ٢٦٣; ١٣١-ci xütbə;

عَنِّی جندِی حَتَّی أَبْقَی وَ حدی أَوْ مَعَ قَلِیلٍ مِنْ شِیعَتِی الَّذِینَ عَرَفُوا فَضْلِی وَ فَرَضَ إِمَامَتِی مِنْ کِتَابِ اللهِ وَ سُنَّهِ رَسُولِهِ"

Məndən öncə xilafətdə olan xəlifələr bilə-bilə bir çox əməllərlə Peyğəmbərə qarşı“ çıxmış və onunla olan əhd-peymanlarını sındırmış və sünnəsini dəyişmişlər. Əgər mən camaata bu bidətləri tərk etməsinə vadar etmək, bu qanunları əvvəlki vəziyyətinə gətirmək və Peyğəmbərin dövründə olduğu kimi qanunlara əməl etmək istəyirdimsə, o zaman qoşunlarım ətrafımdan dağılırdı. Mən və mənim fəzilətimi, imamlığımı və rəhbərliyimi Quran və Peyğəmbər sünnəsindən olduğunu tanıyan, fəzilətimlə tanış (olan bir neçə tərfdarlarımla meydanda tək qalırdım.”(١)

:Başqa bir yerdə isə belə deyir

"لَوْ قَدْ اسْتَوْتُ قدمای من هَذِهِ المداحض لغیرت اشْیَاء"

Əgər günlərin birində daxili bu çaxnaşmadan azad ola bilsəm, bir çox hökmləri“ .”dəyişəcəm

İbn Əbil Hədid İmamın bu sözləri barədə belə deyir: “Şübhə yoxdur ki, Əmirəl möminin Əli (ə) şəriət hökmlərində və qəzavətlərdə elə əmrlər verib, elə əməllər edirdi ki, səhabənin fətvasına və rəftarına müxalif idi. Oğrunun həddi, ümmu vələdin hökmü kimi. Çünki xəlifələrin əksinə olaraq o həzrət oğrunun əl barmaqlarını başından kəsir ”...və ümmu vələdi isə satırdı və s

O əlavə edir: “Ancaq Həzrətin bu qanunları dəyişməsinə və İslam məmləkətlərində Quran buyurduğu qanunları icra etməsinə mane olan o həzrətin müharibələrə başı ”. ...qarışmasıdır

Onların vasitəsilə təhrif olunmuş bu növ hökmlər, hələ Peyğəmbərin sağlığında və vəfatından sonra səhabələrin çoxu

---

;Səlim ibn Qeysin kitabı, Axundinin çapı, səh. ١٦٢ . [١] -١

tərəfindən o həzrətin əmrlərinə qarşı çıxma və s.. bir çox hədis və təfsir kitablarında .qeyd olunmuşdur

Lakin bəhsimizə uyğun olaraq bunları nəql edəcək və “Səhiheyn” kitablarından ələ .gələn bu kimi təhrif və əmrə tabesizliyi nəql edib araşdıracağıq

Qətl və qarət .۱

Hökmlərdə dəyişiklik

İslam baxımından şəhadəteyni dilinə gətirən, Allahın vəhdaniyyətinə və Peyğəmbərin nübuvvətinə etiraf edən bir kəsin malı, canı məhfuz və möhtərəmdir. Onunla heç bir .kəs şəxsi hüququ olmadan höcətləşə bilməz

:Bu barədə Rəsuli-Əkrəm (s) buyurur

"أُمِرْتُ أَنْ أُقَاتِلَ النَّاسَ حَتَّى يَقُولُوا لاَ إِلَهَ إِلاَّ الله، فَمَنْ قَالَ: لاَ إِلَهَ إِلاَّ الله، عَصِمَ مِنِّى مَالَهُ وَ نَفْسَهُ إِلاَّ بِحَقِّهِ وَ حِسَابُهُ عَلَى اللهِ"

Mənə Allah tərəfindən əmr olunub ki, tövhid hökmünü dillərinə gətirincəyə qədər bu“ camaatla döyüşəm. Əgər kimsə bunu etiraf etsə və başqasının şəxsi haqqı onda (olmasa onun canı və malı məhfuzdur. Axirət hesabı isə Allahladır.” (۱

Ancaq Allahın Rəsulundan (s) sonra bir çox müsəlmanlar İslamın bütün hökmlərinə və zəkatın vacib olmasına etiraf etmələrinə baxmayaraq xəlifəyə ödənməsindən boyun qaçırırdılar. Düzü onun xilafətini və beyətini rəsmi tanımadıqlarına görə xəlifənin qoşunu tərəfindən həmlə və hücuma məruz qalaraq kişiləri qətlə yetirilmiş və qadınları (isə uşaqları ilə birgə əsir götürülmüşlər.(۲

səh:۵۱۱

Səhihi-Buxari”, ۹-cu cild, “Kitabu İstitabətil-murtəddin” ۳-cü bölüm, hədis: ۶۵۲۶“ . [۱] -۱
”...və “Səhihi-Müslim”, ۲-ci cild, “Kitabul-iman, bölümul-əmri biqitalin-nas

Bəni Səlim qəbiləsini od vurub yandırmaq Əbu Bəkrin xilafəti dövründə Xalid ibn . [۲] -۲ Vəlidin vasitəsi ilə yerinə yetirilmişdir. “ər-Riyazun-nəzərə”, ۱-ci cild, “Muhibbud-din .Təbərinin təlifi”, səh. ۱۰۰-də nəql olunmuşdur

Əlbəttə, bu qətlə və qarətə don geyindirməklə xəlifəni iradlardan təmizləmək üçün onları “mürtəd” adlandırmış və küfrlə ittiham etmişlər. Peyğəmbərin zamanında müsəlmanlarla döyüşən “Museyləmə” və “Tuleyhə” kimi kafirlərin sırasında qərar .verdilər

Halbuki, rəvayətlər və tarixi kitablar onların barəsində vurulan bu ittihamları aydın .şəkildə məhkum edir

İndi isə “Səhiheyn”də bu barədə nəql olunan məsələləri və tarixi hadisələrin bir hissəsini göstərən hədisləri burada gətiririk. Sonra bu barədə tarixi bir xülasəni burada .nəql edəcəyik

...عَنْ ابنِ شَهاب أَخْبَرَنِی عُبَیْدُ الله بنِ عُتبه أَنَّ أَبَا هُرَیْرَهَ قَالَ: لَمَّا تُوُّفی النَّبِیّ | وَ اسْتَخْلِفَ ابُوبَكْر وَ كَفرَ مِنَ الْعَرَبِ، قَالَ عُمَر: یَا أَبَا بَكْر كَیْفَ تُقَاتِلُ النَّاس وَ قَدْ قَالَ رَسُولُ اللهِ |: "أُمِرْتُ أَنْ أُقَاتِلَ النَّاسَ حَتَّی یَقُولُوا لاَ إِلَهَ إِلاَّ الله، فَمَنْ قَالَ: لاَ إِلَهَ إِلاَّ الله، عَصمَ مِنِّی مـالَهُ وَ نَفْسَهُ إِلاَّ بِحَقِّهِ وَ حِسَابُهُ عَلَی اللهِ" قَالَ أَبُوبَكْر: واللهِ لأُقاتِلَنَّ من فرق بَیْنَ الصَّلاَهِ وَالزَّكَات؛ فَإِنَّ الزَّكَاهَ حَقُّ المَالِ وَاللهِ. لَوْ مَنَعُونِی عناقاً كَانُوا یُؤَدُّونَهَا إِلَی رَسُولِ اللهِ | لِقَاتَلْتُهُمْ عَلَی مَنْعِهَا، قَالَ:عُمَرُ: فَوَالله! مَا هُوَ إِلاَّ أَنْ رَأَیْتُ أَن قد شَرَحَ اللهُ صَدْرَ أَبِی بَكْر لِلقِتَالِ فَعَرِفْتُ أَنَّهُ الْحَقّ.

Səhihi-Buxari” və “Səhihi-Müslim”də sənədləri ilə birgə belə qeyd olunmuşdur: “Elə ki,“ Allahın Rəsulu (s) dünyasını dəyişdi Əbu Bəkr xilafətə gəldi. Ərəb qəbilələrindən bir çoxu küfrə qayıtdılar. Ömər Əbu Bəkrə dedi: Bu camaatla necə döyüşəcəksən? Bir halda ki Peyğəmbər (s) buyurmuşdur ki, “Mənə Allah tərəfindən əmr olunub ki, tövhid hökmünü dillərinə gətirincəyə qədər bu camaatla döyüşəm. Əgər kimsə bunu etiraf etsə və başqasının şəxsi haqqı onda olmasa onun canı və malı məhfuzdur. Axirət .hesabı isə Allahladır

Əbu Bəkr cavabında belə dedi: Allaha and olsun mən namaz

və zəkat arasında fərq qoyanlarla döyüşəcəyəm. Çünki zəkat bir malın haqqıdır və Allaha and olsun ki, əgər Peyğəmbərə (s) ödədiklərindən bir quzu da olsun mənə .verməsələr onlarla döyüşəcəm

Ömər dedi: Allaha and olsun Əbu Bəkrin bu cavabı Allahın ona verdiyi ürəyinin (genişliyindən idi və mən də başa düşdüm ki, onun sözləri doğrudur."(١

Bu söhbətin birinci hissəsi (ərəb qəbilələrindən bir neçəsi küfrə qayıtmışlar) işarə olunduğu kimi yalandan başqa bir şey deyildir. Onlar xəlifənin əmri ilə müsəlmanlar arasında baş verən bu qətl və qırğına başqa bir don geyindirməklə həqiqətin üstünü :örtmək istəmişlər. Hansı ki, bu dastanın davamı bu hissəni təkzib edir. Çünki

Bu dastanda Əbu Bəkrin Ömərə "Mən namazla zəkat arasında fərq qoyanlarla .١ döyüşəcəm" cavabından məlum olur ki, onlar nəinki küfrə qayıtmamış, bəlkə Allahın .buyurduğu kimi namaza və ibadətə əməl edənlər idi

Bundan əlavə əgər onlar mürtəd və kafir olmuşlarsa Ömərin Əbu Bəkrə etdiyi irad .٢ yersiz və doğru deyildir. Açıq şəkildə xəlifənin tutduğu bu fikrə qarşı çıxmaqla və İslam qanunlarını, müsəlmanların mallarının və canlarının məhfuz olduğunu ona .xatırlatmışdır

İbn Ruşd, fəqihlərin filosofu zəkat bölümündə hökmləri açıqladıqdan sonra belə deyir: Zəkatın məşhur hökmlərindən biri də, zakat hökmünü inkar etməyən, ancaq onu ödəməkdə boyun qaçıran kəsin hökmüdür. Sonra deyir: Əbu Bəkrin əqidəsi belə kəslərin mürtəd hökmündə olmasıdır. Bu üzdən xəlifə zəkat vermək istəməyən ərəbin müxtəlif qəbilələri barədə

Səhihi-Buxari", ٩-cu cild, Kitabu istitabətil-murtəddin, ٣-cü bölüm, hədis: ٦٥٢٦;" . [١] -١ və "Səhihi-Müslim", ١-ci cild, Kitabul-iman, "əl-Əmru biqitalin-nas" hətta yəqulu..", ;hədis: ٢١٢٩

bu hökmü verdi və onlarla vuruşdu, uşaqlarını əsir tutdu. Ancaq Ömər bu barədə ona qarşı çıxdı. Əbu Bəkr əsir tutduğu kəsləri azad etdi. İbn Ruşd əlavə edirki; Alimlərin (çoxu bu məsələdə Ömərlə bir fikirdə və əqidədədirlər.(١

Əkrəmət ibni Əbi Cəhlin başçılığı altında baş verən bu döyüş "Həzrəmut" da müxtəlif qəbilələrdə "Kənde" və "Məarib" camaatı ilə və Mədinənin ətrafında isə Xalid ibn Vəlidin başçılığı altında müxtəlif qəbilələrdə o cümlədən "Əbəs", "Zibyan", "Bəni .Kənanə" və başqalarında həyata keçirildi

Bu qəbilələr İslam ordusunun əli ilə Əkrəmənin və Xalid ibn Vəlidin vasitəsi ilə qətlə ;yetirildilər. Onlar mürtəd olmamışdılar. Əksinə belə deyirdilər ki

"إِنَّکَ تَدْعُو الَی طَاعَةِ رَجُل لَمْ یَعهَد إِلَیْنَا وَ لاَ إِلَیْکُمْ فِیهِ عَهْد اطَعْنَا رَسُول الله مَا دَهمَ وَسطنَا فَیَا قَوْم مَا شَأْنِی وَ شَأْن ابِی بَکر"

Bəzən də vali və hakimə deyirdilər: "Sən məni elə bir kəsə itaət etməyə dəvət edirsən ki, ona itaət etməkdə bizdən və səndən belə əhd alınmamışdır. Nə qədər ki, ".Peyğəmbər (s) bizmlə idi ona itaət edirdik. Ancaq bizim Əbu Bəkrlə işimiz yoxdur

Bəzən də belə deyirdilər: "Nəyə görə hamıdan ləyaqətli olan Peyğəmbərin (s) Əhli-(beytini bu məqamdan uzaqlaşdırdılar? Hansı ki, Allah-təala buyurur: (٢

{وَأُوْلُواْ الأَرْحَامِ بَعْضُهُمْ أَوْلَى بِبَعْضٍ فِی کِتَابِ اللّهِ}

Qohumlar Allahın Kitabında (lövhi-məhfuzda və ya Qur'anda irs, varislik baxımından)" (bir-birinə nisbət başqalarından daha ləyaqətlidirlər."(٣

İbn Kəsir deyir: Ərəbin müxtəlif qəbilələri dəstə-dəstə

;Bidayətul-mücəhid", ١-ci cild, səh. ٢٥٠; "Kitabuz-zəkat", üçüncü məsələ" . [١] -١

Bu hadisəni geniş şəkildə mütaliə etmək üçün Həməvinin "Mucəmul-bəldan" . [٢] -٢ kitabına "Həzrəmut" maddəsinə, Bilazəri Malikin "Ənsabul-əşraf" kitabına və "Tarixi .Əsəm"ə (Əbu Bəkrin xilafəti barədə) müraciət edin

;Ənfal" surəsi, ٧٥-ci ayə" . [٣] -٣

Mədinəyə daxil olaraq namaza etiraf edir ancaq zəkat ödəməkdən isə imtina edirdilər. (Bir çoxları da xəlifəyə verilməsinə imtina edirdilər.(۱

Əqqad bu barədə belə deyir: Mədinəyə çox yaxın olan qəbilələr Peyğəmbərə itaət və hörmət edirdilər. Lakin ondan sonra hökuməti ələ keçirənə itaətdən boyun qaçırır və əmrə tabe olmurdular. Onlar: "Biz Peyğəmbərə itaət edirik, Əbu Bəkrlə nə işimiz var?!" .deyirdilər

O əlavə edərək deyir: Onların bəziləri də zəkata imanları var idi. Ancaq zəkatı verdikləri (kəslərin imanı və əqidəsi yox idi.(۲

Məhəmməd Hüseyn Heykəl – şəhir misrinin ustadı və yazıçısı – deyir: Əbu Bəkr, səhabəni bir yerə yığdı və zəkat verməkdən imtina edənlərlə döyüşmək üçün onlarla söhbətə və məşvərətə başladı. Səhabələrdən bir neçəsi – Ömər də onlardan bir idi – Allaha və Peyğəmbərə iman gətirən camaatla vuruşmayıb əksinə onlardan düşmən .qarşısında istifadə etmək fikrində idilər

Heykəl əlavə edərək deyir: Demək olar ki, o məclisdə iştirak edənlərin çoxu bu əqidədə idilər. Müxalif olanlar isə azlıq təşkil edirdi. Çox güman ki, məclisdə iştirak edənlərin arasında qorxulu olan bu hökm barədə mübahisə şişməyə başladı və Əbu Bəkr məsələyə müdaxilə etməyə məcbur oldu. Nəticədə Əbu Bəkr azlıq təşkil edən :səhabənin nəzərini təsdiq etdi və ciddi şəkildə dedi

Allaha and olsun ki, əgər Peyğəmbərə (s) ödədiklərindən bir quzu da olsun mənə" (verməsələr onlarla döyüşəcəm."(۳

Bu sözləşmə hadisəsini Siyuti "Tarixul-xüləfa" kitabında, Bilazəri "Ənsabul-əşraf" .kitabında və Əsəm Kufi də nəql etmişlər

cümləsini Əmər ibn "لَوْ مَنَعُونِی عناقاً" Əsəm Kufi deyir: Əbu Bəkr

;əl-Bidayəti vən-Nihayə", ۶-cı cild, səh. ۳۱۱" . [۱] -۱

;Əbqəriyətus-sədiq vəl-dövlətul-İslamiyyə", (Beyrut) səh. ۱۲۴-۱۲۵" . [۲] -۲

.(”əs-Sədiqu Əbu Bəkr”, səh. ۹۶; (əl-Fəslul-xamis: “Qitalu mən mənəuz-zkatə“ . [۳] -۳

(Xəttabın cavabında dedi. Çünki o öldürməyə və döyüşməyə müxalif idi.(١)

Bütün bu söylədiklərimizin hamısı, o cümlədən Əbu Bəkrin sözləri, bu şəxslərlə döyüşməyin səbəbi bunu aydınlaşdırır ki, onların mürtəd olub İslam dinindən çıxması zəkat hökmünü qəbul etməmək səbəbinə deyil, əksinə məsələ burasında idi ki, görəsən onlar zəkatı Peyğəmbərin dövründə ona verdikləri kimi Əbu Bəkrə də !?verəcəklərmi ya yox

Malik ibn Nuveyrə Peyğəmbərin (s) nümayəndəsidir

Burada müxtəlif qəbilələrin arasında qarşıya çıxan döyüşlərin və orada zəkat vermədikləri üçün öldürülən şəxslərin, mürtəd hökmü adı ilə əsir tutulan qadın və uşaqların vəziyyətini yazmaq və şərh etmək kitabımızın mövzusundan xaricdir. Biz sadəcə misal olaraq Malik ibn Nuveyrə və onun ailəsinin öldürülmə hadisəsini burada (qısa şəkildə nəql edirik.(٢

İbn Həcər "İsabə" kitabında deyir: Həzrət Rəsuli-Əkrəm (s), Malik ibn Nuveyrəni öz qəbiləsində sədəqələri yığmaq üçün başçı seçdi. Bəni Təmim qəbiləsinin zəkatlarını (onun öhdəsinə qoydu.(٣

Əsəm deyir: Xalid ibn Vəlid öz qoşunu ilə Bəni Təmim qəbiləsi yaşayan yerə yolladı. Dəstə-dəstə onları ətrafa yaydı. Qoşunundan bir dəstəsi də Malik ibn Nuveyrənin xanımı və bir neçə qohumları ilə istirahət etdiyi bağa hücüm etdilər. Onlar Malikin üzərinə tökülüşüb onu, arvadını və tərəfdarlarını əsir tutdular. Sonra Xalid ibn Vəlidin .yanına apardılar

Xalid, Malikin bütün sülaləsinin və qəbiləsinin hamısının qətlinə əmr verdi. Onlar "Biz hamımız müsəlmanıq. Bizi niyə

;(Əsəm Kufinin tərcüməsi (İran çapı) ١-ci cild, səh. ۶, (zikru xilafəti Əbu Bəkr . [١] -١

Bu döyüşlərdən bir hissəsini Əllamə Əsğərinin yazdıöı "Abdullah ibn Səba" adlı . [٢] -٢ .kitabın ٢-ci cildində oxuya bilərsiniz

;əl-İsabə", ٥-ci cild, ٧٧١٢ nömrəli, Malik ibn Nuveyrənin tərcümeyi-halı" . [٣] -٣

öldürürsünüz?” dedilər. Xalid dedi: Allaha and olsun sizin hamınızı öldürəcəm. Onların arasından qoca bir kişi dedi: Xalid, Əbu Bəkr sizi Kəbəyə namaz qılanları öldürməyi .qadağan etməyibmi? Xalid dedi: Bəli. Ancaq əslində siz namaz qılmamısınız

Əsəm deyir: Bu vaxt Xalidin qoşunundan olan Əbu Qitadə ayağa qalxaraq dedi: Xalid! !Mən şəhadət verirəm ki, sənin onları öldürməyə haqqın yoxdur

Xalid dedi: Niyə? Əbu Qitadə dedi: Çünki mən onların yanına gedən qoşun dəstələrindən biri idim. Bizi görən kimi belə dedilər: Kimlərsiniz və haradan gəlmisiniz? Biz dedik: Biz müsəlmanıq, onlar: biz də müsəlmanıq dedilər. Sonra biz azan dedik və .namaza başladıq. Onlar da bizimlə namaz qıldılar

Xalid dedi: Əbu Qitadə! Düz deyirsən bunlar namaz qıldılar. Ancaq zəkat verməkdən .boyun qaçırırlar və çarəsizlikdən gərək onları öldürmək lazımdır

Bu arada bir qoca kişi ayağa qalxıb uca səslə söz dedi. Ancaq Xalid onun sözlərinə əhəmiyyət vermədi və onların hamısının boyunlarını vurdu. Bir-bir başsız və cansız .bədənlərini yerə sərdi

Əsəm yenə deyir: Əbu Qitadə o gündən özü ilə əhd bağladı ki, Xalid ibn Vəlidin başçılıq .etdiyi daha heç bir müharibədə iştirak etməyəcək

Bu vaxt Xalid, Malik ibn Nuveyrəni qabağa çəkib boynunu vurmaq istədikdə Malik dedi: !?Xalid axı mən müsəlmanam və Kəbə evinə tərəf namaz qılıram. Məni niyə öldürürsən

Xalid dedi: Əgər müsəlman olsaydın zəkatı ödəməkdən boyun qaçırmazdın və qəbilə əhlini də bu işdən çəkindirməzdin. Allaha and olsun ki, sudan bir damcı dodaqlarına .çatmazdan qabaq səni öldürəcəm

Bu vaxt Malik həyat yoldaşına baxaraq Xalidə dedi: Sən mənim arvadıma görə məni .öldürürsən

Xalid dedi: Allah sənin ölüm hökmünü vermişdir. Çünki İslamdan çıxmısan, zəkat dəvələrini paylamısan və qəbilə əhlini də zəkatı ödəməkdən çəkindirmisən. Bu vaxt Maliki qabağa çəkib başqalarının gözü qarşısında boynunu vurdu.(١)

Tanınmış tarixçi olan Yəqubi deyir: Mutəmmim ibn Nuveyrə - Malik ibn Nuveyrənin qardaşı – qardaşının əzadarlığında çoxlu şerlər və mərsiyələr oxudu. Günlərin bir günü Mədinəyə Əbu Bəkrin yanına gəldi. Sübh namazını Əbu Bəkrlə qıldıqdan sonra ayağa qalxaraq bu şerləri oxudu:

نِعمُ القتِيلُ إِذَا الريَاحُ تَنَاوَحت

خَلْفَ البيُوتِ قُتِلَت يابنَ الأزور

أَدْعُوتَهُ بالله ثُمَّ غَدرتَهُ

لَوْ هُوَ دَعَاكَ بِذَمّه لَمْ يَغْدِر

“Küləklər fəzada hərəkətə gəldiyi gün Malik nə gözəl öldürüldü. Onu evinin arxasında və yaşadığı yerin kənarında qətlə yetirən ey “Əzvər”in oğlu! Allaha tərəf çağırdın və sonra hiylə işlətdin. Əgər o səni dəvət edib səninlə əhd bağlasaydı, kiçik bir hiylə belə sənə qarşı işlətməzdi.” (٢)

Yəqubi deyir:

"وَكَانَ أَوَّلُ مَا عَملَ بِهِ عُمَر أَن رُدَّ سبَايا أَهلِ الرّدهِ إِلَى عَشِيْرَهُمْ"

“Ömər xilafətə gəldikdə birinci gördüyü iş mürtəd əsirləri azad etməsi və qəbilələrinə göndərməsi oldu.”(٣)

Əsəm Kufi də belə deyir: Elə ki, mürtəd olmuş əsirləri gətirdilər, Ömər onların öldürülməsinə mane oldu. Birinci xəlifənin əmri ilə onlar məhbus idilər. İkinci xəlifənin xilafəti dövründə onları azad etdi.(۴)

Bəli, belə müsəlmanlar xəlifənin əmri ilə zəkat ödəməkdən imtina etmək günahına görə öldürüldülər və arvad-uşaqları isə

۱- [۱]. “Əbu Bəkrin xilafəti bəhsi“ (Əsəm Kufinin tarixi”, tərcümə, ۱-ci cild, səh. ۷;

۲- [۲]. “Əbu Bəkrin günləri“ (Yəqubinin tarixi”, ۲-ci cild, səh: ۱۳۲;

۳- [۳]. Ömər ibn Xəttabın günləri (Həmin mənbə, səh. ۱۳۹;

۴- [۴]. “Əbu Bəkrin xilafəti dövrü“ (Tarixi-Əsəm”, ۱-ci cild, səh. ۱۸-۱۹;

əsir götürülərək zəncirlərə vuruldular. Sonra İslam paytaxtına gətirildilər. Birinci xəlifənin ölümündən sonra sonrakı xəlifə (Ömər ibn Xəttab) onun bu əməlinin səhv olduğunu bildirdi. Sonra onun birinci gördüyü iş əsirləri azad edib öz qəbilələrinə qaytarması oldu. Bu hadisənin xülasəsini bu bir neçə sətirlərdə müşahidə etdiniz. .Söylədiklərimizə "Səhiheyn" kitablarında da işarə olunmuşdur

Səhihi-Müslim"də gəlmişdir ki; Xeybər döyüşündə Peyğəmbər (s) bayrağı Həzrət" ,"أَمْشِ وَ لاَ تَلْتَفِتْ" "Əliyə (ə) verdiyi zaman buyurmuşdur ki; "Hərəkət et və geriyə qayıtma Əmirəl-möminin Əli (ə) biraz hərəkət etdikdən sonra dayandı və Peyğəmbərin əmrinə qarşı çıxmadan və o tərəf-bu tərəfə diqqət etmədən ərz etdi: Ya Rəsuləllah bu "إِلاَّ بِحَقِّهَا وَ حِسَابُهُم عَلَى الله" : (camaatla nə qədər döyüşüm? Buyurdu (s

Allahın vəhdaniyyətinə və Muhəmmədin nübuvvətinə etiraf etsələr bu vaxt onların" (canı və malı amandadır."(١)

.Sonra Əmirəl-möminin Əli (ə) hərəkətinə davam etdi

Peyğəmbərin (s) əmri və Əlinin (ə) ona olan itaəti məhz elə budur. İslamın qayda-qanunu da belədir. İslam qanunları ilə birgə Peyğəmbərin (s) buyurduğu əmrlərin qarşısında zəmanənin xəlifəsinin və İslam Peyğəmbərin canişinlərinin tutduğu yol və .verdiyi əmrlər də məhz gördüyünüz kimi idi

Fədək məsələsi və Peyğəmbərin (s) mirası .٢

İşarə

Əbu Bəkrin xilafəti dövründə Peyğəmbərə (s) və İslam qanunlarına qarşı çıxdığı hadisələrdən biri də, Fədəkin və Peyğəmbərin (s) digər mirasının Fatimeyi-Zəhradan (səlamul-lahi ələyha) alınması idi. Bu əməllə Əbu Bəkr, Peyğəmbərin (s) ciyər güşəsi və canının yarısı saydığı qızını qəzəbləndirmiş, onu

---

Səhihi-Müslim", ٧-ci cild, "Kitabul-fəzail", "Fəzailu Əli ibn Əbi Talib" bölümü," . [١] -١

;hədis: ۲۴۰۵

incitmişdir. “Səhiheyn” kitablarında Aişədən nəql olunan bu hadisəyə qısa şəkildə toxunulduğu üçün, lazım bilirik ki, bu iki kitabda qeyd olunan bu hadisənin mətnini :tərcüməsi ilə birgə burada gətirək. Sonra isə onun izah edib araşdıracağıq

.١

...عُروَهِ بْنِ الزبير أَنَّ عَـايِشَهَ أُمُّ الْمُؤْمِنِينَ رَضِـیَ اللهُ عَنْهَـا أَخبَرْتَهُ أَنَّ فَـاطِمَهَ عَلَيْهَاالسَّلام ابنه رَسُولِ اللهِ | سَأَلَتْ أَبَابَكْرِ الصِّدِّيق بَعْدَ وَفاهِ رَسُول الله | أَنْ يُقَسِّمَ لَهَا مِيرَاثِهَا ممَّا تَرَک رَسُولُ اللهِ ممَّا أَفَاءَ اللهُ عَلَيْهِ فَقَالَ لَهَا أَبُوبَكْرُ: إِنَّ رَسُولَ اللهِ قَالَ: "لاَ نُورَثُ مَا تَرَكْنَا صدقهٌ" فَغَضِبَتْ فَاطِمَهُ بِنْتُ رَسُولِ اللهِ، فَهَجرتْ أَبَابَكْر، فَلَمْ تَزَلْ مُهَاجِرَتُهُ حَتَّی تُوُفِّيت وَ عَاشَتْ بَعْدَ رَسُولِ اللهِ سِتَّه أَشْهُرٍ، قَالَتْ، وَ كَانَتْ فَاطِمَهُ تَسْأَلُ أَبَابَكْر نَصِيبَهَا ممَّا تَرَک رَسُولُ اللهِ مَنْ خَيْبَرِ وَ فَدَكِ وَ صَدَقَتَهُ بالْمَدِينَه، فَأَبَی أَبُوبَكْر عَلَيْهَا ذَلِک.

Urvəti bni Zubeyr Aişədən nəql edir ki; “Peyğəmbərin (s) qızı Fatimə (səlamul-lahi ələyha) atasının vəfatından sonra atasından miras qalmış Allahın Peyğəmbərə (s) verdiyi sərvətləri Əbu Bəkrdən almaq istədi. Əbu Bəkr dedi: Peyğəmbər (s) buyurub ki, ”.heç kim bizdən irs aparmır. Hər nə bizdən qalırsa sədəqədir

Fatimə (səlamul-lahi ələyha) Əbu Bəkrin cavabına və onun mirası verməkdən imtina .etməsinə qəzəbləndi və dünyadan gedincə onunla küsülü qaldı

Aişə deyir: Fatimə (səlamul-lahi ələyha) Peyğəmbərdən sonra (s) altı ay yaşadı. Bu müddətdə Fatimə Peyğəmbərin (s) Xeybərdən, Fədəkdən, Mədinənin sədəqələrindən (irs qoyduğu mirasdan öz payını Əbu Bəkrdən tələb edirdi....”(١

.٢

...عَنْ عُرْوَه، عَنْ عَايِشَه أَنّ فَاطِمَهَ عَلَيْهَا السَّلَام بِنْتُ النَّبِیّ | أَرْسَـلَتْ إِلَی أَبِی بَكْرِ تَسْأَلُهُ مِيرَاثَهَا مِنْ رَسُولش اللهِ | مِمَّا أَفَاءَ اللهُ عَلَيْهَا بالْمَدِينَهِ وَ فَدَكِ وَ مَا بَقی من خُمْسِ خَيْبَرِ، فَقَالَ

Səhihi-Buxari”, ٤-cü cild, “Kitabul-cihad”, “Fərzul xums” bölümü, hədis: ٣٨٩٨; və“ . [١] -١ “Səhihi-Müslim”, ٥-ci cild, “Kitabul-cihad vəs-seyr”, “Qəvlu ən-Nəbiyu la nurisu” ;bölümü, hədis: ١٧٥٩

أَبُوبَكْر: إنَّ رَسُولَ اللهِ | قَالَ لَا نُورِثُ مَا تَرَكْنَا صَدَقَةٌ إنَّمَا يَأْكُلُ آلُ مُحَمَّد فِى هَذَاالْمَال وَ إِنِّى وَاللهِ لَا أَغَيِّرُ شَيْئاً مِنْ صدقهِ رَسُولِ اللهِ عَنْ حَالِهَا التى كَانَ عَلَيْهَا فِى عَهْدِ رَسُولِ اللهِ، وَ لَأَعْمَلَنّ فِيهَا بِمَا عَمِلَ بِهِ رَسُولُ اللهِ، فَأَبى أَبُوبَكْر أَن يَدْفَعَ إِلَى فَاطِمَهِ مِنْهَا شَيْئاً، فَوَجَدَتْ فَاطِمَةُ عَلَى أَبِى بَكْر فِى ذَلِكَ، فَهَجَرْتُهُ فَلَمْ تُكَلِّمُهُ حَتَّى تُوُفِّيَت وَ عَاشَتْ بَعْدَ النَّبِىّ | ستّةَ أَشهرٍ، فَلَمَّا تُوُفِّيَتْ دَفنَهَا زوجُهَا عَلَىّ ليلاً وَ لَمْ يُؤْذِنْ بِهَا أَبَابَكْر، وَ صَلَّى عَلَيْهَا وَ كَانَ لِعَلِىّ مِنَ النَّاس وجه حَياهِ فَاطِمَه، فَلَمَّا تُوُفِّيَت استَنْكَر عَلى وُجُه النَّاسِ، فالتَمَس مصالحهَ أَبِى بَكْر وَ مبايعته، وَلَمْ يَكُن يُبَايِعْ تلكَ الأَشهرَ فَأَرْسَلَ إِلَى أَبِى بَكْر أَنِ ائتِنَا وَلَا يَأْتِنَا مَعَكَ أَحَد... .

Yenə Urvət ibn Zubeyr Aişədən nəql edir ki; “Peyğəmbərin (s) qızı Fatimə (səlamul-lahi ələyha) Əbu Bəkrin yanına bir nəfər göndərdi. O Əbu Bəkrdən Allahın Mədinədə və Fədəkdə Peyğəmbərə (s) məxsus etdiyi mirasdan öz payını istəyirdi. Həmçinin .Xeybərin yerdə qalan xümsunu tələb edirdi

Əbu Bəkr onun cavabında dedi: Allahın Rəsulu (s) buyurmuşdur ki; “Bizdən heç kəs irs aparmır. Hər nə bizdən qalırsa sədəqədir”. İndi Peyğəmbərin sülaləsi (səlləllahu ələyhim əcməin) də bu sərvətdən istifadə edə bilərlər. Allaha and olsun Peyğəmbərin (s) sədəqəsini onun vaxtında necə idisə dəyişmirəm. Peyğəmbər necə əməl edirdisə .mən də elə əməl edəcəyəm

Aişə deyir: Fatimeyi-Zəhra (səlamul-lahi ələyha) Peyğəmbərdən (s) sonra altı ay yaşadı. Dünyasını dəyişdikdə həyat yoldaşı Əli onu gecə dəfn etdi. Özü onu dəfn elədi və Zəhranın vəfatını Əbu Bəkrə xəbər vermədi. Nə qədər ki, Fatimə (səlamul-lahi ələyha) sağ idi, Əlinin camaat arasında üstünlüyü və yeri bilinirdi. Eləki Fatimə (səlamul-lahi ələyha) dünyasını dəyişdi, böyüklərin (xəlifələrin və səhabələrin bəzilərinin) və camaatın tutduqları yol Əlinin xoşuna gəlmədi. Əbu Bəkrlə sülh etməsinə və ona beyət etməsinə yalvardı. Bu altı ay müddətində o, Əbu Bəkrə beyət etməmişdi. Onun yanına bir nəfər göndərdi və dedi ki; Bizə tərəf gəl ancaq

(özünlə heç kəsi gətirmə....”(١)

Buxari və Müslimün Aişədən nəql etdikləri bu iki hədisin həcmi böyük olduğuna görə .biz təkcə onun birinci hissəsini burada söyləməklə kifayət edirik

Hədisin birinci hissəsində Aişənin bu hadisəyə sülh və barışıq donu geyindirməsi bir neçə nöqtənin olduğunu bidirir. Bu nöqtələr həqiqətin üzərindən örtülmüş pərdəni :götürür. İndi qısa şəkildə onları sayaq

Bəhsimiz və apardığımız araşdırmalar bunu göstərir ki, Həzrət-Rəsulullahın (s) . ١ özündən sonra qoyduğu miras təkcə hamının bildiyi Fədək deyildi. Çünki Rəsuli-Əkrəmin (s) Fədəkdən başqa, sərvəti və Mədinənin ətrafında olan abadlaşdırılmış (yerləri də var idi.(٢)

Aişənin söylədiyi hədisin bu hissəsindən bu da istifadə olunur ki, Rəsuli-Əkrəmin (s) vəfatından sonra Fatiməyi-Zəhranın (səlamul-lahi əleyha) Əbu Bəkrlə müxtəlif yerlərdə (Fədək, Xeybər qənimətlərinin xumsu və Mədinə ətrafının sədəqələri) fikir .ayrılıqları olmuşdur

Bəlkə də Fədəkin məşhur olması bu bağın və sahənin çox əhəmiyyətli olmasını göstərir. Buna görə ki, Əbu Davud(٣) öz “Sünən” adlı kitabında Ömər ibn Əbdül Əzizin(۴) xilafəti dövründə Fədəki Həsənin övladlarına qaytardığı vaxt onun illik gəliri (qırx min dinar pul olduğunu bildirmişdir.(۵)

səh:۵٢٢

Səhihi-Buxari”, ۵-ci cild, “Kitabulməğazi”, ٣٩-cu bölüm, “Qəzvətu Xeybər”, hədis:“ . [١] -١ ٣٩٨٩; “Səhihi-Müslim”, ۵-ci cild, “Kitabul-cihad vəs-seyr”, ١۶-cı bölüm, “Qəvlun-Nəbiyy ;(s) : “La yurəsu la tərəkna fəhuvə sədəqətun”, hədis: ١٧۵٩

Müraciət et: “Sünəni-İbn Davud”, ٢-ci cild, “Səfaya Rəsulullahi Kitabul xəraci vəl- . [٢] -٢ ;əmarə” bölümü, hədis: ٢٩۶٨

.Hicri tarixi ilə ٢٧۵-ci ildə vəfat etmişdir . [٣] -٣

.Hicri tarixi ilə ٩٩-١٠١ . [۴] -۴

;Həmin mənbə, hədis: ٢٩٧٢ . [۵] -۵

.٢ Əbu Bəkr Peyğəmbərin (s) mirasını qaytarmamaq üçün düzəldilmiş yalan bir qanuna yəni "Biz "لاَ نُوَرِّثُ" ;əsaslanmış və onu Peyğəmbərin (s) adına nisbət verərək demişdir ki ".Peyğəmbərlərdən heç kəsə miras qalmır

.٣ Fatimeyi-Zəhra (səlamul-lahi ələyha) bu qanunu rədd edib, onu məhkum etmimiş və Əbu Bəkrdən küsmüşdür. Həyatda olduğu müddətdə, onunla bir kəlmə belə danışmadı. Dünyasını dəyişəndə isə öz həyat yoldaşı Əmirəl möminin Əlinin (ə) vasitəsi ilə gecə vaxtı xəlvət dəfn olundu. O, Fatimənin (səlamul-lahi ələyha) cənazəsinə namaz qıldı və xəlifə Əbu Bəkrə Peyğəmbərin (s) yeganə qızının vəfatından onu .xəbərdar etmədi

.٤ Fatimə (səlamul-lahi ələyha) atası Peyğəmbərdən (s) sonra altı ay sürdüyü həyatı dövründə Əlinin (ə) müxalifləri qarşısında onun ən böyük gücü və arxası idi. Buna görə də nə qədər ki, o sağ idi, Əli (ə) xəlifənin beyəti altına getmədi. Fatimənin (səlamul-lahi ələyha) dünyadan köçəsi ilə səhabələrin Əliyə (ə) qarşı əks əməl göstərməsi təsir edici .və xoşa gəlməz oldu. Özü Əbu Bəkrə beyət etməsini təklif etdi

استنکر وجوه الناس فالتمس مصالحه ابی بکر و مبایعته

Qondarma qanun

Söylədiyimiz dörd nöqtənin əvvəlinci iki nöqtəsi bəhsimizə çox aiddir: "Peyğəmbərin mirasının müsadirə edilməsi və qanun maddəsinin qondarma olması." Biz yenə də müsadirə mövzusuna qayıtmırıq. Çünki bu mövzu tarixi faktlar baxımından bütün müsəlmanlar arasında eyni fikrdə olduğunu bildirir. Təkcə ikinci nöqtəni (qanunun :düzəlməsi) araşdırmağa başlayırıq

Birinci xəlifə həmin həssas günlərdə öz istəklərini həyata keçirmək üçün əməllərini pərdə arxasında gizlədərək Peyğəmbərin (s) mirasını, nəcabətli qızının əlində olanı ,alıb

beytul mala və dövlət əmvalına keçirtmək, qarşı tərəfdə və ümumi fikirlərdə məğlub olmamaq üçün qondarma hədis surətində qanun maddəsi düzəltdi. Bu qondarma hədisi də Peyğəmbərə (s) nisbət verərək belə söylədiyini bildirdi: “Biz ”.Peyğəmbərlərdən heç kəsə miras çatmır

Bir hədis Quranın ayələri ilə ziddiyyətli olduğundan bir çox ayələr onu təkzib edir. :Bunadan əlavə bu hədis işarə edəcəyimiz həqiqətlə də uyğun gəlmir

Əgər belə bir hədis doğru olsaydı, nəyə görə Əbu Bəkrdən başqa Peyğəmbər ailəsindən (sәlamullahi әlәyjim әcmәin) heç bir kəs onu nəql etmirdi? hətta Peyğəmbərin (s) qızı, damadı və həyat yoldaşları heç biri belə bir məsələnin olduğunu !?eşitməmişlər

Görəsən Peyğəmbər (s) bu məsələni, Quranın əmri və

əN YAXıN QOHUMLARıNı QORXUT!_”(١) ayəsinin mənası əsasında_“ {أَنذِرْ عَشِيرَتَکَ الْأَقْرَبِينَ}
hamıdan qabaq haqq sahibi tərəfindən amanda və həmişə hüzurunda olan öz qızına və damadına deməsi lazım deyildimi ki, ondan sonra irs tələb etməsinlər? Bunula da Peyğəmbər sülaləsi (sәlamullahi әlәyjim әcmәin) lə səhabələr arasında ixtilaf !?salmasınlar

Yox, əgər Allahın Rəsulu (s) bu əmri lazımınca yerinə yetirmişdirsə, nəyə görə “Kəsa” səhabələrindən biri olan, günahlardan, səhvlərdən uzaq və pak sayılan(٢) Fatiməyi-Zəhra (salamul-lahi əleyha) “üzünü örtüb öz məcərini başına taxaraq, Bəni Haşimin qadınlarının bir çoxunun arasında ətəyini ayağının altından yığıb, Peyğəmbər (s) kimi yol yeriyə-yeriyə, Əbu Bəkrin Peyğəmbər səhabələri və mühacirlə ənsarın bir çoxu ilə əyləşdiyi məscidə girdi? Nəyə görə məscidin ortasından bir çadır çəkildi və Peyğəmbər (s) qızının dərin ahı və can yıxıcı nəvası pərdənin

---

;əş-Şüəra” surəsi, ٢١۴-cü ayə“ .[١]-١

Müraciət edin: həmin kitab, səh. ٣٠٩ .[٢]-٢

arxasından ucaldı? Hansı ki, onun təsirindən məscidə vəlvələ düşdü və məscid əhli ?ağlamaqa başladılar

Fatimə (səlamul-lahi ələyha) bir qədər səbr etdi. Hamı sakitləşdi. Ağlamaq səsləri dayandı. Bu vaxt söhbətə başladı. Söhbət əsasında həmd və səna oxuyaraq atası Peyğəmbərin (s) zəhmətinə, xilafət məsələsinə işarə edərək möhkəm dəlillər əsasında :yadigar qalacaq tarixi bir xütbə söylədi

"يابْنَ أَبِى قحَافه أَفِى كِتَابِ اللهِ أَنْ تَرِثَ أَبَاكَ وَ لاَ أَرِثُ مِنْ أَبِى..."

:Bu vaxt üzünü Peyğəmbərin (s) qəbrinə tutdu və bu şeri oxudu

Səndən sonra xəbərlər bəlalı oldu. Can ağrıdan müsibətlər baş verdi. Əgər sən sağ“ .olsaydın məsələ o qədər də mühüm olmazdı

Elə ki sən bizim aramızdan köçüb getdin, torpaqlar səninlə bizi ayırdı bir çoxları sinələrindəki sirlərini açıb tökdü. Başqaları öz sifətlərini bizə qarşı turşutdu. Bizi zəiflədib haqqımız alaraq bizi saymadılar. Sən getdikdən sonra haqqımız əlimizdən (çıxdı.”(١)

Əgər belə bir məsələnin (yəni Peyğəmbərlər özlərindən sonra irs qoymazlar) həqiqəti vardırsa, onda nəyə görə barəsində “Hər kəs onu qəzəbləndirsə məni qəzəbləndirmişdir”(٢) buyurulan

---

١- [١] . لَمَّا أَجْمَعَ أَبُوبَكْر عَلَى مَنعِ فَاطِمَهَ فَدَک بَلَغَهَا ذَلِکَ لاثَتْ خِمَارَهَا وَ أَشْتَمَلَتْ بِجِلبَابِهَا وَ أضقْبَلَتْ فِى لِمَّهِ مِن حَفَدَتِهَا وَ نِسَاءِ قَوْمِهَا تطَأذيولَهَا مَا تَخْرِمُ مشيَتهَ مشيهَ رَسُولِ اللهِ حَتَّى دَخَلَتْ عَلَى أَبِى بَكْرٍ وَ هُوَ فِى حَشدِ مِنَ الْمَهَاجِرِينَ وَ الأَنْصَارِ وَ غَيْرِهِمْ، فنيطَتْ دُونَهَا ملاَئَهً فَحَنَّتْ ثُمَّ أَنَّتْ أَنَّهُ أَجهشَ الْقَوْم لَهَا بالْبُكَاءِ فَارتجَّ المجلسَ ثُمَّ أَمْهَلَتْ هَنِيهً حَتَّى إِذَا سَكَنَ نَشِيجُ الْقَوْم وَ هَدَأَتْ فورَتُهُمْ اِفْتَتَحتْ الْكَلاَمَ...إِلَى أَنْ قَالَتْ. قَدْ كَانَ بَعْدَکَ أَنبَاءُ هنبثهٌ لَوْ كُنْتَ شَاهِدَهَا لَمْ تُكْثر الخَدِبَ أَبدَتْ لَنَا رِجَالٌ نَجْوَى صُدُرِهِمْ لَمَّا قَضِيتَ وَ حَالَتْ دُونَکَ الكَتب تَجَهّمْتَنَا رجالٌ وَ السْتَخَفَّ بِنَا إِذْ غِبْتَ عَنَّا فَنَحْنُ الْيَوْم مُغْتَصِبٌ
Xütbənin mətni “İbn Əbil Hədidin yazdığı “Nəhcül-bəlağənin şərhi” kitabının ١۶-cı cildinin, ۴۵,٢١١-ci məktubunda və “Bəlağatun-Nisa” kitabının ١٢-ci səhifəsində, Seyyid ;Mürtəzanın “Fədək” bəhsində gəlmişdir

٢- [٢] Müraciət et: həmin kitab, “Fatimə Allah Rəsulunu (s) cigər parəsidir”.

Peyğəmbərin kəlamına əsasən Fatiməyi-Zəhra (səlamul-lahi ələyha) Əbu Bəkrə !?qəzəbləndi? və ölənə kimi onu dindirmədi və küsülü qaldı

Əgə belə bir məsələnin yenə həqiqəti olsaydı, nəyə görə barəsində "Təthir" və "Mübahilə" ayələri(١) nazil olan Əmirəl-möminin Əli (ə) və Həsəneyn (ələyhumas-səlam) Fatiməyi-Zəhranın (səlamul-lahi ələyha) iddiasında onunla həmkar və həmfikir !?idilər

Həmçinin sədəqə sayılan və fəqir müsəlmanlara məxsus olan bir şeyi öz haqqı !?bilməsinə necə razı oldular

Bütün bu məsələlər bunu göstərir ki, Əmirəl-möminin, Fatiməyi-Zəhra və Həsəneyn Əbu Bəkrin uydurduğu bu hədisində doğru saymırdılar. Bu qanun maddəsini də .qondarma və uydurma olduğunu bildirirdilər

Peyğəmbərin (s) səhabələri

Bundan qabaq söylədik ki, Əbu Bəkrdən başqa belə bir hədis barədə heç bir səhabənin xəbəri yox idi. Şübhəsiz ki, əhli-sünnə məzhəbinin tarixçiləri və təhqiqtaçıları bu :məsələni təsdiq etmişlər. Onlardan üçünü burada qeyd edirik

İbn Əbil Hədid Mötəzili "Nəhcül-bəlağənin şərhi" kitabında deyir: "Bu hədisi .١ Peyğəmbərdən (s) təkcə Əbu Bəkr nəql etmişdir. Buna böyük hədis alimləri də etiraf etmişlər. Hətta "üsuli-fiqh" alimləri də bu hadisəyə istinad edərək bir səhabənin sözü (ilə müxtəlif mövzularda hökm verməyi düzgün bilirlər.(٢

Yenə o başqa bir yerdə Seyyid Mürtəzanın sözünü təsdiq etmək üçün belə deyir: Seyyid Mürtəzanın sözləri düzdür. Çünki Peyğəmbərdən irs qalmır hədisini Əbu Bəkrdən başqa

---

Müraciət et: həmin kitab, "Səhiheyndə Peyğəmbər ailəsinin (səlləllahu ələyhim .[١] -١ ."əcməin) fəzilətləri

;Nəhcül-bəlağənin şərhi", ١۶-cı cild, səh. ٢٢٧" .[٢] -٢

(heç kəs söyləməmişdir.(١)

Siyuti deyir: Peyğəmbərin (s) vəfatından sonra səhabələr onun mirası barədə ixtilaf .٢ etdilər. Bu barədə səhabələrin heç biri bir çöz deyə bilmədi. Təkcə Əbu Bəkr :“Peyğəmbərdən (s) eşitdim ki belə söylədi

"إِنَّا مَعَاشِرَ الأَنْبِيا لاَ نُورِثُ مَا تَرَكْنَاهُ صدقَه " (٢)

(Biz Peyğəmbərlərdən heç kəsə miras çatmır.”(٣“

İbn Həcər yazır: Peyğəmbərin (s) mirasında fikir ayrılığı baş verdi. Bu barədə heç kəs .٣ bir şey söyləyə bilmədi. Təkcə Əbu Bəkr Peyğəmbərdən (s) belə eşitdiyini söylədi: “إِنَّا مَعَاشِرَ الأَنْبِيا لاَ نُورِثُ ” “(٤)(Biz Peyğəmbərlərdən (s) heç kəsə miras çatmır.”

Peyğəmbərin (s) zövcələri

Peyğəmbərlərdən (s) irs və miras qalmır əfsanəsi hədis şəkilində Peyğəmbərdən (s) nəql olundu. Səhabələrdən və Peyğəmbər sülaləsindən heç kimsənin qulağı eşitmədiyi .bu hədis barədə hətta Peyğəmbərin (s) xanımlarının da xəbərləri yox idi

Əgər bu məsələ həqiqət olsaydı, Peyğəmbərə (s) hamıdan öncə onlara bu məsələni izah etməsi vacib olardı. Çünki onlar Peyğəmbərin (s) mirasında öz paylarının haqq .sahibi idilər

Lakin gördüyümüz kimi, “Səhiheyn”də Buxarinin Aişədən olan nəqlinə əsasən Peyğəmbərin xanımları da ondan sonra öz irslərini və haqlarını xəlifədən tələb etmişlər. Onlar haqlarını geri almaqdan ötrü bu barədə Əbu Bəkrlə söhbət etmək üçün .Osmanı onun yanına göndərmişlər

Bu hadisə bunu göstərir ki, onlar da əməli surətdə bu

١- [١] . ١۴۵ .Həmin mənbə, səh;

٢- [٢] . “Fəslu fima ruviyə ənhu minəl hədisil-musnədi vəqəə) ;Xəlifələrin tarixi”, səh. ۶٨ .(fi xilafəti Əbu Bəkr

۳- [۳]. “Səvaiqul-muhriqə”, səh. ۱۹;

۴- [۴]. “Səvaiqul-muhriqə”, səh. ۱۹;

hədisin nəqlini təkzib edrək qanun maddəsinin uydurma və qondarma olduğunu bildirmişlər ki Allahın Rəsulu (s) belə bir hədisi heç vaxt söyləməmişdir. Həmçinin İslamda belə bir qanun mövcud deyildir. Bu məsələni Buxari öz "Səhih"ində Aişədən :nəql etdiyi geniş bir hədisin əsasında qeyd etmişdir

عُرْوَهِ بْنِ الزُّبَيْرِ سَـمِعْتُ عَايِشَهَ رَحِمَها اللهُ زَوْجَ النَّبِيّ | عثمان إِلَى أَبِى بَكْر يَسْأَلنَهُ ثَمْنَهُنَّ مِمَّا أَفَاءَاللهُ عَلَى رَسُولِهِ فَكُنْتُ أَنَا أَرَدُّهُنَّ، فَقُلْتُ لَهُنَّ: أَلَاتَتَّقِينَ اللهَ أَلَمْ تَعْلَمْنَ أضنَّ النَّبِىَّ كَانَ يَقُولُ: لَا نُورِثُ مَا تَرَكْنَا صَدَقَةٌ يريد بِذَلِكَ نَفْسَهُ إِنَّمَا يَأْكُلُ آلَ مُحَمَّد فِى هَذَا الْمَال... .

Peyğəmbərin xanımları Osmanı Əbu Bəkrin yanına göndərdilər. Onlar Osmanın" .vasitəsi ilə Allahın Peyğəmbərə məxsus etdiyi sərvətlərdən öz paylarını tələb edirdilər

Aişə deyir: Mən onlara dedim: Allahdan heç qorxmursunuz? Peyğəmbərin (s) "biz peyğəmbərlərdən bir şey irs qalmır" buyurduğunu bilmirsinizmi? və o həzrətin (s) "peyğəmbərlər" kəlməsindən məqsədinin özü olduğunu və Peyğəmbər (s) sülaləsi də (başqa müsəlmanlar kimi öz ehtiyacı qədərincə bəhrələnə biləcəyini bilmirsinizmi?(١)

Qabaqda işarə etdiyimiz kimi Əbu Bəkrdən başqa heç kəs bu hədisi nəql etməmişdir. Heç bir hədisçi də onun nəqlini birbaşa Aişəyə nisbət verməmişdir. Aişə bu hədisi atasının sözü kimi nəql edərək Peyğəmbərin (s) digər xanımlarına misal vurmaqla .onları qane etmişdir

Ancaq söz burasındadır ki, xəlifələrin hər birinin dövründə Peyğəmbərin xanımlarının hər birinə irsdən məhrum olduqları üçün onun əvəzinə beytul-maldan müəyyən qədər hüquq verirdilər. OnlarıAişənin payı onların hamısından daha çox

---

Səhihi-Buxari", ٥-ci cild, "Kitabul-məğazi", "Hədisu Bəni Nəzir" bölümü, hədis:" . [١] -١ ٣٨٠٩ və ٣٨١٠; "Səhihi-Müslim", ٥-ci cild, "Kitabul-cihad vəs-seyr", "Qəvlun-Nəbiyyi la nurisu" bölümü, hədis; ١٧٥٩; və "Nəhcül-bəlağənin şərhi", İbn Əbil Hədid, ١۶-cı cild, səh. ;٢٢٠-٢٢٣

olmuşdur. Hər surətdə hadisənin həqiqəti budur ki, Bağdadın “Qərbiyyə” mədrəsəsinin ustadı və İbn Əbil Hədidlə bir əsrdə yaşayan İbnul-Fariqi onun cavabında belə :demişdir

İbn Əbil Hədid deyir “mən Əli ibn Fariqidən soruşdum: Həzrət Fatiməyi-Zəhranın !Fədək barədə olan iddiası doüzdürmü? O dedi: Bəli

Dedim: Fatimənin iddiası Əbu Bəkrin yanında sübuta yetirilmiş və doğru olmasına baxmayaraq, bəs nəyə görə Əbu Bəkr bu məsələyə nəzm və tərtib verə bilmədi və ?Fədəki qaytarmaqdan imtina etdi

İbnul-Fariqi vüqarlı və hər cür zarafatlardan uzaq olan bir ustad olduğundan onun :cavabında təbəssüm etdi. Sonra lətif və gözəl bir cümlə dedi

Əgər o gün Əbu Bəkr Fatimənin söylədiklərini yerinə yetirsəydi və iddiasında olduğu Fədəyi ona qaytarsaydı, sonrakı gün Fatimə gəlib xilafətə ərinin sahib olduğunu iddia edərdi. Bununla da xəlifəlik məqamını titrədərdi və Əbu Bəkr öz xeyri üçün heç bir üzr gətirə bilməzdi. Buna görə də o, əvvəlki öz əməli ilə və Fədəki təhvil verməklə Fatimənin bütün iddialarının qəbul olunduğunu, sözündə düzgün və doğru olduğunu, .heç bir şahidə ehtiyac olmadığını sübut etmiş olardı

İbn Əbil Hədid əlavə edərək deyir ki; Bu söhbət zahirdə gülməli olsa da həqiqətdə baş (vermiş doğru və düzgün məsələdir:(١

وَ هَذاَ الْكَلاَمُ صَحِيحٌ وَ إِنْ كَانَ أُخْرِجَ مَخْرَجَ الدَّعابهِ وَ الهَذل... .

Hüdeybiyyə sülhündə .٣

أَبُو وَائِلٍ قالَ: كُنَّا بِصِفِّين، فَقَامَ سهْلُ بْنِ حَنِيفَ فَقَالَ: أَيُّهاالنَّاس اِتَّهِمُوا أَنْفُسَكُمْ فَإِنَّا كُنَّا مَعَ رَسُولِ الله | يَوْمَ الْحُدَيْبِيَّهِ وَ لَوْ نرى قتالاً لقَاتَلْنا، فَجَاءَ عُمَر بنِ الْخَطَّاب، فَقَالَ: ياَ رَسُولَ اللهِ أَلَسْنَا عَلَى الْحَقِّ وَ هُمْ عَلَى الْبَاطِلِ؟ فَقَالَ: بَلَى.

səh:٥٢٩

;Nəhcül-bəlaqənin şərhi”, ١۶-cı cild, səh: ٢٨۴“ .[١]-١

فَقَالَ: أَلَيْسَ قَتلانَا فِی الْجَنَّهِ وَ قتلاهُمْ فِی النَّارِ قَالَ: بَلَی، قَالَ: فعلَی مَا نُعْطِی الدنیهَ فِی دِینِنَا أَنَرْجِعُ وَ لَمَّا یَحْکم الله بَیْنَنَا وَ بَیْنَهُم.

فَقَالَ: یابْنَ الْخَطَّابْ إِنِّی رَسُولُ اللهِ وَ لَنْ یُضَیِّعَنِی الله أَبَداً فَرَجعُ مُتَغَیِّظاً فَلَمْ یَصْبِر حَتَّی جَاءَ أَبُوبَکر، فَقَالَ: یا أَبابَکْر أَلَسْنَا عَلَی الْحَقّ وَهُمْ عَلَی الْبَاطِلِ؟ قَالَ: یاابْنَ الْخَطَّاب إِنَّهُ رَسُولُ اللهِ وَ لَنْ یُضَیِّعَهُ الله أَبَداً، فَنَزَلَتْ سُورَهُ الْفَتحِ.

Əbu Vail deyir: “Biz Siffeyn döyüşündə idik. “Eləki Əlinin (ə) və Müaviyənin ordusundan döyüşü tərk eliyənlər oldu, Əlinin (ə) qoşunundan bir çoxu narazılıqlarını bildirdi.” Səhl :ibn Hənif Əmirəl-möminin Əlinin (ə) ordusu sıralarından ayağa qalxdı və belə dedi

Ey camaat! Əmirəl-möminin Əli (ə) barəsindəöz nəzərlərinizi söyləməyin. Çünki biz Hüdeybiyyə sülhündə Allah Rəsulunun (s) hüzurunda döyüşə hazırlaşırdıq. Əgər döyüş başlasa o Həzrətin yanında döyüşə davam edək (ancaq eləki iş sülhlə nəticələndi) Ömər ibn Xəttab Peyğəmbərin (s) yanına gələrək (sülh əhd-peymanına görə öz narahatçılığını bildirdi) və dedi: Ya Rəsulullah! biz haqq deyilikmi və müşriklər də batil ?deyillərmi

Allahın Rəsulu (s) buyurdu: Bəli. Ömər dedi: Bizim ölülərimiz cənnətə və onların ölüləri ?cəhənnəmə getməyəcəklərmi

Buyurdu: Bəli. Ömər dedi: Bəs nəyə görə öz dinimizdə zillətin altına girək?! Öz ?vətənimizə döyüşmədən və qələbəsiz necə qayıdaq

Allahın Rəsulu (s) buyurdu: Xəttabın oğlu mən Allahın Rəsuluyam. Allah mənim işlərimi heç vaxt nəticəsiz qoymur. Ömər “Peyğəmbərin (s) bu sözlərinə qane olmadı” və qəzəbli halda qayıtdı. Çox keçmədi ki Əbu Bəkr gəldi. Ömər onun yanına getdi və dedi: Ey Əbu Bəkr! Biz haqda və onlar isə batildə deyillərmi? Əbu Bəkr də dedi? Ey Xəttabın .oğlu! O Allahın Rəsuludur və Allah heç vaxt onun işlərini nəticəsiz qoymur

səh:۵۳۰

".Bu vaxt "Fəth" surəsi nazil oldu. Müsəlmanlara fəth və qələbə müjdəsini gətirdi

Hədislərdən birinin axırında bu cümlə də vardır ki "Eləki Allahın Rəsuluna (s) fəth müjdəsi nazil oldu, o surəni Peyğəmbər (s) Ömərin yanına göndərdi və onun üçün .oxudular

Ömər Peyğəmbərdən (s) soruşdu: Bu fəth və qələbə müjdəsidir? Peyğəmbər buyurdu: (Bəli. Bu vaxt Ömər sakitləşdi və qayıtdı."(١)

Bu hadisədən və sonrakı fəsildə araşdıracağımız vəsiyyətnamədə ikinci xəlifə Ömərin Peyğəmbərə (s) qarşı cəsarətli və cürətli olması, onun Peyğəmbərə (s) olan imanının miqdarı, O həzrətin (s) sözlərinə və əməllərinə olan inamı və həmçinin barəsində إِنْ هُوَ إِلَّا وَحْىٌ يُوحَى} {وَمَا يَنطِقُ عَنِ الْهَوَى} _O, _(S)_kefi istəyəni (havadan) danışmır. Bu, ancaq (Allah dərgahından) nazil olan bir vəhydir. _(٢) ayəsi nazil olan Peyğəmbərin (s) .qarşısında əks əməlinin olduğunu bizə bidirir

Yazıla bilməyən vəsiyyətnamə .۴

.١

عُبَيْدُ اللهِ بْنِ عَبْدُ الله بْنِ عُتبه، عَنْ ابنِ عَبَّاس، قَالَ: لَمَّا حَضَرَ رَسُولَ اللهِ | الوفاهُ وَ فِی الْبَيْتِ رِجلٌ فِيهِم عُمَرُ بْنُ الْخَطَّاب فَقَالَ النَّبِیّ | "هَلُمَّ اَكْتُب لَكُم كِتَاباً لاَ تَضِلُّوا بَعْدَهُ؟ فَقَالَ عُمَرُ: إِنَّ رَسُولَ اللهِ | قَدْ غَلَبَ عَلَيْهِ الوَجَعُ وَ عِنْدَكُم الْقُرآنُ حَسْبُنَا كِتابُ اللهِ، فَاخْتَلَفَ أَهْلُ الْبَيْت، فَاختَصَمُوا، فَمِنْهُمْ مَنْ يَقُولُ: قَرَّبُوا يَكْتُبْ لَكُمْ رَسُول اللهُ كِتَاباً لَنْ تَضِلُّوا بَعْدَهُ، وَ مِنْهُم مَنْ يَقُولُ: مَا قَالَ عُمَر.

فَلَمَّا أَكْثَرُوا اللغو والإِخْتِلاَفَ عِنْدَ رَسُول اللهِ | قَالَ رَسُولُ اللهِ: قُومُوا، قَالَ عُبَيْدُ اللهِ: فَكَانَ ابنُ عَبَّاس يَقُولُ: إِنَّ الرزيَّهَ مَا حَالَ بَيْنَ رَسُولِ اللهِ | وَ بَيْنَ أَن يَكْتُبَ لَهُم ذَلِك الْكِتاب

Səhihi-Buxari", ۴-cü cild, "Kitabul-xums", "İsmu mən ahədə summə ğdğr"" . [١] -١ bölümünün əsasında hədis: ۳۰۱۱; həmin mənbə, ۶-cı cild, "Kitabut-təfsir", "Fəth surəsinin təfsiri" və "Səhihi-Müslim", ۵-ci cild, "Kitabul-cihad", "Sulhul-Hudeybiyyə", ;hədis: ۴۵۵۳

;ən-Nəcm" surəsi, ۳-cü və ۴-cü ayələr" . [٢] -٢

من اختلافِهِم وَ لغطِهِمْ.

Ubeydullah ibn Ötbə İbn Abbasdan nəql edir: “Eləki Peyğəmbər (s) can verirdi, onun evində bir çoxları o cümlədən Ömər ibn Xəttab da hazır idilər. Peyğəmbər (s) buyurdu: Qələm və kağız gətirin vəsiyyətimi yazım ki, məndən sonra yolunuzu azmayasınız. Ömər dedi: Xəstəliyi onu üstələyib və o sayıqlayır. Hal-hazırda Quran sizin yanınızdadır. Allahın bu kitabı bizə bəs edər. Evdə olan səhabələr arasında münaqişə başladı. O yerə çatdı ki, iş mübahisənin şişməsinə səbəb oldu.

Bəziləri deyirdilər ki: Gətirin Peyğəmbər (s) bir şey yazsın ki, ondan sonra azmayasınız. Ancaq bəziləri isə Ömərin sözlərini təsdiq edirdilər. Onlar Peyğəmbərin (s) yanında yersiz söz-söhbətləri və ixtilafları ilə öz hədlərini aşdılar. Peyğəmbər buyurdu: Qalxın! (və mənim evimdən çölə çıxın).”

Hədisi nəql edən Ubeydullah deyir:

İşarə

“İbn Abbas deyir: İslamda ən böyük müsibət Peyğəmbərin (s) bu vəsiyyətnaməsini yazmasına mane olan onların həmin yersiz söhbət və ixtilafları idi.”

٢.

عَنْ ابْنِ عُيينَه، عَنْ سليمان الأَحول... عَنْ سَعِيد بنِ جُبِير، عَنْ ابنِ عَبَّاس أَنَّهُ قَالَ:

يَوْمَ الْخَمِيس وَ مَا يَوْمَ الْخَمِيس، ثُمَّ بكى حَتَّى خَضَبَ دَمْعِهِ الحصباء، فَقَالَ: اشتَدَّ بِرَسُولُ اللهِ وَجعهُ يَوْمَ الْخَمِيس، فَقَالَ: اِئْتُونِى بِكِتَابِ أُكْتُبْ لَكُمْ كِتَاباً لَنْ تَضِلُّوا بَعْدَهُ أَبَداً، فَتَنَازَعُوا وَ لاَ يَنْبَغِى عِنْدَ نَبِىّ تُنَازِع، فَقَالُوا: هَجرَ رَسُولُ اللهِ.

قَالَ: دَعُونِى، فالَّذِى أَنَا فِيهِ خَير مِمَّا تُدْعُنِى إِلَيْهِ وَ أَوصى عِنْدَ مَوْتِهِ بِثَلاَثِ: أَخْرِجُوا المشْرِكِين مِن جَزيرِهِ العَرَبِ، وَ أَجِيزُوا الوفدَ بِنَحْوِ مَا كُنْتُ أُجِيزَهُمْ، وَ نَسيت الثَّالِثَه.

İbn Uyeynə Suleymandan və o da Səid ibn Cubeyrdən o da İbn Abbasın belə söylədiyini nəql edir ki: “Pənc şənbə günü (yəni dördüncü gün) nə müsibətli bir gün idi?!

Sonra o qədər ağladı ki gözünün yaşları oturduğu xırda

daşları islatdı. Sonra belə dedi: Həmin gün, Peyğəmbərin (s) xəstəliyi qalxmışdı. Əmr etdi ki kağız gətirin. Sizə bir vəsiyyət yazım ta məndən sonra heç vaxt azmayasınız. Ancaq söz-söhbətlə mübahisəyə başladılar – Hansı ki, o Həzrətin (s) hüzurunda belə iş .görmək olmaz – və belə dedilər: Peyğəmbər sayıqlayır

Peyğəmbər (s) buyurdu: “Dəuni” məni tənha qoyun. Xəstəliyimin mənə verdiyi əziyyət .sizinkindən daha yaxşıdır

İbn Abbas əlavə edir: Allahın Rəsulu (s) ölüm ayağında üç şeyə vəsiyyət etdi: Müşrikləri ərəb yarımadasından çıxartmaq, Mədinəyə gələnləri mən necə qarşılayıb rəftar edirdimsə eləcə də hədiyyələrlə qarşılayıb rəftar edin. (Ravi deyir: Ancaq üçüncüsünü (.unutmuşam

Bu hədis “Səhihi-Müslim”də iki yolla biri Səid ibn Cubeyrin və ikincisi isə Ubeydullah ibn Ötbənin vasitsi ilə İbn Abbasdan nəql etmişlər.(١) “Səhihi-Buxari”də də yeddi yerdə .müxtəlif sənədləri ilə nəql olunmuşdur

Bu hədisın mətnində və kəlmələrində diqqət olunulası nöqtələr və dəyişiklik olduğu :üçün onlara işarə etməyi lazım bilirik

Bu yeddi yerdən üçünün səndi Peyğəmbərin vəsiyyət yazmaq istədikdə ona etiraz .١ :edən xəlifə Ömərə aid olunduğu bildirilir

"قَالَ عُمَرُ: إِنَّ رَسُولَ اللهِ قَدْ غَلَبَ عَلَيْهِ الْوَجَعُ... ."

(Ömər dedi: Peyğəmbərin (s)xəstəliyi artıb və o sayıqlayır” (٢“

Bu məsələni nəql eləyənlərin dördünün adı isə qeyd olunmamışdır. Çünki bir yerdə :belə qeyd olunmuşdur ki

فَقَالَ بَعْضُهُمْ: إِنَّ رَسُولَ اللهِ قَدْ غَلَبَهُ الْوَجَعُ

Səhihi-Müslim”, ٥-ci cild, “Kitabul-vəsiyyə”, “Tərkul-vəsiyyəti limən ləysə ləhu“ . [١] -١ ;şəyun yusa fih” bölümü, hədis: ١٦٣

Bu üç yer ibarətdir: ١-ci cild, “Kitabul-elm”, ٤٠-cı bölüm, “Kitabətul-elm” hədis: . [٢] -٢ ١١٤; ٧-ci cild, “Kitabulmərza”, ١٧-ci bölüm, “Qəvlul-mərizi qumu ənni” hədis: ٥٦٦٩ və ٩-cu cild, “Kitabul-etisami bil-kitabi vəs-sünnə”, ١٦-cı bölüm, “Kərahiyyətul-xilaf”, hədis: ;٦٩٣٢

(Bəziləri dedi: Peyğəmbərin (s) xəstəliyi artıb və o sayıqlayır”(١)“

Dedilər: Peyğəmbər“ فَقَالُوا: هَجَرَ رَسُولُ اللهِ:Həmçinin üç yerdə yenə belə qeyd olunmuşdur (sayıqlayır”(٢)

Ancaq bütün hədislərin məzmunu açıq şəkildə bu etirazın xəlifə Ömər tərəfindən olunduğunu və ilk şübhənin də onun tərəfindən edildiyini bildirir. فَقَالَ بَعْضُهُمْ " və" فَقَالُوا: "هَجَرَ رَسُولُ اللهِ" cümlələri də başqa bir hədəfi təmin edə bilməz və məsələni həqiqətindən azdıra bilməz.

Əgər Peyğəmbərin hüzurunda mübahisələr qarşıya çıxmışdırsa bunlar Ömərin sözünün qəbul olunub olmaması üzündən baş vermişdir. Bir dəstə onun fikri ilə razılaşmış digərləri isə müxalif olmuşlar:

"فَقَالَ عُمَرُ: إِنَّ رَسُولَ اللهِ | قَدْ غَلَبَ عَلَيْهِ الوَجَعُ وَ عِنْدَكُم الْقُرآنُ حَسْبُنَا كِتابُ اللهِ، فَاخْتَلَفَ أَهْلُ الْبَيْت، فَاخْتَصَمُوا، فَمِنْهُمْ مَنْ يَقُولُ: قَرِّبُوا يَكْتُبْ لَكُمْ رَسُول اللهُ كِتَاباً لَنْ تَضِلُّوا بَعْدَهُ، وَ مِنْهُم مَنْ يَقُولُ: مَا قَالَ عُمَر."

Ömər dedi: Xəstəliyi onu üstələyib və o sayıqlayır. Hal-hazırda Quran sizin“ yanınızdadır. Allahın bu kitabı bizə bəs edər. Evdə olan səhabələr arasında münaqişə başladı. O yerə çatdı ki, iş mübahisənin şişməsinə səbəb oldu.

Bəziləri deyirdilər ki: Gətirin Peyğəmbər (s) bir şey yazsın ki, ondan sonra azmayasınız. Ancaq bəziləri isə Ömərin sözlərini təsdiq edirdilər.”

İbn Əbil-Hədid müfəssəl bir hadisəni, İbn Abbasla Ömərin arasında olan danışıqları nəql edir ki, həmin söhbətlər əsnasında Ömərin özü bu həqiqətə etiraf edərək deyir:

١- [١] . ۶-۴١۶٩ :cı cild, “Kitabul-məğazi”, “Mərəzun-nəbiy və vəfatihi” bölümü, hədis;

٢- [٢] . ۴--cü cild, “Kitabul-cihad”, “Həl yəstəşfiu ila əhliz-zimmə” hədis: ٢٨٨٨. “Kitabul-xums, Əbvabul-cəzyə vəl-məvadiə, İxracul-yəhudi min cəzirətul-ərəb”, hədis ٢٩٩٧; ۶-cı cild, “Kitabul-məğazi”, “Mərəzun-nəbiy və vəfatih” bölümü, hədis: ۴١۶٨;

:Bəli, Allahın Rəsulu xəstə halında Əlinin adını yazsın. Ancaq mən bu işin qarşısını aldım
"وَلَقَدْ أَرادَ أَنْ يُصَرِّح باسْمِهِ فَمَنَعْتُ مِنْ ذَلِكَ"

İbn Əbil Hədid sonra deyir: Bu hadisəni “Bağdad tarixi” adlı kitabın müəllifi Əhməd ibn (Əbi Tahir öz kitabında sənədləri ilə birgə nəql etmişdir.(۱)

۲. Bu hədisdə diqqət olunulasi ikinci nöqtə, هَجَرَ رَسُـولُ اللهِ “və ”həcərə Rəsulullah غَلَبَ عَلَيْهِ الوَجَعُ “ğələbə əleyhi əl-vəcəu” kəlməsidir. Hər iki cümlənin mənası və məzmunu eyni olduğunu və Peyğəmbərin müqəddəs məqamına sayıqlamağın nisbət verildiyini .bildirir

Lakin əhli-sünnə kitablarının müəllifləri və hədis raviləri Peyğəmbərə söylənilən “sayıqlayır” cümləsinin xəlifəyə irad olduğunu görüb, onun Quranın açıq və aydın مَا ضَلَّ صَاحِبُكُمْ وَمَا غَوَى{ } “_” ,Sizin yoldaşınız (Məhəmməd əleyhissəlam) nə haqq yoldan sapmış nə də azmışdır! _(۲) ayəsinə zidd olduğunu bilərək həmişəki işlərinə əl atıb bu hədisin :mənasını belə dəyişmişlər

Hansı yerdə ki xəlifənin adını açıq şəkildə nəql etməyib və bu sözü Peyğəmbərin (s) hüzurunda olanlara nisbət veriblər, həmin yerdə eyni bu cümləni Peyğəmbərin (s) .hüzurunda aşkar şəkildə söylənildiyi kimi nəql ediblər

"فَقَالُوا: هَجَرَ رَسُولُ اللهِ"

”Dedilər: Peyğəmbər (s) sayıqlayır“

Ancaq hansı yerdə ki xəlifə Ömərin adı çəkilib yaxud onun adı ilə əlaqələndirilən “bəzi” هَجَرَ sözü ilə ifadə olunub orada “həcərə” sözünün əvəzinə غَلَبَ عَلَيْهِ الوَجَعُ “ğələbə əleyhi əl-vəcəu” cümləsini

---

۱- [۱]. “Nəhcül-bəlağənin şərhi”, ۱۲-ci cild, səh. ۲۱ (۲۲۳-cü xütbə) və bu məsələnin oxşarı .۸۷-ci səhifədə də gəlmişdir
۲- [۲]. “ən-Nəcm” surəsi, ۲-ci ayə;

(işlədiblər. Hansı ki, bu cümlə kinayə xarakteri daşıyır.(١)

Əvvəldə işarə etdiyimiz kimi, bu əməl və şübhəni Peyğəmbərin (s) hüzurunda olanlar həcərə”“ هَجَرَ deyil, əksinə Ömər ibn Xəttab söyləmişdir. Əgər orada olanlar da .kəlməsini işlətmişlərsə, bunu özlərindən deməmişlər. Əksinə Ömərdən öyrənmişlər

Diqqət olunulası başqa bir nöqtə hədisin özünə aiddir. Müəlliflər və bu hədisi nəql .٣ edənlər hədisin bu hissəsini heç gətirməmişlər. Ancaq onların bəziləri isə Peyğəmbərin (s) həssas anlarında və vəsiyyətini kətbi surətdə yaza bilmədikdən sonra üç mövzuya vəsiyyət etmişdir. Hədisi nəql eliyənlər öz sözlərinə əsasən onun üçüncüsünü :unutmuşlar

وَ أَوصى عِنْدَ مَوْتِهِ بِثَلاَثٍ: أَخْرِجُوا المشْرِكِين مِن جَزِيرهِ العَرَبِ، وَ أَجِيزُوا الوفدَ بِنَحْوِ مَا كُنْتُ أُجِيزَهُمْ، وَ نَسيت الثَّالِثَه.

Allahın Rəsulu (s) ölüm ayağında üç şeyə vəsiyyət etdi: Müşrikləri ərəb“ yarımadasından çıxartmaq, Mədinəyə gələnləri mən necə qarşılayıb rəftar edirdimsə eləcə də hədiyyələrlə qarşılayıb rəftar edin. (Ravi deyir: Ancaq üçüncüsünü ”(.unutmuşam

Qarşıya belə bir sual çıxır. Görəsən Peyğəmbərin (s) üçüncü vəsiyyəti nə idi ki hörümçək unutqanlığını öz torunun üzərinə toxuyub?! Yəqin o elə bir şeydir ki onun !yaddan çıxarılması və unudulması məsləhət görülüb

Lakin hər nə olsa da bu qədər məlumdur ki, unudulan bu hissə Peyğəmbərin (s) vəsiyyəti və o Həzrətin əhəmiyyət verdiyi həmin həssas mövzudur. O həmin mövzudur ki, Peyğəmbər (s) onun yazılması üçün kağız və qələm gətirilməsinə əmr etmişdir. Həmin məsələ, Peyğəmbərin (s) yaşadığı dövrdə və ölüm yatağında ümmətini zəlalətdən və azğınlıqdan qurtara

---

.Səhiheyndə” zikr olunan yerlərlə tətbiq olunsun“ . [١]-١

(bilən, tanıtdırdığı bir vasitə və ümmətin həyatı ilə bağlı olan İslami bir məsələsi idi.(١)

Qısa sözlə, Peyğəmbər ağır və böyük bir əməl vəsiyyət etmişdir ki, elə bu da onların Peyğəmbərə qarşı çıxmasına və onun müqəddəs zatı-pakına “sayıqlamaq” nisbətinin .verilməsinə səbəb olmuşdur

Bəli, bu əhəmiyyətli sayılan məsələ Allahın Rəsulu (s) tərəfindən məhv olunmadı. Onun üçüncü vəsiyyəti də elə həmin məsələ idi. Həzrət (s) həmin vəsiyyəti ilə haq yoldan .azazacaq və zəlalətə uğrayacaq olan ümmətinin qarşısını almaq istəyirdi

Şübhəsiz ki, Peyğəmbər yazmaq istəyirdi. Bu əməlin qarşısı alınsa da, o Həzrət (s) buna baxmayaraq onu şifahi olaraq açıq və aydın şəkildə söyləmişdir. Bu hədisi nəql edən də bunu bilirdi. Ancaq onun ifşa olunmasını məsləhət bilməmiş, unutqanlıq və .yaddan çıxarmaq kimi bəhanələr və üzrlər gətirmişdir

Təəccüblüsü budur ki, İbn Abbas və Səid ibn Cubeyr Peyğəmbərin (s) üçüncü vəsiyyətini nəql etmişlər. Ancaq növbə (bu hədisi nəql eləyənlərin üçüncü silsiləsindən .sayılan) “Suleymana” çatarkən, onun yadından çıxmış və unutmuşdur

Buna görə də Buxari açıqlayır ki, Süfyan ibn Uyəynə (hədis silsiləsinin dördüncü nəql :edəni) deyir

"قَالَ سُفْيَان: هَذَا مِنْ قَوْلِ سُلَيْمَانَ"

“نَسيتُ الثَّالِثَهَ” “Üçüncüsü yadımdan çıxıb, unutmuşam”

١- [١] . "إِنّى تـارِكٌ فِيكُمُ الثَّقلَيْنِ مَـا إِنْ تَمَسَّكْتُم بِهِمَـا لَنْ تَضِلُّوا أَبَداً: كِتَابَ اللهِ وَ عِتْرَتِى – اِئْتُنِى بِكِتَابِ أَكْتُبْ لَكُمْ كِتَاباً لَنْ تَضِلُّوا بَعْدَهُ أَبَداً" . “Mən sizin aranızda iki dəyərli bir şeyi əmanət qoyuram. Əgər onlardan yapışsanız heç vaxt zəlalətə düşməzsiniz: Allahın kitabı və Əhli-beytim – Mənə kağız və qələm gətirin. Sizə bir şey yazım ki məndən sonra heç vaxt zəlalətə və azğınlığa ”.düşməyəsiniz

cümləsi, Səid ibn Cubeyrin və İbn Abbasın deyil, “hədisin üçüncü ravisi “Suleyman”ın (sözüdür.”(١)

Lənət olsun qeyri İslami siyasətə ki nə qədər faktları söyləməyin qarşısını alır, nə nə qədər aydın həqiqətləri təhrif edir və nə qədər lazım olan məsələləri yaddaşlardan .sildirir

Şübhə və onun cavabı

Əhli-sünnənin bəzi yazıçıları belə bir irad etmişlər ki, əgər vəsiyyətnamənin yazılması məsələsi belə əhəmiyyət kəsb edirdisə nəyə görə Peyğəmbər (s) bir çoxunun etirazı ilə onu yazmadı? və nəyə görə Allahın Rəsulu (s) ümmətin xeyrinə olan bu məsələnin ?icrasında təslim oldu və oradakıların fikrilə razılaşdı

Biz, söylənilən bu iradlara Əllamə Seyyid Şərafuddinin (Allah ona rəhmət eləsin) verdiyi :cavabla kifayətlənirik. O bu barədə belə deyir

həcərə” yəni“ هَجَرَ (Məclisdəkilər tərəfindən açıqlanan həmin fikr və Peyğəmbəri (s “sayıqlayır” kəlməsi ilə müttəhim etmək, o Həzrətin (s) öz əmrindən və göstərişindən .dönməsinə və vəsiyyətnamənin yazılmasının yaddan çıxarılmasına səbəb oldu

Buna görə də ədəbsizcəsinə söylənilən bu sözdən və Peyğəmbərin (s) hüzurunda, onun gözləri önündə baş verən bu şiddətli ixtilaf o Həzrətin (s) vəfatından sonra fitnə və qarşıdurmadan savayı, onun yazısı üçün heç bir nəticə qalmadı. O şəraitdə bihudə sözlərə və boş-boğazlığa başladılar. Bu üzdən Peyğəmbərə “Mənim məclisimi tərk .edin!” deməsindən başqa bir imkan qalmadı

Əgər Peyğəmbər (s) öz əmrinin icrasında israr etsəydi və vəsiyyətnamə yazılsaydı, onlar yenə də öz sözlərində olan

---

Səhihi-Buxari”, ٤-cü cild, “İxracul-yəhud min cəzirətil-ərəb”, hədis: ٢٩٩٧;“ . [١] -١ .((Kitabul-xums, əbvabul-cizyə vəl-məvadiə

inadkarlığı daha çox göstərərdilər. O cümlədən öz tərəfadarları da Peyğəmbərə (s) həcərə" yəni "sayıqlayır" kəlməsini sübuta yetirmək üçün, çox çalışaraq" هَجَرَ söylənilən vəsiyyətnaməni rəd etməkdən ötrü bir çox dəlillər gətirməklə səhifələri dolduracaq və .kitablar yazardılar

Başqa bir tərəfdən Allahın Rəsulu (s) görürdü ki, bu vəsiyyətnamə istər yazılsaydı istərsə də yox Əmirəl-möminin Əli (ə) və onun tərəfdarları ayənin məzmunu qarşısında tabe olan və ona əməl edənlərdirlər. Ancaq başqaları belə bir yazılı (vəsiyyətin varlığı ilə də ona hörbət qoymayaraq ona əməl etməyəcəklər.(١)

həcərə" yəni" هَجَرَ Cavabın xülasəsi budur ki: İslam Peyğəmbəri (s) hiss etdi ki ona "sayıqlayır" kəlməsini nisbət verənlər onun ölümündən sonra da həmin nisbətlərin sübutu üçün israr edəcəklər və vəsiyyətnaməni və onun nübuvvətini etibardan və .dəyər qiymətdən salacaqlar. Ancaq nəticəsi də göz qabağındadır

Bu üzdən Allah Rəsulunun (s) dərin hikməti tələb edirdi ki, bu vəsiyyətnamənin yazılması fikrindən daşınsın. Bununla belə etiraz edənlərin və onların itaətkarları .tərəfindən nübuvvətin əsasına irad tutmağa yol açılmasın

Təməttö həcci .۵

İşarə

Xəlifə Ömərin xilafəti dövründə dəyişdirilmiş əməli dəsturlardan və hökmlərdən biri də "Təməttö həccid"dir. Rəsuli Əkrəmin (s) əmrinə zid olaraq həyata keçirilən bu hökm Osmanın xilafəti dövründə və ondan sonra Əmirəl-möminin Əlinin (ə) eyirazına səbəb oldu. Həzrət Əlinin (ə) fədakarlığı və

;əl-Müraciat", ۸۶-cı müraciət" .[۱]-۱

səyi nəticəsində bu hökm Peyğəmbərin (s) buyurduğu kimi yerinə yetirilməyə başladı. Xəlifə Ömərin bu barədə olan əmri isə bir neçə müddətdən sonra ləğv olundu. Bütün əhli-sünnə xəlifənin nəzərinin əksinə olaraq bu növ həccin caiz olduğu barədə fətva (verirlər.(١

.Səhiheyn" və hədis kitabıarından ələ gələn bu hökmün necəliyi aşağıdakı kimidir"

?Təməttö həcci nədir

Mükəlləf olan şəxs üç aydan (Şəvval, ziqədə və zihəccə) birində miqatların birində ömrə niyyəti ilə ehram bağlayır. Sonra Məkkəyə daxil olur və Kəbə evinin təvafından sonra Səfa və Mərva dağlarının arasında səyi yerinə gətirir. Daha sonra təqsir edir (saçını qırxır) və ehramdan çıxır. Yəni ehram halında ona haram olan şeylər. Həmin ildə Məkkədən həcc üçün başqa ehram bağlayana qədər halal olur. Eləki həcc üçün ehram bağladı, Ərəfata tərəf hərəkət edir və ondan sonra məşhərə yollanır. Daha sonra "Mina"ya gəlir və fiqh kitabında yazılan: cəməratda daş atmaq, qurban kəsmək, təvaf .və s... başqa əməlləri yerinə yetirir. Bu həmin təməttö həccidir

Bu növ həccə "təməttö" deyilməsinin səbəbi budur ki, onda "mütə" yəni ehrama haram olan şeylərdən ləzzət aparmaq və istifadə etmək icazəli sayılmışdır. Çünki işarə olunduğu kimi iki ehramın arasında (ömrə ehramı və həcc ehramı) ehram halında haram olan işlər halal olur. Bu arada hacı olan şəxs ömrə ehramında haram olan və sonradan həcc ehramında haram olacaq şeylərdən ləzzət aparar. Məkkədən qırx səkkiz mil (təqribən yetmiş səkkiz kilometr) uzaq olanlar həcc əməllərini bu .keyfiyyətdə gərək yerinə yetirsinlər

---

;"Müraciət edin: "Bidayətul-müctəhid", "Kitabul-həcc . [١] -١

Bu hökm Quranının açıq ayəsi və İslam Peyğəmbərinin (s) sözü və əməli ilə sübut olunmuşdur. Qurani-Kərim bu barədə belə deyir:

{فَمَن تَمَتَّعَ بِالْعُمْرَهِ إِلَى الْحَجِّ فَمَا اسْتَيْسَرَ مِنَ الْهَدْيِ فَمَن لَّمْ يَجِدْ فَصِيَامُ ثَلاثَهِ أَيَّامٍ فِى الْحَجِّ وَسَبْعَهٍ إِذَا رَجَعْتُمْ تِلْكَ عَشَرَهٌ كَامِلَهٌ ذَلِكَ لِمَن لَّمْ يَكُنْ أَهْلُهُ حَاضِرِى الْمَسْجِدِ الْحَرَامِ وَاتَّقُواْ اللّهَ وَاعْلَمُواْ أَنَّ اللّهَ شَدِيدُ الْعِقَابِ}

"_(Maneçiliyin aradan qalxmasına) əmin olduqda isə həcc vaxtına qədər ümrə ziyarətindən istifadə edən şəxs müyəssər etdiyi bir heyvan kəsməlidir. Qurbanlıq tapmayanlar bunun əvəzində həcc ziyarəti günlərində üç gün və (vətəninə) qayıdandan sonra yeddi gün oruc tutmalıdırlar ki, bu da tam

on gün edir. Bu (ümrə ziyarəti) ailəsi Məscidülhəramda (Məkkədə və ətrafında) sakin olmayanlara aiddir. Allahdan qorxun və bilin ki, Allahın əzabı şiddətlidir." _(١)

Bu zəminədə bir çox təvatür həddinə çatmış hədislər nəql olunmuşdur. Biz, onların bir neçəsini gələcək bəhslərimizdə nəql edəcəyik.

Peyğəmbərin cahiliyyət dövründə olan əməllərlə mübarizəsi

Cahiliyyət dövründə Şəvval, Zilqədə və Zilhəccə aylarında ömrə əməllərini yerinə yetirmək ən böyük günahlardan biri sayılırdı. Rəsuli Əkrəmin (s) təməttö həccini bu üç aylarda müsəlmanlara vacib etməsi, cahiliyyət dövrünün qanunları ilə mübarizədə atdığı təzə addım idi.

Ancaq bu əmr, onların əməllərinə zid və adi halın əksinə olduğu üçün birinci mərhələdə onu qəbul etmək bir çox müsəlmanlara ağır və çətin idi. Peyğəmbərin (s) bu əmri onların etirazına səbəb oldu.

Bu barədə Buxari və Müslim İbn Abbasdan belə nəql edirlər:

١- [١] . "əl-Bəqərə" surəsi, ١٩۶-cı ayə;

İslamdan qabaq camaat həcc aylarında Ömrəni yerinə yetirməyi “əfcəru fucur” yer üzündə günahların ən böyüyü kimi düşünürdülər. Onlar deyirdilər ki; səfər ayı başa .çatdıqda Ömrə əməllərinin yerinə yetirilməsi halal olur

...عَنْ ابْنِ عَبَّاس قَالَ: كَانُوا يَرونَ أَنَّ الْعُمْرَهَ فِى أَشْهُر الْحَجِّ من أَفْجر الْفُجُور فِى الأَرْضِ، وَ يَجْعَلُونَ الْمحرّمَ صفراً وَ يَقُولُنَ: إِذَا بَرأ الدبرُ، وَعَفَا الأَثرُ، وَانسَلخَ صَفَرُ حلَّت العمرهُ لِمَنْ اِعْتَمِرَ، قَدِمَ النَّبِىّ | وَ أَصْحَابُهُ صَبِيحَه رَابِعَهِ مُهِلِّينَ بالْحَجّ، فَأَمَرَهُمْ أَن يَجْعَلُهَا عُمْرَهً، فَتَعَاظَمَ ذَلِكَ عِنْدَهُم فَقَالُوا: يَا رَسُولَ اللهِ أَى الحل قَالَ: حَلَّ كُلّهُ.

İbn Abbas əlavə edir ki; “Allahın Rəsulu (s) və onun səhabələri həcc üçün ehram bağladıqları halda zihəccə ayının dördüncü sübh çağı Məkkəyə daxil oldular. Rəsuli Əkrəm (s) əmr etdi ki, bu ehramı ömrəyə dəyişsinlər və ehramdan çıxsınlar. Ancaq bu əmri qəbul etmək səhabələrə çox ağır gəldi. Bu üzdən soruşdular: Ehramdan çıxmaqla haram olan şeylərin hansı bizə halal olur? Allahın Rəsulu (s) buyurdu: Bütün haram (olan şeylər sizə halal sayılır.(١)

...عَنْ جَابِر بْنِ عَبْدُ اللهِ قَالَ: أَهْلَلْنَا مَعَ رَسُولِ اللهِ بِالْحَجّ خَالِصاً لاَ نُخْلِطْهُ بِعُمْرَهِ، فَقَدِمْنَا مَكّهَ لأَربَعَ لَيَالِ خلونَ مِنْ ذِى الْحَجّه، فَلَمَّا طِفْنَا بِالْبَيْتِ وَسَعْيْنَا بَيْنَ الصّفَا وَالْمَرْوه أَمَرَنَا رَسُولُ اللهِ أَنْ نَجْعَلَهَا عُمْرَهً، وَ أَن نَحِلّ إِلَى النِّسَاء، فَقُلْنَا مَا بَيْنَنَا: لَيْسَ بَيْنَنَا وَ بَيْنَ عرفَه إِلَّا خَمْسُ، فَنُخْرِجُ إِلَيْهَا وَ مَذَاكيرُنَا تَقطُرُ مَنِيّاً، فَقَالَ رَسُولُ اللهِ |: إِنِّى لأَبَرُّكُم وَ أَصْدَقُكُم، وَ لَوْ لاَ الْهَدْى لأَحْلَلْتُ، فَقَالَ سرَاقَه بْنَ مَالِك: أَمْتَعْتَنَا هَذِهِ لِعَمُنَا هَذَا أَمْ لِلأَبَدِ؟ فَقَالَ |: لاَ. لأَبَدَ الْآبَاد.

Cabir ibn Abdullah deyir: “Biz Allahın Rəsulu (s) ilə həcc üçün ehram bağladıq. Ancaq ömrə buna daxil deyildi. Zihəccə ayından

---

Səhihi-Buxari”, ٢-ci cild, “Kitabul-həcc”, “ət-Təməttö vəl-qiran vəl-əfvad”“ . [١] -١ bölümü, hədis: ١۴٨٩; “Səhihi-Buxari”, ٣-cü cild, “Kitabu fəzailus-səhabə”, ٢۶-cı bölüm, “Əyyamul-cahiliyyə”, hədis: ٣۶٢٠; “Səhihi-Müslim”, ۴-cü cild, “Kitabul-həcc” “Cəvazul-ömrəti fi şəhril-həcc” bölümü, hədis: ١٣۴٠; “Sünəni-Nəsai”, “Kitabu mənasikul-həcc”, .“Əşarul-huda” bölümü, hədis: ٢٧٣۶, əl-Həccu ibahətul-həcc

dörd gecə ötüb keçmişdir. Biz Məkkəyə daxil olduq. Təvafı və səyi (Səfa və Mərva arasında yeyin-yeyin yerimək) yerinə gətirdikdən sonra Allahın Rəsulu (s) bizə əmr etdi ki bu əməlimizi ömrəyə çevirək. Beləcə də qadınlarımız bizə halal olsunlar.

Cabir deyir: Biz öz aramızda dedik ki Ərəfiyə qədər beş günümüz qalıb. Alətlərimizdən məni süzülən halda Ərəfəyə hərəkət edək? Allahın Rəsulu (s) bu etirazı eşidib buyurdu:

"Həqiqətən, mən, sizlərdən dini hökmlərə nisbət ona ən yaxşı əməl edən, ən vəfalı və sadiq qalanam. Əgər özümlə qurbanlıq gətirməsəydim sizin kimi ehramdan xaric olardım."

Səraqəti bni Malik dedi: Bu təməttö həcci bu ilə məxsusdur ya həmişə belə olacaq? Həzrət (s) buyurdu: "Həmişə belə olacaq"(١)

Biz bu hədisi "Sünəni-İbn Macə"dən nəql etdik. Bu hədis "Səhihi-Buxari" və "Səhihi-Müslim" kitablarında da qısa fərqlə qeyd olunmuşdur.

"Səhihi-Müslim"də yenə Cabir ibn Abdullahdan belə rəvayət olunur:

...عَنْ جَابِرِ بْنِ عَبْدُ اللهِ قَالَ: أَهْلَلْنَا مَعَ رَسُولِ اللهِ بِالْحَجّ فَلَمَّا قَدِمْنَا مَكَّهَ أَمَرَنَا أَنْ نَحِلّ وَ عُمْرَةً، فَكَبُرَ ذَلِكَ عَلَيْنَا وَ ضَاقَتْ بِهِ صُدُورُنَا، فَبَلَغَ ذَلِكَ النَّبِيّ | فَمَا نَدْرِى أشىء مِنْ قبلِ النَّاسِ، فَقَالَ: أَيُّها النَّاس: أَحِلُّوا فَلَوْ لاَ الهدى الَّذى مَعِى فَعَلْتُ كَمَا فَعَلْتُمْ قَالَ: فَأَحْلَلْنَا حَتَّى وَطِئْنَا النِّسَاءَ وَ فَعَلْنَا مَا يَفْعَلُ الْحِلَال حَتَّى إِذَا كَانَ يَوْمَ التّرويهِ وَ جَعَلْنَا مَكَّه بِظهْر أَهْلِنَا بِالْحَجّ.

"Biz Allahın Rəsulu (s) ilə həcc üçün ehram bağladıq. Eləki Məkkəyə daxil olduq Rəsuli Əkrəm (s) niyyətimizi həcc ehramından ömrə ehramına dəyişməyimizə əmr etdi və

١-[١]. "Sünəni-İbn Macə", ٢-ci cild, "Kitabul-mənasik", hədis: ٢٩٨٠; "Səhihi-Müslim", ۴-cü cild, "Kitabul-həcc", "Bəyanu vucuhul-ehrami və ənnəhu..." bölümü, hədis: ١٢١۶; "Səhihi-Buxari", ٢-ci cild, "Kitabul-həcc", "Təqzil-haizul-manasiki kulluha" bölümü, hədis: ١۵۶٨ və ٣-cü cild, "Ömrətut-tənim" bölümü, və "Səhihi-Buxari", ٣-cü cild, "əl-İştiraku fil-hədyi vəl-bədən" bölümü;

.ehramdan çıxmağımızı istədi

Cabir deyir: Bu əmr, bizə çox ağır gəldi və ürəyimizə yatmadığına görə (narahatın çoxluğuna işarə edir) "فکبر ذلِک عَلَیْنا وَ ضَاقَتْ بِهِ صُدُورَنَا" Rəsuli Əkrəm (s) bu narahatçılığı bildi. Bu xəbərin ona göydən verildiyini, yoxsa camaatdan kimsə çatdırıldığını bilmirdik. Bu vaxt o həzrət (s) belə buyurdu: camaat ehramdan çıxın. Əgər mənimlə bu qurbanlıq .olmasaydı mən də sizin kimi ehramdan çıxardım

Cabir deyir: Biz də ehramdan çıxdıq. Hətta öz qadınlarımızla da yatdıq. Məhrəm olmayanların gördüyü işi biz də elədik. Elə ki tərviyə günü(۱) çatdı, biz Məkkəni Ərəfata tərəf tərk etmək istədik. Həcc üçün ehram bağladıq."(۲)

Qısa sözlə cahiliyyət dövrünün fikri ilə yaşayan bu təzə müsəlmanların əqidəsinə görə, hər kəs haram aylarında ehram bağlayıb Məkkəyə daxil olarsa, ehrama haram olan şeylərdən birini yerinə yetirməyə onun haqqı yox idi. Xüsusilə də qadınlarla yaxınlıq etmək və s.. Bu iş, həccin əməlləri qurtardıqdan və həcc ehramından çıxdıqdan sonra .icazəli sayılırdı. Onların da etirazı məhz bu idi

---

۱- [۱] . Mütərcim: "Tərviyə günü", zilhəccə ayının səkkizinci gününə deyilir. Bu kəlmənin mənasını iki cür açıqlamaq olar: ۱) Şeyx Səduq "İləluş-şəraye" kitabında nəql olunan hədisə əsasən belə deyir: Zilhəccə ayının səkkizinci gününü ona görə "Tərviyə" günü adlandırmışlar ki, o gün hacılar Məkkədən Ərəfəyə getmək üçün su tədarükü görürlər. O zamanda Ərəfədə su tapılmadığı üçün hacılar məcbur olurdular ki, özləri ilə su aparsınlar; ۲) Əllamə Hilli "Müntəha" adlı öz kitabında bildirmişdir ki, "Tərviyə", "Reyy" maddəsindən olub "təfəkkür etmək, düşünmək" mənasınadır. Çünki Həzrət İbrahim (ə) Zilhəccə ayının səkkizinci gecəsi yuxuda oğlu İsmaili (ə) qurban kəsdiyini gördü. Eləki sübh açıldı, öz-özünə bu yuxunun Rəhmani və ya Şeytanı olması barədə düşünməyə başladı. Zil-həccə ayının doqquzuncu gecəsi bir də bu yuxunu görəndən sonra, doqquzuncu günü bu yuxunun Rəhmanı olduğuna yəqin etdi. Elə buna görə də .Zilhəccə ayının doqquzuncu günü "Ərəfə" yəni arif olmaq və bilmək günü adlanır

۲- [۲] . "Səhihi-Müslim", ۴-cü cild, "Kitabul-həcc", ۱۷-ci bölüm, "Bəyanu vucuhil-ehrami"

;və ənnəhu dəcuzu ifradul-həcci vət-təməttöi...” hədis: ١٢١۶

"أننطَلَقَ وَ مَذاكِيرُنَا تقطر!"

Müsəlmanların bəziləri bu təzə əmri qəbul etməkdə o qədər şək-şübhədə idilər ki, bu İlahi qanuna tabe olmaq istəmirdilər. Hətta iş o yerə çatdı ki, Peyğəmbəri (s) ;qəzəbləndirib incitdilər. Aişə nəql edir ki

...عَنْ عَايِشَه أَنَّهَا قَالَتْ: قَدِمَ رَسُولُ اللهِ | لأَرْبَع مضيَن مِنْ ذِى الْحجّه أوْ خَمس، فَدَخل عَلَيَّ وَ هُوَ غَضَبَانُ فَقُلْتُ: مَنْ أَغْضَبَكَ يَا رَسُولَ اللهِ أَدْخَلهُ اللهُ النَّار؟ قَالَ: "أَوْ مَا شَعرتَ أَنِّى أَمَرْتُ النَّاسُ بِأَمْرٍ فَإِذَاهُمْ يَتَرَدُّونَ... ."

Allahın Rəsulu (s) Zihəccə ayının dördüncü ya da beşinci günü Məkkəyə daxil oldu.“ Birdən onu qəzəb dolu otağa girdiyini gördüm. Ərz etdim: Ey Allahın Rəsulu! Sizi qəzəbləndirəni Allah cəhənnəm oduna atsın. O həzrət (s) buyurdu: Aişə! Bilmirsənmi (mən bu camaata əmr etdim? Onlar isə bu əmrə şəkk və şübhə edirlər...?!”(١)

Təməttö həccinin haram edilməsi

İşarə olunduğu kimi bir qrup müsəlmanın istəyinin əksinə olaraq təməttö həcci Qurani-Kərimin ayəsinə və Peyğəmbər (s) əmrinə əsasən yerinə yetirildi. Bu hökm Əbu Bəkrin iki illik hakimiyyəti dövründə də Peyğəmbərin (s) buyurduğu kimi yerinə yetirilirdi. Ancaq, ikinci xəlifə Ömərin hakimiyyəti dövründə belə həccin qarşısı alındı və etiraz edənlər isə ciddi şəkildə cəzalandırılmaqla təhdid olundu. Bu barədə “Sihah” və “Sünən” kitablarında bir çox hədislər nəql olunmuşdur. Tarix və rical kitablarında da belə hədislər açıq şəkildə öz əksini tapmışdır. Biz bu barədə “Səhiheyn” kitablarında :nəql olunan bir neçə hədisi burada gətirməklə kifayətlənirik

.١

Səhihi-Müslim”, ۴-cü cild, “Kitabul-həcc”, “Bəyanu vucubil-ehrami və ənnəhu...”“ . [١] -١ ;bölümü, hədis: ١٢١١

...قَالَ عِمْرَانِ بْنِ حَصِين: نَزَلَتْ آيَهُ الْمُتْعَهِ فِى كِتَابِ اللهِ (يَعْنِى مُتْعَهَ الْحَجّ) وَ أَمَرَنَا بِهَا رَسُولُ اللهِ | ثُمَّ لَمْ تَنْزِلْ آيَهٌ تَنْسِخ آيَهَ مُتْعَهِ الْحَجّ وَ لَمْ يَنْهَ عَنْهَا رَسُولُ اللهِ حَتَّى مَاتَ قَالَ رَجُلُ بِرَأْيِهِ مَا شَاءَ.

İmran ibn Həsin deyir: "həcc mütəsinin ayəsi Quranda nazil oldu. Allahın Rəsulu (s) bu növ həcci yerinə yetirməyi bizə əmr etdi. Sonra mütə ayəsinin hökmünü sındıran nə başqa bir ayə nazil oldu, nə də ki Peyğəmbər (s) sağlığında onu qadağan etmişdir. (Sonralar bir kişi öz həva və nəfsi ücbatından bu barədə istədyini dedi."(١)

.٢

...عَنْ أَبِى نضرهِ قَالَ: كُنْتُ عِنْدَ جَابِرِ بِنِ عَبْدُالله فَأَتَاهُ آتِ فَقَالَ: ابنُ عَبَّاس وَ ابْنُ الزبير اخْتَلَفَا فِى الْمُتْعَتَيْنِ (مُتْعِهِ الْحَجّ وَ مُتْعِهِ النِّسَاء) فَقَالَ جَبر: فَعَلْنَا هُمَا مَعَ رَسُولِ اللهِ | ثُمَّ نَهَانَا عَنْهُمَا عُمَر فَلَمَّا نَعُد لهُمَا.

Səhihi-Müslim"də Əbi Nəzrədən belə rəvayət olunur ki: "Mən, Cabir ibn Abdullahın" yanında idim. Bir kişi gəldi və dedi: İndicə İbn Abbas və İbn Zubeyr iki mütələr (həcc mütəsi və Nigah mütəsi) barədə bir-biriləri ilə ixtilafları vardı. Cabir onun cavabında dedi: Bəli, biz Peyğəmbərin (s) dövründə hər iki mütəni yerinə yetirirdik. Ancaq sonralar Ömər bu işi görməyə bizi qoymadı. Biz də həmin əməli bir daha yerinə (yetirmədik."(٢)

.٣

...عَنْ مطرف قَالَ: بَعَثَ إِلَيَّ عِمْرَانِ بْنِ حَصِين فِى مَرضِهِ الَّذِى تُوُفِىَ فِيهِ فَقَالَ: إِنِّى كُنْتُ مُحَدِّثُكَ بِأَحَادِيثَ لَعَلَّ الله أَنْ يَنْفَعَكَ بِهَا بَعْدِى، فَإِنْ عشتُ فَاكتُم عَنِّى وَ إِنْ مِتُّ فَحَدِّث بِهَا

١- [١] . "Səhihi-Mülsüm", ۴-cü cild, "Kitabul-həcc", ٢٣-cü bab, "Cəvazut-təməttö", hədis: ١٢٢٣-١٢٢۶; "Səhihi-Buxari", ٢-ci cild, "Kitabul-həcc", "ət-Təməttö bölümü", hədis: ١۴٩۶; "Səhihi-Buxari", ۵-ci cild, "Kitabul-məğazi", "Bəəsə Əbi Musa iləl-yəmən", hədis: ۴٠٨٩;

٢- [٢] . "Səhihi-Müslim", ۴-cü cild, "Kitabun-Nikah", "Nikahul-mutə" bölümü, hədis: ١۴٠۵;

إنْ شِـئْتَ إنَّهُ قَدْ سَـلَمَ عَلىّ، وَاعْلَمْ أنَّ نَبِيَّ اللهِ | قَـدْ جَمَعَ بَيْنَ حَـجٍّ وَ عُمْرَه ثُمَّ لَمْ يَنْزِلْ فِيهِمَا كِتَابُ اللهِ وَ لَمْ يَنْهَ عَنْهَا نَبِيُّ اللهِ | قَالَ رَجُلٌ فِيهَا بِرَأْيِهِ مَاشَاء.

Başqa bir hədisdə, Müslim Mutrifdən belə nəql etmişdir: “İmran ibn Həsin xəstəliyi ilə dünyadan getdiyi gün məni yanına çağırdı və dedi: Mənim ölümüm çatıb. İndiki belədir, bir neçə mövzunu sənə deyirəm. Bəlkə məndən sonra sənin üçün xeyri və faydası olar. Ancaq əgər ölməsəm bunları gizli və sir olaraq saxla. Yox, əgər bu xəstəliyimlə ölsəm camaata söyləmək istəsən də heç bir maneəsi yoxdur. Bilki, Peyğəmbər (s) həcc və ömrəni bir ildə cəm etmişdir. Bu əməllərin qarşısını alacaq nə bir ayə nazil olub və nə də Peyğəmbər (s) ondan bizləri nəhy etmişdir. Ancaq bir kişi onun barəsində hər nə (istəyirdisə dilinə gətirdi.”(۱)

Bu hədislərdən belə istifadə olunur ki təməttö həccinin qarşısını alan və onu yerinə :yetirilməsinə mane olan Ömər olmuşdur. Buradan iki həssas məsələ ələ gəlir

İmran ömrünün axır anlarında o günə qədər məcbur olub saxladığı çox həssas .۱ məsələləri Mutrifə söyləmişdir. Amma bu hədisdə təkcə təməttö həccinə !toxunulmuşdur. Qalan sözlər isə unudulmuşdur

Bu vəsiyyət açıq şəkildə bunu bildirir ki, camaat həqiqəti açıqlamaqda azad .۲ deyildilər. Hakimiyyətdəkilərin əmrlərinə etiraz etməməyə məcbur idilər. Həqiqətləri xəlifələrin xeyrinə olaraq gizlədirdilər. Buna görə də Həsin deyir: “Əgər ölməsəm bu hadisəni gizli saxla. Yox, əgər ölsəm onun söylənilməsi üçün heç bir eyb və maneə ”.yoxdur

Bunlar hədis, təfsir, tarix və rical kitablarında Ömərdən nəql olunmuşdur. O minbərin :başında açıq və aşkarcasına belə dedi

---

Səhihi-Müslim”, ۴-cü cild, “Kitabul-həcc”, “Cəvazut-təməttö” bölümü, hədis:“ . [۱] -۱ ;۱۲۲۶

"مُتْعَتَانِ كَانَتَا عَلَى عَهْدِ رَسُولِ اللهِ | وَ أَنَا أَنْهَى عَنْهُمَا وَ أَعَاقِبُ: مُتْعَةُ الْحَجِّ، وَ مُتْعَةُ النِّسَاءِ"

Peyğəmbərin (s) zamanında olan iki mütəni, "həcc mütəsini və qadınların mütəsini"" (yerinə yetirməkdən çəkindirirəm və ona mürtəkib olanları cəzalandıracağam."(1)

Xəlifənin bu sözləri Əhməd ibn Hənbəlin "Müsnəd" adlı kitabının 1-ci cildinin 52-ci ondan "وَ أَنَـا أَنْهَى عَنْهُمَـا" səhifəsində də gətirilmişdir. Müntəha adi hala görə bu cümlə .pozularaq atılmışdır

Təməttö həccinin qarşısının alınma səbəbi

Mümkündür ki, bir nəfər belə bir sual versin: Peyğəmbərdən (s) sonra təməttö həccinin qarşısının alınma səbəbi nə idi? Bu hökmə qarşı çıxmada hansı hədəflər və ?məqsədlər var idi

Sualın cavabını bu barədə "Səhiheyn" və başqa mötəbər sənədlərdə yazılmış mətinlərdən əldə etmək olar. Çünki bu sənədləri araşdırdıqda məlum olur ki, bu hökmə qarşı çıxmağın səbəbi, yalnız müsəlmanların Peyğəmbər (s) vasitəsi ilə verilən hökmə .tutulan iraddan başqa bir şey deyildir

"اِنْطَلَقْنَا وَ مَذَاكِيرُنَا تَقْطُرُ" :Əsası olmayan həmin məsələ onların zehnində fikirlərini qarışdırırdı "Alətlərimizdən məni süzülən halda"

Həmin səbəblər, cahiliyyət dövründən zehndə qalan köhnə fikirlər hələ də onların .beyinlərində idi. Bu da Peyğəmbərin (s) qəzəblənməsinə və narahatçılığına səbəb oldu

Bəli, həmin dəlillər və fikirlər Peyğəmbərdən (s) sonra təməttö həccinin qarşısını almaqla Quranın açıq və aşkar hökmünün və cahiliyyət dövrünün adətləri ilə mübarizə aparan

---

Əhkamul-Qurani cəsas", 1-ci cild, səh. 342 və 345 (Bəqərə surəsinin təfsiri) və 2-" . [1] -1 ci cild, "Nisa surəsinin təfsiri", "Qirtubinin təfsiri" 2-ci cild, səh. 370; "Kənzul-ummal", "ən-Nikah", hədis: 4571, Hindistan çapı, 8-ci cild, səh. 293, və "Şərhu təcridi Quşçi",

;”“İmamət fəsli

.Peyğəmbərin (s) əmri qarşısında fikir yürütməyə səbəb oldu

Bu məsələ “Səhihi-Müslim” kitabında və əhli-sünnənin başqa mötəbər kitablarında :geniş şəkildə belə gəlmişdir

...عَنْ إِبْرَاهِم بْنِ مُوسَى، عَنْ أَبِى مُوسَى أَنَّهُ كَانَ بِالْمُتْعِهِ فَقَالَ لَهُ رَجُلٌ: رُوَيْدَكَ بِبعضِ فِتْيَاكَ فَإِنَّكَ لاَ تَدْرِى مَا أَحْدَثَ أَمِيرُالْمُؤْمِنِينَ فِى النُسُكِ بَعْدُ حَتَّى لِقِيَهُ بَعْدُ فَسَأَلَهُ فَقَالَ عُمَرُ: قَدْ عَلِمْتُ أَنَّ النَّبِىَّ | قَدْ فَعَلَهُ وَ أَصْحَابُهُ وَ لَكِن كَرِهَتْ أَنْ يُظِلُّوا مُعرسينَ بِهِنَّ فِى الأَراكِ ثُمَّ يَرُوحُونَ فِى الْحَجِّ تَقْطُرُ رُؤُسهُم.

Əbu Musadan nəql olunmuşdur ki; “O, həcc mütəsinə fətva verirdi. Bir kişi ona dedi: Belə fətvaların bəzisində tələsmə. Əmirəl-möminin Ömərin sonralar həcc əməllərində dəyişiklik etməsindən xəbərin yoxdurmu? Əbu Musa Ömərlə görüşdü və hadisəni :ondan soruşdu. Ömər cavab verdi

Bəli, Allahın Rəsulunun (s) və onun səhabələrinin təməttö həccini yerinə yetirdiklərini“ bilirəm. Ancaq müsəlmanların ərak (ağac) altında öz xanımları ilə yaxınlıq etməsi xoşa gəlməzdir. Üst-başlarından qüsl suyu süzülən halda həcc əməllərini yerinə yetirməsi (yaxşı deyil.”(١

Səhihi-Müslim” kitabını şərh edənlərdən biri kitabın vərəq altısında bu səbəblərin“ :izahında belə deyir

bəzi müsəlmanların Peyğəmbərin (s) dövründə təməttö ”تَقْطُرُ رُؤُسهُم“ Xəlifənin bu sözü“ bu cümlələrdən gözəldir.” ”فَنَأْتِى عَرَفَة تَقْطُرُ مَذاكِيرُنَا الْمَنِىّ“ həcci vacib olarkən söylədikləri Sonra belə deyir: “Bu cümlədə xəlifə təməttö həccinin qarşısının alınmasının səbəbini söyləmişdir. Çünki “Zərqani”nin sözlərinə əsasən xəlifə Ömərin əqidəsinə görə hacı olan kəs, rahatlıq və

Səhihi-Müslim”, ۴-cü cild, “Kitabul-həcc”, “Babu fi nəsxit-təhəllul”, hədis: ۱۲۲۲;“ . [۱] -۱ “Sünəni-Nəsai”, ۵-ci cild, “Kitabu mənasikul-həcc”, “Təməttö bölümü”; “Sünəni-ibn Macə”, ۲-ci cild, “Kitabul-mənasik”, hədis: ۲۹۷۹; “Müsnədi-Əhməd”, ۱-ci cild, “Müsnədi ;Ömər ibn Xəttab”, səh: ۴۹ və ۵۰

kef çəkməməlidir. Buna görə də hacıların ehramdan çıxıb öz xanımları ilə yaxınlıq etməsi və sonra isə Ərəfata tərəf gedib, həcc əməllərini yerinə yetirməsi onun xoşuna gəlmirdi.(١)

İmam "Sindi" "Sünəni-Nəsai"nin vərəq altısında xəlifənin sözlərinə izah gətirərək belə deyir: "Onun məqsədi budur ki, hacı olan kəs saçı dağılmış, qəmli və solğun halda olmalıdır. Təməttö həccində isə camaatın çoxu belə deyildir. Buna görə də Ömər bu həccin qarşısını aldı."

Hər halda əvvəldə işarə etdiyimiz kimi məntiq budur və məqsəd də birdir. Ancaq ibarətlər və ifadələr dəyişmişdir!

Lakin bu nəzərlərin və dəlillərin cavabını Peyğəmbər (s) özü buyurmuşdur: "أَنَ أَتْقَاكُم لله وَ أَصْدَقُكُمْ وَ أَبَرّكُم" "Mən Allahın qanunlarına sizdən daha çox təqvalı, daha yaxşı əməl edən və daha sədaqətliyəm."

{وَمَا كَانَ لِمُؤْمِنٍ وَلَا مُؤْمِنَةٍ إِذَا قَضَى اللَّهُ وَرَسُولُهُ أَمْرًا أَن يَكُونَ لَهُمُ الْخِيَرَةُ مِنْ أَمْرِهِمْ وَمَن يَعْصِ اللَّهَ وَرَسُولَهُ فَقَدْ ضَلَّ ضَلَالًا مُّبِينًا}

"Allah və Peyğəmbəri bir işi hökm etdiyi zaman heç bir mö'min kişiyə və qadına öz işlərində başqa yol seçmək (öz ixtiyarları ilə ayrı cür hərəkət etmək) yaraşmaz. Allaha və Onun Peyğəmbərinə asi olan kəs, şübhəsiz ki, (haqq yoldan) açıq-aydın azmışdır!"(٢)

Təməttö həcci Osmanın dövründə

Üçüncü xəlifənin dövründə Əmirəl-möminin Əlinin (ə) zəhməti və həmçinin bir çox müsəlmanların da Müaviyənin dövründə olan səyləri, təməəttö həcci İslam Peyğəmbərinin (s) zamanında olduğu kimi yenidən əvvəlki halına qayıtdı. Tədricən ikinci xəlifənin əmri yaddaşlardan silindi. Ömərin bu həccin qarşısını

١- [١]. "Zərqaninin Səhihi-Müslimə yazdığı şərhi", (Beyrut çapı), ١٣٣٤, ٤-cü cild, səh: ٤٦;

٢- [٢]. "əl-Əhzab" surəsi, ٣٦-cı ayə;

almasına baxmayaraq, bununla belə əhli-sünnə fəqihləri təməttö həccinin caiz olduğu barədə fətva verdilər. Bir müddət qadağadan sonra onlar da bu həcci yerinə .yetirməyə başladılar

İndisə "Səhiheyn" kitablarında və mötəbər sənədlərdə bu barədə işarə olunan :rəvayətləri nəql edək

عَنْ مَرْوَانِ بْنِ الْحَكَمْ قَالَ: شَهِدْتُ عُثْمَان وَ عَلِيّاً وَ عُثْمَانُ يَنْهَى عَنِ الْمُتْعِهِ وَ أَنْ يَجْمَعَ بَيْنَهُمَا، فَلَمَّا رَأى عَلِيّ أَهلَّ بِهِمَا لَبَّى بِعُمْرَهِ وَ حجَهِ قَالَ: مَا كُنْتُ لَأَدْعُ سُنَّهَ النَّبِيّ لِقَوْلِ أَحَدِ.

Buxari və Müslim Mərvan ibn Həkəmdən belə nəql edirlər: "Osman ibn Əffanı təməttö həccini qadağan etdiyini gördüm. Amma eləki Əli ibn Əbi Talib (ə) onun bu əməlini gördü, ömrə və təməttö həccini yerinə yetirmək üçün ehram bağladı və dedi: Mən heç vaxt Allahın qanununu və Peyğəmbərin (s) adətini bir nəfərin sözünə görə tərk (etməyəcəm".(١)

Yenə "Səhiheyn"də Osmanın Əmirəl-möminin Əli ilə ixtilafını Səid ibn Musəyyib belə :açıqlayır

عَنْ سَعِيدِ بْنِ الْمُسَيِّب قَالَ: اِجْتَمَعَ عَلِيّ وَ عُثْمَانُ بِعَسفانَ فَكَانَ عُثْمَانُ يَنْهَى عَنِ الْمُتْعِهِ أَوْ الْعُمْرَهِ فَقَالَ عَلِيّ: مَا تُرِيدُ إِلَى أَمْر فَعله رَسُولُ اللهِ تَنْهَى عَنْه؟ فَقَالَ عُثْمَان: دَعْنَا مِنْكَ فَقَالَ: إِنِّى لَا أَسْتَطِعُ أَنْ أَدعكَ فَلَمَّا أَنْ رَأْى عَلِيّ ذَلِكَ أَهْلّ بِهِمَا جَمِيعاً.

Əli ibn Əbi Talib (ə) və Osman Əsfanda (Məkkə və Mədinə arasında yerləşən bir kənd)" bir-biri ilə üzləşdilər. Osman mütənin və ya ömrənin qarşısını alırdı. Əli ibn Əbi Talib (ə) ona dedi: "Osman, sən Allahın və onun Rəsulunun əmrinin qarşısını almaqdan başqa "?bir şey bilmirsən

Osman dedi: Bizi öz başımıza burax. Əmirəl-möminin (ə) buyurdu: "Səni öz başına buraxa bilmərəm." Elə ki Əli (ə) vəziyyəti belə gördü özü ömrəyə və həccə ehram (bağladı."(٢)

١- [١] . "Səhihi-Buxari", ٢-ci cild, "Kitabul-həcc", ٣۴-cü bölüm, "ət-Təməttöu vəl-qiran", ;hədis: ١۴٨٨

[۲] -۲ . "Səhihi-Buxari", ۱-ci cild, ۳۴-cü bölüm, "ət-Təməttöu vəl-qiran", hədis: ۱۴۹۴; "Səhihi-Müslim", ۴-cü cild, "Kitabul-həcc", "Cəvazut-təməttö" bölümü, hədis: ۱۲۲۳;

Müslim yuxarıdakı hədisi Abdullah ibn Şəqiqdən də nəql etmişdir. Bu cümlə də o rəvayətdə vardır: " فَقَالَ عُثْمَانُ لِعَلِيّ كَلِمَةً " "Osman bu mövzuda Əliyə acıqlandı".

Səid ibn Musəyyib "Sünəni-Nəsai" kitabında bu ixtilafı belə nəql edir: "Əli (ə) Osmana qarşı çıxdıqdan sonra dedi:

إِذَ رَأَيْتُمُوهُ قَدْ ارْتَحَلَ فَارْتَحِلُوا فلبى على وَأَصْحابِهِ بالْعُمْرَهِ

"Eləki gördünüz Osman hərəkət edir siz də hərəkət edin. Bu vaxt özü və tərəfdarları ömrə üçün ehram bağladılar."

İmam Sindi "إِذَ رَأَيْتُمُوهُ..." cümləsinin şərhində deyir: "Əlinin (ə) məqsədi bu idi ki, siz də onun yanında hərəkət edin. Ancaq ömrə üçün ehram bağlayın ki, o, sizin Peyğəmbərin (s) sünnəsini onun sözündən üstün tutduğunuzu görsün və bilsin ki, Allah qanununun və Peyğəmbər (s) əmrinin qarşısında ona itaət etmək olmaz."(١)

Diqqət: Bildiyimiz kimi baş vermiş hadisələrin çoxu hədis və tarix kitablarında öz həqiqətini itirmişlər. Təhrif və siyasət əli onların üzərinə məxfi pərdələr çəkmişdir. Bu hadisələrin hər mövzusunda bizə gəlib çatan məlumat çox azdır.

"Səhiheyn"də qeyd olunan təməttö həcci barədə Əmirəl-möminin Əli (ə) ilə Osmanın arasında olan bu ixtilaf, belə həqiqətlərdən biridir. Ancaq bu hadisəyə çox az işarə olunmuşdur. Şübhəsiz ki, bu ixtilaf bu sadəlikdə deyildir. Əbu Əmr ibn Əbdul Birrin öz kitabında Abdullah Zübeyrdən nəql etdiyi hədisdən məlum olur ki, ixtilafın və Osmanın inkar etməsi o qədər şiddətli olmuşdur ki, Əlinin (ə) qətli ilə nəticələnə bilərdi.

١- [١] . "Sünəni-Nəsai" kitabına İmam Sindinin yazdığı şərhi, ٥-ci cild, "Kitabu mənasikul-həcc", ١٥٢-ci bölüm "ət-Təməttö";

:İbn Zubeyr bu barədə belə deyir

Allah and olsun ki, mən Cohfədə idim. Şam camaatının bir çoxu o cümlədən Həbib ibn“ Mülümei Fəhri də Osmanın yanında idilər. Osman söhbətə başladı. Təməttö həcci barədə söhbət etdi və dedi: Həcc əməllərini haram aylarında tamamlayın. Ömrə əməllərindən də ayrılın. Yaxşı olar ki, ömrə əməllərini təxirə salasınız və Allahın evini iki ”.dəfə ziyarət edəsiniz. Çünki Allah xeyrə bərəkət vermişdir

İbn Zubeyr deyir: Əli (ə) Osmanın cavabında dedi: Sənin fikrin budur ki, Allah kitabında bəndələrinə verdiyi icazəsini çətinləşdirəsən? və Peyğəmbərin (s) uzaq yerlərdən gələnlər üçün buyurduğu qanuna əməl etməkdən çəkindirəsən? Bu vaxt Əli (ə) özü .ömrə üçün ehram bağladı

Sonra Osman camaata üz tutub dedi: Mən ömrənin qarşısını aldımmı? Mən bu əməli sizə qadağan etməmişəm. Söylədiyim bir nəzərdir ki onu açıqladım. Hər kim istəyirsə ”.əməl etsin və hər kim istəmirsə onu tərk eləsin

İbn Zubeyr əlavə edir: “Şam əhlindən olan bir kişinin sözünü heç vaxt unutmaram. O Həbib ibn Müsliməyə dedi: Bu kişiyə (Əli ibn Əbi Talib) bir bax, əmirəl-mömininə (Osmana) necə də qarşı çıxır? Allaha and olsun əgər Osman əmr versəydi başını bədənindən ayırardım. İbn Zübeyr deyir: Həbib öz əli ilə onun sinəsinə bir yumruq vurdu və dedi: Sakit ol! Peyğəmbərin (s) səhabələri bir-birilərinə etdikləri etirazı ”.başqalarından yaxşı bilirlər

فَإِنَّ أَصْحابَ رَسُولُ اللهِ أَعْلَمُ بِمَا يَخْتَلِفُونَ... (١)

Təməttö həcci Müaviyənin dövründə

Ötən səhifələrimizdə İbn Abbasla İbn Zübeyrin “İki mütə” barəsində olan ixtilaflarını və bu mövzuda Cabirin Abbasın

səh:٥٥٣

Cameu bəyanil-elmi və fəzlihi”, ٢-ci cild, “Mərifətu usulil-elmi həqiqətı” bölümü,“ . [١] -١ ;səh: ٣٠

tərəfini saxlaması barədə söhbət etdik. Cabirin həcc mütəsini və kəbin mütəsini müdafiə etməsi nəinki bu yerdə əksinə bir çox başqa yerlərdə də nəql olunmuşdur. O hakimiyyətdə olan xəlifələr tərəfindən hədis söyləməyə qadağa qoyulan qorxulu bir zamanda aşkar şəkildə bu mövzunu açıqlamış və işin həqiqətindən müsəlmanları agah (etmişdir.(١

Hədislər üzərində araşdırmalar bunu göstərir ki, Müaviyənin dövründə də təməttö həcci barədə olan çəkişmələr və ixtilaflar hələ də davam etmişdir. Müaviyə də çalışırdı ki, bu mövzuda ikinci və üçüncü xəlifənin qoyduğu bu bidət qorunub saxlanılsın. Ancaq bir çox müsəlmanlar onların bu adətinə qarşı çıxdılar və Müaviyənin bu əmrinə tabe .olmaq istəmirdilər

:Sünəni-Nəsaidə belə gəlmişdir

عَنْ ابْنِ شَهَاب عَنْ مَحَمَّد...أَنَّهُ حَدَّثَهُ أَنَّهُ سَمِعَ سَعْدُ بْنُ أَبِى وَقَّاص وَالضَحَّاكِ بْنِ قِيْس عَامَ حَجِّ مُعَاوِيَه بْنَ أَبِى سُفْيَانَ وَ هُمَا يَذْكُرَانِ التمتّع بِالْعُمْرَهِ إِلَى الْحَجِّ فَقَالَ الضحَّاكُ: لاَ يُصْنَعُ ذَلِكَ إِلاَّ من جَهْلِ أَمْرِ اللهِ تَعَالَى، فَقَالَ سَعْدُ: بِئْسَمَا قُلْتَ يَابْنَ أَخِى. قَالَ الضحَّاك: فَإِنَّ عُمَرَ بْنَ الْخَطَّابَ نَهَى عَنْ ذَلِكَ. قَالَ سَعْدُ: قَدْ صَنَعَهَا رَسُولُ اللهِ وَ صَنَعْنَا مَعَهُ.

Müaviyə ibni Əbi Süfyan həcc səfərinə çıxdığı ildə Səd ibn Əbi Vəqqas və Zəhhak ibn" Qeys (hər ikisi tanınmış müsəlmanlardan idi) arasında söz-söhbət və ixtilaf baş verdi. Zəhhak deyirdi: Təməttö həccini ancaq Allahın hökmünü bilməyənlər yerinə yetirər. Səd Zəhhakın cavabında dedi: Nə pis söz söyləyirsən?! Zəhhak dedi: Bəyəm Ömər ibn Xəttab təməttö həccinı qadağan etməyib? Səd dedi: Düzdür, ancaq Allahın Rəsulu (s) (bunu yerinə yetirmişdir və biz də onun hüzürunda ona əməl etmişdir."(٢

səh:۵۵۴

Hədis kitablarına, xüsusilə də"Səhihi-Müslim", "Həcci təməttöi " və "Nikah . [١] -١ .mütəsi"nə müraciət edin

Sünəni-Nəsai", ۴-cü cild, "Kitabul-mənasikil-həcc", "ət-Təməttö" bölümü; səh:" . [٢] -٢ ;١۵٢

SƏHİHİ-MÜSLİM VƏ MÜSNƏDİ-ƏHMƏD KİTABLARINDA BELƏ NƏQL OLUNMUŞDUR ;Kİ

...عَنْ سُلَيْمَانٍ حَدَّثَنِى غنيم قَالَ: سَأَلْتُ سَعْدِبْنِ أَبِى وَقَّاص عَنِ الْمُتْعَهِ؟ قَالَ: فَعَلْنَاهَا وَ هَذَا كَافِرٌ بِالْعَرْشِ يَعْنِى مُعَاوِيَهَ.

Səd deyirdi: Biz təməttö həccini o vaxt yerinə yetirirdik ki, Müaviyə hələ Allahın ərşinə" (küfr edirdi."(۱)

Bu iki məsələdən məlum olur ki, təməttö məsələsi barədə olan ixtilaflar və dedi-qodular Müaviyənin dövründə də var idi. Yoxsa, iki müsəlmanın ixtilaf etdiyi mövzunu müəyyən bir ilə bağlamaları və yaxud təməttö həcci məsələsini Müaviyənin kafir .olduğu zamanla əlaqələndirilməsinin nəmənası vardır

Mütə və ya müvəqqəti evlənmək .۶

İşarə

Səhiheyn" kitablarındakı hədislərin məzmununa əsasən ikinci xəlifənin vasitəsi ilə" dəyişdirilmiş hökmlərdən biri də nigah mütəsidir (müvəqqəti kəbindir). Nə qədər ki, əhli-sünnə məzhəbinin arasında bu mövzu (xəlifə Ömərin əmrinə əsasən) qadağan olmaqdadır və bəzən də şiə məzhəbinə onlar tərəfindən iradlar olunur və bu yolla .şiələrə iftiralar atılır lazım bilirik ki, bu mövzunu beş hissədə araşdıraq

?Mütə nədir

Mütə və müvqqəti evlənmək yəni, bir kişi bir qadınla müəyyən olunmuş müddətə kimi və müəyyən edilmiş mehriyyədə evlənməsi deməkdir. Ancaq şəri cəhətdən onların evlənməsində heç bir maneə (daimi evlənmə kimi) olmamalıdır. Həmin

---

Müsnədi-Əhməd ibn Hənbəl", ۱-ci cild, "Müsnədi-Səid ibn Zeyd ibn Əmr", səh: . [۱] -۱ ۱۸۱; "Səhihi-Müslim", ۴-cü cild, "Kitabu mənasikul-həcc", "Cəvazut-təməttö", hədis:

.müddət sona çatdıqda talaqa ehtiyac olmadan kişi və qadın bir-birilərindən ayrılırlar

Bucür evlilikdə, müddət qurtarmazdan əvvəl ər öz xanımından ayrılmaq istəsə bu .haqqa malikdir. Yerdə qalan müddəti də ona bağışlaya bilər

Belə evliliyin hökmləri daimi evlilikdə olan bir çox hökmlərlə eyni və bəzi hökmlərlə isə .fərqlidir

Ortaq hökmlər

:Müvəqqəti evlilik daimi evliliklə aşağıdakı hökmlərdə eynidir

;(İcab və qəbulun lazım olması; (Yəni qadın oxumalıdır kişi isə qəbul etməlidir .۱

;Əcr və mehriyyənin vacib olması .۲

Müvəqqəti evlilikdə də daimi evlilikdə olduğu kimi ayrılan zamanı qadınla kişi, əgər .۳ yaxınlıq ediblərsə və qadın yaisə olmasa iddə saxlamalıdır. İntəhası belə evlilikdə .qadınların iddəsi iki heyz görüncə ya qırx beş gündür

.Belə evlilikdə vəfat iddəsi daimi evlilikdə olduğu kimi dörd aydır .۴

Müvəqqəti evlilikdə hamilə qadınların iddəsi daimi evlilik kimidir. Əgər əri ölərsə .۵ .iddəsi “əbədul-əcələyn”(۱)-dir. Ayrılarlarsa iddəsi uşağın dünyaya gəlməsi ilə qurtarır

Belə evlilikdən dünyaya gələn övladların daimi evlilikdə dünyaya gələn övladlarla irs .۶ .və başqa hökmlər baxımından heç bir fərqləri və üstünlüyü yoxdur

səh:۵۵۶

Mütərcim: İki müddətin (yəni, əri ölmüş qadının saxladığı dörd ay on gün vəfat . [۱] -۱ iddəsinin müddəti və uşağın doğulmasına qalan müddət) hər hansı birinə çox qalıbsa o müddəti iddə saxlamalıdır. Məsələn: Tutaq ki, kişi qadınla bir illik müvəqqəti kəbin kəsdirib. Hamiləliyin iki aylığında qadının əri dünyadan getsə o, məsələn yeddi ay iddə saxlamalıdır. Çünki onun yeddi ay müddəti vəfat iddəsindən (dörd ay on gün) çoxdur. Əgər uşağın doğulmasına məsələn iki ay qalıbsa, əri vafat etdikdən sonra qadın dörd

ay on gün vəfat iddəsi saxlamalıdır. Çünki vəfat iddəsinin müddəti uşağın doğulmasına .qalan müddətdən çoxdur

Mütədə damad olmaq daimi əqddəki kimidir. Mütə vasitəsi ilə qadının anası və qızı .۷ kişiyə əbədi haramdır. Həmçinin bir qadınla evləndiyi halda onun bacısı ilə evlənə .bilməz

Mütədə də daimi əqddə olduğu kimi xüsusi yerlərdə məsələn: adət günlərində, .۸ .Ramazan ayı günlərində və s... qadınla yaxınlıq etmək haramdır

Fərqli xüsusiyyətlər

:Müvəqqəti kəbinlə daimi kəbin arasında olan fərqlər aşağıda xülasələşdirilmişdir

Müvəqqəti evlilikdə müddət müəyyən olunmalıdır. Ancaq daimi əqddə isə müddət .۱ ;yoxdur

Müvəqqəti evlilikdə əgər irs aparmaq məsələsi əqddə qeyd olunmayıbsa, qadınla .۲ kişinin öz arasında irs aparmaq yoxdur; Bu barədə nəzər ixtilafı vardır. Ancaq qadın .əqd vaxtı öz əcrini daimi bir qadının apardığı irsindən çox yuxarı deyə bilər

Müvəqqəti evlilikdə mehriyyəni əqd zamanı oxumaq lazımdır. Ancaq daimi əqddə .۳ ;lazım deyildir

Müvəqqəti evlilikdə qadınlar əqd zamanı nəfəqə şərti qoymasalar, nəfəqə tələb edə .۴ ;bilməzlər

Daimi evlilikdə dörd qadından artıq qadın bir yerdə və bir zamanda sahib çıxmaq .۵ (olmaz. Lakin müvəqqəti evlilikdə isə belə məhdudiyyət yoxdur;(۱

İslamda mütənin qanuni olması

İslam dinində belə evliliyin əsasının qoyulması barədə məzhəbindən aslı olmayaraq bütün şiə və sünni müsəlmanların nəzərləri eynidir. Bu, Quranı-Kərimin ayəsi və .Peyğəmbərin (s) sünnəsi əsasında sübuta yetirilmişdir

Amma o ki qaldı müsəlmanların birliyinə: Bütün

səh:۵۵۷

;Mütənin hökmləri, şiə fiqhinə müraciət edin . [١] -١

müsəlmanların müxtəlif əqidə və ayrı-ayrı səliqələrə malik olmasına baxmayaraq, Allah-Təala tərəfindən Peyğəmbər (s) vasitəsi ilə müvəqqəti evliliyin qanun kimi tanınması barədə nəzər fikirləri eynidir. Bu hökmün şəriət tərəfindən təsdiq olunması o qədər açıq və aşkardır ki, alimlər arasında mütə hökmü dinin zəruri məsələlərindən biri kimi sayıldığını iddia etmək olar. Bunu bilən hər bir müsəlman bu mövzunu inkar .etməmişdir

Fəxri Razi bu barədə deyir: İslamın bütün alimləri müvəqqəti kəbinin İslam dinində mübah olması barədə eyni fikirdədirlər. Lakin ixtilaf burasındadır ki, görəsən bucür evlilik sonradan nəsx olunmuşdur, yoxsa yox? Bir qrupu bu qanunun qüvvədən düşdüyünü (nəsx olduğunu), bir qrupu isə hələ bu qanunun qüvvədə qaldığını (söyləyirlər.(١

:Quran bu barədə nə deyir

{فَمَا اسْتَمْتَعْتُم بِهِ مِنْهُنَّ فَآتُوهُنَّ أُجُورَهُنَّ}

İstifadə (müt’ə) etdiyiniz qadınların muzdlarını lazımi (müəyyən olunmuş) qaydada_ (verin!” _(٢

Bir çox əhli-sünnə təfsirçilərinin nəzərinə görə və bütün şiə müfəssirlərinin fikrincə bu ayə müvəqqəti evliliyə aiddir. “Muzdlarını lazımi (müəyyən olunmuş) qaydada verin” .cümləsindən məqsəd mütə əqdində mehriyyəni (muzd və ücrəti) ödəməkdir

Hətta bir çox Quran qariləri, o cümlədən: Əbi ibn Kəəb, İbn Abbas, Səid ibn Cubeyr və :başqaları bu ayəni belə oxumuşlar

{فَمَا اسْتَمْتَعْتُم بِهِ مِنْهُنَّ إِلَى أَجَلٍ}

Onlar müvəqqəti əqdin şərtlərindən biri sayılan “müddət” və “əcəli” ayənin hissəsi .saymışlar

---

;Fəxri-Razinin təfsiri”, “ən-Nisa” surəsinin ٢٤-cü ayəsində“ . [١] -١

;ən-Nisa” surəsi, ۲۴-cü ayə“ .[۲]-۲

Bu nəzəriyyəni Təbəri öz təfsirində qeyd etmişdir. Zəməxşəri “Kəşşaf” adlı təfsirində (İbn Abbasdan və Fəxri Razi isə Ubəy ibn Kəəbdən nəql etmişlər.(١

Təbərinin nəqlinə görə, İslam dövrünün əvvəlində təfsir alimlərindən sayılan Mücahid .də bu ayənin mütə barəsində nazil olduğunu təsdiq etmişdir

Nisa” surənin ayələri də bu nəzəriyyənin şahididir və təfsirçilərdən, alimlərdən sayılan“ bu qrupun sözlərini təsdiqləyir. Çünki Allah-Təala “Nisa” surəsinin əvvəlində daimi ;evlililiyin hökmünü çox aydın şəkildə açıqlamışdır və buyurmuşdur ki

{فَانكِحُواْ مَا طَابَ لَكُم مِّنَ النِّسَاء مَثْنَى وَثُلاَثَ وَرُبَاعَ فَإِنْ خِفْتُمْ أَلاَّ تَعْدِلُواْ فَوَاحِدَةً أَوْ مَا مَلَكَتْ أَيْمَانُكُمْ ذَلِكَ أَدْنَى أَلاَّ تَعُولُواْ}
{وَآتُواْ النَّسَاء صَدُقَاتِهِنَّ نِحْلَةً فَإِن طِبْنَ لَكُمْ عَن شَيْءٍ مِّنْهُ نَفْسًا فَكُلُوهُ هَنِيئًا مَّرِيئًا}

Sizə halal olan (bəyəndiyiniz) başqa qadınlardan iki, üç və dörd nəfərlə nikah_ bağlayın! Əgər (onlarla da) ədalətlə dolanmağa əmin deyilsinizsə, o halda təkcə bir nəfər (azad) qadın və ya sahib olduğunuz kənizlə evlənin (yaxud: o halda təkcə bir nəfər azad qadınla evlənin və ya əlinizin altında olan kənizlərlə kifayətlənin). Bu, ədalətli olmağa (ədalətdən kənara çıxmamağa) daha yaxındır.” “Qadınlarınızın mehrlərini könül xoşluğuyla

verin! Əgər onlar qəlbən, öz razılıqları ilə bundan sizə bir şey

(bağışlasalar, onu halal olaraq, nuşcanlıqla yeyin!” _(٢

Əgər bəhs etdiyimiz ayə (“istimta” ayəsi) də, daimi evlənməyə aid olarsa, bu o deməkdir ki, bir hökm bir surədə iki dəfə faydası olmadan təkrar olmuşdur. Halbuki bu .üslub Quranın bəlağəti ilə uyğun deyildir

---

Təbərinin təfsiri”, ٥-ci cild, Ayənin barəsində, “Kəşşaf”, ١-ci cild, səh. ٥١٩; və“ . [١] -١ ;(“Təfsiru Kəbir”, ٣-cü cild, səh. ٢٠١ (Nisa surəsinin təfsiri

;ən-Nisa” surəsi, ٣-cü və ۴-cü ayələr“ . [٢] -٢

Amma əgər bəhs etdiyimiz ayə mütəyə aid olsa, onda yeni və müstəqil bir mənanı .ifadə edib heç bir irada və təkrara yol qalmayacaqdır

Başqa ibarətlə söyləsək, "Nisa" surəsinə diqqət yetirdikdə görürük ki, bu surədə evlənilməsi haram olan qadınların bütün sinifləri açıqlanmışdır. Həmçinin qadınların :halal olması yolunu da sıra ilə belə bəyan etmişdir

;Azad qadınlarla daimi əqd bağlamaqla .١

;(Milki yəmin; (Əlinizin altında olan .٢

;Kənizlərlə evlənməklə .٣

;Müvəqqəti evlənməklə .۴

Daimi və "mələkul əyman"la evlənməyin hökmünü bu surənin üçüncü ayəsində belə :oxuyuruq

{فَانكِحُواْ مَا طَابَ لَكُم مِّنَ النِّسَاء مَثْنَى وَثُلاَثَ وَرُبَاعَ فَإِنْ خِفْتُمْ أَلاَّ تَعْدِلُواْ فَوَاحِدَةً أَوْ مَا مَلَكَتْ أَيْمَانُكُمْ ذَلِكَ أَدْنَى أَلاَّ تَعُولُواْ}

Sizə halal olan (bəyəndiyiniz) başqa qadınlardan iki, üç və dörd nəfərlə nikah_ bağlayın! Əgər (onlarla da) ədalətlə dolanmağa əmin deyilsinizsə, o halda təkcə bir nəfər (azad) qadın və ya sahib olduğunuz kənizlə evlənin (yaxud: o halda təkcə bir nəfər azad qadınla evlənin və ya əlinizin altında olan kənizlərlə kifayətlənin). Bu, ədalətli olmağa (ədalətdən kənara

(çıxmamağa) daha yaxındır." _(١)

Kənizlərlə və azad olmayan qadınlarla evlənməyin hökmünü də həmin surənin iyirmi :beşinci ayəsində belə oxuyuruq

{وَمَن لَّمْ يَسْتَطِعْ مِنكُمْ طَوْلاً أَن يَنكِحَ الْمُحْصَنَاتِ الْمُؤْمِنَاتِ فَمِن مِّا مَلَكَتْ أَيْمَانُكُم مِّن فَتَيَاتِكُمُ الْمُؤْمِنَاتِ}

İçinizdən azad mö'min qadınlarla evlənməyə maddi imkanı olmayanlar sahib_ _(olduğunuz (əllərinizin altında olan

;ən-Nisa” surəsi, ٣-cü ayə“ . [١] -١

(mö’min (cavan, iffətli) cariyələrdən (kənizlərdən) alsınlar.” _(١)

:Bəhs olunan ayənin dördüncü sinfinə aid olan müvəqqəti evlənmək və mütədir

{فَمَا اسْتَمْتَعْتُم بِهِ مِنْهُنَّ فَآتُوهُنَّ أُجُورَهُنَّ}

İstifadə (müt’ə) etdiyiniz qadınların muzdlarını lazımi (müəyyən olunmuş) qaydada_ (verin!” _(٢)

Sünnə və hədislər bu barədə nə deyir: Müvəqqəti evliliyin şəriət tərəfindən bir qanun .olması barədə əhli-sünnə və şiə məzhəblərindən bir çox hədislər nəql olunmuşdur

Buxari və Müslim də Sələməti ibni Əkvədən, Cabir ibn Abdullahdan, Abdullah ibn Məsuddan, İbn Abbasdan, Səburəti bni Məbəddən, Əbu Zər Qəffaridən, İmran ibn Həsindən, Əkvə ibn Abdullah Əsləmidən bir çox hədislər nəql etmişlər. Bu hədislərin .hamısı bu evliliyin şəriət hökmlərindən biri kimi sayıldığını söyləyirlər

Bu barədə söylənilən hədislərin hamısını nəql etmək kitabımızın səbki ilə gəlmir. Çünki bu barədə bütün hədisləri qeyd etmək üçün ayrıca bir kitaba ehtiyac vardır. Buna görə :də bu barədə “Səhiheyn”dən bir neçə hədisi gətirməklə kifayətlənirik

.١

...الحَسَنُ بْنُ مُحَمَّد يُحَـدِّثُ عَنْ جَابِرِ بْنِ عَبْـدُاللهِ وَ سَـلْمَهِ بْنِ الأَكْوَعْ قَالَا: خَرَجَ عَلَيْنَا رَسُولُ اللهِ | فَقَالَ: إِنَّ رَسُولَ اللهِ قَدْ أَذِنَ لَكُم أَنْ تَسْتَمْتِعُوا يَعْنِى مُتْعَهَ النِّسَاءِ.

Müslim öz “Səhih” adlı kitabında Səlməti bni Əkvdən və Cabir ibn Abdullah Ənsaridən belə nəql edir ki, “Peyğəmbərin (s) spzlərini çatdıran bizim yanımıza gəldi və elan etdi ki, Rəsuli-Əkrəm (s) sizə mütə etməyi icazə verdi. Yəni qadınlarla müvəqqəti (evlənin.”(٣)

səh:٥٦١

”ən-Nisa” surəsi, ٢٥-ci ayə“ . [١] -١

;ən-Nisa” surəsi, ٢۴-cü ayə“. [٢] -٢

;Səhihi-Müslim”, ۴-cü cild, Kitabun-Nikah, “Nikahul-mütə” bölümü, hədis: ١۴٠٥“ . [٣] -٣

:Bu hədisi Müslim öz kitabında bucür də gətirmişdir

إِنَّ رَسُولَ اللهِ | أَتَانَا فَأَذِنَ لَنا فِی الْمُتْعَهِ

".Peyğəmbər (s) bizim yanımıza gəldi və mütənin icazəsini verdi"

:Bu hədisi Buxari də öz "Səhih"ində belə gətirmişdir

كُنَّا فِی جَيْشٍ فَأَتَانَا رَسُولُ اللهِ فَقَالَ: إِنَّهُ قَدْ أُذِنَ لَكُمْ أَنْ تَسْتَمْتِعُوا فَاسْتَمْتِعُوا

Biz qoşunun içində idik. Həzrət Rəsulullah (s) bizim yanımıza gəldi və dedi: Sizə mütə" (eləməyə icazə verildi. Bəs, mütə edin."(١)

;Yenə Müslim Cabir ibn Abdullahdan nəql edir ki .٢

...قَالَ: سَمِعْتُ جَابِرَ بْنَ عَبْدُ اللهِ يَقُولُ: كُنَّا نَسْتَمْتِعُ بالْقَبْضَهِ مِنَ التَّمْرِ وَ الدقِيقِ الأَيَّام عَلى عَهْدِ رَسُولِ اللهِ | وَ أَبِی بَكْر حتی نَهَی عَنْهُ عُمَرَ فِی شَأْنِ عَمرو بْنِ حُرَيْث.

Peyğəmbərin (s) və Əbu Bəkrin dövründə bir ovuc xurmanın və unun qarşılığında" qadınlarla bir neçə günlük müvəqqəti evlənirdik. Ta ki, Ömər Əmr ibn Huraysin (cəryanında bu evliliyin qarşısını aldı."(٢)

:İbn Həcər, "Əmr ibn Huraysin" cəryanını xülasə şəkildə belə nəql edir

Əmr ibn Hurəys Kufəyə gəldi. Orada bir kənizlə müvəqqəti evləndi (Mütə etdi). Sonra o, ondan hamilə qalan kənizi Ömərin yanına gətirdi. Xəlifə vəziyyəti Əmrdən soruşdu. (O da etiraf etdi. Bu vaxt Ömər bu evliliyi qadağan etdi.(٣)

;Səhiheyndə Abdullah ibn Məsud nəql etmişdir ki .٣

...عَنْ قَيْس قَالَ: سَمِعْتُ عَبْدَاللهِ يَقُولُ: كُنَّا نَغزُو مَعَ رَسُولِ اللهِ | لَيسَ لَنَا نِسَاءٌ فَقُلْنَا:

Səhihi-Buxari", ٧-ci cild, "Kitabun-Nikah", "Nəha Rəsulullah ən-nikahil-mutə" . [١] -١ ;əxirən" bölümü, hədis: ۴٨٢٧

;Səhihi-Müslim", ۴-cü cild, "Kitabun-Nikah", "Nikahul-mütə" bölümü, hədis: ١۴٠٥" . [٢] -٢

;Fəthul-bari”, ٩-cu cild, səh: ١٤٩“ . [٣] -٣

أَلاَ نَسْتَخْصِس؟ فنَهَانَا عَنْ ذَلِكَ ثُمَّ رَخَّصَ لَنَا أَنْ نَنْكَحَ الْمَرْأَه بِالثَّوبِ إِلَى أَجَلِ ثُمَّ قَرَأَ عَبْدُالله {يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تُحَرِّمُواْ طَيِّبَاتِ مَا أَحَلَّ اللّهُ لَكُمْ وَلاَ تَعْتَدُواْ إِنَّ اللّهَ لاَ يُحِبُّ الْمُعْتَدِينَ}.

Biz döyüşlərin birində Peyğəmbərin (s) yanında idik. Qadınlarımız bizimlə deyildi. Ərz“ etdik: Ya Rəsulullah! “istixsa” (kişilikdən düşmək) etmiyək? Allahın Rəsulu (s) bizi bu işdən çəkindirdi. Sonra bizə bir qadınla qarşılığında bir parça libas verib bir müddətə .kimi evlənməyə icazə verdi

Bu vaxt Abdullah ibn Məsud bu ayəni oxudu: (Ey iman gətirənlər! Allahın sizə halal buyurduğu pak ne’mətləri (özünüzə) haram etməyin və həddi aşmayın. Doğrudan da,)(Allah həddi aşanları sevməz! (١)

Müslim, bu hədisi üç vasitə ilə Abdullah ibn Məsuddan nəql etmişdir. İbn Məsudun bu ayəni oxuması mütə əqdinin haram olmasına inananlar üçün etiraz və tənqid əlamətidir. O bu məsələyə işarə etmək istəyir ki, belə evlilik paklıqdan əlavə İslam qanunlarının bir hissəsidir və əbədi olaraq həmişə diri qalmalıdır. Ona haram hökmü .vermək İlahi hüdudlara və qanunlara təcavüz etmək deməkdir

Nəvəvi bu hədisin şərhində deyir: İbn Məsudun sözlərindən belə məlum olur ki, o da İbn Abbas kimi belə əqdin (mütənin) halal olduğunu bilirdi. Be evliliyin hökmünün nəsx !olmasından (dəyişdirilməsindən) xəbəri yox idi

.۴

... ضنْ أَبِی نَضْرَه قَالَ: کُنْتُ عِنْدَ جابِرِ بْنِ عَبْدُ اللهِ فَأَتَاهُ آتِ فَقَالَ: ابْنُ عَبَّاسِ وَ ابْنُ الزُّبَیْرِ اِخْتَلَفَا فِی الْمُتْعَتَیْنِ فَقَالَ جابِرُ: فَعَلْنَا هُمَا مَعَ رَسُولِ اللهِ | ثُمَّ نَهَانَا عُمَرُ فَلَمْ نَعُدْ لَهُمَا.

səh:۵۶۳

Səhihi-Buxari”, ۶-cı cild, “Kitabut-təfsir, “Maidə surəsinin təfsiri”, hədis: ۴۳۳۹; və“ . [۱] -۱ ۷-ci cild, “Kitabun-nikah”, “Ma yəkrəhu minət-təbəttul” bölümü, hədis: ۴۷۸۷; “Səhihi-;Müslim”, ۴-cü cild, “Kitabun-Nikah”, “Nikahul-mutə” bölümü, hədis: ۱۴۰۴

Əbu Nəzrə deyir: “Mən Cabir ibn Abdullahın məclisində idim. Bir nəfər gəldi və dedi: İndicə İbni Abbasla İbn Zübeyr iki mütə (əqd mütəsi və həcc mütəsi) barəsində biri-biri ilə mübahisə edirdilər. Cabir dedi: Bəli, hər iki mütəni Peyğəmbərin (s) zamanında yerinə yetirirdik. Sonra Ömər bizi ona əməl etməkdən çəkindirdi. Biz də daha ona əməl (etmədik.”(١)

İkinci xəlifənin mütəni haram etməsi

Bura kimi Qurandan, Peyğəmbər (s) sünnəsindən və müsəlmanların icmasından mütənin halal olmasına dəlillər söylədik. Həmçinin mütənin Əbu Bəkrin hakimiyyəti dövründə, ikinci xəlifənin hakimiyyətinin bir neçə dövründə də əməl olunmasını və şəxsən Ömər tərəfindən qadağan olunduğunu da söylədik.(٢) İndi isə bəzi tarixçilərin .və hədisçilərin nəzərlərini burada gətiririk

Əhməd ibn Hənbəl “Müsnəd” kitabında öz sənədləri ilə Əbi Nəzrədən nəql edir ki; “Mən Cabir ibn Abdullaha dedim: İbn Zübeyr və İbn Abbas mütə barəsində biri-biri ilə ixtilafı vardır; İbn Zübeyr mütənin qarşısını alır və İbn Abbas onun halal olduğunu bildirir. Cabir dedi: Xəbəri bilənin yanına gətirmisən. Biz Peyğəmbərlə (s) onun dövründə mütəyə əməl edirdik. Həmçinin Əbu Bəkrin də vaxtında yerinə yetirirdik. Eləki Ömər hakimiyyətə gəldi, camaata bir xütbə oxudu və dedi: “Quran həmin Quran və Peyğəmbər də həmin Peyğəmbərdir. Ancaq Peyğəmbərin zamanında iki mütə vardı. :Biri həcc mütəsi, ikincisi isə qadınların mütəsi

وَ إِنَّهُمَا كَانَتَا مُتْعَتَانِ عَلَى عَهْدِ رَسُولِ الله... (٣)

Həcc mütəsi”ndə söylədiyimiz kimi, Əhməd ibn Hənbəlin“

;Səhihi-Müslim”. ۴-cü cild, “Kitabun-nikah”, “Nikahul-mütə” bölümü, hədis: ١۴٠٥“ . [١] -١

.Mətnin ikinci və üçüncü hədislərinə diqqət olunsun . [٢] -٢

;(Müsnədi-Əhməd”, ١-ci cild, səh. ٥٢; (Musnədi Ömər ibnil-Xəttab“ . [٣] -٣

söylədiyi bu hədisdə Ömərin xütbəsinin axırı həzf olunmuşdur. Əslində o belə deyirdi: “Mən bu iki mütənin qarşısını alıram və hər kəs ona əməl edərsə ciddi şəkildə "!cəzalandıracam

(Siyuti deyir: “Ömər ibn Xəttab, mütənin qarşısını alan birinci şəxsdir.”(١)

Görkəmli fəqih və filosof alimi İbn Ruşd Əndulisi(٢) deyir: “İbn Abbasın mütənin halal olmasına inanması məsələsi məşhur bir məsələdir. Bu əqidədə Məkkə, Mədinə və Yəmən əhlindən tərəfdarları da vardır. Yenə nəql edir ki; İbn Abbas mütənin halal .olmasına

{فَمَا اسْتَمْتَعْتُم بِهِ مِنْهُنَّ فَآتُوهُنَّ أُجُورَهُنَّ}

İstifadə (müt’ə) etdiyiniz qadınların muzdlarını lazımi _

müəyyən olunmuş) qaydada verin! _(٣) ayəsini dəlil gətirmişdir. Başqa nəqlə görə isə) onun qiraətində {فَمَا اسْتَمْتَعْتُم بِهِ مِنْهُنَّ إِلَى أَجَلٍ مُسَمًّى} “müddət” və “əcəl” kəlmələri də var idi.

İbn Ruşd əlavə edir ki; “Yenə İbn Abbasdan nəql olunmuşdur ki, o belə deyirdi: “Mütə Allah-Təala tərəfindən bizə verilən bir rəhmət idi. Onun vasitəsi ilə Məhəmmədin (s) ümmətini xüsusi nəzəri və inayətində saxlayırdı. Əgər Ömər onun qarşısını almasaydı ”.az adam zinaya məcbur olardı

İbn Ruşd yenə deyir: “İbn Abbasdan mütə barəsində nəql olunanı İbn Cərih və Əmr ibn ;Dinar da ondan nəql etmişlər. Həmçinin Ətadan da nəql olunmuşdur ki

"قَالَ: سَمِعْتُ جَابِرَ بْنَ عَبْدِاللهِ يَقُولُ: تَمَتَّعْنَا عَلَى عَهْدِ رَسُولِ اللهِ وَ أَبِى بَكْرٍ وَ نِصْفَاً مِنْ خِلاَفَهِ عُمَرَ ثُمَّ نَهَى عَنْهَا عُمَرُ النَّاسَ"

Cabir ibn Abdullahdan eşitdim ki, deyirdi: “Biz, Peyğəmbərin, Əbu Bəkrin dövründə və“ Ömərin hakimiyyətinin

---

;(Tarixul-xülafə”, səh. ١٢٨ (Ömər ibn Xəttabın üstünlükləri fəsli“ . [١] -١

;Hicri tarixi ilə ٥٩٥-ci ildə dünyasını dəyişib . [٢] -٢

;ən-Nisa” surəsi, ٢۴-cü ayə“ . [٣] -٣

ilk yarısında qadınlarla mütə (müvəqqəti evlilik) edirdik. Sonra Ömər bizi ondan (çəkindirdi".(١)

İbn Ruşdun yad elədiyi mütəni icazəli sayan İbn Cərih, hicrətin ١٥٠-ci ilində vəfat .etmişdir və öz zamanında Məkkənin çox böyük alimlrindən və fəqihlərindən idi

Abdullah ibn Əhməd ibn Hənbəl deyir: "Atamdan soruşdum: İslam aləmində təlifə ".başlayan ilk kəs kim olmuşdur? Atam dedi: İbn Cərih

قَالَ الشَّافِعِی: إِسْتَمْتَعَ ابنُ جَرِیح سَبْعِینَ اِمْرَأه

İmam Şafei deyir: "İbn Cərih öz yaşayışı dövründə yetmiş qadınla müvəqqəti (evlənmişdir."(٢)

Tanınmış rical elmi alimi Zəhəbi də İbn Cərih barədə belə deyir: O, öz zamanında Məkkə əhlinin fəqih alimi idi. Onun yetmişə yaxın mütə etmiş həyat yoldaşı var idi və mütənin caiz olmasına əqidəsi vardı. Bütün rical tanıyan alimlərin nəzərincə o, "siqə"(٣) .bir kəs idi

قَدْ تَزَوَّجَ نَحواً مِنْ سَبْعِینَ اِمْرَأَهً نِکَاح الْمُتْعَه(٤)

:Fazil Quşçi deyir: Ömər minbərin başında dedi

"مُتْعَتَانِ کَانَتَا فِی عَهْدِ رَسُولِ اللهِ وَ أَنَا مُحَرِّمُهُمَا وَ مُعَاقِبٌ عَلَیْهِمَا مُتْعَهَ النِّسَاءِ وَ مُتْعَهَ الْحَجِّ وَ حَیَّ عَلَی خَیْرِالْعَمَلِ".

Ey camaat! Peyğəmbərin (s) zamanında üç məsələyə əməl olunurdu. İndi isə mən sizi" onlara əməl etməkdən çəkindirirəm. Hər kəs onlara əməl etsə ciddi şəkildə (cəzalandıracam: Qadınların mütəsi; həcc mütəsi; həyyə əla xeyril əməl".(٥)

səh:٥٦٦

Bidayətul-müctəhid", ٢-ci cild, səh. ٥٨ (Kitabun-Nikah, əl-Əvvəlu minha" . [١] -١ (nikahua-şuğar

;Təhzibut-təhzib", ٦-cı cild, səh. ٤٠٣ və ٤٠٦" . [٢] -٢

;İnanılmış və etibarlı . [٣] -٣

;Mizanul-etidal", Məhəmməd əl-Bəcavinin təhqiqi, ٢-ci cild, səh. ٦٥٩" . [٤] -٤

Quşçinin “Təcrid kitabının şərhi”, “imamət bəhsi”, İbn Əbil Hədid də ١- ci cild, səh. . [٥] -٥
.١٨٢-də xəlifənin bu sözlərini söyləmişdir. Ancaq axırıncı hissəsini zikr etməmişdir

Məmun, hakimiyyəti dövründə mütənin halal olmasını elan etmək istədi. Həmin dövrün alimlərindən iki nəfər: Məhəmməd ibn Mənsur və Əbul-İnanı bu barədə onunla söhbətetmək üçün hüzuruna gəldilər. Onu misvakla dişlərini yuyarkən gördülər. O :qəzəbli halda bu sözləri züm-zümə edirdi

مُتْعَتَانِ كَانَتَا عما قَالَهُ رَسُولُ اللهِ وَ ابُوبَكر!؟

Mühəmməd ibn Mənsur onunla söhbət etmək istədi. Əbul-İna işarə etdi və dedi: "Öməri "uyduran" kəlməsi ilə xitab edənə biz necə söz deib onu öz fikrindən dəyişə ?bilərik

Ta ki Yəhya ibn Əksəm gəldi və Məmunu fitnə və üsyandan qorxutdu və onu öz (fikrindən daşındırdı.(١

Nəsx iddiası və yaxud hökmün qüvvədən düşməsi

Xəlifələrin tutduğu mövqeyləri möhkəmlətmək üçün və onları hər növ irad və tənqidlərdən uzaqlaşdırmaq üçün, həmçinin xəlifələrin biri tərəfinidən hər hansı bir hökm dəyişdirilməsilə onların təhrif hökmü əsasında əməl olunması üçün iki yolun .birindən istifadə olunmuşdur: Hədisləri qondarmaq və İctihad iddiası

Yəni mümkün olan yerlərdə xəlifənin hökmü ilə bir sıra hədislər uydurulur və o hökm birbaşa Peyğəmbərə (s) nisbət verilirdi. Mümkün olmayan surətdə isə ictihad məsələsini irəli sürür və hər xəlifənin əmrini və onun xüsusi ictihadını sənəd kimi göstərirdilər. Bəzən isə hər iki yola əl atırdılar. Mütə bəhsi də üçünü qismin .nümunələrindən biridir

Beləki hədislərin mətni və tarix bunu göstrir ki, mütə Peyğəmbərin (s) zamanında, Əbu Bəkrin xilafti dövründə və Ömərin hakimiyyətinin əvvəllərində Quran və Peyğəmbərin ((s

---

Bu hadisənin geniş şərhi İbn Xəlkanın tarixi kitabında (İran çapı) ٢-ci cild, səh. . [١] -١ .٣٥٩; və Yəhya ibn Əksəmin tərcümə etdiyi Vəfiyatul-əyan kitabında gəlmişdir

əmrinə əsasən yerinə yetirilirdi. Lakin ikinci xəlifə bu hökmü qadağan etdi və əmri pozanları isə cəza ilə qorxutdu. Biz ötən səhifələrizdə tarixçilərin və hədislərin bu barədə söylədiklərini qeyd elədik. Eyni halda həmin dövrdə Quran təfsir edən, alimlərdən və hədisçilərdən ibarət olan Peyğəmbər (s) səhabələrinin bir çoxunun xəlifə ilə ixtilaflarını da açıq şəkildə söylədik. Nəticədə onların sözləri və əməlləri ilə mütə .hökmünü İslmın dinin sabit qanunlarından biri olduğunu açıqladıq

Ancaq sonralar xəlifənin bu hökmünə düzəliş vermək və əmrini sübuta yetirmək üçün bəzən mütə ayəsinin və qanununun nəsx olunmuş və etibardan düşmüş İslam qanunu kimi tanıtdırmış və qondarma hədislər düzəltmişlər. Bəzən isə mövzunu birbaşa (Ömərin ictihadlarından saymışlar.(١

Mütə ayəsinin" və müvəqqəti evlənmə hökmünün nəsx olması iddiasına cavab" vermək üçün ayrıca geniş bir bəhsə ehtiyac olduğuna görə əziz oxucumuzu bu barədə (yazılmış və bəhs olunmuş başqa kitablara müraciət etməsini xahiş edirik.(٢

:Burada təkcə bu nöqtəyə işarə edirik

Mütə hökmünü mənsux (qüvvədən düşmüş) hesab edənlər və bu uydurulmuş hökmü (nəsx və qüvvədən düşməni) Peyğəmbərin (s) zamanına nisbət verənlər ixtilaflı və qəbul olunmaz sözlər söyləmişlər. Hansı ki bu ixtilafın özü bir daha hökmün qüvvədən .düşməsinin uydurma və qondarma olduğunu sübut edir

Çünki nəsxin trəfdarlarının bir çoxu bu nəsxi Qurana və bir çoxları isə sünnə və hədislərə bağlayırlar. Hər iki nəzəriyyənin

---

Məsələn: Fazil Quşçi nəsx msləsini qəbul olunmaz saydığı üçün ondan üz . [١] -١ .döndərib ictihadı dəlil gətirmişlər

Müraciət edin: "əl-Qədir", ۶-ci cild; "əl-Mizan", ۴-cü cild; "əl-Mütə", Tofiq əl- . [٢] -٢ Fəkikinin təlifi; Aytullah əl-uzma Xoyinin təlif etdiyi "əl-Bəyan" kitabı və onun fars .dilində olan tərcümsi; Müəllif və onun həmkarı Ustad Hərisi ilə yazılmışdır

.tərəfdarları arasında da güclü ixtilaf vardır

Məsələn: Bu hökmün Quran vasitəsi ilə nəsx olduğunu söyləyənlər arasında beş nəzəriyyə müşahidə olunur. Çünki onların bəziləri bu nəsxi

{وَالَّذِينَ هُمْ لِفُرُوجِهِمْ حَافِظُونَ} {إِلَّا عَلَى أَزْوَاجِهِمْ أوْ مَا مَلَكَتْ أَيْمَانُهُمْ فَإِنَّهُمْ غَيْرُ مَلُومِينَ}

O kəslər ki, ayıb yerlərini (iffətsizlikdən) qoruyub saxlayarlar; Ancaq zövcələri və_ kənizləri istisna olmaqla. Onlar (zövcələri və kənizləri ilə görəcəkləri bu işdən ötrü) (qınanmazlar." _(۱)

Quranın bu ayəsi olduğunu dəlil gətirmişlər. Bəziləri isə "İddə" ayələrini(۲), bəziləri "İrs" ayəsini(۳) mütə ayəsinin hökmünü ləğv etdiyini bilirlər. Dördüncü qrup "Təhrim"(۴) ayəsini, beşinci qrup isə arvadların sayını bəyan edən ayəni(۵) mütə ayəsinin hökmünü .ləğv edən ayə hesab edirlər

Halbuki bu ayələrin heç birinin mənasının nasix (hökmü ləğv edən) olmaq üçün mütə ayəsi ilə ziddiyyəti yoxdur. Hətta bu ayələrin bəziləri Məkkədə nazil olmuşdur.(۶) Ancaq mütə ayəsi isə Mədinədə nazil olan ayələrdəndir. Əvvəlki hökm sonrakı hökmü ləğv .edə bilməz

Mütə hökmünün sünnə və hədislə ləğv olduğunu söyləyənlərə gəldikdə isə, bu barədə on beşə yaxın bir çox nəzərlərlə üzləşirik. Çünki bu rəvayətlərin bəzisində bu hökmün Xeybər döyüşündə ləğv olunduğunu, bəzisində Məkkənin fəthində, bəzisində ləğv olunan yer və tarixinin

---

۱- [۱] . "əl-Möminun" surəsi, ۵-ci və ۶-cı ayələr;

۲- [۲] . "Təlaq" və "əl-Bəqərə" surələrində;

۳- [۳] . "ən-Nisa" surəsi, ۱۲-ci ayə;

۴- [۴] . Həmin surə, ۲۳-cü ayə;

۵- [۵] . Həmin surə, ۳-cü ayə;

۶- [۶] . Məsələn: "Möminun" surəsinin ۵-ci və ۶-cı aylər;

Təbuk döyüşündə olduğunu, bir çox rəvayətlərdə isə “Vida həcci”ndə baş verdiyini və (ən nəhayət bəzisində isə “Hüneyn” döyüşündə və s... ləğv olunduğunu söyləmişlər.(۱)

Ancaq səhih rəvayətlərdə və “Səhiheyn” kitablarında gələnlərə görə bu hökm nə Quran ayəsi ilə ləğv olunmuşdur və nə də Peyğəmbərin sünnəsi ilə ləğv edilmişdir. Əksinə Peyğəmbərin zamanında, Əbu Bəkrin xilafəti dövründə və Ömərin hakimiyyətinin əvvəllərində bu hökm yerinə yetirilirdi. Bu hökmü ləğv edib ona qadğa .qoyan isə məhz Ömər olmuşdur

Lakin ayənin hökmünü ləğv edən hədislərə gəldikdə isə onların öz aralarında da ziddiyyətlər vardır. Həmçini digər səhih rəvayətlərlə də təzaddadırlar. Bundan əlavə öz yerində sübut olmuşdur ki, “xəbəri vahid”(۲) sayılan rəvayətlər Quran hökmünü sındıra .bilməz

İftiralar və əsası olmayan məsələlər

Mütə hökmünün Quran və Peyğəmbər (s) sünnəsinin vasitəsilə sabit olmaısna baxmayaraq, həmçinin bu hökmün şərtlərinin şiə fiqində aydın şəkildə izah olunması ilə yanaşı təəssüflər olsun ki bir qrup əhli-sünnə alimləri və yazıçıları suda boğulan şəxsin samana əl atdığı kimi, mütə barəsində əsassız və qondarma fikirlərini qələmə almağa məcbur görmüşlər. Yaxud da xoşa gəlməz təssübkeşlik nəticəsində şiəni əsassız sözlərlə ittiham edib onlara olmayan iftiralar atmışlar. Burada biz onların :dördünü sizin nəzərinizə çatdırırıq

səh:۵۷۰

Bu ixtilaf və nəzər ayrılıqları nasix ünvanında nəql olunan hədislərin . [۱] -۱ mətnlərindən ələ gətirmək olar. Bu nzərləri İbn Həcər Əsqəlani də “Fəthul-bari” kitabının ۹-cü cildinin, ۱۴۵-۱۴۸ –ci səhifələrində (“Kitabun-Nikah”, “Nəhyin-Nəbiy ən .nikahil-mütəti əxirən” bölümündə) gətirmişdir

.Xəbəri-vahid”, bir nəfər vasitəsi ilə nəql olunan rəvayətə deyilir“ . [۲] -۲

O, mütə hökmü ilə mübarizəsində belə yazır: "Mütə məsələsi və mövzusu qadınların iffəti və evlənməyin bütün qanunları ilə ziddiyyətlidir. Çünki bu kimi evliliklərdə məqsəd kişilərin öz cinsi meyllərini doyuzdurmaq, zina etməkdən və bir yerdə yatmaqdan başqa bir şey deyildir. Bu evliliklə həqiqətdə qadınların iffətini və abrını aradan aparırlar. Çünki hər gün özünü bir kişinin ixtiyarında qoyan bir qadının iffəti və :şəxsiyyəti qalmır. Belə qadın məşhur şerin nümunələrindəndir

كُرَّةٌ حُذِفَتْ بِصَوالِجَهٍ فَتَلَقَّفُهَا رِجْلٌ مِنْ رِجْلٍ

(O bir topa bənzəyir ki, top ağacı ilə vurula və bir ayaq o biri ayağından onu ala. _(١)_

Şeyx Məhəmməd Əbduh belə təsəvvür etmişdir ki, müvəqqəti kəbinli arvad şəriət qanununa uyğun arvad deyildir. Çünki onu "səffah" və zina adlandırmışdır. Halbuki biz əvvəldə belə evliliyin də şərtlər, iddə saxlanılması və övladların hüquqları baxımından .daimi evliliyə kimi olduğunu izah etmişdik

Amma onun müvəqqəti həyat yoldaşının əvəzinə "icarə olunmuş qadın" kəlməsini :istifadə etməsi və belə qadını əldən-ələ düşən topa oxşatmasına gəldikdə isə

Birinci: Əgər bu etiraz və irad doğru olarsa, həmin etiraz və iradlar əslində şəriətin bu qanununadır. Hansı ki, bu qanun Peyğəmbərin (s) vaxtında yerinə yetirilmişdir. Bu bənzətmənin müəyyən bir zamana aid edib Peyğəmbərin (s) dövrünü ondan istisna eləmək mənasızdır. Halbuki Peyğəmbərin (s) dövründə bütün müsəlmanların əqidəsinə görə bu qanundan istifadə olunurdu. Qəbahətli və pis sayılan bir şey həmişə .qəbahətli və pis olmalıdır

İkinci: Əgər bu etiraz və irad doğru olarsa, daimi evlilliyə də

;əl-Mənar", ٥-ci cild, səh. ١٣-١٧" . [١] -١

aid olur. Heç bir qadının birinci ərindən ayrıldıqdan sonra özünə ikinci ər seçməsinə ixtiyarı yoxdur. Həmçinin ikinci ərinin vəfatından sonra üçüncüsü ilə evlənməyə haqqı yoxdur. Çünki belə halda Əbduhun nəzərinə görə qadın oyuncaq halına çevrilir və kişilərin əlində oynadılan topdan başqa bir şey deyildir. Bu baxımdan daimi evliliklə .müvəqqəti evliliyin arasında heç bir fərq yoxdur

Təəccüblüsü budur ki "əl-Mənar" kitabının müəllifi bu məsələni bəhs elədiyi səhifələrdə iddia edir ki, onun bu sözündəki məqsədi həqiqəti açıqlamaq olmuşdur və məzhəbi təəssübkeşlik üzündən deyildir. Eyni halda həmin təəssübkeşlik onu vadar edir ki Quranın açıq və aydın ayəsi, Peyğəmbərin sünnəsi və müsəlmanların icması ilə .sübuta yetirilmiş bu hökmü belə tənqid atəşinə tutaraq məsxərə etsin

b. Musa Carullahın sözləri

O, "Alu şiə" adlı öz kitabında deyir: "Ümumiyyətlə İslamda müvəqqəti evlilik hökmü mövcud deyildir. Bu evlilik barədə Quran ayəsi də nazil olmayıb. İslamın əvvəllərində belə bir evliliyin olması barsində heç bir dəlilimiz də yoxdur. Ancaq bu qədər demək olar ki, belə evlilik şəriətin mübah və icazəli saydığı evlililk deyil, əksinə cahiliyyət dövrünün qalıqlarındandır. Buna görə də mütə hökmünün ləğv olması İslami hökmün ləğv olunması demək deyil, əksinə cahillik və doğru sayılmayan bir işin qadağan və (haram olması deməkdir."(١

Musa Carullahın söylədiklərinə cavab olaraq ötən səhifələrimizi mütaliə etmək kifayətdir. Həmin səhifələrdə biz mütə hökmünü Quran və sünnə yolu ilə sübut olunmasına

---

;Alu şiə", səh. ١٢١-١٣٢" . [١]-١

aydınlıq gətirmişdik. Həmçinin bütün hədis alimlərinin və təfsirçilərin bu barədə olan yekdil nəzərlərini və bu evliliyin müsəlmanlar arasında həyata keçirildiyini də söyləmişdik. Musa Carullahın təəssübkeşliyi üzündən söylədiyi bu sözləri müsəlmanların hədis, təfsir və tarix kitablarına məsxərə etməkdən başqa bir şey .deyildir

c. Alusinin iftirası

Məhmud Şukri Alusi yazır: "Şiələrin yanında tanınan mütədən başqa, başqa bir mütə də vardır. Onu "Dövrə mütəsi" adlandırırlar. O mütənin fəziləti barədə rəvayətlər də nəql edirlər. Bu mütə belə baş tutur; Bir neçə nəfər qadını mütə edirlər. Qadın onlara deyir: Günəş doğandan günün bir miqdarı keçənə qədər bu kişinin müvəqqəti kəbinindəyəm O saatdan ta zöhrə qədər başqasının müvəqqəti kəbinində, zöhrdən əsrə kimi o biri kişinin, əsrdən ta məğribə qədər başqa bir kişinin, məğribdən də işa vaxtınadək bir kişinin, işadan gecə yarısına kimi bir başqasının və gecə yarısından (sübhün ilk çağına kimi başqa kişinin müvəqqəti kəbinindəyəm."(١

Biz mütənin həqiqətini və onun mahiyyətini bu hədisin əvvəlində bəyan etmişdik. Alusinin bu söylədikləri şiəyə nisbət verdiyi açıq-aşkar töhmətdən və iftiradan başqa .bir şey deyildir

Təəssüflər olsun bu kişidən bir nəfər sual edən də yoxdur ki, ondan soruşsun: Axı mütəni belə adda və nişanədə tanıyan hansı şiədir? Belə mütənin fəziləti barədə rəvayət nəql edən hansı rəvayətçıdır? Yaxud hansı bir rəvayətdə belə bir mütənin adı !?çəkilmişdir

Öz xəyalları ilə düzəltdiyi bu rəvayətlər hansı kitabda nəql

(əl-Fusulul-muhimmə", ٦-cı cild, səh. ٥٠ (fi təhriri məhəllun-nizai fi mutətin-nisa" .[١]-١

olmuşdur? hansı hədisçi söyləmişdir? Belə mütəyə hansı alim və ya savadsız adam fətva vermiş olar?! Şiənin hansı hədis, fiqh və təfsir kitabında belə bir mütədən bir əsər !?vardır

{وَلَا يَحْزُنكَ قَوْلُهُمْ إِنَّ الْعِزَّةَ لِلَّهِ جَمِيعًا هُوَ السَّمِيعُ الْعَلِيمُ}

YA PEYğəMBəRIM!) ONLARıN (KAFIRLəRIN BOş, Mə NASıZ) SöZLəRI SəNI) _ KəDəRLəNDIRMəSIN. YENILMəZ IZZəT (QüVVəT) BüTöVLüKDə YALNıZ ALLAHA (MəXSUSDUR. O, (HəR şEYI) EşIDəNDIR, BILəNDIR! _(١)

d. Şeyx Məhmud Şəltutun sözləri

O, Misirdə əl-Əzhər Universitetinin sabiq rəisi idi. Elmi məlumatı və təəssübkeşsizliyi ilə :tanınan Şeyx Şəltut mütəni izah edərkən öz təəssüblüyünü biruzə verərək belə deyir

Mütə nikahı - müvəqqəti evlilik də onun qismlərindəndir – budur ki, kişi evlənilməsinə“ maneəsi olmayan bir qadınla razılaşırlar. Belə ki qadın müəyyən və ya qeyri müəyyən ”!müddətə qədər müəyyən olunmuş bir şeyin qarşılığında onun yanında qalsın

Yenə deyir ki: Quranda evlənmək barədə çoxlu hökmlər nazil olmuşdur. Məsələn: İrs və qohumluq əlaqəsi, təlaq, iddə və s... Bu hökmlərdən heç biri, biz tanıdığımız mütə (nikahında mövcud deyildir!”(٢)

Biz, “mütə nikahı”nı izahında söylədik ki, onun əsaslı şərtlərindən biri müddətin müəyyən olunmasıdır. Həmçinin bu növ evlilikdə iddənin bütün növləri, qohumluq əlaqəsi, irs də vardır. Müvəqqəti evliliyi mütənin qisimlərindən hesab etmək .mənasızdır

{أَفَرَأَيْتَ مَنِ اتَّخَذَ إِلَهَهُ هَوَاهُ وَأَضَلَّهُ اللَّهُ عَلَى عِلْمٍ وَخَتَمَ عَلَى سَمْعِهِ وَقَلْبِهِ وَجَعَلَ عَلَى بَصَرِهِ

;Yunus” surəsi, ٦٥-ci ayə“ . [١] -١

əl-Fətava”, ٣-cü çap, səh. ٢٧٣ (ünvan: “Zövvacul-mütə”, “əsasuz-zövaci fil-“ . [٢] -٢ ;(”Quran

غِشَاوَةً فَمَن يَهْدِيهِ مِن بَعْدِ اللَّهِ أَفَلَا تَذَكَّرُونَ}

Ya Peyğəmbər!) Nəfsini özünə tanrı edən və Allahın bilərəkdən (onu hələ) _ yaratmamışdan gələcəkdə kafir olacağını bildiyi üçün) yoldan çıxartdığı, qulağını və ?qəlbini möhürlədiyi, gözünə də pərdə çəkdiyi kimsəni gördünmü

Allahdan başqa kim onu doğru yola sala bilər?! Məgər düşünüb ibrət almırsınız? (Haqqı bildiyi halda küfr edənin cəzası, haqqı bilmədən, cahilliyi üzündən küfr edənin cəzasından daha ağırdır. Çünki alimlə cahilin məs'uliyyəti eyni ola bilməz!)" _(١)٧

Təravih namazı .

İşarə

Təravih namazı müstəhəb namazlardandır. Əhli-sünnə məzhəbi onu Ramazan ayının gecələrində camaatla birgə qılırlar. Bu namazın camaat şəkilində qılınması barədə Peyğəmbərimizin (s) heç bir göstərişi olmamışdır. O həzrətin (s) zamanında, Əbu Bəkrin xəlifəliyi dövründə və Ömərin hakimiyyətinin əvvəllərində də bu namaz camaatla birgə qılınmırdı. Ümumiyyətlə İslma dinində müstəhəb namazlar arasında "İstisqa"- yazğış namazından başqa heç bir müstəhəb namazın camaatla qılınması .caiz deyildir. Bu əməl vacib namazlara aiddir

Lakin ikinci xəlifə Ömər, hicrətin on dördüncü ilində belə qərara gəldi ki müsəlmanları mübarək Ramazan ayının gecələrində müstəhəb namazları tənha deyil, əksinə camaatla qılmağa vadar etsin. O, bu məsələni bütün şəhərlərə elan etdi. Mədinədə Ubəy ibn Kəabi kişilər üçün, Təmimdarini də qadınlar üçün pişnamaz təyin etdi. İndi isə :bu barədə "Səhiheyn" və bəzi başqa mənbələrdə nəql olunanları nəzərinizə çatdırırıq

.١

١- [١] . "əl-Casiyə" surəsi, ٢٣-cü ayə;

...عَنْ عَبْدِ الرَّحْمانِ بْنِ عَبْدِ الْقارِی أَنَّهُ قالَ: خَرَجْتُ مَعَ عُمَرِ بْنِ الْخَطَّابِ لَیْلَهَ إِلَی الْمَسْجِدِ فَإِذَا النَّاس أَوزَاعَ مُتَفَرِّقُونَ یُصَلِّی الرَّجُلِ لِنَفْسِهِ وَ یُصَلِّی الرّجل فَیُصَلّی بِصَلاتِهِ الرهط، فَقَالَ عُمَر: إِنِّی أَرَی لَوْ جَمعْتُ هَؤُلاَءِ عَلَی قارئ وَاحِدٍ لکَانَ أَمثل ثُمَّ عزم فَجَمَعهُمْ عَلَی أُبَیِّ بْنِ کَعْبٍ ثُمَّ خَرَجْتُ مَعَهُ لَیْلَه أُخْرَی وَالنَّاسُ یُصَلُّونَ بِصَلاهِ قَرِئِهِمْ قَالَ عُمَرُ: نِعْمَ الْبِدْعَه هَذِهِ... .

Buxari, Əbdur-Rəhman ibn Əbdul-Qaridən nəql edir ki; “Mən, Ömər ibn Xəttabla mübarək Ramazan ayının gecələrinin birində məscidə getdim. Camaatı dağınıq halda gördük. Onların hər biri məscidin bir kənarında təklikdə namaz qılmaqla məşğul olur, bir qrup isə məscidin bir kənarında yığılıb namaz qılırdılar. Ömər bu vəziyyəti belə görüb dedi: Nəzərimcə bu camaatın hamısını bir pişnamazın arxasına yığsaq daha yaxşı olar. Sonra bu barədə qərara gəlib göstəriş verdi ki, hamı bu namazları Ubəy ibn Kəəbin arxasında qılsınlar.

Bu hadisədən sonra başqa bir gecədə Ömərlə yenə məscidə getdim. Bu dəfə camaatı bir pişnamazın arxasında namaz qıldığını gördük. Ömər ibn Xəttab mənə dedi: “Nə gözəl bidət idi ki mən qoydum!”(١)

٢.

عَنْ اِبْنِ شَهَاب، عَنْ حَمِیدِ بْنِ عَبْدُ الرَّحْمَانِ، عَنْ أَبِی هُرَیْرَه أَنَّ رَسُولَ اللهِ | قَالَ: مَنْ قَامَ رَمَضَان إِیمَاناً و احْتَسَاباً غُفِرَ لَهُ مَا تَقَدَّمَ مِنْ ذَنْبِهِ، قَالَ ابْنُ شَهَابِ: فَتَوَفّی رَسُولُ اللهِ وَالأَمْرُ عَلَی ذَلِکَ ثُمَّ کَانَ الأَمْرُ عَلَی ذَلِکَ فِی خلاَفَهِ أَبِی بَکْر وَ صَدْراً مِنْ خِلاَفَهِ عُمَر رَضِیَ اللهُ عَنْهُمَا.

Buxari və Müslim İbn Şəhabdan belə bir hədis nəql edirlər ki; “Rəsuli-Əkrəm (s) buyurdu: “Hər kəs axirətə iman və əqidəsi üzündən Rəməzan ayının gecələrini ibadətlə keçirərsə onun bütün keçmiş günahları bağışlanar.” Bu cümləni də İbn

---

١- [١] . “Səhihi-Buxari”, ٣-cü cild, “Kitabus-səvm”, ١-ci bölüm, “Fəzlu mən qamə Rəmazan”, hədis: ١٩٠۶;

;Şəhabdan nəql edirlər ki

Rəsuli-Əkrəm (s) dünyasını dəyişdi. Ramazan ayının gecələrinin bütün müstəhəb" namazlarını necə ayrılıqda qılınmasına əmr etmişdirsə həmin şəkildə də yerinə yetirilirdi. Əbu Bəkrin xəlifəliyi dövründə və həmçinin Ömərin hakimiyyətinin (əvvəllərində də müstəhəb namazlar həmin şəkildə qılınırdı!"(١)

:İbn Səd "Təbəqat" kitabında yazır

" وَ هُوَ (عُمَرُ) أَوَّلُ مَنْ سَنَّ قِيَامَ شَهْرِ رَمَضَانَ وَ جَمَعَ النَّاسَ عَلَى ضَلِكَ وَكَتَبَ بِهِ إِلَى الْبُلْدَانِ وَذَلِكَ فِى مُنْتَهَى رَمَضَانَ سَنَه أَرْبَعَ عَشَرَةَ...".

Ömər, Ramazan ayının gecələrində camaat namazının əsasını qoyan birinci kəsdir." Bütün şəhərlərə yazılı surətdə bu əmri çatdırdı. Bu hadisə hicrətin on dördüncü ilində baş vermişdi və Mədinənin camaatı üçün iki pişnəmaz təyin etmişdir: Biri kişilər üçün (və ikincisi də Mədinənin qadınları üçün."(٢)

Yəqubi on dördüncü hicri ilinin hadisələrini belə yazır: "Ömər, mübarək Ramazan ayının müstəhəb namazlarını camaatla bir yerdə qılınması əmrini bu ildə verdi. Bütün İslam şəhərlərinə də məktub göndərdi. Ubəy ibn Kəəbə və Təmim Dariyə də əmr etdi ".ki camaata pişnamaz durub namaz qılsınlar

Yəqubi yenə əlavə edir: "Bu barədə xəlifəyə etirazlar olundu və Peyğəmbərin (s), Əbu :Bəkrin bu namazları camaatla qılımadıqlarını bildirdilər. Ömər onların cavabında dedi

---

Səhihi-Buxari", ٣-cü cild, "Kitabus-səvm", ١-ci bölüm, "Fəslu mən qamə" . [١] -١ Rəməzan", hədis: ١٩٠٧; "Səhihi-Müslim", ٢-ci cild, "Kitabus-səlatil-musafirin", "ət-;Tərğibu fi qiyami Rəməəzan", hədis: ٧٥٩

Təbəqat", "Zikru istixlafi Ömər ibni Xəttab", London çapı, ٣-cü cild, səh. ٢٠٢, Bu" . [٢] -٢ məsələ başqa dəyişikliklə "İrşadus-sari" kitabının ٣-cü cildində səh. ٤١٥-də (Kitabus-;səvm, "Fəzlu mən qaməs-səlatan" bölümündə) də zikr olunmuşdur

" إِنْ تَكُن بِدْعَةً فَمَا أَحْسَنَهَا مِنْ بِدعَهٍ "

(Əgər bu əməl bidət belə olsa da ən gözəl bidətdir."(١)"

Siyuti "əl-Xüləfa" tarix kitabında deyir: "Hicrətin on dördüncü ilində Ömər camaatı "Təravih" namazına məcbur etdi."(٢)

Əmirəl-möminin Əlinin (ə) rəftarı

Tarix və rəvayət kitablarından əlimizə çatan dəlillərə əsasən görürük ki, Əmirəl-möminin Əli (ə) öz xəlifəliyi dövründə bu namazı Peyğəmbərin (s) zamanında qılındığı kimi əvvəlki şəklinə qaytarılmasına və o Həzrətin (s) bu barədə buyurduğu əmrinin icra olunmasından ötrü çox zəhmət çəkdi. Ancaq müxtəlif səbəblərə görə o cümlədən bir qrup müsəlmanların cahilliyi və nadanlığı üzündən bu işdə onun zəhməti hədərə getdi və nəticə vermədi.

Əmirəl-möminin (ə) öz söhbətlərinin birində bu məsələyə toxunaraq belə buyurur:

" وَ أُمِرْتُ النَّاسَ أَنْ لاَ يَجْمَعُوا فِی شَهْرِ رَمَضَانَ إِلاَّ فِی فَرِیضَهٍ لَنَادَی بَعْضُ النَّاسِ مَنْ أَهْلِ الْعَسْکَرِ مِمَّنْ یُقَاتِلُ مَعِی یَا أَهْلَ الإِسْلاَمِ وَ قَالُوا: غَیِّرَتْ سُنَّهُ عُمَرَ نَهَیْنَا أَنْ نُصَلِّی فِی شَهْرِ رَمَضَانَ تَطَوُّعاً حَتَّی خِفْتُ أَنْ یَثُورُوا فِی نَاحِیَهِ عَسْکَرِی بُؤسی لَمَّا لَقَیْتُ مِنْ هَذِهِ الأُمَّه بَعْدَ نَبِیِّهَا مِنَ الْفِرْقَهِ وَ طَاعَهِ أَئِمَّهِ الضَّلاَلِ وَ الدعاهِ إِلَی النَّارِ".

"Camaata əmr etdim ki, Ramazan ayında vacibi namzlardan başqa, digər namazları camaatla bir yerdə qılmasınlar. Bir qrup əskərlərimin səsi ucaldı və dedilər: "Vay olsun indi də Ömərin qoyduğu sünnə və qanun dəyişilir və Ramazan ayının namazlarını qılmaqdan bizi çəkindirirlər." Mən, ordumun içində bu fitnənin çoxalmasından qorxdum. Vay olsun bu camaatın halına ki, Peyğəmbərin (s) vəfatından sonra onların

---

١-[١]. "Əyyamu Ömər ibnl-Xəttab"; "Yəqubinin tarixi", ٢-ci cild, (Beyrut çapı), səh. ١٤٠;

٢-[٢]. "Fəslu fi xilafəti Ömər ibnil-Xəttab"; "Xəlifələrin tarixi", səh. ١٢٣;

(əlindən nələr çəkdim... ."(١)

İbn Əbil Hədid Şafidən nəql edir ki; “Kufədə bir dəstə Əmirəl-möminin Əlidən (ə) Ramazan ayının müstəhəb namazlarını camaatıa qılmaq üçün pişnamaz təyin etməsini istədilər. Həzrət (ə) onları bu əməldən çəkindirdi və bu işin Peyğəmbər (s) sünnəsinə zid olduğunu izah etdi. Onlar da zahirdə öz istəklərindən əl çəkdilər. Ancaq məscidə yığışıb öz aralarından bir nəfəri seçib ona iqtida etdilər. Əmirəl-möminin Əli (ə) məsələdən agah oldu. Oğlu Həsəni Müctəbanı (ə) onları ayırmağa göndərdi. Eləki Həsən (ə) məscidə daxil oldu və cəm olanlar da onun əlindəki taziyanəni gördülər, “Va Ömərah” qışqıra-qışqıra yəni “Vay Ömərin sünnəsi sındı” məscidin müxtəlif (qapılarından qaçmağa başladılar."(٢)

Bədruddin Eyninin izahı

Nə“ ”وَ نِعْمَ الْبِدْعَه“ Səhihi-Buxari” kitabının şərhçilərindən biri olan Bədruddin Eyni, Ömərin“ :gözəl bidətdir!” sözünün izahında belə deyir

Ömər, bu namazı ona görə bidət adlandırdı ki, Peyğəmbərin (s) və Əbu Bəkrin“ ”.zamanında belə bir namaz yox idi. Çünki bu namazı onun özü düzəltdi

(Sonra əlavə edir ki; “Bu yaxşı bir bidət olduğu üçün qeyri-şəri hesab olunmur."(٣)

Biz də, ondan soruşuruq: Siz belə bir namazın bidət olduğunu etiraf edirsiniz. Lakin bu .bidəti yaxşı və gözəl düşünürsünüz

---

;Səlim ibn Qeysin kitabı”, səh. ١۶٣“ . [١] -١
;(Nəhcül-bəlağənin şərhi”, İbn Əbil Hədid, ١٢-ci cild, səh. ٢٨٣ (٢٢٣-cü xütbə“ . [٢] -٢
Umdətul-qari”, ١١-ci cild, səh. ١٢۶, (“Kitabus-səvm”, “Fəzlu mən qaməs-“ . [٣] -٣ ;(”səlatəyn

Əgər indi bu bidətin və qanunun Peyğəmbər (s) sünnəsindən və qanunundan yaxşı olduğunu söyləsəniz, onda sizin bu sözünüz və əqidəniz kafir olmağınıza səbəb olar. Yox əgər Peyğəmbər sünnəsinin bu bidətdən daha yaxşı olduğunu düşünürsünüzsə o .zaman daha yaxşını qoyub belə bir bidətin dalınca getməyinizə heç bir əsas yoxdur

Üç təlaq .٨

?Üç təlaq hansıdır

Qadının öz ərinə üçüncü təlaqla haram sayılması bu deməkdir ki, bir kəs arvadına iki dəfə təlaq verdikdən sonra hər dəfə təlaq verəndə ona (ərinə) qayıtsa və yaxud iddə tamam olduqan sonra onunla yenidən evlənərsə, belə şəraitdə üçüncü dəfə ona təlaq verdikdə o qadın ərinə haram olur və nə qədərki başqa bir kişi ilə evlənməyib və o da (ikinci əri) ölməyib və yaxud da onun razılığı ilə boşanmayıb onunla (birinci əri ilə) .evlənə bilməz

:Bu hökm Quranı-Kərimdə çox açıq və aydın buyurulub

{الطَّلاَقُ مَرَّتَانِ فَإِمْسَاكٌ بِمَعْرُوفٍ أَوْ تَسْرِيحٌ بِإِحْسَانٍ... فَإِن طَلَّقَهَا فَلاَ تَحِلُّ لَهُ مِن بَعْدُ حَتَّىَ تَنكِحَ زَوْجًا غَيْرَهُ...}

Ric'i) talaq vermə (boşama) iki dəfə mümkündür, ondan sonra yaxşı dolanmaq)" (qadını yaxşı saxlamaq), ya da xoşluqla ayrılmaq (buraxmaq) gərəkdir... Əgər (kişi) övrətini yenə də (üçüncü dəfə) boşarsa, o zaman (qadın) başqa bir ərə getməmiş ona ((əvvəlki ərinə) halal olmaz...."(١)

ət-təlaqu mərrətani" cümləsi, açıq-ydın şəkildə göstərir ki, gərək bu təlaq" "الطَّلاَقُ مَرَّتَانِ" qadın və kişinin arasında ayrılığa səbəb ola. Əgər bir kəs üç dəfə təlaq və ayrılıq əvəzinə, arvadına yalnız bir dəfədə üç dəfə təlaq verdiyini bildirsə (səni üç dəfə boşadım) Qurani-Kərimin bu barədə olan ayəsinə

;əl-Bəqərə" surəsi, ٢٢٩-cu və ٢٣٠-cu ayələr" . [١] -١

düzgün əməl etməyibdir. Çünki belə bir təlaq, bir təlaq sayılır. Bu halda ərin öz .arvadına qayıdışı və onunla yenidən evlənməsi düzgün sayılır

kəlməsinin təfsirində belə yazır: “Yəni, şəri təlaq vasitəsi ilə ”الطَّلاَـقُ مَرَّتَانِ“ Zəməxşəri qadının öz ərinə haram olması və onunla evlənə bilməməsi budur ki, bir təlaq başqa bir .təlaqdan sonra bir yerdə və cəm şəkildə deyil, ayrıca və müstəqil şəkildə baş versin

O əlavə edir: “Ayədə təlaqın iki dəfə olmasından məqsəd kəlməni təkrar etməklə və təkcə “Təlləqtuki təlaqəyn” yəni, “mən səni iki dəfə boşadım” söyləməklə deyil, əksinə təlaqın özünün əməli surətdə təkrar olunmasıdır.” Sonra Zəməxşəri izah edərək deyir: :“Bu ayə Quranın başqa bir ayəsi kimidir ki, buyurulur

{ثُمَّ ارْجِعِ الْبَصَرَ كَرَّتَيْنِ يَنقَلِبْ إِلَيْكَ الْبَصَرُ خَاسِأً وَهُوَ حَسِيرٌ}

Sonra gözünü qaldırıb iki dəfə bax. Göz orada (axtardığını tapmayıb) zəif, yorğun“ _ düşərək yenə də sənə tərəf qayıdacaqdır!” _(۱)_ _Ayədə ikinci baxışdan məqsəd birinci (baxışdan sonrakı baxışdır.”(۲

Hər halda, məsələ Qurani-Kərimdə açıq-aydın bəyan olunmuşdur. Peyğəmbərin (s) əməli və rəftarı da həmin mənanı təsdiqləyirdi. Daha müsəlmanlar üçün şübhəli bir yer .qalmamışdır

Lakin ikinci xəlifə təlaqın əməli surətdə həyata keçməsini şərt bilməmişdir. Yəni əgər bir kəs arvadına bir dəfə təlaq verərkən onun üç dəfə olduğunu qeyd edib deyərsə (səni üç dəfə boşadım) belə bir qadın xəlifə baxımından öz keçmiş ərinə əbədi olaraq haram olur. Daha onun ərinin ikinci dəfə ona qayıdışı və onunla evlənməsi mümkün :olmur

{حَتَّى تَنكِحَ زَوْجًا غَيْرَهُ}

;əl-Mülk” surəsi, ۴-cü ayə“ . [۱] -۱

;(Kəşşaf” təfsir kitabı, ۱-ci cild, səh. ۳۶۶; (Bəqərə surəsinin təfsirində“ . [۲] -۲

(O zaman (qadın) başqa bir ərə getməmiş ona (əvvəlki ərinə) halal olmaz... . _(۱)_

:İndi isə “Səhihi-Müslim”də bu barədə qeyd olunanları nəql edirik

.۱

...عَنْ ابْنِ عَبَّاس قَالَ: كَانَ الطَلاَقُ عَلَى عَهْدِ رَسُولِ اللهِ | وَ أَبِى بَكْر وَ سَنَتَيْنِ مِنْ خَلاَفَهِ عُمَر طَلاَقٌ الثُلاَثِ وَاحِدَةٌ فَقَالَ عُمَرُ بْنُ الْخَطَّابِ: إِنَّ النَّاسَ قَدْ اسْتَعْجُلُوا فِى أَمْرٍ كَانَتْ لَهُمْ فِيهِ أَنَاةٌ فَلَوْ أَمْضَيْنَاهُ عَلَيْهِمْ فَأَمْضَاهُ عَلَيْهِمْ.

İbn Abbas deyir: “Rəsuli-Əkrəmin (s) zamanında, Əbu Bəkrin xilafəti dövründə və Ömərin hakimiyyətinin əvvəlinci iki ilində “Təlaq” kəlmə ilə üç dəfə oxunsa da bir təlaq sayılırdı. Sonralar Ömər belə dedi: “Camaat, onlara möhlət verildiyi və xeyirli olan şeydə tələsdilər. Bu hökmü onların əleyhinə imzalayıb və “üç” kəlmə ilə bir təlaq (sayılan boşanmağı, üç kəlmə ilə üç təlaq kimi hökm oxusam nə yaxşı olar!”(۲)

Tavus deyir: “Əbul Söhba İbn Abbasa dedi: Təəccüblü xəbərlərdən bizə də söylə. Bu vaxt özü soruşdu ki; Üç təlaq Rəsuli-Əkrəmin və Əbu Bəkrin dövründə bir təlaq hesab olunmurdumu? İbn Abbas dedi: Bəli, belə idi. Lakin eləki Ömər xilafətə çatdı camaat ”.təlaq verməkdə ifrat etdilər. Ömər də bu hökmü onların əleyhinə çıxartdı

:Başqa bir hədisdə də belə qeyd olunmuşdur

...إِنَّ أَبَا الصِّحبَاءَ قَالَ لِإِبْنِ عَبَّاس: هَاتِ هَنَاتَكَ أَلَمْ يَكُنْ الطَّلاَقُ الثَّلاَثُ عَلَى عَهْدِ رَسُولِ اللهِ | وَ أَبِى بَكْرٍ وَاحِدَةً؟ فَقَالَ: قَدْ كَانَ ذَلِكَ فَلَمَّا كَانَ فِى عَهْدِ عُمَرَ تَتَابع النَّاسُ فِى الطَّلاَقِ فَأَجَازَهُ عَلَيْهِم.

İbn Söhba İbn Abbasa dedi: Rəsuli-Əkrəmin (s), Əbu Bəkrin dövründə və Ömərin“ hakimiyyətinin əvvəlinci üç ilində üç

;əl-Bəqərə” surəsi, ۲۲۹-cu və ۲۳۰-cu ayələr“ .[۱]-۱

;Səhihi-Müslim”, ۴-cü cild, “Kitabut-Təlaq”, “Təlaqus-səlas”, hədis: ۱۴۷۲“ .[۲]-۲

təlaq bir təlaq sayıldığını bilirsənmi? İbn Abbas dedi: Bəli, ancaq Ömərin zamanında (camaat təlaqda ifrat etdilər və o da (Ömər) bu hökmü camaatın əleyhinə çıxartdı.”(١)

Bu məsələ mötəbər sənədlər, hədis və tarix kitabları baxımından sabit olunmuşdur ki ikinci xəlifənin dövrünə kimi “üç” ədədi ilə qeyd olunmuş təlaq bir təlaq hesab olunurdu. Ancaq Ömərin əmrinə əsasən bu növ təlaq, üç həqiqi təlaq kimi hesablandı; .bu təlaqda yenidən evlənmək və qayıdış ixtiyarı kişilərdən alındı

Sünnü alimlərinin əksəriyyəti və dörd sünnü məzhəbi tarix boyu Ömərin bu fətvasına əməl edib, ikinci xəlifənin bu fikrinə qarşı çıxmadılar. Hal-hazırda da bu fətva əsasında əməl olunur. Əlbəttə,, Qurani-Kərimin əksinə olan bu fətvanın müxalifləri də mövcuddur. Bu müxalifət bəzən kinayə ilə, bəzən də açıq-aydın şəkildə bildirilir. Hətta iş o yerə çatıb ki, Misrin muftiləri və böyük elmi şəxsiyyətləri rəsmi şəkildə bu fətvaya .qarşı çıxıblar

İndi bu məsələ haqda əhli-sünnə fəqih və alimlərinin fikirlərini qısa şəkildə nəzərinizə .çatdırırıq

Üç təlaq məsələsinə bir baxış

İbn Ruşd deyir: Fəqihlərin əksəriyyətinin əqidəsinə görə “üç” təlaqla qeyd olunmuş təlaq, üç həqiqi təlaq hökmündədir. Belə olduğu halda kişi (əri) yenidən qayıdıb belə bir (qadınla evlənə bilməz.(٢)

əl-Fiqhu ələl-məzahibil-ərbəə” kitabının sahibi deyir: Əgər bir kişi öz arvadına desə:“ Sən “sənə üç təlaq verdim”, dörd məzhəbin və əksər fəqihlərin əqidəsinə əsasən o qadınla qayıdıb evlənə bilməz. Təlaqın bu növü həqiqi üç təlaq

---

;Səhihi-Müslim”, ۴-cü cild, “Kitabut-Təlaq”, “Təlaqus-səlas” bölümü, hədis: ١۴٧٢“ .[١]-١

;Bidayətul-müctəhid”, “Kitabut-Təlaq”, ١-ci məsələ“ .[٢]-٢

(hökmündədir.(۱)

Lakin İbn Ruşdin özü və "əl-Fiqhu ələl-mazahibil-ərbəə" kitabının sahibi bu nəzəriyyəyə qarşı öz etirazını bildirmiş və bu hökmün həqiqətlə uyğun olmadığını .bildirib "özündən qondarma" bir hökm kimi hesab etmişlər

İbn Ruşd zərif işarə ilə bu nəzəriyyəni rədd etmiş və başqa bir məsələ münasibəti ilə üç təlaq mövzusuna da işarə edib deyir: "…. Elə buna görədir ki, camaatın bir təlaqını üç təlaqa vadar eləyənlərin bu qanunda olan hikmət və məsləhəti aradan apardığını ".görürük

əl-Fiqhu ələl-mızahibil-ərbəə" kitabının müəllifi hər iki tərəfin dəlillərinə işarə etdikdən" sonra, bu məsələləri ictihad məsələlərindən biri saymışdır. İbn Abbası və ikinci xəlifəni :qarşı-qarşıya qoyaraq belə nəticə alır

Şəkk və şübhə yoxdur ki, İbn Abbas da məzhəbi məsələlərdə sözlərinə etimad" olunulası müctəhidlərdən biridir. Ondan təqlid etmək caizdir. Başqa bir tərəfdən isə Ömərin şəxsi nəzərlərində ondan təqlid etməyimiz vacib deyildir. Çünki o da bir müctəhiddir. Hətta əksər alimlərin onun fətvaları ilə razılaşması ondan təqlid etməyin (luzumunu bildirmir."(۲)

Şeyx Məhəmməd Əbduh(۳) "Təlaq ayəsi"nin barəsində geniş bəhs etdikdən sonra və bu ayənin təlaqın neçə dəfə baş tutmasının gərəkliyinə dəlil olduğunu sübuta yetirmiş və sözün sayda zərrə qədər təsirinin olmadığını bildirdikdən sonra xəlifənin və onun tərəfdarlarının bu hökm barəsində həyata keçirdiyi əmələ etiraz əlaməti olaraq Nəsainin nəlq etdiyi bu hədisi qeyd edir: "Peyğəmbərin (s) zamanında bir nəfər öz arvadına bir kəlmə ilə üç təlaq vermişdir. Peyğəmbər qəzəbli

---

;(əl-Fiqhu ələl-məzahibil-ərbəə", ۴-cü cild, səh. ۳۴۱, (Təlaqın sayı bəhsində" . [۱] -۱

;(əl-Fiqhu ələl-məzahibil-ərbəə", ۴-cü cild, səh. ۳۴۱; (Təlaqın sayı bəhsində" . [۲] -۲

;Hicrətin ۱۳۲۳-cü ilində dünyasını dəyişib . [۳] -۳

halda camaat arasında dayanıb buyurdu: Elə indidən – mən sizin aranızda ola-ola – ”!?Allahın kitabı oyuncağınıza çevrilir

Əbduh sözünü belə tamamlayır: “Bizim məqsədimiz təqlid eliyən şəxslərlə mücadilə etmək, yaxud qazi və müftiləri öz əqidələrindən daşındırmaq deyildir. Çünki onların çoxu söylədiyimiz dəlillərlə tanışdırlar. Həmçinin kitablarda mövcud olan hədislərdən xəbərdardırlar. Amma eyni halda da onlar bu dəlillərin heç birinə etina etmirlər. Çünki onların əqidəsi budur ki, Allahın kitabına və Peyğəmbər (s) sünnəsinə deyil, əksinə öz (əqidə və kitablarına əməl etməlidirlər.”(١)

Nəhayət Misrin qazilər məhkəməsi ١٩٢٩-cu ildə bu hökmü ləğv elədi.(٢) Neçə il sonra əl-Əzhər Universitetinin rektoru və əhli-sünnə məzhəbinin ən böyük ruhanisi mərhum Şeyx Məhmud Şəltut belə fətva verdi: “Sayla verilən təlaq, məsələn: kişi öz arvadına “sənə üç təlaq verdim” deyərsə belə bir təlaq yalnız bir təlaq və “ric`i” (qayıdış təlaqı) (hesab olunur.”(٣)

Lakin ikinci xəlifə Ömərin fətvası və dörd məzhəbin əməli qarşısında belə bir fətvaların və nəzəriyyələrin təsirli olması üçün daha çox zaman ötüb keçməli, kor-koranə və .təəssüb üzündən olan təqlidlər kənara qoyulmalıdır

Əzizlərinin ölümündə ağlamağın qadağan olunması .٩

İnsanın öz əzizlərinin vəfatı zamanı bu müsibətə kədərlənib ağlaması bəşərin məhəbbətamiz duyğularındandır. İslam dini əzizlərin vəfatı zamanı onlara ağlamağı qadağan etməmişdir. Hətta Rəsuli-Əkrəmin (s) özü dünyasını dəyişənlərə xüsusilə də .din yolunda şəhadətə çatanlara ağlayırdı

Lakin əsas mənbələrə görə ölülərə ağlamaq nədənsə xəlifə

;(əl-Mənar”, ٢-ci cild, səh. ٣٨١ və ٣٨٧; (“Bəqərə” surəsi“ . [١] -١

;(əl-Fətava”, ٣-cü çap, səh. ٣٠٥ (əl-Həlfu bit-təlaq“ . [٢] -٢

;(əl-Fətava”, ٣-cü çap, səh. ٣٠٥ (əl-Həlfu bit-təlaq“ . [٣] -٣

Ömərin xasiyyətilə uyğun deyildir. Öz əzizlərinin vəfatına ağlayanlara ağlamağı ciddi .şəkildə qadağan edir, əsa, çubuq və bəzən də taziyanə ilə ağlayanların qarşısını alırdı

Biz, burada “Səhiheyn” kitablarında Peyğəmbərin (s) ağlaması barədə qeyd olunanları bəyan edəcəyik. Sonra isə bu iki kitabdan və bəzi başqa mənbələrdə qeyd olunan .xəlifə Ömərin bu əməl qarşısında əksul-əməl göstərməsini nəzərinizə çatdıracağıq

.١

...عَنْ أَنَسِ بْنِ مَالِکَ أَنَّ النَّبِیَّ | نَعَی جَعْفَراً وَ زَیْداً قَبْلَ أَنْ یَجِیءَ خبرُهُم وَ عَیْنَاهُ تَذْرُفَانِ.

Buxari Ənəs ibn Malikdən nəql edir: “Rəsuli-Əkrəm (s) Cəfər və Zeydin şəhadət xəbəri Mədinəyə yetişməzdən qabaq, gözlərindən yaş axa-axa özü onların ölüm xəbərini (camaata söylədi.”(١)

.٢

عَنْ أَنَسِ...ثُمَّ دَخَلْنَا عَلَیْهِ بَعْدَ ذَلِکَ وَ إِبْرَاهِیمُ یَجُودُ بِنَفْسِهِ فَجَعَلَتْ عَیْنَا رَسُولُ اللهِ تَذْرِفَانِ فَقَالَ لَهُ عَبْدُ الرَّحْمَانُ بْنُ عَوفٍ: وَ أَنْتَ یَا رَسُولَ اللهِ؟ فَقَالَ: یَابْنَ عَوْفٍ إِنَّهَا رَحْمَةٌ ثُمَّ أَتْبَعَهَا بِأُخْرَی فَقَالَ: إِنَّ الْعینَ تَدْمَعُ وَ الْقَلْبُ یَحْزَنُ، وَ لاَ نَقُولُ إِلاَّ مَا یَرْضَی رَبُّنَا وَ أَنَا بِفِرَاقِکَ بِإِبرَاهِیم لَمَحْزُونٌ.

Buxari Ənəs ibn Malikdən nəql edir: “Peyğəmbərin (s) övladı İbrahim can verəndə biz Peyğəmbərin (s) hüzuruna gəldik. Onun gözlərindən yaş axdığını gördük. Əbdurrəhman ibn Ouf soruşdu: Ya Rəsulullah sən də övladının müsibətində ağlayırsan?! Rəsuli-Əkrəm (s) buyurdu: Yəbnə Ouf bu ağlamaq rəhimliliyin və .məhəbbətin nəticəsidir

İbn Abbas deyir: Allahın Rəsulu (s) yenə də ağladı. Sonra buyurdu: Göz yaşım axır və ürəyim də qəmlidir. Ancaq Allahın razı olmadığından başqa bir şeyi dilimə gətirmirəm. (Bu vaxt buyurdu: İbrahim, biz sənin ayrılığına hüzünlüyük.”(٢)

١- [١] . Səhihi-Buxari”, ٤-cü cild, “Əlamatun-nübuvvəti fil-İslam” bölümü, “Kitabul-“ ;mənaqib”, hədis: ٣٤٣١

Səhihi-Buxari”, ٢-ci cild, “Kitabul-cənaiyiz”, “Qovlun-Nəbiy: Ənə bikə ləməhzun”“ . [٢] -٢
;bölümü, hədis: ١١٨٩ və ١٢٤١

.۳

زَارَ النَّبِیُّ | قَبْرَ أُمِّهِ فَبَکَی وَ أَبْکَی مَنْ حَوْلَهُ

Müslim nəql edir: “Allahın Rəsulu (s) anasının qəbrini ziyarət etdi. O, anasının qəbri (kənarında elə ağladı ki ətrafında olanların hamısını ağlatdı.”(۱)

Peyğəmbərin (s) və Həzrət Fatiməyi-Zəhranın (səlamullahi ələyha) ağlaması barədə “Səhihi-Buxari”də çoxlu rəvayətlər nəql olunmuşdur. Nümunə üçün onlardan üçünü (burada qeyd etməklə kifayət etdik.(۲)

İndi isə “Səhiheyn” kitablarında ölənlərə ağlamaq barədə nəql olunmuş Ömərin :rəftarından bir neçəsini burada qeyd edirik

Abdullah ibn Ömər uzun bir hədisdə Səd ibn İbadənin xəstələndiyini və Peyğəmbərin .۱ (s) onu zayarət edib başı üstündə halına ağlamasını nəql edir. Sonra atasının ölənlərə :ağlayanlarla müxalifət etdiyini belə söyləyir

Səd ibn İbadə, möhkəm xəstələnmişdi. Əbudrrəhman ibn Ouf, Səd ibn Vəqqas və“ Abdullah ibn Məsud Rəsuli-Əkrəmlə (s) bir yerdə Səd ibn İbadənin yanına gəlmişdirlər. Peyğəmbər (s) gələn zaman Səd ibn İbadə halsız və (xəstəliyin təsirindən) özündən getmişdi. Peyğəmbər (s) soruşdu: Ruhu bədənindən çıxıbdırmı? Ərz etdilər ki; xeyr ya !Rəsulullah

Bu vaxt Peyğəmbər (s) ağladı və onunla olanlar da ağlamağa başladılar. Sonra Peyğəmbər (s) buyurdu: Allah göz yaşına və qəmli ürəyə görə bir kəsə əzab verməyəcəyini eşitmisinizmi?! Bu vaxt dilinə işarə etdi və buyurdu: Əksinə, Allah bunun (dilin) vasitəsi ilə insana əzab və rəhm edir. Lakin ölü, bəzən

---

Səhihi-Müslim”, ۳-cü cild, “Kitabul-cənayiz”, “İstizanun-Nəbiyy (s) “Rəbbuhu fi“ . [۱] -۱ ;ziyarəti qəbru ummihi”, hədis: ۹۷۶

Peyğəmbərin ağlaması barədə “Səhihi-Buxari”nin ۲-ci cildinə, “Kitabul-cənayiz”, . [۲] -۲ “Qəvlun-Nəbiyyi yəzibul-məyyiti bibəzi bukai əhlihi ələyh” bölümü, hədis: ۱ və ۲-yə

;müraciət olunsun

"!yerdə qalanlarının ağlamasının nəticəsinə narahat olur

Abdullah ibn Ömər bu hədisi nəql etdikdən sonra deyir: “Ancaq mənim atam “Ömər” camaatı ağladıqlarına görə əsa ilə vururdu. Daş və kəsəklə onların ağlamasının ".qarşısını alırdı

"وَ كَانَ عُمَرُ رَضِىَ اللهُ عَنْهُ يَضْرِبُ فِيهِ بالْعَصَا وَ يَرْمِى بِالْحِجَارَهِ وَ يَحثِى بالتُّرَابِ"(۱)

Bu hədis “Səhihi-Buxari” və “Səhihi-Müslim” kitablarında qeyd olunmuşdur. Amma .Müslim bu hədisin axır hissəsini kəsib atmışdır

Həmçinin “Səhihi-Buxari”də qeyd olunmuşdur ki; Ömər, qardaşının hüzn məclisində :ağlayan Əbu Bəkrin bacısını evdən çıxartdı

"وَ قَدْ أَخْرَجَ عُمَرُ أُخْتَ أَبِى بَكْرٍ حِينَ نَاحَتْ"(۲)

Əhməd ibn Hənbəl öz “Müsnəd” adlı kitabında Osman ibn Məzunun ölümü barədə İbn Abbasdan belə nəql edir: “Elə ki Peyğəmbərin (s) qızı Rüqəyyə (səlamullahi ələyha) dünyasını dəyişdi, Peyğəmbər (s) buyurdu: Bizim yaxşı sələfimiz Osman ibn Məzuna "!qovuş

İbn Abbas sonra belə deyir: “Rüqəyyənin (səlamullahi ələyha) vəfatına qadınlar :ağlayırdılar. Ömər onları öz taziyanəsi ilə vururdu. Allahın Rəsulu (s) Ömərə dedi

Qoy ağlasınlar! Sonra qadınlara üz tutub buyurdu: Özünüzü Şeytanın səsindən“ Sonra Rəsuli-Əkrəm (s) buyurdu: Ürəkdə və gözdə olan ”إِيَّاكُنَّ وَ نَعِيقَ الشَّيْطَـان“ :qoruyun (ağlamaq və kədərli olmaq) Allahdandır və bu ürəyin kövrəkliyindəndir. Dildə və əldə olan (əzizlərinin hüzn məclisində ağladıqda əldən və dildən görünən əksül əməl) Şeytandandır. Bu vaxt Allahın Rəsulu (s) Rüqəyyənin (ələyha səlam) qəbrinin kənarında

---

Səhihi-Buxari”, ۲-ci cild, “Kitabul-cənayiz”, “əl-Bukau indəl-məriz” bölümü,“ . [۱] -۱ hədis: ۱۲۲۴; və “Səhihi-Müslim”, ۳-cü cild, “Kitabul-cənaiz”, “əl-Bukau ələl-məyyit”

;bölümü, hədis: ۹۲۳-۹۲۴

;Səhihi-Buxari", ۳-cü cild, "İxracu əhlil-məasi vəl-xusum" bölümü" . [۲] -۲

oturdu və Fatimə (səlamullahi ələyha) də atasının yanında əyləşərək ağlayırdı. Peyğəmbər (s) məhəbbətlə öz paltarının ətəyi ilə Fatimənin (səlamullahi ələyha) göz (yaşını silirdi."(١)

Bu hadisəni İbn Səd də öz "Təbəqat" adlı kitabında qısa bir fərqlə qeyd etmişdir. İbn Sədin söylədiklərində bu cümləri də görmək olar: "Elə ki Ömər qadınları vururdu !Peyğəmbər (s) onun əlindən tutdu və buyurdu: Ömər sakit ol

"فَأَخَذَ رَسُولُ اللهِ بِيَدِهِ وَ قَالَ: مَهْلاً يَا عُمَرُ"(٢)

Əhməd ibn Hənbəl nəql edir: "Peyğəmbər (s) bir cənazənin yanından keçirdi. Bir dəstə qadınlar cənazənin ətrafında ağlayırdılar. Ömər onları ağlamağa qoymadı. Rəsuli-Əkrəm (s) buyurdu: Onları öz hallarına burax. Çünki öz əzizlərini təzə itiriblər. Qəlbləri :qəmli və gözləri yaşlıdır

"دَعْهُنَّ فَإِنَّ النَّفْسَ مصابةٌ وَ العينَ دَامِعَةٌ وَ العَهْدَ حَدِيثٌ"(٣)

İbn Əbil Hədid deyir: "Ömər xilafəti dövründə taziyanə ilə vurduğu ilk kəs Əbu Quhafənin qızı "Ümmu Fərvə" idi. Çünki Əbu Bəkr dünyadan gedən kimi qadınlar ona ağlamağa başlayırdılar ki, Əbu Bəkrin bacısı Ümmu Fərvə də onların arasında idi. Ömər neçə dəfə onları bu işdən çəkindirdi. Ancaq onlar yenə də ağlayırdılar. Ömər, Ümmu Fərvəni onların arasından çıxardı və taziyanə ilə onu vurdu. Başqa qadınlar ":Ümmu Fərvənin kötək yediyini görcək dağılışdılar

"وَ أَوَّلُ مَنْ ضَرَبَ عُمَرُ بِالدُّرَه أَمّ فَرْوَه بِنْتَ أَبِى قُحافَة مَاتَ أَبُوبَكْر فَنَاحَ النِّسَاءُ عَلَيْهِ"(٤)

١- [١]. "Müsnədi Əhməd ibn Hənbəl", ١-ci cild, "Müsnədi Abdullah ibn Abbas" səh. ٣٣٥;

٢- [٢]. "Təbəqatu Kubra", ٣-cü cild, "İbn Xudafə", səh. ٢٩٠;

٣- [٣]. "Müsnədi-Əhməd", ٢-ci cild, "Müsnədi Əbi Hüreyrə", səh. ٣٣٣;

٤- [٤]. "Nəhcül-bəlağənin şərhi", İbn Əbil Hədid, ١-ci cild, səh. ١٨١; (Şiqşiqiyyə xütbəsi);

Müsafir namazı .۱۰

İşarə

Səfərdə dörd rükətli namazlar iki rükət (qəsr) olur. Bunun üçün dörd rükətli namazın yerinə iki rükət namaz qılınmalıdır. Səfərin bütün növləri bu hökmdə eynidir: Ticarət səfəri, müharibə səfəri, ziyarət səfəri və s... Bu hökm Qurani-Kərim(۱) və Rəsuli Əkrəmin (s) sünnəsilə(۲) sübut olunmuşdur.

Bu əməl Peyğəmbərin (s) zamanında, Əbu Bəkrin və Ömərin dövründə, həmçinin Osmanın xilafətinin bir hissəsində adi qaydada (yəni Quran və sünnə buyurduğu kimi) idi. Lakin Osman hakimiyyət illərinin ortalarında “Mina”da müsafir ola-ola namazını iki rükət əvəzinə dörd rükət qıldı. Müsəlmanlar da ona itaət etdilər. Əlbəttə, bbir dəstə başqa müsəlmanlar Osmana irad tutub onun bu əməlinə etiraz etdilər. Hətta Təbərinin İbn Abbasdan olan nəqlinə görə müsəlmanların Osmanın qoyduğu bu bidətdən istifadə etdikləri birinci mövzu “Mina”da namazın bütöv qılınması idi. Həmin mövzu da müsəlmanların ürəyində Osmana qarşı üsyanın və inqilabın alovlanmasına səbəb oldu.

Üçüncü xəlifə Osman tərəfindən müsafir namazının hökmünün dəyişdirilməsi mövzusu hədis, tarix və təfsir kitablarında şərhləri ilə birgə qeyd olunmuşdur. Lakin biz bu kitabımızda həmin hədislərdən təkcə üçünü qeyd etməklə kifayət edirik:

.۱

səh:۵۹۰

۱- [۱] . (وَإِذَا ضَرَبْتُمْ فِى الأَرْضِ فَلَيْسَ عَلَيْكُمْ جُنَاحٌ أَن تَقْصُرُواْ مِنَ الصَّلوهِ إِنْ خِفْتُمْ أَن يَفْتِنَكُمُ الَّذِينَ كَفَرُواْ إِنَّ الْكَافِرِينَ كَانُواْ لَكُمْ عَدُوًّا مُّبِينًا) “Səfərə çıxdığınız zaman kafirlərin sizə zərər yetirəcəklərindən qorxarsınızsa, namazı qısaltmaq (dörd rək’ətli namazı iki rək’ət qılmaq) sizə günah hesab edilməz. Həqiqətən, kafirlər sizinlə açıq düşməndirlər.” “Nisa” surəsi, ۱۰۱-ci ayə;

۲- [۲] . “Səhihi-Müslim”, ۲-ci cild, “Kitabu səlatil-müsafirin” “Səlatul-müsafirinə və qəsruha” bölümü, hədis: ۶۸۷; müraciət edin!

...عَنْ عَبْدِاللهِ قَالَ: صَلَّيْتُ مَعَ النَّبِيِّ بِمِنَى رَكْعَتَيْنِ وَ أَبِی بَكر وَ عُمَرَ وَ مَعَ عُثْمَانِ صَدراً مِنْ خِلَافَتِهِ ثُمَّ أَتَمَّهَا.

Abdullah ibn Ömər deyir: “Mən Peyğəmbərin (s), Əbu Bəkrin, Ömərin dövründə və Osmanın xilafətinin əvvəllərində səfər namazını Minada və Minadan başqa yerlərdə iki ”.rükət qılmışdım. Ancaq sonralar Osman iki rükət əvəzinə dürd rükət qıldı

Bu hədis “Səhihi-Buxari”də və “Səhihi-Müslim”də Abdullah ibn Ömər tərəfindən nəql .olunmuşdur

.۲

...اِبْرَاهِيم قَالَ: سَمِعْتُ عَبْدَ الرَّحْمَان بْنَ يَزِيدَ يَقُولُ: صَلَّى بِنَا عُثْمَانُ بْنُ عَفَّانَ بِمِنَى أَربَعَ رِكْعَاتِ. فَقِيلَ ذَلِكَ لِعَبْدِاللهِ بْنِ مَسْعُودِ، فَاسْتَرجَعْ ثُمَّ قَالَ: صَلَّيْتُ مَعَ رَسُولِ اللهِ | بِمِنَى رَكْعَتَيْنِ، وَ صَلَّيْتُ مَعَ أَبِی بَكْر بِمِنَى رَكْعَتَيْنِ، وَ صَلَّيْتُ مَعَ عُمَرَ بْنِ الْخَطَّابِ بِمِنَى رَكْعَتَيْنِ، فَلَيْتَ حَظِّى مِنْ أَرْبَعِ رَكَعَاتِ رَكْعَتَانِ مُتَقَلِّبَتَانِ.

Buxari və Müslim Əbdurrəhman ibn Yəziddən nəql edirlər: “Osman “Mina”da namazı {إِنَّا لِلَّهِ وَ إِنَّا إِلَيْهِ رَاجِعُونَ} :dörd rükət qıldı. Bu hadisə Abdullah ibn Məsudun yanında açıqlandı. O dedi Mən Peyğəmbərlə (s) iki rükət Minada namaz qıldım. Əbu Bəkr və Ömərlə də iki rükət namaz qılmışam. Ey kaş bu dörd rükətdən iki rükəti yenə də mənə qismət (olaydı. Halbuki, onu təhrif etdilər.”(۱)

Buxari başqa bir hədisdə nəql edir ki, Abdullah ibn Məsud Peyğəmbərin, Əbu Bəkrin, .۳ Ömərin zamanında iki rükət namaz qılmasını açıqladıqdan sonra bu cümləni dedi: “Sonralar siz müsəlmanların qarşısına müxtəlif yollar çıxacaq. Kaş bu dörd rükətdən iki :rükəti yenə də mənə qismət olaydı

Səhihi-Buxari”, ۲-ci cild, “Kitabus-səlat”, “Əbvabut-təqsir”, “əs-Səlatu bimina”“ . [۱] -۱ bölümü, hədis: ۱۰۳۲-۱۰۵۱; Həmin mənbə, “Kitabul-həcc”, “əs-Səlatu bimina” bölümü, hədis: ۵۷۲; və “Səhihi-Müslim”, ۲-ci cild, “Kitabu səlatul-müsafirin”, “Qəsrus-səlatı ;bimina” bölümü, hədis: ۶۹۵-۶۹۶

"...ثُمَّ تَفَرَّقَتْ بِكُمُ الطُّرُقُ فَيالَيْتَ حَظِّى مِنْ أَرْبَعٍ، رَكْعَتانِ مُتَقَبَّلَتاً "

Təbəri deyir: Hicrətin iyirmi doqquzuncu ilində Osman camaatla həcc mərasimində idi. Minada çadır qurdu. Bu, Osmanın Minada qurduğu birinci çadır idi. Təbəri sonra əlavə :edir

Vaqidi İbn Abbasdan nəql etmişdir ki: Camaatın ilk dəfə Osmana açıq şəkildə tutduqları iradı bu oldu ki, həcc səfərində Minada qıldığı iki rükət namazı xilafətin altıncı ilində dörd rükət qılmağa başladı. Peyğəmbərin (s) bir çox səhabələri həmin mövzuya irad tutdular. Bir qrup səhabələr isə bu barədə Osmanla söhbət etmək üçün onun yanına gəldilər. Hətta Əli ibn Əbi Talib də başqa bir dəstə ilə onun yanına gəldi və dedi: Osman! Allaha and olsun təzə bir iş olmayıb və Peyğəmbərin dövründən də çox zaman keçməyib. Sən özün Peyğəmbərin zamanında olmusan və Minada onun iki rükət namaz qıldığını da görmüsən. Osman! Sən də Minada dörd rükətli namazları iki rükət qılırdın. İndi bilmirik nə oldu ki öz fikrini dəyişdin? Osman Əmirəl möminin Əlinin cavabında dedi: Belə məsləhət gördüm və belə bir fikrə əməl etdim: "فَقالَ: رَأى رَأَيْتُهُ" (١)

Müqayisə və nəticə

Biz burada Allah və onun Rəsulunun (s) açıq-aşkar buyurduğu kəlamın qarşısında olunan ictihad və nəzərlərin on nümunəsini qeyd elədik. Həmçinin “Səhiheyn”də söylənilən hökmləri müdafiə edib xəlifəliyin fəlsəfəsini bərpa etmək! barəsində olan bəzi həqiqətləri nəql etdik. Elə bir həqiqətlər ki, İbn Əbil Hədidi Əli (ə) ilə digər :xəlifələrin tutduğu yolu bir-biri ilə müqayisə edib belə bir sözü deməyə vadar etmişdir

---

١- [١] . “Zikrul-xəbəri ən (Təbərinin tarixi”, hicrətin iyirmi doqquzuncu ilinin hadisələri; səbəbi əzli Osmani Əba Musa əl-Əşəri əni-Bəsrə);

Əli ibn Əbi Talib (ə) cəmiyyəti idarə etmək və tədbir tökmək baxımından çox ali bir səviyyədə və bütün şəxslərdən üstün bir məqamda olmuşdur. Çünki o həmin şəxs idi ki, ikinci xəlifəni çətin işlərində və döyüşlərdə yol göstərirdi. Həmçinin Osmana nəsihət edən ona məsləhət verən də o idi. Əgər Osman bu məsləhətlərə və nəsihətlərə əməl etsəydi onun qətlinə səbəb olacaq hadisələr baş verməzdi.”

İbn Əbil Hədid sonra belə deyir: “Əgər Əli ibn Əbi Talibi bir çox düşmənlərinin arasında düzgün tədbir tökməməyinə və uzaq fikirli olmamasına görə müttəhim olunduğunu görsək bu ona görədir ki, O həzrət bütün əməllərində qanuna və dini proqrama söykənmişdir. Məzhəbi əmrin əleyhinə kiçik addım belə atmazdı. Heç vaxt İslam qanunlarının çərçivəsindən xaric olmazdı. Buna görə də özü belə deyərdi: “Əgər din və qorxu Allahdan olmasaydı, mən ərəb dünyasının ən zirək kişisi olardım.” Amma başqa xəlifələr belə bir məhdudiyyətə sahib deyildilər. Əksinə məsləhət bildikləri və işlərinin inkişafını ona bağlı olduğunu görürdülərsə istər bu addım dinin qanunları ilə uyğun olsun istərsə də olmasın o an onu yerinə yetirirdilər:

وَ غَيْرُهُ مِنْ الْخُلَفَاءِ كَانَ يَعْمَلُ بِمُقْتَضِى مَا يَسْتَصلِحُهُ وَ يَسْتَوْقِفُهُ سَوَاءٌ كَانَ مُوَفِقاً لِلشَّرْعِ أَمْ لَمْ يَكُنْ "

O, bu müqayisələrdən sonra belə nəticə alır: “Şübhə yoxdur ki, ictihad üzündən və öz nəzərinə əməl edib günün məsləhətlərinə mane olan qayda-qanunlara laqeyid yanaşan kəsin dünyadakı vəziyyəti nizamlı olacaq və öz məqsədlərinə sarı daha çox hərəkət edə biləcəkdir. Amma qayda-qanunlara əməl eləyən şəxsin isə dünyadakı işləri qarma-qarışıq və zahiri baxımdan inkişafı olmayacaqdır.”

Rəsuli–Əkrəmin (s) uzaq görənliyi və əvvəlcədən xəbər verməsi

Allahın Rəsulu (s) həyatda olan zaman özündən sonra

.müsəlmanlar arasında baş verəcək cürbə-cür hadisələri qabaqcadan xəbər verərdi

Bəni Üməyyənin(۱) zalimanə hakimiyyətindən, Xəvariclərin meydana çıxması və onlrın təcavüzkar və zalım" "فِئَةٌ بَاغِيَةٌ" Əli (ə)(۲) tərəfindən öldürülməsindən, Əmmar Yasirin qrup"(۳) tərəfindən qətlə yetirilməsindən və nəhayət İslam hökmlərində baş verəcək cürbə-cür təhriflərin və bidətlərin qarşıya çıxacağından xəbər vermişdir. Həmçinin bir dəstə müsəlmanların dönüb mürtəd olmalarından və azmalarından xəbərdar etmişdir. Bu hadisələrin hamısına öz dərin təəssüfünü və narahatçılığını bildirmişdir. Bütün bu .məsələlər "Səhiheyn" kitablarında nəql olunmuşdur

Ancaq biz, burada ötən bəhslərimizə münasib olan və "Səhiheyn" kitablarında qeyd olmuş təhriflər və dindən dönmə məsələlərinin mövzusuna başlayacaq, bu iki mövzu :barədə bir neçə hədis nəql etməklə kifayət edəcəyik

Mürtəd olma və dindən dönmə

.۱

...سَعِيد بْنِ جبير، عَنْ ابْنِ عَبَّاس، عَنْ النَّبِيِّ | قَالَ: وَ إِنَّ أُنَاساً مِنْ أَصْحَابِى يُؤخَذُ بِهِمْ ذَاتُ الشِّمَالِ فَأَقُولُ: أَصْحَابِى، أَصْحَابِى فَيَقُولُ: إِنَّهُمْ لَمْ يَزَالُوا مُرْتَدِّينَ عَلَى أَعْقَابِهِمْ مُنْذُ فَارَقَتهم فَأَقُولُ كَمَا قَالَ الْعَبْدُ الصَّالِحُ، وَ كُنْتُ عَلَيْهِمْ شَهِيداً مَادمتُ فِهِيم... .

İbn Abbas Peyğəmbərdən (s) "Qiyamət günü" barəsində

Səhihi-Buxari", ۴-cü cild, "Kitabul-mənaqib", "Kitabu bədui-xəlq", ۲۵-ci bölüm," . [۱] -۱ "Əlamatun-Nübuvvəti fil-İslam", hədis: ۳۴۰۹-۳۴۱۰ və ۹-cu cild, "Kitabul-fitən", "Qəvlun-;Nəbiyyi: Həlaku umməti əla yədəyi uğəyliməti səfhaə", hədis: ۷۰۵۸

Səhihi-Buxari", ۴-cü cild, "Kitabu bədul-xəlq", ۲۵-ci bölüm, "Əlamatun-Nubuvvəti" . [۲] -۲ fil-İslam", hədis: ۳۶۱۰ və ۳۶۱۱; "Səhihi-Müslim", ۳-cü cild, "Kitabuz-zəkat", ۶۳-cü bölüm, ;"ət-Təhrizu əla qətlil-xəvaric", hədis: ۱۰۶۶

Səhihi-Buxari", ۱-ci cild, "Kitabus-səlat", ۶۳-cü bölüm, "ət-Təavunu fi bənail-" . [۳] -۳ məscidi", hədis: ۴۴۷; və "Səhihi-Müslim", ۸-ci cild, "Kitabul-fitən", ۱۸-ci bölüm, "La ;təqumus-saəti hətta yəmurrur-rəculu biqəbriir-rəculi", hədis: ۲۹۱۵-۲۹۱۶

nəql etdiyi geniş hədisdə belə deyir: “Allahın Rəsulu (s) buyurdu: Mənim səhabələrimin bir dəstəsi “Şimal”(۱) tərəfdə dayanacaqlar. Mən onları himayət etmək üçün (Allahın dərgahına) üz tutub deyəcəm ki, bunlar mənim səhabələrimdir, bunlar mənim səhabələrimdir. Mənim cavabımda deyər: Sən onların arasından getdikdən sonra .onlar da öz cahiliyyət dövrlərinə qayıtdılar

Bu vaxt Allahın Rəsulu (s) buyurdu: Belə olduqda mən də saleh bəndənin (Həzrət İsa (ə)) söylədiyi kimi deyirəm: Nə qədər ki, onların arasında idim, onların əməllərinin şahidi olub görürdüm. Məni onlardan aldığına görə sən həmişə onlarla idin və bütün şeyləri görürdün. Əgər onlara əzab etsən onlar sənin bəndələrindir. Əgər onları (bağışlasan sən qüdrət və hikmət sahibi olan Allahsan.”(۲

إِنَّکَ“ cümləsinin yerinə ”إِنَّهُمْ لَمْ يَزَالُوا مُرْتَدِّينَ“ Səhihi-Müslim” kitabında bu hədisin mətnində“ cümləsi yazılmışdır. Yəni “Səndən sonra onların nə hadisələr və ”لاَ تَدْرِى مَا أَحدثُوا بَعْدَکَ ”dəyişikliklər törətdiklərini bilmirsən

Buxari və Müslimün nəql etdikləri başqa bir hədisdə

Vaqiə” surəsinin ۴۱-۴۲-۴۳ və ۴۴ –cü ayələrində şimal səhabələrinə şiddətli əzab“ . [۱] -۱ Sol“ (وَأَصْحَابُ الشِّمَالِ مَا أَصْحَابُ الشِّمَالِ فِى سَمُوم وَحَمِيم وَظِلٍّ مِّن يَحْمُوم لَّا بَارِدٍ وَلَا كَرِيم) :vədəsi verilmişdir tərəf sahibləri! (Əməl dəftərləri sol əllərinə verilənlər!) Kimdir o sol tərəf sahibləri? (Onlar) səmum yeli (qızmar atəş) və qaynar su içində, Qapqara duman kölgəsində ”.olacaqlar! (O kölgə başqa kölgələrdən fərqli olaraq) nə sərin, nə də xoşagələndir
Səhihi-Buxari”, ۴-cü cild, “Kitabul-ənbiya”, “Vəttəxəzəl-lahu İbrahimə xəlila”“ . [۲] -۲ bölümü, hədis: ۳۱۷۱; “Səhihi-Buxari”. ۴-cü cild, “Kitabul-ənbiya”, “Vəz-kur fil-kitabi Məryəm”, hədis: ۳۲۶۳; və ۶-cı cild, “Maidə” surəsinin təfsiri, hədis: ۴۳۴۹, ۴۳۵۰; “Ənbiya” surəsinin təfsiri, ۸-ci cild, hədis: ۴۴۶۳; “Kitabur-riqaq”, “Kəyfəl-həşr” bölümü, hədis: ۶۶۶۱; “Səhihi-Müslim”, ۸-ci cild, “Kitabul-cənnəti və sifətu nəimuha”, “Fənaud-dunya və ;bəyanul-həşr” bölümü, hədis: ۲۸۶۰

əshabi” kəlməsinin yerinə onun kiçildilmiş mənası “Usəyhabi” kəlməsi gəlmişdir. Bu da“ Peyğəmbərin (s) onlara nəhayət dərəcədə məhəbbət və rəhmətinin olmasına yaxud .da onları nəhayət dərəcədə təhqir etməsini göstərir

.٢

...أبْنِ أَبِی مُلَیْکَهَ قَالَ: عَنْ أَسْمَاءَ بِنْتِ أَبِی بَکْرٍ قَالَتْ: قَالَ النَّبِیُّ|: إِنِّی عَلَی الْحَوْضِ حَتَّی أَنْظَرَ مَنْ یَردُ عَلَیَّ مِنْکُمْ. وَ سَیُؤخَذُ نَاسٌ دُونِی فَأَقُولُ: یَا رَبِّ مِنِّی وَ مِنْ أُمَّتِی. فیُقَالُ: هَلْ شَعَرْتَ مَا عَمِلُوا بَعْدَکَ، وَاللهِ مَا بَرَحُوا یَرْجِعُونَ عَلَی أَعْقَابِهِمْ.

فَکَانَ ابْنُ أَبِی مُلَیْکه یَقُولُ: أَللَّهُمَّ انَّا نَعُوذُ بشکَ أَنْ تَرْجَعَ عَلَی أَعْقَابِنَا أَوْ نفتِنُ فِی دِینِنَا.

İbn Əbi Məlikə Əbu Bəkrin qızı Əsmadan nəql edir ki, Allahın Rəsulu (s) buyurdu: “Mən hövzun kənarında olacam ki sizlərdən mənim yanıma gələnlərə tamaşa edim. Ancaq şübhəsiz ki onların bir çoxunu tutacaqlar (mənim yanıma gəlməyə qoymayacaqlar). Allahın Rəsulu buyurdu: Bu vaxt mən deyəcəm: İlahi! Bunlar mənim xüsusi :səhabələrim və tərfdarlarımdırlar

فَأَقُولُ: یَا رَبِّ مِنِّی وَ مِنْ أُمَّتِی.

Mənim cavabımda deyiləcək: Səndən sonra onların nə etdiklərini bilirsənmi? Allah and (olsun öz atalarının dininə qayıtmışlar.”(١

İbn Məlikə bu hədisin nəqlindən sonra deyir: “İlahi! sənə öz ata babalarımızın dininə ”.qayıtmaqdan və öz dinizmizdə sınağa çəkilməyimizdən pənah aparıram

.Bu hədisi Buxari qısa fərqlə iki yerdə nəql etmişdir

.٣

...عَنْ عَطَاءِ بْنِ سَیَّار، عَنْ أَبِی هُرَیْرَه، عَنْ النَّبِیِّ| قَالَ: "بینَا أَنَا نَائِمٌ إِذاً زمرةٌ حَتَّی إِذَا عَرَفْتُهُمْ خَرَجَ رَجُلٌ مِنْ بَیْنِی وَ بَیْنَهُمْ فَقَالَ: هَلُمَّ فَقُلْتُ: أَیْنَ؟ قَالَ: إِلَی النَّارِ وَاللهِ، قُلْتُ: وَ مَا شَأْنُهُمْ؟ قَالَ: إِنَّهُمْ إِرْتَدُّوا بَعْدَکَ عَلَی أَدْبَارِهِمْ القهقریّ. ثُمَّ إِذَا زُمرةٌ حَتَّی إِذَا عَرَفْتُهُمْ خَرَجَ

Səhihi-Buxari”, ۸-ci cild, “Kitabur-riqaq”, “Fil-hövz” bölümü, “Axırıncı hədis”,“ . [١] -١

hədis: ۶۲۲۰; və ۹-cu cild, “Kitabul-fitən”, ۱-ci bölüm, hədis: ۶۶۱۴; “Səhihi-Müslim”, ۷-ci cild, “Kitabul-fəzail”, “İsbatu hovzi nəbiyyuna”, hədis: ۲۲۹۳-۲۲۹۵;

رَجُلٌ مِنْ بَيْنِ وَ بَيْنَهُمْ فَقَالَ هَلُمَّ قُلْتُ: أَيْنَ؟ قَالَ: إِلَى النَّارِ وَاللهِ، قُلْتُ: وَ مَا شَأْنُهُمْ؟ قَالَ: إِنَّهُمْ اِرْتَدُّوا بَعْدَكَ عَلَى أَدْبَارِهِمِ القَهقرىّ.

Əbu Hüreyrə deyir: "Allahın Rəsulu (s) buyurdu: Yuxuda gördüm ki, bi çoxunu gətirdilər. Onları tanıdığım zaman bir kişi gəldi və onlara xitab edərək dedi: Gəlin! Soruşdum: Hara aparırsan? Dedi: Allaha and olsun ki odun içinə. Dedim: Nə günah ediblər ki? Dedi: .Onlar səndən sonra dindən çıxıb mürtəd oldular

Allahın Rəsulu (s) buyurdu: Sonra başqa bir dəstəni gördüm ki gətirdilər. Mən onları da tanıdım. Yenə bir kişi gəldi və onlara xitab edərək dedi: Gəlin! Soruşdum: Hara gəlsinlər? Dedi: Allaha and olsun ki odun içinə (cəhənnəmə) getməlidirlər. Dedim: (Günahları nədir? Dedi: Səndən sonra arxaya qayıdıb mürtəd oldular."(١)

.۴

عَنْ ابنِ شهَابِ، عَنْ ابْنِ الْمُسَيِّبِ أضنَّهُ كَانَ يُحَدِّثُ عَنْ أَصْحابِ النَّبِيِّ | أَنَّ النَّبِيَّ | قَالَ: يَرُدُّ عَلَيَّ الْحَوْضَ رِجالٌ مِنْ أَصْحَابِى فَيَحِلُّونَ عَنْهُ، فَأَقُولُ: يا رَبِّ أَصْحَابِى فَيَحِلُّونَ عَنْه، فَأَقُولُ: يَا رَبِّ أَصْحَابِى، فَيَقُولُ: إِنَّكَ لاَ عِلْمَ لَكَ بِمَا أَحْدَثُوا بَعْدَكَ إِنَّهُمْ اِرْتُدُّوا عَلَى أَدْبَارِهِمْ الْقَهقرِىِّ.

Yenə də Buxari Musəyyibin oğlundan nəql edir ki; Peyğəmbərin (s) səhabələrindən bir çoxu nəql etmişlər ki, Həzrət Rəsuli-Əkrəm (s) buyurdu: "Mənim səhabələrimdən bir çoxu hovzun kənarında mənim yanıma gəlmək istəyərlər. Ancaq onların qarşısı alınar. Mən soruşaram: İlahi, bunlar mənim səhabələrim və köməkçilərimdir. Mənim cavabımda deyilər: Səndən sonra onların tutduqları əməllərdən xəbərin yoxdur. Buna görə də bunlar səndən sonra öz dinlərini atmış və

;Səhihi-Buxari", ۸-ci cild, "Kitabur-riqaq", "Fil-hovz" bölümü, hədis: ۶۲۱۵" . [۱]-۱

(ata-babalarının dininə sitayiş etmişlər."(۱)

Dində təhrif və bidət

.۱

...أَبُو حَازِم، سَهْلِ بْنِ سَعْد قَالَ: قَالَ النَّبِیُّ | إِنِّی فَرَطُکُمْ عَلَی الْحَوْضِ، مَنْ مَرَّ عَلَیَّ شَرِبَ، وَ مَنْ شَرِبَ لَمْ يَظْمَأْ أَبَداً، لَيَرِدَنَّ عَلَی أَقْوَام أَعْرَفُهُمْ وَ يعرَفُونِی ثُمَّ يُحَال بَيْنِی وَ بَيْنَهُمْ. قَالَ أَبُو حَازِم:فَسَمِعْنِی النُّعْمَانُ بْنُ أَبِی عَيَاش، فَقَالَ: هَكَذَا سَمِعْتَ مِنْ سَهلِ، فَقُلْتُ: نَعَمْ، قَالَ: أَشْهَدُ عَلَی أَبِی سَعِيدِ الْخُدْرِی لسَمِعْتهُ وَ هُوَ يَزِيدُ فِيهَا، فَأَقُولُ: إِنَّهُمْ مِنِّی فَيُقَالُ: إِنَّكَ لَا تَدْرِی مَا أَحْدَثُوا بَعْدَكَ، فَأَقُولُ: سُحقاً لمن غَيَّرَ بَعْدِی.

Əbu Hazim Səhl ibn Səiddən nəql edir ki; Allahın Rəsulu (s) buyurdu: "Mən Kövsər hovuzunda sizin hamınızdan əvvəl olacam. Həmin gün (Məhşər günü) hər kəs mənim yanıma gəlsə Kövsər suyundan içəcək. Hər kim Kövsər suyundan içərsə heç vaxt ".susuzluğu görməyəcək

Sonra Allahıın Rəsulu (s) belə buyurdu: "Ancaq Allaha and olsun bir çoxları mənim yanıma gələcəklər ki onları mən yaxşı tanıyıram. Onlar da məni tanıyırlar. Sonra mənimlə onların arasında ayrılıq düşəcək. (Məni görməkdən və Kövsər suyunu ".(içməkdən məhrum olacaqlar

Hədisi nəql edən Əbu Hazim sonra belə deyir: "Bu hədisi məndən eşidən Nöman ibn Əyaş soruşdu: Nəql etdiyin bu hədisi Səhl ibn Səddən özün eşitdinmi? Nöman deyir: ".Dedim bəli, özüm ondan sənə nəql etdiyim kimi belə eşitdim

İbn Əyaş bu vaxt dedi: "Mən Allahı şahid tuturam ki, bu hədisi Əbu Səid Xedridən eşitdim. Lakin bu hədisin axırında Peyğəmbərdən (s) bu cümləni nəql etdi ki O həzrət belə buyurdu: Mən bu vaxt deyərəm: Allahın rəhmətindən uzaq

---

۱-[۱] . "Səhihi-Buxari", ۸-ci cild, "Kitabur۰riqaq", "Fil-hövz" bölümü, hədis: ۶۲۱۳, ۶۲۱۴;

olsun, Allahın rəhmətindən uzaq olsun, o kəs ki məndən sonra mənim dinimdə (dəyişiklik edib."(١)

"لِمَنْ غَيَّرَ بَعْدِى" Bu hədisi Buxari və Müslim öz kitablarında nəql etmişlər. İntəhası Müslim .cümləsini yazmışdır "لِمَن بَدّلَ بَعْدِى" cümləsinin yerinə

Qəstəlani bu hədisin şərhində deyir: Bu hədisdə qeyd olunan "təğyir"dən məqsəd dində dəyişiklik salmaq və əvəz etməkdir. Çünki bu nifrin və Allahın rəhmətindən uzaq etməyi tələb etmək əməli dəyişmək və günah etmək mövzusu ilə deyil, əksinə dində dəyişiklik salmaq və mürtəd olmaq mövzusu ilə uyğundur. Buna görə də günah edənlər şəfaət vasitəsi ilə Allahın dərin rəhmət və lütfünə yiyələnəcəklər. Mürtəd (olanlar isə Allahın rəhmətindən uzaq olacaqlar.(٢)

Müslim öz sənədləri ilə nəql edir ki; "Bir gün Allahın Rəsulu (s) qəbristanlığa gəldi və .٢ :qəbristanlq əhlinə salam verdi

"السَّلاَمُ عَلَيْكُمْ دَارُ قَوْمٍ مُؤْمِنِينَ"

.və söylədi ki, İnşəallah biz də sizin yanınıza gələcəyik

Sonra buyurdu: "Qardaşlarımla görüşməyi çox istəyirəm. Səhabələr soruşdular: Ya Rəsulullah! Biz sizin qardaşlarınız deyilik? Buyurdu: Xeyr! Siz mənim səhabələrim və köməkçilərimsiniz. Ancaq bizim qardaşlarımız hələ gəlməyiblər. Soruşdular: Ya ?Rəsulullah hələ gəlməyən öz ümmətini və ardıcıllarını necə tanıyırsınız

Buyurdu: Əgər bir kişi alnı ağ bir dəvənin sahibi olarsa, qara rəngli dəvələrin arasında ?öz dəvəsini tanıya bilməyəcəkmi

---

Səhihi-Buxari", ٨-ci cild, "Kitabur-riqaq", "Fil-hövz" bölümü, hədis: ٦٢١٢ və ٩-cu" . [١] -١ cild, "Kitabul-fitən", ١-ci bölüm, hədis: ٢٤٦-٢٤٩; Səhihi-Müslim", ٧-ci cild, "Kitabul-fəzail", ;"İsbatu hövzi nəbiyyina", hədis ٢٢٩٠

;İrşadus-sari", ٩-cu cild, ١-ci bölüm, səh. ٣٤٠" . [٢] -٢

.Dedilər: Niyə ya Rəsuləllah əlbəttə ki taniyacaqdır

Buyurdu: Qiyamət günü bizim qardaşlarımız dəstəmazın təsirindən üzləri ağ və nurani ".surətdə gələrlər. Mən isə Kövsər hovuzunda onlardan əvvəl olacam

:Bu vaxt Allahın Rəsulu belə dedi

...ألاَ لَيُذَادُنَّ رِجَالٌ عَنْ حَوضِ كَمَا يُذَادُ الْبَعِيرُ الضَّالُّ، أنَادِيهِمْ أَلاَ هَلمَّ فَيُقَالُ: إِنَّهُمْ قَدْ بَدَّلُوا بَعْدَكَ، فَأَقُولُ: سحقاً سحقاً.

Agah olun bir çoxlarını mənim hovuzumun kənarına gəlməyə qoymayacaqlar və" başqalarının itmiş dəvəsini sürüyə girməyə qoymayanlar kimi onlara yol verilməyəcək. Sonra Rəsuli-Əkrəm (s) buyurdu: Mən onları çağıracam ki gəlin! Mənə cavab verəcəklər: Onlar səndən sonra dəyişikliklər ediblər. Bu vaxt mən deyəcəm: Allahın (rəhmətindən uzaq olsun, Allahın rəhmətindən uzaq olsun!"(١)

.٣

...عَنْ عَبْدُاللهِ بْنِ رَافِع مولا أُمُّ سَلَمَه زَوْجِ النَّبِيِّ | أَنَّهَا قَالَتْ: كُنْتُ أَسْمَعُ النَّاسَ يَذْكُرُونَ الْحَوْضَ وَ لَمْ أَسْمَعَ ذَلِكَ مِنْ رَسُولِ اللهِ |، فَلَمَّا كَانَ يَوْماً مِنْ ذَلِكَ وَ الْجَارِيَه تُمَشِّطُنِي فَسَمِعْتُ رَسُولَ اللهِ | يَقُولُ: أَيُّهَاالنَّاس إِنِّي لَكُمْ فرَطٌ عَلَى الْحَوْضِ فَإِيَّايَ لاَ يَأْتِينَ أَحَدُكُمْ فَيُذَبُّ الْبَعِيرُ الضالُّ، فَأَقُولُ: فِيمَ هَذَا؟ فَيُقَالُ: إِنَّكَ لاَ تَدرِي مَا أَحْدَثُوا بَعْدَكَ فَأَقُولُ: سَحقاً.

Müslim yenə Peyğəmbərin (s) xanımı Ümmü Sələmədən nəql edir ki; "Mən Kövsər hovuzu barədə camaatdan bir neçə məsələ eşitmişəm. Ancaq bu barədə Peyğəmbərin (s) özündən bir şey eşitməmişəm. Təsadüfən günlərin birində Allahın Rəsulundan (s) eşitdim ki belə buyurdu: "Əyyuhən-nas! Mən, Kövsər hovuzunun kənarəna sizdən qabaq gedəcəm. "فَإِيَّايَ لاَ يَأْتِينَ أَحَدُكُمْ فَيُذَبُّ الْبَعِيرُ الضالُّ"

səh:٦٠٠

Səhihi-Müslim", ١-ci cild, "Kitabut-Təharət", "İstihbabu italətil-qurət vət-təhcilu" . [١] -١ ;fil-vuzu" bölümü, hədis: ٢٤٦, ٢٤٧, ٢٤٨ və ٢٤٩

Məbada sizlərdən mənim yanıma gələnləri sürüdən azmış dəvəni uzaqlaşdıran kimi yanımdan uzaqlaşdıralar. Sonra mən deyərəm: Nəyə görə belə oldu? Cavab verərlər: Sən bilmirsən. Bunlar səndən sonra nəqədər bidətlr qoyublar. Bu vaxt deyərəm: (Allahın rəhmətindən uzaq olsunlar!”(١)

Həqiqəti etiraf etmək

Bu, “Təhrif və mürtəd olma” barəsində “Səhiheyn” kitabıarında Peyğəmbərdən (s) nəlq olunmuş rəvayət toplusundan seçilmiş bir neçə hədisin nümunəsi idi. Bu hədislərin mətni və “əshabi”, “usəyhabi”, “minni” kəlmələri açıq şəkildə bunu bildirir ki, bu şəxslər Peyğəmbərdən (s) ayrı və uzaq deyildilər. Əksinə onlar Peyğəmbərə nəhayət .dərəcədə yaxın olan şəxslər olub onun xüsusi səhabələrindən sayılırdılar

Peyğəmbərin (s) bəzi səhabələri də həssas vaxtlarda bu növ həqiqətlərə etiraf etmiş və bu sirrin üzərindən pərdəni götürmüşlər. Burada biz “Səhihi-Buxari” kitabında :gəlmiş həmin etiraflardan ikisini nümunə olaraq qeyd etməklə kifayət edirik

١. Buxari sənədləri ilə Ə`la ibn Musəyyibdən və o da atasından belə nəql edir ki: “Mən Bəra` ibn Azibi gördüm və ona səhabə olmasına görə təbrik söylədim. Onun ağac altında Peyğəmbərə (s) beyət əlini verməsilə bu məqama çatmasına qibtə etdiyimi açıqladım. Peyğəmbərə (s) beyət edib ona yaxınlaşmağın bir fərəh və iftixar olduğunu .bildirdim

Bəra` ibn Azib mənim cavabımda belə dedi: Qardaşım oğlu söylədiklərin fəxr olunulası bir şeydir. Lakin nə edim ki bunların hamısını çox ucuz əldən verdik. Çünki bizim :Peyğəmbərdən sonra nə hadisələr törətdiyimizi sən bilmirsən

---

١- [١] . “Səhihi-Müslim”, ٧-ci cild, “Kitabul-fəzail”, “İsbatu hövzi Nəbiyyina (s) ”, hədis: ٢٢٩٥;

“فَقَالَ: يَابْنَ أَخِى إِنَّكَ لاَ تَدْرِى مَا أَحْدَثْنَا بَعْدَهُ” (۱)

:Buxari yenə sənədləri ilə Musəvvir ibn Muxrimədən belə nəql edir .۲

Elə ki Ömər yaralandı və öləcəyi məlum oldu, qorxudan narahat olmağa başladı. İbn Abbas ona təsəlli və ürək-dirək verərək dedi: Əgər bir hadisə baş versə və bu yara sənin ölümünə səbəb olarsa narahatçılığa dəyməz. Çünki sən həyatında Peyğəmbərin səhabəsi olmaq iftixarına nail olmusan və o səndən razi idi. Əbu Bəkrlə də çox gözəl yoldaşlıq etmisən və o da səndən razı qalmışdır. Ondan sonra müsəlmanlarla da elə .rəftar etmisən ki həqiqətən onlar da səndən razı qalmışlar

Ömər İbn Abbasın cavabında dedi: “Mənim Peyğəmbərin (s) səhabəsi və Əbu Bəkrlə .yoldaşlığım barəsində söylədiklərin, Allahın mənə verdiyi ən böyük neməti olmuşdur

وَ أَمَّا مَا تَرَاهُ مِنْ جَزَعِى، فَهُوَ مِنْ أَجْلِكَ وَ أَجْلِ أَصْحَابِكَ، وَاللهِ، لَوْ أَنَّ لِى طِلاَعُ الأَرْضِ ذَهَباً لأَفْتَدَيْتُ بِهِ مِنْ عَذَابِ اللهِ عَزَّ وَ جَلَّ قَبْلَ أَنْ أَرَاهُ".

Amma məndə gördüyün bu zarıltı, narahatçılıq və qorxular isə sənin və nəslinin tərəfindəndir. Allaha and olsun, arzu edirəm ki bütün bu yer kürrəsi qızıla dönərdi və (mən onların hamısını Allahın əzabını görməzdən qabaq onun yolunda verərdim.” (۲

Səhihi-Buxari”, ۵-ci cild, “Kitabul-məğazi”, “Qəzvətul-Hudeybiyyə”, hədis: ۳۹۹۳;“ . [۱] -۱ Bərra` ibn Azib tanınmış səhabələrdən biri olub Uhud döyüşündə və başqa ۱۳-۱۴ döyüşlərdə Peyğəmbərin kənarında döyüşənlərdən idi. Bədr döyüşündə də iştirak etmişdir. Lakin yaşının azlığına görə Peyğəmbər onu Mədinəyə qaytardı. Brra`, hicrətin ۷۲-ci ilində vəfat etmişdir. (“Udul-ğabə” kitabına müraciət et. ۱-ci cild, “əl-Bau ər-Ra; “əl-Bərra` ibn Azib ibnil-Haris”, səh. ۱۷۱, və “Təhzibut-təhzib”, ۱-ci ciild, nömrə ;۴۷۸۵ - əl-Bədaus-sünnə”) səh. ۴۲۵

Səhihi-Buxari”, ۵-ci cild, “Mənaqibu Ömər” bölümü, (Kitabu fəzailus-səhabə”,“ . [۲] -۲ .(;hədis: ۳۴۸۹

:Bu kitabın sənədləri haqqında izah

Səhihi-Buxari

Kamil bir nüsxədir ki, səhvləri düzəldilib tənzimlənmişdir. Misirdə çap olunmuşdur. Bu .١ nüsxə ikinci Sultan Əbdul Həmidin göstərişi ilə hicrətin ١٣١٢-ci ilində Misirin ١۶ nəfər tanınmış alimlərindən ibarət olan bir heyətin nəzarəti altında yazılmışdır. O alimlərdən Əl-Əzhər institutunun rəisi Şeyx Səlim Beşri və o institutun başqa alimlərinin adını çəkmək olar. Bu işdə əhli-sünnənin dörd məzhəbinin alimlərinin rolu da az olmamışdır. Yuxarıda adı gedən alimlərin zəhməti sayəsində səhvləri düzəldilib çap edilərək camaatın istifadəsinə verilmişdir. Bu kitabın çapında əsil və qədimi bir əlyazma kitabdan istifadə edilmişdir ki, o kitab İstambulun Astana kitabxanasında mövcuddur. Adı gedən əl yazma başqa əl yazma nüsxələrlə müqayisə edilmişdir. Bu kitab çap olunduqdan sonra alim və qazilərdən olan yeddi nəfər tərəfindən diqqətlə mütaliə olunmuş, tənzimlənmiş və həmin alimlər tərəfindən təsdiqlənmişdir. Biz də “Buxari və .Müslimün səhihlərinə bir baxış” kitabımızda adı yuxarıda gedən kitaba istinad etmişik

Mötəbər bir nüsxədir ki, hicrətin ١٢٧٢-ci ilində “Hindistanda” çap olunmuşdur. O .٢ zamanlarda kitabın arxasında o kitabın səhvlərini göstərən səhifə olmurdu. Bu iş axır .zamanlarda kitablarda qeyd olunmağa başlamışdır

Üçüncü nüsxə elə bir nüsxədir ki, Misirin Şəəb çapxanasında Yuniyyə nüsxəsində .٣ .çap olunmuşdur. Təəssüflər olsun ki, bu nüsxədə çapın tarixi qeyd olunmamışdır

SəHIHI-MüSLIM

Gözəl bir nüsxədir ki, əlyazma və çap olunmuş nüsxələrlə tutuşdurulduqdan sonra .١ Məhəmməd Şükrinin haşiyə və vərəq altı yazıları ilə hicrətin ١٣٣۴-cü ilində səkkiz cüzdə və iki qalın cilddə Misirdə çap olunmuşdur. Biz də bu kitabımızda o

.nüsxəyə əsaslanmışıq

İkinci nüsxə yenə də maraqlı bir nüsxədir. Məhəmməd Fuad Əbdul Baqinin təhqiqi .۲ və Şəri Nəvəvinin haşiyə və vərəq altı yazısı ilə ۱۳۷۴-cü ildə beş cilddə çap olunmuşdur. Adı çəkilən bütün nüsxələr bizim yanımızda mövcuddur. Bu kitabın təlifi zamanı o .nüsxələrin hamısından geniş istifadə etmişik

وَالْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ، وَ صَلَّى اللهُ عَلَى مُحَمَّدٍ وَ أَهْلِ بَيْتِهِ الَّذِينَ بِهِمْ تَمَّت الْكَلِمَهُ، وَ عَظمَتِ النِّعْمَهُ، أَللَّهُمَّ احْشُرْنَا فِى زُمْرَهِ الْمُتَمَسِّكِينَ بِهِم، وَاللائِذِينَ بِفِنَائِهِمْ، آمِينَ رَبَّ الْعَالَمِينَ

;Cümə axşamı Rəbius-sani ayının ۲۵-i, ۱۳۹۲-ci hicri qəməri

Xordad ayının ۱۸-i ۱۳۵۱-ci şəmsi ili Gecənin yarısı

Qaynaqlar

"Qurani-Kərim" .۱

"Nəhcül-bəlağə" .۲

"Tövrat" .۳

"İncil "Məta .۴

"İncil "Yuhənna .۵

"İncil "Luqa .۶

Səhihi-Buxari" Məhəmməd ibn İsmail Buxari ۲۵۶ h.q" .۷

Səhihi-Müslim" Müslim ibn Həccac Nişapuri ۲۷۳ h.q" .۸

Sunəni-ibn Macə" Məhəmməd ibn Yəzid ibn Macə ۲۷۳ h.q" .۹

Sunəni-Əbi Davud" Süleyman ibn Əbi Davud Səcistani ۲۷۵ h.q" .۱۰

Sunəni-Termizi" Məhəmməd ibn İsa Termizi ۲۷۹ h.q" .۱۱

Sunəni-Darəmi" Əbu Məhəmməd Əbdulah Darəmi ۲۵۵ h.q" .۱۲

Sunəni-Nəsai" Əhməd ibn Şüeyb Nəsai ۲۷۹ h.q" .۱۳

Kənzul-ummal" Əlauddin Əli Muttəqi Hindi ۹۷۵ h.q" .۱۴

Musnəd-Əhməd ibn Hənbəl" Əhməd ibn Hənbəl Şəybani. ۲۶۱ h.q" .۱۵

Müstədrəkus-səhiheyn" Hakim Nişapuri ۲۰۴ h.q" .۱۶

Mən la yəhzuruhul-fəqih" Əbu Cəfər Məhəmməd ibn Əli ibn Babaveyh Səduq ۳۸۱" .۱۷
h.q

Muvəttəi-Malik" Əbu-Əbdillah Malik ibn Ənəs ۱۶۹ h.q" .۱۸

Əbəbul mufrəd" Məhəmməd ibn İsmail Buxari ۲۵۶ h.q" .۱۹

Biharul-ənvar" Əllamə Məclisi ۱۱۱ h.q" .۲۰

Cameu bəyanil-elmi və fəzlihi" Məhəmməd Həbibullahil məşhur Mayabi Maliki" .۲۱

Fəthul-mun`im" Mayabi Maliki ۱۳۶۳ h.q" .۲۲

Rovzətul-kafi" Siqətul-islam Kuleyni ۳۲۹ h.q" .۲۳

səh:۶۰۵

Kifayətut-talib” Gənci Şafei ۶۵۸ h.q“ .۱

Zəxairul uqəba” Muhibbud-din Təbəri ۶۹۴ h.q“ .۲

İrşadus-sari” Səhihi-Buxarinin şərhi Qəstəlani ۸۵۵ h.q“ .۳

”Fəthul-bari“ .۴

Səhihi-Buxarinin şərhi” İbn Həcər Əsqəlani Şafei ۸۵۲ h.q“ .۵

Səhihi-Müslimün şərhi” Yəhya ibn Şərafuddin Nəvəvi ۶۷۶ h.q“ .۶

Əhkamul-Quran” Əbu Bəkr Əhməd Cəsas Bağdadi ۳۷۰ h.q“ .۷

İbn Kəsirin təfsiri” İbn Kəsir Dəməşqi ۷۷۴ h.q“ .۸

Borhan” təfsiri Seyyid Haşim Bəhrani ۱۱۰۹ h.q“ .۹

Bəğəvinin təfsiri” Hüseyn ibn Məsud Bəğəvi Şafei ۵۱۰ h.q“ .۱۰

Tibyan təfsiri” Şeyx Əbu Cəfər Tusi ۴۶۰ h.q“ .۱۱

Dürrul-mənsur” təfsiri Cəlaləddin Süyuti ۹۱۰ h.q“ .۱۲

Xazenin təfsiri” Əlaud-din Əli ibn Məhəmməd Bağdadi ۷۴۱ h.q“ .۱۳

Ruhul-məani” təfsiri Məhmud ibn Əbdullah Bağdadi Alusi Şafei ۱۲۷۰ h.q“ .۱۴

Kəşşaf təfsiri” Carullah Zəməxşəri ۵۳۸ h.q“ .۱۵

Qurtibi təfsiri” Yəhya ibn Sədun Əndulisi Qertbi۵۶۷ h.q“ .۱۶

Kəbir təfsiri” İmam Fəxr Razi Şafei ۶۰۶ h.q“ .۱۷

Təbərinin təfsiri” Əbu Cəfər Məhəmməd ibn Cərir Təbəri ۳۱۰ h.q“ .۱۸

Məcməul-bəyan” təfsiri Əminul-islam Təbərsi ۵۴۸ h.q“ .۱۹

Əl-mizan” təfsiri Əllamə Təbətəbai“ .۲۰

Əl-mənar” təfsiri Şeyx Məhəmməd Əbduh Misri ۱۳۲۳ h.q“ .۲۱

Nurus-səqəleyn” təfsiri Əlmuhəddis Əş-şeyx Əbdu Əli Əl-huveyzi ۱۱۱۲ h.q“ .۲۲

İtqan” Cəlaluddin Əbdur-rəhman Süyuti Şafei ۹۱۰ h.q“ .۲۳

İbn Xəlləkanın tarixi” Əhməd ibn Məhəmməd ibn Xəlləkan Şafei ۶۸۱ h.q“ .۲۴

Vəfəyətul əyan” ۳۱۴ h.q“ .۲۵

Əsəmin tarixi” Əbu Məhəmməd ibn Əsəm Kufi“ .۲۶

Əl-imamətu vəs-siyasə” Əbdullah ibn Müslim ibn Quteybə ۲۷۶ h.q“ .۲۷

Tarixul xuləfa” Hafiz Cəlaləddin Süyuti Şafei ۹۱۰ h.q“ .۲۸

Tarixul xəmis” Huseyn ibn Məhəmməd Maliki ۹۸۲ h.q“ .۲۹

Tarixi-Təbəri” Əbu Cəfər Məhəmməd ibn Cərir Təbəri ۳۱۰ h.q“ .۳۰

Tarixi-Yəqubi” Əhməd ibn Əbi Yəqub ibn Vazih ۲۸۴ h.q“ .۳۱

İbn Hişamın sirəsi” Əbu Məhəmməd Əbdul Məlik ibn Hişam ۲۱۸ h.q“ .۳۲

.Təthirul-cənan” Şəhabuddin Əhməd ibn Məhəmməd ibn Əli ibn Həcər ۹۷۳ h.q“ .۳۳

Səvaiqu muhriqə” Şəhabud-din Əlheysəmi Məkki ۹۷۳ h.q“ .۳۴

Murəvicuz-zəhəb” Əbul Həsən Əli ibnil Huseyn ۳۳۳ h.q“ .۳۵

Əvailul məqlat” Əl-imamuş-Şeyxul Mufid ۴۱۳ h.q“ .۳۶

Təbəqat İbn Səd” Məhəmməd Bəsri“ .۳۷

səh:۶۰۶

۱. Katibi Vaqedi ۲۳۰ h.q

۲. “Nəhcül-bəlağənin şərhi” İbn Əbil Hədid ۵۸۶ h.q

۳. “Təcridin şərhi” Mövla Əlaud-din Əli ibn Məhəmməd Quşçi ۸۷۹ h.q

۴. “Rağibin müfrədatı” Əbul Qasim Hüseyn ibn Məhəmməd Rağib İsfəhani ۵۶۵ h.q

۵. İbn Əsirin kamili İbn Əsir Əzalud-din Əbul Həsən Əli ibn Məhəmməd ۶۳۰ h.q

۶. “İstiab” Əlhafiz ibn Əbdul-bir Əndulisi ۴۶۳ h .q

۷. “Təzkiratul hifaz” Məhəmməd ibn Əhməd Zəhəbi Dəməşqi Şafei ۷۴۸ h.q

۸. Dirasatu fil Kafi vəs-səhihi Buxari Haşim Həsəni

۹. “Əzvau ələs-sunnətil Məhəmmədiyyə” Şeyx Məhmud Əbu Ryə Misri

۱۰. “Əbu Hüreyrə” Mərhum Əllamə Seyyid Şərafuddin ۱۳۷۷ h.q

۱۱. “Təhzibut-təhzib” İbn Həcər Əhməd ibn Əli Əsqəlani ۸۵۲ h.q

۱۲. “Miləl vəl Nihəl” Məhəmməd ibn Əbdul Kərim Şəhristani ۵۴۸ h.q

۱۳. “İctihad” Doktor Musəvi Əfqani

۱۴. “Əl-imam Məhəmməd ibn İdris Şafei” ۲۰۴ h.q

۱۵. “Əl-İmam Malik” Əbu Zöhrə

۱۶. “Əl-imamuş-Şafei” Əbu Zöhrə

۱۷. “Əl-fətaval-hədisə” İbn Həcər Məkki ۹۷۳ h.q

۱۸. “Əl-bidayətu vən-nəhayə” Məhəmməd ibn Zəhəbi Dəməşqi Şafei ۷۶۸ h.q

۱۹. “Əl-kuni vəl əlqab” Muhəqqiq mərhum Şeyx Abbasi Qumi ۱۳۵۹ h.q

səh:۶۰۷

Katibi Vaqedi ۲۳۰ h.q .۱

Nəhcül-bəlağənin şərhi” İbn Əbil Hədid ۵۸۶ h.q“ .۲

Təcridin şərhi” Mövla Əlaud-din Əli ibn Məhəmməd Quşçi ۸۷۹ h.q“ .۳

Rağibin müfrədatı” Əbul Qasim Hüseyn ibn Məhəmməd Rağib İsfəhani ۵۶۵ h.q“ .۴

İbn Əsirin kamili İbn Əsir Əzalud-din Əbul Həsən Əli ibn Məhəmməd ۶۳۰ h.q .۵

İstiab” Əlhafiz ibn Əbdul-bir Əndulisi ۴۶۳ h .q“ .۶

Təzkiratul hifaz” Məhəmməd ibn Əhməd Zəhəbi Dəməşqi Şafei ۷۴۸ h.q“ .۷

Dirasatu fil Kafi vəs-səhihi Buxari Haşim Həsəni .۸

Əzvau ələs-sunnətil Məhəmmədiyyə” Şeyx Məhmud Əbu Ryə Misri“ .۹

Əbu Hüreyrə” Mərhum Əllamə Seyyid Şərafuddin ۱۳۷۷ h.q“ .۱۰

Təhzibut-təhzib” İbn Həcər Əhməd ibn Əli Əsqəlani ۸۵۲ h.q“ .۱۱

Miləl vəl Nihəl” Məhəmməd ibn Əbdul Kərim Şəhristani ۵۴۸ h.q“ .۱۲

İctihad” Doktor Musəvi Əfqani“ .۱۳

Əl-imam Məhəmməd ibn İdris Şafei” ۲۰۴ h.q“ .۱۴

Əl-İmam Malik” Əbu Zöhrə“ .۱۵

Əl-imamuş-Şafei” Əbu Zöhrə“ .۱۶

Əl-fətaval-hədisə” İbn Həcər Məkki ۹۷۳ h.q“ .۱۷

Əl-bidayətu vən-nəhayə” Məhəmməd ibn Zəhəbi Dəməşqi Şafei ۷۶۸ h.q“ .۱۸

Əl-kuni vəl əlqab” Muhəqqiq mərhum Şeyx Abbasi Qumi ۱۳۵۹ h.q“ .۱۹

səh:۶۰۷

Haqqında mərkəzi

Allahın adı ilə

Rəhman və Rəhimli olan Allahın adı ilə.Və bütün həmdlər aləmlərin rəbbi olan Allaha .məxsusdur

.Varlıq aləminin Kövsəri olan Həzrəti Fatiməyi Zəhraya (a) təqdim olunur

(Bilən kimsələrlə (alimlər) bilməyənlər (cahillər) eynidirlərmi? (Zümər surəsi, ayə ۹

:Ön söz

İsfahan Qaimiyyə kompüter araşdırmalar müəssisəsi ۲۰۰۶-cı ildən Mərhum Ayətullah Seyyid Həsən Fəqih İmaminin nəzarəti altında,elmi mərkəzlərdə tanınan görkəmli tələbələrin vasitəsi ilə məzhəb,mədəniyyət və elmi sahələrdə öz fəaliyyətinə .başlamışdır

:Məramnamə

İsfahan Qaimiyyə kompüter araşdırmalar müəssisəsi təhqiqatçıların dini biliklərə rahət və tez bir zamanda yiyələnmələri üçün hər bir xidməti onların ixtiyarında qərar vermişdir.Və bu sahədə təəssübkeşlikdən,ictimai,siyasi,fərdi cəryanlardan uzaq duraraq yalnız və yalnız elmi sahədə ixlasla öz xidmətini həyata keçirməkdədir.Bu səbəbdən adı çəkilən müəssisə layihəsini həyata keçirmiş.Və tədqiqat üçün nəzərdə tutulmuş kitabları,məqalələri mütəxəssislər və müxtəlif təbəqələrdən olan insanlar üçün,bir neçə dillərdə və formalarda hazırlayaraq,heç bir məbləğ tələb etmədən sosial .medyada istifadəçilərin ixtiyarında qoymuşdur

:Hədəflər

Quran və Əhli beyt mədəniyyətini və maarifini yaymaq.۱

İnsanları,xüsusən gəncləri tam dəqiq şəkildə dini məsələləri araşdırmağa.۲ sövqləndirmək

Telefon,tablet və kompüterlərdə olan faydasız,yararsız mövzuların yerini .۳ faydalı,mənəviyyatlı mövzularla doldurmaq

.Təhqiqatla məşğul olan tələbələrə xidmət etmək.۴

.Kitab və elmi əsərlər oxumaq mədəniyyətini yaymaq.۵

.Müəlliflərin öz elmi əsərlərini digital formada yaymaq üçün onlara şərait yaratmaq.۶

:İcraçılıq

.Qanunla icazəli olan lisenziyaya malik əsərlərin yayımı.۱

.Bu mərkəz kimi xidmət göstərən oxşar mərkəzlərlə əlaqə.٢
.(Paralel xidmətlərdən çəkinmək (başqalarının etdiklərini təkrarlamamaq.٣
.Yalnız və yalnız elmi məsələləri yaymaq.۴
.Nəşriyyatın mənbələrini qeyd etmək.۵
.Qeyd:Kitabda olanlara görə məsüliyyət o kitabı yazan müəllifin öhdəsindədir
:Müəssisənin fəaliyyəti
.Kitabların çapı və nəşri.١
.Kitab oxumaq müsabiqələrinin təşkili.٢
.Məcazi sərgilərin istehsalı.٣
.Kompüter oyunlarının istehsalı.۴
Qaimiyyə internet saytının yaradılması:www.ghaemiyeh.com.۵
.Sərgi məhsullarının və moizələrin istehsalı.۶
.Şər'i,əxlaqi və etiqadi suallara cavab.٧
.Mühasibat,mətbuat yaratmaq və sms... sistemlərinin layihəsi.٨
.Təlim kurslarının həyata keçirilməsi.٩
Tərbiyəçi şəxslər hazırlamaq üçün təlim kurslarının təşkili.١٠
Kompüterdə,tabletdə və telefonlarda icrası mümkün olan minlərlə proqramların.١١ dünyada məşhur olan səkkiz formada istehsalı
JAVA.١
ANDROID.٢
EPUB.٣
CHM.۴
PDF.۵
HTML.۶
CHM.٧
GHB.٨
.v.Qaimiyyə kitab bazarı adına dörd market
ANDROID.١
IOS.٢
WINDOWS PHONE.٣
WINDOWS.۴
deyilənlər müəssisənin veb saytında Fars,Ərəb,İngilis və Azərbaycan dillərində pulsuz

.istifadəyə verilmişdir

:Sonunda

Mərcəi təqlid müctəhidlərin dəftərxanalarından (ofis),müəssisələrdən,nəşriyyatçılardan,müəlliflərdən və əməyi olan bütün şəxsiyyətlərdən bizlərə hədəfə çatmaqdan ötrü yardım etdikləri üçün səmimi qəlbdən .təşəkkür edirik

:Mərkəzin ünvanı

İsfahan-Əbdurrəzzaq küçəsi-Hacı Muhəmməd Cəfər adına bazar-Şəhid Muhəmməd Həsən Təvəkküli küçəsi-blok۱۲۹/۳۴-birinci mərtəbə

veb sayt:www.ghbook.ir

mail:Info@ghbook.ir

mərkəzin ofis telefonu: ۰۰۹۸۳۱۳۴۴۹۰۱۲۵

Tehran ofisi: ۰۰۹۸۲۱۸۸۳۱۸۷۲۲

Biznes və alqı satqı: ۰۰۹۸۹۱۳۲۰۰۰۱۰۹

Mərkəzdə çalışan insanlarla əlaqə yaratmaq üçün nəzərdə tutulan nömrə: ۰۰۹۸۹۱۳۲۰۰۰۱۰۹


İsfəhan Qaimiyyə kompüter
araşdırmalar mərkəzi
Qaimiyyə
www
Başqa kitabxanaya sahiblənmək üçün
gördüyünüz sayt mərkəzinə müraciət
etməniz lazımdı:
www.Ghaemiyeh.com
www.Ghaemiyeh.net
www.Ghaemiyeh.org
www.Ghaemiyeh.ir
Və sifariş üçün bizimlə əlaqə saxlayın:
(0098) 0913 2000 109